Güllü Məmmədova

# Oğurlanmış Zəngəzur



Güllü Məmmədova

# OĞURLANMIŞ ZƏNGƏZUR

Bakı–2024

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 131830

**Güllü Məmmədova**

# OĞURLANMIŞ ZƏNGƏZUR

Bakı–2021

Güllü Məmmədova **“Oğurlanmış Zəngəzur”.**

"Oğurlanmış Zəngəzur" tarixi-sənədli romanı 1918–20-ci illərdə Zəngəzurda və Qarabağda ermənilərin törətdiyi qanlı hadisələrdən, apardıqları dəhşətli, qandonduran soyqırımlardan bəhs edir. Bu torpaqlara ordusu ilə işğalçılıq müharibəsinə gələn Andronik Ozanyan, Karo Hambarsumyan, Nijde Karegin, Dro Kanayan, Manuk və başqaları el qəhrəmanı Sultan bəy və Xosrov bəy qardaşları, onların başçılıq etdiyi özünümüdafiə dəstələrinin şücaəti sayəsində məğlub olurlar.

Romanda Qarabağa gələn türk əsgərləri, onların komandanı, yarbay Cəmil Cahid bəy haqqında da danışılır. Tarixi şəxsiyyətlər – daşnaklarla mübarizədə misilsiz xidmətləri olan Çingiz İldırımın fəaliyyəti haqqında söhbət açılır. 1920-ci ildə Qarabağı erməni işğalından qorumaq üçün əsgərləri ilə bu savaşda iştirak edən general Həbib bəy Səlimovun igidliyi, vətənpərvərliyi haqqında geniş məlumat verilir.

Azərbaycan Xalq Cumhuriyyəti dövründə özünümüdafiə dəstələri Zəngəzur və Qarabağı qorudu. Lakin sovet hakimiyyəti dövründə Zəngəzur mahalı Ermənistana verildi. Romanda bunun səbəbi tarixi faktlarla açıqlanır.

(Bu kitab çapa hazırlanarkən nəhayət ki, Qarabağ uğrunda yüz illik savaş bitdi. Azərbaycan 44 gün ərzində otuz il işğalda qalmış torpaqlarını azad etdi və Şuşada Azərbaycan bayrağı dalğalandı. Əhsən Ali Baş komandana və Azərbaycan ordusuna. Növbə Zəngəzurundu).

ISBN 978 9952 542 23 3

© G. Məmmədova, 2021

*Xalqımıza qarşı ədalətsizlik edilmişdir. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermişlər. Ermənistan tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Ona görə bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı qərəz əsas rol oynamışdır. Bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünür. Bu ədalətsizlikdir, bu sağalmayan yaradır.*

*Ancaq mən tam əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq.*

**Heydər ƏLİYEV**,
*Ümummilli lider*

*Zəngəzur mahalının Ermənistana verilməsi böyük ədalətsizlik idi. Doğma torpağımızın bir parçası Ermənistana birləşdirildi. Bunun çox böyük mənfi nəticəsi oldu. Bu bütün türk dünyasını parçaladı.*

**İlham ƏLİYEV**,
*Azərbaycan Respublikasının Prezidenti*

## GÜNÜMÜZÜN GÖZƏL YAZARI GÜLLÜ XANIM MƏMMƏDOVANIN "OĞURLANMIŞ ZƏNGƏZUR" ROMANINA QISA ŞƏRH

Son üç əsrə yaxın bir müddətdə Azərbaycan türkünün özünə, onun torpaqlarına, dövlətçiliyinə qarşı çox böyük, çox ağır zərbələr vurulmuşdur. Zərbələri vuran və ona dəstək olan dövlət və dövlətlər də olmuşdur. Onun mərkəzində rus xristian dövlətləri, digər xristian dövlətləri, onların əlində erməni başçıları və hətta bu sırada müsəlman dövlətləri də olmuşdur. Bilməliyik ki, üç yüz illik bu siyasət bu günümüzdə də eyni ilə qalmaqdadır. Ancaq bizim mövzumuz XX əsrin əvvəllərində Qərbi Azərbaycanda, daha doğrusu, İrəvan xanlığının ərazisində ermənilər üçün yaradılmış "dövlətin" Şimali Azərbaycan dövlətinə qarşı apardığı işğal, soyqırım məsələlərinin bir məqamına həsr edilmişdir. Bu Azərbaycanın Zəngəzur bölgəsidir. Zəngəzurun işğalı, orda aparılmış soyqırıma həsr edilmiş "Oğurlanmış Zəngəzur" tarixi romanıdır, müəllifi isə hörmətli yazarımız Güllü xanım Məmmədovadır.

İlk fikrimi onunla bildirməliyəm ki, əgər yazılış üslubu elmi yazılış üslubunda olsa idi, əsər birmənalı olaraq elmi əsər ola bilərdi. Əvvəlcədən deyim ki, roman əsasən tarixi elmi məlumatlara əsaslanır, əsərə çox həssas yanaşılıb və verilən hər bir məlumat real faktlara söykənir. Əsərdə xeyli sayda erməni-haylar barəsində ayrı-ayrı tarixi şəxsiyyətlərin-yazıçıların, alimlərin fikrinə də istinad edilir və bununla müəllif özünün doğru – düzgün fikirlərini daha da gücləndirir. Yəni, erməni ünvanına deyilən fikirlər təkcə bir şəxsin fikri olmayıb, dünya ziyalılarının, tarixçilərinin, araşdırıcılarının bir-birindən xəbərsiz söylədikləri tarixi həqiqətlərdir. Müəllifin gürcü yazıçısı Serqi Saçaqdan gətirdiyi nümunə belədir: "Ermənilər şir deyil, güclü dövlətlərə qulluq göstərən çaqqallardır". Gürcü yazıçısının fikirlərinə şərh verməyə ehtiyac yoxdur. Çünki bu həqiqətləri

Azərbaycan əhli yaşamışdır.

Əsərdə diqqət çəkən məqamlardan biri də Güllü xanımın Zəngəzurda, ümumən Qarabağda, onun Şuşa bölgəsində, Ağdamda, Əsgəranda ermənilərlə savaşda döyüşçülərimizə rəhbərlik etmiş zabitlərimiz, onların vətənsevərliyi, çəkdikləri əziyyətin tam, mükəmməl verilməsidir.

XX əsrin əvvəllərində baş vermiş rus inqilabı, inqilab rəhbərlərinin Azərbaycanı işğal etməsi, bu sahədə ermənilərdən istifadə və eyni zamanda ermənilərin rus inqilabçılarından istifadə edərək Azərbaycan torpaqlarında özlərinə dövlət qurmaları və hər fürsət düşəndə rusların yardımı ilə Azərbaycandan yeni-yeni torpaq sahələri qoparmaq, dogma torpaqlarından azərbaycanlıları sıxışdırıb çıxarmaq, qəddarcasına soyqırım aparmaq məsələləri dəyərli səviyyədə qələmə alınıb.

Müəllif romanda zəngəzurluların vətənə bağlılığı, döyüşkən ruhu, ermənilərlə ölüm-dirim savaşında onlara rəhbərlik etmiş – əslən Laçın rayonundan olan Sultan bəyin, qardaşı Qarabağın general-qubernatoru olan Xosrov bəyin vətən qarşısında fədakarlığı əsərin aparıcı xəttidir və tarixi məlumatlar səlist olaraq verilmişdir.

Romanın birinci fəsli "Çaqqalların üsyanı" adlanır. Dəyərli yazarımız burada ilk olaraq rus tarixçisi İqor Peçenevin ermənilər haqqında söylədiyi fikirlərdən nümunə gətirir. Fikir, əziz oxucularımız üçün çox dəyərli olduğundan ona biz də müraciət edək: "Bu xalq əsrlər boyu vətənsizlik dərdi çəkib. Bu çox acı nəticəyə – elmdə "Erməni xəstəliyi" adlandırılan sindromun meydana çıxmasına səbəb olub. Guya nə zamansa dövlətlərinin, dövlətçilik ənənələrinin olduğunu deyəndə də yalan danışırlar. Uydurduqları tarixi özlərindən başqa təsdiq edən yoxdur".

Müəllifin istinad etdiyi bu fikirlər çox yerinə düşür. Yazıçı əsərdə Andronikin Zəngəzurda olduğunu, onun Sultan bəy Sultanovun dəstəsi ilə yerləşdiyi məkanı öyrənməyə başladığını,

hücum planını hazırladığını çox düzgün işıqlandırır.

Laçın bölgəsinin əsrarəngiz bir guşəsi olan Qaragöl və onun ətrafı yay aylarında çox cəlbedicidir. Ermənilər ilk olaraq burada kəşfiyyat apardıqdan sonra Sultan bəyi və onun müdafiəçilərini məhv etmək, Qaragölü işğal etmək niyyətinə düşürlər. Yeri gəlmişkən, bildirim ki, Qaragöl yaylağı XVIII əsrin ortalarından Zəngəzurun sultanı, Qarabağ xanlığının baş sərkərdəsi, Dünbülü – Dünbülbəyli təmsilçisi Murtuza bəyin yay aylarında dincəldiyi məkanlardan biri olub. Tarixin müəyyən dönəmində Zəngəzurda kimliyindən asılı olmayaraq burada yaşayanlar həmin tayfanı təmsil edirdilər. Bu çox böyük türk tayfalarından biri olmaqla dünyanın bir çox yerlərinə səpələnmiş, indi də yaşayırlar. Lakin onların əksəriyyəti öz səcərələrini doğru-düzgün bilmirlər. Bu tayfanın nümayəndələri Naxçıvanın Xoylu və Dünbülü kəndlərində, laçının Araflı, Bircan, Alıqulu, Bülövlük, Kəlbəcərin və Zəngəzurun bölgələrində yaşamışlar.

Ermənilər XX əsrin əvvəllərində Zəngəzurda 157 kəndi yandırıb əhalisini soyqırımdan keçirsələr də Sultan bəyin, onun qardaşı Xosrov bəyin, Aslan bəy Sultanovun qəhrəmanlığı sayəsində bu mahala sahib ola bilmədilər. Eləcə də Qaragöl yaylağını işğal etmək niyyəti gözlərində qaldı.

Tarixi sənədli romanın ikinci fəsli “Dağların sultanı Sultan bəy” adlanır. Hörmətli yazarımız Güllü Məmmədova burada da fəslə münasib olan böyük sərkərdə Napaleonun bir fikrini xatırladır: “Türkü öldürmək olar, ancaq onu məğlub etmək olmaz”. Haqqımızda görün Napaleon kimi bir şəxsiyyət nə deyib, türkü göylərə qaldırıb. Güllü xanım da təbii ki, bu fikri laçınlı Sultan bəyə aid edib və deyir: “Bu savaş ölkələrin savaşı deyildi…Bu savaş cəngavərlərin də savaşı deyildi…Bu savaş xeyirlə-şərin, mərdlə-namərdin, haqlı ilə haqsızın savaşıydı…”.

Bu doğrudan da beləydi. Andronik başqa-başqa dövlətlərin köməyindən, silah-sursatından istifadə edərək özünün və dəstəsinin xəstə təxəyyülündən irəli gələn savaşa girmişdi. Sultan

bəy isə öz vətənpərvər, igid müdafiəçiləri ilə, silahsız, günahsız insanları və onların dogma torpaqlarını müdafiə edirdi. Ona Çal Aslan, Bülövlük bəylərindən olan Seyid Həmid, Ağamməd, Kişi Tavat, Aslan bəy Sultanov, Əvil bəy, Ədil bəy, Cəlil bəy və başqaları kömək edirdi.

Güllü xanım bu fəsildə Zəngəzurla bağlı xeyli tarixi məqamlardan, 1 Pyotrdan, Əmir Teymurdan, 1 Nikolaydan, 1828-ci il Rus–İran müharibəsindən danışmış, tarixi gerçəkləri bir daha xatırlatmışdır.

Yazıçı əsərinin üçüncü fəslini "Qaragöldən başlanan zəfər" adlandırıb və strateji əhəmiyyətli bu yaylağın erməni işğalına düşməməsi üçün Sultan bəyin apardığı mübarizədən, onun silahdaşlarından söhbət açıb. Müəllif mövzuya uyğun olaraq ruslarla uzun illər mübarizə aparmış Şeyx Şamilin fikirlərini sitat gətirib: "Əgər torpağınız kafir ayaqları altındadırsa etdiyiniz ibadətin mənası yoxdur. Öncə kafiri qovacaqsınız, sonra ibadət edəcəksiniz! Onu deyim ki, Şeyx Şamil bir milli qəhrəman olmaqla bərabər həm də islam müdafiəçisi olub. Yeri gəlmişkən, bir məqamı da qeyd edim ki, mənim ulu babam, hansı ki, mən onun nəticəsiyəm, Cəbrayıl bəy Nəbibbəyli Zəngəzurun sultanı, Qarabağ xanlığının baş sərkərdəsi olmuş, İraqda islam dini tarixini öyrənməyə 16 il vaxt sərf etmiş, sonralar Odessa Tibb Universitetində təhsil almışdır. Mükəmməl savada, zəngin biliyə malik olan Cəbrayıl babam Şeyx Şamilin oğlu Cəlil bəyin, vasitəsi ilə onunla tanış olmuş, Azərbaycanda yeganə şəxs olaraq onunla görüşmüş və xeyli yardımlar etmişdir.

Əsərdə maraqlı məqamlardan biri də odur ki, Karo Hambarsumyan Sultan bəyi aradan götürmək üçün anası erməni olan Kareni Kərəm adı ilə yaylağa göndərir. Karen yaylaqda fermada çalışan və bir vaxt onlarla qonşu olmuş Humaya sevgisini bildirir, onun etimadını qazanmaqla Sultan bəyin yanına yol tapmağa çalışır. Onu deyim ki, ümumiyyətlə, əsərdə müəllif Zəngəzur qızlarının da igidliyi, mərdliyi barədə söz açır, bu

igidliyi təsdiqləyən hadisələri qələmə alır. Humay da onlardan biridir. Karenin erməni olduğunu hətta öz nişanlısından gizlətsə də alçaq niyyətli daşnakın cəzasını özü verir.

Ermənilər çox böyük iştahla Zəngəzur yaylaqlarını, o cümlədən, Qaragöl yaylağını ələ keçirmək istəyirlər. Strateji məkan olan Qaragöl Gorusla Ermənistanın (Qərbi Azərbaycanın) sərhəddindədir. Buradan bütün Zəngəzuru, Naxçıvanı, Qarabağın ətrafını görmək olur və bu yerləri yüksəklikdən asanlıqla işğal etmək mümkündür. Buna görə də ermənilər nəyin bahasına olursa olsun onu işğal etmək istəyirlər. Amma Sultan bəy və onun silahdaşları ermənilərə böyük tələfat verərək onları məğlubiyyətə uğradırlar. Güllü xanım demişkən “Axşam Sultan bəyin müdafiəçiləri Qaragöldən bir cəngavər hünəri ilə geri qayıtdılar”.

Elmi-tarixi mənbələrə söykənən bu əsərin dördüncü fəsli “Lənətlənmiş quldurbaşı” adı altında ərsəyə gətirilmişdir. Başqa fəsillərdə olduğu kimi burada da ermənilərin əsrlər boyu aldıqları “tərif” önə çıxarılmışdır. Bu “tərif” məşhur hüquqşünas A. Frenkelinindir. Sitatda deyilir: “Hərislik, intriqalar, satqınlıq, andpozma, yaltaqlıq bu qəbilənin əsas milli xüsusiyyətlərindən biridir. Bu vətəndaşların – ermənilərin qürurla adını çəkə biləcəyi vətən yoxdur. Yalniz 1300 il qul kimi yaşaması və hamı tərəfindən parazit kimi lənətlənməsi haqda acı etiraf var”.

Tarixin yaddaşında müsbət mənada adı və izi qalan bütün şəxsiyyətlər ermənilər haqqında öz fikirlərini demişlər. Bu fikirləri mən özüm də toplamaqdayam. Ömür imkan versə kitab halına salmaq fikrim də var.

Ermənilərdən Azərbaycan qədər əziyyət çəkən ikinci bir dövlət yoxdur. Düzdür, onlar hansı dövlətin, millətin torpağında yaşayıblarsa, onların kürəyinə xəncər saplamaqdan çəkinməyiblər, utanmayıblar. Ancaq bir daha qeyd edirəm ki, haylardan Azərbaycan qədər alçaqlıq görən, əziyyət çəkən ikinci bir məmləkət yoxdur.

Andronik bütün erməniləri Sultan bəyə qarşı döyüşlərə qal-

dırmaq üçün mayor Vahrama göstəriş verir və "…biz Sisyanı işğal edib, Laçına doğru irəliləməliyik" deyir. O, Qaragöl döyüşündə Sultan bəyin Karo Hambarsumyana necə qalib gəldiyini artıq yaxşı bilirdi.

Romanda müəllif oxucunu Andronikin tərcümeyi-halı ilə tanış edir, daşnak ruhda böyüyən bu cəllad tez-tez atası Tarası xatırlayır. Andronik eyni zamanda 1880-ci ildə həyatında ən ağır, utanverici bir hadisəni də heç vaxt unutmur. Bu hadisə də onunla bağlıydı ki, satqınlıq üstündə türklər Andronikin bir qulağını kəsərək ona ömürlük satqınlıq damğasını vururlar.

"Zabıxda yazılan qəhrəmanlıq dastanı" adlanan fəsildə müəllif əli qanlı generalın Zəngəzurda törətdiyi soyqırımlar haqqında geniş məlumat verir. Andronik Qarabağa adlamaq və oradakı erməni dəstələri ilə birləşmək, bu gözəl mahalı işğal etmək niyyətindədir. Bunun üçün Andronik qızıl təklif etməklə Sultan bəyi ələ almaq, onun köməyi ilə Abdallardan keçib Şuşaya girmək istəyir. Sultan bəy və Xosrov bəy erməni generalın bu ağılsız təklifini qəbul edir və beləliklə, tarixdə bir qəhrəmanlıq simvolu kimi qalmış Zabıx savaşında düşmənin on minlik ordusu məhv olur.

Bu fəsildə Andronikin silahdaşları – Azərbaycan xalqının qəddar düşmənləri olan Nijde Karyagin və Dro Kanayanın yetərincə silah-sursatları, canlı qüvvələri var idi. Onların birləşmiş qüvvələri Sultan bəy Sultanova qarşı vuruşmaq, onu məhv etməklə Zəngəzuru, onun ardınca Şuşanı, Əsgəranı, bütövlükdə Qarabağı ələ keçirmək niyyətində idilər. Ancaq Andronikin hərbi sursatı daha çox idi. 1917-ci ildə Rusiyada bolşeviklər üsyan edib Romanovların hakimiyyətinə son qoydu, çar Nikolayı taxtdan saldılar və Rusiyada baş vermiş bu qarışıqlıqdan Andronik istifadə etdi, külli miqdarda silah-sursat əldə etməklə Azərbaycana üz tutdu, "Böyük Ermənistan" yaratmaq niyyəti ilə Zəngəzurda soyqırım törətdi, hər şeyi, o cümlədən 157 kəndi məhv etdi. Onlar elə təbliğat aparırdılar ki, guya bütün Zən-

gəzur qədim erməni torpağıdır. Gorusda yaşayan Sumbat adlı bir erməni Sultan bəy, onun dəstəsi haqqında Androniki məlumatlandırırdı. Hətta dünən birlikdə çörək kəsdikləri müsəlman dostlarını Andronikin quldurlarının şiddətinə məruz qoyurdu.

Hər iki tərəfdə döyüşə hazırlıq gedirdi. Hər iki tərəf öz qüvvələrini daha da gücləndirməkdə idilər və bir-birlərinin hərbi sirlərini öyrənməkdə idilər. Qaragöl məğlubiyyətini isə ermənilər heç cürə həzm edə bilmirdilər. Buna görə də Andronik bu döyüşdə rüsvaycasına məğlub olmuş Karo Hambarsumyanla barışa bilmirdi. Qəzəblənmiş Karo Yerevan Erməni Milli Şurasına Andronikdən şikayət məktubu göndərdi, onun haqqında ölçü götürülməsini bildirdi. Bu hadisə 1918-ci ilin iyun ayına təsadüf edirdi.

Bir haşiyə olaraq bildirim ki, 1905–1907-ci və ondan sonrakı illərdə ermənilərlə savaşda yerli bəylərin də əməyi çox olmuşdur. Onlardan biri də Şahsuvar bəydir. Müəllif çox doğru olaraq Şahsuvar bəyin ermənilərlə döyüşündən, onun göstərdiyi igidliyi və qəhrəmanlığı real faktlarla təsvir edir. Şahsuvar bəyin nəvəsi – alim və şair Qasım Qasımzadə ilə Azərbaycan Elmlər Akademiyasında birlikdə işləmişik, yaxın olmuşuq və onun babası Şahsuvar bəy və anası Arəstə xanımın həyatından, yaşadıqları ağır, çətin günlərin bir çox məqamlarından xəbərdaram. Bu insanların hər üçü bizim üçün çox dəyərlidir.

Digər bir tarixi şəxsiyyət olan Aslan bəy Sultanov da Zəngəzur torpaqları uğrunda özünü fəda edən bəylərimizdəndir. O, 1918-20-ci illərdə həm vəzifə sahibi olmuş, həm də ermənilərlə savaşda müstəsna bir igidlik göstərmişdir.

Aslan bəy bu illərdə Qarabağın və Zəngəzurun fövqəladə komissarı idi. Ziyalı adam idi. Onun mərkəzə müraciəti rusca yazılmış və həm də çox savadlı yazılmışdır. Mərkəzdən biganəlik görən və Azərbaycan hokumətindən heç bir silah-sursat ala bilməyən Aslan bəy öz hesabına, qohumlarının köməyi ilə müdafiəçiləri silahlandırmış, ermənilərə qarşı döyüşmüşdür.

"Oğurlanmış Zəngəzur" romanında Güllü xanım Aslan bəy Sultanovun fəaliyyətini real hadisələr əsasında təsvir etmiş, tarixdə adı və izi qalmış bu el qəhrəmanının mükəmməl obrazını yaratmışdır. Aslan bəyin əmisi Həsən bəy də dövrünün sayılan-seçilən ziyalılarından biri olmuşdur. O, Hacı Zeynalabdın Tağıyevdən sonra ikinci şəxsdir ki, öz hesabına Zəngəzurda rusdilli məktəb açmışdır.

Aslan bəy Sultanov türk dünyasının ən böyük və seçilib-sayılan Dünbülü – Dünbülbəyli türk tayfasındandır və mahir bir atıcı kimi məşhur olmuşdur. Böyük bir ordu ilə Qarabağa keçmək istəyən general Manuku sərrast güllə ilə alnından vurub, müharibə başlamamışdan ordunu başsız qoymuş, bununla da ermənilərin Zabıxda məğlubiyyətinə yol açmışdır.

…Sultan bəy Xosrov bəydən şad xəbər alır: Qafqaz İslam Ordusu artıq Azərbaycandadır. Dörd aylıq ağır döyüşlərdən sonra türk ordusu Bakını azad edir. Qarabağda isə savaşdır. Ermənilər bu qədim mahalı işğal etmək niyyətindədir. Nuri paşa əsgərlərini Qarabağa göndərir. Romanın beşinci fəsli də belə adlanır: "Nuri paşanın əsgərləri Qarabağda". Müəllif Mustafa Kamal Atatürkün bu sözlərini sitat gətirir: "…Bizim dili bir, inancı bir kardeşlərimiz vardır. Onlara sahib çıxmağa hazır olmalıyız. Hazır olmak isə o günü susub beklemek deyildir".

1918-ci ilin payızında Qarabağda ermənilər daha da quduzlaşaraq Zəngəzuru və bu gözəl mahalı işğal etmək üçün bütün qüvvələrini səfərbər etmişdilər. Yarbay İsmayıl Həqqi bəy Bakıya yazırdı: "…Qarabağda təşkil edilən türk milis dəstələri ilə erməni Andronikin dəstəsinə müqavimət göstərmək mümkün deyil. Qarabağda türklərin mənəviyyatını yüksəltmək və ermənilərə göz dağı vermək üçün kiçik də olsa, bir hərbi birləşmənin Ağdama göndərilməsi vacibdir…"

Ermənilərə yardım edənlər çox idi. Fransızlar, ingilislər, xüsusən ruslar. Bolşeviklər qalib gəlib bərabərlik elan etsələr də əsil həqiqətlər keçmişdə olduğu kimi qalırdı. Gürcü Serqo

Orconikidze 1918-ci il 12 oktyabr tarixdə ürək ağrısı ilə Leninə yazmışdı: "Ermənilər böyük bir faciə içindədirlər. Türklər Qarabağ, Zəngəzur ərazilərini işğal ediblər. Androniki öldürüblər. Erməni xalqı Sovet Rusiyasından kömək gözləməkdədir". Əslində isə əzilən, qətlə yetirilən, evləri yandırılıb xarabalıqlara çevrilən azərbaycanlılar idi.

Çox böyük cəfakeşlik etmiş hörmətli Güllü xanım bütün baş vermiş hadisələri olduğu kimi təsvir etmiş, Zəngəzurun, Qarabağın o vaxtkı ürəkdağlayan mənzərəsini ustalıqla vermişdir. Romanın altıncı fəsli "Zabıxda yazılan qəhrəmanlıq dastanı" adlanır. Bu fəslə giriş olaraq müəllif rus diplomatı A.S.Qriboyedovun ermənilər haqqındakı fikrini nümunə gətirmişdir. Diplomat rus çarına məktubunda yazmışdı: "Zati-aliləri, erməni əhalisinin rus torpaqlarında məskunlaşmasına icazə verməyin. Ermənilər elə zatıqırıqdılar ki, bir neçə il rus ərazisində yaşadıqdan sonra dünyaya car çəkəcəklər ki, bu torpaqlar guya ki, onların babalarınındır".

Qriboyedovun öz kitabında bu fikirlə yanaşı, Azərbaycan həqiqətlərini əks etdirən nümunələr çoxdur. Ədalətli insan milliyətindən asılı olmayaraq bu xüsusiyyətlərinə görə tarixlər boyu unudulmayacaq. Onlardan biri də Qriboyedovdur.

Roman bütövlükdə xalq qəhrəmanı Sultan bəyin daşnaklarla mübarizəsinə, həmin dövrdə Azərbaycanda gedən proseslərə və bu proseslərin qəhrəmanlarına həsr olunmuşdur. Güllü xanım çox ağır və şərəfli bir işi öz üzərinə götürmüş və bir yazıçı kimi bu işin öhdəsindən layiqincə gəlmişdir. Romanın yeddinci fəsli Qarabağda gedən döyüşlərə, onun müdafiəsinə həsr olunub. Müəllif bu fəsildə od içində olan Qarabağın ağrılı-acılı və şərəfli mübarizə tarixini oxuculara çatdırmağı qarşısına məqsəd qoymuşdur. Yazıçı amerikalı alim Manuel Vimsin ermənilər haqqında dediyi fikirləri sitat gətirmişdir: "Ermənilər öz cinayətkar əməlləri ilə heç də alman nasist tərəfdaşlarından geri qalmırdılar… Şükür etmək lazımdır ki, ermənilərin sayı 2 milyon-

dan çox deyil. Onların ərazisi və əhalisi Almaniyanın ərazisinə və əhalisinə bərabər olsaydı, onda bütün dünya məhvolma təhlükəsi qarşısında qalardı".

Samuelin fikri doğrudur. Çünki o, ermənilərin kimliyini yaxşı bilir. Onlar xəstə təxəyyüllüdürlər. Bütün bu fikirləri toplayıb, fikir söyləməyi bacaran Güllü xanımı yazıçı olmaqla bərabər həm də araşdırmaçı-tarixçi hesab etmək olar. Güllü xanım, mən deyərdim ki, romançılıqdan çox, tarixi məqamları diqqətlə öyrənmiş, araşdırmış və hər bir tarixi hadisəyə həssaslıqla yanaşmışdır.

Yeri gəlmişkən, tariximiz, bu günümüz və gələcəyimiz üçün çox diqqətlə saxlanılası vacib olan bir neçə məsələni xatırladım: Osmanlı imperiyasının çökməsi üçün ingilislər, ruslar, fransızlar, amerikalılar başqa xristian dövlətlərindən çox canfəşanlıq etmişlər. Öz orduları ilə bərabər erməniləri də silahlandıraraq müharibəyə cəlb etmişlər, onlara vədlər vermişlər. Məqsəd Osmanlını məhv etməklə öz hegemonluqlarını, Osmanlı ilə digər türk dövlətləri arasına ermənilərdən istifadə edərək iğtişaş salmaq məqsədi güdmüşlər. Güllü xanım da bu reallıqların bəzi nümunələrini öz əsərində dilə gətirmişdir. Türkiyəni çökdürmək üçün İngiltərə hələ 1855-ci uldə Fransa və Rusiya ilə birlikdə İstanbula bir memorandium göndərir və tələb edir ki, Türkiyə Ərzurumu, Bitlisi, Sivası, Diyarbəkiri, Harputu ermənilərə güzəştə getsin. Eyni zamanda ingilislər başqa yollara da əl atmış, Androniki silahlandıraraq Zəngəzura göndərmiş, daşnakların silahlanması üçün 20 milyon sterlinq pul ayıraraq silah almış, həmin silahı Tehrandan Bakıya göndərmişlər. İngilis rəhbərliyi deyirdi: "Ermənilərə hər vəziyyətdə işğal etdikləri bölgələrdə pul, silah və sursat tədarükü ingilis siyasətinin maraqları daxilindədir. Bu təcrübənin uğurlu olması nəticəsində türklərin diz çökməsi üçün faydalanmaq olar." İngilis siyasətçisi Lord Kerzan bu fikri daha açıq şəkildə ifadə etmişdir: "Türkiyə ilə türk xalqları arasında tampon bir dövlətin yaradıl-

ması qaçılmazdır. Problemin ortadan qalxması üçün yeni "erməni dövləti" təzahüründə xristian bir topluluğun meydana gətirilməsi vacibdir".

Bütün bunları yaxşı bilən Qarabağın general-qubernatoru Xosrov bəy təəssüflə deyirdi: "Yazıq millətim, bədbəxt yurdum. Bu vəhşiləşmiş canavarların içində tək-tənhasan. Bir köməyin, havadarın yox… Amma şükürlər olsun ki, Tanrı bu yurda mərd, cəsur oğullar bəxş edib…"

Stalin də Gürcüstanı qorumaq üçün Şaumyanı Azərbaycana yönəldir. O, Şaumyana yazırdı: "…Sizin uğurlarınız bizi sevindirir. Ancaq biz istərdik ki, siz almanlarla münasibətlərin mürəkkəbləşməsinə yol verməmək üçün Gəncədən o tərəfə keçməyəsiniz. Daha doğrusu, mustəqilliyi Almaniya tərəfindən tanınmış Gürcüstanın hüdudlarına daxil olmayasınız".

Bu misallardan göründüyü kimi, Güllü xanım tarixi mövcudluqlara söykənərək, Azərbaycan oxucusuna çox dəyərli bir əsər təqdim edir. Dəyərlidir, bəyənilləndir, uzunömürlü olacağına şübhə yoxdur.

…Xosrov bəyin Qarabağa gəlişi zamanı bu bölgənin vəziyyəti çox dəhşətli idi. Ermənilər bölgənin müsəlman əhalisinə zülm və işgəncə verirdi. Şuşada erməni milli şurasının sədri Levon Vartepyan və onun müavini Məlik Şahnəzərov erməniləri gizlicə silahlandırırdı. Müsəlmanlar isə əliyalın idilər, xarici havadarları yox idi. Lakin onun qeyrətli oğulları vardı. Onlardan biri də Çingiz İldırım idi. Çingiz bəy general – qubernator Xosrov bəyin müavini, eyni zamanda əmisi oğlu idi. Ermənilərə qarşı mübarizədə, Qarabağın və onun göz bəbəyi olan Şuşanın müdafiəsində Çingiz İldırımın müstəsna xidmətləri olmuşdur. Güllü xanım əsərdə bu barədə geniş danışır və Çingiz İldırımın qaranlıq səhifələrdə qalmış, bəlkə də kimsəyə bəlli olmayan fədakarlığını, igidliyini dilə gətirir, onu oxucusuna tanıdır.

Hörmətli yazarımız romanda bir məsələni də çox düzgün

işıqlandırır. Bu da ermənilərin qeyrət-namus məsələsidir. Bildirim ki, erməni toplumunda namus-qeyrət məfhumu mövcud olmayıb, indi də yoxdur. Romanda belə bir məqam var ki, Xosrov bəy Şuşada general-qubernator kimi fəaliyyətə başlayanda ermənilər onunla bacarmırlar və yanına özlərinin seçilən qadınlarını göndərirlər ki, Xosrov bəyi ələ alsınlar, ondan ermənilərin xeyrinə istifadə etsinlər. Bu mümkün olmadıqda ermənilər mərkəzi Azərbaycan hakimiyyətinə erməni qadınlarının adından şikayət məktubları göndərirlər və yazırlar ki, guya Xosrov bəy 70 nəfər erməni qadını ilə görüşür. Gülməlidir …Ermənilər tarixən qadınları da siyasətə qarışdırmış və onlardan çirkin məqsədlər üçün istifadə etmişlər. Onlar üçün fərqi yoxdur -lazımdırsa anasını, bacısını, arvadını, qızını bu yola təhrik edirlər.

…Həmin dövrdə Azərbaycan basqı altında idi. Ruslar Polşa ilə müharibə apardıqlarından yanacağa böyük ehtiyacları vardı. Neft isə Bakıdan başqa heç bir yerdə çıxarılmırdı. Odur ki, Lenin, Stalin, Orconikidze, Mikoyan bütün qüvvələrini toplayaraq Bakını ələ keçirmək istəyirdilər və buna da nail oldular. Lakin Xosrov bəy və Sultan bəyin Zəngəzur və Qarabağı qorumaq cəhdləri, apardıqları savaş Azərbaycan tarixinin şərəfli səhifələrindən biridir və gələcək nəsillərə örnəkdir.

Dəyərli yazarımız Güllü xanım çox böyük zəhmət bahasına başa gətirdiyi tarixi romanın səkkizinci, sonuncu fəslini "Qələm düşmən əlində" adlandırıb. Bu fəslin başlanğıcında isə Qafqaz canişini Qalitsinin ermənilər haqqında dediyi sözləri oxucuların diqqətinə çatdırıb: "Türkiyə sərhəddindən Rusiya ərazisinə keçən 300 min ermənininin Araz çayı sahilində məskunlaşmasına yol vermək olmaz. Ona görə ki, ermənilər Qafqazın tarixi xalqlarını bir-birinə düşmən edəcək, onların arasında çaxnaşma salacaq… Yaxşı olar ki, ermənilər Qafqazın səhralarındakı boş torpaqlarda və ya Sibirdə yerləşdirilsinlər".

Qeyd edim ki, romanın səkkiz fəslinin hər birində gətirdiyi

sitatların müəllifləri heç də bizi istəyənlər olmayıb. Amma onlar erməni xislətini düzgün qiymətləndiriblər. Bu da onu göstərir ki, ermənilərin iç üzü bütün dünyaya, xüsusən də xristian dünyasına bəllidir.

Müəllif çox doğru olaraq bu fəsildə Serqo Orconikidzenin iç üzünü açıqlayır. Yeri gəlmişkən, qeyd edim ki, tarixən gürcülər də bizimlə dost kimi davranmamışlar. Fürsət düşən kimi bizlərə, xüsusən Gəncəyə böyük zərbələr vurmuşlar. Gəncə darvazası hələ də onların əlindədir.

…Orconikidze Leninlə, Stalinlə, Mikoyanla və digər ermənipərəstlərlə çox yaxşı ünsiyyətdə olmuş və onların tapşırıqlarını yerinə yetirməklə yanaşı Azərbycanın zərərinə hər cür bədxahlıq etmişdir. O, Mikoyanın sifarişi ilə Zəngəzurun, Naxçıvanın və Qarabağın Ermənistna verilməsi üçün canfəşanlıq göstərmişdir.

Bu fəsildə Güllü xanım Sovetlər dönəminin başlanğıcında Sultan bəy, Müseyib bəy və Mircəfər Bağırov münasibətlərindən də söhbət açmışdır. Bu münasibətlər haqqında mən ilk olaraq “Sultan bəy və Xosrov bəy qardaşları” kitabımda qələmə almışam. Bu münasibətlərdən Laçın bölgəsinin Bülövlük kəndi çox əziyyətlər çəkmişdir. Müəllif romanda münasibətləri doğru-düzgün təsvir etmiş, Sultan bəylə Müseyib bəyin yaxın olduğunu diqqətə çatdırmışdır. Mikoyan ermənilərin qisasını Sultan bəydən almaq, onu aradan götürmək istəyir. Buna görə də yaxın olduğu Mircəfər Bağırova bu barədə tapşırıq verir. Mircəfər Bağırov isə Müseyib bəyi bu qətli törətməyə vadar edir. Əslində Müseyib bəy qeyrətli bir adamdır, o, Bağırovun sifarişini yerinə yetirmək istəmir. Güllə təsadüfən Sultan bəyə dəyir və onu ağır yaralayır. Sultan bəyin dostları bunun qisasını Müseyib bəydən alırlar. Güllü xanım romanda əsil həqiqəti genişliyi ilə şərh etmişdir. Yəni bu məsələnin əsl kökündə erməni qisasçılığının olmasıdır. Sultan bəy Zəngəzurda – Zabıx dərəsində Andronikin on minlik ordusunu məhv etmişdir. Onun Qarabağın

mərkəzi Şuşaya getməsini əngəlləmişdir. Bax, məsələnin əsl mahiyyəti, Mikoyanın Sultan bəyə nifrəti buradan qaynaqlanır. Bir məqamı da oxuculara çatdırım ki, Sultan bəylə çiyin-çiyinə döyüşən, onun ən yaxın, etibarlı adamı olan Seyid Həmid Müseyib bəyin bacısı oğludur.

Müəllif "Oğurlanmış Zəngəzur" romanında bir çox tarixi faktları çox düzgün-doğru olaraq oxucuya çatdırır. Əsəri diqqətlə oxuduqca mən bunun şahidi oldum. Sonuncu bölmədə Güllü xanım İrəvan xanlığı haqqında qısa da olsa oxucuya dəyərli məlumatlar verir. Ən əsası Nəriman Nərimanov və onun dilindən çıxan kəlmələri olduğu kimi vermişdir. O, Leninin basqısı ilə "Zəngəzur və Naxçıvan qəzalarının əraziləri Sovet Ermənistanının bölünməz əraziləridir" demişdir. Nərimanov bu çıxışında həm də bildirmişdir ki, "Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddaratını təyin etmək hüququ verilir". Təssüflər olsun ki, Nərimanov bu ifadələri Leninlə söhbətində də təkrar etmişdir. Eyni zamanda Bakıda böyük bir toplantıda bu fikirləri bir daha səsləndirmiş və onun çıxışı "Bakinskiy raboçiy" qəzetində çap olunmuş, arxiv sənədlərində qalmışdır. Bu məsələ haqqında yazdığım elmi məqalə dərc edildikdən sonra oxucular təəccüb və çaşqınlıq içində mənə müraciət etdilər.

Fakt isə faktlığında qalır. Nərimanovun bu fikirləri Azərbaycana baha başa gəlmiş, özünün isə həyatına son qoymuşdur.

... Azərbaycanın dəyərli oğulları Sultan bəy və Xosrov bəy erməni bolşeviklərin və onların yardımçılarının təsiri ilə istəməsələr də Azərbaycanı tərk etdilər, qürbətdə ömürlərini başa vurdular.

Bəy nəslinin bir nümayəndəsi olaraq bolşeviklərin, rusların və ermənilərin bəy zümrələrinin başlarına açdıqları oyunları, evində, həyətində güllələnmələrini, Sibirə sürgün edilmələrinin əzabını ailəmiz də, özüm də uzun illər çəkmişik. Sultan bəy və Xosrov bəyin Türkiyədə, Avropada fəaliyyət göstərmələri haqqında xeyli məlumat vardır. Sultan bəyin ailəsi, xüsusən onun

xanımı, bəy qızı Dilruba xanım çox böyük təzyiqlərə məruz qalmış, Sibirə sürgün edilmişdir. Dilruba xanım azadlığa çıxıb Bakıya gələndə gedib bu fədakar xanımla görüşmüşəm. Sonralar isə onun haqqında məqalə yazmışam.

Yazıçı, jurnalist, araşdırmaçı, bir neçə tarixi romanlar müəllifi Güllü xanım Məmmədova bu romanı ərsəyə gətirməklə böyük bir fədakarlıq etmişdir. Əsər başdan-başa XX əsrin əvvəllərində baş vermiş tarixi hadisələri əks etdirir, xalqımızın aparıcı bayraqdarı olan oğulların doğma torpaqların müdafiəsində göstərdikləri şücaətdən bəhs edir. Buna görə də "Oğurlanmış Zəngəzur" romanı dəyərlidir, qiymətlidir, diqqətə layiqdir. Əsərdə adları çəkilən qəhrəmanların hər birinin həyatından, fəaliyyətindən böyük bir əsər yazmaq olar. Bir romanda xeyli sayda tarixi şəxsiyyətləri bir araya gətirmək hər yazara qismət olmur və onu bacarmaq heç də asan məsələ deyildir. Əsər həqiqətən çox dəyərlidir, oxunaqlıdır, çoxlu sayda tarixi hadisələrlə zəngindir. Qalır Güllü xanıma ancaq və ancaq uğurlar, uğurlar və yenə də uğurlar arzu etmək !...

**Ziyadxan NƏBİBBƏYLİ,**
*prezident mükafatçısı, Rusiya və Kanada Elmlər Akademiyasının akademiki, filologiya elmləri doktoru, professor, Qarabağ müharibəsi veteranı, AYB və AJB-nin üzvü, yazıçı-publisist.*

## BİRİNCİ FƏSİL

### "ÇAQQALLARIN ÜSYANI"

*Çaqqallar qurddan yırtıcıdır, həmişə fürsət gözləyərlər, marıqda yatarlar, xaindirlər, hər zaman hər kəsi sata bilərlər. Əllərindən yaxşılıq gəlməz. Ən yaxşı çaqqal ölü çaqqaldır.*

* * *

*Ermənilər şir deyil, güclü dövlətlərə qulluq göstərən çaqqallardır.*

**Serqi Sacaya,**
*gürcü yazıçısı*

…Ana çaqqal bütün günü ov arxasınca qaçmaqdan yorulub özünü göy otluğa atdı. Arxasınca gələn çaqqal sürüsü də aclıqdan və yorğunluqdan taqətsiz halda çəmənliyə səpələndi.

Ətrafda dinc bir sakitlik vardı. Ana çaqqal aclıqdan əsnəyib gözlərini yumdu. Amma bu anda eşitdiyi səsdən diksinib qulaqlarını şəklədi. Sonra da pəncələri üstə qalxıb oturdu, səsin hardan gəldiyini ayırd etmək istədi. Çaqqal sürüsünün rahatlığı pozuldu. İlk anda onlara elə gəldi ki, ac və yorğun olduqlarına görə Tanrı onların ovunu ayaqlarına göndərir. Amma yox, bu səslər heç də ov səsinə oxşamırdı… Ana çaqqal yerindən tullandı və sürətlə irəliyə yüyürdü. Çaqqal sürüsü də onun arxasınca.

…Təpələrin ətəyinə sanki yanğın düşmüşdü. Evlər nəhəng tonqal kimi alovlanırdı. Tükürpədici səslər də elə bil alovun içindən gəlirdi.

Ana çaqqal donub qaldı, gördüyü qorxunc mənzərədən tükləri qabardı. Çaqqal sürüsü vahimə içindəydi: əlibaltalı adamcı-

ğazlar insanları böyük-kiçik demədən tonqalların yanına sürükləyirdilər. Fəryad səslərinin çoxu da bu tonqalların içindəydi.

Ana çaqqalın göz yaşları dayanmadan axdı:

– Bunlar bizdən də yırtıcıymış, vəhşiymiş ki, – deyə uladı.

Çaqqal sürüsü aclıqlarını unutdular və geri çəkildilər.

Ana çaqqal bağırdı:

– Özünüzü xilas edin, övladlarım. Bunlar bizdən yırtıcıdır. Ələ keçsək bizə də rəhm etməyəcəklər.

Çaqqallar qaçıb getdilər. Aşağıda isə ermənilər yırtıcı çaqqal soyuqqanlılığı ilə öz işindəydi…

* * *

*Bu xalq əsrlər boyu vətənsizlik dərdi çəkib.*

*Bu çox acı nəticəyə – elmdə "erməni xəstəliyi" adlandırılan sindromun meydana çıxmasına səbəb olub. Guya nə zamansa dövlətlərinin, dövlətçilik ənənələrinin olduğunu deyəndə də yalan danışırlar. Uydurduqları tarixi özlərindən başqa təsdiq edən yoxdur.*

**İqor Peçenev,**
*rus tarixçisi*

**1.**

... Üç atlı yoxuşdan düzənliyə çıxdı.

Dağların başında günəşin saraltısı qaldı. Bu anda sanki dünyanın bir üzü işıq, bir üzü qaranlıqıydı. Çalbayır dağları elə bil bu qaranlıqla işığın düz ortasındaydı. Çalbayırın təpəsində, buludların dağların zirvəsinə toxunduğu yerdə günəş batmağa gedirdi. Buna görə zirvədə alov görünür, aşağılara qaranlığın soyuq nəfəsi çökürdü.

İrəlidə atın cilovundan tutub ətrafa diqqətlə baxan yekəpər kişi:

– Yoxuşlar bizi yordu, – dedi, – acından ürəyim gedir.

Üçü də atdan düşdü. Yekəpər kişi bəzəkli xurcunun ağzını açdı. Nimdaş, rəngi bozarmış çiti goy otluğun üstünə sərdi, şərab şüşələrini süfrəyə düzdü.

– Bizimki yaxşı soyutma ət, pendir-çörək qoyub yolumuza, – qara sifətində zəhmli ifadə olan arıq kişi iştahla əllərini bir-birinə sürtdü.

– Anam soyutma toyuq bişirib. Deyəsən şərab da var, – sifətində hələ də uşaqlığın izi qalan cavan oğlan cəld xurcunu boşaltdı.

– Karen… – yekəpər adam şərab dolu stəkanı yuxarı qaldırdı, çöllərə, dərə-təpələrə baxıb köks ötürdü, – İçimdə indi bir yanğı var, Karen.

Cavan oğlan gülümsəyib başını tərpətdi:

– Karen yox, Kərəm, Muquc əmi. Mən indi Kərəməm.

– Niyə bu yaylaqların sahibi Sultan bəy olmalıdır? Niyə biz müsəlmanları bu yerlərdən didərgin salıb ermənilərə verməyək? – Muqucu ağlamaq tutdu. Şərab stəkanı əlində titrədi. Stəkanı hirslə yerə qoyub gözünün yaşını sildi.

Vazgen əlini onun çiyninə qoyub mülayim səslə dedi:

– Bəs biz də bunun üçün burdayıq, Muquc. Karo Kərəmi bunun üçün Sultan bəyin yaylağına göndərir. Qaragöl yaylağına gecə-gündüz erməni dəstələri toplaşır. Kərəm Sultan bəyi öldürəcək və bu yaylaqlara gedən yollar üzümüzə açılacaq.

– Mən burdan bir nəfər də müsəlmanı salamat buraxmaram, – Muquc nifrətlə dedi.

– Bizim qoyun sürülərimiz aranda qalıb istidən tələf olur, – Vazgen yana-yana əlini dizinə çırpdı, – Daha bəsdir. Müsəlmanlar keyf elədi. İndi sıra bizdədi. Atam yaylaqların alınmasını gözləyir.

– Bütün ermənilərin istəyi budu, Vazgen.

– Sultan bəyi məhv etsək, Qaragöl əlimizdədi.

– Təkcə Qaragöl yox, bütöv Zəngəzur, – Muquc başını çevirib iştahla çöllərə, dərə-təpələrə, uzaqda görünən sıra dağlara baxdı, – mən bu yerləri bağrıma basmaq, qucaqlamaq, gül-çiçək havasını doyunca ciyərlərimə çəkmək istəyirəm. Ölürəm bu yerlər üçün, torpaqlar üçün, dağlar üçün.

– Sən onu burax, Kərəmə. Həll edəcək. Sultan bəyi qətlə yetirəcək.

– Kərəmin atası müsəlman olub. Anası erməni… Burdan o tərəfə Sultan bəyin obasıdır. O qız burdadımı, Karen?

– Burdadı, – Karen könülsüz cavab verib başını aşağı saldı.

– Adı nədi?

– Humay. Qonşu olmuşuq. Atam Əziz kişi müsəlman idi. Amma anam Sara erməni olsa da onun xətrini hamı istərdi. Sonra biz erməni kəndinə köçüb getdik.

– Bəs atan?

– Atam öldü.

– Yaxşı ki, öldü, Karen.

– Onsuz da mən erməniləri seçərdim.

– Humay səni tanıyacaqmı? Sevginə inanacaqmı?

– Mən hardan bilim? Aradan illər keçib.

– Onun qılığına gir. Sevdiyini anlat və yeri gəlsə göz yaşı da tök. Yaraşıqlı oğlansan. Erməni qızları səndən ötəri sinov gedir.

– Onlar bizim qızlar kimi deyil. Ağlayan, göz yaşı tökən kişiləri sevmirlər.

– Onda hədələ. Qorxu içində saxla.

– Humayla görüşməsəm olmazmı? Sultan bəyi öldürüm və gecə ikən obadan çıxım.

Muquc ayağa qalxdı, gəzişdi, qaranlıq çöllərin içində nə isə axtarırmış kimi xeyli baxdı, sonra da həsəd hissi ilə dedi:

– İnanmıram ki, sən tezliklə Sultan bəyə yaxın düşə bilə-sən. Sultan bəyi çox zəkalı, ağıllı adam deyirlər. Şübhəsiz ki, tanımadığı adamın obaya gəlməsi onu şübhələndirər. Amma Kərəm, sən erməniyə oxşamırsan. Sifətin, görünüşün, baxışın, danışığın… xalis müsəlmansan və sevdiyin qızın arxasınca obaya getmisən. Qızın sevgisini, etimadını qazan. Sultan bəyi vuran kimi obadan çıx. Qaragölə hücum planı hazırlanır. Sultan bəy sağ olsa… biz Qaragölə yaxın gedə bilmərik. Güclü ordu olsa belə. Anladınmı?

– Bilirəm.

–Bunun üçün küllü miqdarda qızıl alacaqsan. Ən varlı adam olacaqsan, Karen.

Vazgen süfrəni yığışdırdı, xurcunları yenidən atın belinə aşırdı və gülə-gülə dedi:

– Birdən Humaya aşiq olarsan ha…

Muquc da hırıldadı:

– Müsəlmanları qıranda o qızı sağ saxla. Biz onun gözəl sifətinə tamaşa etmək istəyirik.

Ermənilərin vəhşi gülüşü uzaq çöllərə qədər yayıldı. Karen qaşqabağını tökdü:

– Mən o qızı sizin əlinizə vermərəm.

– Niyə?

Vəhşi gülüş birdən kəsildi, qızarmış sərxoş gözlər heyrətlə Karenə baxdı:

– Yazığınmı gəldi müsəlman qızına?

– Biz qonşu olmuşuq. Bir yerdə böyümüşük.

– Mən səni günahlandırmıram. Əqidən erməni olsa da damarlarında müsəlman qanı axır. Amma qorxuram ki, o qıza aşiq olasan.

– Mən qəlbimi heç bir vaxt hisslərimə təslim etmərəm. Tez bir vaxtda qayıdacam.

– Sənə uğurlar, Karen.

– Karo Hambarsumyana çatdırın ki, canımı da qurban versəm, Sultan bəyi qətlə yetirəcəm.

Sonra Karen atını mindi və sağollaşıb qaranlıq təpələrin arxasında yox oldu.

***

Susan otağa girmək istəyəndə İsak onun qolundan tutub geri çəkdi. Əlini arvadının ətli çiyninə qoyub astadan xırıltılı səslə dedi:

– Susan, uşaqlarla zirzəmiyə düş. Ortada dolaşma.

Susan nazla gözlərini süzdürüb güldü:

– İsak, olmaya məni bu qocalara da qısqanırsan?

İsak sifətini turşudub acıqlandı:

– Bir bu qalmışdı. Rədd olun burdan. Bizim işimiz var.

Susan yenə gözlərini süzdürdü:

– Məxfidir?

– Rədd olun, dedim, – ağzını arvadının qulağına yapışdırdı, nəfəsi Susanın boynunu yandırdı: – ay axmaq, bu söhbət çıxsa bizimkilər səni şişə çəkər, bildin? Yaxşısı budu gizlənin, gözə dəyməyin.

Susanın sifəti o anda dəyişdi, sanki ağlı-qırmızılı çöhrəsinə qapqara buluddan örtük çəkildi. İçini çəkib arxasını yaşlı, qıyıq gözlü, çənəsinin altında yumru, ağlı-qaralı saqqal saxlamış İsaka çevirdi. İsak arvadının ürəyinə əndişə saldığına peşiman oldu, bir müddət qapının ağzında dayandı, sonra sol ayağını çəkə-çəkə Susanın arxasınca getdi. Susan ayaq saxladı. İsak işləməkdən düyün bağlamış əlləri ilə arvadının ipək kimi yumuşaq saçına tumar çəkdi, al yanaqlarını ovuclarının içinə aldı:

– Bizim Aşotla, Qrikorla görüşümüz gizlidi. İşimiz baş tutsa mən sənə istədiyin qədər qızıl verəcəm, – İsakın qıyıq gözlərinin içindən şam işığına oxşar işıq gəldi, ürəyinə dolmuş həyəcanın ifrat çoxluğundan dili söz tutmurdu, bütün vücudu səsinə qədər titrəyirdi: “Nə olub buna? Bunlar müsəlmanlara tələ qururlar…” Susan nədənsə ilk anda ovçu Balakişini xatırladı. Özünü itirdi. Ürəyinin çırpıntısı sanki düşünmək hissini əlindən aldı. Qara qaynar gözlü, qədd-qamətli, yaraşıqlı, erməni qızlarının ağlını başından alan Balakişidən ötəri narahatlıq keçirdi.

– Nə durmusan, getsənə. Uşaqları da götür düş zirzəmiyə, – İsakın səsi sanki onun gözəl hisslərinin içinə bir qətrə zəhər saldı. Susanna rütubət iyi gələn zirzəminin qapısını açdı. Torpaq döşəməyə rəngi bozarmış nimdaş palaz saldı. Uşaqlar dinib-danışmadan səssizcə palazın üstdə bardaş qurub oturdular. Susan zirzəminin soyuğunda, bəlkə də Balakişiyə görə aldığı xəbərin

vahiməsindən üşüdü. Əllərini qoynuna qoyub gözlərini bir nöqtəyə dikdi: “Bunlar müsəlmanlara tələ qurur.” Yenə bu ətrafda məşhur olan ovçu Balakişini xatırladı. Yanaqlarından qan daman, baxışlarından atəş yağan cavan müsəlman erməni qızlarının xoşuna gəlirdi. Eləcə də Susanın. Ovçunu gördüyü andan o, sanki beynində, ağlında, qəlbinin içində yer elədi və axsaq, yaşlı İsak büsbütün gözündən düşdü. Bir ayağı bulaqda qalan Susanın ölçüyəgəlməz intizarla gözləri yollarda qaldı. İndi də ovçunu xatırlayınca sanki içini səssiz bir sızıltı, kədər bürüdü. Balakişi Susanın yaşadığı Dorhuni kəndinin meşələrinə tez-tez ova gələrdi. Bir dəfə atını bulaq başında saxlayıb qızlardan su istədi. Kimsədən səs çıxmadı. Yalnız heyran baxışlar sanki möcüzə görürmüş kimi qarşılarında dayanmış yaraşıqlı oğlanı süzdü. Susan cəld tərpəndi, kiçik saxsı bardağı bulaq suyu ilə doldurub ovçu Balakişiyə uzatdı. Atın belində iki-üç vurulmuş əlik vardı. Balakişi suyu içdi və atını sürüb getdi.

Sonra yenə rastlaşdılar. Susan hər gün bulaq başında onun yolunu gözləyirdi. İntizar, həyəcan, ürək çırpıntısı, heç kəsə deyə bilmədiyi sevgi hissləri onu üzürdü, yuxularına yol tapırdı, İsakı gözlərində təhamül edə bilmədiyi nifrətli bir məxluqa çevirirdi. Balakişi meşələrdə vurduğu ovu Dorhunidə müsəlman, erməni demədən hər kəsə verirdi və atını sürüb gedirdi.

Bir dəfə bulaq başında Susan ərklə atın yanında dayandı, gözlərini işvə ilə süzdürüb soruşdu:

– Balakişi, niyə ovu vurub, bizim kənddə kimə gəldi pay verirsən?

– Təkcə Dorhuniyə yox, ətraf kəndlərə də verirəm.

– O halda mənim də adıma bir ov vursana.

– İsaka da gətirərəm.

– İsaka niyə?

– İsakla bir ailəsiniz.

– İsakın adını çəkmə. Burda biz ikimizik.

Susan sanki qara atəş süzülən baxışlarını onun gözlərindən çəkmədən işvəli gülümsünüb soruşdu:

– Yaraşıqlı olduğunu, qızların ürəyinə od saldığını bilirsənmi, Balakişi?

Balakişi qaşqabağını turşutdu:

– Yaraşıqlı olmaq kişinin nəyinə lazımdı? Kişi mərd, dürüst olsa yaxşıdı. Kişiyə bu yaraşar, gözəllik yox.

– Yoxsa ərim İsak kimi.

– İsak yaxşı adamdı. Kimsə ilə işi yox.

Susannanın şıltaqlığı tutdu, ağzını büzdü:

– Qocadı, çirkindi. Mən onu heç sevmədim.

Balakişini gülmək tutdu:

– Sevmirdinsə getməzdin.

– Səni o vaxt tanımırdım axı.

– Tanısaydın nə dəyişəcəkdi?

– Evlənərdik.

– Axmaqlama.

– Niyə? Mənim kimi gözəli bəyənməzdinmi?

– Sən erməni, mən müsəlman.

– Amma erməni qızları səndən ötəri sinov gedir.

Bulaq başı birdən qız-gəlinlə doldu. Susanna acıqlanmış, könülsüz halda parçı su ilə doldurub Balakişiyə verdi və pıçıltı ilə dedi:

– Mən gecəyarı səni elə burda gözləyəcəm, Balakişi, gələrsənmi?

Balakişi hirsləndi:

– Mənim evli erməni qızı ilə nə işim?

Bunu deyib Balakişi ata bir qamçı vurdu və sıx meşəliyə girdi.

***

…İsak çayları təzələdi. Qrikor çayın ətrini burnuna çəkib dərindən nəfəs aldı və yasdığa söykəndi:

– Bu müsəlmanlar çox avamdılar, Aşot. Avam olduqlarına görə də mənim onlara hərdən rəhmim gəlir.

– Rəhmin? Yəni yazığın gəlir.

– Məzhəb haqqı, onlar çox avamdı. Rusiyada Nikolay padşah taxtdan düşdü. Başıpozuq rus əsgərləri ordudan qaçanda bizimkilər onlardan çoxlu silah-sursat alıb Zəngəzura daşıdılar. Özü də müsəlmanların gözü qabağında – bunu deyib Qrikor əlini əlinə vurub uğundu.

– Elədi, ermənilər çox uzaqgörəndi. Rus əsgərləri silahları suyu qiymətinə bizimkilərə satırdı, – Aşot gülümsünüb nırç atdı, – Gecəyarısı qatırlara yüklənmiş silah kisələrini həyətə yendirəndə qonşumuz Mirzalı həyətə çıxdı. Bizim qorxudan bağrımız yarıldı. Amma o, bir söz demədi, çıxıb getdi. İndi bu silahla Zəngəzuru müsəlmanlardan təmizləyəcəyik, – İsak çayları təzələmək üçün ayağa qalxdı.

Sonra yenə pıçıldaşdılar. Qapıya söykənib nəfəsini içinə çəkmiş Susanna başa düşdü ki, müsəlmanların evini talan edib özlərini də qətlə yetirəcəklər.

Susanna bir anlıq qarşıdakı bağlı-bağatlı həyətə baxdı. İçində bir sevinc hissinin təlatüm içində oyandığını duydu. İllərlə bu ikimərtəbəli, aynabəndli evə yana-yana, həsədlə baxmışdı. Mirzalının evi Dorhunidə ən yaraşıqlı eviydi. Susanna evi seyr etdikcə paxıllıq içini qurd kimi oyurdu, hərdən İsaka da acığı tuturdu. Bu evi İsak tikmişdi. İsak yaxşı bənnaydı. Evi qurtaran kimi Mirzalı onlara həyətindən torpaq verdi. Ev tikmək üçün pulunu əsirgəmədi. Sonra bu bağlı-bağatlı Dorhuniyə ermənilərin axını başladı. Hamısı torpaq, mal-mülk sahibi oldular.

Susanna dərindən köks ötürdü. Daha yadına nə ovçu Balakişi, nə də ona bəslədiyi sevgi hissləri düşdü…

***

Axşamüstü İsakın evi yenə adamla doldu. Kəndin müsəlman ağsaqqalları İsakın evinə toplaşırdı. Dorhuni indiyədək bir

yumruq idi. Amma son günlər Qubadlıdan gələn dəhşət dolu xəbərlər Dorhunidə müsəlmanlarla ermənilər arasında səssiz güllə kimi açılmağa başladı, şübhə, əndişə, təlaş yaratdı. Xəbərlər isə səngimirdi… Ermənilər kəndlərdə görünməmiş soyqırım aparırdılar. Müsəlmanlar pərişan, məyus idi.

İsak oturanları gizlicə məkirli baxışlarla süzdü, nəzərlərini Mirzalıda saxladı:

– Mirzalı kişi, illərlə sənin çörəyini yemişəm. Dorhuni müsəlmanları bizə dayaq, arxa oldu. Biz burada köç salanda kənddə bir erməni də yoxuydu. Siz bizə iş, çörək, torpaq verdiz. İllərlə can bir qəlbdə yaşadıq.

İsak saxta bir narahatlıqla, gözləri yaşarmış halda nəfəsini dərdi:

– Amma indi vəziyyət dəyişib. Biz sizi qorumalıyıq. Qiymətli nəyiniz varsa qoyun qalsın, biz çörək kəsmişik. Biz sizə xəyanət etmərik. Məzhəb haqqı, elə ki, sakitlik yarandı, siz də qayıdıb ev-eşiyinizə sahib olarsız.

Mirzalı kişinin sifətinə çökmüş qara bulud dağıldı. Nəmli gözlərində bir ümid işığı közərdi: "Şükür Allaha. Bu ermənilər haqqımızı itirmədilər. Bizi qoruyacaqlar. Əgər başımızın üstünü alsalar bizi gizlədəcəklər. Malımızı-pulumuzu qoruyacaqlar…"

İsak əzbərlədiyi sözləri xatırlamağa çalışdı:

– Sizin haqqınızı itirsək Allah basıb bizim gözümüzü çıxarar.

Ağsaqqallar sanki çiyinlərindəki ağır yükdən xilas olub dərindən nəfəs aldılar, bu ağır gündə onlara qahmar çıxan bu çirkin adamın içindəki çirkinliyi, məkri, hiyləni hiss etməyərək az qala onu bağırlarına basmaq istədilər.

Mirzalı kişi əlini İsakın çiyninə qoydu:

– Yaxşı ki, sizin kimi vicdanlı adamlar var. Dorhuninin bu sarıdan baxtı gətirdi. Şükür Allaha.

– Evimizdə bu gecə rahat yata billik.

– Sübh tezdən kənddən çıxaq…

Yalançı bir təbəssüm İsakın üzündəki hiyləyə örtük çəkdi:

– Biz sizi qonşu kənddə gizlədəcəyik. Orda bir müsəlman da yoxdur. Sizi dəstə ilə meşədən keçirib aparacağıq. Çox yük götürməyin. Ancaq qızıllarınızı götürün. Getdiyiniz yerdə hər şey var.

İsak birdən sözünü kəsib narahatlıqla Mirzalıdan soruşdu:

– Bəs oğlun Qaraş hardadı?

– Qaraş… evdə.

– Cavanlar bir dəstə olsun, siz bir dəstə.

– Qaraşgil niyə bizdən ayrı getsin, İsak? – Mirzalı ürəyinə düşən xaldan üşəndi.

– Daşnaklara etibar yoxdu, Mirzalı. Biz arxadan sizi qoruyacağıq.

Lakin şübhə Mirzalının ürəyinin içini qurd kimi yedi: "Allaha təvəkkül…" Tez də ayağa qalxdı:

– Biz gedək. Yır-yığış eliyək.

Dorhuninin müsəlman ağsaqqalları rahatlıqla, sevinə-sevinə evlərinə tələsdilər. Yalnız Mirzalıdan başqa…

***

Dorhuni səhərini çisələkli yağışla açdı. Qapqara buludlar kəndin başı üstündə dayandı. Qurğuşun rəngli səmanın üzü bir-birinə qarışmış qara, çəhrayı rənglərlə örtüldü. Sıxıntılı hava sanki dünyanın dərd-qəmini, təşviş və nigarançılığını yığıb Mirzalı kişinin içinə doldurdu. Qaraşı kənara çəkdi, pıçıltılı səslə dedi:

– Oğlum, bu axsaq İsakdan şübhəliyəm. Amma başqa yolumuz da yoxdur. Ayıq olun. Bizim onlara gücümüz yetməz. Bəlkə də ona görə bizi ayırırlar. Bıçaq götürün, nəysə götürün, amma ermənilərə bildirməyin. Bir şey olsa siz canınızı qurtarın. Biz heç…

Mirzalı kişi doluxsundu. Qaraş atasını qucaqladı, başını sinəsinə sıxdı:

– Qorxma, biz satqın erməniyə asanlıqla can vermərik.

Mirzalı kişi boxçanı kürəyinə atdı, onun arxasınca arvadı, qızı çıxdı və məchul bir yolçuluğa gedən bu adamların arxasınca sanki bir qəm karvanı, dərd karvanı sıralandı.

Gözlənilmədən yağış gücləndi. Elə bil qaralmış göylərin bağrı yarıldı, şimşəklər çaxdı, səmanın göz yaşı sel olub islanmış torpağı bağrına basdı…

Həyətlərdə, küçələrdə erməni qadınlarından kimsə gözə dəymirdi, kimsə onların arxasınca çıxmırdı. Yalnız pəncərələrdən sevincə bələnmiş gizli baxışlar onları yola salırdı… Analarının əllərindən tutmuş körpə uşaqlar tez-tez çevrilib geriyə baxır, kiminsə onları isti evlərinə qaytaracağından ümidlənir, amma ümidləri boşa çıxınca gücləri yetməyən ağrı, əzab, vahimə, dəhşət dolu sıxıntını özləri ilə daşımaq, həzm etmək məcburiyyətində qalırdılar. Bu anlarda da qaranlığa, qatı zülmətə birdənbirə qərq olan uşaqlıq dünyaları sanki güclü bir zəlzələdən uçub dağılırdı, məhv olurdu. Lakin uşaqlar cəsarət göstərərək böyüklər kimi özlərini mərdanə aparır, yağışın altında islanaraq palçığa, çamura bata-bata böyüklərlə ayaqlaşırdılar. Yağışdan islanmış körpələrin bənizləri soyuqdan göyərmişdi…

Dəstə özünü meşəyə yetirdi. Ermənilər irəlidə gedirdi. İsak atını aşağı-yuxarı sürür, qamçını əlində fırlayır, dəstəni tələsdirirdi. Səmadakı qara buludlar sanki meşədəki ağacları qara yaylığa bükdü. Ağacların qaraya çalan yarpaqlarından yağış suyu süzürdü. Meşə başdan-başa yaşıl yosunla örtülmüşdü. Havadan çürümüş yarpaqların rütubət qoxusu gəlirdi.

Dəstənin içində qorxudanmı, yorğunluqdanmı ayaqlarını zorla sürüyən cavan qadının kürəyinə şəllədiyi, yalın ayaqları soyuqdan göyərmiş körpə birdən qıyya çəkdi. Silahlı ermənilərdən biri əlini körpənin boğazına atdı:

– Boğaram, səsini kəs.

Mirzalı özünü qadına yetirdi. Yaylığı açıb körpəni qucağına aldı. Qadının solmuş yanaqlarından yaş süzürdü, islanmış saçları pərişan halda çiyinlərinə dağılmışdı. Ağacın altinda çöməlib əlini sinəsinə atmaq istədi:

– Acdı, ona görə ağlayır, – dedi – Süd verim, kəsəcək.

Bu anda Aşot özünü yetirdi. Bağırtısı meşəyə yayıldı:

– Niyə dayandız? Talaya qədər gedin, orda dincələrsiz.

Mirzalı kişi ona acıqlandı:

– Görmürsənmi, uşaq acından ağlayır. Qoy süd versin. Hanı İsak? – Ətrafa göz gəzdirdi. İsak onlara yaxın düşmürdü. Tüfəngi çiyninə aşırıb dayanmadan irəli gedirdi.

– Qalx ayağa, – Aşot qadının qolundan yapışdı, – onun qızılı rəngə çalan topa saqqallı sifətində gizlədə bilmədiyi nəşə vardı, gözləri canavar gözü kimi işıltılıydı.

– Qoy uşağa süd versin, – Mirzalı Aşotun qarşısına keçdi, – Uşaq ağlayır.

– Talaya çatmağa az qalır.

– Uşaq dözmür.

– Mən onu yedirərəm, – Aşot kəmərinə taxdığı xəncəri çıxardı. Dəstə dayandı, adamlar qorxu içində nəfəslərini içinə çəkdi. Sanki bir anlıq meşədə həyat dondu, səssizlik yarandı. Təkcə yarpaqlardan süzülən damlaların səsi, bir də uşağın sızıltısı gəldi… Aşot bir göz qırpımında xəncərlə qadının döşünü sivirdi və ağlayan körpənin ağzına soxdu.

Bu anda meşənin dərinliyindən İsakın boğunuq səsi gəldi:

– Güllə atmayın, onları sürüb talaya gətirin.

Mirzalı çiyninə dəyən balta zərbəsinin ağrısına tab gətirərək meşəyə səs salan bağırtı ilə haray saldı:

– Qaraş, özünüzü qurtarınnnnn…

Sanki meşə ağlayırdı, dizlərinə döyə-döyə, saçlarını yola-yola ağlayırdı… Torpağa çilənən qırmızı qanı gördükcə meşənin bağrı çatlayırdı …

***

Silahlı ermənilərin yarısı arxada gəlirdi, yarısı irəlidəydi. Qaraşgilin əllərini bağlamışdılar. Əyinləri nazik idi, nimdaş ayaqqabılarının içi gölməçələrin suyu ilə dolduğundan palçıqlı yollarla çətinliklə irəliləyirdilər. Sifəti boğulub qaralmış Qaraş durmadan yanında gedən Aslana pıçıldayırdı: "Dediklərimi arxadakılara çatdır. Ruhdan düşməyin. Ermənilər bizimkiləri aldatdı. Cəsarətli olun. Mənim işarəmi gözləyin".

Qrikor Qaraşın qarşısında dayandı, əyri ayaqlarını aralı qoyub tüfəngi əlində oynatdı:

– Qaraş, yorulmusansa səni kürəyimə alıb aparım? – başını çevirib yanında gedən dığalara göz vurdu, – nə deyirsən?

– Ermənilər müsəlmanları həmişə yaltaqlıq ucbatından kürəyində daşıyıb. Amma indi ehtiyac yoxdur.

Qrikor acığından dodağını çeynədi və var qüvvəsi ilə Qaraşın üzünə yumruq vurdu. Qaraş səntirlədi, dodağının kənarından sızən qanı sildi və gülümsədi.

– Ən dəhşətli cəzanı sənə verəcəyəm, Qaraş.

Qaraş ayaqqabını palçığın içindən zorla çəkib çıxardı və başını yellədi:

– Sağlıq olsun.

Qrikor erməni söyüşü söyərək irəli getdi. Qaraş onun arxasınca baxıb için-için göynədi. Dodaqları əsdi, boğazına dolmuş zəhər tamlı qəhər onu nəfəs almağa qoymadı.

Arxadan gələn saqqalı erməni tüfəngin qundağı ilə Həsənin kürəyindən vurdu və vəhşi kimi bağırdı:

– Cəld olun, dəstəyə çataq, – tüfəngin qundağını Qaraşın kürəyinə çırpmaq istəyəndə Qrikor özünü yetirdi:

– Axmaq, İsak tapşırdı ki, cavanlara zərər verməyin.

– Niyə?

– Çünki onlar bizə sağlam lazımdı. Boxçaları geriyə kim daşıyacaq? – Qrikor dişlərini ağartdı və çevrilib getdi.

Qaraş əllərini bir-birinə sürtdü, ona elə gəldi ki, kəndirlər

boşaldı və daha əvvəlki kimi biləklərini kəsmədi. Gözü ermənilərdə var qüvvəsi ilə əllərini kəndirdən çıxarmağa çalışdı. Biləklərində nazik qan izi qalırdı, canının ağrısına dözərək səs çıxarmamaq üçün dişlərini bir-birinə sıxdı, ağrı sanki gözlərinin içindən göz yaşı kimi çıxdı, rahatlıqla nəfəs aldı. İntiqam, nifrət hissi elə bil içində səngiməyən, gur yanan ocaq çatdı. Bu oçaq Qaraşa güc-qüvvət verdi.

Meşənin içindən fəryad, ağlaşma səsləri gəlirdi. Sanki bu səslər göylərin qara buludunu meşənin başı üstə saxladı, yağış daha da gücləndi. Qrikor yanında dayanmış erməniyə göz atdı:

– Dincələk.

Qaraşın içi fəryadla doldu: hamını öldürəcəklər! Bu anda kəndir biləklərindən sürüşüb açıldı, acılar içində sevindi: şükürlər olsun, ilahi.

Qrikor yanında dayandı, papirosunu yandırıb çəkməyə başladı. Qaraş kəndiri əllərinin üstə çəkdi. Qrikorun soyuqdan bozarmış sifəti dərin çopurlarla doluydu. Gözləri alışıb yanırdı və bu anlarda dərin bir nəşə içində olduğu gözlərindən bəlliydi.

– Gərək yağışın kəsməyini gözləyəydik, – saqqalsız, qalın bığlı erməni dedi.

– Vaxt gözləmir, iki gündən sonra toyumdu, başa düşdün, Arutun. Gəlini də Qaraş gilin evinə aparacam. O ev mənim xoşuma gəlir.

– Evi İsak verərmi sənə?

– Niyə də verməsin? Mən də əziyyət çəkirəm millət yolunda.

– İsak deyirdi ki, bu evi mən tikmişəm. Bir də deyirdi ki, bu evdə Andronik qalacaq.

– Andronik? Andronik Dorhuniyəmi gələcək?

– Zəngəzura gələcək. Zəngəzuru musurmanlardan xilas eləyib bağışlayacaq bizə.

Qaraş Həsənin qulağına pıçıldadı:

– Sərvaxt olun. Qollarımı açmışam.

– Oldu.

Qrikor Qaraşa yaxın gəldi:

– Uşaqlıqda məni çox döymüsən. Yola getməzdik, savaşardıq. Halal eləyirəm.

– Amma mən səni halal eləmirəm, erməni köpəkoğlu.

Qaraş bir göz qırpımında Qrikorun silahını çəkib əlindən aldı, süpürləyib dizinin altına saldı, üstünə yüyürən Arutunu vurdu. Qrikor dizinin altında çabalayırdı, var qüvvəsi ilə xilas olmağa çalışırdı. Qaraş Həsənin qollarını açdı, ölmüş ermənilərin silahlarını götürdülər. Qrikor ağır nəfəs alırdı. Qaraş yaş torpağı onun ağzına doldurdu:

– Torpağımıza görə başımıza müsibətlər gətirdiz. Doyunca ye. Uda bilmirsən? Zəngəzur da beləcə boğazınızda qalacaq.

– Sən bunu sağ buraxırsan? – Həsən silahı ona tuşlayanda Qaraş qoymadı:

– Qoy can çəkə-çəkə cəhənnəmə getsin.

Ağacların arxasında gizlənə-gizlənə talaya tələsdilər...

***

Yaşıl yosunla örtülmüş talanın üzərinə sanki qıpqırmızı kəlağay çəkilmişdi. Gövdəsinə qan çilənmiş ağaclar qan qoxuyurdu. Parçalanmış cəsədlər hər yerə səpələnmişdi. Axan qan gölməçəyə tökülürdü və hələ də axmaqda davam edirdi.

Taladan xeyli kənarda ermənilərin səsi gəlirdi. "Savaşı" bitirib yorulmuş ermənilər süfrə açmışdılar. Nimdaş süfrənin üstündə sulanıb dəstə ilə üst-üstə yığılmış lavaş, pendir, çoxlu şərab şüşələri vardı. Meşənin bu hissəsi qan və şərab qoxuyurdu.

– Çaqqallar, bayram eləyirsiz...

Güllə açıldı, meşədə o anda əks-səda verdi və sanki ermənilərin içinə top mərmisi düşdü. Bir erməni dizini qucaqlayıb ucadan bağırdı. Güllə dəydikcə ermənilər top kimi atılıb düşür, vahimə, fəryad səsləri meşəni silkələyirdi. İsak dizləri üstə sürünə-sürünə Qaraşın palçıqlı ayaqlarını qucaqladı:

– Qaraş... yalvarıram, məni öldürmə.

Qaraş İsakın sinəsindən vurub kənara atdı, sonra da bağırdı:

– Hamısını öldürməyin, silahları yığın, qayıdırıq talaya.

Həsən acıqlandı:

– Qoy bunların axırına çıxaq.

Qaraş onu eşitmədi:

– Tez olun, tərpənin, – silahını ermənilərə tuşladı, – siz də talaya, yoxsa hamınızı baltalayaram.

Ermənilər az qala talaya qədər dizləri üstə süründülər. Gözləri qorxudan böyümüş, nəşəsi içində yarımçıq qalmış İsakın bulanıq gözlərindən yaş axırdı. Təkrar Qaraşın ayaqlarını qucaqlamaq istədi. Onun gözlərində alov kimi yanan nifrəti, kini görüb əlacsız, çarəsiz halda üzüqoylu torpağın üstə düşdü. Qaraş ayağını onun kürəyinə qoyub sıxdı, İsak çabaladı.

– İsak, bizimkiləri tələyə sən saldın. Sən onları inandırdın. Sən atamın verdiyi çörəyi tapdaladın. Bizə bu qədər düşmən olduğunu bilmirdik. Demək müsəlmanların qanını içməyə hazırsan. Olsun. Gir indi gölməçəyə. Ovuclarını doldur qanla, doyunca iç.

– Qaraş, yal...

– Burdakı insanlar da sənə yalvarırdı. Onların səsini eşitmədinmi?

Güllə açıldı, İsakın dizindən qan şoralandı:

– Gir çalaya.

Həsən hirsləndi:

– Qaraş, özünə gəl.

Qaraş qışqırmaq, bağırmaq, içindəki acıdan xilas olmaq istəyirdi. Sanki ağlı, düşüncəsi, hissiyatı iflic olmuşdu. O, dizləri üstə oturdu, başını qaldırıb göylərə baxdı, içindəki hönkürtü sanki tufan kimi, qasırğa kimi güclüydü və onun şiddətinə Qaraş davam gətirə bilmirdi: “Allahım, bu insanların günahı nəydi? Allahım... “

Müzəffər dəli kimi özünü Qaraşa yetirdi:

– Ölənlər arasında qızlar yoxdu. Bacım yoxdu.

Qaraş tüfəngin qundağı ilə qorxu içində gölməçəyə baxan İsakın sinəsindən vurdu:

– Qızları neynədiz?

– Orda, – titrətmə içində qızların aparıldığı səmti göstərdi, – dığalar apardı.

Həsən qışqırdı:

– Biz gedirik qızları qurtarmağa, bəs bunları neyniyək? Qaraş yubanma.

– Siz gedin. Bizim bunlarla işimiz var. Güllə bunlara heyifdi, – Qaraş içindəki tufanın, dəhşətin qasırğasından özünü unutmuşdu, yalnız dodağından axan qanın təmini hiss eləyirdi.

– Güllə heyifdi, Qaraş.

Qaraş cəsədlərin yanına tullanmış baltalara baxdı:

– Niyə biz erməniyik?

– Onları sağmı buraxaq?

– Siz özünüzü qızlara çatdırın. Bunların hamısını bir-birinə kəndirləyib odunlardan ətraflarına çəpər çəkəcəyik. Qoy yavaş-yavaş yanıb kül olsunlar. Sonra bu külü təmizləmək lazımdı. Qarışmasın torpağımıza.

Həsən geri qayıtdı:

– Qaraş sən biznən get. İki nəfər qalsa bəsdi.

Qaraş dinməz-söyləməz qabağa düşdü...

***

Meşənin dərinliyindən qırıq-qırıq səslər gəlirdi. Qaraşgil səs gələn səmtə üz tutdular. Yağışdan sonra zəif külək başladı. Bu anda eşidilən gülüş səsləri meşənin sirli sükutunu pozdu. Qaraşgil dayandılar. Ağaclara yaxın olan qalın kolluqların arxasında gizləndilər. Gur yanan ocağın başında kabab çəkən dığalar göründü. Qaraş susmaq işarəsi verdi, yerlərini dəyişdilər. Bu anda əl-qolları bağlanaraq ağacların altına atılmış qızları gördülər. Onların mağmun görkəmi vardı. Qorxmuş, solmuş

çöhrələri sanki qoca qarıların qırışlı üzünə oxşayırdı. Baxışları ocağın közündəydi və durmadan gözlərindən yaş axırdı.

Ermənilər keyf içindəydi. Ocağın qırağında dizlərini qatlayıb oturmuş topa saqqallı dığa bir tikə yarıbişmiş kababı dişinə çəkdi, şərabı içdi, sonra ayağa qalxıb qızlara sarı getdi. Başını ağaca söykəmiş qız dığanı görüncə zəif bir fəryad qoparıb geri süründü, başına gələcək fəlakətin qandonduran sazağından üşüyərək yaşlı gözlərini yumdu. Sərxoş erməni onun saçını ovcuna yığıb şərab dolu dəmir parçı ağzına tutdu:

– İç, iç. Qorxma səni öldürməyəcəm. Sən mənim xoşuma gəlirsən...

Qız titrəyən əli ilə şərabı aldı, dodağına yaxınlaşdırdı və qəflətən onun üzünə çırpdı.

Ermənilər səs-səsə verib gülüşdülər. Pərt olmuş dığa özü də dişlərini ağartdı, tələsmədən cibindən çıxardığı bıçağı əlində oynatdı və qızın başını qoltuğunun altına sıxıb gözünə batırmaq istədi. Qız çırpındı. Ermənilər də susub gözlədilər. Bu anda güllə açıldı, ermənininin göyə qalxmış əlindən qan süzüldü, bıçaq yerə düşdü.

Sərxoş ermənilər o anda ayıldılar. Əllərini silaha atmaq istədilər. Qaraşgil dığaları araya aldı.

Qızların qollarını açıb ocağın qırağına gətirdilər. Sanki ocağın içindən də köz iyi əvəzinə şərab qoxusu gəlirdi. Qızlar danışa bilmirdi, dilləri tutulmuşdu, sevinməyə taqətləri yoxuydu. Çəkdikləri işgəncə, yaşadıqları dəhşətin acısı zəhər kimi iliklərinə işləmişdi və orda hər şeyi ümidsiz bir qaranlığa bükmüşdü.

Qaraş başlarını aşağı salmış dığaları nifrətlə süzdü:

– Bunlarla uşaqlıq yoldaşı olmuşuq. Amma düşmən çıxdılar. Qızların qollarına bağladıqları kəndirləri açın, özlərini ağaca bağlayın.

Həsən qeyzləndi:

– Nə danışırsan, Qaraş, kəndiri aça bilərlər.

– Açammazlar, ayaqlarını güllələyin, qoy yavaş-yavaş... gə-

bərsinlər, – sonra da üzünü Həsənə tutdu, – bir nəfər qızları kəndə aparsın. Biz də talaya gedək, ölüləri basdıraq.

... Meşədən tüstü və xız iyi gəlirdi. Talanın ortasında dərin xəndək qazılmışdı. Cəsədləri götürəndə üzüqoylu düşmüş yaşlı kişinin altından səs gəldi. Qaraşgil dondu. Cəsədi tələsik kənara çəkdilər. Üz-gözü palçığa batmış dörd-beş yaşlı oğlan çətinliklə nəfəs alırdı. Qaraş onu qucağına alıb kənara apardı. Üz-gözünün palçığını təmizlədi. Sağ qalmış uşağı bağrına basdı və daha çəkdiyi ağrı-acıya tab gətirməyərək uşaq qucağında diz çökdü və ağladı.

Kimsə onun qolundan tutub qaldırdı:

– Qalx ayağa, axşam düşür. Meşədən çıxaq.

– Düz deyirsən ağlamaq bizə yaraşmaz. Biz Dorhunini qorumalıyıq.

– Təkcə Dorhunini yox, bütün Zəngəzuru.

– Yəqin Sultan bəy haqqında eşitmisən?

– Sultan bəydən əvvəl atası Əlipaşa bəy vardı....

– Elədi. O, ermənilərə qan uddurub. Elə bilirəm ki, Dorhunidə ermənilərlə təkbətək döyüşməyə bizim gücümüz çatmaz. Silahımız-sursatımız yox... Sultan bəyin dəstəsinə qoşulmalıyıq.

Uşaqdan səs çıxmırdı. Qollarını Qaraşın boynuna dolayıb ona sığınmışdı.

... Meşə arxada qaldı. Ay meşənin başı üstə dayandı. Və gecə sanki qan qoxulu meşəni qara yaylığına büküb saxladı...

2.

...Dik yoxuşdan yuxarı süvarilərin arxasınca silahla yüklənmiş qatırlar gəlirdi. Yoxuşun sağ -solu təhlükəliydi. Üstü əlvan mamırla örtülmüş qayalıqlar sanki dərin uçurumların üstündə bitmiş daş kolluqlara oxşayırdı. Yoxuşun özü də təhlükəliydi: süvarilər atları ehtiyatla sürürdü, atların nallarından qopan daşlar səs sala-sala uçuruma axıb gedirdi və handan-hana aşağıdan boğuq səslər gəlirdi.

Yoxuşdan yuxarıda üzünə sanki cuna yaylıq tutmuş Kirs dağı görünürdü. Süvarilər hava qaralmamış Kirs dağının ətəyinə çatmağa tələsirdi.

Hava sazaq idi. Kirs dağından əsən küləklər zirvəsindəki qarın soyuğunu aşağılara gətirir, külək irəli getməyə qoymurdu. Bu yerlərə nabələd olan süvarilər canlarının hayına qalaraq atların cilovundan möhkəm yapışmışdılar. Külək onların gözünü yaşardır, qoyun-qoltuqlarına dolur, titrətmə, üşütmə gətirirdi.

General Karo Hambarsumyan yoxuşun başına çatdı. Əlini gözünün üstə qoyub Kirs dağına sarı baxdı və aşağıda bir-birinin arxasınca gələn süvarilərə səsləndi:

– Yoxuşun başı düzənlikdir. Tələsməyin.

Bu anda yüklü qatırlardan biri büdrədi. Uzun ayaqları daşa toxunub qatlandı və qatır uçuruma tərəf sürükləndi. Kiçik çay daşları sel kimi aşağı axdı və xeyli sonra aşağıdan vahimə doğuran gurultu səsi gəldi.

Karo yoxuşun başında üzü süvarilərə tərəf dayandığından sanki qara mumiyadan tökülmüş kimi göründü və bu gurultunun arxasınca onun bağırtısı eşidildi:

– Qatırı xilas eləyin.

Qatır anbaan uçuruma tərəf gedirdi. Ayaqlarını dayaq verib qalxmaq istəyir, amma belindəki yüklər ağır olduğundan yerində çabalayırdı. Sanki qatırın fağır baxışlarında bir məyusluq vardı, süvarilərdən imdad diləyirdi. Bütün dəstə dayandı. Qatırı dövrəyə almış süvarilər var qüvvələri ilə onu ayağa qaldırmağa çalışdılar. Alçaqboy, əyninə zabit mundiri geymiş komandirin gözləri hiddətlə parıldadı:

– Əfəllər, torpaq arzusundasız, Zəngəzuru işğal etmək istəyirsiz, amma bir qatıra gücünüz çatmır.

– Yükü ağırdı, komandir, – süvarilərdən biri qızarıb pörtmüş sifətinin tərini sildi.

– O halda yükləri açın.

Qatırı çətinliklə ayağa qaldırdılar.

Karonun dəstəsi Şuşanın Topxana meşəsindən Mizmikə adlamışdı. İndi də Kirs dağına qalxırdı. Karo Kirs dağında düşərgə salıb dincəlmək, sonra da Sərt yoxuşdan keçərək müsəlman kəndlərini işğal etmək istəyirdi.

***

Karo çadırın pərdəsini aralayıb bayıra çıxdı. Süd kimi ay işığıydı. Bu işıqda Kirs dağının ətəkləri, dərə-təpələr, aşırımlar yaşıl rəngini dəyişmiş kimi göründü. General təmiz dağ havasını acgözlüklə ciyərlərinə çəkdi, rahatlıqla nəfəs aldı: bu yerlər ermənilərin olacaq... Amma müsəlmanlar asanlıqla bu yerləri tərk etməyəcəkdi... Karo gözlərini yumdu. Sanki ay işığı onun kin, nifrətlə siləlenmiş ürəyinin içinə düşdü və qan qoxusu gələn duyğularına xoş bir sevinc qatdı.

Yaxında çoxlu çadırlar vardı. Düzənlikdə ocaqlar alovlanırdı, bu ocaqların yanında keyf məclisi qurmuş əsgərlərin səs-küyü gəlirdi. Kobud, cırıltılı səslə erməni mahnıları oxuyurdular.

Karo yenidən çadıra qayıtdı. Çadırın baş tərəfində masa kimi düzəldilmiş taxtanın üstündə neft iyi verən çıraq içərini zorla işıqlandırırdı. Karo çırağın yanındakı bir vərəq yazılı kağızı götürdü, yenidən oxudu. Bu Karonun əsgərlərə bəyanatı idi: "Bu yaxınlarda qoşunumuz hücuma keçəcək. Sərhəddimizə yaxın olan müsəlman kəndlərini götürəcəyik. Planımız belədir ki, tezliklə Qarabağa girək. Vediyə, onun ətrafındakı kəndlərə yaxşı divan tutmuşuq. İndi o kəndlər erməni qardaşlarımızın əlindədir. Ölən ölüb, sağ qalan müsəlmanlar isə İrana, Naxçıvana qaçıb..."

Komandir Martiros çadıra girdi, Karonu ayaqüstə görəndə təəccübləndi:

– Karocan, heç olmasa yatıb dincələrdin.

Karonun sifəti çiddiləşdi:

– Yox, Martiros, müsəlmanı məhv edib Zəngəzura sahib olmayınca istirahət bizə haramdır. Andronik deyir ki, türkü öldürmək günah deyil, qəhrəmanlıqdır.

Martiros əlini silahın üstə qoyub dişlərini ağartdı:

– Demək bizim hər birimiz bir qəhrəmanıq, Karocan.

– Belə çıxır.

Karo Zəngəzurun xəritəsini taxtanın üstə sərdi. İkisi də canavar iştahı ilə gözünü xəritəyə zillədi. Karo qırmızı qələmi Tərxanlı kəndinin üstündə saxladı:

– Biz Sərt yoxuşdan aşağı yenib Tərxanlı kəndinə hücum edirik. Bir müsəlmanı da sağ buraxmırıq. Tərxanlıdan adlayıb Türklər, Fərəcan, Malxələf kəndlərinin əhalisinə divan tuturuq.

Martiros tərəddüdlə dedi:

– Amma Karocan, bizim əsgərlər bu yerlərə nabələddir. Zəngəzur başdan-başa dağlar, dərə-təpələr, uçurum və sıx meşələrdən ibarətdir. Bu yerlərdə səngər qazmağa ehtiyac yoxdur. Hər dərə-təpə, qayalıqlar səngərdən də möhkəmdir.

Karo güldü:

– Amma biz Tərxanlını çox asanlıqla işğal edəcəyik.

– Necə? Bələdçiyəmi güvənirsən?

– Hə, məsələ belədi, – Karonun saqqallı sifətində, qəddarlıq yağan gözlərində hiyləgər bir təbəssüm göründü. Müdrikcəsinə gülümsündü və qırmızı qələmi xəritədə Tərxanlı kəndinin üstündə saxladı, – bu kənd strateji cəhətdən əlverişli olduğuna görə, silahları az olsa belə, tərxanlılar bizlə savaşa girər və zəfər qazanar. Çünki bu yerlərdə hər hansı bir ordunu məğlub etmək çox asandır. Dağları-daşları, qayaları alınmaz qaladı, səngərdi. Deyilənə görə orda Fərzalı bəy adlı biri var. Çox igid adamdı. Belə olan surətdə bizim də işimiz çətinləşir. Buna görə də, biz tərxanlıları ancaq hiylə ilə məhv edə bilərik.

Gözlər heyrətlə Karonun üzünə dikildi. Karo cavab verməyə tələsmədi, taxtanın üstündəki buz kimi suyu başına çəkdi, çadırın pərdəsini aralayıb alovlanan ocaqlara baxdı, ulduzlu göylərə tamaşa elədi. Martiros səbirsiz halda soruşdu:

– Karocan, bizim çoxlu silahımız, əsgərimiz var. Biz kəndi bir həmlədə məhv edəcəyik.

– Bu elə də asan deyil, – Karo başını yellədi, – tərxanlılar bizi kəndə yaxın buraxmaz. Məsələ belədi: biz Sərt yoxuşdan yenib sıx meşənin içinə girəcəyik. Meşənin ortası geniş taladı. Biz mütləq bu taladan keçməliyik. Çünki başqa yol yoxdur. Taladan yuxarıda isə sərt qayalar var. Başa düşdün, səngər kimi qayalar. Bu qayaların arxasında gizlənən müsəlmanlar bizi asanlıqla məhv edə bilər. Amma biz kəndi, – Karo hiyləgərcəsinə qımışıb göz vurdu, – itlərin köməyi ilə... işğal edəcəyik.

– İtlər? Hansı itlər? Sən nə danışırsan, Karo? Bu dağların başında it nə gəzir?

– Mən sizə özüm demədim, Martiros. Ordu ilə bərabər itlər də gedəcək.

– Sənin güvəndiyin o itlər hardadır? İtlər bizim kimi tüfəng götürüb düşmən üstə gedəcək? – Martiros sadəlövhlüklə soruşdu və onun baxışlarındakı küt ifadə Karonu özündən çıxardı:

– Ay axmaq, Antandadakı doslarımız bizə xeyli it hədiyyə göndəriblər. Bu itləri arabalarla Qafandan keçirib Hadruta, ordan da Kirs dağına gətirəcəklər.

Martiros ağzını büzdü, gözləri qaranlıqda işiq saçdı:

– Bu gecə yatmayıb itlərin köməyi ilə musurmanlara dəhşətli cəza fikirləşəcəm, – əllərini bir-birinə sürtüb, sanki o dəhşətli anların nəşəsini indidən yaşayırmış kimi təntənə ilə dedi: – sizin belə qanınız donacaq.

Karo qaşqabağını tökdü:

– Biz burda hələlik hücum planı hazırlayırıq. İtlər sonrakı işdi. Başa düşdün, Martiros?

– Bəs onda itləri neynirik? Onlar cəza üçün deyilmi?

– Bunlar təlim görmüş ingilis itləridi. Tərxanlı kəndi, dediyim kimi, strateji əhəmiyyətli bir yerdi. Fərzalı bəy duyuq düşsə tədbir görər, elə bir yerdə mövqe seçər ki, biz yüz ildə

döyüşsək məğlub olarıq. İngilis itləri düşmənin yerini tapmaqda bizə yardım edəcək.

– Demək belə. Başa düşdük, Karo. Sən çox ağıllısan.

Karo yenidən xəritənin üzərinə əyildi.

***

Fərzalı bəy Şuşadan aldığı xəbərdən sarsıldı: daşnaklar Kirs dağı tərəfdən Sərt yoxuşdan adlayıb Tərxanlı kəndinə basqın edəcəklər. Məqsədləri ətraf kəndləri işğal etmək, soyqırım aparmaqdır. Özləri ilə xeyli silah-sursatla bərabər Antantadan göndərilmiş itlər də gətirirlər.

Fərzalı bəy məktubu təkrar-təkrar oxudu. Ona elə gəldi ki, dağların sisi-dumanı, qaralmış buludları Tərxanlının başı üstə dayandı. Sanki güllə yağışı ev-ev gəzdi, baltalar işə düşdü...

Bu anda həyət süvarilərlə doldu. Bəşir bəyin tanış, doğma səsini eşidəndə dərindən nəfəs alıb əlini ürəyinin başına qoydu. Ona elə gəldi ki, dağlar yerindən oynayıb Tərxanlının harayına gəldi...

– Ay uşaq, Fərzalı bəy evdədimi?

Fərzalı bəy onun pişvazına çıxdı:

– Bəşir bəy, buyurun.

Bəşir bəy çevrilib geriyə baxdı. Fərzalı bəy gözünə inanmadı: yollarda toz-duman içində atlarını sürətlə çapan süvarilər göründü. Onlar köməyə gəlirdi...

Bəşir bəy atdan düşdü, qucaqlaşdılar. Fərzalı bəy Şükür bəyi, Ədil bəyi də qucaqladı. Sanki onların gəlişi ilə içindəki sıxıntı, narahatlıq yaz dumanı kimi çəkilib getdi. Qonaqlar döşəkçələrin üstə oturub kürəklərini bəzəkli yasdıqlara söykədilər. Fərzalı bəy xidmətçilərə göstəriş verdi:

– Yemək-içmək hazırlayın.

Sonra yenidən içəri qayıtdı. Bəşir bəylə üz-üzə oturdu, sevincini heç cürə gizlədə bilmirdi:

– Mən sizi gözləmirdim, Bəşir bəy.

– Mən öz dəstəmlə gəlmişəm. Ədil bəyin, Şükür bəyin dəstəsi də yoldadır. Daşnakların hücum xəbərini alan kimi yola düşdük. Ermənilərin anasını ağlatmaq bizə borc olsun, bəy.

Ortaya çay gəldi. Samovar çayının ətri köz ətri kimi otağa yayıldı. Fərzalı bəy dedi:

– Onlar Tərxanlını asanlıqla işğal edə bilməzlər, Bəşir bəy. Çünki meşəlik, qayalıqlar, dərə-təpələr səngər kimi bizi qoruyacaq. Amma aldığım məlumata görə onlar özləri ilə it gətirirlər. Özü də xeyli sayda. Yerimizi bəlli edəcək bu it sürüsü ilə necə başararıq? Bax, məsələ bundadı.

– Bəy, dayan görüm, necə yəni it sürüsü ilə gəlirlər?

– Karo bilir ki, bizimlə mərdi-mərdana döyüşə bilməz. Ermənilərin biri də burdan sağ qurtarmaz. Ona görə də kələk işlədirlər. İtlər yerimizi bəlli edəcək, ermənilər hücuma keçəcək. İlk növbədə biz itləri aradan götürməliyik. Amma necə?

Otaqda dərin bir sükut yarandı. Bu ağrılı sükut hər kəsin qəlbində bir hava çaldı. Fərzalı bəy çarəsiz halda dərindən nəfəs aldı və gözlərində son ümidin işartısı göründü:

– Cəllad Karo bu yerləri işğal etsə biz gərək başımızda papaq saxlamayaq.

Şükür bəyin gözləri sevinclə parıldadı:

– Siz it dediniz?

– Bunlar təlim görmüş ingilis itləridir. Onları aradan götürmək... Ağlım bir şey kəsmir... – Fərzalı bəy ümidsiz halda Bəşir bəydən cavab gözlədi.

– Bəylər, darıxmayın, ruhdan düşməyin, mən onlara elə bir hiylə işlədəcəm ki, Tərxanlının yolunu bir dəfəlik unutsunlar.

– Nə kələk? – Fərzalı bəylə, Bəşir bəy heyrətlə dizləri üstə qalxdılar və gözlərini Şükür bəyə dikdilər.

Şükür bəy qarayanız çöhrəsinə yaraşıq verən uzun bığlarının ucunu yuxarıya burdu, bəyləri intizarda saxlamaqdan sanki bir nəşə duyaraq gözlərini bic-bic qıydı. Handan-hana dedi:

– Kirs dağından Tərxanlıya ancaq bir yol var. O da Sərt yoxuşdu. Başqa yol yoxdur.

– Xeyir, yoxdu, – Fərzalı Şükür bəyin nə deyəcəyini həyəcanla gözlədi.

– Sərt yoxuşdan aşağıda meşəlik başlayır. Meşənin ortasında geniş tala var. Ermənilər mütləq bu talaya çıxacaq. Çox güman ki, itlərlə...

Fərzalı bəy səbirsiz halda onun sözünü kəsdi:

– Biz də meşədən sol tərəfdə qayalıqlarda gizlənəcəyik. Bu itlər bizi asanlıqla tapar.

Şükür bəy yenə nazik bığlarının ucunu sığalladı və gülə-gülə dedi:

– Mən meşənin ortasındakı talada elə bir tələ quracam ki, ermənilərin beli qırılacaq.

Bəşir bəy iftixarla Şükür bəyi süzdü və əlini onun kürəyinə çəkdi:

– Mən demişəm də, sən gərək general olaydın. Hərbi sahədə ağlın çox yaxşı işləyir.

– Demək belə, – Şükür bəy onları çox intizarda saxlamadı, – mənə bir neçə çoban iti və iki də öküz lazımdı. Həmin itləri, özü də ac itləri talada zəncirlə möhkəm bağlayıram ağaca. Öküzləri isə kəsdirib iri parçalarla atıram qabaqlarına. Daşnaklar itləri buraxırlar meşəyə. İngilis itləri ətin qoxusunu alıb özlərini yetirəcək talaya. Ətin əldən getdiyini görən bizim ac itlər zəncirləri qırıb cumacaq ingilis itlərinin üstə. Qanlı savaş başlayacaq. Daşnaklar söz yox ki, bu savaşa müdaxilə edəcək. Bizim itləri məhv etməyə çalışacaq. Ara qarışacaq, məssəb itəcək... Onda bizimkilər bundan istifadə edib düşmənin başına od ələyəcək.

– Çox ağıllı plandı, – Fərzalı bəy Şükür bəyin əlini sıxdı, – amma ermənilərin Sərt yoxuşdan aşağı düşdüyü, meşəyə girdiyi vaxtı bilməliyik.

– Kəşfiyyata iki nəfər cavan seçib göndərək. Vaxt azdı, ola

bilər ki, ermənilər bu gecə yola düşsün. Savaşı bilmək olmaz. Düşmən güclüdü, silah-sursatla üstümüzə gəlir. Məğlub olmağı da gözə almalıyıq. Ona görə də Tərxanlını boşaltmaq lazımdı. Əli silah tutanlar bizə qoşulacaq, arvad-uşaq isə gecə ikən Türklər, Fərəcan, Malxələf kəndlərinə gedəcək.

– Doğrusu budu, Fərzalı bəy. Arvad-uşaqdan nigaran qalmarıq.

Şükür bəy də ayağa qalxdı:

– Mən də gedim, hazırlığa başlayım.

– Qardaşım Nəcəfqulu bəyi sənə köməkçi verirəm, – Fərzalı bəy onun arxasınca çıxdı.

***

Tərxanlı kəndi qorxu, vahimə ilə dolu gecəni sanki çiyninə aldı. Amma bu yükü hər kəs daşıyırdı, – yaşlı gözlərə sığmayan dəhşəti ilə, ürəklərini donduran ölüm sazağı ilə, ayaqlarına dolaşan, taqətlərini əllərindən alan vahiməsi ilə. Gecənin can üşüdən soyuğunda ay işığının çıraq tutduğu yol-rizlərdə adamlar, aclıqdan və soyuqdan üşüyən, üşüdüyünə görə də sızıldayan körpələr, vahimə içində arxalarına baxa-baxa yüyürən uşaqlar, əl ağaçına söykənə-söykənə çətinliklə yol gedən, ermənilərin zülm və işgəncəsindən yaxa qurtarmağa çalışan qocalar... Və gecənin içindən ağlaşma, hıçqırtı, fəryad səsləri gəlirdi.

Arxada isə Tərxanlı igidləri qəddar düşmənlə savaşa hazırlaşırdı...

***

Dan yerinin ağarmağına az qalırdı. Gecəni yatmamış Karo qalın gödəkcəni üstündən atdı. Pərdəni qaldırıb ətrafa nəzər yetirdi. Kirs dağının başı aylı-ulduzluydu. Karoya elə gəldi ki, ulduzlar burda daha parlaq, işıqlı, daha yaxın idi. Kirs dağının ətəkləri sanki sonsuza qədər dərə-təpələrdən, çöllərdən ibarət idi. Küləklərin havasında gül-çiçəyin ətri vardı.

Karonun birdən Tanrıya da acığı tutdu: "İlahi, nə olardı, bu cənnət qoxulu məkanı ermənilərə verəydin, nə olardı... Bizi torpaqsız, vətənsiz qoydun. Nə günahın sahibiydik ki... Amma yox, bu yerlər bizim olacaq. Burda bir nəfər də müsəlman qalmayacaq. Eşidirsənmi, ilahi... "Soyuq canına dolub içinə qədər üşütdü: "Zəngəzurda igid adamlar var... Amma biri də qarşımıza çıxmadı. Biz kəndləri talayıb, müsəlmanları işgəncə ilə bu həyatdan məhrum edirik. Hanı o igidlər? Əlipaşa bəyi deyirlər... Bu adam bir vaxt bizim ermənilərə qan uddurub. İndi onun oğlu Sultan bəy... Hardadır o Sultan bəy? Bizim qorxumuzdan qaçıb gizlənib. Çıxsın Karonun qarşısına. Amma gizlənib... Çünki Karodan qorxur..."

Bu anda Karoya sanki aslan gücü gəldi. Havaya bir güllə atdı. O anda çadırlarda səs-küy eşidildi. Aramla Samvel özlərini Karoya yetirdilər. Karo bir cəngavər ədası ilə əmr etdi:

– Vaxtdı. Yola düşürük.

Aram qaçıb hərəkət əmri verdi. Karo balıncın altından götürdüyü qılıncı Samvelin gözünün qarşısında nümayiş etdirdi:

– Bu necə xəncərdi, Samvel?

Samvelin xırda gözləri işıldadı, əlini xəncərin tiyəsinə toxundurdu, qəbzəsindəki naxışları sığalladı:

– Karocan, mənim əziz generalım, bunu sizə bəxşişmi veriblər? Bu çox qədimdi. Bu cür xəncərləri bizim babalarımız bir qəhrəman kimi həmişə kəmərlərində gəzdiriblər. Bu xəncər hardandı səndə? Yoxsa müsəlmandan...

Karo hirsləndi:

– Axmaq, bu mənim babamındı. Mənim babam da musurmanların qatı düşməni olub. Babam onların qanını içməyə hazır idi.

– Hə, demək babandan miras qalıb.

– Bu gün həmin bu qılınc Tərxanlı müsəlmanlarının qanını tökəcək. Babamın da ruhu şad olacaq.

– Uğur olsun, general.

– Samvel, Aramı gözüm tutmadı. Göz-qulaq ol, qarət olun-

muş qızıllara özün nəzarət elə. Bu qızıllar silah almaq üçündü. Anladınmı?

Karonun etibarı Samveli sevindirdi, – Anladım, Karocan. “Sən çox hiyləgərsən, Karo. Qəddar olduğun qədər də acgözsən. Məni avammı bilirsən?..”

Az keçmədi ki, at nallarının səsi, yüklü qatırların fınxırtısı, cırıldayan arabalarda gedən itlərin hürüşməsi bir-birinə qarışdı.

***

...Fərzalı bəy çırağın işığını artırdı. Ədil bəy, Bəşir bəy, Şükür bəy – üçü də narahat və həyəcanlıydı. Kəşfiyyatçılar düşmənin Sərt yoxuşdan yenmək xəbərini gətirdi. Tərxanlı o an döyüş meydanına çevrildi. Hər kəs Fərzalı bəyin əmrini gözlədi.

Qadınlar da öz işindəydi. Fərzalı bəyin geniş həyətində ocaqlar çatılmış, iri qazanlarda ət bişirilərək sabahkı döyüş üçün ərzaq tədarükü görülürdü.

Fərzalı bəy üzünü Bəşir bəyə tutdu:

– Bəylər, biz bir daha düşündüyümüz plana nəzər yetirək. Atdığımız səhv addımın acısını, peşimançılığını yaşamayaq. Düşmənə torpağımızı işğal etmək fürsəti verməyək.

– Buyur, Fərzalı bəy.

– Demək belə, Şükür bəy ermənilərə kələk gələcək. Bu öz yerində. Bilirsiniz ki, ovçu Balakişi bizim meşələrə yaxşı bələddir. O da ovçu Sultanla burdadı. Onların da dəstəsi var. Hər ikisi zirək və qoçaqdır. Ovçular sağ cinahda pusqu quracaq. Söz yox ki, itlərin boğuşması daşnakları çaşdıracaq, onlar başlarını itirib ingilis itlərini ayırmağa və əsas məqsədə yönəltməyə çalışacaqlar. Ağıllarına gəlməyəcək ki, ətrafda bizimkilər bu anı gözləyir.

Fərzalı bəy nəfəsini dərdi, gözlərində nifrət qığılcım kimi alışdı:

– Qəddar Karo Tərxanlı igidlərinin zərb-dəstini görməlidi. O və onun quldurları tarixə düşən dərs almalıdı. Beləliklə, Bə-

şir bəyin dəstəsi sol cinahda dayanacaq və məndən atəş əmri gözləyəcək. Pulemyotları isə sol cinahda yerləşdirəcəyik. Qarışıqlıq yaranan kimi pulemyotlar atəş püskürəcək və düşməni biçib tökəcək. Mən qayalıqların arxasında dayanıb döyüşün gedişini izləyəcəm. Bir daşnakın da qaçıb getməsinə aman verməyin. Allah bizə kömək olsun.

Ucadan "Amin" səsləri eşidildi və bəylər müdafiəçilərə son tapşırıqlarını vermək üçün otaqdan çıxdılar.

***

Gecəyarısı Böyük tala birdən-birə canlandı. Şükür bəy çoban itlərini gətirən cavanlara göstəriş verir, ac itlər talanı dövrələyən ağaclara bağlanırdı. Arabalarla gətirilmiş ət parçaları kənarda saxlandı. İtlər hələ ki, sakit idi, hərdən tənbəl-tənbəl hürüyür, tez də səslərini kəsirdilər. Bəlkə də ac olduqlarından zəncirləri dartıb qırmağa qüvvələri çatmırdı.

Fərzalı bəyin planı əsasında müdafiəçilər talanı nal şəklində mühasirəyə aldılar. Pulemyotlar ağacların arxasında, meşəyə yaxın olan qayalıqlarda gizlədildi. Kəşfiyyat yenidən irəli getdi və düşmənin talaya girəcəyi vaxtı xəbər verdi.

Fərzalı bəy gərgin idi. Neçə günün yuxusuzluğu, yorğunluğu özünü biruzə verirdi: gözlərinin içi qızarmışdı.

***

Süvarilər Sərt yoxuşdan aşağı çətinliklə yendilər. Karo üzünü onunla yanaşı atını sürən Martirosa çevirdi:

– Qulağıma it hürüşməsi gəlir, Martiros.

– Karocan, Tərxanlının itləri yəqin ki, sahiblərinin başlarına gələcək müsibətləri duyaraq vay-şivən salıb. Deyirəm baltaları işə salmadan tərxanlıları bəlkə itlərimizə parçaladaq? Biz də yorğunluğumuzu şərabla çıxaraq və nəşə içində tamaşa eliyək. Karocan, bu ingilis itləri insan qanına susamış canavarlardır.

– Mən də elə düşünürəm. Balta vurmaqdan qollarımız ağrı-

yır. Bu dəfə işimizi köpəklər görsün. Amma itlər acdı. Onları yedirmək lazımdı.

– Onlar ac olmalıdı.

Süvarilər dayandı. İrəlidə sıx meşə göründü. Bələdçi atını Karonun yanına sürdü və təntənə ilə dedi:

– Böyük talaya çatırıq. Meşəyə girən kimi itləri buraxsınlar.

İrəlidə ağaclar seyrəldi və onların arasında tala göründü. Karo əlini qaldırıb bağırdı:

– İtləri buraxın.

Bu anda zəncirləri açılmış itlər arabadan yerə tullandılar, ət qoxusunu alıb vəhşiləşmiş halda irəli cumdular....

Və Böyük talada savaş başlandı. Daşnakların gətirdiyi ingilis itləri ildırım tək şığıyıb özlərini ət parçalarının üstə atdılar. Çoban itləri qeyzlənib var qüvvələri ilə irəliyə can atdılar. Şükür bəy çoban Feyziyə qışqırdı: itlər zənciri aça bilmir, özünü yetir.

Zəncirlər açılan kimi ac itlər özlərini pələng kimi ingilis itlərinin üstə atdılar. Didişmə, boğuşma, it hürüşməsi meşəni bürüdü.

Karo sanki iflic olmuş kimi atın üstündə donub qaldı. Dəhşətli bir yuxunun içindəymiş kimi ayıla bilmirdi. Sarsılmış halda boğuşan itlərə silahındakı güllələrin hamısını boşaltdı və eyni anda da qışqırdı:

– İtləri güllələyin. Hamısını...

Ermənilər talaya cumdular. Durbinlə döyüşün gedişini izləyən Fərzalı bəy sol cinahda onun əmrini gözləyən Bəşir bəyə işarə verdi. Pulemyotlar atəş püskürdü, talada sanki yanğın başladı. Başını itirmiş, silahını yerə atıb qaçmağa çalışan ermənilər Karonun bağırtısına əhəmiyyət vermədən canlarını qurtarmağa çalışdılar. Bu anda ovçu Balakişinin beşaçılan dəstəsi hücuma keçdi. Sərrast açılan güllələr erməniləri ağacların arxasında da

haqladı. Bu dəfə ermənilərin bağırtısı meşənin dərinliklərinə qədər yayıldı.

Balakişi sanki ov ovlayırmış kimi heyrətamiz bir zirəkliklə qayaların arxasında özünə mövqe seçdi və düşməni geriyə-talaya tərəf qovdu.

Karo daha meşəyə girmədi, Sərt yoxuşdan qalxaraq özünü Kirs dağının ətəklərinə çatdırmağa tələsdi.

Şükür bəy qayanın arxasından çıxdı, talaya yenmək istədi. Fərzalı bəy qoymadı:

– Özünü gülləyə vermə, Şükür.

– Karonun arxasınca gedirəm. Onu tapıb cəzalandırmalıyam.

– Səncə Karo dayanıb gözləyir ki, Şükür bəy gəlib onu əsir alsın? O, çoxdan aradan çıxıb.

– Amma Balakişinin bir gülləsi də havayı getmədi.

– Ovçu Sultan, o birilər də erməninin anasını ağlatdılar, – Fərzalı bəy iftıxar hissi ilə dedi və gözləri yaşardı.

Ermənilərdən sağ qalanlar qaçıb getmişdi. İngilis itlərinə qalib gəlmiş çoban itləri ət parçalarını rahatlıqla didişdirirdilər.

Silah yüklü qatırları talanın ortasına çəkdilər. Fərzalı bəy dedi:

– Biz düşməni məğlub etdik. Lakin tək əldən səs çıxmaz. Əlimizdə xeyli silah-sursat var. Sultan bəy zəngəzurlulardan ibarət vahid bir ordu yaradır. Düzdü, buna ordu demək olmaz. Amma torpağını sevən, Zəngəzuru qorumaq istəyən, onun yolunda ölümə hazır olan adamlar Sultan bəyin başına cəm olur.

Müdafiəçilər silahlarını başları üstə qaldırdılar və qışqırdılar:

– Biz hazırıq. Zəngəzurun yolunda, vətən yolunda döyüşə hazırıq.

Səs dalğa-dalğa meşənin içinə yayıldı, uca göylərdə havalandı, İgidlik və qəhrəmanlıq hayqırışı olan bu səs erməni zülmündən əziyyət çəkən insanların yerə, göyə, torpağa pozulmaz andı kimi yazıldı...

**3.**

Ovçu Sultan qışqırıq, bağırtı səsinə özünü bayıra atdı. Vayşivən səsi kəndi başına götürmüşdü. Başarat kəndi çalxanırdı. Ovçu Sultan otağa qayıtdı, divardan asılmış beşaçılanı götürdü, vərdiş etdiyi cəldliklə meydana sarı yüyürdü. Camaat vahimə içindəydi. Körpə uşaqlar analarının ətəyindən yapışıb ağlaşırdı. Qocalar çarəsiz halda bir tərəfə yığışmışdı. Ovçu Sultan Süleyman kişidən soruşdu:

– Nə olub, ermənilər gəlir?

Süleyman kişi gözaltı arvad-uşağı süzüb, kövrəldi:

– Xozabird erməniləri meşədə görünüb. Başarata sarı gəlirlər, kəndi yandırıb, adamları qətlə yetirmək niyyətindədilər. Bu camaat hara qaçsın, harda gizlənsin ki, başını namərd erməninin baltasından qoruya bilsin?

Süleyman kişinin gözlərində yaş giləlndi. İri damcılar ağ saqqalından aşağı süzdü. Kişini qəhər boğdu:

– Sən bu meşələrdə odun qırmağa, meyvə yığmağa, kövşənlərdə sürü otarmağa gedənləri həmişə vəhşi canavarlardan, ayılardan qorumusan. Vaxt olub ki, ayılarla döş-döşə gəlib pəhlivan kimi onların arxasını yerə vurmusan. Əllərinlə boğub öldürmüsən. Amma indi bu ermənilər o vəhşilərdən də güclüdü, təhlükəlidi, Sultan.

Ovçu Sultan qocaya cavab vermədi, beşaçılanı başının üstə qaldırıb qışqırdı:

– Hamı evinə qayıtsın. Bu torpaq da, meşələr də bizimdi. İndiyədək sizi vəhşi heyvanlardan qorumuşam. İndi də erməni dığalarından qoruyacam. Onlar bu meşələrə ayaq basa bilməz. İndi isə dağılışın, hərə öz evinə.

Ovçu Sultan uzaqlaşanda Süleyman kişi arxadan qışqırdı:

– Gözlə, bu cavanlar da sənnən getsin.

– İkiayaqlı canavarlarla təkbətək döyüşəcəm. Məndən xəbər gözləyin.

Ovçu Sultan evə qayıtdı. Patrondaşını patronlarla doldurdu.

Sinəsindən kürəyinə aşırıb bağladı, ikinci tüfəngini də patronla doldurdu. Ova çıxanda mis parçı bulaq suyu ilə doldurub başına çəkərdi. İndi də suyu içdi, başını qaldırıb göylərə baxdı. Səma təmiz, buludlar ağappaq idi. Üzünü Tanrıya tutub əllərini açdı, dualar oxudu.

Meydandan hələ də qarışıq səslər gəlirdi. Amma kimsə ağlamırdı. Çəpərin yanına çatanda kənd cavanlarını gözləyən gördü. Vəli irəli yeriyib çiyninə saldığı tüfəngi göstərdi:

– Sənnən ova getmişəm, Sultan, heç olmasa məni apar. Ermənilərdən hayıfımızı alım.

– Ermənilərlə savaşımız hələ indi başlayır, Vəli. Silahın lazım olacaq, darıxma.

Ovçu Sultan cavanları geri qaytardı və sıx meşəyə gedən cığıra düşdü.

***

Meşənin səssizliyindən tünd rütubət qoxusu gəlirdi. Ağacların altı qalın kölgəlik idi. Ovçu Sultan qocalıqdan gövdəsi əyilmiş budaqlarında tək-tük yarpaqlar qalmış ağaca söykəndi. İrəlidə danışıq səsləri və ayaq altında qalan çır-çırpının şaqqıltısı gəlirdi. Tüfəngin tətiyini çəkib atəşə hazır saxladı, ağacın arxasında gizlənib gözlədi. Səslər yaxınlaşırdı. Budaqları aralayıb diqqətlə baxdı: irəlidə rus hərbi paltarı geyinmiş, ətli yanağında çapığı aydınca seçilən kök erməni göründü. Onun əlində bir topa kəndir vardı. Erməni büdrəyib üzüstə yıxıldı və ovçu Sultan bu anda onun arxasınca sürünən adamı gördü: boynuna kəndir salınmışdı, kol-kos əllərini, üzünü cızıb qanatmışdı, yalın ayaqları qan içindəydi. Oğlan dartınır, boğazını kəndirdən xilas etmək istəyirdi. Lakin arxadan gələn ermənilər əllərindəki qamçı ilə onu vurur, erməni söyüşünün arxasınca hırıltılı səslər gəlirdi.

Ovçu Sultan üzünü çevirib başını ağacın gövdəsinə söykədi. Qisas hissi sanki barmaqlarının ucuna qədər canını köz ki-

mi yandırdı. Gözlərinin içini alov qarsırdı, tüfəng tutan əlləri əsirdi, içindən bağırmaq, var qüvvəsi ilə qışqırmaq, dağlara-daşlara səs salmaq istəyirdi. Əli ilə ağzını tıxadı: "Sakit ol, sakit ol, Sultan. Yadındamı, bir dəfə qəfildən üstünə ayı cumdu, səni süpürləyib altına aldı. Sən bütün gücünü, qüvvəni toplayıb ağlınla ayıya qalib gəldin. Ayı səni şil-küt elədi. Qolun sınmışdı, ağır yaralanmışdın. Amma sən ayını məğlub etdin. İndi də tələsmə, səbirli ol... Bunların birini də hürküdüb əlindən qaçırma...".

Ovçu Sultan atəş açmaq üçün ağacın sıx budaqlarının arasında özünə yer elədi. Kök ermənini nişana götürdü və gözləməyə başladı. Oğlanın başı sinəsinə düşmüşdü, ayaqları yerlə sürünürdü. Cavan ermənilərdən biri irəli gəldi, başını oğlanın sinəsinə söykədi, nəfəsinə qulaq asdı, sonra da ayağa qalxıb sevincək dedi:

– Hələ sağdı, ölməyib, nəfəs alır, Osip.

Osip deyilən kök erməni oğlanı qollu-budaqlı ağacın altına çəkdi, saqqallı erməni dəmir qabdan onun üzünə su atdı, oğlan diksinib gözünü açdı.

Osip gülüb oğlanın kürəyinə bir təpik vurdu:

– Özünü ölülüyə vurur ki, ondan əl çəkək.

Arxadakı ermənilər də gəlib çatdı. Osip üzünü onlara tutdu:

– Kömək eləyin bunu asaq və özümüzü kəndə yetirək.

– Bəlkə atıb gedək? Onsuz da pis gündədir.

– Mən bunu öldürə bilərdim. Sizi nəşələndirmək üçün sürüyüb meşənin içinə gətirdiim, – Osip acıqlı halda kəndiri yerə çırpdı. Oğlan zarıdı, yerində çabaladı. Osip kənara çəkilib dayandı, silahını çıxardı və oğlanı nişan aldı.

Cavan erməni əl-ayağa düşdü:

– Osip, yaxşı, incimə sən deyən olsun, gəl onu asaq ağacda bayraq kimi yellənsin. Vaxtımız azdı. Arxadan bizimkilər köməyə gələcək.

Aşağı əyilib oğlanı qaldırmaq istəyəndə qəfildən açılan

güllələr onları biçib tökdü. Osipin əlindəki kəndir düşdü. Ovçu Sultan gizləndiyi yerdən çıxdı. Oğlana yaxınlaşdı. Onun gözləri qapalıydı. Oğlanı çiyninə atdı və sürətlə meşədən çıxdı. Başaratlı cavanları başına yığmaq üçün tələsdi.

***

Kəndirlə əl-ayağı möhkəm sarınmış Həsənalını zirzəminin qapısından içəri atdılar. Başı daş döşəməyə dəydi və huşu dağılmış Həsənalı ağrıdan qıvrılıb inildədi. Kəndir əl-ayağını sürtdüyündən qanlı izlər salmışdı, kürəyində elə bil köz yanırdı.

Sumbat əyilib onun nəfəsinə qular asdı və ucadan dedi:

– Sağdı, Sarkis, tez ol, nalları qızdır, gətir.

Sarkis qırmızıya çalan saqqalına tumar çəkdi, iri burnunu qırışdırdı və nırç atdı:

– Xeyri yoxdu, bu onsuz da bağırmayacaq. Görmürsən nə gündədi? Burax getsin.

– Nalları qızdır, dedim, – Sumbat qan sağılmış kimi görünən qırmızı gözlərini ağartdı.

– Nallar ocağın üstədi. Buramı gətirim?

– Sürüyək aparaq ocağın yanına.

– Uşaqları çağırım, kömək eləsinlər.

Həsənalının göz qapaqları titrədi, İçində yanan son ümid üfürülüb keçdi. Dodağı əsdi, bacısını harayladı: Tavat...

Sumbat başını qaldırıb təəccüblə soruşdu:

– Tavat kimdi, Sarkis?

Sarkisin üzündə qorxu, əndişə göründü:

– Tavat bunun bacısıdı.

Sumbat əlini əlinə vurub ucadan güldü, gözlərində yaş göründü:

– Qardaşı yoxdu, biz əvvəl onu öldürdük. Gümanı bacısına gəlir. Görəsən hardadı Tavat, tapıb gətirək. Onun gözü qabağında ayaqlarını nallayaq.

– Tavatı?... Ay axmaq, o bura gəlsə ocaqda qıpqırmızı qı-

zarmış bu nallar bizim ayaqlarımıza vurulacaq. Başarat elində heç bir kişi onun kimi at minib, sərrast güllə atmır. Bu qız Allahın bir bəlasıdır.

Sumbat həyəcan içində Həsənalıya, sonra da Sarkisə baxdı:

– Deyirsən yəni Tavat qardaşlarının qisasını bizdən alar?

– Təkcə bizdən yox, bütün ermənilərdən.

Sumbat qeyzləndi:

– Onda iki nalı Tavat üçün saxla. İndi isə nalları hazırla, bunu da ocağın yanına sürüsünlər.

Həsənalı göz qapaqlarını qaldırıb Sarkisin üzünə baxdı, qaysaqlanmış dodaqlarını islatdı və yalvardı:

– Sarkis, sən mənim atamın çörəyini yemisən. O çörəyin xatirinə, nə olar, bircə güllə vur. Canımı qurtar işgəncədən.

Sarkis ona tərəf əyildi, xırıltılı səslə güldü:

– Sən bir gülləyə dəyməzsən.

– Tavat sizin axırınıza çıxacaq.

– Bir arvad ha? İki günə kimi Tavat bu ocağın başında olacaq. Bizə yalvaracaq, göz yaşı tökəcək. Sənin kimi asan ölmək üçün bizdən bir güllə istəyəcək. Bircə güllə...

– Tavat haa... Tavat...

Nalbənd Sarkis nalları ortaya tökdü, dişsiz ağzı dərin quyu kimi açıldı və o, gülə-gülə iki iri nal seçib götürdü:

– İndiyə qədər atların ayağına nal vurmuşam. İndi də... dayan görüm...

Həsənalı yenə zarıdı:

– Sarkis...

Sarkis başını çevirib nırç atdı və qızmış nalları ocaqdan maşa ilə götürdü...

***

Tavat həyətə girəndə izdihamı o anda gördü, tüfəngi çiynindən götürüb həyəcan içində atası Kərbəlayi Məmmədin üstə

getdi. Qızını görəndə kişinin qızarmış gözlərinin yaşı qurudu, özünü topladı və təmkinli olmağa çalışdı:

– Tavat, gəldinmi?

– Gəldim. Bu adamlar bura niyə yığışıb? Bir hadisəmi olub?

Qız çaşqın qaldı, sanki həyəcan, narahatlıq bir anda alov kimi içinə qədər yayıldı, gözləri alacalandı. Sahib kişi titrək səslə, çətinliklə:

– Qardaşların yoxdu, – dedi, – sonra əli ilə ağacların altına işarə elədi. Həsənalı ilə Həsənin atları başlarını aşağı salıb dayanmışdılar. Qabaqlarına ot qoyulsa da, ağızlarını ota vurmurdular.

Atasının səsindəki hüzn Tavatın ürəyini dağladı:

– Atlar sahibsiz gəldi. Ermənilər... uşaqları...

Tavat kürəyini divara söykədi. Gözlərini yumdu, elə bil bu anlarda içinə dolan acının şiddətindən boğuldu, nəfəs ala bilmədi. Kərbəlayi Məmməd Tavatın başını sinəsinə sıxıb hönkürdü. Kimsə dedi:

– Ermənilərdən xahiş eliyək, heç olmasa onların nəşini versinlər.

– Xahiş? – Tavat atasından aralandı, uzun hörüklərini sinəsindən kürəyinə atıb içinin acısı ilə qışqırdı:

– Xahiş yox. Xahiş yox... Niyə xahiş? Qana qan...

Kərbəlayi Məmməd qızının öfkəsindən, bir dəlilik edəcəyindən qorxub onu sakitləşdirməyə çalışdı:

– Biz qatilin kim olduğunu bilmirik. Gözləyək. Gecədir. Sübh tezdən axtaraq. Bəlkə sağdılar?

– Əgər atlar sahibsiz gəliblərsə qardaşlarım sağ deyil, ata. Amma sən ağlama. Ağlamaq bizə yaraşmaz. Düz deyirsən, bu gecə vaxtı biz bir iş görə bilmərik. Hamı dağılışsın evinə.

Tavat içəri keçdi, anasını qucaqladı və onun başını sinəsinə sıxaraq özü də göz yaşı tökdü.

***

Kərbəlayi Məmməd yorğanı başına çəksə də yuxlaya bilmədi. Yorğan-döşək sanki tikan olub canını daladı. O, Başaratda ağlı, savadı, əliaçıqlığı ilə ad çıxarmışdı. Bir axşam oğlanları Həsənalı ilə Həsəni yanına çağırdı:

– Bir eşqə düşmüşəm, – dedi.

Qardaşlar güldülər:

– Bu yaşında eşqmi olur, ata?

– Olur, olur, Həsənalı. İstəyirəm ki, Başaratda bir məktəb açım, uşaqlarımız orda təhsil alsınlar, savadlansınlar. Bu savadsızlığın ucbatından kimsə kənara çıxa bilmir. Mal-heyvan otarmaqla irəli getmək olmaz. Qoy bizim uşaqların da gözü açılsın.

Həsən atasının üzündən öpdü:

– Düz deyirsən ata, biz özümüz də hərif tanımırıq, kitab oxumuruq. Qubadlı dağlarından o tərəfə gedə bilmirik.

– Bunun üçün neynəmək lazımdı? – Həsənalı sevincək soruşdu.

– Məktəbi Fərəcan kəndində açaq. Çünki bu kənd böyükdür, ətraf kəndlərə də yaxındır. Xozabird kəndində yaxşı erməni ustaları var. Məktəbin tikintisini tapşıraq onlara. Məktəbdə erməni uşaqları da oxuya bilər.

– Bəs kitab işi nə olacaq? – Həsənalı soruşdu.

– Bəhlul Behcəti tanıyırsız? Şərq ədəbiyyatının bilicisidir. Onunla belə qərara gəlmişik ki, dərsliyi Nizaminin “Xəmsə”, Sədinin “Gülüstan”, “Bustan” əsərləri əsasında hazırlasın. Yeri gəldikcə “Quran” ın ayələrindən də dərsliyə salsın.

– Oldu, ata, mən sabah Xozabirdə gedib erməni ustalarını gətirərəm, sən pulunu hesabla.

... Məktəb hazır oldu. Amma qapıları bağlı qaldı... Qəfildən Həsənalı ilə Həsən itkin düşdü.

Kərbəlayi Məmməd nədənsə nalbənd Sarkisi xatırladı. Sanki qaranlığın içindən üzünə xəncər tiyəsinə oxşar iti, nifrət dolu baxışlar zilləndi. Yorğanı kənara atıb ayağa qalxdı, əlini sinəsində gəzdirib yanan, alovlanan ürəyinin hovunu almaq istədi.

Amma közün istisi sanki barmaqlarını yandırdı, ciyərini, bağrını dağladı. Yadına düşdü ki, Həsənalı Fərəcan kəndindən qayıdıb gələndə Sarkis həyətdə, atların yanındaydı. Həsənalı əsəbi və narahat idi. Kərbəlayi Məmmədi kənara çəkdi:

– Bu ermənilər əl atdan iş görürlər. Xozabird kəndinin qırağındakı sərhəd dirəkləri vardı ha, bu dirəkləri gecə ikən çıxarıb Fərəcana yaxın olan Tozağacda basdırıblar.

– Görəsən niyə?

– Ay ata, savadlı adamsan, başa düşmədinmi niyə? Bunlar Ermənistanın sərhədlərini Fərəcana qədər çəkirlər. Burdan Qarabağa adlamaq lap asandır.

Kərbəlayi Məmməd içində bir əndişə duydu, başlarına gələcək fəlakətin soyuğunda üşüyüb çiyinlərini qısdı. Ətraf kəndlərdə artıq gizli savaşın alovları Başarat elini də bürüməkdəydi.

Kişi əlini ağarmış saqqalına çəkdi və astadan dedi:

– Oğlum, Azərbaycan hokumətini xəbərdar etmək lazımdı.

– Bəlkə Həsənlə gizlicə Bakıya gedək?

Kərbəlayi Məmməd duruxdu, ürəyinə nə isə dammış kimi özünə də yad gələn səslə dedi:

– Qorxuram, Həsənalı. Başınıza bir iş gəlməsindən qorxuram.

– Biz gizlicə gedərik.

– Ermənilər bilsə...

– Hardan biləcəklər? Laçına getmək adı ilə evdən çıxarıq.

– Vallah, bilmirəm.

– Qorxma. Bacım Tavat bir şey olsa sizi qoruyacaq. Sübh tezdən yola çıxaq.

... Dan yeri ağarmamış Həsənalı ilə Həsən atları minib yola çıxanda Sarkislə Aram da gizləndikləri yerdən çıxdılar və atlarını onların arxasınca sürdülər.

***

Gecəyarısı Xozabirddə çıraqlar sönsə də Sarkisgilin işığı yanırdı. Masanın baş tərəfində oturmuş Aram başını qollarının

üstə qoyub dərin yuxuya getmişdi. Deyəsən yuxuda da səksəkəliydi. Tez-tez ayılır, sərxoşluqdan qızarmış gözləri ilə ətrafa baxır, sonra da təzədən yuxuya gedirdi. Əndişə içində olduğu görünüşündən bəlliydi.

Cavanlar hələ də şərab içirdi. Dəhşətli vahimə hissi gecənin qaranlığı kimi Sarkisin içinə çökürdü. Həsənalıya verdiyi işgəncə saatlarında duyduğu nəşə, vəhşi canavarın hiss etdiyi ləzzət sanki bu anlarda qeybə çəkilmişdi və Sarkis qorxu hissindən tir-tir titrəyirdi. Gözləri qaranlıq pəncərədəydi, dişsiz ağzı sanki nazik dodaqlarını içəri çəkmişdi və uzanmış çənəsində, tüklü sifətində, pırpız qaşlarının altında gizlənmiş kimi görünən bozumtul gözlərində sevincdən, nəşədən heç nə qalmamışdı. Ona elə gəldi ki, içəridə oturub rahat şərab içdikləri anda Tavat əlində silah həyətdə gözləyir. İndicə pəncərənin şüşələri bir güllə səsindən cilik-cilik olacaq, Tavatın kişi kimi möhkəm əlləri onun nazik boynundan yapışacaq və gözləri hədəqəsindən çıxana qədər sıxacaq...

Alnını soyuq tər basdı. Ürəyi elə çırpındı ki, sanki içində güclü bir zəlzələ baş verdi və bu zəlzələ onu bayıra atdı... Ürəyindəki sıxıntı, ölüm qorxusu bir-birinə qarışdı. Amma ətrafda hələ ki, sakitlik idi. Ağaclar süd kimi ay işığında səssiz görünürdü.

Sarkis alnının soyuq tərini sildi və özünə təskinlik verdi: "Başları qarışıqdır. Həsənalıgili axtarırlar. Amma Tavatı oğurlamalıyıq. Tavat bizim üçün təhlükədi. Başarat müsəlmanlarından bizə zaval gəlməz. Elə bilirəm Kərbəlayi Məmməd oğullarının itkin düşməsində məndən şübhələnəcək. Çünki o gün onlar mənim yaxında olduğumu gördülər. Söhbəti eşitdiyimi duydular. Görəsən Tavat bunu bilirmi? Bilsəydi indi burdaydı... Tavat üçün də iki nal saxlamışam..."

Sarkis birdən-birə canlandı. Sanki canında bir cəngavər gücü hiss elədi, bu cəngavər duyğusu içindəki sıxıntını, qorxu

və vahiməni sıxıb çıxardı. Yenidən otağa qayıtdı və Aramın çiynindən tutub var qüvvəsi ilə silkələdi:

– Qalx ayağa, gedirik.

Sərxoş Aram yuxulu səslə mızıldandı:

– Qoy yatım.

– Sən ölməkmi istəyirsən? Ayıl, gedirik.

– Axı hara?

– Kərbəlayi Məmmədin evinə. Evi yandıraq. Külfəti ilə bir yerdə. Tavatı tutub gətirək bura.

– Tavatı orda niyə yandırmayaq?

– Çünki mən onun üçün də iki nal saxlamışam. O, əzabla ölməlidi, başa düşdün?

Sarkisin oğlu da ayağa qalxdı:

– Mən də sizinlə gedirəm. Tavatın atında gözüm var.

Dığalar dağılışdı. Sarkis çevrilib arvadına göstəriş verdi:

– Başını atıb yatma. Yemək-içmək hazırla. Tavat indi dərddən başını itirib. Bu gecə onu oğurlamasaq sabah o, bütün Başaratı ayağa qaldıracaq.

Atlar gecənin qaranlığında Başarata tərəf çaparaq getdilər.

***

... Sarkisgil atlarını xeyli aralıda saxlayıb gizlicə evə yaxınlaşdılar. Kərbəlayi Məmmədin həyətində xeyli adam vardı. Tavat gözə dəymirdi. Üçü də ağacların arxasında gizlənib evə göz qoydular. Evlə üzbəüz yamaclarda, dağlara gedən yollarda, dərə-təpələrdə məşəllərin alovu görünürdü. Həsənalı ilə Həsənin axtarışı gedirdi.

Adamlar yavaş-yavaş dağılışdı. Kərbəlayi Məmmədin hüznlü səsi gəldi:

– Onların sağ olmağına inanmıram. İki gündü axtarırıq. Yorulmusuz, daha axtarışa ehtiyac yoxdu. Hamınız dağılışın.

Yaşlı kişi Məmmədi qucaqladı:

– Möhkəm ol, Məmməd. Tavata göz ol.

– Tavatdan nigaranam. Qardaşlarının qisasını almaq istəyəcək. Özünü təhlükəyə atacaq.

– Şübhələndiyiniz adam varmı?

– Var.

Həyət sanki adamların gedişi ilə matəm sükutuna getdi. Sarkis pıçıltı ilə dedi:

– Yəqin ki, Tavat yatıb.

– Hansı pəncərə onunkudu?

– Yuxarıdan küncdəki. Şahnazar nərdivanı gətirsin. Yuxarı qalxaq. İçəridəkiləri güllələyək, evi yandıraq. Tavatın əl-ayağını bağlayıb özümüzlə aparaq.

– Tavatı sağ saxlamaqla başımıza bəla açma, Sarkis.

Bu anda tüfəngin soyuq lüləsi Sarkisin boynuna dirəndi. Tavatın kişi səsinə bənzər qalın səsi sanki gecənin içinə top mərmisi kimi düşdü:

– Düz deyir Sarkis, Tavatı bəla kimi saxlama.

Tavat tüfəngin qundağı ilə Aramı vurdu, sonra Şahnazarı. Sarkis başını geriyə çevirmədən yalvardı:

– Nə olar, oğlumu burax.

Başına dəyən zərbədən Sarkis huşunu itirdi. Kərbəlayi Məmməd özünü həyətə atdı. Güllə səsinə başaratlılar tökülüb gəldilər. Tavat ayağını Sarkisin boynuna qoyub sıxdı:

– Bunlar Həsənalıgilə hansı işgəncəni veribsə o işgəncə ilə də ölməlidilər.

Dan yerinə səda düşdü. Həyətdə zəncirlənmiş "çaqqallar" hələ də özlərinə gəlməmişdi... və Tavatın ölüm hökmünü gözləyirdilər.

## İKİNCİ FƏSİL

# DAĞLARIN SULTANI SULTAN BƏY

*Türkü öldürmək olar,*
*ancaq onu məğlub etmək olmaz.*
**Napoleon**

**1.**

... Və savaş başlanırdı.

Bu savaş ölkələrin savaşı deyildi.

Bu savaş cəngavərlərin də savaşı deyildi.

Bu savaş xeyirlə şərin, mərdlə namərdin, haqlı ilə haqsızın savaşıydı...

***

Zəngəzurun yaranışından bəri eşitdiyi ilk səs bəlkə də qılınc-qalxan səsi olub.

Min illər əvvəl tarixin yaddaşında qalmış Cavidan və Cavanşirin başçılıq etdikləri Xürrəmi üsyanı bu yerlərin növrağını pozdu. Bu üsyanın alovlarında Zəngəzur mahalı yanıb kül oldu, insanlar zülüm çəkdi və onların acı taleyində dərin izlər buraxdı. Nəhayət ki, üsyanın alovları söndü, yorulmuş torpaq dərin yuxuya getdi. Amma bu nisbi sakitlik idi. Zəngəzur dağlarının sükutu yenidən pozuldu, başlanmış müharibənin soyuq nəfəsi torpağı üşütdü. Belə ki, Zəngəzur bu dəfə türklərin nəfsinə tuş gəldi: türk hökmdarı Alp Arslan zəngəzurlularla gedən savaşda zəfər çaldı. Səlcuqların hökmüranlığı yüz əlli il çəkdi. Yüz əlli il zəngəzurlular öz doğma yurdlarında qürbətdəymiş kimi yaşadılar, zülüm və iztirab çəkdilər. Səlcuqlar onları gözəl torpaqlardan, ucu-bucağı olmayan yaylaqlardan bəhrələnməyə qoymadı. Nəsillər dəyişdi.

Hər nəsil də dünyadan gedəndə ürəklərində barışa bilmədikləri haqsızlıqla bir üsyan qığılcımı apardı.

Yüz əlli ildən sonra monqol-tatarlar Zəngəzura yürüş etdi və səlcuqların hakimiyyətini iflasa uğratdılar.

Zəngəzurluların alnına yazılmış taleyin qara yazıları bitib-tükənmədi. Bu dağlar diyarına ayaq qoyan hökmdarlar özləri ilə birgə bu yerlərə aclıq, yoxsulluq, fəlakət gətirdi. Saf havası, güllü-çiçəkli yaylaqları, bol sulu düzənləri, dağların döşündən süzülən diş göynədən saysız-hesabsız bulaqları, qan damarları kimi torpağa həyat verən coşqun çayları ilə Zəngəzur yalnız düşmənin iştahını itilədi. Özü də qılınc-qalxan səsi eşitməkdən, səksəkəli, qorxu dolu bir həyat yaşamaqdan bezdi, yoruldu.

1395-ci ildə bu yerlərə daha qəddar, amansız olan Əmir Teymurun ayağı düşdü. Ətirli dağ havası, yayda həm qarpızı, həm də qarla buzu olan Zəngəzur Əmir Teymuru heyrətdə qoydu. Bu gözəllik nəyidi Tanrı səxavətlə bu dağlıq yerə bağışlamışdı?

Yaylaqda çadır quran Əmir Teymur Zəngəzura qədər ölkələr fəth etmişdi, qüdrətli ordularla üz-üzə gəlmişdi. Amma Zəngəzurda onunla savaşacaq ordu yox idi. Əmir Teymur bu qədim mahalı asanlıqla işğal edəcəyinə inandı. Ona elə gəldi ki, döyüşkən ruhu ölmüş zəngəzurlular savaşa girmədən təslim olacaq, ona itaətlə baş əyəcək və qarşısında muti köləyə çevriləcəklər. Lakin Əmir Teymur səhv etdi: Onların qəlbində püskürən üsyankar alovu görmədi, silah olmasa belə dişləri-dırnaqları ilə düşməni əzəcəyini, bu vətən uğrunda ölüm-dirim savaşına girəcəyini ağlına gətirmədi. Və ruhunda bir üsyan fırtınası ilə zəngəzurlular qəddar düşmənlə savaşa qalxdılar. Zəngəzurluların itaətsizliyi, mübarizəyə hayqırışı Əmir Teymuru qəzəbləndirdi.

Əmir Teymur acımasız, ordu güclü, əsgərlər qəddar idi...

Əmir Teymurun kini, qəzəbi alov kimi Zəngəzurun hər yerini bürüdü. Əsgərlər əllərində nizə, qılınc-qalxan kəndlərə soxulur, adamları öldürür, evləri dağıdır, yandırır, daşı-daş üstə qoymurdular. Xarabalıqlar bayquş yuvasına çevrilirdi. Əsgərlə-

rinin vəhşiliyi Əmir Teymurun kinlə siləlонmiş ürəyini soyutmadı, sağ qalmış on min ailəni Zəngəzurdan sürgün etdi. Lakin qəddar hökmdar bu yerlərdə yurd-yuva sala bilmədi. 1410-cu ildə Ağqoyunlular Əmir Teymurun arzusunu gözündə qoydu. Başı müsibətlər çəkmiş zəngəzurlular müvəqqəti də olsa rahat nəfəs aldılar.

Və sonralar Ağqoyunlular Zəngəzuru Qaraqoyunlulara güzəştə getdilər.

Qaraqoyunlu hakimiyyəti gələcək faciələrin acı toxumlarını, bəlkə də özləri bilmədən, bu torpağa səpdilər. Bu da ondan ibarət oldu ki, Qaraqoyunlu hökmdarı Qara İskəndər Zəngəzura gələrkən özü ilə birlikdə yurdsuz-yuvasız bir erməni ailəsi gətirdi. Bir erməni ailəsinin törəmələri zəhərli sarmaşıq kimi bütün Zəngəzura cil atdı. Ermənilər Ararat və Sünikdə kök saldılar.

...Qaraqoyunluların da hökmdarlıq zamanı başa çatdı. Zəngəzur uğrunda aslanların savaşı başlandı. Bu dəfə savaş Osmanlılarla Səfəvilər arasındaydı. Müharibənin alovları başı müsibətlər çəkən bu torpağın hər yerini bürüdü. Zəngəzur yenə hökmdarların doyumsuz iştahının, nəfsinin alovunda yanıb kül oldu.

Bu dağlar, səfalı yaylaqlar, kəndlər savaşın vurduğu ziyanları aradan qaldırmamış, yaraları qaysaqlanmamış İran hökmdarı Şah Abbas ordusu ilə bu yerlərə təşrif gətirdi. Bu dəfə zəngəzurlular çağırılmamış qonaqları balta, kürəklə qarşıladılar. Zəngəzurluları məğlub edə bilməyən Şah Abbas onların inadlı dirənişinə qəddarlıqla, amansızlıqla cavab verdi. İnsanlara bütün ömrü boyu sağalmayacaq yaralar vurdu. Sağ qalan zəngəzurlular doğma torpaqlarından didərgin salındı, adət etmədikləri isti, susuz səhralara köçürüldülər....

Lakin ən dəhşətli bəlaları, ağılları donduran faciələri bu torpağa ruslar gətirdi.

***

1678-ci il.

...1 Pyotr narahat idi. Rusiya imperiyasının qüdrətli hökmdarı olan 1 Pyotr Qafqazın xəritəsi önündə dayanaraq düşünürdü. Onun iti ağlı, dərin zəkası imperatoru Rusiyanın daha da qüdrətlənməsi üçün planlar düşünməyə səfərbər edirdi. Qafqaz strateji baxımdan onu cəlb edirdi. Çünki buradan Orta Asiyaya, Yaxın Şərq ölkələrinə, ən başlıcası isə Hind okeanına qapı açılırdı.

1 Pyotrun Abxaziya monarxından aldığı məktub onu düşündürdü. Bu məktubda o, yazırdı: "... Ermənilər mənim yanıma Beros nəslindən olan Uri adlı bir məlikzadəni və Vartapet Minası göndərmişlər. Onların əsas məqsədi erməniləri İran zülmündən azad etməkdir". Məktub sanki 1 Pyotrun xəyallarına qol-qanad verdi. O, hərəkətə keçdi. 21 il vaxt sərf edib hazırladığı plana görə Cənubi Qafqazın böyük hissəsini və İranın şimalını əhatə edən bütöv Azərbaycanı ələ keçirməli idi. Məqsədinə çatmaq üçün imperator yollar axtarmağa başladı. Bunun üçün Cənubi Qafqazda bir dövlət qurmaq, rusların sadiq nökərləri olan erməniləri İrandan və Türkiyədən köçürüb yeni yaradılan dövlətin torpaqlarına gətirmək lazım idi.

1724-cü ilin oktyabrında 1 Pyotrun planı gerçəkləşdi və o, işğal ediləcək ərazilərə ermənilərin köçürülməsi haqqında fərman verdi. Lakin imperatora bu "möhtəşəm" günləri görmək qismət olmadı. O, vəfat etdi. Amma hazırladığı bu plan Rusiyanın gələcək hökmdarları üçün pozulmaz bir vəsiyyətnamə kimi qaldı və o Cənubi Qafqaza daim ölüm və qan gətirdi.

Rus–İran müharibəsində rusların qələbəsi ermənilərin taleyinə bir günəş kimi doğdu. Rus Qafqaz ordusunun baş komandanı, ermənipərəst general Paskeviç Qazaros Lalayan adlı qəddar bir ermənini Təbrizə komendant təyin etdi. Lalayan fürsətdən istifadə edib ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi üçün qızğın fəaliyyətə keçdi. İlk əvvəl Təbriz ermənilərinə bir müraciət yazdı. Bu müraciətdə deyilirdi: "...orda siz

xristianların məskunlaşdırıldığı yeni vətən əldə edəcəksiniz. İranın müxtəlif əyalətlərinə səpələnmiş xristianların bir yerə cəmləşdiyini görəcəksiniz. Tələsin. Vaxt qiymətlidir. Tezliklə rus qoşunları İranı tərk edəcək. Bundan sonra sizin köçməyinizə cavabdeh olmayacağıq.”

Rus–İran müharibəsi rusların xeyrinə başa çatdı. 1828-ci ildə Türkmənçay müqaviləsindən sonra Rusiya Türkiyə ilə də apardığı müharibədə zəfər qazandı. 1829-cu ildə onların arasında Ədirnə müqaviləsi bağlandı. Hər iki müqavilədə ermənilərin Cənubi Qafqaza köçürülməsi üçün xüsusi bəndlər vardı.

Ermənilər ağalarının onlara verdiyi fürsəti dəyərləndirdi. Azərbaycanın hər yerinə, əsasən Naxçıvana, Qarabağa və Zəngəzura “çaqqal” ların axını başladı... Və Zəngəzurun köhnə dərdi təzələndi, bitib-tükənmədi.

Zəngəzurun bu dəfəki düşməni öz içindəydi, öz süfrəsinin başındaydı. Çörəyinə, havasına, suyuna, torpağına şərik idi. Amma şərik torpaq yenə də düşməni qane etmədi. Vətənsizlik dərdi çəkən ermənilər qan tökməklə, ev yıxmaqla Zəngəzura sahib olmaq istəyirdilər.

... 1905–1907-ci illərdə günəşin istisi gürzələrin belini qızdırdı. Qayaların, daşların altından yüzlərlə, minlərlə gürzə sürünüb çıxdı. Zəngəzura sevdalanmış bu gürzələr kim gəldi çaldı, bu torpağı işğal etmək üçün müsəlmanların dədə-baba yurdlarına, isti ocaqlarına qan çilədilər. Zəngəzur igidləri ayağa qalxdı, bu torpağı can bahasına qorudular. Və savaş səngidi. Gürzələr yenidən qayaların, sal daşların altına çəkildi, yeni savaş üçün güc toplayıb məqam gözlədilər.

... 1918-ci il. Daşnaklar müstəqil olmuş Ermənistan hokumətinin başına keçdi. “Daşnaksütun” partiyası yarandığı ilk gündən terror, savaş və qan tərəfdarı idi.

1918-ci ildə Zaqafqaziya respublikaları bir-birindən ayrıldı və müstəqil yaşamağa qərar verdilər. Ermənistan da müstəqil oldu. Amma paytaxt üçün şəhəri yox idi. Özgəsindən çalınmış

torpaq elə də böyük deyildi. Admiral L. Bristol Ermənistan dövlətinin yaranması haqqında xəbəri eşidəndə istehza ilə yazmışdı: "Mənim bir diplomat kimi ermənilərə qarşı heç bir qərəzim yoxdur, lakin onlara yazığım gəlir. Ermənistanın yaradılması ideyasına inana bilmirəm." Bristol öz şübhəsində haqlıydı.

Azərbaycan İrəvanı güzəştə getdi. Getdi ki, ermənilərin torpaq iddiası sona çatsın, bir daha qan tökülməsin. "Daşnaksütun" partiyası çoxluq qazandı və hakimiyyətin başına keçdi. Ən qəddar daşnaklar – Xatisov baş nazir, Aram paşa daxili işlər naziri, Axverdov isə hərbi nazir oldu. Və bu üçbaşlı əjdaha işğalçılıq planı hazırladı. Ermənistan kiçik bir ölkəydi, Azərbaycanın bağrından qoparılmış 9 min kvadratmetr əraziydi. Əhalisi də 324.285 min nəfər idi. Ermənistanı xarici ölkələrə bağlayacaq dəmiryolları belə yox idi. İrəvan şəhərində cəmi 6 kilometr dəmiryolu vardı. Qatar cəmi bir paravoz və on vaqondan ibarət idi.

Canavar iştahlı daşnakların gözü Bakı neftindəydi, Naxçıvandaydı, Qarabağda və Zəngəzurdaydı. Amma qəribəydi, niyə azərbaycanlılar, niyə türklər?

İlk işğal yürüşündən ruhlanan və bunun bəhrəsini görən daşnak hokumətinin başçısı Ağacanyan heyrət içində yazmışdı: "Zəngibasar tərəfimizdən tutulmuşdur. Bu ölkə elə zəngindir ki, o bizim borclarımızı bir neçə dəfə ödəyə bilər. Artıq iki gündür ki, burada görünməmiş qarət baş verir-taxılı, arpanı, düyünü, samovarları, xalçaları, pul və qızılları müsəlmanlardan zorla dartıb alırlar..."

Daşnaklar ruslar və ingilislər tərəfindən silahlanmış və azərbaycanlıların üstünə qısqırdılmış köpəklər kimi Zəngəzura yürüş etdilər.

Zəngəzur əsrlərlə xarici düşməndən görmədiyi zülmü, işgəncəni ermənidən gördü. Yandı-yaxıldı, tarımar oldu.

Amma Zəngəzur da Zəngəzur idi və onun aslan oğulları at belindəydi...

**2.**

... Ağ dumanın içindən sanki ağ tülə bürünmüş ağ at çıxdı. Ağ at bir parça ağ buluda dönüb Çalbayırın ətəklərindən üzü aşağılara doğru qanad açdı. Ayaqlarını atın böyürlərinə sıxmış, cilovu əlində möhkəm saxlamış atlının məğrur, şəhanə bir görünüşü vardı. Sübhün ayazında qızarmış yanaqlarında, içindəki acının şiddətindən nəm çəkmiş gözlərində, sərt çöhrəsində bir ordunu məğlub edəcək cəngavər inadı, qətiyyəti vardı... Duman çəkilirdi. Çalbayırın zirvəsində doğacaq günəşdən əvvəl çəhrayı rəng bütün üfüq boyu yayılırdı. Və ağ at da sanki bu çəhrayı rənglərin altında var qüvvəsi ilə irəli çapırdı. Qarşıda keçilməz dərələr, sərt yoxuşlar, uçurumlar vardı. Bu anda sanki ağ atın arxasınca yüzlərlə, minlərlə at çapmağa başladı. Atların kişnərtisi, cəngavərlərin hayqırışı yeri-göyü, dağı-daşı lərzəyə saldı.

Sultan bəy atın cilovunu çəkib dayandı. Çevrilib geriyə baxdı. Arxasında Çalbayırı gördü, Çalbayır gücündə, qüdrətində igidləri gördü. Kövrəldi: “Mənim doğma yurdum, elim-obam, dağım-daşım... Yaranışdan bir dildə danışdınız.

Həkəri, Bərgüşad, Bazarçay çaylarım... bir dildə layla çaldınız.

Yaylaqlarım... bir dildə mahnı oxudunuz.

Mən sizi yad əllərə, yad nəfəslərə, yad dillərə verərəmmi?”

Sultan bəy bu anda arxasınca gələn igidlərin hayqırışını, atların kişnərtisini eşitdi. Bu səsləri küləklər gətirdi, ildırımlar, şimşəklər göy üzünə yaydı. Bu anda qulağına sanki uzaqlardan zərif, kövrək bir səs gəldi. Bu səs anası Bəyim xanımın səsiydi:

“– Əlipaşa bəy... Əlipaşa bəy...

– Gəldim, Bəyim. Nə oldu, nədən qorxdun?

– Gəl, bir bax, Sultanın at çapmasına tamaşa elə. Ürəyim partladı. At əl boyda uşağı yıxacaq. Görürsənmi, yəhərin üstə nə oyunlardan çıxır?

Əlipaşa bəy oğluna baxdı, köksü qabardı, gülümsünüb başını buladı:

– Qorxma, Bəyim. O, Əlipaşa bəyin oğludu. Bizim nəslin igidləri at belində doğulur, at belində də dünyadan gedirlər.

– Sən hələ bir sevinirsən? Oğlunu tənbeh elə, mən qorxuram.

– O qorxu deyil, Bəyim, O iftixar hissindəndi. Sən oğlunla iftixar edirsən, ondandır....”

***

Sultan bəyin nəsli Zəngəzurda köklü və adlı-sanlı bir nəsil idi. Bu nəslin ulu babası Məhəmməd bəy Püsyan dövrünün savadlı, açıq gözlü adamlarından biriydi və şah sarayında böyük nüfuz sahibiydi. Şahın xüsusi etimadını qazanan Məhəmməd bəy XVII əsrin axırlarında gələcək nəsillər üçün böyük şərəf hesab olunan sultanlıq titulunu aldı. Sultanlıq nəsildən nəslə keçdi. Və bu nəsilin davamçıları təkcə bir zədagan kimi deyil, həm də igid oğulları ilə yadda qalırdılar.

Sultanovlar Qarabağ xanı Pənahəli xanın yanında da böyük hörmət və nüfuz sahibi idilər. Xan onlara xüsusi etimad bəsləyirdi. Buna görə də o, Zəngəzurda Qurdgəzi kəndini Sultanovlar nəslindən olan Qasımuşağı tayfasına bağışladı.

... XVIII əsrin əvvəllərində Qasımuşağı tayfası Qurdgəzi kəndində yurd saldı.

Yeni yaşayış yeri başdan-başa boş çöllükdən ibarət idi. Lakin geniş otlaq sahələri vardı, hər qarışında çeşmə çağlayır, bulaqlar axırdı. Torpağı bol sulu Qurdgəzi kəndi çox keçmədi ki, insan nəfəsi ilə isindi. Evlər tikildi, yollar çəkildi. Qoyun sürüləri, inək naxırları, at ilxıları getdikcə artdı, Qurdgəzi camaatı dağlar qoynunda yeni bir həyata başladı.

Sultan bəyin ata babası Xanmurad bəy Qasımuşağı tayfasının ağsaqqalı sayılırdı. Bu müdrik adam öz səxavəti, xeyirxahlığı ilə ad qazanmışdı və sonra gələn nəsillər də onun davamçısı oldular.

Nəslin davamçısı Əlipaşa bəy babaların xeyirxahlığına bir igidlik, qəhrəmanlıq ruhu gətirdi. 1871-ci ildə Tanrı sanki Zən-

gəzuru gələcək bəlalardan qorumaq üçün Əlipaşa bəyin ocağına Sultan bəyi verdi. Amma Sultan bəyə vətən təəssübü çəkən, arxası, köməyi olan bir igid də gərək idi. Tanrı onu da verdi: bu Xosrov bəy idi. Sultanovlar ailəsində Vətən qəhri, el təəssübü çəkən iki qəhrəman bu nəslə şan-şöhrət gətirdi, Zəngəzur tarixinə əfsanələr yazdı.

... Uşağın adı sənəddə Əsədsultan idi, amma hamı onu Sultan çağırdı. Əlipaşa bəy də, arvadı Bəyim xanım da ağıllı, dərin zəka sahibi olan oğlunun təhsil almasını istəyirdi. Sultan ilk təhsilini kənddə molla Xudaverdidən alsa da sonra Şuşada və Gəncə gimnaziyasında oxudu. O illərdə Zəngəzur Yelizavetpol quberniyasının bir qəzası idi. Söz yox ki, Gəncə Sultan bəyin yüksək təhsil alması ilə bərabər onun dünyagörüşünün formalaşmasında böyük rol oynadı

***

... Əlipaşa bəy süfrədən tez çəkildi. Kürəyini yasdığa söykəyib fikirli halda həyətə baxdı. Bəyim xanım onun sözlü olduğunu duydu. Bəy arvadını intizarda çox qoymadı:

– Xanım, çox şükür, Sultan təhsilini başa vurub qayıtdı.

Bəyim xanım da şükürənlıqla əllərini göyə açdı:

– Çox şükür, uşağın xiffətini çox elədim. İndi gözümün qabağında olar.

– Sən eləmi düşünürsən, xanım? – Əlipaşa bəyin gözlərində müəmmalı bir təbəssüm göründü.

– Əlbəttə, elə düşünürəm. Xosrov hələ kiçikdi. Təsərrüfat işləri, fermalar səni çox yorur. At belindən düşmürsən, bəy. Sənin də fikrini çəkirəm. Sultan çox zirəkdi. Sənə arxa, kömək olar.

Əlipaşa bəy başını buladı:

– Sultan hələ bütöv adam deyil.

– Başa düşmədim, bəy.

– Sultana ümidim çoxdu. Çox zirəkdi, fərasətlidi, həm də qoçaqdı. Ona görə istəyirəm ki, Sultan hərbi təhsil alsın. Hərbin

sirlərini öyrənsin. Zəngəzurda hərbi akademiyada oxuyan olmayıb.

– Bəy, sən istəyirsən ki, Sultan general olsun? – Bəyim xanım gözlərini qıyıb təlaşlı bir sadəlövhlüklə soruşdu.

– Yox, xanım, oxuyanların hamısı general olmur ki... Düşünürəm ki, müsəlmanları əsgər aparmırlar. Çünki bizimkiləri əfəl bilirlər. Ona görə də bizim cavanlar silah tutmağı bacarmır. Ona görə istəyirəm ki, Sultan akademiyada oxusun.

... Və Sultan bəy Əlipaşa bəyin arzusu ilə Sank-Peterburqda Hərbi Akademyaya girdi. Amma axıra qədər oxumağa hövsələsi çatmadı. Bəlkə də öyrəndikləri ona yetərdi...

***

– Paşa bəyi qonaq çağırmışam, xanım.

Arvadı maraqla soruşdu:

– Paşa bəy kimdi, bəy? Adını indi eşidirəm.

Teymur bəy həvəslə cavab verdi:

– Qasımuşağı obasındandı. Laçında böyük nüfuz sahibidi. Xidmətçilərə tapşırıq ver, hazırlıq görsünlər. Oğlu da gələcək. Sultan bəy. Oxumuş adamdı, – Teymur bəy mənalı qımışdı.

– İndi tapşırram, bəy. Dedin ki, oğlu oxumuşdu?

– Hə, urusetdə hərbi akademiyanı qurtarıb.

Qapının arxasında dayanmış Dilrubanın ürəyinin ani çırpıntısından yanaqları istiləndi: “Görəsən bu bəy oğlu yaraşıqlıdımı? Subaydımı? Bəlkə istəklisi var?...”

Dilruba otağa keçdi. Teymur bəy qızını süzdü və üzünü təkrar arvadına tutdu:

– Paşa bəy çox tanınmış bir nəsildəndi. Oğlu...

Teymur bəy qızının üzündəki marağı, gizli intizarı sanki atalıq hissiyatı ilə duydu, öskürdü, sonra çəkməsini ayağına çəkib astadan dedi:

– Paşa bəylə dost olmaq mənim üçün şərəfdir. Axşam burda olacaqlar. Elə olsun ki, süfrədə bir əskiklik olmasın.

Dilruba öz otağına keçdi. Bəy oğlunu görmək istəyi elə qüvvətləndi ki, maraq bütün duyğularına hakim kəsildi. Qəlbindəki oyanışa sanki mat qaldı: bu nə çırpıntı, bu nə həyəcan idi onu birdən-birə əsir aldı? Görmədiyi, tanımadığı oğlanın cizgilərini duyğularının diktəsi ilə xəyalında yaratdı: bu adam mütləq qamətli, ucaboy idi, görünüşündə bir mərdlik, cəngavərlik vardı. İri gözlərində, sərt çöhrəsində Dilrubanın daim xəyallarında yaşatdığı tanış, çox doğma bir ifadə vardı. O, bu simanı yuxularında da görürdü. At belində dərə-təpələrdən, uzaq yollardan keçib onun görüşünə gələn bu gənc adamın sevgisində də qızların həsəd aparacağı mərdanəlik vardı. O, bu sevgi yolunda gözünü qırpmadan ölümə gedərdi...

Həyətdə ocaqlar tüstülənir, samovardan köz ətri qalxır, kababçılar kabab çəkmək üçün hazırlıq görürdü. Teymur bəyin özgə qonaqları da vardı. Əlvan rənglərin işığında alışıb yanan gəbələrin üstünə döşəkçələr salınmış, yastıqlar qoyulmuşdu.

Dilrubanın gözü kənd yolunda qaldı. Sultan bəyi ölçüyəgəlməz bir intizar içində gözlədi. Günortadan xeyli keçmiş axır ki, kəndlə üzbəüz yoxuşun başında atlı göründü. Dilrubanın gözləməyə daha səbri çatmadı, yaylığını başına atıb həyətə çıxdı.

Atlılar həyətə girdi. Teymur bəy Əlipaşa bəylə görüşdü, gənc, yaraşıqlı Sultan bəyi bağrına basdı. Dilruba tilsimlənmiş kimi qapıya söykəndi. Kirpik çalmadan heyrət içində baxışları Sultan bəyin üzündə qaldı, özünü unutdu. Bu anda atasının səsini eşitdi:

– Paşa bəy, bu da mənim qızım Dilrubadır.

– Çox şadam, Teymur bəy.

Dilruba Sultan bəylə göz-gözə gəldi, utancaq baxışlarla onu süzdü, bu anda oğlanın baxişlarında da bir heyranlıq duydu və qımışdı. (Bu izdivacdan Sultan bəylə Dilrubanın Ənvər, Çingiz, Yusifkamal adlı oğulları və Bəyim adlı qızları dünyaya gəldi).

***

... 1905-ci il.

Əlipaşa bəy ayağını üzəngiyə qoymaq istəyəndə üç atlı özünü ona yetirdi. Çılpaq kürəklərində, sinələrində, üz-gözlərində göyümtül, qanlı şırımlar vardı, əllərinin üstündəki qan ləkələri, daşa dəyib parçalanmış yalın ayaqları... Bu adamların gördükləri işgəncə və müsibətlər gözlərinin içinə qədər, baxışlarına qədər yazılmışdı. Yaşlı adam atdan düşüb Əlipaşa bəyin üstünə yüyürdü, amma müvazinətini saxlaya bilməyib üzüqoylu yıxıldı. Ayağa qalxmaq istəsə də gücü yetmədi, çarəsizlikdən torpağı ovuclayıb üzünə sıxdı və hönkürdü. Xidmətçilər kişini içəri apardılar. Cavan atlının gözlərindən yaş leysan kimi tökülürdü. Əynindəki nimdaş köynəyin çiynindən aşağı qan süzürdü və çox güman ki, balta zərbəsindən ağır yara almışdı. Gördüyü, yaşadığı dəhşətin sarsıntısından dili tutulmuşdu və baş vermiş hadisələri bəyə anlatmaqda aciz idi.

Üçüncü atlı Əlipaşa bəyin qarşısında dizləri üstə oturdu, başını onun ayağına söykədi və sanki dərin quyunun dibindən gələn zəif bir səslə hönkürdü. Paşa bəy sarsıntı içində soruşdu:

– Bağrım çatladı, söyləsəniz... Sizi bu hala kim saldı?

Cavan çirkli, qanlı əlinin arxası ilə göz yaşını quruladı, qurumuş, çatlamış dodağını islatdı və zəif səslə dedi:

– Bəy, Minkənd camaatını ermənilər qırır. Qan su yerinə axır. Evlərimizi yandırırlar. Minkəndin fəryadına yetişin, bəy.

Kinli bir qəzəb Əlipaşa bəyin gözlərinə qara bulud kimi doldu. Beynində sanki ildırımlar çaxdı. Özünə də yad gələn bir səslə bağırdı:

– Sultan, uşaqları topla. Zirzəmidəki silahları paylasınlar. Tez, cəld olun. Zəngəzurun oğulları hələ at belindədi. Haydı...

Az keçmədi ki, Əlipaşa bəyin hayqırışına yüzlərlə atlı özünü yetirdi. Əli silah tutan cavanlar Qurdgəzi kəndinin meydanına yığıldı. Atlar bir yerdə qərar tutmur, dırnaqları ilə yer eşir, kişnərti səsindən dağ-daş titrəyirdi.

Sultan bəy atasına sevincərək xəbər verdi:

– Piçəniş kəndindən də üç yüz atlı gəldi.

– Səni bu dəstənin başçısı təyin edirəm. Özünüzü gülllədən qoruyun. Çünki bizim ermənilərlə işimiz çoxdu.

Sübhün alaqaranlığında dəstə kənddən çıxdı...

***

– Tez olun, evdən çıxın, müsəlmanlar üstümüzə gəlir.

Bağırtı səsi sanki dağlardan qopub gələn qaya parçası kimi bütün kəndi silkələdi. Armenak özünü itirmiş halda zirzəmiyə düşdü, Minkənddən talan etdiyi qızılları kirli yaylığa büküb qoltuğunda gizlətdi və bayıra çıxdı. Arvadı əlləri qoynunda həyətdə gözləyirdi. Dünənki sevinc gözlərində çıraq kimi sönmüşdü, qorxu, vahimə içində Armenaka baxırdı.

– Tez ol, atı çək gətir, kənddən çıxaq.

Sonya əllərini yana açdı:

– Bəs anan? Onu burdamı qoyaq?

İçəri keçdilər. Otağın küncündə, yorğan-döşəkdə yatan qarı başını qaldırdı, solğun bürüşük dodaqlarından sanki içindəki fəryadı alov kimi oğlunun üzünə püskürdü:

– Musurmannan döyüşdən qaçırsan, Armenak? Bəs bizi kim müdafiə eliyəcək? Bu torpaq bizimdi...

Qarı danışmaqdan üzüldü, gözlərini yumdu, lakin bürüşük dodaqları hələ də təpənirdi, nəsə deyirdi.

Armenakın anasına acığı tutdu, könülsüz arvadına baxdı və üzürxahlıq edirmiş kimi başını aşağı saldı:

– Bizi bağışla, ölmək istəmirəm.

– Bağışlaya bilmərəm, -qarı arıq, gücsüz əlləri ilə yorğanı üstündən atdı, – mən evimi qoyub heç yerə gedə bilmərəm. Bura mənim torpağımdır.

Armenakı gülmək tutdu:

– Anacan, sən xəstəsən, ölüm ayağındasan, torpaq nəyinə lazımdır?

– Siz qorxaqsız. Mən getmirəm. Rədd olun başımdan.

Kəndin içindən güllə səsləri gəldi. Sonya qorxu içində Armenakın əlindən tutdu:

– Bu arvad qəsdən bizi yubadır ki, müsəlmanlar bizi öldürsünlər. Armenak... tələs...

Armenak qarının başını sinəsinə sıxdı, qırışlı üzündən öpdü və təsəlli verdi:

– Qorxma anacan, müsəlmanlar bizim kimi deyil. Onlar sənə toxunmaz.

Armenak otağa bir də göz gəzdirdi və arvadının arxasınca çıxdı.

... Minkənd sanki qəflətən yanğının içinə düşdü. Evlərin qarşısındakı alovlanan tayaların acı tüstüsü kəndin başı üstündə boz bulud kimi dayandı. Sultan bəyin dəstəsinin “beşaçılan” və “üçaçılan” ları od püskürdü. Hücumdan başlarını itirmiş daşnaklar üzüyuxarı dağlara tərəf qaçırdı. Əlipaşa bəyin atdığı güllələr onları hər yerdə haqlayırdı. Minkənddə başına qalmış qoyun sürüləri, mal naxırları, at ilxısı pərən-pərən düşdü.

Axşama yaxın savaş səngidi. Ermənilərdən 190 baş qoyun, 70 baş at, qatır, xeyli silah qənimət götürüldü.

**3.**

Erməni daşnak Stepan Stepyanusun başçılıq etdiyi süvari dəstəsi Sisiyandan adlayıb Görusa gedəcəkdi...

Aşırımları keçən kimi güclü külək qarı sovurub atların gözünə, süvarilərin üzünə çırpır, qar burulğanları irəli getməyə aman vermirdi. Komandir qalın kürkünün quzu dərisindən aşılanmış yaxasını qaldırdı, boynunu qısaraq üşütmənin keçməsini gözlədi. Hava getdikcə soyuyurdu. Yorulmuş atlar qarın içində çətinliklə irəliləyirdi. Stepan çevrildi və arxasınca gələn bələdçidən uca səslə soruşdu:

– Görusa çoxmu qalır?

Bələdçi atını irəli sürdü:

– Hələ çox var, komandir. Gorus yolları çox təhlükəlidi.

Çən-duman içində o yolları keçib gedə bilmərik. Üstəlik də güclü qar yağacaq. Bu süvarilərin hamısı o yollarda məhv olar, komandir.

Stepanın qanı qaraldı. Üzündə narazı bir ifadə yarandı. Durbini gözünə qoyub ətrafı süzdü: bəyaz rəngdən başqa heç nə görmədi. Yalnız uzaqda təpələrin qucağında seyrək evləri olan və bir-birinə yaxın iki kənd gözə dəydi. Bələdçidən soruşdu:

– Vladik, bu erməni kəndləridi? Burda düşək, uşaqlar dincəlsin, səhəri gözləyək.

Vladik deyilən çopur üzlü, saqqallı erməni dişlərini ağartdı:

– Bunlar müsəlman kəndləridi, komandir.

– Müsəlman kəndləri? Bu qışın günündə könlümüzü açan keyf, əyləncə, – komandir əllərini bir-birinə sürtdü.

– Amma, komandir...

– Nə amma? – komandir hirsləndi.

Vladik mızıldandı:

– Ola bilsin ki, bu kəndlər bizi top-tüfənglə qarşılasın.

– Gəlişimizdən kimsənin xəbəri yoxdu.

– Amma burda bizimlə müsəlmanlar arasında savaş gedir. Ermənilərin qəddar düşməni Əlipaşa bəy də ola bilər ki, burda olsun. Bax sonra məni tənbeh etməyin. Əlipaşa bəy ermənilərdən müsəlmanların qisasını alır, üstəlik də onların oğurladığı sürünü, mal-qaranı əllərindən alıb geri qaytarır.

– Kəşfiyyatı kəndə göndərək, məlumat gətirsin.

... Yağudi kəndində sakitlik idi. Kimsə yox idi. Komandir süvarilərə əmr etdi:

– Hamısı qaçmış... kənddə bir nəfər də qalmayıb. Evləri talayın və yandırın.

Süvarilər kəndin girəcəyinə çatanda qayaların, təpələrin arxasından atəş səsləri gəldi. İlk atəş irəlidə gedən süvariləri biçib tökdü. Güllələrdən biri Stepanın yanında dayanmış süvariyə dəydi, at hürkdü, qabaq ayaqlarını yuxarı qaldırıb kişnədi, sonra da qaçıb getdi.

Stepan atını təpənin arxasına sürdü, tapançadan havaya güllə atıb boğula-boğula qışqırdı:

– Onlar bizə tələ qurmuşlar. Silahları azdı, hücuma keçin.

Süvarilər ətrafa səpələndi. Özünü itirmiş, ruhdan düşmüş ermənilər güllələri hara gəldi atdı, müdafiəçilərin gizləndiyi təpələri atəşə tutdular. Qarın üstündə xeyli düşmən cəsədi qaldı. Müdafiəçilərin atəşi get-gedə seyrəlirdi. Atəşi dayandırmayan ermənilər üstün gəldi. Yağudi dəstəsinə başçılıq edən Nizam geri çəkilmək əmri verdi.

– Ermənilər kəndi yandıracaq, – İsrafil kövrəldi.

– Yaxşı ki, ermənilərin gəldiyini uşaqlara xəbər verdik. Camaatı Vağudidə yerləşdirdik. Vağudini qorumalıyıq. Onsuz da Yağudi boşdu, kimsə yoxdu, əhali mal-qaranı da özləri ilə aparıb.

Atəş səsləri kəsilmirdi. Quduzlaşmış ermənilər onların arxasınca gəlirdi. Yağudi müdafiəçiləri Vağudi kəndinə tərəf çəkildi.

***

Otaqda neft iyi verən çırağın solğun işığı suvaq çəkilmiş divarda titrəyirdi. Əlipaşa bəy oturanlara göz gəzdirdi: yorğun olsalar da şad və gümrah görünürdülər. Bunun da səbəbi o idi ki, Əlipaşa bəyin dəstəsinin erməni kəndlərinə hücumundan sonra silahlı daşnaklar geri çəkilmişdi. Müsəlman kəndlərində güllə səsi eşidilmirdi. Əlipaşa bəy oturanlara nəzər salıb məmnunluqla başını yellədi:

– Ermənilər qorxu içindədir, ruhdan düşüblər. Xoznavar kəndinin ermənilərini diz çökdürdük. Bizimkilər 1010 baş qoyunu, 8 atı qənimət aldılar. Əliqulu kəndinin erməniləri də zərbəmizə tab gətirə bilmədilər.

Atasına yaxın oturmuş Sultan bəy əllərini dizlərinin üstə qoydu və sevinc içində ucadan dedi:

– Qaladərəsi erməniləri savaşa əməlli-başlı hazır idi. Kəndin dörd bir tərəfində səngər qazmışdılar. Amma birinci həmlədə geri çəkildilər, qaçıb dağda-daşda gizləndilər.

– Biz kəndin yarısını ələ keçirdik, – Çal Aslan məlumat verdi, – onların çoxlu silah-sursatı vardı. Amma kara gəlmədi, ermənilər çox itki verdilər.

– Yaxşı da qənimət götürdük, – Sultan bəyin gözlərində qığılcımlar oynadı, – bizimkilər kənddə ağzınacan buğda doldurulmuş dörd quyu tapdı. Bu lap göydəndüşmə oldu. Fürsəti əldən vermədən buğdanı kisələrə doldurub arabalara yüklədilər, üstəlik 490 baş qoyunu, 60 baş qaramalı sürüb kəndə gətirdilər.

– Bu qənimətləri mənim sayəmdə almadınızmı, Sultan? – Əlipaşa bəyin üzünü xəfif bir gülüş bürüdü, – kəndin bir tərəfində mən ermənilərin başını qatdım. Onlar bütün qüvvələri mənim dəstəmlə döyüşə səfərbər etdilər. Kəndin o biri tərəfində isə qənimətlər arabalara daşındı.

– Səndən öyrənməli çox şeyimiz var, – Sultan bəy iftixarla atasını süzdü.

Bu anda xidmətçi içəri girdi, əyilib Əlipaşa bəyin qulağına nəsə pıçıldadı. Əlipaşa bəyin gözlərinin, baxışlarının ifadəsi dəyişdi, sifəti ciddiləşdi. Bayaqkı nəşəsindən əsər qalmadı:

– Mənə məlumat verdilər ki, ermənilər Xənəzək kəndinin ağası Məhəmməd ağanın evini yandırıb, çobanlarını qətlə yetirib, sürüləri isə aparıblar. Hazırda Xənəzəkdə quduzlaşmış daşnaklar soyqırım aparır, qan su yerinə axır.

– O halda dayanıb-durmaq vaxtı deyil. Köməyə getməliyik, – Sultan bəy cəld ayağa qalxdı.

Əlipaşa bəy əli ilə oturmaq işarəsi verdi, təsbehin dənələrini tez-tez çevirərək ağır-ağır dedi:

– Aldığım məlumata görə Xənəzək erməniləri möhkəm silahlanıblar. Yollarda pusqu qoyulub. Biz hücum planını əməllibaşlı düşünüb hazırlamalıyıq. Bizim ermənilərə gücümüz çatmaz. Onların silahı, ən əsası hərbi təlim görmüş canlı qüvvəsi çoxdu, buna görə də düşmənə kələk gəlməliyik. Çal Aslanla Sultan məşvərət üçün qalsın.

– Mən də elə düşünürəm. Erməni kəndlərinə qəfləti hücumlarımız onları ayıq salıb. Çox güman ki, hazırlıqlı bizi gözləyirlər.

Üçlükdə müzakirə xeyli çəkdi. Sübhə yaxın dəstə Xənəzəkə doğru hərəkət etdi.

***

... Getdikcə artan, qüvvətlənən Əlipaşa bəyin dəstəsi ermənilərə göz açmağa, qan tökməyə aman vermədi. Erməniləri qorxu, vahimə içində saxladı. Müsəlman kəndləri rahat nəfəs aldı. Zəngəzurda həyat qaydasına düşdü.

Zəngəzur qəza polis rəisi Fon – Menzenkampf yaranmış vəziyyət haqqında, ermənilərin əzilməsi, "qəddarlıqla qətlə yetirilməsi" barədə mərkəzə həyəcan dolu teleqramlar göndərdi. Bu teleqramlarda yazıq və fağır erməniləri sıxışdırmaqda təqsirli bilinən adamların da siyahısı yazılmışdı. Məlumatda göstərilirdi: "Xoznavar və Xənəzək kəndlərinə basqında iştirak edən kəndlər: Şahsuvarlı, Malıbəyli, Piçəniş, Bayandur və Seyidlər.

Bu hərəkatın başçıları Bülövlük kəndindən Camal bəy Həzrətquliyev, Əsgər bəy Rüstəmbəyov, Məşədi Hüseyn Allahverdi, Rüstəm Əhməd oğlu, Nağı və Tağı Hüseynoğulları, Xasay bəy Abdulla bəy oğlu... və Qasımuşağı kəndindən Sultan bəy..."

***

1905-ci ildə başlanan erməni-müsəlman qırğını iki il davam etdi. Əlipaşa bəyin və Sultan bəyin dəstələri ermənilərə ağır zərbə vurdular və Zəngəzuru alınmaz bir qalaya çevirdilər.

1915-ci ildə dünyadan köçən Əlipaşa bəy rahatlıqla gözünü yumdu. Çünki varisi Sultan bəy idi. İkinci oğlu Xosrov bəy idi. Zəngəzur bir ordunu məğlub edəcək igidlər yetirmişdi və onlar Sultan bəyin başçılığı ilə Zəngəzuru yağı düşmənə verməzdilər.

***

Gözəl yurdum, Zəngəzur! Bağrımızdan zorla qoparılmış qərib yurdum. Əlipaşa bəyi, Sultan bəyi, Xosrov bəyi, Çal Aslanı, Seyid Həmidi, Ağammədi və yüzlərlə igidi xatırlarsan.

Uğrunda nə qədər insan şəhid oldu. İndi doğma yurdda qürbət kimi qərib ruhlarla baş-başasan. Gündüzlər gözün yollarda, gecələr şəhid ruhlarla təkbətək... Ayrılıq atəşindən bağrı yanmış dağlar, torpağına çilənmiş qanı çox güman ki, hələ də saxlayan, ürəklə gül-çiçək yetirməyən yaylaqlar, xiffət çəkən örüşlər, doğmalar üçün darıxan biçənəklər, gözü yaşlı bulaqlar, ağlar çeşmələr...

Sən yad nəfəslərə isinmədin, yad dillərə, yad səslərə alışmadın. Çünki sənin su kimi təmiz öz dilin var. Öz dilində danışmağı unutma, yol gözləməkdən, səbr etməkdən yorulma Zəngəzur.

Bir gün qovuşarsan doğma Azərbaycana...

**4.**

…Alovu sönmüş ocaqda dəmə qoyulmuş plovun iştahaçan ətri gəlirdi. Teymur Mərdanov kababçılara baş çəkdi. Çevrilib səbirsiz halda kənd yoluna baxdı. Bu anda kənd içində toz-duman qalxdı, atlar sanki bu dumanın içindən sivrilib çıxdılar və üzüyuxarı qalxdılar. Həyət atlılarla doldu. Teymur irəli yeriyib ehtiramla Sultan bəyin atının cilovundan tutdu:

– Pircahana xoş gəlmisən, bəy, – dedi.

– Xoş gördük, Teymur, – Sultan bəy çeviklikllə atdan düşdü. İçəridəki qonaqlar da Sultan bəyin pişvazına çıxdılar.

Qonaqlar otaqda allı-güllü kənd gəbələrinin üstünə salınmış döşəkçələrdə yerlərini rahladılar. Süfrəyə çay gələnə qədər kimsə danışmadı. Yalnız gözlər Sultan bəydə idi. Onu ilk dəfə görürdülər. Bu qorxmaz, igid adamın haqqında əfsanəyə bənzər hekayətlər eşitmişdilər. "Yeddibaşlı əjdahalara" qalib gələn bu adam bir qəhrəman misalındaydı. "Yeddibaşlı əydahalar" indi bütün Zəngəzuru bürümüşdü. Onların keçib getdiyi yerlərdə qan qoxulu xarabalıqlar qalırdı…

İri cüssəli, dolğun sifətli, qaynar gözlü Sultan bəy oturanları bir-bir diqqətlə süzdü və üzünü Teymura tutdu:

– Hamı burdadımı?

– Cağazurlu Ağamməd, Hacılarlı Ağalar burdadı.

Cağazurlu Ağamməd̈lə Hacılarlı Ağalar ayağa qalxdı, əllərini sinələrində çarpazlayıb ədəblə dayandı, Sultan bəyin nə deyəcəyini gözlədilər.

– Sizin silahlı dəstələriniz var. Onlar neçə nəfərdi?

– On beş, iyirmi nəfərlik dəstədi.

– Bəs silahları hardan alırsız?

– Ermənilərin özündən. Döyüş vaxtı silah-sursatlarını qoyub qaçırlar.

– Oturun, – Sultan bəy üzünü Teymura tutdu, – Seyid Həmid niyə gəlməyib?

– Bəy, Seyid Həmid çox igid, cəsur adamdı. Ermənilər onun kölgəsindən belə qorxur. Amma inadkardı, dəli-doludu. Cağazurlu Ağamməd̈lə bir az…araları soyuqdur.

– Düşməndilər? – Sultan bəyin sifəti zəhmli bir ifadə aldı, üzünü Ağamməd̈ə tutdu: – müsəlmandan müsəlmana düşmən çıxmaz. Düşmən erməndidi. Zəngəzuru əlimizdən almaq istəyən daşnakdı, – Sultan bəy dayandı, sanki onu danışmağa qoymayan öfkəsini zorla uddu, – Zəngəzur təhlükədədir. Minkənd çayı boyunca Güləbird, Şəlvə, Görus, Cicimli qan içində boğulur. Andronik Sisiyanda 51 kəndi xaraba qoyub. O kəndlərdə bayquşlar ulayır. Neyniyək, bir-birimizlə düşmənçilik edib Zəngəzuru əli qanlı erməniyəmi təslim edək? Zəngəzurla iş bitmir. Daşnak Aran Qarabağa adlayıb o yerləri də qanlı caynaqlarına keçirmək istəyəcək. Düşmənçilik vaxtıdı?

Sultan bəyin sərt səsi oturanları silkələdi. O, üzünü Teymura tutdu:

– Seyid Həmidi tapın gətirin, – sanki tarıma çəkilmiş əsəbini sakitləşdirmək üçün təzə süzülmüş samovar çayını qaynar-qaynar içməyə başladı.

... Seyid Həmid gəldi. Dağ adamlarına məxsus qırmızı yanaqlı, qaynar gözlü cavan adam salam verib Sultan bəyin qar-

şısında dayandı. Sultan bəy onu başdan-ayağa süzdü. Qamətindən, duruşundan, kəskin iti baxışlarından mərdlik yağan Seyid Həmidə qarşı ürəyində bir doğmalıq və ehtiram hissi oyandı. Onun baxışlarında düşmənə təslim olmayacaq davakar bir ifadə vardı. Bu doğmalıq hissinin təsiri ilə də Sultan bəy qımışıb soruşdu:

– Demək, Seyid Həmid sənsən. Hansı kənddənsən, kimin oğlusan?

– Laçının Böyük Seyidlər kəndindənəm. Atamı tanımamış olmazsınız. Seyid Hüseyn Mirizadə bütün Zəngəzurda məşhurdur. Həmişə kasıb-kusuba əl tutan xeyirxah bir adam olub.

Teymur Seyid Həmidin çiynini qucaqlayıb özünə çəkdi, gözləri parıldadı:

– Anası Seyid Pəri də xeyirxahlıqda Seyid Hüseyndən geri qalmayıb, bəy.

Sultan bəy başını yellədi:

– Seyid Pəri haqqında da eşitmişəm. Gəl otur yanımda. Söhbətimiz uzun çəkəcək. Ona görə də əvvəl çörəyinizi kəsək. Sonra söhbətimizi davam etdirək.

O anda süfrə döşəndi, kababçılar kababı, aşbazlar plovu süfrəyə gətirdi.

... Söhbətə Teymur başladı:

– Bəy, dedi, – Minkənd çayından aşağı nə qədər kənd var, hamısnı bir-bir gəzdim. Bu ətrafda Seyid Həmidlə bərabər Kosalarlı Mərdan, Sadınlarlı Allahverdi ilə görüşdüm. Bunlar çox igid adamlardı. Hamısı da başının dəstəsi ilə ermənilərlə döyüşürlər. Amma mən düşündüm ki, ayrı-ayrı, dəstə halında döyüşməklə biz Zəngəzuru qoruya bilmərik.

– Düz buyurursan, Teymur. Umu-küsüləri yaddan çıxarıb barışmalıyıq. Cağazurlu Ağammədlə Çal Aslan yanımda olacaq. Minkənd alayı yaradırıq, Seyid Həmidi həmin alayın komandiri təyin edirəm. Günü sabahdan müsəlman kəndlərindəki bütün cavanları düşmənlə döyüşə səfərbər edirik.

– Onların çoxu silah tutmağı, güllə atmağı bacarmır, bəy, – Seyid Həmid narahatlıqla dedi.

– Yüzbaşı Teymuru Türkiyəyə göndərəcəm, silah-sursat gətirməyə. Türk qardaşlarımız bizə kömək edəcək. Eyni zamanda onlardan təlim keçmək üçün bir türk zabiti də göndərməyi xahiş edəcəm.

– Bizə xeyli silah-sursat lazımdır, bəy, – Cağazurlu Ağamməd yerindən dilləndi.

– Mən də var-dövlətimi bu yolda qoymağa hazıram, – Teymur qızğınlıqla dedi.

– Daşnaklarla savaş namus, qeyrət, torpaq savaşıdır. İnsanlığını itirmiş, vəhşiləşmiş ermənilər kəndlərimizi yandırdılar, taladılar, bizimkiləri qətlə yetirdilər. Onları cəzasız qoymamalıyıq. Ölsək də öldürməliyik. Başa düşdüz? Mən də varımı əsirgəməyəcəm, – Sultan bəyin alışıb yanan gözləri intiqam hissi ilə parıldadı. Nəfəsini dərdi.

Yumruqlar düyünləndi, ürəklər savaş havası ilə çırpındı, gözlər Sultan bəyin üzündə qaldı: "Biz səninləyik, Sultan bəy. Ermənin anasını ağlatmağa, xaraba kəndlərin, qətlə yetirilən adamların, nizələrə taxılan körpələrin qisasını almağa hazırıq. Təki sən başımızın üstündə ol. Yol göstər..."

– Sizə onu deyim ki, qardaşım Xosrov bəy, Bakı milyonçularından Hacı Zeynalabdın Tağıyev, Şəmsi Əsədullayev, Xan qızı Natavan bizə silah almaq üçün pul, qızıl yardımı edirlər. Ermənini əzməyə, diz çökdürməyə, Zəngəzurdan didərgin salmağa qüvvəmiz çatacaq.

– "İnşallah, inşallah. Allah yardımçımız olsun" sədaları ətrafa yayıldı.

***

– İpək... İpək bacı...

Pəncərənin altından gələn həzin səs qırılıb kəsildi. Sonra bir əl uzanıb pəncərənin şüşəsini yenidən taqqıldatdı. Xalçanın

üstündə yer salmağa hazırlaşan İpək əl saxladı, əlindəki yasdığı yerə qoydu, nəfəsini içinə çəkib gözlədi. Miri çırağın plitəsini aşağı çəkib kənara qoydu. İpək döşəyin altından silahını götürdü, pəncərəyə yaxın gəldi. Sanki bayırın soyuq sazağı içinə doldu. Həyətdə nə bir səs vardı, nə bir nəfəs. Külək ağacların yarpaqlarını oynadırdı və sanki küləklə qurumuş xəzan yarpaqları arasında sirli savaş gedirdi, məğlub olmuş sarı yarpaqlar havada uçuşaraq yerə döşənirdi.

İpək ay işığında şüşəni taqqıldadan yumruğu görürdü və sızıltılı səsi güclə eşidirdi:

– Qapını aç. Ermənilər məni öldürəcək.

İpək silahı möhkəm sıxıb hökmlə soruşdu:

– Sən kimsən axı? Gecənin bu vaxtında qapımı döyürsən?

– Seyidin yaxın dostu Salmanam. Aç qapını, yalvarıram.

Mirinin qorxudan gözləri böyüdü:

– Birdən yazığın gələr, açarsan...

– Nə danışırsan, oğlum? Bunun özü ermənidi. Bizi çox güman ki, girov götürmək istəyir. Öldürmək istəsə asanca evi yandırar, içində də biz. Seyidi tələyə salmaq istəyirlər. Sən sakit ol. Qorxma. Əlimdə silah var.

– Salman, tanıdım səni. Seyid harda olsa indicə gələcək. Elə yerindəcə gözlə. Səni xilas eliyər. Ermənilər hardadı?

– Yaxında.

Bu anda ikinci adamın kobud, pıçıltılı səsi güclə eşidildi:

– Qadın təkdir, pəncərəni sındır, içəri gir.

– Nə danışırsan? Seyidin arvadı da özü kimidi. Bilirəm ki, əlində silahı var.

– Vaxtımız azdı, içəri keç. Hər halda arvaddı, sənə gücü çatmaz.

İpəyin əli tüfəngin tətiyindəydi: “Axmaq, məni aldatmaq istəyir. Öyrənib ki, Seyid evdə yoxdu... “

– Ermənilər səni niyə öldürsün ki? Anan ki, ermənidi. – İpək bayıra səsləndi.

Kişi sızıldadı:

– Atam müsəlman olduğuna görə mənə inanmadılar. Mən də Seyidə pənah gətirdim. Müsəlmanlara qoşulmaq istəyirəm. Yalvarıram aç qapını.

Pəncərənin altına iki kölgə düşdü. Kölgələrdən biri sürünə-sürünə qapıya tərəf getdi və qəfil zərbədən qapı yerindən oynadı. Uşaq qorxusundan küncə çəkildi, gözləri yaşla doldu. İpək bir anlıq oğluna tərəf boylandı və sərt səslə dedi:

– Qorxma. Qorxaq olduğunu atan bilsə səni tənbeh eliyər, – qapının arxasına çəkildi, əlini döyünən ürəyinin üstünə qoydu: "Sakit ol, İpək, sakit ol. Birini vursan, o biri qorxub qaçacaq. Kaş Seyid özünü yetirəydi..."

Pıçıltılı səs hökm elədi:

– Sergey, sən pəncərədən içəri gir.

Pəncərənin şüşələri çiliklənib içəri töküldü. Sergey ayağını içəri atmağa macal tapmadı. Qəfil açılan güllə onu arxası üstə bayıra atdı. İkinci güllə cavan ermənini qapıda haqladı. İpək sanki içindəki kini, nifrəti də güllə kimi yağdırırdı. Sergey deyilən adam xırıltılı səslə qışqırdı:

– Qadın bizi aldatdı, Seyid içəridəymiş.

Qapının ağzında üzüüstə düşmüş erməni var qüvvəsi ilə sürünə-sürünə qaçmağa cəhd eləyirdi.

İpək bir anlıq özündə aslan gücü hiss elədi:

– Patronları gətir, oğlum.

Ağaclığa tərəf sürünən adam huşunu itirib həyətin ortasında qaldı. Sergey bir anlıq dayandı, onu götürmək istədi, amma arxadan güllə atılacağından qorxub vahimələndi və bir ayağını çəkə-çəkə ağaclığa yüyürdü. İpək bir güllə də atdı, sonra sakitlik yarandı. Şüşəsi qırılmış pəncərədən içəri sazaq dolurdu. İpək sınmış qapının arxasına iri sandığı çəkdi. Döşəkçəni iki qatlayıb pəncərəni tıxadı. Silahını yerə qoymadan oğlunu bağrına basıb yorğanı başına çəkdi. Amma onu xof basdı, ona elə gəldi ki, pəncərənin şüşəsini kimsə taqqıldadır. Yorğanı sinəsi-

nə çəkib gözlərini pəncərəyə dikdi. Pəncərənin bir tərəfindən ulduzlu səma görünürdü. Qaranlıq göylərdə gümüşəoxşar buludlar sanki donub qalmışdı. İpəyə elə gəldi ki, göy üzünə səpələnmiş ulduzlar da üşüyür. Əllərini qoltuğunda gizlətdi və Miriyə sığındı.

... Dan yeri ağaranda ulduzlar yoxa çıxdı. Seyid Həmid atdan düşüb həyətin ortasında dayandı. İçəridən səs-səmir gəlmirdi. Həyətin aşağısında kimsə üzüüstə düşüb qalmışdı: "Ermənilər evimə hücum edib. İpək... oğlum... "Diz çöküb var qüvvəsi ilə bağırmaq, ağlamaq istədi. Amma səsi çıxmadı. Təkcə gözlərindən isti yaş axırdı. Bu anda arvadının mülayim, yumşaq səsini eşitdi:

– Seyid, hava soyuqdu, içəri keçsənə.

– İpək...

Boğazında düyünlənmiş zəhərli qəhər əriyib getdi, göz yaşları dayandı və Seyid arvadını bağrına basdı:

– Mən sizi ölmüş bildim, İpək. Allaha şükürlər olsun, sağsalamatsız.

– Salamatıq, Seyid. Dostun Salman keyfimizi soruşmağa gəlmişdi. Bu öldü, – əli ilə arxası qatda düşmüş kişini göstərdi, o birilər qaçıb getdi. Onlar bizi çox güman ki, girov götürmək istəyirdilər. Çünki asanlıqla evi yandıra bilərdilər.

– Siz burdan getməlisiz, İpək. Aparım sizi atan Həsənqulu gilə.

– Niyə?

– Çünki ermənilərlə böyük savaş başlayır. Bura çox təhlükəlidir. Yığışın.

... Üç atlı daha kəndin içinə yenmədi. Dağlara sarı üz tutdu.

**5.**

Canqurtaran dağının ətəklərində atların kişnərtisi dağı-daşı bürümüşdü. Sanki bu səslər göyləri qılınclayan dəli şimşəklərin səsinə oxşayırdı. İgidlər at çapır, təlim keçir, bu yerlərə bir cəngi havası gətirirdilər.

Sultan bəy kənarda at belində dayanıb təlimin gedişini izləyirdi. Türkiyədən gəlmiş yüzbaşı Teymur bəy cavanlara sərrast atəş açmağı öyrədirdi. Güllə hədəfdən yan keçdi. Çal Aslan yerindən dikəlib özünü itirmiş oğlanın üstünə çımxırdı:

– A bala, hədəfi düz nişan alsana. Adın nədi?

– Kazım.

– Erməni ilə belə döyüşsən vay bizim halımıza.

Yüzbaşı Teymur bəy oğlanın silahını əlindən aldı və mülayim səslə dedi:

– Öyrənəcək, Aslan bəy. Səbirli olun.

Çal Aslan cavanları sərt baxışlarla süzdü:

– Güllələri havayı sərf etməyin. Sultan bəy silaha, patrona bir ətək qızıl verib. Ananızı-bacınızı hansı hünərlə ermənidən qoruyacaqsız?

Sultan bəy atını irəli sürdü:

– Qorumaq nədi, Aslan bəy, bunlar erməninin anasını ağlatmalıdı, – sonra da üzünü yüzbaşıya tutdu, – təlimi dayandır, uşaqlar yorulub, nahar eləsinlər.

Cağazurlu Ağamməd astadan dedi:

– Bunların çoxu indiyədək çomaq götürüb sürü otarıb. Vallah, belə baxıram, halal olsun, tez öyrənirlər.

Bu anda Kazımın atdığı güllə hədəfi aşırdı. Tüfəngi yuxarı qaldırıb var gücü ilə qışqırdı:

– Bacardım, Aslan bəy.

– Təbrik eliyirəm, – Çal Aslan qımışdı, – Bu dağlar bizimdir, bu yaylaqlar dədə-baba yurdumuzdur. Erməninin nə haqqı var ki, bu yerlərə ayaq bassın. Bu dağlarda Əlipaşa bəy kimi igidin izi, atının kişnərtisi qalıb. Bu mahalı biz düşmənə güzəşt etsək, onun ruhu bizdən inciyər.

Sultan bəy ucadan səsləndi:

– Biz canımız, qanımız bahasına da olsa bu torpağı qorumalıyıq.

Yüzlərlə atlı silahını yuxarı qaldırdı, gur səsdən sanki dağlar da əks-səda verdi:

– Yaşasın, Sultan bəy! Zəngəzur igidləri sənin arxandadır, bəy.

Sultan bəy çevrilib Canqurtaran dağına baxdı. Bir vaxtlar həmin bu yerdə atası ilə qoşa dayanardı. Əlipaşa bəy Zəngəzur igidlərinə at çapmağı, tüfəng atmağı öyrədərdi. Onun səbri sonsuz idi. Diqqətlə, təmkinlə təlimin gedişini izləyər, tənbehini də, tərifini də yalnız baxışları ilə bəlli edərdi. Sonralar cavanların hər biri bir qəhrəman oldu. Zəngəzurun kəndlərində soyqırım aparan ermənilərin, qəddar daşnakların yuxusunu qaçırdı…

Əlipaşa bəyin dayandığı yerdə indi Sultan bəy dayanmışdı və yenə də bu yerlərdə ölüm-dirim savaşı üçün hazırlıq gedirdi…

Sultan bəy buz kimi bulaq suyunda əl-üzünü yudu, kənarda açılmış süfrənin başında oturdu. Sağ tərəfində Ağamməd, sol tərəfində Çal Aslan əyləşdi. Məclisə yubanmış Fərzalı bəylə Aşıq Abbas özünü yetirdi. Aşıq Abbas bir çiynindən tüfəngi, o biri çiynindən sazı götürüb yerə qoydu və döşəkçənin üstə əyləşdi.

Xeyli aralıda təlim keçən cavanların səsi gəlirdi və kababçı Qasımın çəkdiyi kababın ətri, aşbaz Dəmirin süzdüyü plovun ətri Canqurtaranı bürüdü. Sultan bəyin “Bismillah” deməsini gözlədilər. Bəy lavaşın arasına kabab düzüb bükdü, yeməyə tələsmədən Fərzalı bəyin üzünə baxdı:

– Aşağılarda nə var, nə yox, Fərzalı?

– Sakitlikdi, bəy, – Fərzalı plov dolu boşqabı qarşısına çəkib cavab verdi, – amma buna aldanmaq olmaz. Aldığım məlumata görə ermənilər Qaragöl tərəfə yığışır. Mən də elə bu barədə sənə xəbər verməyə gəldim.

– Ermənilərin bizimlə davası ancaq torpaq davasıdır. Belə başa düşürəm ki, yaylaqları əlimizdən almaq fikrinə düşüblər. Gəlib bu yaylaqlarda keyf eləsinlər. Amma nə qədər ki, Sultan bəy sağdı bu dağlara kafir ayağı dəyməyəcək, – Sultan bəyin səsində gizli bir əsəb duyuldu. Amma o, bunu biruzə verməmək

üçün yaraşıqlı, dolu çöhrəsinə yaraşan təbəssümlə dedi: -Əlipaşa bəy getdi, amma yerində Sultan bəy var… Ermənilərin bu alçaq niyyətindən xəbərim var, Fərzalı. Xanalını dəstəsi ilə Qaragölə göndərmişəm. Səhih bir xəbər gətirəcəklər.

– Bu günlər sən ehtiyatlı ol, bəy, – Aşıq Abbas içindəki narahatlığı biruzə verdi, – obaya təzə gələnləri…

– Məndən nigaran qalma aşıq, mən Əlipaşa bəyin oğluyam.

– Yeri cənnətlik olsun, – Aşıq Abbas ətrafdakıları gözaltı süzdü, sazı götürüb sinəsinə söykədi, barmaqları ilə simlərinə daraq çəkdi, gülümsədi:

– Əlipaşa bəyin kar bir mirzəsi varmış. Bir gün bəyin könlünə xurma yemək düşür. Mirzəsinə deyir ki, götür İranda filankəsə məktub yaz, qoy bizə xurma alıb göndərsin.

Mirzə həmən məktubu yazıb göndərir. Aradan bir xeyli keçir. Bir gün bəyin qapısına bir neçə ağzıbağlı kisə gətirirlər. Bəy xurma olduğunu zənn edib sevincək kisələrin ağzını açdırır. Baxırlar ki, bu xurma yox, qırmadır. Demə kar Mirzə yaxşı eşitmədiyindən xurmanı qırma yazıbmış…

Məclisdəkilər uğunub getdilər.

Aşıq Abbas sazı sinəsinə basdı. Sazın səsi sanki dağı-daşı dilləndirdi, dərəli-təpəli düzənlərin gül havasını, dərin dərələrin çiçək nəfəsini məclisə gətirdi. Aşığın yanıqlı, həzin səsi vardı. Sanki Canqurtaran dağının daşı-qayası lərzəyə gəldi, atların kişnərtisi düzü-dünyanı tutdu. Elə bil möcüzə kimi, ilahidən gəlmiş kimi sanki uzaqlarda atlar çapırdı. Əllərində misri qılınc tutmuş igidlər döyüşə gedirdi. Bu ordunun sərkərdəsi də "Cəngi" ni havalandıran bir saz səsiydi: "Ey igidlər! Bu torpağı düşmənə verməyin. Bu torpaq başdan-başa əcdadlarımızın ruhundan ibarətdir. Əlipaşa bəyin ruhu ruhlar şahıdır, ey igidlər. Düşmənin bağrını çatladın. Aman verməyin. Haydı igidlərim, aslanlarım…"

Aşıq Abbas dayandı, nəfəsini dərdi. Sanki bu anda dağa-daşa lərzə salan atların kişnərtisi də dayandı. Sultan bəyin baxı-

şından qığılcım tökülürdü. Ağamməd yerində otura bilmirdi, Fərzalı bəy uzun bığlarını eşirdi. Hər kəs sehirlənmiş kimi gözlərini Sultan bəydən çəkmirdi və bu anlarda sanki düşmən üstünə getmək üçün ondan bir işarət gözləyirdi. Aşıq bu dəfə üzünü Sultan bəyə tutdu:

*Çağırın igidlər girsin meydana,*
*Gavurun başını batırsın qana,*
*Dağlar arxa dursun böyük Sultana,*
*Düşmənin başını əzəcəyik biz,*
*Ulqumun bədəndən üzəcəyik biz.*

Çal Aslan yerindən dikəldi:

– Var ol, aşıq. İnşallah, düşmənin ayağını bu torpaqdan kəsərik, başını da əzərik.

Yasdığa dirsəklənmiş Sultan bəy kövrəlmiş halda:

– Sağ ol, aşıq, – dedi, – həmişə atamın məclislərinin başında olardın. İndi də burdasan.

– Allah Əlipaşa bəyə rəhmət eləsin, bəy. İki ildir ki, Əlipaşa bəyin yoxluğu məclislərin dadını-tamını qaçırıb. Onun yoxluğu ermənilər təzədən şirnikləndirib.

Çal Aslan başını buladı:

– Düzdü, Sultan bəy Əlipaşa bəyin sağ əliydi. Amma indi onun da adı gələndə ermənilərin yuxusu qaçır.

Məclisin sakitliyi pozuldu. Sultan bəy dinib-danışmadan məclisi süzürdü. Onun iri gözlərində içinin təlatümünü, fırtınasını gizlədən, yalnız səbr və dözüm təlqin edən bir ifadə vardı. Adamların səs-səsə verib coşduğunu görən Aşıq Abbas yenidən sazı sinəsinə basdı. Arıq, qarayanız sifətində təbəssüm göründü:

– Bilirsiniz ki, məclisin axırında həmişə nakam şairimiz Sarı Aşığı da yada salıram. Zəngəzur mahalının qəlbində Sarı Aşıqla Yaxşının nakam qalmış məhəbbəti bu dağlar qədər əbədidi:

*Mən aşıq o yar mənim,*
*Qəm bağrım oyar mənim,*
*Məkkəmdi, Mədinəmdi,*
*Qibləmdi o yar mənim.*

Sultan bəyin gözü Aşıq Abbasdaydı. Amma elə bil nə onu eşidirdi, nə sazın səsini duyurdu. Hərdən çevrilib Canqurtaran dağının ətəklərinə baxırdı.

Kababçı Qasım şişlərdən yağ daman kababları süfrəyə gətirdi. Aşıq Abbas da saza son mizrabını vurub dayandı. Bu anda uzaqlarda dörd atlı göründü. Sultan bəy sevincək yerindən dikəldi:

– Xanalıgil gəldi.

Sultan bəyin gizli narahatlığı, intizarı sanki bu an üzə çıxdı. Xanalının gətirdiyi məlumatlar onun rahatlığını pozdu: ermənilər Qaragöl ətrafına toplaşır. Xeyli sayda silah-sursat, canlı qüvvə var və yenə də arasıkəsilmədən Ermənistandan gətirilir. Onlar yaylaqları işğal etmək niyyətindədir…

**6.**

Arxacda sağım gedirdi. Humay yaşlı qadınlardan aralı düşmüşdü. Əlləri sürətlə işləyir, badyaya tökülən südün səsi ona xoş gəlirdi. Bəlkə də ona görə ki, əlləri işləsə də xəyalı indicə sürünü obaya çəkən və əl-üzünü yuyaraq onu görməyə tələsən Məzahirin yanındaydı.

Arxacda ağız deyəni qulaq eşitmirdi. Humayın gözləri yoldaydı. İndicə Məzahir çadırdan çıxacaq... Oğlanın qara qaynar gözləri, od kimi yanan baxışları ürəyinin içində həmişə təlatüm yaradırdı. İndi də Məzahirin baxışlarını sanki üzündə hiss elədi və utancaq halda kəlağayını alnına tərəf çəkərək gülümsündü:

“– Məzahir...

– Hay bəli.

– Deyirəm nə olaydı, hər saat səni görmək imkanım olaydı.

– Sürünü yayıram dağların döşünə. Özüm də uzanıram göy otluğa. Amma fikrim sənin yanında. Deyirəm, ay Allah, kaş bu dəqiqələrdə yel qanadlı ata minəydim, gedib istəklimi görüb qayıdaydım.

– Doğru sözündü?

– Toyumuzu tez elərəm. Amma Zəngəzur çox qarışıqdı. Toy eləməli vaxt deyil. Mən də Sultan bəyin dəstəsinə qoşulacam. Bir türk yüzbaşısı gəlib güllə atmağı, düşmənlə savaşı öyrədir.

– Darıxma, Məzahir. Toyumuzu sonra elərik, qocalmamışıq ki... Amma sən güllə atmağı mənə də öyrədərsən. Mən də savaşa gedəndə sənin yanında ollam.

– Düz sözündü?

– Bəs necə?

– Tavatın haqqında eşitmisən?

– Ucundan-qulağından.

– Ermənilər ondan bilirsən necə qorxur?

– Bilirəm. Eşitmişəm.

– İndi də Sultan bəyin dəstəsindədi.

– Bəlkə mən də gedim təlimlərə, Məzahir? Tavat da məni öyrədər.

– Lazım gəlsə gedərsən.

– Məzahir...

– Can...

– Elə demə?

– Bəs nə deyim?

– Sultan bəydən xahiş elə ki, mən də qoşulum dəstəyə. Ən azından döyüşdə kim yaralansa yarasını sarıyaram. Həm də gözüm sənin üstündə olar. Yoxsa bu dağlarda mənim bağrım çatlar, Məzahir.

– Sultan bəylə danışaram...”

Humayın yanaqlarına istilik gəldi, qarşısında Məzahiri görürmüş kimi utandı və başını aşağı əyib gülümsündü. Başını

təkrar qaldırdı və bu anda üzbəüz sal daşın üstündə oturub şüşə kimi parıldayan gözlərini ona zilləmiş yad baxışlı oğlanı gördü. O, gözünü çəkmədən Humaya baxırdı. Baxışlarındakı sərtlik, soyuqluq sanki xəncər kimi qızın ürəyinə işlədi və orda sevgi duyğularını perik saldı...

Oğlan ayağa qalxdı, irəli yeriyib Humayın başı üstə dayandı. Humay başını qaldırdı, ətrafa baxdı, kimsə onlara fikir vermirdi. Oğlan sanki aysız-ulduzsuz bir qaranlıqdan Humaya baxırdı, Bəlkə də ona görə baxışları kəskin və soyuq idi.

– Humay...

Humay diksinib ayağa qalxdı, yenidən dizi üstə çöküb sağıma başladı. Qulaqları, yanaqları od tutub yanırdı. Oğlan başını aşağı əyib mərhəm, yumşaq səslə soruşdu:

– Məni tanımadınmı, Humay?

Humay başını qaldırmadan sərt səslə dedi:

– Yox, tanımadım. Sən kimsən? Gözünü də zilləmisən üzümə.

– Humay, başını qaldır və üzümə diqqətlə bax. Məni tanıyacaqsan. Hələ üstəlik boynuma sarılacaqsan.

– Yox bir. Bircə o qalmışdı... Əşi, hər kimsən, əl çək yaxamdan.

Oğlan aşağı əyilib kimsənin eşidə bilməyəcəyi səslə pıçıldadı:

– Özündən çıxma. Gör nə deyirəm? Biz uşaqlıqda qonşu olmuşuq. Bir yerdə böyümüşük. Bir xatırla. Çəpər qonşunuz Əziz kişinin oğlu Kərəm. Sənin anan Sərvinaz...

Humay ayağa qalxdı, əllərini döşlüyə silə-silə davakar bir halda Kərəmin üstə yeridi:

– Xatırladım. Sənin anan yekəpər bir arvad idi. Özü də erməni. Qatı erməni... Biz ondan qorxurduq. Adı da... Saraydı.

Kərəm pərt oldu, gözlərini key-key qızın acıqlı sifətinə zillədi və çəkinə-çəkinə dedi:

– Nə olsun, atam müsəlman idi.

– İnanıram ki, atan indi sağ deyil, ölüb.

– Hardan bildin?

– Çünki atan sağ olsaydı siz erməni kəndinə köçüb getməzdiz.

– Ay qız, yavaş eşidərlər, – oğlan gözaltı ətrafa baxdı, hirsini, qəzəbini içində cilovlayaraq zorla gülümsündü:

– Mən neyniyim ki, atam erməni qızına aşiq olub və onunla evlənib. Zəngəzurda belələri azdımı? Amma anam atamı sevərdi və onun müsəlmanlara böyük məhəbbəti vardı.

– Ermənilərin sevgisi göz qabağındadı.

– Humay, indi burax bunları. Bizim uşaqlığımız bir yerdə keçib, – çöməlib qızın yanında oturdu, – O vaxtlar səndən xoşum gəlirdi. Arxın qırağındakı söyüd ağacı yadındamı? Söyüdün yarpaqlarını qırıb bir-bir arxa atırdıq. Yarpaqlar ilişib qalırdı, su üzündə süzüb gedəni də vardı. Biz bundan həzz alırdıq. Hayıf o günlərdən... O vaxt biz çox xoşbəxt idik.

– O vaxt erməni-müsəlman davası yox idi. Biz nifrətin nə olduğunu bilmirdik. Bunu ermənilər bizə öyrətdi.

– Mən Sultan bəyin obasına sənə görə gəlmişəm, Humay. Səni yadımdan çıxara bilmədim. O vaxtlar sənin də mənə meylin vardı. Bunu inkar eləsən də bu beləydi... Düşmənçiliyin bizə dəxli yoxdu. Gəl əl-ələ verib Zəngəzurdan çıxıb gedək.

– Obaya nə vaxt gəlmisən? – Humay hiddətlə soruşdu.

– Bir az var. Mən səni izləyirdim.

– Səni necə qəbul elədilər? Yad bir adamı obaya buraxdılar?

– Məni müsəlman bilirlər, – yenə də məkirli, kölgəli baxışlarla ətrafı gizlicə süzdü və pıçıltı ilə dedi, – anamın erməni olduğunu kimsə bilməməlidi. Başa düşdün? – səsindəki hədəni yumşaltdı, – sənin arxanca gəlmişəm.

– Mən nişanlıyam, Kərəm.

– Kimdi nişanlın?

– Məzahir.

– O ucaboy, göyçək oğlan?

– Göyçəkliyini bilmirəm. Amma mərd, qeyrətli oğlandı.

– Yəqin ki, o da Sultan bəyin dəstəsinə qoşulacaq.

– Mən də ermənilərlə savaşa gedəcəm. Bir erməni də öldürsəm qənimətdi.

– Bəlkə mən də sizinlə gedim? – Kərəm kinli baxışlarla qızı süzdü, dodağının altında söyləndi. Sonra da qızın biləyindən tutub möhkəm sıxdı:

– Məzahiri rədd elə, başa düşdün. Onu sənin ətrafında görməyim. Yoxsa bunun peşimançılığını çəkərsən. Məni ifşa eləsən Sultan bəyin dəstəsində bizimkilərdən var, onlar sənin bütün ailəni məhv edərlər. Başa düşdün?

Kərəm barmağını Humayın üstə silkələdi və sanki qəflətən Humayın yuxusuna girmiş dəhşətli, qorxunc xəyalət kimi çəkilib getdi...

***

Məzahir əldə toxunmuş naxışlı yun corabı ayağına çəkdi. Çarıqlarını geyindi, iplərini çəkib bərkitdi. Pendir, lavaş qoyulmuş heybəsini çiyninə atdı. Humayın əlindən tutub gözlərini qızın gözünə dikdi, pıçıltı ilə dedi:

– Bu axşam bizimkilər sizə gələcək.

Humay nazla gülümsünüb gözünü süzdürdü:

– Niyə gəlirlər?

– Necə niyə? – Məzahirin baxışı sadəlövh uşağın incik baxışına oxşadı, – gəlinlərini görməyə gəlirlər. Bir də aranın istisi onları darıxdırıb. Beş-on gün yaylaqda qalacaqlar.

Humayın gözlərinin içinə qədər yayılan xoşbəxt gülüş qarayanız çöhrəsini sanki nura boyadı, gülərkən yanaqlarında iki çuxur göründü:

– Mən də onları görmək istəyirəm, darıxmışam qaynanam üçün. Onun bal kimi şirin sözləri üçün.

– Həəə....

– Hə...

– Belə de, ürəyim açılsın.

Humayın yanaqları allandı, Məzahirin əllərindən tutub gözlərinin içinə baxdı:

– Sən gəlincə gözüm yollarda qalır, Məzahir.

– Mən də axşamın düşməyini gözləyirəm. Sürünü buraxıram yamacların döşünə, özüm də xəyalən başlayıram səninlə üzbəüz söhbətə. O qədər danışırıq ki, yoruluruq.

– Nədən danışırıq?

– Danışmağa sözmü qəhətdi, Humay?

– Elə dedin ürəyim sıxıldı, Məzahir. Biz heç bir-birimizi doyunca görə bilmirik.

– Ermənilərlə savaş qurtarar, Zəngəzuru bu çaqqallardan təmizlərik, onda vaxt çox olacaq, Humay. Ermənilər çaqqal sürüsü kimi daraşıb bizim kəndlərə. Sultan bəy onların əlindən yanıqlıdı.

Humay Məzahirin arxasında kimi gördüsə qəfildən nitqi tutuldu, sanki içində qasırğa, fırtına qopdu, soyuq yellər əsdi, baxışı buz bağladı. Onunla üzbəüz heybəsini çiynınə aşırmış Kərəm dayanmışdı. Diqqətlə ona baxırdı və Humaya elə gəldi ki, Məzahirə tərəf səssiz güllələr açılır: “Allahım, sən Məzahiri qoru. Neyniyim, necə eliyim ki, yaxamızı bu erməni dığasından qurtarım? Bilirəm, o bura pis niyyətlə gəlib. Bəlkə də Sultan bəyi aradan götürmək istəyir, bəlkə də yaylağa basqın edəcəklər... Çünki dediyinə görə kənarda adamları var. Əgər Kərəmi ifşa eləsəm kənarda gizlənmiş ermənilər hamını öldürəcək...

Məzahir birdən təşvişə düşdü:

– Ay qız, nə oldu sənə, birdən -birə gözlərin elə bil yağışa düşdü. Durduğun yerdə titrəyirsən. Bəlkə nəsə var, məndən gizlədirsən? Gizlətmə de.

– Məzahir, xoş gördük, – Kərəm yaxına gəldi. Saymazyana əlini oğlana uzatdı:

– Mənim adım Kərəmdi.

– Hə, lap yaxşı, – Məzahir ikiəlli görüşdü: -Eşitdim ki, sən Humaygillə qonşu olmusan.

Kərəmin üzündə xoş bir təbəssüm göründü. Özündən müştəbeh halda yuxarıdan aşağıya Humayı süzdü. Humay onun gizli baxışlarında bir hədə duydu, üşüyürmüş kimi çiyinlərini qısıb üzünü Məzahirin arxasında gizlətdi.

– Humayla uşaqlıq yoldaşıyıq. Can bir qəlbdə olmuşuq. Mən də Sultan bəyin dəstəsində nankor, yolunu azmış ermənilərə qarşı döyüşmək istəyirəm.

– Biz gedəcəyik, qoşul bizə. Atın varmı?

– Var.

Humay gizlicə onun üst-başına nəzər saldı, titrətməsini heç cürə gizlədə bilmirdi. Sonra bu titrəyiş səsinə də keçdi və bu anda Humayın özünün özünə acığı tutdu: "Ay zəngəzurlu qız, nədən qorxursan? Bunun kim olduğunu aç, de. Sultan bəy onu danışdırar. Başımızın üstündə gizli dolaşan bu bəla sovuşub keçər. Bəlkə Sultan bəyi özüm görüm, danışım. Amma Canqurtaran dağına getməyimi Məzahir də bilməməlidi. Bəlkə Sultan bəyi burda gözləyim? Başı qarışıqdı. Mən gedərəm. Nədən qorxacam? Bu namərddənmi?".

Humay yüngülləşmiş kimi rahat nəfəs aldı. Arxaca tərəf gedən Məzahirin arxasınca baxdı.

... Sağım hələ başa çatmamışdı. Kərəm Humaya yaxınlaşmaq istədi. Amma Humay başını qaldırmadan süd dolu badyanı bidona boşaltdı, yerini dəyişib yenidən sağıma başladı.

Kərəm sal daşın üstə oturdu. Ayağını ayağının üstə aşırıb Humayın arxacdan çıxmağını gözlədi. Bu anlarda içi sanki dibi görünməyən qaranlıq, zülmət boşluqdan ibarət idi. Paxıllıq, qısqanclıq, səbəbsiz nifrət, qisas hissi hamısı bir-birinə qarışmışdı: "Bu obanı bir gecədə məhv etmək olar. Bunların hamısını bircə-bircə şişə taxardım. Hələ Humayı... Mənə gizli-gizli meydan oxuyan bu ağılsız müsəlman qızını... Mənim haqqımda nə düşündüyü bəlli olmayan bu qızı dəhşətli, tükürpədən işgəncə-

lərlə öldürərdim. Uşaq vaxtı qonşu oğlanları ondan çəkinərdi. Elə mən özüm də... Amma indi fağırdı... Ay axmaq, sən onun fağır olduğuna inanırsan? Bəlkə də içində yatmış bir pələng var, varlığını biruzə vermir. Bəlkə bu... gecə dayan, dayan axmaqlama... Onu öldürsən, gərək qaçıb gedəsən... Yox, hələ gözləyim, sevgi nağıllarıynan başını qatım... Bu Sultan bəy də çox varlıdı. Sərvətinin sayı-hesabı yoxdur. Nə qədər mal naxırları, qoyun sürüləri var. Çalbayır dağlarının biçənəkləri, örüşləri onun əlindədir. Yazıq, bədbəxt millətim....Aranın qızmar istisində yanıb kül olurlar... Sultan bəyi bircə aradan götürüm...” Əlini cibində saxladığı qızıl bükülüsünə toxundurdu: “Bəyin nökəri Rəcəb deyəsən pulgir adamdır. Bu qızılların sayəsində onu yola gətirim...”

Bu anda baş çoban Süleyman Kərəmin qarşısında dayandı, bidonları arabaya daşıyan cavanlara baxıb üzünü ona çevirdi:

– Kərəm, burda avaralanıb oturma, uşaqlara kömək elə.

– Dururam, dincimi alırdım, – Humay tərəfə boylandı, qızı görmədi, nifrətlə Süleymanı süzdü:

“Vaxt gələndə səni atların yerinə arabaya qoşmaq mənə borc olsun...”

***

Humay yorğanı sinəsindən çəkib dərindən nəfəs aldı. Çırağın sarımtıl işığında dağ küləyinin silkələdiyi çadırın içində zəif kölgələr dolaşırdı. Yerə salınmış döşəklərin üstündə bacı-qardaşı yatırdı. Anası, atası baş tərəfdə dərin yuxu içindəydi. Bayırda elə bil yerə nə isə düşdü və möhkəm səs çıxardı. Humay yorğanı tələsik sinəsinə çəkdi və qorxu içində çadırın qapısına baxdı. Ona elə gəldi ki, kimsə çadırın qalın pərdəsini yuxarı qaldırdı və içəri bir addım atdı. Humay vahimə içində gözlərini yumdu. Sanki Kərəmin lap qulağının dibində üzünü yandıran isti nəfəsini duydu, xırıltılı səsini eşitdi:

“– Nə olub, yata bilmirsən, Humay?

– Yox.

– Niyə?

– Çünki içimizdə bir düşmən var.

– Amma sən mənim anama düşmən deməzdin. Sevərdin onu...

– Sənin ananı? Yadımdadı ki, qonşuluqda onu heç kəs sevməzdi. Ətiacı idi.

– Amma düşmən deyildi.

– Erməni indi bizə düşmən kəsilib. Qanımızı içir, evimizdən-eşiyimizdən, torpağımızdan didərgin salmaq istəyir.

– Sən görmürsənmi mən sənin dərdindən dəli-divanəyəm Humay.

– Sən Allah, güldürmə məni.

– Bunun nəyi gülməlidi?

– Arxanda gizlətdiyin əlində balta var. Mən onu görürəm.

– Əlimdəki balta deyil, bir dəstə çiçəkdir, dağlardan yığmışam.

– Amma sənin əlindən çiçək ətri yox, qan qoxusu gəlir. İndicə hamı – bütün oba bu qan qoxusuna oyanacaq. Rədd ol, get.

– Nişanlın çox cavandır, təssüf edirəm.

– Ona toxuna bilməzsən. Mənim nişanlım bir igiddi, qəhrəmandı, yarasa kimi qaranlıqda gizlənmir. Sənin damarlarından erməni qanı axır. Rədd ol.

– Ağzından bir söz qaçırsan... peşiman olarsan.

– Rədd ol... Rədd ol...”

Anası başının üstə dayandı, yaşlı gözlərindən öpür, saçlarını sığallayırdı. Atası təskinlik verirdi. Uşaqlar oyanıb qorxu, təşviş içində gözlərini Humaya dikdilər. Ətrafda sakitlik idi. Atların fınxırtısı, it hürüşməsindən savayı heç nə eşidilmirdi...

Humay titrəyirdi: “Sultan bəyin yanına xəbərsiz gedəcəm. Bu qorxuyla yaşamaq olmaz... İçimizə soxulmuş bu xaini, düşməni ifşa etməliyəm. Sonra məni bağışlamazlar... bağışlamazlar...”

# ÜÇÜNCÜ FƏSİL

## QARAGÖLDƏN BAŞLANAN ZƏFƏR

*Əgər torpağınız kafir ayaqları altındadırsa etdiyiniz ibadətin mənası yoxdur. Öncə kafiri qovacaqsınız, sonra ibadət edəcəksiniz.*

**Şeyx Şami**

**1.**

Üzüyuxarı qalxdıqca İşıqlı dağdan əsən külək soyuq sazaq kimi yolçuların qoyun-qoltuğuna dolur, gözləri yaşardırdı. Yoxuşlarda yorulan atlar ayaqlarını könülsüz atır, başlarını sağa-sola çevirərək ac olduqlarından otlamağa yaşıl çəmən axtarırdı. Sultan bəy vərdiş etdiyi bir çevikliklə yoxuşu tez qalxdı, arxasınca gələn qonağını gözlədi. Bu yerlərə nabələd olduğundan yüzbaşı Teymur bəy yoxuşda atını ehtiyatla sürürdü, at nallarının altından çıxan daşlar gurultu ilə aşağıya gedir, dərələrdən zəif, boğuq səslər gəlirdi. Axır ki, yüzbaşı dikin başına çatdı, atını Sultan bəyin yanına sürdü və keçib gəldiyi yerləri dərin bir heyrət içində, heyranlıqla seyr etdi. Dayandıqları yer sanki göyün yeddinci qatındaydı. Yaz – Allahın bir möcüzəsi kimi bu yerlərə əlvan rənglərini çəkmişdi. Dilim-dilim doğranmış kimi görünən dərələrin içindən axan çaylar günəşin şəfəqi altında parıldayırdı və təpələri yarıya bölən qızılı dərələrdən sanki qızılı çaylar axıb gedirdi. Yüzbaşı Teymur bəy özünü saxlaya bilmədi:

– Sultan bəy, Qaragöl yaylağı çox yüksəklikdədi. Elat bu yerlərə necə gəlib gedir?

– Yayda bu dağ yolları boş qalmır, yüzbaşı. Yaz açılandan payızın son ayına kimi bu yerlər qələbəlik olur.

Sultan bəy cilovu tərpətdi, at sanki sahibinin istəyini anladı,

yaşıl düzənlikdə dağlara sarı qanad açdı. İşıqlı dağın ətəkləri çəmən idi, zirvələrdə qar görünürdü. Göylər sanki burda torpağa daha yaxın idi. Əl uzatsaydın ağ buluda çatardı. Buludlar göy üzündə ağappaq tüstü kimi axırdı. Sonra bu ağ tüstü dağlardan aşağıda yaşıl yamacların qoynuna dolurdu. Az keçmədi ki, çən dağların üzünü tutdu.

Sultan bəy atını irəli sürdü, sinəsini acıdan, boğazını göynədən sərt dağ havası bu anda Sultan bəyin içindəki narahatlığı, əndişəni ətirli dağ mehi ilə silib apardı. Bu anda ona elə gəldi ki, çırpınan, duyğuları pərvaz edən ürəyi bu dağlar boydadır. İftixar hissi, bu yerlərə dərin sevgi hissləri, bu yerləri göz bəbəyi kimi qorumaq inadı, babalardan miras qalan qəhrəmanlıq, igidlik hayqırışı – Sultan bəyin zehnini itilədi, qollarına güc, qüvvət verdi.

Bəlkə də bu yerlərdə yüz dəfə olmuşdu. Yüz dəfə dağların ətəyində at səyirtmişdi. Amma elə bil yüz dəfə də bu yerlərdə təzədən doğulmuşdu. İndi də ilk dəfə görürmüş kimi bu yerlərə heyran olurdu. Qürur, iftixar hissi ilə bu yerlərə yenidən bağlanırdı.

Yamaclarda bir-birinə dolaşan və pozulmaz naxışlar kimi qalan izlərdə Sultan bəyin də izi vardı. Atası Əlipaşa bəyin, babası Almurad bəyin, babalarının və ulu babalarının bir vaxtlar bu yerdə at çapdığını bu çöllər bir nağıl kimi, yaşayan əfsanə kimi sinəsinə yazmışdı... Bu yerlərə yağı düşmənin izi düşməmişdi, saf bulaqlara, qaynar çeşmələrə, gül-çiçək ətirli düzlərə, yamaclara nəfəsi toxunmamışdı. Gecə-gündüz İşıqlı dağdan əsən küləklər Qaragölə sığal çəkir, layla çalır, dinclik və sakitlik içində bu yerlərin paklığını, saflığını qoruyurdu.

Yüzbaşı Teymur bəy atdan düşdü:

– Bu nə gözəllik, Sultan bəy? Ağlıma da gəlməzdi ki, bu yüksəklikdə yerləşən yaylağın ağılı başdan alan gözəlliyi var.

Sultan bəyin iftixar hissindən köksü qabardı:

– Zəngəzur Azərbaycanın göz muncuğudur. Dağları, çayları, meşələri bol. Hər qayanın, hər daşın altında bulaq qaynayır.

Sultan bəyin gözləri yaşardı. Nigarançılıq, narahatlıq qara bulud kimi içinə doldu. Yenidən çevrilib başı qarlı İşıqlı dağa baxdı. Bu anda İşıqlı dağ ona qərib, məhzun göründü. Ona elə gəldi ki, aşağılarda qan çilənən torpağın sızıltısı bu yerlərə qədər gəlib çatır. Bulaqlar ağlar, çeşmələr bulanıqdır. Zəngəzurun qan damarları kimi dağlardan axıb gələn gur çayları – Bərgüşadın, Tərtərin, Həkərinin, Bazarçayının sularına qan çilənir. Düşmən indi də yaylaqlara can atır. Qan qoxulu yuxularında bu yaylaqları görür. İşıqlı dağın başında ildırımlar çaxır, şimşəklər oynayır. Çünki qanlı savaşın qoxusunu bu dağlar da alır.

Sultan bəyin gözü doldu. Sanki bu anlarda göylərin qara buludu ürəyində, yağışı gözlərindəydi... sanki atın üstündə şəhanə görkəmli, cəngavər duruşlu, müdrik Sultan bəy deyildi. Sanki bu anlarda anasından ayrıla bilməyən, bu ayrılığın hicrində yanıb qovrulan uşaq kimiydi və Sultan bəyin birdən-birə özünə acığı tutdu. İçindən gələn hayqırış elə bil küləklərə qoşulub dağların zirvəsinə qanad açdı: "Elim-obam, dağım-daşım. Məğrur dayanın. Sinənizi düşmən atlarının tapdağına vermərik. Eşidirsiz məni? Nə qədər ki, biz varıq, səni bizdən ayırmağa, Zəngəzuru Azərbaycandan ayırmağa düşmənin gücü çatmaz.

Dünən Əlipaşa bəy vardı.

Bu gün Sultan bəy var... "

Uzaqda günəşin altında sanki dağların zirvəsindən qopmuş kimi iki iri qurğuşun damla göründü. Yüzbaşı təəccüblə soruşdu:

– Bu qurğuşana oxşar nədir, Sultan bəy?

– Qaragöl bir-birinə yaxın olan iki göldən ibarətdir. Bu dağların iki görən gözü Qaragöl...

İrəli getdikcə göllərin qurğuşun rəngi dəyişdi, firuzəyi rəngə çaldı. Tərtəmiz, şəffaf su günəşin altında ayna kimi parıldayırdı. Bu dərəli-təpəli, daşlı-qayalı çöllərdə bir möçüzə kimiydi Qaragöl.

Atlarını Qaragölün qırağında saxladılar. Yüzbaşı Teymur bəy atdan düşüb əllərini gölün sərin suyu ilə yudu, üzünə

çırpdı. Sultan bəy də atdan düşdü. Teymur bəy heyrətlə dedi:

– Bu göllər doğrudan da bu yerlərdə Tanrının bir möcüzəsidi.

– Qaragöl yaylağın göz bəbəyidi, qiymətli incisidir. Maldarlıq üçün də xüsusi əhəmiyyəti var. Ermənilər ona görə buraya can atır. Onu işğal etmək eşqinə düşür, – Sultan bəy düşüncəli halda dedi.

Yüzbaşı durbini gözünə qoydu, yüksəklikdən uzaqlarda güclə seçilən evləri, yaşıllıqları seyr etdi və dedi:

– Bu yüksəklik strateji cəhətdən çox əhəmiyyətlidir. Qərb tərəfdə yaşayış məntəqələri görürəm. Bura haradır?

Sultan bəy durbinlə qərbə tərəf baxdı:

– Bu görünən yer Naxçıvan, ordan o tərəfdə isə Vedibasardı. İndi şərq tərəfə bax, yüzbaşı. Şərq tərəfdə Qarabağ, Gəncəbasar, Muğan yerləşir.

Yüzbaşı Teymur bəy xeyli baxdı və hərbiçi səriştəsi ilə astadan dedi:

– Sultan bəy, dayandığımız həmin bu yerdən yaşayış yerlərini çox asanlıqla vurmaq olar. Hətta, deyərdim ki, bu mahalları döyüşsüz də almaq çox asandır. Nəyin bahasına olursa olsun Qaragöl düşmən əlinə keçməməlidir.

– Qaragöl yaylağı ermənilər üçün həm Azərbaycan torpaqlarını işğal etmək, həm də maldarlıq üçün çox əhəmiyyətlidi. Onların yaylağı yoxdur. Buna görə də yay aylarında sürüləri, naxırları aranda qalıb istidən tələf olur. Amma canımızı versək də bu yaylaqları düşmən əlinə keçməsinə imkan verməri k. Ermənilər Qaragölü ancaq yuxusunda görər.

Atlar xeyli uzaqlaşdı. Sultan bəy təmkinli görünsə də səsində bir qəzəb və sinirə bilmədiyi övkə vardı:

– Zəngəzurlular hələ ölməyib ki, düşmən gəlib onun oylağında at oynatsın. Biz bu yerləri qoruyacağıq, yüzbaşı. Hazırda Canqurtaran dağının ətəklərində cavanlarımız təlim keçir, ölüm-dirim savaşına hazırlaşır. Mən istərdim ki, bu təlimlərdə sən bizə yardımçı olasan.

– Baş üstə, sevə-sevə. Türkiyə daim sizin arxanızdadır, bəy.

– Mən özüm də hərbi təhsil almışam, – Sultan bəy təbəssümlə dedi.

– Doğrudanmı, bəy?

– Atam Əlipaşa bəy haqqında eşitmisən.

– Eşitdiyimə görə çox igid, çox mərd bir adam olub, Əlipaşa bəy. Ölən günə qədər də nə atdan düşüb, nə də silahını yerə qoyub. Deyilənə görə daşnaklar onun kölgəsindən qorxarmış.

– Bəli, Əlipaşa bəy ermənilərin canında bir qorxu yaratmışdı. 1905-06-cı illərdə bu yerlərdə qanlı savaşlar gedib, – Sultan bəy dərindən nəfəs aldı, bir gözünü qıyıb uzaqlara baxdı. Bu anlarda fikri, xəyalı o illərə getdi.

Yüzbaşı əlini onun çiyninə qoydu:

– Sultan bəy, sən demədin axı, hərbi təhsil aldın, sonrası...

– Sank-Peterburqda Hərbi Akademiyada oxudum. Amma başa vurmadım. Akademiyadan yarımçıq çıxdım.

– Niyə?

– Çünki öyrəndiklərim mənə yetərdi. Mən çar ordusunda ruslara xidmət etmək istəmədim. Ruslar da bizə düşməndi. Erməninin arxasında durub onu üstümüzə köpək kimi qısqırdan rusdu... Bir də mən Zəngəzura lazım idim.

– Bəs Əlipaşa bəy təhsilini yarımçıq qoyduğuna görə səni tənbeh etmədimi?

– Yox, qayıtmağım əslində ürəyindən oldu. O qanlı savaş illərində Zəngəzur Əlipaşa bəyin sayəsində ermənilərin əlinə keçmədi. Ermənilər yenidən bizimlə torpaq davasına başlayır. Bu savaş da elə bilirəm ki, Qaragöldən başlayacaq. Olsun, başlasınlar.

Atların başını Laçın dağlarına tərəf çevirdilər.

***

Ağammədin iri, pəhləvan cüssəsi qapıda görünəndə içəridə oturanlar tez ayağa qalxdılar. Qarayanız sifətində, iri qaynar

gözlərində daim bir sərtlik olan Ağamməd içəridəkilərlə görüşdü və otağın baş tərəfinə keçdi. Döşəkçənin üstə oturub, kürəyini yasdığa söykədi. Canındakı yorğunluq, gözlərinin kökünə çökmüş yuxusuzluq sanki o anda özünü biruzə verdi. Günlərlə at belindən düşmədiyindən ayaqları sızıldadı. Adamların gözü ondaydı. Ağamməd yuxusu qaçsın deyə gözlərini ovxaladı, handan-hana üzünü yanında oturmuş cavana tutdu və gümrah səslə soruşdu:

– Mahmud, nə var, nə yox?

Mahmud dizləri üstə ona tərəf çəkildi və cavab verdi:

– Uşaqların hamısı sənin əmrini gözləyir, Ağamməd.

– Sultan bəy bizə üç qatır yükü silah-sursat göndərib.

Yer-yerdən alqışladılar:

– Sağ olsun, bəyi.

– Var-dövlətini silah-sursat almağa sərf eləyir Zəngəzurun bu qeyrətli oğlu.

– Sultan bəy olmasaydı qalmışdıq bu ermənilərin əlində.

Ağamməd söhbəti kəsmək üçün ucadan dedi:

– Canqurtaran dağının ətəklərində yeddi yüz nəfər cavan yüzbaşı Teymur bəyin köməyi ilə hərbi təlim keçir. Bizimkilərin də bu təlimdə iştirakı vacibdir, – Ağamməd oturanlara nəzər saldı, onun sifəti qayğılı bir ifadə aldı, – amma bir məsələ var, gərək biz həm də Cağazuru qoruyaq. Düşmən bu kəndə ayaq basa bilməsin. Bunun üçün nəzarət postları yaratmalıyıq.

Hacılarlı Ağalar öz fikrini bildirdi:

– Cağazur erməni yuvası olan Görusun yaxınlığındadı. Belə ki, Gorusun Gornidzor, Tex, Xindzoresk və Daşkənd kəndlərinin erməniləri Cağazuru asanlıqla işğal edə bilər. Bunun qarşısını almaq üçün Gorusa gedən dağ yolunun üstündəki Qaravul təpədə, Mərkəz və Kömür quyusu adlanan yerlərdə postlar qoyulsun. Bu yerlərə bələd olmayan adam dağda-daşda asanlıqla yolunu azar. Əgər bizimkilərin silah-sursatı bol olsa burda bir ordunu məğlub edərik, düşməni bir addım da irəliyə getməyə qoymarıq.

– Düz deyirsən, Ağalar, – Ağamməd üzünü ona tutdu, – Bizim Cağazur kəndi daim ermənilərin diqqətində olub. Onlar indi nəyin bahasına olursa olsun bu kəndi işğal etmək niyyətindədir. Çünki başqa kəndlərə baxmış, Cağazur düzən yerdədir, onlar bu kəndi ələ keçirsələr, o zaman Malıbəyli, Qarıqışlaq və Zeyvə kəndlərini asanlıqla işğal edərlər.

– Biz ölmüşük ki, erməni gəlib Cağazura girsin? – otağın baş tərəfində oturub deyilənlərə sakitcə qulaq asan Bayandurlu Gülümlə, Malıbəyli Zaman yerlərindən qalxdılar. Gözlərindəki nifrət qığılcım kimi alışdı.

– Sakit olun, – Ağamməd, sözünə davam elədi: – amma daşnaklar bu yerlərə nabələddir, asanlıqla postda keşik çəkən müdafiəçilərimizin gülləsinə tuş gələrlər.

Hacılarlı Ağalar başını buladı:

– Sən buna çox da arxayın olma, Ağamməd. Bunlar iy bilən çaqqal sürüsüdür. Bir də yerli ermənilər də dağ yollarına yaxşı bələddir. Ona görə də keşik çəkənlər ətrafı daim nəzarətdə saxlamalıdır. Daha vaxtı yubatmayaq. Silahları Sultan bəyin dəstəsinə qoşulan cavanlara paylayın. Hava işıqlanan kimi yola düşürük. Postlarda keşikçilər həftədə bir dəfə dəyişəcək. Ona görə də ərzağı bol eləyin ki, korluq çəkməsinlər, – sonra da üzünü Mahmuda tutdu:

– Mahmud sən, Məmməd, bir də Məhin postlarda keşik çəkmək növbəsi bu dəfə sizindi. Cağazur sizə əmanət.

Üçü də ayağa qalxdı:

– Oldu, Ağamməd. Cağazurdan nigaran qalmayın.

Üçü də sağollaşıb qapıdan çıxdı. Otağa sakitlik çökdü. Kimsə bu sükutu pozmağa, Ağammədi öz aləmindən ayırmağa ürək eləmədi. Qaş qaralırdı. Dağlara, dərə-təpələrə günəşin son saraltısı kölgə kimi düşürdü. Ağamməd göylərə baxdı, elə bil gözəgörünməz Tanrı ilə üz-üzə dayandı: "İlahi, sənə qurban olum, bu nə alçaq düşmən idi sən qarşımıza çıxardın? Heç olmasa düşmən kimi düşmən olardı. Qanında bir azacıq rəhm,

mərhəmət deyilən bir şey olardı. Bu canavar südü əmmiş düşməni niyə qarşımıza çıxardın, ilahi, sənə qurban olum, günahımız nəydi? Babalarımız torpaq verdi, çörək verdi. Demə qoynumuzda gürzə bəslədik... Allahın lənətinə gəlmişlər...”

Ağamməd hirslə başını buladı, dodağının altında nə isə dedi və köks ötürdü:

– İllər əvvəl dostluq elədiyim bir erməni vardı, Akop adında.

– Adı batsın, – Hacılarlı Ağalar nifrətlə dedi.

Ağamməd gülümsündü:

– Narahat olma Ağalar, adı batdı getdi... Hadisələrin təzə başlayan vaxtıydı. Laçından qayıdırdım. Meşəliyə girəndə üç nəfər üzü qara örtüklü adam yolumu kəsdi. Üçünün də qara örtüyün arasından gözləri işıldayırdı. Biri silahı üstümə çəkib hökmlə dedi:

– Düş atdan.

Bunlar üç nəfər, mən tək. Gizlicə ətrafa nəzər saldım, düşündüm ki, ağacların arxasında da adam olar. Ona görə də özümü sadəlövhlüyə qoyub yazıq-yazıq dedim:

– Atı sizə versəm, kəndə gedib çıxa bilmərəm axı.

Üçü də səs-səsə verib güldü:

– Ay axmaq müsəlman, hələ sən gör bu meşədən sağ-salamat çıxa biləssən ki, atın fikrini eləyirsən?

İkincisi yeridi qabağa, silahını qaldırdı ki, məni vursun, atı irəli sürdüm. Əli boşa çıxdı. Güllə yaxındakı ağacın kötüyünə dəydi. Bundan əsəbiləşən dığa üzündəki örtüyü çəkib atdı, baxdım ki, bunlar mənim tanıdığım adamlardı. O, yenə silahı üstümə çəkəndə üçüncü keçdi qabağa, qeyzlə onun qolunu vurub yanına saldı və hirsləndi:

– Axmaq, əlimizə müsəlman düşüb, bizi nəşələnməkdən məhrummu etmək istəyirsən?

Baxam ki, bu dostum Akop. Amma onu tanıdığımı biruzə vermədim. Məni atdan düşürüb bir ağacın altına sürüdülər.

Qorxu nədi bilmirəm, ha. Gözləyirəm ki, bunlar məni necə öldürəcəklərini düşünsünlər.

Hacılarlı Ağalar ucadan güldü:

– Bunlar sənə bələd olsaydılar, həmən dəqiqə canlarını qurtarmağa çalışardılar.

– Akop az-çox bələd idi. Amma onlara güvəndi, – Ağaməd söhbətinə davam elədi: – O iki nəfər də üzünü açdı. Çünki daha üzlərini gizlətməyə lüzum yox idi. Çır-çırpı yığıb ocağı çatdılar. Atın üstünə xurcun atmışdılar, gətirdilər ocağın yanına. Bir neçə şiş çıxardılar.

Akop mənə baxa-baxa şişləri köz düşmüş ocağın üstünə düzdü. Sonra mənə tərəf əyilib pıçıltı ilə dedi:

– Dizlərin üstə çök, başçımıza yalvar, göz yaşı tök, mən də səni qurtarım.

– Akop, – dedim, – bunları başa sal ki, biz dost olmuşuq.

– Nə dost? Sən mənim düşmənimsən.

– Düşmən niyə oluruq, Akop? Məni xilas elə, uşaqlarım gözləyir.

Akop məni ələ saldı:

– Mən də səni bunlara igid bir adam kimi təqdim elədim. Biz bir azdan böyük savaşa başlayırıq. Müsəlmanların igid, qoçaq oğullarını aradan götürürük ki, yerdə qalan məzlumları asanlıqla qətlə yetirək. Bu gecə ətraf kəndlərdən cavanları sürüyüb bu meşəyə gətirəcəyik. Çoxlu şərab içiləcək və çoxlu qan axıdılacaq.

Mən ağlamsındım:

– Akopcan, heç olmasa mənə işgəncə verməyin, qorxuram.

– Bu qızmış şişlərlə sənin bədənini dəlmə-deşik edəcəyik. Bax o vaxt səsin meşədəki quşları da vahiməyə salacaq, göz yaşı tökəcəksən...

Bilmirəm, qollarımdakı kəndiri nə vaxt qırıb tökdüm, şişlərin üstünə necə cumdum, bağırtım bəlkə də meşədəki heyvanları qorxutdu, şişləri götürüb ermənilərin başı üstə dayandım. Şiş-

lər qılınc kimi başlarının üstə qıpqırmızı, mən də ki, dəli... Silahı götürməyə macal tapmadılar. İkisi bir zərbəmlə yıxıldı. Şişi dayadım Akopun boğazına:

– Gecə hara, kimin evinə yığışacaqsız de.

Akop zarıdı, ayaqlarımı qucaqlamaq istədi, vurub kənara atdım, çökdüm boğazına:

– Tez ol, cavab ver

– Məni sağ buraxsan, deyərəm.

– Gözləyirəm.

– Görusda, Hamparsumun evində. Bizi gözləyəcəklər.

Elə həmin gecə Hamparsumun evini tapdım, ermənilərin hamısını qırdım. Atları da götürüb özümü yetirdim Cağazura, – bunu deyib Ağamməd ayağa qalxdı.

– Bəs Akop necə oldu?

– Elə bir namərdi sağ buraxmaq olar?

Hər kəs ovsunlanmış kimi Ağamməda baxdı.

***

... Ağamməd Quliyev 1873-cü ildə Cağazurda kasıb bir kəndli ailəsində – İmamqulu kişinin ocağında dünyaya göz açdı. Yeniyetməlik çağlarından Ağamməd at çapmaqda yaşıdları arasında ad çıxarıb, ağlı, fərasəti, zirəkliyi ilə ətraf kəndlərdə də tanınmışdı. İmamqulu kişinin ağlına da gəlməzdi ki, vaxt gələcək oğlu Ağamməd təkcə bir ailənin yox, bir elin, obanın çırağını sönməyə qoymayacaq, Zəngəzurun sayılan-seçilən igidlərindən biri olacaq.

1905-06 cı, 1918–20-ci illərdə daşnaklarla savaşda Ağamməd el arasında xalq qəhrəmanı kimi ad çıxardı, Zəngəzurun daşnaklarla ölüm-dirim savaşında böyük qəhrəmanlıq göstərdi və adını tarixə yazdı.

Ağamməd qəddar düşmənlə savaşda Zəngəzurun müxtəlif bölgələrinin qorunmasında daim Sultan bəylə çiyin-çiyinə dö-

yüşdü, məşhur Qaragöl, Zabıx dərəsi döyüşlərində Sultan bəylə bərabər bir əfsanəyə çevrildi.

***

– Ağamməd, ermənilər sənin başına pul mükafatı qoyub. Ehtiyatlı ol, – Mahmud sözünü deyib gözlərini Ağamməddən çəkmədi. Onun gözlərindəki təşviş və narahatlıq Ağammədin üzündə təbəssüm yaratdı:

– Yəni ermənilər məndən belə qorxur?

– Qorxurlar, Ağamməd. Onlar sənə görə Cağazura yaxın düşə bilmirlər. Yoxsa başqa müsəlman kəndləri kimi Cağazuru çoxdan viran qoymuşdular.

Ağamməd fikrə getdi:

– Amma bir dəfə hücum elədilər. Xeyli adamı da qətlə yetirdilər... bu qaniçənlər.

– Onda Şuşaya getmişdin. Bundan duyuq düşən ermənilər kəndə girdilər. Amma sən bunun qisasını onlardan aldın.

– Qisaslarını aldım.

– İrəlidə mühüm döyüşlər var, Ağamməd, onlar bu döyüşlərə qədər səni aradan götürmək istəyəcəklər. Daşnaklar sənin əlindən yanıqlıdı. Ayıq ol.

– Narahat olma, Mahmud. Bu torpağı ermənilərdən təmizləyənə qədər ölməyə ixtiyarımız yoxdur.

– Evində qalma. Ailəni də çalış təhlükəsiz yerdə gizlət.

– Mən onsuz Sultan bəyin yanındayam. Ona görə ailəm də etibarlı yerdədir... Sultan bəy mənə inanır, özündən bir addım da kənara qoymur.

– Bunu bilirəm, Ağamməd. Sultan bəyin sənə böyük etimadı var.

– Təkcə mənə yox, Mahmud, Zəngəzuru canından çox istəyən və onun yolunda ölümə hazır olan hər kəsə etimadı var.

– Haqq işimizdə Allah bizə kömək olsun.

– Amin.

***

Sultan bəy kəşfiyyatdan qayıdan Xanalını, Fərhadı, Alını və Həsəni qəbul etdi. Hava sazaq idi. Qurdgəzi kəndi gecənin qaranlığında sakit bir yuxu içində mürgüləyirdi. Sultan bəyin mülkündə hamı oyaq idi. Bəyin qonaqları vardı. Şam yeməyindən sonra bağçada samovarlar salınmışdı.

Əlvan xalılarla döşənmiş salonun bir tərəfində divar sobası yanırdı. Qıpqırmızı qızarmış közlər içəriyə bir rahatlıq və istilik gətirirdi.

Kəşfiyyatçılar gözləri Sultan bəydə donmuş əllərini ovuşdurur, sobanın istiliyi yorğun gözlərinə yuxu gətirirdi.

Sultan bəy kürəyini yasdığa söykəmişdi. Əlində tez-tez çevirdiyi təsbeh dənələri şaqqıldayır, sanki bu səs Sultan bəyi bu ev-eşikdən, qonaqlardan ayırıb uzaqlara aparırdı.

Yemək-içmək qurtardı, süfrə yığışdırıldı. Ortaya çay gəldi. Sultan bəy çayını qarşısına çəkdi, üzünü Xanalıya tutdu:

– Yol sizi çox yormadı ki, Xanalı?

– Xeyr, bəy. Yol yormadı. Amma gördüklərimiz bizi təşvişə saldı.

– Buyur, Xanalı, eşidirəm sizi.

Xanalı bir az da irəli çəkildi. Gecə-gündüz at belində olduğundan topuqdan yuxarı ayaqları şişmişdi. Amma o, bunun fərqində deyildi:

– Xəbərlər ürəkaçan deyil, bəy. Qaragöl yaylağı təhlükə altındadır. Ermənilər soyuğa, şaxtaya, borana məhəl qoymadan Qaragölə qatırlarla, arabalarla silah-sursat daşıyır. Özü də bunu gizli saxlayırlar.

– Necə gizli saxlaya bilərlər, Xanalı?

– Çünki gündüzlər yaylağa gedən yollar boş olur. Qaş qaralan kimi Gorus yollarında saysız-hesabsız silah yüklənmiş qatırlar, arabalar görünür. Hətta biz topların da yaylağa daşındığını gördük. Onlar böyük savaşa hazırlaşır.

– Canlı qüvvə necə?

– Yaylağa qədər qalxdıq. Əsgərlər çadır qurub. Belə çıxır ki, elat yaylağa qalxana qədər onlar Qaragölü işğal etmək, mal-heyvanlarını yaylağa gətirmək niyyətindədir. Belə güman edirik ki, onların fikri həm də yaylağı işğal etdikdən sonra Qarabağa, Naxçıvana, Vedibasara əl yetirməkdi. Qaragöl strateji cəhətdən misilsizdi. Onlar yüksəklikləri ələ keçirmək üçün yaylağa can atırlar.

Sultan bəy yerindən qalxdı:

– Xanalı, uzaq yol gəlib yorulmusuz. Gedin dincəlin. Amma sabah burda olun. Çal Aslan da gələcək. Məsləhətləşək. Qaragöl yaylağına təkcə biz yox, Zəngilan, Cəbrayıl, Qubadlı, Qatar rayonlarının maldarları da köçür. Yaylağın əlimizdən çıxmağı bölgələrin əhalisinə ciddi ziyan vurar, mal-heyvanları yayın istisində aranda qalıb tələf olar. Ona görə də bu bölgələrin bəylərini görüşə dəvət etməli, daşnaklara qarşı birləşib bu bəlanı üstümüzdən atmalıyıq.

– Oldu, bəy.

***

Çal Aslan soruşdu:

– Bəyləri görüşə hara çağırsaq yaxşıdı bəy?

– Bu görüş gizli olmalıdı, Aslan bəy. Bundan kimsə xəbər tutmamalıdı. Əgər məlumat ermənilərə sızarsa onda biz bəri başdan heç savaşa girməsək yaxşıdı.

– Düz deyirsiz, bəy. Bütün planlarımız puça çıxar. O zaman harda görüşsək şübhə oyatmarıq, bəy? – Çal Aslan təkrar, səbirsiz halda soruşdu.

– Məncə Cicimli kəndinin yaxınlığındakı Malik – Əjdər türbəsinin yanı etibarlı yerdir. Kimsənin ora ayağı düşmür. Gözdən-könüldən uzaqdır.

– Düz deyirsiz, bəy. Cicimli heç mənim də ağlıma gəlməz.

– Xanalıgilin hərəsi bir bölgəyə getsin. Bəylərə yazılmış məktubları çatdırsınlar. Döyüş planını bir yerdə hazırlayaq.

– Oldu, bəy.

Qıs-qıvraq geyinmiş kəşfiyyatçılar yenidən atlara mindilər, Qubadlı, Zəngilan, Cəbrayıl və Qatar bölgələrinə üz tutdular.

**2.**

Humay Kərəmi qəflətən qarşısında görəndə bir addım geri atdı, içinə sanki cil atmış əndişə, qorxu ağrı kimi bütün bədəninə yayıldı, gözlərinin içinə qədər doldu. Göz yaşında islanmış baxışları dirənib Kərəmin üzündə qaldı. Ətrafda kimsə yoxuydu. Yalnız xeyli aralıda-arxacda adamlar görünürdü və o adamların arasında Məzahir də vardı. Məzahirin pəhləvan cüssəsi aydınca seçilirdi. Humayın bir an fikrindən keçdi: "Qışqırsam Məzahir səsimi eşidəcək...". Yüngüllüklə nəfəs aldı və bununla da elə bil ürəkləndi, üstəlik davakar bir görkəm aldı, Kərəmin üstə yeriyib hiddətlə dedi:

– Nə var, nə deyirsən? Çəkil yolumdan.

Kərəm ətrafa baxıb pıçıltı ilə dedi:

– Mən sənin kölgənəm, Humay. Niyə belə rahatsız olursan? Hara getsən arxanca sürünəcəm.

– Sən koramalsan? Yox gürzəsən, – Nifrətli, kinli baxış Humayın üzündə gözəl deyilən hər nə vardısa, mülayim təbəssümünə qədər – hər şeyi sanki zəhərə bükdü. Bu zəhər səsinə qədər çökdü:

– Rədd ol. Yoxsa qışqırıb hamını bura tökərəm. Sənin erməni olduğunu deyərəm.

– Mən səni xəbərdar etmişəm. Yoxsa peşiman olarsan. Bir də gözünü açarsan ki, ətrafında olan əzizlərin, doğmaların, güvəndiyin nişanlın baltalanıb. Başa düşdün? Burda, içinizdə bizimkilər var, onlar məni qoruyur. Sultan bəyə xəbər verməyi ağlından belə keçirmə. Sən mənim tapşırıqlarımı yerinə yetirəcəksən, – Kərəm gözucu ətrafa baxdı və çibində gizlətdiyi silahını çıxardı.

– Ağlın erməni qızlarına getməsin.

– Erməni qızlarına nə olub? – Kərəm əsəbi dedi və dişlərini qıcadı.

– Sultan bəy axırınıza çıxacaq, sizi sizin olmayan bu torpaqlardan didərgin salacaq.

– Doğrudan? – Kərəmin ağzı əyildi: – Sən bədbəxt bir müsəlman qızısan.

– Xoşbəxt erməni, bizi hədələyən sənsən.

– Humay, səni gözləyirlər, sağım başlanıb, – Məzahirin gülər gözlərini görəndə Kərəm özünü yığışdırdı, saxta təbəssümü gözlərindəki öfkəni, nifrəti gizlətdi.

– Uşaqlıq illərimizi bir anlıq xatırladıq. Anam Humayı çox istərdi.

Məzahirin üzü sərtləşdi, qaşqabağını tökdü. Kərəm özünü onda qoymadan arxaca tərəf getdi. Məzahir onun arxasınca baxıb başını buladı:

– Bu adama heç ürəyim qızmadı, Humay.

– Mənim də.

– O sənə nəsə dedi?

– Yox. Amma indi qarışıq zamanadı.

– Deyəsən bu da Çanqurtarana getmək, ermənilərlə döyüşmək istəyir.

– Məzahir... – Humayın səsində açıq-aşkar bir əndişə duyuldu, gözləri iri-iri açıldı. Amma sözlər elə bil ilişib boğazında qaldı.

– Sözlüsən, gizlətmə.

– Düzdü, Kərəmlə uşaqlığımız bir keçib. Amma mən indi onun hansı dinə, məssəbə qulluq elədiyini bilmirəm. Orda onu gözdən qoyma.

– Başa düşdüm.

– Onunla mehriban ol, özünü sadəlövh göstər.

– Görürəm, sən nəsə bilirsən.

– Sənə ehtiyatlı olmağı tövsiyə eliyirəm, Məzahir.

Humay zorla gülümsündü, bununla da içindəki əndişəni ört-basdır elədi və arxaca doğru getdi.

***

Arxasınca gələn vardı... Karen bunu sövqi-təbii ilə duydu. Bir anda qar-boranın içinə düşmüş kimi alnını soyuq tər basdı, sonra elə bil gözəgörünməz bir qüvvə onu ocağın içinə atdı, boğazından tutub sıxdılar, nəfəs ala bilmədi: "Sultan bəy yəqin xəbər tutdu. Mən gərək Humayı sağ buraxmazdım. Axmaq ağlım... Humayı qorxutduğumu sandım... "Silahını çıxardı və geri çevrilmək istəyəndə boynunun ardına silahın soyuq lüləsi dayandı, erməni dilində kimsə hökmlə dedi:

– Geriyə baxma. Özününküyəm. Obanın aşağısındakı tək söyüdün altına gəl. Gözləyirik.

– Kimsən axı?

– Kimliyimin nə fərqi? Erməni...

– Akpercan, amma məni yaman qorxutdun.

– Gözləyirik.

– Gələrəm. Gecəyarıdan sonra.

Karen rahatlıqla nəfəs aldı. Adam üzünü göstərmədən qaranlıqda yox oldu. Karen ətrafa baxdı, sonra üzünün soyuq tərini əlinin arxası ilə silib şalvarının dizlərində quruladı. Bircə an keçirdiyi qorxu hələ də ürəyini titrətməkdə idi, əl-ayağı uçunurdu, yeriməyə gücü çatmadı. Yastı təpənin ətəyində ayaqlarını uzadıb kürəyini mamırlı daşa söykədi. Gözlərini yumdu. Obada yaşasa da, kimsə onun əslini tanımasa da, üzügülər, xeyirxah cavan bilsə də içindəki qorxu sanki marıqda yatmış canavar kimiydi. Onu didib parçalayırdı, əl-qolunu bağlayırdı, cəngavər olmağa, Sultan bəyin qarşısına çıxmağa qoymurdu.

Obada sakitlik yarandı. Təkcə havaya, buluda, ay və ulduzlara hürən çoban itlərinin səsi gəldi. Çadırların qabağında ocaqlar alovlanırdı. Şam yeməyinə hazırlıq görülürdü.

Ay işığında bozumtul görünən Çalbayır dağlarını sanki qaranlıq qara əjdaha kimi uddu.

Məcid çadırdan çıxdı, əlini ağzına tutub astadan səsləndi:

– Kərəm, ay Kərəm, hardasan? Çörəyimizi yeyirik, yubanma gəl.

Karen könülsüz cavab verdi:

– Burdayam, gəlirəm.

Karen yerindən qalxdı, soyuq bulaqda əl-üzünə su çırpdı və çadıra girdi.

Məcidlə Adəm süfrə başındaydı. Məcid kiçik, dəmir qablara lavaş doğramış, bozbaşın suyundan tökmüşdü. Təzə sulanmış lavaşları səliqə ilə doğranmış baş soğanla bir yerdə süfrəyə qoymuşdu. İri nimçədə bişmiş iri ət tikələri, noxud va kartof vardı. Ləzzətli xörəyin ətrini duyan kimi Karenin ağzı sulandı, hər şeyi yaddan çıxarıb iştahla süfrəyə oturdu.

Məcid ac olduğundan tələsə-tələsə yeyirdi, arada başını qaldırdı: – sağ olsun, Gülüstan arvadı, – dedi, – əti verdim ki, bir yaxşı bozbaş bişirsin.

Karenin iştahı birdən küsdü, əlini çörəyə həvəssiz uzatdı. İçindəki əndişə sanki gözlərində əks olundu və Karen onu biruzə verməmək üçün baxışlarını Məcidgildən yayındırdı.

Adəm onun qaşqabaqlı üzünə baxıb əl saxladı:

– Kərəm keyfin yoxdu? Yoxsa aran üçün darıxmısan?

Karen tələsik cavab verdi:

– Soyuqlamışam. Yəqin ondandır.

Məcid bir tikə lavaşla qabı sivirdi və təntənə ilə dedi:

– Bizimkilər Canqurtaran dağına yığışır. Deyirlər bura hər yerdən kömək gəlir. Biz də gedib onlara qoşularıq, inşallah, ermənilərin beli qırılacaq, inşallah. Anaları ağlar qalacaq, inşallah.

Karen dəyişilmiş səslə başıaşağı soruşdu:

– Erməni ordusunun qarşısında Sultan bəy duruş gətirə biləcəkmi? Yəni o qədər silahı-sursatı varmı?

– Sultan bəy bütün var-dövlətini bu yolda qoyur. Eşitdiyimə görə Bakı milyonçuları da silah-sursat göndərib.

Cilovunu çəkə bilmədiyi hirs-hikkə Kareni içində kəsib-doğradı. Gözlərini qaldırıb kimsənin üzünə baxmadı, nifrəti baxışından püskürə bilərdi... İri tikəni ağzında çeynəyə-çeynəyə başını tərpətdi:

– Sultan bəy inanmıram ermənilərə bata bilə.

– Niyə? – Məcidin sifəti acı alma kimi bürüşdü

– Onlar hər yerdən yardım alır. Ordularını generallar idarə eləyir.

– Sultan bəy də hərbi akademiyanı qurtarıb.

– Akademiyanı qurtarıb, müharibənin içindəki olmayıb.

Adəm sanki alovlanmış kimi yerindən dik qalxdı, əlini Karenin boğazına atıb sıxmağa başladı: – sənin başını ilan başı kimi əzərəm.

Hikkəsindən Adəmin sifəti qıpqırmızı qızardı, gözlərinin içi də qan rənginə döndü. Məcid onu Karendən ayırıb zorla kənara çəkdi:

– -Adəm, özünə gəl.

– Görmürsən, dığaların dəyirmanına su tökür, ilahiləşdirir onları. Bəlkə bu ermənidi əəə, biz bilmirik.

Karen kənara çəkilib dizlərini qucaqladı. Onun fağır və məğmun görünüşü Məcidin ürəyini yumşaltdı:

– Yaxşı, yaxşı çaydan qaynadı, çay gətirirəm.

Məcid ocağın üstə qaynayan çaydana kəklikotu atıb yerə qoydu, dəmir parçları doldurub süfrəyə çay gətirdi. Adəm Karenə gözaltı, qanlı-qanlı baxdı, üzünü Məcidə tutdu:

– Sultan bəyi bəzi nankor adamlar yaxşı tanımır. Sultan bəy qoymaz ki, bir erməni dığası Zəngəzurun bir qarış torpağına sahib ola.

Məcid istehza ilə gülümsündü:

– Ə erməni tülkü kimi qorxaq, çaqqal kimi hiyləgər, canavar kimi qəddardı.

– Ermənini mən ancaq çaqqala bənzədirəm, – Adəm nırç atdı, – Heyvanların arasında çaqqal kimi namərdi yoxdu: həm hiyləgər, həm qəddar, həm vəhşi. Çaqqal çox təhlükəlidi. Bir nankor adama heç vaxt canavar oğlu canavar demirlər, çaqqal oğlu çaqqal deyirlər.

– Adəm, sən azdan-çoxdan oxumuş adamsan, deyirlər bu ermənilər rusların nökəridi.

– Düzdü, erməni daim urusun qabağında belibükük nökər olub. Əmim erməni arvadı almışdı, sonra peşimanladı, talağını geri oxutdu.

Məcid hirsləndi:

– Otur aşağı, erməni anaları dünyaya insan əvəzinə gürzə balaları gətirir.

Karen çadırdan çıxdı, əli-qolu bağlı məhkumlar kimi ocağın qırağında çöməlib oturdu. Adəmlə Məcidin erməni söhbəti sanki içəridən açılan güllə kimi ocağın başında onu yaxalayırdı. Əlini qoynunda gizlətdiyi silahına toxundurdu. İçində qaynayan nifrət sanki şeytan kimi onu içəriyə çəkdi: "Gedim vurum ikisini də öldürüm, gecə ikən aradan çıxım. Yox, Karo mənim özümü güllələr. Ona Sultan bəy lazımdı, çulucırıq çobanlar yox..."

– Evi yıxılsın urusun. Bu namərdləri bizim torpağa köçürdükləri yerdə – Adəm əlini göyə açıb qarğış eləmək istədi, Məcid onun dizini basdı:

– Əşi, qarğış gedib urusa çatmır, eşitdiyimə görə ermənilərin arasında çoxlu urus əsgərləri də var.

Ocağın üstündəki his basmış çaydan qaynadı. Karen gözünü çaydana dikdi, içəri qulaq verdi, ayağa qalxıb çayı dəmlədi, parçlara süzüb içəri apardı. Çırağın zəif işığı, çadırı basan qaranlıq onun gözlərinin içindəki nifrət alovunu gizlətdi.

Çayları görəndə Adəmin üzü güldü, hər şeyi unutdu:

– Sağ ol, Kərəm. Susuzluqdan ciyərim yanır, bayaqdan çay içirəm, – üzünü Məcidə tutdu, – Sabah bizdən də bir dəstə Çanqurtarana yola düşür. Atları hazırlayaq.

– Mən də gedəcəm, – Karen səsindəki titrəyişi gizləməyə çalışdı: – Onlarla savaşmaq üçün əlim gicişir.

– Barı silah atmağı bacarırsan?

– Bir vaxt ova gedərdim.

– Hə, onda lap yaxşı.

... Çobanlar yuxudaydı. Ay Çalbayır dağlarının zirvəsində dayandı. Sanki gecə qapqara görünən dağlar başı üstündə iri, gümüşü sini tutmuşdu.

Məçid böyrüüstə çevrildi, yuxuda sayıqladı. Adəm üzüqoylu uzanıb yasdığı qucaqladı. Bayırdan qarışıq səslər gəlirdi. Obalardan kənarda düzəngahda atlar hörüklənmişdi. Çoban itləri həvəssiz hürüşürdü. Karen yerindən qalxıb Adəmlə Məcidin başının üstündə dayandı. İçində sönmək bilməyən nifrət sanki alovu səngiməyən ocaq idi. Hər şey bu ocaqda yanıb kül olurdu. Bu ocaqdan yalnız qan qoxusu gəlirdi... Adəmə tərəf bir addım atdı. Əllərini boynuna uzatdı və son anda əl saxladı: "Əvvəl bunları öldürüm. Sonra Humayı, Məzahiri... Bəlkə ürəyimdəki bu yanğı soyuya. Amma məni gözləyirlər. Alaçıqları yandırım. Qoy kül olsunlar. Yox, məni gözləyirlər. Karonun əmri var... Gedim... Sultan bəyin harda qaldığını, harda gecələdiyini kimsə bilmir. Onu sanki gözəgörünməyən mələklər qoruyur. Mən onu tapmaqda acizəm... Görək Karo nə xəbər göndərib?"

Qalın gödəkçəsini geyindi, papağını başına basdı və çadırdan çıxdı. Sanki ay işığı yuxu kimiydi. Hər şeyi ağuşuna almışdı. Tək söyüdə tərəf gedən alt yola düşdü və az qala yüyürə-yüyürə getdi. İçinə dolmuş təlaş ürəyinə çırpıntı gətirdi. Addım atdıqca elə bil ürəyinin çırpıntısı da artırdı və qaranlıq qara vahimə kimi onu bürüyürdü.

Tək söyüdün yanına çatmamış təpənin arxasından iri kölgə çıxdı, Karenin qarşısını kəsdi. Onun qolundan tutub təpənin arxasına atdı və nəfəsi kəsilə-kəsilə ermənicə soruşdu:

– Səni görən olmadı ki?

Karen səsi tanıyıb irəli getdi:

– Vartancan, sənsən? – Karen sanki qürbətdə əzizini tapmış kimi sevindi.

Vartan etinasız halda ona arxa çevirdi, söyüdün altına çatanda Karenlə üz-üzə dayandı:

– Biz hər gün buradan Sultan bəyin qətlə yetirilmək xəbərini gözləyirdik. Amma sən rahatca bu gözəl yaylaqda keyf eləyirsən, o qıza sevgi nağılları danışırsan, musurmanların qoyunlarını otarırsan.

– Akbercan, sən nə danışırsan? Burası mənim üçün bir cəhənnəm. Sultan bəyi bir dəstə süvari qoruyur. Onun çadırına yaxın düşmək ulduzlara əl uzatmaq kimi bir şeydi.

– Karonun sənə güvənci çoxdu, – Nerses tənbəl-tənbəl əsnədi.

– Mən də bilirəm, Sultan bəy Zəngəzurun işğalında yolumuzun üstündə dayanan bir qaladı.

– Bu qalanı məhv etmək lazımdı. Sultan bəyi, onun sağ əli olan Çal Aslanı. Yoxsa biz Qaragölü işğal edə bilmərik. Bunu Karo söylədi. Bu qızılları Karo sənə göndərib, – kiçik qızıl kisəsini Karenə uzatdı, – Bu qızıl Sultan bəyə gedən yolları üzünə açmalıdı, başa düşdün? – Vartan az qala kisəni onun gözünə soxdu, – Sultan bəyi öldürməsən Karo özü səni güllələyəcək. Bilməni istərəm.

– Sabah Canqurtaran dağına gedirik. Könüllülərin hamısı bura toplaşır. Bir türk yüzbaşısı onlara təlim keçir.

– Onda sən də get. Fürsət tapan kimi Sultan bəyə yaxınlaş və vur. Bizim hamımız böyük Ermənistan uğrunda canımızı fəda etməyə hazır olmalıyıq.

Karen qızıl kisəsini qoynunda gizlətdi. Nerses dəmir parçı şərabla doldurub onun qarşısına qoydu. Şərabın iyi dağ havasını zəhərlədi. Karen sevindi. Əlini parça atıb şərabı bir nəfəsə başına çəkmək istədi. Amma əl saxladı və parçı təkrar süfrəyə qoydu:

– Mən bunu içməyim.

– Niyə? – Lazar parçı ona tərəf itələdi, – Rəhmət Sultan bəyə. O şərəfə qaldır.

– Məndən şübhələnərlər. Siz də tez qalxın. Səhər açılmamış Çalbayırı tərk edin.

– Xəbər gözləyirik, – Vartan ayağını atın üzəngisinə qoydu. Üç at üç qaraltı kimi yoxuşun qaşında göründü, sonra zil qaranlıq onların üçünü də uddu.

***

Sultan bəy başının dəstəsi ilə günortaya yaxın Laçının Cicimli kəndinə yetişdi. Süvarilər Cicimliyə girmədən dolama yollarla kənddən xeyli aralı geniş düzənliyə çıxdılar. Məxfi görüş burda keçiriləcəkdi. Dağların sərt soyuğundan sonra Cicimli düzünün günəşlə isinən havası Sultan bəyə xoş gəldi. İrəlidə Malik-Əjdər türbələri göründü. Sultan bəy atının cilovunu çəkib saxladı. Türbələri heyranlıqla seyr etdi. Üzünü Bəhlul Behcətə tutdu:

– Sən oxumuş adamsan, Bəhlul bəy. Görəsən Malik-Əjdər kim olub?

Bəhlul Behcət də türbələri diqqətlə süzdü və bildiklərini Sultan bəyə çatdırdı:

– Bir vaxtlar bu yerlərdə qızğın savaşlar gedib. Xristianlarla kürdlər arasında. Bildiyimə görə xristianlar bu yerləri işğal etmək istəyiblər. Bu döyüşlərdə Malik və Əjdər adlı iki qardaş da iştirak edib. Hər ikisi də kürd sərkərdəsi olub. Kürdləri başlarına toplayaraq xristianlara qarşı qanlı savaş açıblar. İki qəhrəman, iki cəngavər bu yerlərə gəldiklərinə xristianları peşiman edib. Düşmən geri çəkilib. Malik və Əjdərin igidliyi bir dastan olub dildən-dilə, nəsildən-nəslə keçib, onların haqqında əfsanə yaranıb. İllər sonra bu yerlərə kürd sərkərdəsi Səlahəddin Əyyubinin yolu düşüb. Bu sərkərdə də uzun illər xristianlarla müharibə aparıb. O, da çox igid bir adam olub. Və müharibələrdə daim zəfər qazanıb. Səlahəddin Əyyubi burda Malik və Əj-

dər haqqında əfsanəni eşidir. Çox duyğulanır və onların şərəfinə bu türbəni inşa etdirir.

Bəhlul Behcət atdan düşüb türbəyə yaxın gəldi. Türbənin divarlarına yazılmış yazılara diqqət etdi. Amma yazılar daşla cızılmış kimi pozulub getmişdi. Bəhlul Behcətin gözlərində bir ağrı göründü, üzünü çevirib Sultan bəyə təəssüflə dedi:

– Ermənilər bu qədim yazıları pozmuşlar.

Sultan bəy nifrətlə güldü:

– Öz tarixlərini yazmaq üçün.

... Türbənin yaxınlığında çadırlar quruldu. Ən böyük çadır Sultan bəyin və qonaqların idi. Çadırlarla üzbəüz ocaqlar alovlandı. Aşbazlar kabab çəkməyə hazırlıq görürdülər. Ocaqlardan kənarda iri mis samovarlar tüstüləndi.

Çadırın içinə əldə toxunmuş gəbələr döşənmiş, mütəkkələr qoyulmuşdu. Sultan bəy keçib baş tərəfdə Çal Aslanın yanında əyləşdi. Rəcəb süfrə saldı, çay gətirdi. Bu anda Xanalı başını içəri uzatdı və xəbər verdi:

– Bəylər də gəldilər.

Həyətdə böyük qələbəlik yarandı. Xidmətçilər o anda atların cilovundan yapışıb yaxın yerdə, ağacların yanında hörüklədilər. Qubadlıdan, Zəngilandan, Qatar və Cəbrayıldan gəlmiş qonaqları çadıra apardılar.

Sultan bəy çadırdan çıxdı, bəyləri ehtiramla qəbul etdi.

Süfrə yığışan kimi Zəngilandan gəlmiş yaşlı bəy üzünü Sultan bəyə tutdu:

– Camaat elliklə ayağa qalxıb, Sultan bəy. Biz səni özümüzə başçı seçmişik. Dediyin hər söz bizim üçün qanundur. Əli silah tutan adamlarımız sizin əmrinizi gözləyir.

– Silahınız varmı?

– Var, Sultan bəy.

– Silah sarıdan sıxıntı yoxdu. Sağ olsun Bakı milyonçuları – Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Şuşadan xan qızı Natəvan yardım göndəriblər. Türkiyədən də silahla kömək

edirlər. Döyüş iki istiqamətdə gedəcək: Ağammədin dəstəsi Qazi gölünün işğalının qarşısını alacaq. Bir dəstə isə Qaragöl yaylağında düşmənin başını əzəcək, – Sultan bəy başını qaldırıb Çal Aslana baxdı, – Aslan bəy söz səndədi.

Çal Aslan ayağa qalxdı. O, oturanlara nəzər saldı. Üzünə zillənən baxışlarda düşmənə meydan oxuyan bir çağırış vardı. Bunlar əyilməz, diz çökməz insanlardı və bu torpaq üçün ölümə getməyə hazır idilər. Sultan bəyə baxdı. Onları düşmən üstünə aparan qorxu bilməz cəngavər, yenilməz bir sərkərdəydi Sultan bəy. Baxışlarındakı comərdlik, üzünün sərt cizgilərində, iri gözlərində düşməni vahiməyə salacaq zəhmli bir ifadə vardı.

Çal Aslan içini arıtladı və təmkinlə dedi:

– Kəndlinin yaşayışı yaylaqlarla bağlıdır. Hər il bu yaylaqlara yüz minlərlə mal-qara çıxarılır. Əgər bu yaylaqlar olmasa kəndçinin mal-heyvanı aranda qalıb istidən tələf olar. Vaxtı ilə çörək verdiyimiz bu nankor ermənilər bu yaylaqları əlimizdən almaq istəyirlər. Eyni zamanda onlar burda bir güllə ilə iki dovşan vurmaq niyyətindədir.

Ağamməd özünü saxlaya bilmədi:

– Keçinin əcəli çatanda başını çobanın çomağına sürtər.

Sultan bəy ona göz ağartdı. Çal Aslan sözünə davam etdi:

– Bəylər, siz yaxşı bilirsiz ki, daşnaklar 1905-06-cı illərdə Zəngəzuru bütünlüklə işğal etməyə çalışdılar. Əhali qəddarlıqla qətlə yetirildi. O illərdə Əlipaşa bəylə Sultan bəyin dəstəsi daşnakları niyyətlərinə çatmağa qoymadı. Amma buna baxmayaraq Zəngəzurun Şəki, Qarakilsə, Ağdülü, Urud, Qatar, Xələc, İncəvar, Karxana, Yeməzli, Daşnov, Göllü, Yök, Saldaşı, Mollalar, Oxçu-Səbədin, Atqız, Pirdovdan, Züzül, Fərcan, Sənanlı, Cüllan kəndinin xarabalıqları erməni vəhşiliyindən bu günə qalan nişanələrdi.

Bəylər rahatsız halda yerlərində qurcalandı. Sanki bu anlarda həmin kəndlərdə ermənilər yenə müsəlmanlara qan uddururdu... Bəylər səs-səsə verdilər, gözlər alışıb yandı, yumruqlar

düyünləndi. Çal Aslan çadırda sakitliyin yaranmasını gözlədi və onları süzüb bu dəfə uca səslə: – bəylər, dedi, – daşnaklar Qarabağla Ermənistanın sərhəddində yerləşən Qaragölü işğal etməklə Qarabağla Ermənistanı birləşdirmək istəyirlər.

– Biz savaşa hazırıq, Sultan bəy. Malımızla və canımızla.

Sultan bəy bir-birinə aman verməyən, bir-birinin sözünü kəsən bəyləri sakitləşdirdi:

– Bilirəm, siz qeyrətli adamlarsız. Torpağı düşmənə güzəştə getməzsiz. Bilirsiz ki, Qaragöl köhnə Görusun üstündədir. İşıqlı dağa yol buradan gedir. Qazi gölünün əlimizdə olması o deməkdir ki, düşmənin Qaragölə yolu bağlanacaq. Ermənistandan oraya canlı qüvvə, silah-sursat daşıya bilməyəcəklər. Ona görə də Qazi gölünün alınmasında iştirak edən dəstəyə Ağammədi komandir təyin edirəm. Mən Ağammədə özüm qədər inanıram. Biz Zəngəzurun hər qarışına, – dağına-daşına, yoxuşuna, dərə - təpəsinə, keçilməz yollarına, gədiklərə, ormanlara bələdik. Nabələd adam isə bu yerlərdə it-bata düşər, yolunu azar. Bizim üstünlüyümüz bundadı. Yerli ermənilər daşnaklara bələdçilik etsə də bizim qədər bu yerləri tanımırlar. Hər daş, qaya bizim üçün səngərdi, bizimlə birgə döyüşəcək.

Ağamməd ayağa qalxdı:

– Bəy, – dedi, – aldığım məlumata görə daşnak köpəkləri Gorus dərəsinə qatırlarla silah-sursat daşıyırlar.

– Onlar Köhnə Görusa yaxın olan Qazi gölünü tutmaq, sonra da Qaragölə hərəkət etmək niyyətindədir. Onlar burada olan qüvvələrlə birləşməyə can atırlar -Çal Aslan üzünü Ağammədə tutdu, -Xanalıgilin gətirdiyi məlumata görə ermənilər Minkənd istiqamətində hücuma keçəcəklər.

– Biz bunu bilirik, – Ağammədin qaşları çatıldı, nifrəti alov kimi gözlərində əks olundu, əsəblərini cilovlayaraq təmkinlə danışmağa çalışdı, – Kəşfiyyatçılarımız bu məlumatı mənə də çatdırıblar. Hacılarlı Ağalar, Mahmud və Məmmədlə vaxt itirmədən Malıbəy, Hocaz, Sadınlar, Minkənd kəndlərində olduq.

Adamlar meydana toplandı. Erməni zülmündən əziyyət çəkmiş bu adamlar bizimlə savaşa getməyə hazırdı. Onlara silah-sursat payladıq. Hazırda müdafiəçilər təlim keçirlər.

– Sizə göndərdiyim silah-sursat yetəri qədərdi. Təki ermənini baş qaldırmağa qoymayaq, torpağımızın bir qarışını belə onlara güzəştə getməyək.

Qubadlıdan gəlmiş Cavad bəy qızğınlıqla dedi:

– Biz də varımızı-dövlətimizi bu yolda qoyacağıq Sultan bəy. Sübh tezdən dəstələr Laçına doğru hərəkət edəcək.

Söhbət qaş qaralana qədər davam etdi. Ayağa qalxanda Bəhlul Behcət Sultan bəyə yaxınlaşdı. Əlində tutduğu dəsmalı səliqə ilə açdı və nəfis şəkildə çap olunmuş kitabı Sultan bəyə verdi:

– Bəy, – dedi, – Azərbaycan dilinə tərcümə etdiyim "Quran"nın bir nüsxəsini sənə verirəm. Qoy bu "Quran" haqq savaşımızda bizə kömək olsun.

Sultan bəyin üzü güldü. "Quran"ı öpdü və gözünün üstə qoydu.

***

Yoxuşun qaşında gecənin içindən çıxıb gəlmiş kimi qara süvarilər göründü. Ay başlarının üstündəydi. Ayın və ulduzların gümüşə oxşar işığı altında süvarilər, sanki xəyal kimi bir-birinin arxasınca düzlənərək tələsmədən gedirdi. Sonra süvarilərin sırası sanki dümdüz ox kimi birdən ortadan sındı və irəlidə gedən atlı yoxuşdan aşağı yenib Malıbəyli kəndinə girdi.

Süvarilərin hənirtisini alan kimi kənd itləri hürüşməyə başladı. Pəncərələrə qoyulmuş çıraqlar həmin anda gurlaşdı və elə bil hərəsi bir göz olub qaranlığın içinə baxdı. Malıbəyli Zaman atını irəli sürdü və ucadan dedi:

– Komandir, camaat elə bilər ermənilər kəndə girib. Vahiməyə düşərlər.

Ağamməd ona cavab vermədən əlini ağzına tutub var qüvvəsi ilə qışqırdı:

– Malıbəylilər, eşidin, mən Ağammədəm. Tez olun, meydana yığışın.

Qaranlığın içində açılıb örtülən qapıların taqqıltısı eşidildi. Sonra taqqıltı kəsdi, itlərin hürüşməsi dayandı və kənd qərib bir səssizlik içində sanki nəfəsini içinə çəkib gözlədi. Mahmud atın belində meydanı dörd dolandı, gəlib Ağammədin qarşısında dayandı:

– Komandir, bunlar bizə inanmadılar. Yazıqdılar, həyəcan, qorxu keçirərlər.

– Zatıqırıq çaqqallar o qədər hiylə işlədiblər ki, həqiqi müsəlmana da inanmırlar.

Malıbəyli Zamanın hövsələsi çatmadı:

– Bəlkə gedim, qapıları bir-bir döyüm?

Ağamməd təkrar kəndə tərəf səsləndi:

– Malıbəylilər, biz erməni deyilik. Mən Ağammədəm.

Yaxınlıqdakı evin qapısı açıldı, kimsə meydandan gələn səslərə qulaq asdı, sonra da sevincək səslə kəndə hay saldı:

– Ay camaat, gələnlər özümüzünkülərdi. Ağamməd gəlib. Gəlin meydana...

Az keçmədi ki, meydan adamla doldu. İsti yatağından qalxmış uşaqlar sübhün sazağında üşüyürdülər. Çiyinlərini qısaraq əlləri qoynunda, amma göyərmiş dodaqlarında, yuxulu gözlərində qəflətən yaşadıqları sevinc soyuğu hiss etdirmədi. Ağamməd sanki göylərdən yenmiş xilaskar mələk kimi onların qarşısındaydı, uşaqlar kirpiklərini qırpmadan dərin bir heyranlıq içində ona baxırdılar. Sazaqdan yanaqları, dodaqları çatlamış bir uşaq sadəlövhlüklə soruşdu:

– Demək, Ağamməd bu əmiymiş.

– Bu əmini mən yuxuda görmüşəm. Pəhlivana oxşayır.

– Ermənilər ondan it kimi qorxur.

– Ona görə bizim kəndə yaxın düşmürlər?

Uşaqlardan biri adamların arasından özünə yer eləyib irəli keçdi, üz-gözünə sığmayan sevinclə Ağammədlə əl verib görüşdü.

Ağamməd əyilib onun soyuq yanaqlarından öpdü. Uşaq çevrilib yaşıdlarına baxdı. Onların gözündə həsədi görüb qürrələndi.

Ağamməd onu bağrına basdıı:

– Adın nədi?

– Babək...

– Bu adı sənə kim qoyub?

– Babam. Babam istəyir ki, mən də Babək kimi qəhrəman olam. Erməniləri Zəngəzurdan çıxaram.

– Sən böyüyənə qədər inşallah, burda bir erməni də qalmaz.

Babək əlini onun geniş sinəsinə çəkdi:

– Deyirlər sənə güllə batmır, Ağamməd əmi. Doğrudu?

– Bunu kim deyir?

– Hamı deyir.

– Hamı deyirsə demək düzdü.

– Onda sən dəmirdən paltar geyinmisən? O paltarı çıxarma. Erməniləri qır qurtar, biz də rahat olaq.

– Arxayın ol, savaş qurtarana qədər o paltarı əynimdən çıxarmaram.

Babək hələ də saf bir heyranlıqla gülləbatmaz qəhrəmanı dərin bir heyrətlə süzdü, Ağammədin əlini sıxdı, onu dördgözlə gözləyən uşaqların yanına qaçdı.

Ağamməd üzünü malıbəylilərə tutdu:

– Vəziyyəti gizlətməyə ehtiyac yoxdur. Yaylaqlarımız təhlükə altındadır. Ermənilər Qaragöl yaylağını işğal etmək istəyirlər. Hazırda onlar Gorus dərəsinə silah-sursat daşıyır, canlı qüvvə gətirirlər. Bizə çatan məlumata görə daşnaklar Minkənd, Hocaz, Hacılar, Sadınlar, Əhmədli kəndlərinə hücum etmək, müsəlmanları soyqırımdan keçirmək, bundan sonra Qazi gölünə sahiblənmək istəyirlər. Bildiyiniz kimi, Qazi gölü Köhnə Gorus kəndinin üst tərəfində yerləşdiyinə görə, əgər bu yerləri işğal etsələr, o zaman onlar çox asanlıqla Qaragöl yaylağına canlı qüvvə və silah-sursat daşıyacaqlar. Əgər Qazi gölü bizim əlimizdə olsa yollar daşnakların üzünə bağlanacaq, Sultan bə-

yin dəstəsi də Qaragölə yığışmış daşnak ordusunu çox asanlıqla məhv edəcək.

Qəzəb, nifrət dalğası sanki tufan kimi meydanı silkələdi, yumruqlar düyünləndi, səslər dağlara qədər yayılıb əks-səda verdi:

– Daşnaklara ölüm!

– Biz hazırıq, Ağamməd!

– Ölsək də torpağımızı verməriк!

İzdiham içindəki kini, nifrəti püskürürdü. Ağamməd əlini yuxarı qaldırdı. İzdiham sakitləşərək onun nə deyəcəyini gözlədi. Ağamməd ermənilərin hücum etmək qorxusu ilə yaşamaqdan bezmiş adamların qaralmış, boğulmuş üzündə bir qətiyyət gördü və hamının eşidə biləcəyi gur səslə dedi:

– Əli silah tutan kişilər meydanda qalsın. Arvad-uşaq, yaşlı adamlar evlərinə qayıtsın. Silah-sursatı biz verəcəyik. Qısa müddətli bir təlim keçəcəksiz.

... Günortadan keçmiş Ağamməd Malıbəylidən çıxdı. Arxasınca xeyli süvari dağlara tərəf üz tutdu...

**3.**

Göy üzü sanki xam torpaq kimiydi: kainata bəs eliyəcək qədər ulduzlar yetirmişdi. Və indi gecənin sakit qaranlığında daş - qaş kimi işıqlı ulduzlar sayrışırdı. Bu ulduzların sehirli işığında Qurdgəzi dərin yuxu içindəydi.

Dilruba xanım yatmamışdı. Sultan bəy atının başını Qurdgəziyə çevirəndə Dilruba xanımın, gənclik illərində olduğu kimi rahatlığı pozular, sanki içində daim şölənənən atəşdən yanaqları allanar, gözlərinin şafağı artar, yükünü çəkə bilmədiyi dərin bir həsrət, sevgi duyğusu ilə ərini gözlərdi. Bəlkə də ötüb keçməyən, özü yaşlansa da duyğuları dəyişməyən, əksinə daha böyük atəşlə yanan bu hisslər ona görə köhnəlmirdi ki, nişanlı olduğu vaxtlardakı kimi Sultan bəyi gec-gec görürdü. Günlərlə atın belindən düşməyən dözümlü, təmkinli Sultan bəy

bir elin ağır yükünü çəkirdi. Sultan bəy nağıl qəhrəmanları kimi ağ atına minib bu elin düşməni olan təkgözlərlə, əjdahalarla döyüşə gedirdi... Dilruba xanım əllərini Tanrıya açıb bütün qəlbi ilə bu el qəhrəmanına dualar oxuyurdu. Bilirdi ki, bu qəhrəman təkcə ona aid deyil. Bu qorxmaz cəngəvər bütün Zəngəzur elinə aid idi. Zəngəzur torpağının bir parçasıydı. Əgər Zəngəzuru ondan ayırsaydılar Sultan bəy nəfəs ala bilməzdi, yaşaya bilməzdi.

Dilruba pəncərənin kənarında oturdu, ay işığında aydınca görünən yamaclara, təpələrin döşündəki yollara baxdı. Gecənin içindən gələn səsləri dinlədi. Bu səslərin içindən at nallarının ona tanış olan səsini axtardı. Sultan bəyi ilk gördüyü andan içinə düşən atəş heç bir vaxt səngimədi, soyumadı, əksinə daha da alovlandı və bütün ömrü boyu çəkəcəyi intizara inanılmayacaq qədər səbr göstərdi... Amma indi bu intizarda bir dadsızlıq, nigarançılıq, Sultan bəyi itirmək qorxusu vardı.

... Həyətdə at kişnədi və Dilruba xanım içinə sığmayan sevincin bolluğundan özünü itirərək qapıya getdi. Rəcəb cilovu Sultan bəyin əlindən aldı. Dilrubanı qarşısında görəndə iri ala gözləri heyrətlə açıldı:

– Hardan bildin gəlirəm, Dilruba? İndiyə qədər yatmayıb gözləmisən. Yoxsa quşlar qanadında sənə xəbər gətirdi?

– Ürəyim xəbər verdi, Sultan.

Sultan bəy arvadının yumşaq əllərini ovcunun içinə aldı. Başını sinəsinə sıxdı. Ürəyinin həyəcanlı vurğusu, əllərinin titrəyişi Sultan bəyi kövrəltdi. Dilrubanın saçlarını tumarladı, günahkar kimi dinib-danışmadan arvadının ürək çırpıntılarını - incik, küskün bir sevginin səsini eşidirmiş kimi təsirləndi. Şəfqət qarışıq məmnunluqla dedi:

– Nahaq yuxusuz qalırsan. Bu neçə illərdə məni gözləməkdən yorulmadınmı, bezmədinmi, Dilruba?

– Yox yorulmadım, Sultan.

Dilruba xanımın səsindəki yumşaqlıq, sevgi təlaşı ilə özünü

biruzə verən narahatlıq Sultan bəyə xoş gəldi, sanki yaz günəşi görən çiçək kimi duyğuları içindəki tutqun, sıxıntılı havanı təmizlədi:

– Bağışla, Dilruba, – dedi, – vəziyyət yenə qarışıb. Ermənilər bizimlə torpaq davasına qalxıb. Əgər qarşısını almasaq Zəngəzur əlimizdən gedər.

– Bizə görə narahat olma, Sultan. Təkcə bizim yox, bütün Zəngəzur mahalının gözü səndədir. Ümidi, nicatı sənsən.

Sultan bəy Dilrubanın sevgi atəşi ilə yanan gözlərində bir qürur, iftixar hissi gördü. Heyran baxışlarla arvadının hələ cavanlıq təravətini və gözəlliyini saxlamış çöhrəsinə baxdı. Dilruba utandı, üzünü tez çevirdi və astadan dedi:

– Xörəyi özüm hazırlamışam. Süfrəni açım.

– Mən də Əlipaşa bəyin otağına baş çəkim.

Sultan bəy otağın bağlı qapısını açdı. İşığı yandırdı. Divar xalçasının üstünə atasının böyüdülmüş, az qala divarın yarısını tutmuş şəkli vurulmuşdu. O, bu şəkli Sank-Peterburqda oxuyarkən böyütdürmüşdü. Bu şəkildə Əlipaşa bəyin iç dünyası necə vardı eləcə də üzünün sərt cizgilərində, ağır baxışlarında və bir də dodaqlarındakı təbəssümündə əks olunmuşdu.

Şəklin yanında xəncərlər asılmışdı. Bu xəncərlərin çoxu hədiyyə idi.

Əlipaşa bəy bu otaqda namaz qılardı, saatlarla təsbeh çevirərdi. Sanki fikirləri, düşüncələri də bu təsbeh kimi sapa düzülərdi və Əlipaşa bəy bəlkə də elə buna görə ermənilərlə döyüşə gedəndə daim zəfərlər qazanardı.

Bu otaqda çox güman ki, Əlipaşa bəyin ruhu yaşayırdı. Sultan bəy də atası kimi Qurdgəzidəki malikanəsinə gələndə ilk əvvəl bu otağın qapısını açardı, şəklin qarşısında xeyli dayanardı... İndi də atası ilə görüşürmüş kimi kövrəldi, sanki içində qüvvətli bir tufan qopdu, onun yoxluğu-ermənilərə qan udduran bu el qəhrəmanının yoxluğu həsrətə bükülmüş soyuq sazaq kimi qəlbinin dərinliklərinə işlədi. Sultan bəy özünü toparladı və

dizini qatlayıb oturdu, atasının təsbehini götürdü, çevirməyə başladı. Sanki Əlipaşa bəyin ruhu başının üstündəydi və o, dərin bir sükut içində Sultan bəyi dinlədi və elə bil zəfər qazanması üçün oğluna xeyir-dua verdi.

Otağın qapısını örtdü və uşaqlarına baş çəkdi. Şəfqətlə yorğanı üstlərinə çəkdi. Şirin yuxudan oyatmağa qıymadı. Bu anda ona elə gəldi ki, Qurdgəzinin küçələri daşnaklarla doldu, atlar fəryad içində qaçan, canını qurtarmaq istəyən adamları ayaq altına aldı, baltalar işə düşdü, evlər alovlandı. Sultan bəyin bu möhtəşəm mülkü alovların işığında görünməz oldu. Pəncərələrdən qanlı əllər, qanlı baltalar içəri uzandı. Yorğan-döşəklərdən qan şoralandı...

Sultan bəy açılmış süfrəyə də baxmadı. Həyətə səsləndi:

– Rəcəb, atı gətir.

Dilruba xanım onun qarşısına keçdi:

– Hara gedirsən, Sultan? Uşaqlar da bir üzünü görsün...

– Vacib görüş var. Günçıxmamış gərək qərargahda olam.

– Dualarımız sizinlədi, bəy.

– Özündən, uşaqlardan muğayat ol.

Sultan bəy gecənin qaranlığı içində xəyal kimi yox oldu.

## 4.

Dığ kəndi yamaclarda pillə-pillə yerləşən, həyətində tək-tük ağacı olan evlərdən ibarət idi. Erməni silahlılarının qərargahı yamacdan aşağıda düzəngahda geniş, bağlı-bağatlı həyəti olan evdə yerləşmişdi. Qarşıda savaş olduğundan qərargah gecə-gündüz qarışqa yuvası tək qaynaşırdı. Həyətdə silahlı əsgərlər keşik çəkirdi. Bunların çoxu başıpozuq rus ordusunun saqqal basmış, toz-torpaqdan saçları bozarıb pırtlaşmış, yalnız gözləri qurd gözü kimi alışıb yanan əsgərləriydi. İndi onlar ermənilərin ixtiyarındaydı və aldıqları pul müqabilində müsəlmanlara güllə atırdılar.

Nimdaş pal-paltarda üşüyən erməni silahlıları tüfənglərini çi-

yinlərinə salaraq əlləri ciblərində var-gəl edir, gah da ovuclarına isti nəfəslərini hovuraraq azacıq da olsa isinmək istəyirdilər.

Bu anda beli bükülmüş yaşlı qadın əl ağacına söykənə-söykənə qərargahın həyətinə girdi. Üzü susuz torpaq kimi qırış-qırış idi. Qırışların içində təkcə hansı rəngdə olduğu seçilməyən diri gözləri baxırdı. Ucaboy, seyrək sarı saqqallı erməni silahlısı onun yolunu kəsdi:

– Hara gedirsən, nənəcan? Bura qərargahdı.

Qarı üzünü turşutdu, onu yolundan kənar eləyirmiş kimi əlini yellədi:

– Çəkil görüm. Komandirlə görüşəcəm. Sən məni sorğu-suala çəkməkdənsə yaxşısı budu hörmətlə qolumdan tut və komandirin yanına apar. Komandirin adı nədi?

– Karo. Karo Hambarsumyan.

Qarı nazik qollarını sinəsində çarpazladı:

– Ah, canım Karo. Müsəlman kəndlərində onun göstərdiyi igidliklər haqqında eşitmişik. Biz onunla qürur duyuruq, oğlum.

Erməni əsgəri bic-bic gülüb qarını məsxərəyə qoydu:

– Yoxsa sən də döyüşə getmək istəyirsən, nənə?

Qarı əl ağacını silah kimi başının üstə qaldırdı:

– Lazım olsa gedəcəyəm. Mənim əziz ərim, əziz Karapetim müsəlmanları qıranda siz hardaydız? İnanıram ki, ananızın qucağında, – dişsiz ağzı açılıb-yumuldu və elə bil sözlər də ağzından çətinliklə çıxdı.

– O halda Karapet gəlsin.

Qarı kədərləndi, gözləri sulandı:

– Onu indi mən də tapammaram. Çünki o, indi cənnətdədi. İnanıram ki, o cənnətə bir müsəlmanı da buraxmayıb. Mənim Karapetim belə cəsurdu, vətənpərvərdi, oğlum.

– Sənə səhv məlumat veriblər, nənəcan. Karapetin başı cənnətdə qızlara qarışıb.

Qarı hirsləndi, əl ağacını yuxarı qaldırdı və çığırdı:

– Yalandı.

– Onda belə çıxır ki, Karapet cənnəti işğal edib.

– Mən də elə başa düşürəm, oğlum, – qarının səsində bir mülayimlik duyuldu, gözünün yaşını qoluna sildi.

– Əsgərlərə verməyə qoyunun-keçin varmı?

– Məndə qoyun-keçi saxlayacaq halmı var?

– Bəs onda komandiri neynirsən?

Qarı erməniyə tərəf əyildi və isti nəfəsi ilə pıçıldadı:

– Karapetin yadigarı olan qiymətli üzüyü Karoya vermək istəyirəm. Silah olmasa da heç olmasa patron alar, başa düşdün, oğlum? Bir patron bir müsəlmandır. Karapetin ruhu sevinər.

– Sevinər, sevinər, nənə. Sən get mal-heyvanını yaylağa hazırla. Biz yaylaqlardan bütün müsəlmanları qovacağıq.

– Ah, oğum, bu üzüyü sənə verim, bunları Karapetin məzarına deməliyəm. Qoy cənnətdə ruhu sevinsin. Karoya çatdırarsan. Adım Yelenadı. Nə bilim, bəlkə Karapeti tanıyır? Salam söylə.

Qarı əl ağacına söykənə-söykənə, amma bu dəfə çox gümrah qərargahın həyətindən çıxdı.

... Qərargahda isə qızğın müzakirə gedirdi. Uzun, şivərək, hərbi paltar geyinmiş Karo əllərini arxasında çarpazlayıb otaqda gəzişirdi. Uzunsov sifətində özündən müştəbehlik, razılıq vardı. Masanın üzərinə Zəngəzurun xəritəsi sərilmişdi. Masanın ətrafında döyüşü idarə edəcək komandirlər əyləşmişdi. Xəritədə Qaragöl və Qazi gölü qırmızı qələmlə işarə olunmuşdu.

Karo masanın yanında dayandı, əli ilə uzun, qara bığlarını tumarladı, xəritəyə nəzər saldı və soruşdu:

– Sultan bəyin obasına göndərdiyimiz Karen çox əfəl çıxdı, onu aradan götürə bilmədi, – Karo dayandı, birdən hirsləndi, yumru gözləri sanki qanla doldu, – bu adamın var-dövləti başından aşır, minlərlə qoyun sürüləri, mal naxırları, Qafan mis mədənləri var. Andronik bu mədənlər haqqında eşitsə, məzhəb haqqı, onu Sultan bəyin əlindən alacaq və burada silah istehsal edəcək.

Yer-yerdən dedilər:

– Çox gözəl olardı, komandir.

– Amma Sultan bəy sağdı və bizimlə savaşa hazırlaşır.

– Karendən mütləq xəbər gələcək.

– Siz Allah boş-boş xəyallarla özünüzü yormayın, – Karo xəritəni qarşısına çəkdi, – bizim kəşfiyyatçılar səhih məlumat gətirə bilmədilər. Onlar Sultan bəyin ordusunun Canqurtaran dağında yığışdığını deyir. Amma O, hardan bizə hücum edəcək, nə qədər canlı qüvvəsi var, bilmirik.

– Bunu bilmək çətindir, komandir, – hərbi paltarlı erməni əlini kəmərinə keçirib qorxaq nəzərlə Karoya baxdı, – Zəngəzur elə bir yerdir ki, nabələd adam bu dağdan-daşdan baş çıxara bilməz. Hər qayası-daşı bir səngərdi. Baş çıxarmaq çətindi.

– Mən silah saxladığımız anbarları gəzdim. Onu deyim ki, Çınqıllı dağının ətəyindən bu anbarlar görünür. Sultan bəyin ordusunun Çınqıllı dağının ətəklərinə gəlmək təhlükəsi var.

Karo ilə üzbəüz oturmuş arıq, saqqallı erməni tələsik cavab verdi:

– Yollar nəzarət altındadı. Bu yollar çox təhlükəlidi. Hətta gündüzlər belə.

– Birdən onlar gündüz yox, bu yolu gecə keçdilər?

– Siz nə danışırsız, komandir? Gecələr dağ yolları ilə hərəkət etmək göz-görəti özünü ölümün qucağına atmaq kimi bir işdi. Uçurumların kənarında atların gedəcəyi yol o qədər ensiz və təhlükəlidi ki, atın ayağı büdrəsə onu yüz kişi də xilas eliyə bilməz. Bu yolları o gündüz keçə bilməz, o ki, qaldı gecə. Sultan bəyin Çınqıllı dağın ətəklərinə gəlməsi ağıl almayan bir işdi.

Karo fikirli halda dedi:

– Eləmi? O halda Sultan bəy gecə yola çıxmağa cürət eləməz. Biz Qazi gölünü əlimizdə saxlamalıyıq ki, Qaragölə dayanmadan kömək göndərə bilək, – Karo məmnun halda əlini masaya çırpdı.

Komandirlər o anda ayağa qalxıb farağat dayandılar. Karo onların qarşısından keçib otaqda var-gəl etdi:

– Qələbəmizə kömək edən hər kəsi özüm mükafatlandıracam. Qorxağın, xainin də cəzasını yenə özüm verəcəyəm. İndi gedin.

Komandirlər çıxdılar. Əlində üzük olan əsgər Karoya yaxınlaşdı:

– Karocan, indicə bu üzüyü sizə yaşlı nənə gətirdi. Heç olmasa bir ovuc patron almaq üçün.

Karo üzüyü aldı, baxdı və qəhərləndi:

– Bizim belə vətənpərvər nənələrimiz var. Zəfər mütləq bizimdi.

Karo içəri girib xəritəni qarşısına çəkdi və bu anlarda ruhuna çökən xoş bir əhval-ruhiyyə ilə döyüş planını bir də gözdən keçirdi.

***

Canqurtaran dağının ətəkləri bir səhər savaş havasına gözünü açdı: sanki böyük bir ordu silahlanıb düşmən üstə gedirdi. Müdafiəçilərin, süvarilərin dəstələri getdikcə sıxlaşırdı. Üzüaşağı dərə-təpələrdən, keçilməz yollardan, cığırlardan Canqurtaran dağına tərəf süvarilər axışırdı.

Bunlar nizami ordu deyildi.

Bunlar Sultan bəyin əsgərləriydi. Ürəyində yurd ağrısı, qəlbində vətən sevdası olan müdafiəçilər düşmənlə döyüşə bir komandan kimi Sultan bəyin əmrini gözləyirdilər.

***

... Sultan bəy çadırdan çıxdı. Onun arxasınca Çal Aslan, yüzbaşı Teymur bəy, Ağamməd, Seyid Həmid, Bəhlul Behcət... İzdiham hərəkətə gəldi. Müdafiəçilər silahlarını başları üstə qaldırıb qışqırdılar:

– Yaşasın, Sultan bəy!

Külək sanki səsləri ağızlardan alıb qüvvətlə uzaq dağlara apardı. Bu savaşdan dağlar, düzlər xəbərdar olsun deyə. Əks-səda təzədən geri qayıtdı.

Sultan bəyin üzündə məmnun bir ifadə göründü. Yaxınlıqdakı təpənin üstünə qalxdı. Minlərlə göz ona dikildi, minlərlə ürək onun üçün çırpındı. Sanki bu anlarda Canqurtaran dağı da nəfəsini içinə çəkib böyük komandanı dinləməyə hazır oldu.

Sultan bəy hər kəsin eşidə biləcəyi gur səslə dedi:

– Ey Zəngəzurun azman igidləri! Siz aylardan bəridi ki, burda təlim keçdiniz. Bir ordunun sizə verəcəyi hərbi biliklərə yiyələndiz. İndi savaş vaxtı çatmışdır.

Bizim qarşımızda dayanan, bizə silah qaldıran çulucırıq erməni deyil. Bunlar vaxtı ilə rus ordusunda xidmət etmiş rus və erməni əsgərləridi. Yerli erməniləri öz ətraflarına toplayaraq bizə qanlı savaş açmışlar. Beləliklə, biz müsəlman qanına susamış daşnakların nizami ordusu ilə üz-üzəyik. Ata-babalarımız qeyrəti, mərdliyi bizə miras qoyublar. Bir də Zəngəzur-bizim doğma anamız da bu savaşda arxamızda olacaq: alınmaz qala olan səngərləri, dağları, daşları ilə.

Sultan bəy nəfəsini dərdi və yenidən davam etdi:

– Ermənilər yaylaqlarımızı işğal etmək istəyir. Xüsusi ilə Qaragöl yaylağını. Bilirsiz ki, Qaragöl Görusla Ermənistanın sərhəddindədir və elə bir yüksəklikdə yerləşir ki, ordan Zəngəzuru, Naxçıvanı və Qarabağı asanlıqla vurmaq və işğal etmək mümkündür. Demək Qaragöl həm də strateji cəhətdən ermənilər üçün vacibdir. Biz Qaragölü düşmənə verməyəcəyik.

Səslər dalğa-dalğa uzaqlara yayıldı:

– Daşnaklara ölüm!

– Torpağımızın bir qarışını da düşmənə vermərik!

– Var olsun, Sultan bəy!

Gözlər qəzəbli, baxışlar kinli, nifrətliydi. Bu baxışlarda həm də ölüm-dirim savaşında düşməni məğlub etmək inadı vardı.

Sultan bəy əlini yuxarı qaldırdı. İzdiham sakitləşdi.

– Biz ağır və çətin bir yola çıxırıq. Bilirsiz ki, düşmən kəşfiyyatçıları ayıqdır. Düşmən ola bilsin ki, içimizdə də var. Ayıq olmağınızı tövsiyə edirəm. Düşərgahımız Çınqıllı dağının ətəyi olacaq. Qüvvələrimiz burda toplaşacaq. Amma düşməni duyuq salmamaq üçün Çınqıllıya gecələr yol getmək məcburiyyətindəyik. Gecələr yol getməyimizi onlar ağıllarına belə gətirməyəcək. Bu da söz yox ki, düşməni arxayın salacaq. Onlar gündüzlər dağ yollarını nəzarətdə saxlayacaq, gecələr isə yuxuda olacaqlar. Biz isə gündüz dincəlib gecələr yol gedəcəyik. İndi isə gedin, dincəlin. Yolumuz uzaqdır.

Sultan bəy təkrar əlini yuxarı qaldırdı, sanki bununla da müdafiəçilərə xeyir-dua verdi və çadıra qayıtdı. Neçə günün yorğunluğu, yuxusuzluğu sanki onu birdən haqladı. Kürəyini yasdığa qoydu, göz qapaqları ağırlaşdı. Çal Aslan baxışlarını ondan çəkə bilmədi: "İlahi bu qədər gücü, dözümü insana necə verirsən? Elə bil daşdan, poladdan tökülüb, yorulmaq bilmir... Tək dərdi savaş, tək dərdi Zəngəzuru daşnaklardan-çaqqallardan təmizləməkdi..."

Sultan bəy gözünü açdı. Dikəlib oturdu. Rəcəb çay gətirdi. Sultan bəy üz-gözünü ovuşdurub çadırın açıq qapısından düzəngaha baxdı. Günorta olduğundan müdafiəçilərə nahar verilirdi. Sultan bəy çayı qarşısına çəkib Çal Aslanın və yüzbaşı Teymur bəyin üzünə baxdı:

– Döyüş planını bir daha nəzərdən keçirək.

Xəritənin önünə keçdilər. Sultan bəy xəritəyə nəzər salıb qırmızı qələmi Çınqıllı dağının üstə saxladı:

Pulemyotçular dəstəsi Çınqıllı dağda pusqu quracaq və qəfildən düşməni yaxalayacaq, düşmən düşərgəsinə açılan atəş heç gözləmədikləri halda erməniləri çaş-baş salacaq. Onlar gizlənməyə çalışacaq. Amma pulemyotçular buna imkan verməməlidi.

Toplar Qaranlıq dərədə gizlədiləcək. Bunu ağlına gətirməyən erməni əsgərləri Qaranlıq dərədən arın-arxayın keçib get-

mək istəyəcəklər. Ermənilər əsas zərbəni burda alacaq, onların zəfər qazanmaq xülyaları burda boşa çıxacaq və vahimə içində başlarını itirəcəklər.

Seyid Həmidin komandirlik etdiyi Minkənd alayı düşmənə zərbəni arxadan vuracaq. Ermənistandan göndərilən əsgəri qüvvə, silah-sursat Sisyandan keçməlidi. Amma Seyid Həmid Sisyan yolunu kəsməklə bu qüvvələri məhv edəcək, silah-sursatı isə qənimət götürəcəkdir.

Hazırda Gorus şəhərinin özündə daşnak ordusu cəmləşib. Bu ordu Qaragölün işğalına tələsən ermənilərin köməyinə getməlidi. Buna yol vermək olmaz. Zəngilandan, Qubadlıdan, Cəbrayıldan və Qatardan gələn müdafiəçilərin vəzifəsi onların başını qatmaq, irəliyə hərəkətini dayandırmaq və məhv etməkdir.

Bəhlul Behcətin dindar dəstəsi Qaragölün Qannıca dağı tərəfdən erməniləri mühasirəyə alacaq. Daşnakların duyuq düşməməsi üçün burda da hiylə işlətmək lazımdır. Belə ki, Bəhlul Behcətin dəstəsi gizlicə Kəcavə yolu ilə Yaxı düzünə gəlməli, sonra burdakı Aydərə yoxuşunu aşıb gizlicə Qannıca dağının ətəyində döyüş mövqeyi tutmalıdır.

Xosrov bəyin Şuşadan göndərdiyi pəhlivanlar dəstəsi də Qannıca dağının ətəklərində Dəli Xanların dəstəsi ilə birləşib Qaragöl yaylağına gedən yolu nəzarətdə saxlayacaq.

Ovçular-Balakişinin, Xəlilin, Əhmədin, Kərəmin, Əliyalınlı Sultanın dəstəsi Burunkənddən Qaragölə gedən yola nəzarət edəcək. Qaragöl mühasirə vəziyyətində olacaq.

Aşıq Abbas incik səslə soruşdu:

– Biz vuruşmuruq, Sultan bəy?

– Vuruşursuz. Ta qədimdən babalarımız “Cəngi” havası altında savaşa gedib, – Sultan bəy fikrə getdi, – sanki bu anda bir saz havası ruhunun dərinliklərinə işlədi, – sizin zurnaçılar dəstəsi mənim döyüş əmrimdən sonra “Cəngi” havası çalacaq, bu səs bizi daim təqib edəcək, müdafiəçiləri düşməni məğlub etməyə, zəfər qazanmağa ruhlandıracaq. Söz yox ki, sonra sənin

zurnaçılar dəstən də sazı yerə qoyub silahı götürəcək və düşmənlə döyüşəcək.

Aşıq Abbasın üzü güldü:

– Sən bilirsən ki, bəy, mənim saz tutan əlim həm də yaxşı silah tutur.

– Mən səni döyüşlərdə görmüşəm, aşıq.

Sultan bəy üzünü Çal Aslana tutdu. Bu anda sanki içindəki yanğının şöləsi göz bəbəklərində əks olundu. Fikirli, düşüncəli halda dedi:

– Ağamməda Qazi gölünün müdafiəsi tapşırılıb. Onun dəstəsi bu tapşırığı yerinə yetirəcək. Daşnakların niyyəti Qazi gölünü işğal etmək və bununla da Görusdan Qaragölə gedən yolları təhlükəsiz saxlamaq, dayanmadan yaylağa əsgər və silah daşımaqdır. Ağammədin dəstəsi bu yolu bağlasa biz orda Qaragöldə təklənən düşməni məğlub edəcəyik. Buna heç şübhə olmasın.

Çal Aslanın üzü təbəssümləndi:

– İnşallah, bəy. Silah-sursatdan korluğumuz olmayacaq. Hazırda əlimizdə 5 yaxınvuran, 9 uzaqvuran topumuz, üç minə yaxın üçaçılan, beşaçılan tüfəngimiz, 120 qılınc, 50 gürz, 40 ədəd pulemyot var, – üzünü yüzbaşı Teymur bəyə tutdu, – Teymur bəy qardaşımız təlim zamanı topların, silahların dilini bizimkilərə yaxşı öyrədib.

Sultan bəy də minnətdarlıq hissi ilə yüzbaşının üzünə baxdı:

– Sağ olsun, türk qardaşımızı, əməyi çox keçdi. Türkiyədən silahların alınmasında da yardım elədi.

Yüzbaşı incimiş kimi başını buladı:

– Bu nə demək, Sultan bəy. Türkiyə həmişə sizin arxanızdadı.

Sultan bəy əlini onun çiyninə qoydu və sözünə davam etdi:

– Xanalıgilin gətirdiyi məlumata görə daşnakların qərargahı Çınqıllı dağın ətəkləri ilə üzbəüzdür. Burdan qərargahı asanlıqla görmək olur. Burda onların həm də silah-sursat anbarları var, amma gizli yerdədir. Xanalıgil yerini müəyyənləşdirib.

Topları elə yerdə yerləşdirək ki, döyüş əmri verilən kimi ilk növbədə anbarlar, sonra isə qərargah sıradan çıxsın.

Sultan bəy dəsmalını çıxarıb üz-gözünün tərini sildi. Dərindən nəfəs aldı. Sanki ağır yükü -daşnakların zülmü altında inləyən bir torpağın, ev-eşiyindən didərgin salınan, qanına qəltan edilən insanların qisasını, intiqamını almaq yükünü çiyinlərinə götürdü.

**5.**

Humay səhəngi bulağın gözünə qoyub əyilmiş qəddini düzəltdi. Sonra çevrilib bir-birinin yanına düzülmüş ağ göbələyə oxşar alaçıqları süzdü. Sağım qurtardığından alaçıqların qarşısında ocaqlar alovlanır, his basmış çaydanlar qaynayır, xörəyin iyi ətrafa yayılırdı. Qəflətən ürəyinə dolan sıxıntı sanki içində şölələnən işığı söndürdü, duyğularını soyuq, qaranlıq gecəyə bükdü. Ona elə gəldi ki, çadırların arxasında gizlənmiş Kərəmi gördü, onun məkirli, hiyləgər gözlərindəki düşmənçiliyin, qəddarlığın soyuq sazağından üşüdü: "İçimizdə bir düşmən olduğunu Məzahirdən gizlədirəm. Açıb dedim. Kərəmi susdurdular, bu yerlərdən ilim-ilim itirdilər. Bəs sonra?... Bəlkə kənarda da düşmən gizlənib? Sultan bəyin Çalbayırda yüzlərlə çobanı, naxırçısı var. Bəlkə onların içində Kərəmin adamları var? Bir gecənin içində obanı dağıdıb məhv edərlər. Camaatı böyüklü-kiçikli diri-diri yandırarlar. Gizlətsəm... Başıma hava gələcək... Məzahir dəli-doludu, gözləyim, məqam gözləyim..." Sanki bu anda Məzahirlə üz-üzə dayandı. Oğlanın gündən yanmış qarayanız yaraşıqlı sifətində daim mülayim bir təbəssüm olardı. İri, qara gözləri gülümsəyərdi, hirslənəndə də gözlərindəki gülüş dəyişməzdi. Qapqara tellərini alnına tökürdü, sivri burnu, dağ havasından qızarmış yanaqları, qəddi-qaməti qızların xoşuna gələrdi. Amma Məzahirin qəlbi təkcə Humaya aid idi... Xəyalən üzbəüz dayandığı bu anda Məzahir sanki incik halda soruşdu:

– Humay, məndən niyə uzaq gəzirsən? Axşam sürünü obaya qaytaranda səni görmək, səsini eşitmək istəyirəm. Amma sən... qaçırsan. Gözümə görünmək istəmirsən. Başa düşmürəm ki. Bəlkə sözündən dönürsən? De bilim.

– Özündən söz çıxarma.

– Üzümə bax. Gözlərin elə bil yaz yağmuruna oxşayır.

– Başa düşmədim.

– Həmişə çiskinli olur gözlərin. Elə bil ağlamaq istəyirsən, amma ağlaya bilmirsən. Nəyinsə əzabını çəkirsən.

– Nə bilim, vallah. Niyə ağlayım ki? Atam, anam sağ, nişanlım da yanımda.

– Sən kimdənsə qorxursan?

– Kimdən qorxacam? Yenə özündən söz çıxardın.

– Burda... Kərəmlik bir şey olmaya?

– Kərəm? Məzahiiir... Kərəmlə uşaqlıq yoldaşı olmuşuq. Bir yerdə böyümüşük.

– Elə məni də şübhələndirən odu. Kərəm obaya ayaq basandan elə bil məndən soyumusan. Kərəm səndən əl çəkmir. Görürəm, harda sən, orda Kərəm. Amma mən üzə vurmuram. Sənin qəlbini qırmaq istəmirəm. Onun gözlərindən, baxışından xoşum gəlmir. Sən onun gözlərinin içinə diqqət eləmisən?

– Eyy, nə danışırsan? Mən niyə onun gözünün içinə baxım? İşim-gücüm qurtarmışdı. Mən bir adamın gözünə baxdım, istədim. O, da sənsən? Başa düşdün?

– İncimə, Humay. Bu adamın gözünün içində, baxışında nifrət var. Nə qədər gizlətsə də biruzə verir.

– Məzahir...

– Səsin niyə titrəyir, Humay?

– Mən... Sənin üçün narahatam. Nigarançılıq çəkirəm. O dağlarda ayıq, sərvaxt ol. Başa düşdünmü?

– Açıq desənə.

– Ətrafımız düşməndi.

– Sən də ayıq ol, Humay...”

Bu anda Humay hənirti duyub geri çevrildi. Kərəmi qarşısında görüncə iliklərinə qədər üşüdü, əlini atıb dolu sənəyi bulağın gözündən götürdü. Kərəm cəld tərpənib sənəyi onun əlindən aldı:

– Mən apararam.

– Olmaz. Atamgil görər. Məni tənbeh elərlər.

– Məni ki, tanıyırlar, Humay. Sərvinaz xala mənim xətrimi çox istəyir.

– Çünki sənin kim olduğunu, hansı ürəklə bura gəldiyini, ən əsası və dəhşətlisi erməni ürəkli olduğunu bilmir.

– Bilsə neyniyər? Mənim atamı tanıyırdı ki...

– Bilsə səni öldürər. Bizdə mərhəmət qoymadız qalsın.

– Mən özümü müsəlman sayıram.

Kərəm sənəyi yerə qoyub obada qaynaşan adamlara baxdı. Dərindən nəfəs alıb həsədlə, içində qurd kimi yaşayan, onun insani duyğularını məhv edən, qəlbini gəmirən nifrət hissi ilə dedi:

– Yadındamı, Humay, həmişə yaz gələndə qonşular yaylağa köçməyə hazırlıq görərdi. Uşaqların gözündə elə bir sevinc olardı ki, paxıllıqdan ürəyim partlayardı. Düşünərdim ki, niyə o yaylağa biz gedə bilmirik, amma siz gedirsiz.

– Niyə ki, siz də bizimlə yaylağa köçərdiz. Yadından çıxıb? Müsəlmanlar sizdən heç nəyi əsirgəməzdi. Ayrı-seçkilik bilməzdik.

– Bunlar atamın sağlığındaydı.... O vaxt obada uşaqlarla səsli-küylü günlərimiz, axşamlar qoyun-quzu mələşməsi, sağım vaxtı badyalara tökülən südün şırıltısı, səssizlikdə ay işığı, ocaqların iyi indi də xatirimdədi. Uşaqlığımızı, arzularımızı əlimizdən aldığına görə o vaxtdan müsəlmanlara nifrət elədim, kin bəslədim. Həsəd, kin, nifrət hissi məni aranın istisi kimi yandırıb tökdü, – səsində bir hədə duyuldu, – bundan sonra bu sərin yaylaqların keyfini biz çəkəcəyik. Aranın istisi bu dəfə sizi yandırıb külünüzü çıxaracaq. Sultan bəyin Çalbayırda bu

dağların, örüşlərin qucağı tutana qədər mal-heyvanı var. Sən mənə düşmən gözü ilə baxma...

Humay əlini hirslə sənəyə atdı, hökmlə dedi:

– Demək paxıllıq səni bu günə salıb. Çəkil yolumdan.

– Bir şərtlə. Məzahirgil Sultan bəyin dəstəsində döyüşməyə gedir. Məni də götürsünlər.

Humay onun sinəsindən vurub geri itələdi, nifrətlə, sanki canavar kimi onun üstünə atılacaqmış kimi boğula-boğula, hiddətlə dedi:

– Sultan bəyi öldürmək istəyirsən? Ay yazıq, Sultan bəy göylərdən yenmiş peyğəmbər kimi adamdı. Allahın özü onu qoruyur.

– Ağılsızlıq eləmə. Fikirləş... Sultan bəy də bizim kimi adamdı, ilahiləşdirmə, mənim bir gülləmlə o dünyalıq olar. Onsuz da bir yol tapıb gedəcəm. Dağa-daşa düşməyim...

Humay bir anlıq fikrə getdi: "Bir yol tapıb gedəcək. Dəstədə düşmən olduğunu kimsə bilməyəcək. Onda peşimançılıq məni öldürəcək. Mən özüm də gedim. Yolda fürsət taparam..."

Kərəm gözaltı ətrafa baxdı. Bulağa gələn yolda kimsə görünmürdü. Obada uşaqların səs-küyü gəlirdi. Yəqin ki, bu səslər güllə səsini batırardı. Kəmərinə taxdığı silahını çıxardı və Humayın qolundan tutub özünə tərəf çəkdi, silahın lüləsini gicgahına dayadı:

– Elə indi Məzahirlə danışırsan. Məni özləri ilə götürsünlər. Bununla iş bitmədi. Orda məni Sultan bəyə təqdim eləsinlər. Məni igid və cəsur bir adam kimi qələmə versinlər.

Humay sakitcə, soyuqqanlılıqla dedi:

– Silahını yendir. Məndən xəbər gözlə.

Humay sənəyi götürdü, içindəki təlatümü biruzə vermədən uzaqlaşdı. Kərəmin üzündə, gözlərində kinayəli bir təbəssüm göründü: "Sultan bəyi aradan götürən kimi elə həmən Karo Hambarsumyanın yanına qaçaram. Bizimkilər müsəlman kəndlərini yandırmağa başlayacaq. Mən balta ilə iş görə bilmirəm,

balta ağırdır. Anam mənə atası Ovanesin qılıncını saxlayıb. Mən atımı müsəlmanların üstə səyirdib qılınc əlimdə bir qəhrəman kimi hünərimi göstərəcəm. Kaş Humay məni kənardan seyr edəydi. Məni sağ buraxdığına min dəfə, milyon dəfə peşiman olardı."

... Məzahir təəccüb qaldı:

– Kərəmi aparım? Amma bu adam içi məkirli bir adama oxşayır, Humay. Onun gözlərinə fikir vermisən? Erməni gözüdü ki, var.

– Anam da onu çox istəyir, – Humay dilini sürüdü, sözləri zorla tələffüz elədi, -o, qoçaq, zirək oğlandı.

– Yaxşı, xəbər göndər, hazırlaşsın. Dan yeri ağaranda yola çıxacağıq.

– Amma...

– Nə amma? – Məzahir maraq içində soruşdu, – yenə sözün var?

– Məni də apar. Yəni razılıq ver, sizinlə gedim.

– Məni güldürmə, Humay.

– Orda qadınlar da var. Əsgərlərin yeməyini bişirirlər. Bir də savaşda yaralanan əsgərlərin yarasını bağlayırlar. Mən qorxaq deyiləm.

– Zəngəzurda aslanın erkəyi ilə dişisinə fərq yoxdu. Tavata niyə Kişi Tavat deyirlər? Mərdliyinə, igidliyinə görə. Ermənilər onun kölgəsindən belə qorxur. Sultan bəyin Tavata xüsusi hörməti, etimadı var.

– Bir-iki dəfə səninlə Canqurtaran dağının ətəklərində təlimlərə getdik, Məzahir. Yadındadımı, at çapmaqda, sərrast güllə atmaqda sizinlə yarışa girdim. Çal Aslan, yüzbaşı Teymur bəy məni təriflədi.

– Sultan bəy bir dəfə səni gördü, at çapıb, silahdan sərrast atəş açmağını seyr etdi, çox bəyəndi. Sən yanımda olanda mən də rahat oluram, Humay. Yaxşı get hazırlığını gör.

Humay sevindi, xəbəri anasına çatdırmağa tələsdi.

***

Atlar ehtiyatla yoxuşdan aşağı yenirdi. Yoxuş çınqıllarla, bu çınqılların arasında tək-tük göyərən tikanlı kollarla örtülmüşdü. Yolun qırağında aşağılara qədər iri sal daşlar vardı. Atlar irəli addım atdıqca çınqıllar sel kimi aşağı sürüşür, ehtiyatsızlıqdan iri daşlara toxununca daşlar səs sala-sala dərəyə diyirlənir, handan-hana aşağıdan boğuq səslər gəlirdi.

... Məzahir asta yerişlə gedirdi. Tüfəngi çiyninə aşırmış, atın üstündə şax oturaraq diqqətlə irəliyə baxırdı. Adəmlə Məcid Kərəmi gözdən qoymurdu. Sanki bununla da ona güvənmədiklərini açıq-aşkar biruzə verirdilər. Arxada Humay gəlirdi. Q, qıs-qıvraq geyinmişdi, atın cilovundan möhkəm yapışaraq bir an da olsun gözünü Kərəmdən çəkmır, hərdən irəli keçərək atını onunla yanaşı sürürdü.

Axır ki, yoxuş qurtardı, düzənliyə çıxdılar. Düzənlikdən yuxarıda yamacdakı tək söyüdün altında sal daşın üstünə axıb tökülən bulaq suyunun şırıltısı eşidildi. Bura yolçuların düşərgahı idi. Məzahir atdan düşüb bəzəkli xurcunu götürdü. Adəmlə Məcid də atların başını boş buraxıb bulağın yanına qalxdılar.

Humay göy otluqda süfrə açdı. Xurcundan sulanmış lavaş, təzə pendir çıxardı. Parçları bulağın gözündən doldurub süfrəyə qoydu. Kərəm gözucu Humaya baxdı. Təlaşlı görünüşü içindəki qorxunu biruzə verirdi. Amma bunu kimsə duymurdu. Kərəm zorla gülümsədi və əlini həvəssiz çörəyə uzatdı, etinasız halda soruşdu:

– Humay, sən doğrudanmı bizimlə savaşa getmək istəyirsən?

Humay ona acıq verirmiş kimi əlini Məzahirin çiyninə qoydu:

– Məzahir harda, Humay orda. Ölsək də bir yerdə ölərik.

– Ay qız, ölmək nədi, nəhs danışırsan? Biz öldürməyə gedirik, ölməyə yox, – Məzahir lavaşın arasına pendir qoyub dürməklədi və ləzzətlə dişinə çəkdi

– Sən uşaqlıqda da çox davakar idin. Oğlanlar sənə söz de-

məkdən çəkinərdi. Döyülənlər Gülsabah xalanın üstə şikayətə gedərdi, – Kərəm buz kimi suyu başına çəkdi.

Məzahir yenə lavaşı iki qat elədi, arasına pendir düzüb əzdi, Humayla qürur duyurmuş kimi sevgi dolu nəzərlə ona baxdı, dürməkdən bir dişdəm alıb soruşdu:

– Sən də ondan qorxardın, Kərəm? Eşitdiyimə görə səni də əzişdirib...

Kərəmin Məzahirin saf sadəlövhlüyünə gülməyi tutdu, başını yelləyib başqa söz dedi:

– Mən yaylaqda elə bil başqa Humay gördüm. Sakit, mülayim. Sanki o davakar qız yoxa çıxmışdı. İndiki səbirli, utancaq Humay heç ona oxşamır.

Məzahir nırç atdı:

– Sən elə bil. O, sevgisini də, nifrətini də içində gizlədən, kimsəyə bəlli etməyən bir qızdı, – dərindən nəfəs aldı, gözlərinin içində sanki od parladı, – lənətə gəlmiş ermənilər cavanlığımızı əlimizdən alırlar. Bizim nə işimiz vardı savaşda? Toyumuzu eliyərdik, öz yuvamızı qurardıq, oğul-uşaq böyüdərdik...

Adəm başını yuxarı qaldırmadan sərt səslə dedi:

– Sultan bəy tökülən qanların, dağılan yurdların hayıfını daşnaklardan alacaq.

Kərəm yerində qurcalandı. Ona elə gəldi ki, bu anda bu adamların atdıqları səssiz güllələr alnının düz ortasından dəydi, ağrısı ürəyinə qədər işlədi. Ayağa qalxıb bulaqdan aşağı yendi. Qorxudanmı, vahimədənmi canına istilik gəldi. Sanki onu qızmar təndirin içinə atdılar. Gizli alov gözlərinin içinə qədər yandırdı: "Erməni olduğumu duysalar məni sağ buraxmazlar, uçurumdan dərəyə atarlar. Yox, Humayın gözünün odunu almışam, qorxudan məni ələ verməz. O, da mənim kimi həyəcan, təlaş içindədir... Yaxşı, Sultan bəyi aradan götürdüm... Sonra nə olacaq? Söz yox ki, məni də sağ buraxmazlar... Əslində Humay mənim üçün təhlükədir. Əgər burda dördünü də öldürsəm, o halda əlim Sultan bəyə yetişməz. Mənim erməni olduğumu tək

Humay bilir. Fürsət tapıb onu yoxuşdan dərəyə itələsəm... Ən yaxşısı budu..."

Kərəm əynindəki gödəkcəni çıxarıb yəhərin üstə atdı. Çevrilib bulaq başına -Humaya baxdı. Qız süfrəni yığışdırırdı. Kərəm öfkəsindən yerində qərar tuta bilmədi, iri sal daşı dərəyə yuvarlatdı: "Ən yaxşısı gecədi, itələyib uçurumdan salaram..."

Məzahir göy otluğa uzandı, gözünü yumub yorğun səslə dedi:

– Bir az dincələk, ayaqlarımızın ağrısı keçsin, atlanaq.

Humay söyüdlərin arxasına keçdi. Kərəm uçurumun qırağında dayanmışdı. Diqqətlə ətrafı seyr edirdi. Amma çox güman ki, əndişə, qorxu içində planlar cızır, bəlkə də elə bu anda geri qayıtmaq, onları qətlə yetirmək, sonra da bu yerlərdən qaçıb getməyi düşünürdü. Bəlkə də Sultan bəylə necə görüşəcəyini xəyalına gətirirdi. Humay asta-asta, səs salmadan, bu gizli canavarı hürkütmədən gəlib onun arxasında dayandı. Karen öz aləmindəydi. Humayın əlində silah bir addımlıqda dayandığını duymadı. Humay hiddətlə dodaqlarını bir-birinə sıxdı: "Karen... elə bilirsən ki, səni Sultan bəyin hüzuruna aparacağıq. Sadəlövh erməni... Hardan ağlına gəldi ki, Zəngəzur qızları qorxaq, biqeyrətdi? "Tüfəngi üzünə götürdü, gözünü qıyıb sərrast nişan aldı. Güllə açıldı, Karen qışqırmağa da macal tapmadı, üzüüstə aşağı getdi.

Qəfil güllə səsi uzaqlarda əks-səda verdi. Məzahirgil dəli kimi yerlərindən qalxdılar, tüfənglərini götürüb söyüdlüyə tərəf cumdular. Məzahir təlaş içində qışqırdı:

– Humay... Humay... hardasan, sağsan? Cavab ver.

Humay arxadan sakitcə cavab verdi:

– Təlaşa düşməyin, güllə atan mən idim.

Məzahir qıza sarı qaçdı, tüfəngi əlindən aldı. Keçirdiyi həyəcandanmı, ya nədənsə Humay titrəyirdi. Sifəti avazımışdı, gülümsəmək istəyirdi, amma bacarmırdı, ancaq ağlamaq istəyirdi. Məzahir qızı silkələdi:

– Niyə öldürdün, Kərəmi? Sənə sözmü dedi?

Adəmlə Məcid uçurumdan aşağı baxdılar. Elə bil bu dünyada bu adda adam yox imiş, aşağıda qalın kolluqdan başqa heç nə görünmürdü.

– Onu niyə vurdun, Humay? Köhnə qonşunuz idi, onu dəstəyə götürməm üçün yalvarırdın...

– O, erməniydi, qatı daşnak idi, Adı da Kərəm yox, Karen idi. O, elə bildi ki, mən bu adı unutmuşam. Atası Kərəm çağırırdı, anası Karen. Bunu gizli saxlamaq üçün məni hədələyirdi. Dediyinə görə kənarda adamları varmış. Əgər mən onu ələ versəydim, o adamlar obanı yandırıb hamını qətlə yetirərdilər, bəlkə də diri-diri yandırardılar, – Humay sal daşın üstə oturdu, dizlərinin üstə qoyduğu əlləri, səsi titrəyirdi, – Karenin atası doğrudan da müsəlman idi. Sonra kişi öldü, anası erməni qohumlarının yanına getdi. O, yaylağa tapşırıqla gəlmişdi, Sultan bəyin etimadını qazanmaq, ona yaxın olmaq üçün gəlmişdi. Sultan bəyi aradan götürəcəkdi... Nə bilim, hardansa öyrənmişdi ki, biz-yəni köhnə qonşular da burdadı. Guya məni istədiyinə görə...

Məzahir əlini dizinə çırpıb dişlərini qıcadı:

– Bəs bunu mənə niyə demədin?

– Desəydim, hamımız üçün təhlükə yaradardım. Gizli qalmalıydı. Bir də vaxt gələndə onu özüm aradan götürməyi düşündüm.

– Sən buna görəmi məndən uzaq gəzirdin?

– Buna görə. Kimsəyə zaval gəlməsini istəmirdim. O, məni qorxu içində saxladığını zənn etdi və arxayınlaşdı.

Adəm heyrət içində başını buladı və ucadan dedi:

– Vallah, halal olsun bizim qızlara.

Karenin gödəkcəsini atın üstündən götürüb atmaq istəyəndə Məcidin əli bükülüyə toxundu:

– Burda nəsə var? – Bükülünü açdı, qızıllar yerə səpələndi:

– Bunu neynirmiş daşnak it oğlu?

– Bəlkə mükafat veriblər?

– Erməni malıdı, at getsin, – Məzahir üzünü çevirdi.

– Başın xarab olub, Məzahir? Qızılı da atarlar? Bizimkilərin malıdı, talanda yığıblar.

– Neynəmək fikrindəsiz? – Məzahir yenə acıqla soruşdu

– Sultan bəyə təhvil verək. Silah alsınlar. Bu dəqiqə bizə silah hava, su kimi lazımdı.

– Ağıllı fikirdi.

Sonra dördü də atlandı. Arxalarınca Karenin atı gəlirdi. Sanki yükü üstündən götürülmüs at yüngülləşmiş halda atlıların arxasınca gedirdi...

***

May, 1917-ci il.

Dağlar yazla görüşürdü. Lalənin al yanağında, çəmənlərin şeh damlasında, bulaqların gurlaşan səsində, çayların dəli harayında dağların sanki özünə bənzəyən sərt yazı gəlirdi. Qışın qarlı-çovğunlu havasından yorulub bir yaz hənirinə gözünü açan torpaq elə bil insan kimi yaza bəslədiyi könül duyğularını sevə-sevə biruzə verirdi. Yazın günəşi də ayrı havadaydı. Oyanmış torpağı sanki körpə kimi bağrına basırdı, isidirdi, gülünü-çiçəyini düzlərə, dərə-təpələrə səpirdi.

Amma bu ilki yazdan savaş iyi gəlirdi... Bəlkə də ona görə göylərdə qara buludlar, dağlarda çən-duman çəkilmirdi.

... Çadırların qarşısında yandırılmış ocaqların alovu gecənin qaranlığında küləkdə yellənən al bayraq kimiydi. Müdafiəçilər ocağın ətrafına yığışmışdı. Ağamməd də çadırdan çıxdı. Yaxınlıqdakı ocağın alovunda onun silahdaşları – Mahmud, Kərəm, Məhi, Qəhrəman, Məmməd, Qara Hüseyn, Cəbrayıl, Pənah Hüseynov, Həsi, Qaraş, Baloğlan, Cavad görünürdü. Sanki bu anlarda bu ocaqdan kənarda heç nə yoxuydu: nə daşnakların açdığı ölüm-dirim savaşı, nə atılan güllələr, nə işə düşən baltalar, nə də viran qalan kəndlər vardı. Hər kəsin gözü Mahmudun ağzındaydı. Qoyun dərisindən aşılanmış kürkünü çiyninə salmış Mahmud sanki dünyanın dərd-sərinə arxa çevirmişdi. Bu sazaq-

lı yaz gecəsində baməzə söhbətləri hər kəsin içində korun-korun yanan, amma üzə çıxmayan sıxıntını sıxıb çıxardı, duyğularına bir cəngi havası qatdı:

– Xoca Abdulla haqqında eşitmisiz də.

Yer-yerdən cavab verdilər:

– Bizim Zəngəzurun Qaradağlı kəndindəndir. Çox igid adam olub.

– Xoca Abdullanın sürüləri Qaragöl yaylağındaymış. Özü isə bir neçə günlüyə yenir arana. Sıx duman gəlir, yaylaqda göz-gözü görmür. Sürü də azıb gedir ermənilərin arxacına. Xoca Abdulla hər yerə soraq salır, amma sürünü gördüm deyən olmur. Bir gün Məzməzəkli çobanların yolu Görus bazarına düşür. Baxırlar ki, Xoca Abdullanın sürüsü bazarda. Ermənilər qoyunları şıdırğı satır. Çobanlar Xocaya xəbər göndərir...

Xoca Abdulla da ağıllı, zirək adammış. Özü də bilir ki, ermənilər onun sürülərini tanıyır. Cavanları yığır başına. Deyir ki, bu hayıfı erməndə qoymaram. Üç-dörd pişik tutun, yığın xurcuna, gətirin yanıma.

Cavanlar başlayır gülməyə:

– Ay Xoca, pişik nədi? Hücum çəkək onların arxacına, sürülərini qovub gətirək yaylağa.

Xoca Abdulla gülümsünüb deyir:

– A bala, bir səbirli olun. Görün bu pişiklər neyniyəcək?

Gecənin düşməyini gözləyirlər. Xoca Abdulla xurcunları götürür, başının adamları ilə atlanıb ermənilərin kəndinə gəlir. Özü ilə gətirdiyi bir tuluq nefti pişiklərin belinə tökür, sonra deyir ki, ay uşaq indi pişiklərə od vurun.

Canı yanan pişiklər neynəsinlər? Bağıraraq özlərini vururlar sürünün içinə. Qoyunlar hürküşür, arxacdan çıxır, üz tuturlar hərəsi bir tərəfə. Xoca Abdullanın adamları böyük bir qoyun sürüsünü qabağına qatıb Minkənd bazarına yendirir.

Xoca Abdulla deyir ki, indi qoyunları suyu qiymətinə satın getsin.

Satış başlanır. Hamı heyrət içindədi. Xoca da kənarda oturub təsbeh çevirir, bic-bic gülümsəyir.

Qoyun alanlar yaxınlaşırlar Xocaya:

– Qoyunları niyə ucuz qiymətə verirsən, Xoca?

Xoca başını bulayıb gülür:

– Erməni malıdı, ona görə. Halal xoşunuz olsun, – deyir.

Mahmud ocağa çır-çırpı atdı və ürəkdən gələn qürur hissi ilə dedi:

– Zəngəzurun belə qoçaq, müdrik kişiləri olub.

Başlarının üstündə Ağammədi gördülər. Qalxmaq istəyəndə Ağamməd oturmalarına işarə etdi, özü də onların yanında çöməldi. Onun səsində bir qayğı, şəfqət duyuldu:

– Sübhə az qalmış yola çıxırıq, heç olmasa gözünüzün acısını alın.

Malıbəyli Zaman ulduzlu göylərə baxdı, qara buludlar dağların arxasına tərəf sanki qara tüstü kimi axıb gedirdi. Dərindən nəfəs alıb əllərini ocağa tutdu:

– Neçə gündü at belindən düşmürsən, gərək sən də dincələydin.

– Yuxum çəkilib, Zaman. Elə bilirəm ki, gözümü yuman kimi ermənilər başımızın üstünü alacaq. Onlar gecə-gündüz yatmır. Qaragöl yaylağına, Qazi gölünün ətrafına silah-sursat daşınır. Bizim gözümüzə yuxumu gedər? Döyüş planımız məlumdur. Bunu hamınız bilirsiz. Biz hərəkət edən kimi Bayandur dərəsində toplanan müdafiəçilər də yola çıxacaq. Mahmud sən, Məmməd, Məhin, Hacılarlı Ağalar Qazi gölünə gedən dağ keçidlərində pusquda duracaqsız. Bu yerlər bizi qoruyan daş səngərlərdi. Bu yerlərə nabələd olan ermənilər mütləq bu keçidlərdə görünməlidir. Başqa yol yoxdur. Elə ki, erməninin başı göründü, yaxınlaşmalarını gözləyin və atəşə tutun. Bu zaman Seyid Həmidin dəstəsi arxadan özünü yetirəcək. Mühasirəyə

düşən daşnaklar bu yerlərdə öz məzarlarını tapacaq. Gözləmədikləri məğlubiyyət ermənilərdə qorxu, vahimə yaradacaq, onları ruhdan salacaq.

– Qazi gölünün əlimizdə olması ermənilərin Qaragöl yaylağına dayanmadan qüvvə göndərməsinin qarşısını alacaq, – Məhin ruh yüksəkliyi ilə dedi.

Müdafiəçilər atları yəhərləyəndə artıq göylərdə ulduzlar əriyib getmişdi...

***

9 may 1917-ci il.

Çınqıllı dağının ətəyində düşərgə salmış müdafiəçilərə şam yeməyindən sonra dincəlmək əmri verildi. Hücum saat 4-də, səhərə yaxın başlayacaqdı. Lakin kimsənin yuxusu gəlmədi. Hər kəsdə bir narahatlıq, nigarançılıq, döyüşqabağı həyəcan vardı. Müdafiəçilər Aşıq Abbasın başına toplaşdı. Aşıq sazı götürdü. Barmaqlarını sazın simlərinə toxundurdu. Sanki bu anlarda içindəki təlatümlü duyğuları alov kimi simlərin üstə tökdü. Aşıq Abbas yerində otura bilmədi. Meydan genişləndi. Şalvarının balaqlarını yun corabının içinə qoymuş, ayağına geydiyi çarığın bağları ilə möhkəm çəkib bağlamış aşıq meydanda sazı sinəsində vargəl etdi. Qaranlıq gecədə düşmənlə üz-üzə qaldıqları bir vaxtda Aşıq Abbasın döyüşə, qanlı savaşa ruhlandıran səsi bir "Cəngi" havası tək coşub daşdı, sanki düşmənə meydan oxudu.

Aşıq meydanın ortasında dayandı, nəfəsini dərdi və əlini uzaq dağlara sarı tutdu:

– Qadasın aldığım, başına döndüyüm bu dağlar ancaq bizim dildə danışır. Özgə dil bilmir bu dağlar. Qaniçən ermənilər Zəngəzurun növrağını pozurlar. Bizim bu dağlara, yaylaqlara göz dikirlər. Sarı Aşıq elə bil bizim bu günümüzü görüb, yanan ürəyimizi hiss edib və bu bayatını çağırıb:

*Mən aşıq oda para,*
*Ay doğdu o da para,*
*Varmı bir odu sönmüş,*
*Canımdan od apara.*

Aşıq yenə sazı sinəsinə basdı. Sanki sazın səsinə dağlar səs verdi. Saz səsi həzin meh kimi axıb dərələrin qucağına doldu, gül-çiçəyə, məxmər çəmənlərə sığal çəkdi.

... Sultan bəy saatına baxdı. Saat dördün yarısıydı. Çarıqlarını geyinib iplərini corabın üstündən bərkitdi. Çal Aslan təəccüblə soruşdu:

– Bəy, çarıqları niyə geyindin?

Sultan bəy gülüb başını buladı:

– Mən də sizinlə bərabər döyüşəcəm.

Çal Aslan qorxu içində içini çəkdi:

– Özünü güllədən qoru, bəy.

– Qorxma, Aslan bəy, erməninin gülləsi məni tutmaz..

Sultan bəy çadırdan çıxdı. Qaranlıq dərədə topları gizlətmiş topçular Sultan bəyin əmrini gözləyirdi. Müdafiəçilər Çınqıllı dağın ətəyinə səpələndi. Fişəngin atılmasını gözlədilər.

Sultan bəy döş cibindən kiçik "Quran"ı çıxardı, öpüb gözünün üstə qoydu və əlini uca Tanrıya açdı. Dodağının altında səssizcə dua oxudu, salavat çevirib əlini üzünə çəkdi. Sonra tələsmədən "Quran"ı yenidən döş cibinə qoydu. Çal Aslanın hazır saxladığı fişəngi alıb ipini çəkdi. Bu anda göy üzü bir anlıq işıqlandı. Eyni anda da top atəşi gecənin bağrını yardı.

***

Gülüstan qarı sübh namazını qılıb qurtardı. İlk dualarında gözlərindən yaş axmağa başladı: "İlahi, sən Sultan bəyə, Sultan bəylə birgə silah götürüb özünü oda-közə atan, bu torpaq, bu millət yolunda canını fəda eliyənlərə gözəgörünməz mələklərini yetir. İlahi, sübhün bu vaxtında anaların etdiyi duaları eşit. Ba-

lalarımızı gavurların baltasından, qılıncından qoru. Torpağımızı onların nəfsindən hifz elə. Sultan bəyi qoru, bu millət üçün, bu torpaq üçün qoru...”

Bəhram kişi də qonşu otaqda əlləri Tanrının ətəyində dua eləyirdi. Ürəyi səksəkə içində çırpınan Bəhram kişi sanki dualarını bir içim su kimi döyüşə, savaşa gedən müdafiəçilərin yoluna səpirdi.

... Bu anlarda bütün Zəngəzur torpağı müqəddəs sübh namazının işığında möcüzə göstərəcək dualarla doluydu. Bu dualar Sultan bəyin igidlərinə güc və qüvvət verirdi, yollarını Tanrının müqəddəs işığına bükürdü. Və Tanrının işığına bükülmüş bu yollardan müjdə xəbərlərinin gələcəyinə bir ümid, inam vardı...

***

Sübhün ağaran işığında Siranuş bir ayağını çəkə-çəkə ərini harayladı:

– Akopcan, yır-yığış elədim. Ağır zənbilləri götürə bilmirəm. Bunları həyətə daşı, Akopcan.

Akop adət etdiyi vərdişlə əlini dişsiz ağzının üstə qoyub sübhün sərin havasında əsnədi:

– Sən bunları hara aparırsan?

Siranuş hirslə ərini süzdü:

– Yaylağa.

– Hansı yaylağa?

– Necə hansı? Qaragöl yaylağına. Ah, Akopcan, illərlə babam, babamın babası o gözəl yaylağın həsrətini çəkdi və nigarançılıq içində bu dünyanı tərk etdi. Biz daim aran kəndlərdə qaldıq, mal-heyvanımız istidən tələf oldu. Bu il Qaragöl bizimkilərə qucaq açacaq. Biz hazırlaşana qədər ermənilər Qaragölü işğal edəcək.

– Siranuş, sən xərifləmisən.

– Niyə? Hamıdan sonramı yaylağa gedim? Yerləri tutsunlar, mən isə dərədə çadır qurum?

– Siranuş... mən də tələsirəm. Amma... səbr elə. Gəl dua edək.

– Kimə?

– Komandir Karo Hambarsumyana.

– Dua nəyə gərək? Bizim duamız silahdır, topdur, tüfəngdir. Karo bizim yaxşı yaşamağımız, ən gözəl torpaqlara sahib olmamız üçün müsəlmanların qanını töküb. O, Qaragölü də bizə verəcək.

Siranuş yenə axsaya-axsaya axırıncı zənbili evdən çıxardı.

***

Karo Hambarsumyan dəhşətli bir yuxunun içindəydi: sanki buludsuz, aysız-ulduzsuz səmada əli qılınclı atlı çapırdı. Göy üzündə ondan başqa kimsə yoxuydu. Atlı qılıncı başının üstündə tutmuşdu, qılıncı yendirdi və sanki zəmi biçirmiş kimi sağa-sola fırladı. Bu anda ildırımlar, şimşəklər çaxdı. Göy üzü aydınlandı. Açılmış, işıqlanmış səmada ulduzlar səmanın döşünə düzüldü. Sonra göy üzündə yenə ildırım çaxdı, gurultudan qərargahın divarları silkələndi...

Karo yuxudan ayıldı və ona elə gəldi ki, yuxunun qorxunc davamını gördü. Ətraf od tutub yanırdı. Qışqırtı, bağırtı səsləri atılan topların səsinə qarışaraq qan donduran vahimə yaradırdı.

Karo Hambarsumyan həyətə qaçdı. Ətrafda qarşıqlıq idi. Başlarını itirmiş əsgərlər əliyalın idi, çox güman ki, bu anlarda yalnız başlarını qorumaq haqqında düşünürdülər. Komandir vəhşi bir səslə bağırdı və əlindəki tapançadan havaya atəş açdı:

– Geriyə. Düşmənlə döyüşə. Fərariləri özüm güllələyəcəm.

Karonun qorxudanmı, keçirdiyi sarsıntıdanmı dizləri büküldü, torpağın üstündə diz çökdü: ilahi bunlar, bu əsgərlər müsəlman kəndlərini dağıdan, göz qırpmadan insanları qəddarlıqla qətlə yetirən adamlardımı? Bunların hər biri bir cəngavər idi, bir qəhrəman idi. İndi nə olmuş bunlara?

Bu anda Karo Mesropyan (Karonun ən yaxın silahdaşı idi,

Zəngəzura birlikdə gəlmişdilər) gözləri qızarıb irilənmiş, saqqallı sifətində qorxunc bir ifadə ilə özünü yetirdi, Karoya tərəf əyilib atəş səslərini batıracaq səslə bağırdı:

– Sultan bəy bizi qabaqladı. Silah anbarları yanır.

Bu anda atılan toplardan biri qərargahın üstünə düşdü. Qapqara tüstü ilə birgə göyə toz-duman qalxdı. Ətraf bir anlıq işıqlandı. Yaxındakı ağaclar od aldı.

Karo Mesropyanın gözlərində yaş göründü, çarəsiz halda əlini yellədi və hüznlü səslə dedi:

– Komandir, daha gecdir. Hər şey məhv oldu.

– Günahkar bizimkilərdir. Onlar vuruşmağı bacarmadılar.

– Karo, Karocan, biz uduzduq, savaşı uduzduq. Qaragölü işğal edə bilmədik. Geriyə çəkilməliyik. Xınzirəyə, Görusa.

– Nə geri çəkilmək? Sən satqınsan! – Karo silahı onun gicgahına söykədi, – qəzəbdən gözləri az qala hədəqəsindən çıxdı, bu qorxunc gözlərə sanki qan sağıldı, – biz Sultan bəyə təslimmi olaq? Şərəfsiz, erməni millətinin düşmənləri.

– Komandir, biz uduzmuşuq. Bir azdan Sultan bəyin əsgərləri burda olacaq. Canımızı, sağ qalan əsgərləri qurtarmalıyıq gələcək döyüşlər üçün.

Karo Hambarsumyan çarəsiz halda silah anbarları tərəfə boylandı. Partlayışlar davam edirdi. Göy üzündə sanki tüstülü alov yanırdı: – Xınzirək kəndinə, yox, Gorus şəhərinə geri çəkilirik, – dedi.

Əsgərlər geri çəkilmək əmrini ağızdan-ağıza bir-birinə ötürdülər.

... Sultan bəyin dəstəsi Dığ kəndinə girəndə artıq səhər idi. Yanmış evlərin tüstüsü duman kimi kəndin başı üstündə dayanıb durmuşdu. Yanmış ağaclardan da xız iyi gəlirdi. Qol-budağı parçalanmış, kösöv kimi qaralmış, kökündən sınıb yerə düşmüş ağaclar, hələ də tüstülənməkdə olan evlər bu yerlərdə qorxunc bir savaşın getdiyindən xəbər verirdi. Bu qarmaqarışığın içində

qəfildən Aşıq Abbasın zurnaçılar dəstəsinin çaldığı "Cəngi" havası eşidildi.

Əsgərlərin yorğun gözlərində sevinc qaynayırdı. Düşmənə ilk zərbə vurulmuşdu. Çal Aslan Sultan bəyə yaxınlaşdı. Onun gözləri gülürdü:

– Bəy, Ağammədin dəstəsi Qazi gölünü ələ keçirdi. Bir ermənini də ora yaxın düşməyə qoymadı. Qazi gölü bizim əlimizdədi. Bu müjdəni sizə verim, – dedi.

Sultan bəy sevindi, məmnun halda əlini bığlarına çəkdi.

– Bu zəfərlərin başlanğıcıdır, Aslan bəy.

Bu anda Xanalı ilə Seyid Həmid özlərini yetirdilər:

– Sultan bəy, xeyli əsir alınıb. Əmrinizi gözləyirik.

– Tövlələrdəki mal-qaranı çıxarın, yerinə əsirləri doldurun. Mal-qaranı isə Qaragöl yaylağına aparsınlar.

– Oldu, bəy.

– Ağammədin Minkənd alayı bizimkilərlə birləşib Xınzirək kəndini mühasirəyə alsınlar.

– Kəşfiyyatçıların gətirdiyi məlumata görə Karo Hambarsumyan başının dəstəsi ilə Görusa qaçıb.

Sultan bəy güldü:

– Əlimizdən hara qaçacaq ki? Topları Gorusun qaşında yerləşdirin. Bir neçə top atılandan sonra şəhər qarışacaq. Ermənilər gizlənməyə yer axtaracaq.

... Topçular topları Görus şəhərinin qaşında yerləşdirdilər. Şəhəri iki yerə bölən Bazarçayı günəşin altında parıltılı dalğalarla axıb gedirdi. Küçələr adamsız kimi görünürdü. Topçu Əhlimanın gözləməyə səbri çatmadı. İlk atəş şəhərin kənarındakı tikililəri dağıtdı. Alov qarışıq binalar göyə sovruldu. Əhliman ikinci topu atdı və şəhər fəryad içində çalxandı.

... Ağammədin Minkənd alayının əsgərləri Xınzirək kəndini mühasirəyə aldılar.

Ağamməd çadırdan çıxanda Xanalı ilə üz-üzə gəldi. Xanalının gözləri bic-bic gülürdü:

– Komandir, – dedi, – bir əsir gətirmişəm. Ağacların arxasında sizin çadırı gizlicə izlərkən tutdum.

– İçəri gətir, görək kimdi?

Əsirlə üzbəüz oturdu. Bu yaşlı, üzünü saqqal basmış bir kişiydi. Başını qaldırıb komandirin üzünə baxmağa elə bil ürək eləmirdi. Əllərini dizlərinin üstə qoyub fağır, günahsız adamlar kimi büzüşmüşdü.

Ağamməd qaşqabaqlı soruşdu:

– Xınzirəkdənsən?

– Yox, Yerevandan.

– Burdakı ermənilərə köməyə gəlmisən?

– Allah şahiddir ki, bir müsəlmana da güllə atmadım.

– Bəs nə ilə döyüşdün? Balta, ya xəncərlə?

Əsirin gözlərində yalvarışlı baxışlar göz yaşına döndü:

– Mənim günahım yoxdu.

– Bəs burda nə qələt eləyirsən?

– Heç özüm də bilmirəm. Bir də baxdım ki, savaşın ortasındayam.

– Hə, demək səni şeytanlar gətirib.

– Nə istəyirsiz, deyim, məndə yaxşı məlumatlar var. Karo Sultan bəyin yaylağına-Çalbayıra bir nəfər erməni göndərib. Onu aradan götürmək üçün. Aranızda düşmən var. Sayıq olun.

– Sonra?

– Andronikin Zəngəzura gəlişi gözlənilir.

– Sonra?

– Karo Hambarsumyan Yerevandan durmadan canlı qüvvə və silah yardımı alır. Hazırda yeni dəstələr çoxlu silah-sursatla Sisyana daxil olub.

– Sisyana? – Ağamməd fikrə getdi, – onlar Qaragölün işğalı üçün ermənilərə kömək edəcək.

Ağamməd Xanalını çağırdı:

– Bu əsir bir məlumat verdi. Bu məlumatın yoxlanmasını istəyirəm.

– Baş üstə, komandir, – Xanalı tapşırığı yerinə yetirməyə getdi.

– Karo Hambarsumyan indi hardadı?

– Məzhəb haqqı, onun yerini kimsə bilmir.

Ağaməd otaqdan çıxdı. Əsiri apardılar.

... Axşam Sultan bəyin müdafiəçiləri Qaragöldən bir cəngavər hünəri ilə qayıtdılar. Müdafiəçilər bir-birini qucaqlayır, ağlayır, silahlarını başları üstə qaldıraraq bu tarixi zəfəri sanki Zəngəzur dağlarına, çöllərə, düzlərə, yanmış evlərə, qəlbi dağlanmış, ürəyi parçalanmış insanlara yetirirdi:

– Ey tərəkəmə elləri, yaylaqlara düşmən ayaq basa bilmədi. Köçünüzü dağlara sürün, obalarınızı yaylaqlara köçürün. Bu dağlar təkrar sizi qoynuna alsın, Qaragöl gölləri başınızın tacı olsun. Qaragöl zəfəri bitməyəcək, nə qədər ki, bu torpagın igidləri at belindədi, nə qədər ki, Sultan bəyin atının kişnərtisi bu dağlardadı, Zəngəzura zaval yoxdu...

# DÖRDÜNCÜ FƏSİL

## LƏNƏTLƏNMİŞ QULDURBAŞI

*... Hərislik, intriqalar, satqınlıq, andpozma, yaltaqlıq bu qəbilənin əsas milli xüsusiyyətlərindəndir. Bu vətəndaşın-ermənilərin qürurla adını çəkə biləcəyi vətən yoxdur. Yalnız 1300 il qul kimi yaşaması və hamı tərəfindən parazit kimi lənətlənməsi haqda acı etiraf var.*

**A. Frenklin,**
*hüquqşünas.*

**1.**

Andronik yoxuşu qalxıb düzənliyə çıxdı və atın cilovunu çəkib dayandı. Şəhanə bir görünüş aldı, sinəsini qabardıb başını dik tutdu. Fateh ədası ilə hər yeri süzdü. Bura Zəngəzur idimi? Dərəli-təpəli, yenişli-yoxuşlu düzənlər, arxada yerlə göyü ayıran başı qarlı dağlar, bu gözəlliyin içinə sığınan bağlı-bağatlı kəndlər....Bunların çoxu müsəlman kəndləriydi çox güman ki... Andronik donub qalmış kimi gözlərini mənzərədən ayıra bilmirdi. Saf, təmiz havanı sinədolusu uddu. İçində qaynayan nəşənin şiddətindən sanki nəfəsi kəsildi: o bu yerlərin hakimi olacaq. Bu yerlərdə müsəlmanların izi silinib gedəcək... Sanki bu anlarda bütün Zəngəzuru fəth elədi və bu zəfərin möhtəşəmliyini elə bil damarlarında axan, şiddətlə ürəyinə çırpılan qaynar qanı ilə hiss etdi, əlini ağzına qoyub var qüvvəsi ilə, səsi o uzaq dağlara çatana qədər bağırmaq istədi. Amma özünü topladı, əlini ağzına qoyub astadan öskürdü və geriyə baxdı. Onun arxasında düzlərə səpələnmiş əli silahlı əsgərlər dayanmışdı. Yüzlərlə süvari onun kimi dərin bir heyrət və heyranlıq içində gözəlliyə baxa-baxa donub qalmışdı. Yalnız gözləri vəhşi cana-

var gözləri kimi işıldayırdı. Əsgərlərin çoxunun əynində ruslara məxsus köhnə, bozarmış hərbi paltar vardı. Silahlarını çiyinlərindən aşırmışdılar. Arxaya qoyduqları yol çantalarının açıq qalmış ağzından iti baltalar görünürdü. Andronikin tapşırığına görə güllədən istifadə etməyəcəkdilər. Müsəlman kəndlərinə girən kimi baltalar işə düşəcəkdi...

Andronikin əsgərlərə zillənmiş uzun sürən baxışları sanki yoruldu, əsgərlər də yoruldu, yorğun, keyləşmiş baxışlarını yenə də səbrlə Andronikin qırışmağa başlamış sifətindən, qızarmış gözlərindən ayırmadan generalın əmrini gözlədilər. Andronik şəhadət barmağını dağlara sarı tuşladı:

– Bura Zəngəzurdu. Bura bizim Ermənistanın bir parçasıdır. Biz onu millətimizə qaytarmağa gəlmişik. Bu yolda canımızı və qanımızı versək də.

Dağ -daş elə bil əsgərlərin bağırtısından diksindi:

– Yaşasın Andronik paşa!

Küləklər bu səsi aldı və uzaq dağlara tərəf apardı. Lakin bu anda Andronik səksəkə içində ətrafına baxdı, üşəndi, bir göz qırpımında xəyalları kələf kimi dolaşdı. Çevrilib gəldiyi yollara baxdı. Ona elə gəldi ki, Zəngəzura sarı saysız-hesabsız türk süvariləri axışır. İrəlidə qırmızı rəngli, ay-ulduzlu nəhəng bayrağın altında gələn Kazım Qarabəkir paşadır. Onun ağ atı sanki şimşəklərdən od alıb ildırım kimi irəliyə şığıyır. Andronikin içini vahimə aldı, gözlərini sildi, yoxuşlardan aydınca görünən yollara təkrar baxdı. Yollar bomboş idi. Burda onlardan başqa kimsə yoxuydu. Kazım Qarabəkir paşa Naxçıvandaydı...

Andronik onunla yanaşı dayanmış mayor Vahramdan soruşdu:

– Burda bizim qarşımıza çıxacaq adamlar varmı? Məsələn Kazım...

– Xeyr, xeyr, general. Bu dağlarda Kazım Qarabəkir... Siz Allah məni güldürməyin.

Samvel atını irəli sürdü, gözaltı Vahrama baxıb, qaşqabaqlı halda dedi:

– Vahram sizi arxayın salır, general. Burda Zəngəzur qəhrəmanı Sultan bəy var. Çox igid adamdır. Yerli əhali onun dəstəsinə qoşulur.

Andronik başını arxaya verib ucadan kinayə ilə güldü:

– Bəs silahı hardan alır? Silah-sursatları varmı?

– Sultan bəy var-dövlətini bu yolda qoyur. O, çox zəngindir. Qaragöl döyüşündə Karo Hambarsumyana zəfər çaldı, ordunu məhv elədi. Onun adı gələndə bizimkilər zağ-zağ əsir, general.

Andronik fikrə getdi:

– Onda biz Sisyanı işğal edib, Laçına doğru irəliləməliyik. Vahram, irəliyə bir dəstə əsgər göndər, qoy bütün erməni kəndlərini ayağa qaldırsınlar. Çox güman ki, bu kəndlərin hamısında silahlı dəstələr var və onlar bizi gözləyirlər.

Andronik sanki Sultan bəylə üz-üzə dayanmış kimi dişlərini qıcadı:

– Mənim əsgərlərim Zəngəzuru işğal edəcək. Bu yerlərdə bir müsəlman da sağ qalmayacaq. Anladınızmı?

Andronik atına bir qamçı vurdu. At irəli getdi. Arxasınca da əli baltalı süvarilər...

... At dərə-təpələrdə sanki qanad açıb uçurdu. Andronikin xəyalları isə geriyə-uşaqlıq illərinə qayıdırdı. Əslində o illərdə öyünəsi bir şeyi yox idi. Atası Tarasın dediyinə görə 1866-cı ilin fevralın 25-də sərt bir qış gecəsində Türkiyənin Sivaş vilayəti Qarahisarda – palçıqdan hörülmüş daxmada gözünü dünyaya açdı. (kaş açmayaydı). Oğlu olduğuna Taras sevindi. Ona görə yox ki, var-yox bir qız övladı vardı. Ona görə sevindi ki, arzularını həyata keçirəcək, erməni millətinin yolunda canını fəda edəcək bir oğlu oldu.

Andronik ağlı kəsəndə ana üzü görmədi. Heç onun sifətini, səsini xatırlamadı da. Çünki Məryəm erkən dünyadan getdi. Taras tək qaldı. Hər axşam evə dostları gəlirdi. Masanın ətrafına yığışır, evdə hazırlanmış şərabdan içir, erməni mahnıları oxu-

yurdlar. Taras sərxoş olanda ağlayırdı. Başını qollarının arasına qoyaraq hönkürtü çəkir, sonra da gözləri qızarmış halda əlini masaya çırpır və yana-yana vətənsiz ermənilərin halına acıyırdı. Özünə gələndə kiçik Androniki yanına çağıraraq başını sığallayır və qürurla deyirdi:

– Sizin qəhrəmanınız bu cəngavər olacaq. Bir onun gözlərinə diqqətlə baxın. O, erməni millətinə vətən, torpaq verəcək. O, millətimizi qoruyacaq. Mən bunu bilirəm, – sonra da Androniki bağrına basıb şərab qoxuyan nəfəsi ilə onu oxşayardı.

Taras iki uşağı arvadsız saxlaya bilmədi və ikinci dəfə evləndi, evə analıq gətirdi. Andronikin fikrincə o pis analıq deyildi. Onun gəlişi ilə dostların ayağı kəsildi. Bu dəfə masanın ətrafında Tarasla arvadı otururdu. İkisinin bir yerdə şərab içməsi Andronik üçün xoş bir şey idi. Çünki ikisi də tez sərxoş olardı və ikisi də masada, əllərini başlarının altına qoyub eləcə yuxuya gedərdi. Şərab qoxulu daxmaya dərin bir səssizlik çökərdi. Səssizlik bacısına da rahat bir yuxu gətirərdi.

Andronik isə o anda daxmanı tərk edərdi, onu gözləyən, səhərə qədər keyf məclisləri keçirən yaşıdlarının yanına tələsərdi. Səhərə yaxın evə qayıdardı. Yeniyetməlik yaşına çatanda Andronik Ozanyan atasının dərdini anladı: Taras vətənsizlikdən bütün yer üzünə səpələnmiş ermənilərin fikrini çəkirdi və bunun üçün də göz yaşı tökürdü. Özgə millətlərə gücü çatmadığından torpağında yaşayıb, çörəyini yediyi türklərə nifrət bəsləyərdi. Sanki bu vətənsizliyin səbəbkarı müsəlmanlar idi və onlar Allaha çox yaxın olduğundan ulu Tanrı torpaqları məhz müsəlmanlara bağışlamışdı...

Tarasın göz yaşları sanki gözəgörünmədən, gizli-gizli Andronikin ürəyinə axdı, damcılar daş bağladı, insani hisslərini qəddarlıqla məhv etdi və orda iç dünyasında mərhəmət, rəhm adlı bir duyğu qoymadı. Andronikin sevgisiz, soyuq və qaranlıq iç dünyasına ölüm hənirtisi çökdü, ölən müsəlmanın gözündəki son yalvarış anı, əzablı can çəkişməsi ruhunun dərinliklərinə iş-

lədi. Həyatının ən xoşbəxt anını, saatını məhz o anlarda yaşadığını zənn etdi və tiryəkə aşiq olan adamlar kimi o, da müsəlmanları vəhşicəsinə qətlə yetirərkən ruhunun sevinc içində sakitləşdiyini gördü...

Andronik bir daha xatırladı: Tarasın çopur sifəti həmişə dərdli görünərdi. O, xırda sənətkar idi. Əlləri qızıl idi. Amma fikri, düşüncəsi türklərə qarşı qan qoxuyardı. Əlini qızının saçlarına çəkər, hissiz-duyğusuz görünən bulaşıq gözlərini Andronikə zilləyər və şəhadət barmağını silkələrdi:

– Andronik oğlum, atanın dediklərini unutma. Türkləri bu torpaqlardan qovmaq lazımdı. Bu yerlər bizim canımız, qanımız olan doğma torpağımızdır. Əgər gənc olsaydım silahı götürər, müsəlmanları körpəsinə qədər rəhm etmədən məhv edərdim. Sən millətimizə torpaq ver, onları öz vətənlərinin sahibi elə, oğlum. Bu mənim sənə vəsiyyətimdir.

Bacısı Nazelli də türklərə nifrətliydi. Taras içindəki bütün zəhəri Andronikla Nazellinin damarlarına axıda bilmişdi. Taras həyatından məmnun idi. Şərab içərkən daha ağlamırdı. Çünki Androniki türklərin qanını içəcək qədər rəhimsiz bir düşmən yetişdirdiyindən sevinirdi. Oğlu özü kimi naxələf cavanlardan dəstə toplamışdı. Bu türkləri məhv etmək üçün yaradılan ilk dəstəydi.

Andronik yeniyetməliklə vidalaşdı və on səkkiz yaşında ilk sevginin nə olduğunu anladı. Ürəkdən vurulduğu erməni qızı ilə evləndi. Lakin az keçmədi ki, arvadı vəfat etdi. Bununla da Andronikin sevgi dəftəri bağlandı. Bütün həyatı boyu müsəlmanlara bəslədiyi nifrəti ilə baş-başa qaldı.

***

Sivaşda birdən-birə quldur dəstəsi peyda oldu. Bu dəstə gecə yarısı türklərin evlərinə soxulur, talan edir, qətllər törədirdi. Dəstənin başçısı Andronik idi və əldə olunmuş pulları bir yerə toplayaraq dəstəni silahlandırırdı. Polis dəstənin izinə düşməyə

çalışırdı. Çünki Sivaş bu dəstənin əlindən dəhşət, vahimə içindəydi. Dəstə üzvləri hər yerdə axtarılırdı. Andronik ifşa olunmaqdan qorxdu, 1904-cü ildə Sivaşı tərk etdi. O, içindəki nifrəti ilə böyük işlər görmək arzusundaydı və bunun üçün "Daşnaksyütun" partiyasına daxil oldu.

... Andronik həyatında ən ağır, utanverici, alnına qara damğa kimi vurulmuş 1880-ci ili – ürəyinin dərinliyində qaysaqlanmayan, dərin yara kimi göynəyən ili heç zaman unutmadı. Bu da ondan ibarət oldu ki, türklərin sirlərini ingilislərə satdığına görə türklər onu cəzalandırdılar və bir qulağını kəsdilər. Onda Andronik uşaq kimi dizlərini yerə vurub ağladı. Amma ağrıdan yox, türklər onun şərəfini, ləyaqətini tapdaladığına görə ağladı. Ömrü boyu daşıyacağı rüsvayçılığa görə ağladı. Andronik uzun gecələr bu ağrı ilə, bu rüsvayçılıqla təkbətək qaldı, üzünü yasdığa sıxaraq kimsə görməsin deyə gizli-gizli göz yaşı axıtdı. Bu anlarda sanki başının üstə atası Tarası gördü. Taras əlini onun gur saçlarına çəkərək təskinedici ahənglə dedi: – "Oğlum, sən bu millətin yolunda bir qulağını deyil, canını da versəydin mən qürur duyardım. Bilirəm, bu damğa bütün ömrün boyu səni incidəcək, həyatına zəhər qatacaq. Amma o həm də səni mətinləşdirəcək, bir qəhrəman kimi güc-qüvvə toplamağına, türklər üzərində zəfər qazanmağına yardım edəcək. Ruhunda dərin yaralar açsa da qəlbindəki kini, nifrəti dəniz kimi coşduracaq. Sən daim bu damğanın intiqamı ilə alışıb yanacaqsan. Əlinin altında can verən bir müsəlmana, bir qundaq körpəsinə belə acımayacaqsan, oğlum..."

Tarasın səsində sanki sakitləşdirici, ruhlandırıcı nəsə vardı. Andronik yataqdan qalxdı, güzgünün qarşısında dayandı. Saçlarını arxaya daradı, kəsilmiş qulağının üstünü saçları ilə örtdü, sonra papağını başına qoydu. Bu anlarda onun gözlərində ov ovlamağa gedən və bundan dərin nəşə duyan canavar ehtirası vardı. Bu halı ilə Andronik qorxunc görünürdü, əsgərlərinin belə canına vahimə salırdı.

... 1912-ci il.

Zəngin olmayan sadə bir yeməkxanada şam yeməyi zamanı cavan bir adam Andronikə yaxınlaşdı. Onun hündür boyu, sərt baxışlı gözləri vardı. Ağayana bir tövrlə hökmlə soruşdu:

– Siz Andronik Ozanyansız? Mən sizinlə tanış olmaq istərdim.

Andronik cəld ayağa qalxdı, əlini irəli uzatdı:

– Çox şad olardım.

– Nijde Karegin. Mən Azərbaycanda Naxçıvan qəzasının Güznüt kəndindənəm. Uşaqlığım orda keçib. Amma müsəlmanlara nifrət etdiyimə görə ordan uzaq düşmüşəm.

Andronik təəssüflə başını buladı:

– Biz ermənilər hamımız bu nifrətlə yaşayırıq. Bu nifrət bizim qılıncımız, iti silahımızdı. Biz tezliklə onların axırına çıxacağıq. Mən də Türkiyədə anadan olmuşam. Amma ora mənim vətənim deyil. Demək bütün ermənilər kimi bizim də vətənimiz yoxdu. Bu dərd bizim millətimizi öldürür, içindən sındırır, məhv edir.

Andronik qəzəblənmiş, kövrəlmiş halda şərab stəkanını doldurdu və Nijdenin qarşısına qoydu. Njde stəkanı bir nəfəsə başına çəkdi, duzlu xiyarı dişlədi və Andronikə göz vurdu:

– Biz onlara "Böyük Ermənistanı" bəxş edəcəyik. Türkiyənin şərq vilayətləri, Naxçıvan və Zəngəzur... Qoy yaşasınlar, keyf eləsinlər.

– Millətimizin yolunda bütün fədakarlığa hazırıq, Njde. Birləşək və türkləri torpaqlarımızdan qovaq.

– Müsəlmanları məhv edək, Andronik. Yoxsa onlar yenidən baş qaldırıb torpaqlara qayıtmaq istəyəcək.

– Məhv etmək... Özü də acımadan, rəhm etmədən, qundaq körpəsinə qədər.

– Erməniləri ayağa qaldırmalı, onları silahlandırmalıyıq.

– Silah istədiyin qədər, – Andronik sanki bu anlarda başının üstündə Tarasın varlığını hiss etdi, əlini ağarmış qalın bığlarına çəkib gülümsədi.

– Mən səni bir nəfərlə tanış edəcəyəm, Andronik.

– O da naxçıvanlıdı?

– Yox, o, Türkiyənin İqdır vilayətindəndir. Adı Drastamatdır. Amma qısa olsun deyə Dro çağırırlar. Dro Kanayan. Türklərin qatı düşmənidi.

– Cavandımı?

– Otuz yaşı var. Çox qoçaqdı, igid adamdır.

Andronik gözaltı ətrafa baxdı, sonra da pıçıltı ilə dedi:

– Burda ara çox qarışıqdır. Polis bizi izləyir. Bizim dəstəmiz türklərə çox ziyan vurdu. Çox qanlar axıtdıq. İndi polis hər yerdə bizim dəstənin üzvlərini axtarır. Bəlkə Bolqarıstana gedək?

– Bolqarıstana niyə?

– Orda müharibə gedir, müharibədə iştirak edək və təcrübə qazanaq.

... Andronik doğrudan da müharibədə fəal iştirak etdi və "İgidliyə görə qızıl xaç" ordeni ilə təltif edildi. Lakin bolqarlara görə ruslar Andronikə daha yaxın idi. Ruslara qarşı özündə bir ehtiram və etimad hiss edirdi. Buna görə də Bolqarıstandan adlayıb Rusiyaya keçdi. Tezliklə rusların etimadını qazandı və bu da onunla nəticələndi ki, Qafqaz ordusunun komandanlığı Andronik Ozanyana general-mayor rütbəsi verdi.

1917-ci ildə Romanovların iki yüz illik hökmüranlığına son qoyuldu. Çar Nikolayın taxtdan düşməyi ilə Rusiyada hərcmərclik yarandı. Andronik ordunun başıpozuqluğundan, rusların düşdüyü bu çətin vəziyyətdən istifadə etdi. Gələcəkdə erməni ordusunun yaradılması üçün külli miqdarda silah oğurladı.

***

... Andronik atının başını çəkib saxladı. Arxasınca gələn süvarilər də dayandı. Ordunu Sisyanda qarşılayan, Andronikə qonaqpərvərlik göstərən Görus şəhərinin komendantı Sumbat atını irəli sürüb yaltaqlıqla soruşdu:

– Niyə dayandınız, general?

– Burdan Gorusa çoxmu var, Sumbat?

– Yol uzaqdır, general.

– Fikrimi dəyişdim. Sisyanda qalırıq. Amma sən elə indi dayanmadan yola düş, Gorusa get və əsgərlərimizin düşərgə salması üçün münasib yer tapın, ordu üçün yemək-içmək tədarükündə olun.

– Oldu, general.

Sumbat əlini gicgahına qoydu və atının başını Gorusa tərəf çevirdi.

**2.**

Təndirdə bişən buğda çörəyinin iştahaçan iyi məhəlləni bürüdü. Əsmət axırıncı lavaşı təndirə vurub qəddini düzəltdi və üz-gözündən axan təri döşlüyü ilə sildi. Əlini yenə təndirə atıb qızarmış çörəyi çəkdi, qalaqlanmış lavaşların üstünə atdı. Həşim başını təndirəsərə uzatdı:

– Acından öldüm, ana. Bir dürmək ver.

Təndirəsərə girib təndirin qırağında dayandı. Əsmət təlaşlandı, əlindəki oxlovla uşağı sinəsindən geri itələdi:

– Qıraq dur, Həşim, təndirə düşərsən.

Əsmət isti lavaşı iki qatladı, arasına pendir qoyub dürməklədi, oğluna uzatdı. Əli havada qaldı. Bu anda təndirəsərin yanında iki atlı dayandı. Sanki yer yarılıb yerin dibindən çıxdılar. Uşaq təndirin üstündən atlanıb özünü anasının qucağına saldı:

– Bunlar ermənidi, məni tez gizlət.

– Arxamda gizlən. Evim yıxıldı, bunlar hardan çıxdı?

Əsmətin əlləri əsirdi. Çığırmaq istəyirdi, amma səsi batmışdı.

İki nəfər silahlı erməni başını içəri uzatdı və sevinclə qışqırdı:

– Haykaz, burda təzə çörək bişiriblər.

İkinci erməni təndirəsə keçdi, bir lavaş çəkib dürməklədi və dişinə çəkdi:

– Çoxdandı belə ləzzətli çörək yemirəm, – dedi.

– Belə dadlı, ətirli çörəklər ancaq Zəngəzurda bişir, – o, biri də lavaşı özünə çəkdi, – nə bildin ki, biz gəlirik? Bu çörəyi general Andronikə bişirdin? Sizin onu bu qədər sevdiyinizi bilməzdim, axçi.

Qorxu Əsmətin iliyinə qədər işlədi. Yalnız gözləri ermənilərdə dirəşib qaldı. Döşlüyün altında balaca, körpəcə ürək elə çırpındı ki, Əsmət erməniləri duyuq salmamaq üçün lavaşı onlara sarı çəkdi:

– Alın aparın, amma bizimlə işiniz olmasın...

Haykaz deyilən cavan erməni ayağını çörəyin üstünə qoydu, lavaşlar ikiyə bölündü. Haykaz əlini uzadıb döşlüyü çəkib təndirə atdı. Əllərini qarnının altına yığıb iki qat olmuş uşaq titrətmə içində çabalayırdı. Haykaz tüfəngin qundağı ilə uşağı təndirin qırağına itələdi. Həşim az qala təndirə düşəcəkdi. Əsmət bu anda vəhşi kimi bir səs çıxardı. Boyun damarları şişib qızardı, qızartı bütün sifətinə vurdu, sanki gözlərinin içindən təndir alovu kimi bir alov qalxdı. İki əlli uşağın kürəyindən yapışıb özünə çəkdi. İkinci erməni tüfəngin qundağı ilə Əsməti vurdu və onu uşaqdan araladı.

Haykaz uşağın qollarından tutub təndirin içinə salladı. Dişləri canavar dişləri kimi ağardı:

– Təndirə atım səni, atım?

Uşaq ikiəlli onun qollarından tutub ayaqlarını təndirin divarlarına dirədi. Səsi çıxmadı. Yalnız irilənmiş, hədəqədən çıxmış gözlərindən axan leysan köynəyinin yaxasına tökülürdü.

İkinci erməni uşağı onun əlindən alıb kənara tulladı:

– Tələsmə, Haykaz. Hələ burdayıq, – sonra da üzünü uşağı bağrına basmış Əsmətə tutdu:

– Uşağını bağışladıq, amma hələlik, başa düşdün, hələlik. İndi isə kənd meydanına, haydı...

Ermənilər Əsmətin, Həşimin qolundan tutub kənd meydanına tərəf sürüklədilər.

... Gün əyiləndə kənd meydanı adamla doldu. Meydanda

tükürpədən səssizlik vardı. Böyüklərin arxasında gizlənmiş uşaqların içlərindəki dəhşəti, vahiməni irilənmiş, yaşla dolmuş gözləri biruzə verirdi. Kişilər təmkinli görünmək istəyirdilər. Qıyılmış gözlərində, rəngi avazımış sifətlərində, sıxılmış dodaqlarında ermənilərlə savaşa inadlı bir çağırış vardı.

At belində bir dəstə süvari ilə gələn Andronik meydanın bir tərəfindəki üstü daş-çınqılla örtülmüş təpənin üstünə qalxdı. Atın cilovunu çəkib başını dik tutdu. Xaki rəngli hərbi paltar geyinmişdi, kəmərlə belini möhkəm çəkmiş, silahını kəmərinə sancmışdı. Külək vurduqca ağ saçlarını üzünə dağıdırdı. Əli ilə saçlarını geri daradı, zəhmli baxışlarını adamların üzündə gəzdirdi. Sanki bununla da silahsız, köməksiz adamların üstünə baxışlarından bir qatar güllə boşaltdı. Xeyli susdu, əlini ağ qalın bığlarına çəkdi və yorğun, kallaşmış səslə bağırdı:

– Əziz musurmanlar, bacı və qardaşlar, – bu müraciət özünə də gülünc gəldi, istehza ilə gülümsədi, – biz Zəngəzura xoş niyyətlə gəlmişik. Erməni milləti qaniçən deyil. Amma Allaha da xoş getməz ki, sizin ucu-bucağı görünməyən torpaqlarınız olduğu halda bizimkilər dilənçi kökündə yaşasınlar. Bu torpaqlarda bizim babalarımız yaşayıb. Ölüb gedib və məzarları burdadır. Siz ermənilərlə daim mehriban qonşuluq şəraitində yaşamısız, dostluq, qardaşlıq etmisiz. Biz bunu pozmaq niyyətində deyilik. Amma bir şərtlə, – Andronik məkirli bir təbəssümlə müsəlmanları süzdü, – Siz ya xristian dinini qəbul edib erməni bayrağı altında yaşamağa davam edəcək, ya da bu yerləri tərk edəcəksiz. Sizə bir gün möhlət verirəm. Əgər dediklərimi qəbul etməsəniz, o halda əsgərlərimə cavabdeh deyiləm.

Andronik məmnun halda izdihama göz gəzdirdi və qımışdı.

Adamlar don vurmuş kimi yerlərindən tərpənmədi. Sanki Andronik bununla da meydanı səssiz güllələrlə güllələbaran etdi. Amma izdihamın səssizliyi bir an çəkdi. Qarışıq səslər gəldi.

Əsgərlər atlarını adamların üstünə sürdü. İzdihama atəş açıldı. Bağırtı, qışqırıq səsləri atları hürkütdü. Kimsə bir erməni

əsgərini çəkib atdan saldı. Andronik əlini yuxarı qaldırdı və əsgərlərinə dayanmaq işarəsi verdi. Meydan boşaldı. Kənd həyəcan içində çalxandı. Dağlardan əsən sazaqlı külək sanki ağlaşma-şivəni evlərin içinə yığıb qapını arxadan bağladı.

***

... Andronik Gorusun qaşında atın cilovunu çəkib saxladı. Onun gözləri yağlı ov tapmış rurd gözü kimi işıldadı. Yüksəklikdən çox-çox aşağılarda yaşıllıqlar içində Görus güclə seçilirdi. Dağlardan axıb gələn Bazarçayı şəhəri ikiyə bölmüşdü. Bu anlarda da Bazarçay – günəşi sinəsində əks etdirən aynaya bənzəyirdi. Əzəmətli Üçtəpə dağı sanki bu balaca şəhərin başı üstündə dayanmış daş əsgəriydi.

Sumbat əyilib Andronikin üzünə baxdı, yaltaq-yaltaq gülümsədi:

– General, şəhəri bəyəndinizmi? – Sumbat sanki bununla da Görusu, ortasından kəmər kimi bağlanmış Bazarçayını, daş əsgərə oxşayan Üçtəpə dağını qızıl məcmeyiyə qoyub Andronikə təslim etdi:-general, heç yerdə belə gözəllik görməmisiz. Bura sizin üçün çox rahat olacaq.

Andronik onun sözünü kəsdi, qaşqabaqlı halda soruşdu:

– Burda çoxmu musurman yaşayır? – onun səsində gizli hiddət Sumbatın canına qorxu saldı. Başını bulayıb günahkar halda dedi:

– Təəssüf ki, var, general. Təssüf ki, onlar bizdən əvvəl bu yerlərə sahib olmuşlar. Təssüf ki...

– Zəngəzurun qəza rəisi yəqin ki, ermənidi?

Sumbat başını aşağı salıb məyus cavab verdi:

– Xeyr, çox-çox təəsüflər olsun ki, musurmandır. Məlik Namazəliyev adlı birisidi.

– Təhkükəlidirmi? – Andronikin işıldayan gözləri bu dəfə içindəki nifrəti biruzə verdi.

Ağ at ayaqlarını yerə döyür, quyruğunu dayanmadan yan-

bızlarına çırpır, sanki sahibi Andronik kimi narahatlıq keçirirdi.

Sumbat generalı arxayın salmağa çalışdı:

– Xeyr, xeyr, onu aradan götürmək asandı.

– Mənim düşüncələrim, planlarım var, – Andronik gözlərini qıyıb yuxarıdan şəhəri seyr etdi, – burda qubernatorluq yaratmaq, bir qubernator kimi bu bölgəni idarə etmək, döyüş planlarını burda hazırlamaq... Əsgəri qüvvə də buraya toplaşacaq. Zəngəzurun böyük işğal planını buradan həyata keçirmək və Qarabağa daxil olmaq...

– Yəqin ki, qubernatorluq yaradarkən məni də düşünəcəksiz, general.

– Ən azı Zəngəzurun təzə qəza rəisi...

– Ah, general, mənə böyük şərəf verdiz. Canla-başla hazıram.

Andronik atını Görusa yenən çığırlara saldı.

***

Sumbatın evi Görusun zəngin ermənilər ilə doldu. Həyətdə çəkilən kababın iyi havanın təmiz gül-çiçək ətrini üstələdi. İkimərtəbəli evin pəncərəsindən Bazarçayı görünürdü. Çayın sol sahilində salınmış təzə evlər ermənilərin idi.

Andronik salonun yuxarı başında masanın arxasında hərbi geyimdə oturmuşdu. Döşündə orden, medallar sıra ilə düzülmüşdü. Bu onun müharibə görmüş və igidlik göstərmiş şöhrətli bir hərbiçi olduğunu təsdiqləyirdi. Oturuşu, baxışı hökmüranlıq iddiasında olduğunu biruzə verirdi. İçəri girən zəngin ermənilər bunu o anda hiss edir, özünü yığışdırır, belini azca əyərək Andronikə yaxınlaşaraq onunla ehtiramla görüşür, üzünə yaltaqlıqla gülümsəyir, əllərindəki kağız bükülüsünü iltifatla generala təqdim edirdilər. Sumbat bu hədiyyələri gizlicə seyr edirdi. Onlar üst-üstə qalaqlanırdı. Bunlar erməni ordusuna yardım idi, bəlkə də yox... Andronik özünü müdrik və hədiyyələrə qarşı etinasız göstərirdi.

Sumbatın həyətində qələbəlik yarandı. Ermənilər yuxarıya

qalxmaq, Androniklə görüşmək istədilər. Sumbat onların qarşısını kəsdi:

– Dayanın, səbr eləyin, indi toplantı başlanır. General ciddi, mühüm işlərlə məşğuldur. O, sizi sonra qəbul edəcək, dinləyəcək.

Sumbat içəri girdi, Andronikin qarşısında dayanıb çarəsiz əllərini yana açdı və yorulmuş halda məlumat verdi:

– Xalq sizi, öz xilaskarını görmək istəyir, general.

– Onlar mənim gəlişimdən bu tezlikdə necə xəbər tutdular, Sumbat?

– Görus sevinc içindədi, general. Torpağına -daşına qədər sevinir.

– Onların istədiyi hər şeyi onlara verəcəm. Mən onlara Zəngəzuru bütünlüklə bağışlayacam, – Andronik bığlarını sığallayıb gülümsədi, əli ilə Sumbatın sinəsindən vurdu, – səni isə Zəngəzurun qəza rəisi təyin edəcəm.

Sumbat əlini sinəsinə qoyub ikiqat oldu:

– Təşəkkür edirəm, general. Karo Hambarsumyan sizinlə görüşmək üçün öz nümayəndəsini göndərib.

– Rədd elə. Qoy cəhənnəm olub öz başıyox, əfəl, bacarıqsız komandirinin yanına getsin. Karo çox böyük rüsvayçılıqla Qaragölü düşmənə güzəştə getdi, – Andronik əsəb içində gəzindi, – Karo erməni millətinin xəyallarını, istəklərini puça çıxardı.

– Amma, general, Sultan bəy çox güclüydü. Onlar bu yerlərin hər daşına-torpağına, yol-rizinə bələddi.

Andronik kinayə ilə soruşdu:

– Sultan bəyin nizami ordusumu var? Ruslar bir müsəlmanı da orduya almadılar. Onların hamısı güllə atmağı bacarmayan naşı adamlardı.

– Sultan bəy rusetdə hərbi akademiyada oxuyub, general. Hərbi işi də bizimkilərdən pis bilmir. Aldığımız məlumata görə yüzbaşı Teymur bəy adlı bir türk dağlarda müsəlman gənclərə hərbi təlim keçir.

– Sultan bəyi ilahiləşdirmə, -Andronikin bağırmaqdan bo-

ğazındakı yoğun damarlar oxlov kimi şişdi, bardaqdan su töküb içdi, özünü sakitləşdirməyə çalışdı və keçib masanın arxasında oturdu. İçəridəkilər şaşqınlıq içində ona baxırdı. Andronik özünü topladı, oturanlara sərt nəzər saldı və üzünü Sumbata çevirdi:

– Bu adamlar kimdi, tanış et.

Sumbat Andronikə yaxın oturmuş iki orta yaşlı ermənini təqdim etdi:

– Bu iki nəfər şəhərin özündəndi. Nikolay Osipov və Simon Miramov. Bunlar Görusun ən zəngin adamlarıdı. Onlar ordunu ərzaqla təmin edəcəklər. Sol tərəfində oturan Samir Şahnəzərov Darabaş kəndindən, David Arşak, Matevos Maçuants Meğridən, Amazasp Xatanan, Sumbat Məlik –Stepanov Aznavurdan gəlib. Bunlar sizə çox lazımlı adamlardı, general. Onları mən xüsusi olaraq dəvət etmişəm.

Rus hərbi paltarında olan cavan erməni ayağa qalxdı, Andronikin qarşısında farağat vəziyyətində dayandı:

– Mən zabitəm, rus ordusunda xidmət eləmişəm. Adım Avanes Ter-Petrosovdu. Hazırda hərbi dəstənin komandiriyəm. Dəstədə 700 nəfər piyadamız, 400 nəfər süvarimiz var. Zəngəzuru müsəlmanlardan təmizləmək üçün onlar sizin əmrinizi gözləyir.

Andronik əlini zabitin çiyninə qoydu:

– Mən musurmanlara bir gün möhlət verdim: ya bu torpağı tərk etsinlər, ya da dinimizi qəbul edib erməni bayrağı altında...

Sumbat qeyzlə irəli yeridi:

– Onlar ölərlər, amma dinlərini dəyişməzlər. Bu adamlar inadkardı. Torpaqlarını da tərk etməyəcəklər. Bizimlə savaşa girəcəklər.

– Sultan bəyəmi arxayındılar? Bizim gizli kəşfiyyat Sultan bəyi məhv edəcək.

– Təkcə Sultan bəy deyil, general, Çal Aslan, Ağamməd, Fərzalı bəy, Seyid Həmid...

Andronik Sumbatın nə deyəcəyini daha eşitmədi. Ürəyinin içində birdən-birə tuğyan edən nifrət nədənsə ona yenə Qarabəkir paşanı xatırlatdı, rüsvayçılıqla Ərzurumdan qaçması yadına düşdü. Sanki içindəki zəhər bir az da qatılaşdı. Acısı Andronikin gözünün kökünə qədər çökdü. O, paşaya olan övkəsini zəngəzurlulardan çıxacaq. Böyük Ermənistan xəyallarının uçulub-dağılmayan bir parçası – sağ-salamat qalan Zəngəzuru qanla yuyacaq, öz zəfərini dağlara-daşlara həkk edəcək. Kazım Qarabəkir paşa onu Naxçıvana qədər izlədi. Amma bura Zəngəzura əli çatmayacaq...

Andronik astadan öskürdü, təmkinli görünməyə çalışdı, sanki üz-gözünə dağılmış zəhəri yenidən içinə yığdı və gülümsündü:

– Mən vətənsiz, torpaqsız millətimizin halına acıyıram, pərişan oluram. Mənim atam Tarası da həyatı boyu daşıdığı bu dərd öldürdü. Zəngəzurda bir müsəlman da qalmayacaq.

Ermənilər eyni anda ayağa qalxdı, yumruqlarını düyünləyib havaya qaldırdılar və eyni anda qışqırdılar:

– Zəngəzur bizimdi.

Andronik üzünü zabit Avanes Ter-Petrosova tutdu:

– Silahınız varmı?

– General, 2 dağ topu, 4 pulemyot, xeyli silah-sursatımız var. Amma böyük savaş üçün bunlar azdır.

– Ermənistan hökuməti bizi canlı qüvvə və silah-sursatla təmin edəcək. Qafanda mis mədənlərinin olduğu haqda məlumat veriblər.

Sumbat tələsik cavab verdi:

– Amma bu mədənlər Sultan bəyə məxsusdur, sanki bu anda qorxunc bir xəyalat Sumbatın boğazından yapışdı, var qüvvəsi ilə, gözləri hədəqəsindən çıxana qədər sıxdı, öskürdü, əlini boğazına atdı, dərindən rahatlıqla nəfəs alıb qorxu içində dedi:

– General, sizin Sultan bəyi tanımanız lazım. Sizin kəndlərdə qılıncdan keçirdiyiniz müsəlmanlardan birisi deyil. Siz düşmənin nəyə qadir olduğunu bilməlisiz...

– Andronikin qarşısında Sultan bəy kimdi? – Andronik iki əlli Sumbatın yaxasından yapışıb möhkəm silkələdi. Sumbatın çopur sifətinə xal-xal qızartı düşdü.

General onun yaxasını buraxdı, əlini əlinə vurub acığından, sinirindən ucadan güldü:

– Sultan bəy sizin gözünüzün odunu alıb, onu bir qəhrəman kimi göylərə qaldırmısız, Sumbat.

– Biz Qaragöl döyüşündə onu gördük, general. Bizimkilər nizami ordu ilə Qazi gölünü ala bilmədi. Təcrübəli Karo Hambarsumyanın əsgərləri o dağlarda məğlub oldu. Bizim arzularımız, xəyallarımız məhv oldu. Ordu üçün biz əlimizdən gələni etmişdik. Məğlubiyyət xəbərini eşidəndə ciyərimiz yandı, biz içimizdən vurulduq. Hələ də onun acısını və ağrısını yaşayırıq, general. Siz gəldiz – bu ümidlər təzədən dirçəldi. Zəngəzur ermənilləri sizdən torpaq gözləyir.

Andronik ona fikir vermədi, əllərini arxasında çarpazlayıb qəzəb içində otaqda gəzindi, sonra Sumbatın qarşısında dayandı, şəhadət barmağını Karonun üstünə silkələyirmiş kimi bağırdı:

– Karo bacarıqsız, fərsiz çıxdı, əsgərlərimizi güdaza verdi. Karo millətimizin düşmənidi. O, əfəlliyi ucbatından millətimizin gözündə Sultan bəyin qəhrəman obrazını yaratdı... əclaf, yaramaz, – Andronik birdən dayandı, əsgər çəkmələrini yerə döydü və bağırdı:

– Sultan bəyi hüzuruma istəyirəm.

"– Lap nağıllardakı kimi. Başıxarab, Sultan bəyi tutmaq belə asan olsaydı, bir ordunu bu dağlarda niyə güdaza verirdi, Karo Hambarsumyan?" – Sumbat hiddətini gizləməyə çalışdı və itaətkar halda, amma gizli kinayə ilə dedi:

– Baş üstə, general, çalışarıq... qısa zamanda...

***

Nelya gözü Karoda masanın üstündəki boş şərab şüşələrini

yığışdırdı. Qara gözləri, süzgün baxışları ilə süst, yorğun Karonu sanki ayıltmaq istədi. General keyfsiz idi. Otaqda kölgə kimi səssiz dolaşan Nelyaya baxmadan darıxmış kimi əlini yellədi və sərt səslə dedi:

– Otağı yığışdırma, sonra, sonra... çıx get...

Qız dəyişilmiş, sanki ruhu ölmüş Karonu heyrətlə süzdü və onun əsəblərinə toxunmağa qorxaraq çəkinə-çəkinə soruşdu:

– Bir tapşırığın varmı, Karo?

– Yox.

– Gün-günortadır, amma sən hələ də acsan...

– Rədd ol, baş-beynimi aparma.

Qız şaşqın halda, key-key Karonu süzdü, qapıdan çıxmaq istəyəndə, Karonun ürəyi yumşaldı, mülayim səslə dedi:

– Çay gətir, Nelya.

Nelya sevincək geri çəkildi, Karonun üzündəki həmişəki mərhəm təbəssümü görəndə, o anda içindəki inciklik yoxa çıxdı, əl-ayağa düşdü:

– Elə indicə gətirrəm, Karo. Yemək necə?

– Onu da gətir, Nelya.

Nelya özünü bayıra atdı. Karo onun arxasınca baxdı. Nədənsə birdən-birə kövrəldi. Yadına düşdü ki, kimsəyə bu qədər bağlanmayıb. İllərlə sinəsində ürək əvəzinə bir daş parçası gəzdirmişdi. Çünki nə vaxtsa kövrəldiyini, ağladığını xatırlamırdı. Son vaxtlar bu daş parçası əriməkdə idi... Bəlkə də ona görə ki, torpaq işğal etmək, qəhrəman olmaq sevdası-içində zəlzələyə uğramış kimi dağılırdı, onda bir inamsızlıq, əsgərlərin daha ona etimad etmədiyi anlamı onu alçaldırdı, mənliyini tapdalayırdı.

Nelya qaçaraq çay, yemək gətirdi, masanın üstünə düzdü və süzgün baxışları ilə sanki Karonun qapıldığı qaranlıq, soyuq aləmi isitmək istədi. Əlini onun əlinin üstə qoyub sığalladı, nəvazişlə çağırdı:

– Karo, Karocan...

Karodan səs çıxmadı. Nelya yerindən qalxdı, qollarını onun boynuna doladı, üzünü saqqallı sifətinə söykədi:

– Səni belə dalğın, məyus görmək istəmirəm, Karo. İçim yanır. Əsgərlər də səni belə görsələr silahı əllərində möhkəm tuta bilməzlər, musurmanlara məğlub olarlar, Karo. Sən dağ qartalları kimi məğrur, məğlubedilməz ol, Karo.

Karonu içində gülmək tutdu: “Qanadlarımı Sultan bəy qırdı. Mənim dağ qartalına oxşarlığımmı qaldı? Səfeh arvad...” .

– Nelya get... burdan.

– Amma sən çox qəmlisən?

– Başımı ağrıtma.

Nelyanın sifətindəki gülüşü elə bil ayaz vurdu. Nazik qaşları çatıldı və incimiş halda qapıdan çıxdı. Nelyanın gedişi ilə sanki otağın ağır havası təmizləndi. Pəncərədən görünən dağlara baxdı. Əngələvid bu dağların ətəyində, möcüzə kimi görünən yaşıllıq içindəydi. Əngələviddən o tərəfə irili-xırdalı çoxlu kəndlər vardı. Amma bura Karonun xoşuna gəlirdi. Qərargahını Əngələvidə köçürmüşdü...

Andronikin Sisyana gəlişi ilə sanki Əngələvidin də üzü döndü. Havasız, susuz, dar bir qəfəsə çevrildi. O, Zəngəzur ermənilərinə özünü bir qəhrəman kimi, onları müsəlmanların zülmündən qurtaran, torpaq və çörək verən xilaskar kimi təqdim etdi. O, sadə erməniləri ovsunladı, bunu bacardı... Karo əsəbi halda yerindən qalxdı, əlini divara çırpdı və başını qolunun üstə qoyub eləcə dayandı. Ona elə gəldi ki, bu anlarda Əngələvidə boz, qatı duman içində soyuq yağışlar yağır. Bu yağışlı havanın sıxıntısı içinə çökür, o bundan xilas olmaq istəyir...

Qərargahın qarşısında əsgərlər tüfənglərini çiyinlərinə aşırmış halda var-gəl edirdi. Karo onlara baxa-baxa əzab çəkirdi, utanc hissi onu tərk etmirdi, bu anlarda ölmüş əsgərlərinin ruhu sanki məğlub olmuş komandiri dar ayağına çəkib onu cəzalandırmaq istəyirdi...

Karo qəzəb içində Andronik ilə görüşünü xatırladı. O gün Gorus qatı duman içindəydi. İşıqlı dağı xəyal kimi görünürdü. Çiskin yağış yağırdı. Sumbatın həyəti bu yağışlı havada adamla

doluydu, üst-başları yağışda islanmış, ayaqqabıları yarıya qədər palçığa batmış bu adamlar heç yerə tərpənmədən inadla Andronikin onların qarşısına çıxmasını gözləyirdilər. Bu adamların təkcə gözləri diriydi və elə şövqlə yanırdı ki, Karo bir anlıq heyrət içində dayandı, düşündü. Bu adamlar da eynən onun kimiydi, İçlərindəki canavar iştahı bir-birinə oxşayırdı, sanki göylərdən yenmiş Andronik bir göz qırpımında Zəngəzuru müsəlmanlardan təmizləyəcək və onu ermənilərə təslim edəcəkdi. Karo başını bulayıb istehza ilə güldü: Andronik Sultan bəylə savaşa giribmi?

General onu Gorusun tutqun havası kimi qaşqabaqlı qarşıladı, könülsüz əl verdi və yer göstərdi. Səsində kinayə və istehza vardı:

– Sən Karosan.

– Bəli, general.

– Karo Hambarsumyan.

– Bəli, general.

– -Sən kimsən, mənim yanıma danışmaq üçün nümayəndə göndərirsən? Mən onu qəbul etmədim. Çünki sənin özünü görmək istəyirdim. Gözlərinin içinə baxmaq istəyirdim.

– Bağışlayın, general. Mən gələcəkdim...

Andronik yerindən qalxdı, Karonun qarşısında dayandı, şəhadət barmağını silkələdi:

– Mən Qaragöl yaylağını əsla müsəlmanlara güzəştə getməzdim.

Karo təmkinini pozmadı, Andronikin gözlərinin içinə baxdı və əsəbini oynatmış bu özündən razı, müştəbeh adama gizli bir eyhamla cavab verdi:

– Mən də general Ərzurumu Kazım Qarabəkir paşaya verməzdim, üstəlik paşanı elə Naxçıvandaca diz çökdürərdim.

– Bu meydan, bu şeytan.

– Meydan indi şeytanlarla doludur, general. Bizim onları ayırd etməmiz gərək.

Andronik daha danışmadı. Karonun eyhamı onun izzəti-nəfsinə toxundu və o, bu arıq cavan adama qarşı özündə dərin bir nifrət hiss etdi:

– Mənimlə görüşmək istəyirdin...

– Mən qüvvələrimizi birləşdirməyi təklif edirəm. İkimiz də eyni məqsədlə Zəngəzura gəlmişik və "Böyük Ermənistan" uğrunda savaş aparırıq.

– Ordun varmı? Əsgərlərin kifayət qədərdimi?

– Biz əsgərlərimizin çoxunu Qaragöl döyüşündə itirdik.

– Anladım, – Andronik ağ, uzun bığlarını tumarladı, – silah-sursat necə?

– Silah-sursat azdı, ərzaqdan isə korluq çəkirik. Müsəlman kəndlərinə hücum etməyi düşünürük.

– Mən öz əsgərlərimi ərzaqla zorla təmin edirəm, Karo. Biz hələ savaşa başlamamışıq, təbii ki, kəndləri talan etmədiyimizə görə ərzaq da yoxdur.

– Biz ikimiz də Ermənistan daşnak hökumətinin əsgəriyik, general, – Karonun səsində bir yalvarış duyuldu.

– Mən isə müstəqiləm. Ermənistanı tanımıram. Anladınmı?

Karo üzünü pəncərəyə çevirdi. Aşağıda səs-küy artmışdı. Bir sürü qoyunu həyətə doldururdular. Andronik Karoya baxıb qımışdı və yenidən üzünü çevirdi.

Karo daha Gorusda dayanmadı. Atları mindilər və həmin gecə Əngələvidə qayıtdılar...

... Karo soyumuş çayı başına çəkdi, süfrəyə məhəl qoymadan masanın arxasına keçdi. Erməni milli şurasına məktub yazmağa başladı:

"YEREVAN CƏNAB ERMƏNİ MİLLİ ŞURA SƏDRİNƏ

Bu məktubumla sizin nəzərinizə iki mühüm məsələni çatdırmaq istəyirəm. Birincisi, bolşeviklərin hər yerdə olduğu kimi, burda da əleyhimizə getməsinə, açıqdan-açığa bizə qarşı mübarizə etmələrinə baxmayaraq əsgər yığmaqda davam edirəm. Kəndlilər milli qoşun hissələrinin əhəmiyyətini başa

düşmədiklərindən, daha doğrusu, kommunistlərin təbliğatına uyduqlarından hərbi xidmətdən boyun qaçırırlar. Zor işlətməyə, onlara hədə-qorxu gəlməyə məcbur oluram. Topladığım və toplayacağım əsgərlərin silahını, geyimini və yeməyini hardan alacağım barədə sizdən sərəncam gözləyirəm.

İkincisi, bu yaxınlarda Gorusa Andronik Ozanyan adlı general gəlmişdir. Özünü Zəngəzurun hakimi adlandıran bu adamın deyilənlərə görə iki minə yaxın piyada və süvari əsgəri, bir qədər tüfəngi və üç topu vardır. Mən onunla görüşüb danışdım. Ermənistan hokumətinə tabe olmaq istəmir. Heç bir firqəyə mənsub olmayan bu generalın bolşeviklərlə də arası yoxdur.

Cənab sədrin bu general haqqında geniş təsəvvürü olması üçün məlumatı bir qədər ətraflı yazmağı özümə borc bilirəm.

Andronik Türkiyədə anadan olmuşdur. Türkiyə ordusunda zabit rütbəsində xidmət etmişdir. Eyni zamanda ingilislərin xəfiyyəsi kimi türklərin əleyhinə gizli təbliğat aparmağa başlamışdır. Türklər onu həbs etmişlər. Lakin həbsdən qaçıb gizlənmişdir. Cahan müharibəsi başlanandan sonra fəaliyyətini daha da artıraraq özünü bir millətçi kimi qələmə vermişdir. Başına bir dəstə erməni toplayıb türklərə qarşı çıxışlar etmiş, iğtişaşlar törətmişdir.

Türklər 1915-ci ildə erməniləri qırıb məhv etdikləri zaman bu adam öz dəstəsiylə çar ordusunun tərəfinə keçmiş və türklərə qarşı vuruşmuşdur. Generallıq rütbəsini də bu zaman almışdır. Çar orduları Qafqaz cəbhəsindən geri çəkildiyi zaman Andronik də geri çəkilmişdir. Rusiya fəhlə-kəndli inqilabına mənfi əlaqə bəslədiyindən, daha doğrusu, qorxduğundan, Rusiyaya getməyib, üzünü İrana çevirmişdir. İrana getməklə bir məqsədi də ingilislərlə birləşmək olmuşdur. Lakin türklər Xoy və Səlmas tərəfində onun yolunu kəsdiyindən istiqamətini dəyişib Arazdan keçib Naxçıvana gəlməyə məcbur olmuşdur. Nehrəm kəndində əsgərlər üçün ərzaq, atlar üçün isə yem tələb etmişdir. Əsgərlərini, onun tələbini yerinə yetirməyən əhalinin üstünə si-

lah qaldırmışdır. Hər iki tərəfdən ölən və yaralananlar olmuşdur. Türklərin Şahtaxtıya gəldiyini və tezliklə Naxçıvana çatacaqlarını bilib dəstəsini Nehrəmdən çəkmişdir. Culfadan, Aza və Dəstə kəndlərindən keçib Meğriyə, ordan isə Gorusa gəlmişdir.

Andronik neçə vaxtdır ki, Gorusu özünə iqamətgah edib, nüfuzunu ətraf kəndlərə yaymağa başlamışdır. Bir diktator kimi kəndlərdən ərzaq, o cümlədən saman, arpa yığır, onsuz da yoxsul yaşayan əhalini soyur. Kəndlilər buna etiraz edirlər. Andronikin Gorusa gəldiyini eşidib bilən Qərbi Ermənistan qaçqınları onun yanına gedib torpaq və çörək istəmişlər. Andronik onların arzusunu yerinə yetirəcəyini vəd etmişdir.

İngilislərə və amerikalılara arxalanan, onların köməyinə ümid bəsləyən Andronik ermənilərə millətçilik və başqa xalqlara qarşı intiqam hissi aşılamaqda bizim məqsəd və ideyamıza yaxınlaşır. Lakin Ermənistan hökumətinə tabe olmamaqda bizim üçün zərərli və bəlkə də təhlükəlidir.

Hörmətlə: Karo Hambarsumyan,
Əngələvid, iyun 1918-ci il."

Karo məktubu qatlayıb götürdü və dərindən nəfəs aldı, yüngülləşmiş kimi oldu.

**3.**

Andronik soyqırıma Uruddan başladı. Gecə aylı-ulduzlu qara yaylığını sanki kəndin üzərindən çəkdi, torpaq gün işığında elə bil ovcunu açıb tökülən qanları Tanrıya göstərdi.

... Sənəm körpəni kürəyinə şəllədi, axırıncı dəfə evinə göz gəzdirdi. On altı yaşlı Ayna ağlayırdı:

– Tez ol, camaat getdi, ermənilər bizi baltalayacaq.

Sənəm birdən ayaq saxladı, qızının qolundan tutub özünə çəkdi, – Aynanın gözəl üzü Sənəmi qorxutdu, – qızı təndirəsərə saldı, ocaq külündən götürüb üst-başına tökdü, əllərini üzünə çəkdi, nimdaş, bozarmış yaylığı başına bağladı, – bu gözəlliyin başına bəla olmasın, – dedi.

Ermənilərin baltasından, qılıncından xilas olanlar yamaclardan yuxarı, daşlı-tikanlı yollarla dağlara sarı qaçırdı. Daşlar Aynanın yalın ayaqlarını parçaladı, qan şorazlandı. Arxada Urudun evləri od tutub yanırdı. Qalın tüstü burumları da sanki onların arxasınca gəlirdi, qapqara bulud kimi də axıb gedirdi.

Sənəmin kürəyinə atdığı körpə vahimələnib qəflətən qışqırmağa başladı. Adamlar ayaq saxladılar. Qorxu, dəhşət içində Sənəmə baxdılar: indicə ermənilər səs eşidib əli baltalı onların arxasınca gələcək... Ayna da özünü itirdi və yaralı ayaqlarını tikanlığa basdı. Sanki ürəyinə neştər soxdular. Ağrı gözlərinin içinə qədər yayıldı. Sənəm dabanlarına batmış tikanları çıxarıb, özünü qızına yetirdi, qollarından tutub ayağa qaldırmağa çalışdı:

– Ermənilər uzaqdadı. Qalx ayağa.

– Gedə bilmirəm, siz qaçın qurtarın.

– Az qalıb, Ayna, ağrıya döz.

– Görəsən atam bildi ki, Urud düşmən əlindədi?

– Sürü otardığı yerdən mütləq Urudun başı üstündəki tüstü-dumanı görəcək.

– Kaş kəndə qayıtmayaydı.

– Allaha təvəkkül.

Ayna anasının qolundan tutub çətinliklə qalxdı. Bu anda Urudun yamaclarında at nallarının səsi gəldi. Geriyə çevrilib süvariləri görən adamlar donub qaldı, ağlaşma-şivən qalxdı. Donu açılmış adamlar yenidən üzüyuxarı, dağlara sarı qaçmağa cəhd elədilər. Amma ayaqları cidarlanmış kimiydi. Qaça bilmir, dizləri üstə sürünürdülər. Süvarilərin başlarının üstə qaldırdıqları baltaların tiyəsi gün işığında parıldadı. Ermənilər sanki ordu üzərinə hücuma keçdilər.

Baltalar sürətlə işlədi. Fəryad səsləri yamaclara yanğın kimi yayıldı. Atlılardan biri-övkəli görünən erməni var qüvvəsi ilə bağırdı:

– Əlimizdən hara qaçırsız?

Balta yuxarı qalxdı, Ayna körpəsi qucağında yıxılan anasını

gördü. Anasının fəryadı kəsildi. Təkcə körpə qışqırırdı. Onun da səsi kəsildi.

Ayna əlində qanlı balta dayanmış ermənini lap yaxınında gördü. Saqqallı, papağını gözünün üstə basmış, sifətində qorxunc bir ifadə olan cavan süvari atdan düşdü və Aynanın qarşısında dayandı. Qızın çənəsindən tutub yuxarı qaldırdı. Diqqətlə baxdı. İkrahedici baxışlar sanki yüz yerdən tikan kimi, zəhərli neştər kimi Aynanın gözünə sancıldı. Ona elə gəldi ki, qarşısında durub arsız-arsız gülümsəyən, qəhrəmanlıq etmiş kimi qürrələnən bu adamın gözlərinin içindən ölüm gətirən, yeri-göyü yandıran alov püskürür.

Yamaclarda artıq fəryad səsləri kəsilmişdi. Külək -yerə üzüqoylu düşmüş, paralanmış adamların paltarlarını oynadır, get-gedə güclənərək boranın, çovğunun nəfəsini gətirirdi.

Ermənilər sağ saxladıqları Aynanın başına toplaşdılar. Kimi əlini onun sifətinə çəkir, kimi saçını tumarlayır, kimi də qolundan yapışırdı. Yaşlı kişi başını tərpədib heyrətlə dedi:

– Gözəlliyə bax, tamaşa elə. Bu çiçəyi niyə əvvəldən görə bilmədik?

Qısaboy erməni qan süzən xəncərini torpaqla təmizləyə-təmizləyə:

– Əlimizdən qurtara bilmədi bu dağlar gözəli.

Hovanes yaşlı kişini sinəsindən vurub geri itələdi:

– Çəkilin kənara.

– Bu qız yoxsa sənə aiddi? – yaşlı kişi əlini tüfənginə atdı.

– Mən onu generala hədiyyə aparıram. Elə bilirəm ki, Andronik paşa xəyanətkar adamları xoşlamır.

– Əgər ortada Andronik varsa... bağışla.

Yaşlı kişi atın yüyənindən tutub övkəli halda dedi:

– Biz işimizi qurtardıq. Urudda bircə bu qız salamat qaldı, Ovanes.

Ovanes qaşqabaqlı halda soruşdu:

– Qızıllar kimdədi?

– Qızıl işinə Vahram baxır.

– Bu axşam keyf məclisidi. Bu qız Andronikin xoşuna gələcək. Dağlarda bu cür gözəl? Ağlıma gəlməzdi.

– Sənə dedim qızdan gözünü çək.

– Akpercan, amma bu qızın ayaqları gör nə gündədi? Yeriyə bilməyəcək.

Ovanes hirsləndi:

– Dedim sənə qızdan əl çək. Elə hamınız. Mən onu atla aparacam. Əvəzində Andronik məni mükafatlandıracaq, – Ovanes hırıldadı və qızın qolundan tutaraq ata sarı çəkdi. Qız onun əlini nifrətlə geri itələdi. Özünə də təəccüblü gələn səbrlə anasının nəşi yanında diz üstə oturdu, küləyin oynatdığı pərişan saçlarını tumarladı, yaylığının altına yığdı, üzünü qan çilənmiş üzünə söykədi, qardaşını bağrına basdı. Bu dəfə üzündə, gözlərində qorxu, vahimə deyilən heç nə yox idi. Sonra Uruda tərəf boylandı. Bu anlarda yanan, zəbanə çəkən kənd evlərinə gözləri, baxışları ilə son vidasını göndərdi.

Ovanes onu gözləyirdi. Ayna dinib-danışmadan atın belinə qalxdı. Sonra Ovanes atlanıb qızın tərkində oturdu və qızı qucağına sıxdı. Ovanes cilovu çəkdi, ayaqlarını atın böyürlərinə vurdu. At ayaqlarını yerə möhkəm vurub çaparaq irəli getdi. Qıza elə gəldi ki, güclü külək paltarının ətəklərindən yapışdı, geriyə çəkdi. Aynanın daşlaşmış ürəyində sanki hər şey ölmüşdü, içinə dərin bir məzar sükutu çökmüşdü. Bu qəbristanlıqda hamı vardı: atası, anası, körpə qardaşı, evləri, həyətləri və bağrı yanan Urud.... bir də sevdiyi Həzrət... Barmağındakı nazik, yaşıl qaşlı üzüyə baxdı. Həzrət bu üzüyü ona gizlicə vermişdi.

Erməni süvarilər irəlidə gedirdi. Ovanes təmiz Azərbaycan dilində soruşdu:

– Qız, adın nədi?

– Adım? Müsəlman.

– Andronik ürəyiyumşaq adamdı. O sizinkilərə dedi axı, ya xristian dinini qəbul edin, ya da çıxıb gedin.

–...

– Biz məcbur qaldıq. Məcbur onları öldürdük.

– ...

– Andronik həkim çağırar, yaralarını sarıyar.

–...

– Dağların o üzü bizim kəndlərdi.

– O kəndlər də bizimdi.

– Dilin açıldı ki.

İrəlidə dərə-təpələrdən sonra uçurumlar, qayalıqlar göründü. Ayna qəflətən geri çevrildi, silahı Ovanesin cibindən çəkdi, dirsəyi ilə onu itələyib aşağı saldı. Sonra çevikliklə geriyə baxdı. Ovanesin atdan düşdüyünü görən erməni dığası atına bir qamçı vurdu və qıza çatmağa tələsdi. Ayna gözünü qıyıb dığanı nişan aldı. Sonra əli baltalı yaşlı kişini, üçüncüsünü atdan saldı. Acıqlanmış ermənilər atlarını möhkəm çaparaq ona çatmağa çalışdılar. Ayna da atın sürətini artırdı. Arxasında toz-dumana qarışdı. Ayna uçurumun yanına çatdı. Ermənilər yetişməkdəydi. Qız dərindən nəfəs aldı. Bu anda sanki göylərdən yenmiş mələk qollarını açaraq onu götürdü və atla bərabər uçurumun dibinə apardı...

***

Günortanın istisi xəfif əsən mehdən soyudu. Günəş Məzməzə kəndinin başı üstündən yavaş-yavaş dağlara sarı çəkildi.

Zülfünaz Hilalın dünən axşam tərəfi dağlardan yığıb gətirdiyi xıncılovuzu artladı, sonra süzgəcə yığıb həyətdən bir az aralıda daş nova tökülən bulaq suyunda tərtəmiz yudu, ocağın üstündə suyu qaynayan qazana tökdü. Həbiblə Gülşən ocağın qırağında oturub gözlərini qaynayan qazana dikdilər. Ac olduqları gözlərindən bəlliydi. Pencərin iştah açan qoxusunu çəkdikcə ağızları sulanır, tez-tez dodaqlarını isladır, amma gizli bir qorxu içində kəndin girəcəyindəki yollara baxırdılar. Hələ ki, bu yollarda sakitlik idi, ermənilər sanki Məzməzəyi yaddan çıxarmışdılar.

Hilal qonşu kəndlərə buğda, un dalınca gedə bilmirdi. Unluqdakı un silinib süpürülmüş, axırıncı çörək bişirilmişdi. Dünən Hilal bir xurcun xıncılovuz gətirəndə uşaqların sanki aclıqdan ölüşgəyən gözlərində işıq yanmışdı.

Zülfünaz axır ki, qazanı ocaqdan götürüb xıncılovuzu süzgəcə boşaltdı, azca duz səpdi, qablara çəkib sevincərək uşaqların qarşısına qoydu.

Hilal kasadakı qatığı ortaya çəkdi.

Zülfünaz hisdən qaralmış çaydanı bulaqdan doldurdu və ocağın üstə qoydu:

– Çoxdandı bir ovuc kişmiş gizlətmişəm. Çay içərik.

Hilal sevindi:

– Doğrudan? Vallah, sənin bu evdarlığına vurğunam da, Zülfünaz.

– Neyniyim, deyirəm, hərdən bir uşaqları sevindirim.

– Gətir görüm.

– Gətir, – Həbib də əllərini bir-birinə sürtüb sevindi. Onsuz da xıncılovuz qaynardı. Gətir kişmişi, birini atım ağzıma.

Zülfünaz içəri keçdi. Gülşən torpaq döşəməyə sü səpdiyindən içəridə tünd torpaq iyi gəlirdi. Divarda taxçanın birinə neft lampası qoymuşdu. O birində yaşıl üzlü qalın "Quran" kitabı, canamaz və səliqə ilə bükülmüş çadra vardı. Kişmiş düyünçəsini tapa bilmədi.

Otağın baş tərəfində yorğan-döşək yığılmış naxışlı məfrəci qaldırdı. Alt döşəklərin arasında əlinə nə isə dəydi və sevincək götürdü. Düyünçəni açdı: qırmızı qaşlı nişan üzüyüydü, bir də ağır çəkili qızıl sinəbənd. Bu sinəbənd qədim zərgərlərin əl işiydi. Zülfünaza qaynanasından yadigar qalmışdı. Nəsildən nəslə keçən bu qiymətli yadigarın sahibi olan Zülfünaz yəqin ki, yüzillik bir ənənəyə sadiq qalaraq onu öz gəlininə verəcəkdi.

Hilal otağa girdi, təəccüblə arvadına baxdı:

– Mən də elə bilirəm kişmiş axtarırsan?

– Bax gör mənə yaraşır?

– Niyə yaraşmır? Amma sən onu heç taxmadın ki, Zülfünaz?

– Nə bilim, qıymadım, dedim qalsın Həbibə, – birdən qorxu içində qızılı tez sinəsindən götürdü, ovcunun içinə yığdı, – ermənilər gəlsələr bunu tapacaqlar.

Hilalın qorxudan üzündəki damar atdı:

– Onu harda gizlədə bilərsən ki, Zülfünaz?

– Biz kasıb yaşadıq, Hilal, amma mən bu qızılı satmadım, çünki ulu nənəmizin ruhu bizdən incik düşərdi.

– Bəs indi onu harda gizlədək?

– Tövlədə. Gəl bəri. Ermənin ağlına da qəlməz ki, tövlədə qiymətli qızıl var.

– Uşaqlar bizi gözləyir.

– Yox, gəl qızılları gizlədək, uşaqlar da bilməsin.

Tövlənin küncündə yer qazıb düyünçəni basdırdılar. Üstünə qalaq-qalaq təzək yığdılar.

Süfrəyə oturanda Həbib iştahla dedi:

– Kaş lavaş olaydı, özü də təndirdən təzə çıxmış, pencəri arasına qoyub...

– Oğlum, buna da şükür elə.

Bu anda başlarının üstündən keçən güllə taxta qapıya dəydi və güllənin arxasınca əli tüfəngli ermənilər həyətə doluşdu. Dördü otağa girdi, biri dəstədən ayrıldı, Hilalgilə tərəf gəldi. Tüfəngi çiyninə aşırıb pırpız qaşlarının altından zorla seçilən və işıq saçan gözlərini Hilala dikdi:

– Xınçılovuzu hardan yığmısan?

Həbiblə Gülşən qorxu, vahimə içində analarına sığındılar. İkisi də şaxtaya düşmüş kimi titrəyirdi. Iri gözlərində yaş donub qalmışdı. Sanki yaş da qorxunun şiddətindən gözlərinin içində titrəyirdi.

Həbibin saqqalı ermənin üzünə dikilmiş baxışları sanki birdən isindi:

– Ata, bu ki, Muraddı. Tanımadın?...

Qorxunun əsir aldığı Hilal diqqətlə Muradın üzünə baxdı.

Əlinin arxası ilə alnında buzlaşmış təri sildi və sevinclə dedi:

– Ayrapetin oğlu... Gör ey, mən niyə səni tanımadım? Bu qədər havayı yerə qorxu keçirdik.

Hilal qalxmaq istədi. Murad ağır əlini onun çiyninə qoydu və aşağı oturtdu. Həbib daha aclığa tab gətirə bilmədi, qabdakı xıncılovuzu ovuclayıb ağzına basdı.

Hilal ürəkləndi, amma yenə qorxudan Muradın üzünə baxmamağa çalışaraq dedi:

– Ayrapet yaxşı adamdı. Onunla duz-çörək kəsmişik. Sağdırmı?

– Ayrapet məni göndərdi ki, sizin keyfinizi xəbər alım.

Hilal bir gözü qapıda, qorxunun əsir aldığı, vahimənin şiddətindən çırpıntısı hiss olunmayan ürəyində əsə-əsə, saf bir sadəlövhlüklə dedi:

– Allah razı olsun.

– Amma Allah razı olmadı, biz bu qapıya gəldik. Ermənilər bütün Məzməzəyin müsəlmanlarını meydana sürüyürlər. Amma mən Stepanı da götürüb buraya gəldim. Stepan bilirsən kimdi? Andronikin ən yaxın adamı... Sağ olmasa da, sol əli... Ən qəddar, qaniçən daşnak... Mən sizi Ayrapetin xatirinə onun baltasından qurtararam. Amma..., – Muradın dişi tökülmüş ağzı quyu kimi açıldı, hırıldadı, – üzünü Zülfünaza tutdu, – mən bir toyda səni gördüm. Sinəbənd taxmışdın. Toyda hamının gözü bu sinəbənddəydi. Mən onu indiyədək yadımda saxladım. Onu gətir. Mən Stepandan sizi qoruyum, elə indi buraxım dağlara qaçın. Həyatınız qiymətlidi, yoxsa sinəbənd?

Zülfünaz Hilala gözünü ağartdı:

– Biz kasıb adamlarıq. Gör onu neçə illərdi satmışıq. Bir tacir çıxdı, yaxşı pul verdi, biz də satdıq.

Muradın pırpız qaşları düyünləndi, gözlərinin zorla seçilən parıltısına sanki qaranlıq çökdü, təpiyi ilə vurub qablardakı pencəri dağıtdı, torpaqda eşdi, sonra da çəkməsinin burnu ilə bir yerə topaladı və Zülfünüza tərəf dönüb hökmlə dedi:

– Təzədən qablara çək, yeyin acsınız. Tez olun.

Hilal ayağa qalxmaq istədi. Murad kəmərinə sancdığı baltanı çəkdi, havada oynatdı, qəfildən Hilalın çiyninə sapladı. Qolundan aşağı qan şorazlandı və torpaqla bir olmuş pencərin üstünə axdı.

– Yeyin. Kim yeməsə baltalayacam.

Uşaqlar bağırdılar. Bu anda içəridə sınıb dağılan qab-qacağın səsi gəldi. Murad bir anlıq əl saxladı: "Stepan qızılı tapacaq".

Baltanı qanlı-qanlı kəmərinə taxtdı və qışqırdı:

– Mən qayıdana qədər yeyin. Elə qanlı-qanlı...

Hilal əli ilə yaralanmış çiynini tutmuşdu. Barmaqlarının arasından süzən qan köynəyini islatdı. Zülfünaz özünü itirmədən cəld ayağa qalxdı:

– Uşaqlar, bu çaqqallar evdən çıxana qədər qaçıb canımızı qurtaraq.

– Bizi tutarlar...

– Siz qaçın, mən atanızı gətirirəm.

,..Yamacda ən axırıncı ev Hilalın idi. Evin sol tərəfində yamacın aşağısında sıx meşəlik uzanırdı. Meşəliyə çatanda həyətlərindən güllə səsləri gəldi, ermənilər onları axtarırdı. Az keçmədi ki, yanan evlərindən meşəliyə tərəf tüstü layları axmağa başladı. Kəndin üstündə sanki buluda oxşar tüstü layları getdikcə sıxlaşırdı. Tüstünün altında alov layları görünürdü... Hilalla Zülfünazın gözlərindən səssiz-səmirsiz yaş axırdı...

***

Şahsuvar bəy atdan düşüb yüyəni mehtərə verdi və içəri keçdi. Gecəyarı olsa da kimsə yatmamışdı. Qızı Arəstə yüyürüb atasının dizlərini qucaqladı, dodağını büzüb ağlamsındı:

– Neçə gündü, gözüm yoldadı, gəlib çıxmaq bilmirsən.

Şahsuvar bəy qızını qucağına götürüb öpdü, bağrına basdı:

– Mən də sizdən ötəri darıxmışdım, – dedi, sonra da üzünü arvadına tutdu: – məndən nigaran qalmayın.

– Necə narahat olmayaq, Şahsuvar bəy, hər tərəf Andronikin quldur dəstəsi...

– Ermənilər mənə yaxın düşəmməz.

– Niyə sən sehribazssan, ağa? – Arəstə heyrətlə atasına baxdı, gözləri böyüdü, – əgər sehirbazsansa bir dəfə üfür, ermənilərin hamısı yoxa çıxsın, hamısı yanıb kül olsun.

– Yanıb kül olsalar torpağımız murdarlanar. Biz gərək onları qovaq, Zəngəzurdan təmizləyək.

– Hə, ona görə üfürmürsən?

Şahsuvar bəylə xanımı güldülər:

– Kaş ki, elə bir qüdrətim olaydı, qızım.

Şahsuvar bəy ac olsa da açılan süfrəyə əl uzatmadı. Yuxusu da qeybə çəkildi. Günlərlə at belindən düşmədiyindən indi dizləri ağrıyırdı. Ermənilərlə döyüşə adam toplayırdılar. Sultan bəyin Türkiyədən çağırdığı türk zabitləri əli silah tuta bilməyənlərə təlim keçirdi...

Şahsuvar bəy çevrilib üzüüstə yatdı, yenə hövsələsi çatmadı. Yuxusuzluqdan gözləri acışsa da yuxusu yoxa çıxmışdı. Bu anlarda fikri, xəyalı keçmişə qayıtdı. Çünki keçmişdə analı - atalı dünyasında bir sakitlik, rahatlıq vardı. Orda at belindən düşməyən, qılınc oynadan boylu-buxunlu, yaraşıqlı bir dəliqanlı vardı. Bəy uşaqlarına məxsus son dəbdə geyinən Şahsuvar kənd qızlarının heyran baxışlarına, gizli sevdalarına tuş gələrdi. Qızlar kəlağayını dodağının üstə çəkib, onun arxasınca baxaraq köks ötürərdilər: "Görəsən bu dəliqanlı kimin qəlbini çalacaq?"

Atın yalmanına yatmış Şahsuvar bəy sanki küləkdən də iti gedərdi və savaşlardan qalib çıxmış cəngavərlərə bənzərdi...

Atası Həzrətqulu bəy Şuşa qəzasının Xocamsaxlı kəndinin sayılan-seçilən adamlarından biriydi. Ətraf kəndlərdə də böyük nüfuz sahibi olan Həzrətqulu bəy oğlunun gələcəyinə böyük ümidlər bəsləyirdi. Bu ümidlərin ən başlıcası ondan ibarət idi ki, oxusun, savadlansın.

Şahsuvar da ilk təhsilini kənddəki mollaların dərs dediyi

mədrəsədə aldı. Lakin mədrəsə dindən başqa ayrı təhsil vermirdi. Daha irəli getmək, zamanla ayaqlaşmaq, biliklərə yiyələnmək vacib idi. Həzrətqulu bəy də oğlunu Yelizavetpola (Gəncə) klassik gimnaziyada təhsilni davam etdirməyə göndərdi. Lakin burada təhsil almaq da son hədd deyildi. Arzu, həvəs gənc Şahsuvar bəyi Kiyevdəki Müqəddəs Vladimir Universitetinə çəkib apardı. İmtahanları verdi və hüquq fakultəsinə qəbul olundu.

Həzrətqulu bəy oğlu ilə öyünürdü. Çünki o illərdə Şuşa qəzasında Rusiyada təhsil alan Şahsuvar kimi gənclər barmaqla sayılacaq qədər az idi.

Həyətdə səs-küy gəldi. At nallarının səsi eşidildi. Şahsuvar bəy yerindən qalxdı, əlini silahın tətiyinə qoyub ucadan soruşdu:

– Kimsiniz?

Atlılardan biri atını irəli sürdü:

– Şahsuvar bəy, vəziyyət pisdi, sizə xəbər verməyə gəldik, - kişinin səsi titrəyib qırıldı.

– Ermənilər hücum eləyib?

Başqa bir atlı həyəcanla dedi:

– Andronikin yaxın adamı Stepan adlı quldur öz dəstəsi ilə kəndlərə hücum edib. Bir adam da onların gülləsindən, baltasından qurtara bilmir.

Şahsuvar bəyin əsəbdən qan başına vurdu, silah tutan əlləri əsdi:

– Gözləyin gəlirəm, – dedi və içəri keçdi.

Tüfəngini götürdü, qızının yataq otağına keçdi. Arəstə yorğanı üstündən atmışdı. Üşüdüyündən ayaqlarını yığaraq küncə qısılmışdı. Şahsuvar bəy yorğanı qızının üstünə çəkdi, lampanın zəif işığında bir xeyli üzünə tamaşa elədi, əyilib saçlarından öpdü. Həmişə ayıq yatan arvadı indi də ayaqüstəydi:

– Niyə qalxdın, Şahsuvar?

– Mən gedirəm. Uşaqdan muğayat ol.

– Allah amanında, bəy, – qadının gözlərində şüşə kimi parıldayan yaş göründü.

– Çalışıb tez qayıdacam. Məndən nigaran qalmayın.

Şahsuvar bəy qapıdan çıxdı və onu gözləyən adamlardan soruşdu:

– Stepanın yerini bilirsiz?

– Bilirik, bəy.

– Getdik.

– Kəndin aşağısında xeyli adam bizi gözləyir.

– Hamının silahı varmı?

– Var. İnşallah ermənilərdən də qənimət götürərik.

Şahsuvar bəy qımışdı.

... Kənd evləri hələ də korun-korun yanan ocağa bənzəyirdi. Qara buludlardan aşağıda his iyi verən qapqara tüstü layları kəndin başı üstündə dayanmışdı. Hələ də kənd içindən fəryad səsləri gəlirdi və bu fəryad səsləri soyumuş qəlpələr kimi hər tərəfə yağırdı.

Stepan salamat qalmış evin qarşısında atdan düşdü, gur bulaq suyunda əl-üzünə su çırpdı, hərbi paltarının qollarını dursəyinə qədər çırmayıb buz kimi suyun altına tutdu, canına xoş bir rahatlıq yayıldı. Balta vurmaqdan ağrıyan qollarının yorğunluğu səngidi. Əllərini belinə vurub yamacdan aşağı baxdı: kənd evlərinin sanki ürəyinin içindən alov qarışıq hələ də tüstü qalxırdı. Elə bil evlər arxasını ona çevirib kin və nifrətini içində saxlamayaraq qara tüstü kimi onun başına tökürdü.

Nazar Stepanın yubandığını görüb həyətə çıxdı və ucadan səsləndi:

– Uşaqlar səni gözləyir.

– Gəldim, – Stepan içəri keçdi və masanın baş tərəfində oturdu. Onun saqqallı sifətində özündən razı, müştəbeh bir təbəssüm vardı. Gözlərinin rəngini ayırd etmək çətindi, sanki tünd göyün üstündən açıq-aydın seçilən qırmızı rəng çəkilmişdi. Sifətinə yapışmış kimi görünən əyri burnu qartal burnu kimi nazik, göyümtül dodaqlarının üstünə əcaib bir şəkildə uzanmışdı. Nazik sarı bığları az qala yanağının yarısını örtən və çənəsi-

ni gizlədən saqqalına qarışmışdı. Barmaqları əyri olan iri əli ilə şərab dolu stəkanı yuxarı qaldırdı, gözucu yamacdan aşağı aydın görünən yanmış evlərə baxdı və fateh ədası ilə ucadan bağırdı:

– Qələbəmiz şərəfinə.

Ermənilər də həmin anda ayağa qalxdılar. Stəkanları bir-birinə vurdular və bağırdılar:

– Yaşasın Andronik paşa.

Stəkanlar eyni anda boşaldı. Stepan duzlu xiyardan bir dişdək aldı, gözləri yaşarmış halda dedi:

– Düzdü, Andronik paşa yaşasın, etirazım yoxdu, bəs biz burda nakərəyik? Bəlkə biz kəndləri təmizləməklə millətimizə qulluq eləmirik?

İkinci badədən sonra sərxoş olan Nazar yumruğunu masaya çırpdı, boş şüşələr bir-birinə dəydi, masadan aşağı diyirlənərək döşəməyə düşdü, şüşə qırıntıları ətrafa səpələndi:

– Yaşasın bizim şanlı qəhrəmanımız Stepan!

– Bəli, o qəhrəmandır, – başqa birisi də ayağa qalxdı və şərab qoxuyan nəfəsi Stepanın üzünə vurdu, – mən onun müsəlmanları necə ustalıqla ovçu kimi ovladığının şahidi oldum. O, müstəsna qəhrəmandır. Mən özüm bu barədə generala məlumat verəcəyəm.

Ermənilərin səs-küyü otağı başına götürdü. Ağız deyəni qulaq eşitmədi. Stepan onların gözündən yayınıb otağına keçdi. Dəmir çarpayının üstünə salınmış döşəyin içindən iki düyünçə çıxardı. Ağır düyünçəni kənara qoydu. Bu onun özününkü idi. O birini isə Andronikə verəcəkdi.

Bir həftə əvvəl Gorusda görüşdülər, dəstə üzvləri getdi, o, isə Androniklə ikilikdə qaldı. General şəhadət barmağını onun üstünə silkələyərək hədə ilə dedi:

– Stepan, mən dələduz adamları sevmirəm. Müsəlmanlardan qarət edəcəyin qızıllara haram qatma. Yoxsa səni cəzalandıraram. Bunu bil.

Stepanın bir anda sifətinin ifadəsi dəyişdi və o, qorxu içində soruşdu:

– General, siz mənə inanmırsız?

– -Sözümü dedim.

– Oldu, general.

Stepanın dodağı qaçdı: “General məni axmaq sayır. Bəs mənim payım? Balta vurmaqdan qollarım ağrıyır... Axmaq sən özünsən, general. Hələ irəlidə neçə kənd var. Amma ermənilər bu ətrafda olan Şahsuvar bəyin adını çəkirlər... Bizim isə qorxumuz Sultan bəydəndi. Hələlik o, uzaqdadı. Biz özümüzü Şahsuvar bəydən gözləməliyik. Bir-iki nəfəri onun arxasınca göndərim. Yatdığı yerdə aradan götürsünlər. Hərəsinə də bir ovuc qızıl verim... Bəs öz qızıllarımı harda gizlədim? Ən yaxşısı xurcunun gözündə. Xurcun daim mənim çiynimdə olacaq. Bir gözündə balta, silah, bir gözündə qızıl... Bəlkə bundan sonra döyüşə davam eləməyim? Qızılları götürüb aradan çıxım... Ölənə qədər bəsimdi...”

Nazar qapını döydü:

– Səni gözləyirik, komandir.

– Gəldim, – qızıl düyünçələrini xurcunun gözünə basdı.

Stepanın şərab içmək həvəsi qaçdı. Pəncərəni açıb təmiz havanı uddu, bu anda ağacın altında kəndirlə bir-birinə sarınmış qızları gördü. Pərişan saçları üz-gözlərinə tökülmüşdü:

– Nazar, onlara heç olmasa quru çörək verin.

Nazar saqqalını tumarladı:

– Siz heç onları düşünməyin komandir, onlar dözümlüdü.

– Süfrədən artıq nə qalsa verin onlara.

– Şərab da qalsa? – Arşak hırıldadı, – Amma Andronikin şərab içən qadınlardan xoşu gəlmir.

– Barı gözəldirlər? – Stepan qızlardan gözünü çəkmədi.

– Andronikin xoşu gələcək.

Stepan pəncərədən aralandı. Amma nədənsə içində xəfif bir narahatlıq vardı. Otağında gizlətdiyi araq şüşəsini gətirdi. Er-

mənilərin gözləri parıldadı. Stepan dinib-danışmadan butulkanın ağzını açıb ucadan dedi:

– Sübh tezdən yolumuz qonşu kəndlərədir. Bu gecə baltalarımız itilənsin, qılınclarımız parıldasın. Arağı stəkanlara süzün. Amma yarısını. Bu günki qələbəmizi bir daha qeyd edək. O biri yarısını isə başqa kənddə qeyd edərik.

Ermənilər boş stəkanları yuxarı qaldırıb bağırışdılar:

– Oldu, komandir.

Nazar həyətə ağacların altındakı əsir qızlara baxdı:

– Bəs bunları neyniyək? Özümüzlə aparaq?

Arşak hırıldadı:

– Bunların səsi çıxmır, haldan düşüblər, bəzisi də yaralıdı. İrəlidə-kəndlərdə yenə gözəl qızlar var. Bəlkə bunları güllələyək? Bəlkə elə belə qoyub gedək?

– Yola düşəndə qərar verərik, – Stepan yorğun halda qaşqabaqlı dedi. Göz qapaqları açılmırdı. Yorğunluq onun bütün bədənini, ağlını, düşüncəsini sanki iflic edirdi.

– Yaxşı, arağı içək və başımızı yerə ataq.

Stepan yarımçıq butulkanı götürdü, otağına keçdi və xurcunun boş tayına qoydu.

Qonşu otaqda ermənilər dərin yuxuya getdi.

... Torpaq döşəməli geniş otaqda sanki savaş getmişdi. Taxta parçalarından düzəldilmiş uzun masanın üstündə yan-yana düzülmüş boş butulkalar, masanın üstündə qalıb qurumuş çörək qırıntıları, səliqəsiz halda doğranmış pendir, soyutma kartof bir-birinə qarışmışdı. Yarımçıq şərab qalmış butulkalar torpaq döşəməyə düşmüş, yerdə şərab göllənmişdi. Sərxoş ermənilər içəridə necə gəldi başlarını yerə atıb dərindən xorna çəkirdilər.

Stepan öz otağında köhnə dəmir çarpayıda əllərini sinəsinə qoyub gözlərini yummuşdu. Yuxu onu xəyal etmədiyi bir aləmə aparmışdı. Bu aləmdə nə Andronik vardı, nə də qırıb çatdığı, səsi, fəryadı, naləsi ilə onu təbdən çıxaran müsəlmanlar... Burda günəşin altında parıldayan qızılı saray vardı. Stepan da

bu sarayın ən uca taxtında oturmuşdu, başında da həmin saray rəngində qızıl tac. Musiqi çalınır, ərəb qızları süzürdülər... Burda o, Stepan padşah idi... Ermənilərin daim arzusunda olduqları padşah... Amma erməni padşahın mövcud olduğunu özündən başqa kimsə görmürdü...

Qəfildən tufan qopdu, pəncərə açıldı, otağa qara geyimli məxluqlar girdi. Onlar ərəb qızlarını bürüb-büküb qoltuqlarına vurdular və eyni anda da yox oldular. Amma onlardan biri qaldı, əlini atıb Stepan padşahın boğazından tutub sıxmağa başladı, sonra arxasınca sürüdü. Stepan qışqırmaq istəyirdi, amma səsi çıxmırdı, qan-tər içində çabalayırdı... Gözünü açdı, köhnə dəmir çarpayı ağırlığına tab gətirmədi, dəmirlər yerindən qopdu, Stepan arxası qatda torpaq döşəməyə düşdü. Bir müddət düşdüyü yerdə qaldı, sonra peşiman halda əlini Tanrıya açdı:

– Allahım, bizim erməni millətinə padşah qismət eləmədin.. Nə olardı, qoyaydın heç olmasa yuxuda padşah olmağın keyfini çıxarardım.

Bu anda pəncərədən atılan güllə divara sancıldı. Şüşə ovxarlanıb töküldü. Stepan silahından atəş açdı, ermənilər dəhşət içində ayıldılar, nə baş verdiyini anlamadan silahlarını axtarmağa başladılar.

Kimsə qıyya çəkdi:

– Şahsuvar bəyin atlıları...

Stepan dəhşətə gəldi və var qüvvəsi ilə bağırdı:

– Döyüşə hazır olun.

– Onlar bizi qıracaq.

– Qorxaqlar...

Şahsuvar bəyin səsi sanki göy gurultusunu xatırlatdı:

– Təslim olun. Mühasirədəsiz.

Yaralı Stepan xurcuna sarı süründü. Özünü arxa pəncərəyə verdi. Amma atılan güllə onu yarı yolda qoydu.

... Stepan xurcunu sinəsinə basıb qucaqlamışdı. Hüseyn xurcunu onun kilidlənmiş barmaqlarının arasından zorla çıxar-

dı. Qızılları və yarımçıq araq butulkasını Şahsuvar bəyin qarşısına qoydu.

Hüseyn nifrətlə Stepanın nəşinə baxdı:

– Butulkada qalmış arağın yarısını da yəqin ki, o biri kəndləri dağıtdıqdan sonra içəcəkdilər. Amma qismət olmadı.

Və Stepanın yarımçıq butulkası dillər əzbəri oldu:

*Şahsuvar bəy beşaçılanı bağladı,*
*Ermənilər zarı-zarı ağladı,*
*Hayın getdi, vayın qaldı İstepan,*
*Bodulqada payın qaldı, İstepan.*

(Zəngəzur Ermənistana verildikdən sonra Şahsuvar bəyin qızı Arəstə xanım elindən-obasından ayrı düşdü, Yevlax rayonunda məskunlaşdı. Atası kimi cəsur, zirək olduğundan məsul vəzifələrdə çalışdı. Hörmət, nüfuz sahibi oldu.

Arəstə xanım görkəmli şair Qasım Qasımzadənin anasıdır).

**4.**

Gorus şəhərində məşhur olan varlı Malıntsyanın ikimərtəbəli evi Andronikin xoşuna gəldi. Böyük bir sahəni tutan binanın ortasında ikinci mərtəbədə kiçik, ensiz aynabənd vardı. Aynabəndə açılan otaqda Andronikin qərargahı yerləşdi. Üst otaqlar hamısı qərargahın idi. Yalnız bir otaq Andronikə istirahət otağı kimi ayrıldı. Binanın həyətində erməni əsgərləri gecə-gündüz keşik çəkirdi.

Andronik Gorusdakı bu ikimərtəbəli evdən orduya rəhbərlik etdi, əmrlər verdi, döyüş planları hazırladı. Zəngəzurun hər yerindən ermənilər buraya axışırdı, silah alıb dəstəyə qoşulurdu, yaxud da quldurbaşıdan torpaq istəyirdi.

... Andronik indi də aynabənddən boylanıb həyətə baxdı. Həyətdə yenə xeyli adam vardı. Onların çoxu ən ucqar kəndlərdən axışıb gəlmişdi. Andronik onları kin qarışıq qəzəblə süzdü:

"Mənə biveclər yox, döyüşən qəhrəmanlar lazımdı. Mən sizin yolunuzda can qoymuşam. Sizə torpaq vəd etmişəm. Mən sizə indiyə qədər sahib olmadığınız vətəni verəcəyəm. Amma indi mənə ordunu yedirtmək üçün ərzaq, döyüşmək üçün əsgər lazımdı".

Sumbat generalı xəyaldan ayırmaq istədi. Əlini ağzına tutub astadan, kal səslə öskürdü, çəkingən halda gülümsədi və dedi:

– General, sizə yeni bir gözəl gətirmişəm. Su sonasıdı, göylər mələyidi.

General o anda canlandı, qırışmış sifətinin sərt ifadəsi yumşaldı:

– Müsəlmandırmı? – Andronikin keyfi kökəldi.

– Yooox, cavan axçidi... Müsəlman qızları vəhşidi, general. Onlara yaxın düşmək olmur. Fürsət tapıb özlərini öldürürlər.

– Hə, demək belə, müsəlman deyil.

Andronik öfkəli halda təkrar həyətə baxdı. Bu anda qapı açıldı, mayor Vahram içəri girdi. O, pərt və məyus idi. Hərbi papağını əlində oynada-oynada Andronikin üzünə baxmamağa çalışdı.

– Vahram, gətirdiyin xəbər yəqin ki, ürəkaçan deyil. Məlumat ver. Dinləyirəm.

– Bizimkilər geri çəkildi. Biz, general, Sultan bəyin dəstəsini məğlub edəcəyimizə ümidliydik. İlk həmlədə biz buna nail olduq. Onlar geri çəkildilər. Kəşfiyyatın gətirdiyi məlumata görə Sultan bəy öz hərbi qərargahını Hacaz kəndinə köçürdü. Bizim əsgərlərimiz güclü atəşlə onları təqib edirdi. Lakin Hacaz dağının ətəklərində qəflətən açılan top atəşləri əsgərlərimizi biçib tökdü. İrəli getməyə qoymadı. Həlak olanlar arasında bizim ən yaxşı komandirlərimiz vardı. Ruhdan düşmüş əsgərləri döyüş meydanına qaytara bilmədik. Onlar tülkü kimi qorxaq çıxdılar. Mərkiz dərəsində yüzdən çox əsgərimiz məhv oldu. Bu dəhşət idi, general.

Andronikin sifəti birdən dəyişdi. İçinə yığışmış övkə, hirs,

qəzəb sanki bütün əzalarını tarıma çəkdi, çənəsi əsdi. Dəfələrlə üzləşdiyi məğlubiyyətin açısı sanki içini xəncər kimi doğraya-doğraya bütün sinirlərinə keçdi.

Mayor Vahram generaldan cavab gözlədi..

Andronik daim onu izləyən kabusdan yaxa qurtarmaq üçün pəncərəyə söykənib həyətə baxdı. Aşağıda yoğun gilas ağacına söykənmiş, kepkasını gözlərinin üstünə qədər yendirmiş şişman qarınlı, ayaqları əyri qoca ermənini gördü. Dünən bu erməni onunla görüşə gəlmişdi. Bu dəfə onun yanında on beş-on altı yaşlı yeniyetmə vardı. O, da başına kepka qoymuşdu. Çox güman ki, qoca ermənininin nəvəsiydi. Bəlkə də döyüşməyə gəlmişdi... Oğlan tez-tez yuxarı-Andronikin qərargahının pəncərəsinə baxırdı. Gözünə gün düşdüyündən bir gözünü qıyırdı və ciddi-cəhdlə ermənilərin göylərə qaldırdığı əfsanə adamı görmək istəyirdi.

Məğlubiyyət də, onun xəbərini gətirən mayor Vahram da sanki Andronikin yadından çıxdı. Tanımadığı bu yeniyetməyə qarşı ürəyində xoş hisslərin oyandığını duydu və nədənsə birdən-birə kədərləndi. Dünyanın o biri üzündə qalmış, başı müharibələrə, müsəlmanların soyqırımına qarışmış və buna görə də heç xatırlamadığı atası Taras yadına düşdü. Sonra nakam sevgilisini və nakam oğlunu... dərin təəssüf hissi, hüznlə yad etdi... Yaşasaydı indi onun ən etibarlı, sədaqətli əsgəri, müqəddəs varisiydi. Bu hiss onun daşlaşmış, bir parça kəssəyə çevrilmiş ürəyini titrətdi: o, bu dünyada tamam təkdi. Bəlkə də elə buna görə bu təklik hissinin dəhşəti içində tökdüyü qan mərhəmət, sevgi hisslərini öldürdü. Onu quduzlaşmış, qan görməkdən doymayan, daha da azğınlaşan canavara çevirdi. O, zalım və qəddar idi. Bəlkə də heç insan kimi doğulmamışdı... Çünki həyatının ən xoş anları yaşla dolu yalvaran gözlərin son anını, son parıltısını gördüyü anlar idi. Qan içində boğulan, can çəkişən yaşlı, körpə, uşaq, qadın öz dəhşətli, faciəli ölümləri ilə Andronikə nəşəli bir həyat bəxş edirdi...

– General, – mayor Vahramın səsi onu diksindirdi.

Andronik nəzərlərini həyətdən çəkdi, əli ilə döşündəki ordenləri, medalları sığalladı, ağarmış bığlarının altında zəif təbəssümü göründü:

– Bu yeniyetmə xəyalımı apardı. Dünən kepkalı kişi yanıma gəlmişdi. Orduya getmək istəyirdi. Ordu üçün yaşlı və qoca olduğunu ona söylədim. Bu gün nəvəsini gətirib. General bu cür mərd, qeyrətli adamları sevir. Mən həyatımı onlara sərf etdiyimə, daim savaşlar içində olduğuma peşiman deyiləm. Anladınmı, Vahram? Bizimkilərə geri çəkilmək əmrini ver.

– Onlar geri çəkildi. Bizim başqa çarəmiz yox idi.

Andronik əllərini bığlarına çəkib otaqda gəzindi, sonra mayor Vahramın qarşısında dayandı:

– Biz burda, vaxt itirmədən, erməni respublikası yaratmalıyıq. Qarabağ da daxil olmaqla.

– Qarabağ? Bizimkilər bir dəfə buna cəhd etdilər. Amma Sultan bəy...

– Yenə Sultan bəy? – Andronik övkəsindən bağırdı, gözləri irilənib hədəqəsindən çıxdı, üzünə xal-xal qırmızı ləkələr düşdü, – Siz Sultan bəydən özünüz üçün qorxulu bir xəyalat yaratmısınız, mayor. Biz Sisyanın iyirmi üç kəndini xaraba qoyduq, adamlarını məhv etdik. O vaxt hardaydı o qəhrəman Sultan bəy? Çıxsaydı qarşımıza. Amma hələ də yoxdu. Oğlum, o, bir qorxaq, arvad tumanı altında gizlənən müsəlmandı.

– Karo Hambarsumyanın ordusunu Qaragöl yaylağında məhv etdi, general. Siz onun qorxaqlığına o qədər də əmin olmayın.

Andronik dayandı, düşündü və Vahrama baxmadan sanki öz-özünə söyləndi:

– Biz Qarabağa keçməli, orda bizi gözləyən erməni silahlı dəstələri ilə birləşməli və Qarabağı işğal etməliyik.

– Qarabağa keçmək o qədər də asan deyil, general, – Vahram mızıldandı: “Sultan bəy buna imkan verməz”.

Andronik yenidən xəritənin qarşısına keçdi, qırmızı xətlə işarələnmiş Qarabağı Zəngəzurla ayıran sərhəddi gözdən keçirdi və bu dəfə arxayınlıqla dedi:

– Yerli ermənilər mənə məlumat vermişlər ki, Qarabağa yaxın olan Zəngəzur yaylaqlarından elat soyuqlar düşən kimi arana yenir. Yaylaqlar bomboş kimsəsiz qalır. Biz bundan istifadə edib üç yüz nəfərlik dəstəni yaylağa qaldırırıq, – qələmlə xəritədə göstərdi, – Minkənd, Şəlvə, Murov dağa qalxırıq, sonra Sarıbaba dağını adlayıb Şuşanın Xəlifəli kəndinin yaxınlığında dayanırıq. Əsgərlərimiz burda dincəlir. Biz qüvvə toplayan kimi Xəlifəli, Şirvan və Zarıslı kəndlərinin müsəlmanlarını məhv edirik. Bir nəfər də müsəlman sağ qalmamalıdır. Evlər talan ediləcək, lakin evlərin yandırılmasını qadağan edəcəyəm. Çünki bu evlərdə bizim ermənilər yaşayacaq, mayor. Anladınmı?

– Anladım.

– İndi isə komandirləri çağır, – Andronikin üzü sərtləşdi və o, arxasını Vahrama çevirərək yenidən həyətə baxdı.

***

Sultan bəyin dəstəsi düşmənlə döyüşə gedirdi.

Süvarilər iki yamacın arasında görünən bağlı-bağatlı kəndə tərəf çapırdı. Atların arxasınca toz-duman layı bulud kimi havada axırdı.

Ağacın təpəsinə qalxmış uşaq əlini alnına qoyub gözünü qıydı və uzaqlara baxdı. Atların nallarından qopan səslər yaxınlaşırdı. Bu səslər elə bil dağlardan aşağı axan selin gurultulu, vahiməli səsinə oxşayırdı. Toz-dumandan göz-gözü görmürdü. Atlar qəfildən bu tozanağın içindən çıxdılar və kəndə sarı çapdılar. Uşaq dəhşət içində yerində dondu, sonra özünü toparladı və boğazının damarları şişə-şişə gücü çatdıqca bağırdı:

– Ermənilər... ermənilər...

Tükürpədici bağırtı sanki kəndin başı üstünə güllə yağışı kimi yağdı. O anda evlərin qapıları çırpıldı, başını itirmiş

adamlar yıxıla-dura yamaclara üz tutdular. Amma içlərindəki qorxu sanki bütün əzalarını, duyğularını zədələdi, ayaqlarını buxovladı. Qaçmaq istəyirdilər, amma yamacların tikanlı döşündən yuxarıya addım ata bilmirdilər. Ağlamaq, fəryad çəkmək istəyirdilər, amma səsləri çıxmırdı.

Meydana girən süvari yamaclara səpələnmiş adamları gördü və əlini ağzına tutub camaata sarı var qüvvəsi ilə, səsi gəldikcə qışqırdı:

– Camaat qayıdın, biz erməni deyilik.

Yamaclarda bir anlıq hərəkət dayandı. Adamlar çevrilib meydana, meydanın içində atın cilovundan yapışıb dayanmadan onları çağıran süvariyə baxdı:

– Ay camaat, gələn Sultan bəyin dəstəsidi. O, sizə köməyə gəlib.

Süvarilər yaxınlaşırdı. Uşaqlar o anda səs-küy içində yerlərindən qalxdılar, daş-kəsəyin yaralayıb qanatdığı ayaqlarının ağrısına məhəl qoymadan yıxıla-dura yamacdan aşağı yüyürdülər. Camaat meydana yığışdı.

Əkbərin uşaqların arxasınca getməyə hünəri çatmadı. Ürəyi möhkəm çırpındığından dayanıb tövşüyən nəfəsini dərdi, sonra yolun qırağında dizlərini büküb oturdu. Bu anda atlılar kəndin girəcəyində göründü. Əkbər irəlidə gələn atlını fəhmlə tanıdı. Bu Sultan bəy idi. Onun mərdanə görünüşü bəylərə məxsus olan geyimi ilə tamamlanırdı. Sultan bəy ağ atın cilovunu çəkib Əkbərin qarşısında dayandı. Oğlan o anda cəld ayağa qalxıb ağ ata yaxınlaşdı. At bir yerdə dayanmırdı. Əkbər heyrət və heyranlıqla aşağıdan yuxarıya Sultan bəyi süzdü. Ayazdan qızarıb çatlamış əlləri ilə atın sarğısını tumarladı. Sultan bəy atdan düşdü. Oğlanla üz-üzə dayandı. Onun başına sığal çəkdi və şəfqətlə soruşdu:

– Sən kimin oğlusan?

Əkbər möcüzə görürmüş kimi tez-tez kirpik çaldı, udqundu:

– Mən?

– Hə, sən. Kimin oğlusan?

– Çoban Məhəmmədin.

Əkbər sevincdən parıldayan gözlərinin nəmini sildi:

– Atamı tanıyırsan?

– Hə, yaxşı kişidi, mərd kişidi.

Duyduğu qürur hissindən Əkbəri ağlamaq tutdu, uşaqlara sarı döndü:

– Sultan əmi atamı tanıyır.

Uşaqlar süvariləri dövrəyə aldılar. Heyran baxışlar Sultan bəyin ürəyini isti duyğularla doldurdu. Erməni zülmünü çəkən bu uşaqların gözlərində, baxışlarında qocalmış, qarımış uşaqlığın acısı, nisgili vardı. Sultan bəy onların çuxura düşmüş gözlərində həm də aclığın sınağa çəkdiyi bir ümidsizlik, çarəsizlik sezdi. Amma onlar nə erməni zülmünə, nə də aclığa təslim olacaq halda deyildilər. Atalarına və babalarına xas olan mərdlik hissi çox güman ki, onları yıxılmağa, ruhdan düşməyə qoymurdu və onlar inadla ayaqları üstə qalxıb yaşadıqları işgəncəni, əzabı biruzə vermədən dişləri, dırnaqları ilə hər iki düşmənlə çarpışaraq irəli getməyə can atırdılar...

Uşaqların arasından balacaboy, qarayanız, qaragöz uşaq diribaşlıqla izdihamın arasından sivrilib çıxdı, böyüklər kimi əlini uzadıb Sultan bəylə görüşdü və qısqanclıqla soruşdu:

– Mənim də atamı tanıyırsan, Sultan əmi?

Sultan bəy onu bağrına basıb cavab verdi:

– Mən Zəngəzurdan olan hər kəsi tanıyıram-sonra da çevrilib Ağammədə işarə etdi:

– Bu uşaqlara ərzaq paylasınlar.

Ağamməd atını ərzaq yüklənmiş arabalara sarı sürdü...

Sultan bəy onun nə deyəcəyini intizarla gözləyən adamları süzdü:

– Biz sizi qorumağa gəlmişik. Qaniçən Andronik böyük bir dəstəni Qarabağa göndərir. Bu quldur dəstəsi Sarıbaba dağından adlayıb Şuşanın kəndlərinə girmək niyyətindədir. Əgər Qa-

rabağ işğal olunsa Zəngəzur çox asanlıqla əldən gedəcək. Azərbaycan hökumətinin bizi qorumağa qüvvəsi çatmır. Amma bu da o demək deyildir ki, biz silahı yerə qoyub erməninin qarşısında geri çəkilək. Ata-babalarımızın bizə miras qoyub getdiyi torpağımızı erməniyə verək. Biz axıra qədər döyüşəcəyik. Bizə qoşulmaq istəyən varsa buyursun.

Meydan çalxalandı. Qəzəb, nifrət dalğası təlatümə gəldi. İzdiham ucadan hayqırdı:

– Biz hazırıq, Sultan bəy.

... Sultan bəyin dəstəsi kənddən ayrılanda Əkbər atın qarşısına keçdi, doluxsunmuş halda dedi:

– Məni özünüzlə apara bilərsənmi, Sultan əmi? Mən tez böyüyəcəm. Güllə atmağı, at minməyi bilirəm.

Sultan bəy atdan düşdü. Uşağı qucaqladı:

– Qayıdanbaş mütləq səni görəcəm.

– Gözləyəcəm, Sultan əmi, – uşaq kövrəlib əlinin arxası ilə gözünü sildi.

Kənddən çıxanda Sultan bəy çevrilib geriyə baxdı. Ona elə gəldi ki, əllərini Tanrıya açmış uşaqlar səssiz dualarını Tanrı işığına bükərək bir içim su kimi onların arxasınca atır.

***

Dağlı, dərəli-təpəli yollar geridə qaldı. Andronikin süvari dəstəsi düzənliyə çıxan kimi dincəlmək əmri verildi. Silah, ərzaq yüklənmiş qatırları, at qoşulmuş arabaları bir tərəfə çəkdilər. Başlarının üstündə qara buludlarla örtülmüş səmada göy guruldayır, iliklərə işləyən soyuq külək əsirdi. Çadırlar quruldu, yorulmuş əsgərlər çadırlara çəkildi. Yandırılmış ocaqlar tüstüləndi və bu anda yağış atmağa başladı.

Çadırın üstünə düşən yağış damcıları gücləndi. Onun səsində bir yeknəsəklik və sıxıntı vardı. Andronik yerinin içində qıvrıldı, üstünə atdığı qoyun dərisindən aşılanmış kürkünü başına çəkdi. Soyuq çadırda bədəni istidən sanki buğlandı, alnını isti

tər basdı. Kürkü üstündən atdı, yerinin içində dikəlib yağış səsinə qulaq asdı. Elə bil bu anda içini də alov bürüdü. Dərindən nəfəs aldı, gözlərini yumdu, başını yasdığa qoyub kürkü üstünə çəkdi. Göz qapaqlarından sanki iki ağır daş asıldı. Amma yuxu gözünə yaxın düşmədi. Yenidən qalxıb yerinin içində oturdu. Bayırda çadıra keşik çəkən əsgərin addım səsləri gəldi və yağış səsinə qarışdı.

Andronikə elə gəldi ki, bu anda atası Taras başının üstə dayandı. Cavan Taras əlini yaşlı oğlunun ağarmış saçlarına çəkdi. Andronik hətta onun zəif çıraq işığında xoşbəxt üzünü də gördü:

"– Ata...

– Mənəm, oğlum. Sənin atan Taras. Mən bu günü gözlədim, sənə xeyir-dua verməyə gəldim.

– Keçib gəldiyin yerlərdə mənim əsgərlərimin izi vardı, onları gördünmü?

– Gördüm, oğlum. Ərzurumda, Naxçıvanda, Zəngəzurda. Onlar çox möhtəşəmdi. Bunlar mənim arzularım, xəyallarım idi. Əgər sən Qarabağı, Zəngəzuru işğal etsən, mənim ruhum daim bu yerlərdə olacaq.

– Amma mənim nə ailəm, nə övladlarım oldu...

– Fikir eləmə, oğlum... Amma yatmaq vaxtı deyil. Elə indi yola düşün. Qarabağ sizi gözləyir."

Andronik yenidən kürkü üstündən atdı. Başını qaldıranda qaranlıq boşluqdan savayı heç nə görmədi. Alov sanki təzədən onu bürüdü. Gözlərinin içinə qədər elə bil od püskürdü. Çadırın islanmış pərdəsini qaldırıb bayıra çıxdı. Yağışın altında dayandı, su üz-gözündən süzüb sinəsini, kürəyini islatdı, silahından göyə atəş açdı və elə bağırdı ki, boğazının damarları şişdi:

– Döyüşə hazlır olun. Qalxın tez, qalxın.

Tapançadan havaya yenə güllə atdı. Yerində dayanıb gözlədi. Çadırlardan səs-səmir gəlmədi. Yorğun düşmüş əsgərlər yuxudan ayıla bilmirdi. Andronik yağışın altında islanırdı. Başın-

dan, ağ saçlarının ucundan axan su dayanmaq bilmirdi, üst-başını, yalın ayaqlarını isladırdı. Amma soyuq yağış içindəki alovu yenə də söndürə bilmirdi.

Güllə səsinə özünü bayıra atan mayor Vahram Androniki görüncə çadırın ağzında donub qaldı. Sonra irəli yüyürüb onun qolundan tutdu:

– General, sizin özünüzdən xəbəriniz yoxdurmu?

– Əsgərləri oyat, mayor.

– Biz onlara dincəlmək əmri vermişik, general. Hamısı yorğundu. Yağış səhər ötüb keçər. Bu yağışlı gecədə onlar bu çətin yolları gedə bilməz, general.

Vahramın səsində bir yalvarış, təlaş vardı.

Andronik silahı yerə atdı. Key-key başdan-ayağa özünü süzdü. Başını qaldırıb tutqun, sıxıntılı göylərə baxdı. Göydə bircə dənə də ulduz yox idi. Elə bil ulduzlar da soyuq yağışda islanıb yox olmuşdu. Əvəzində yeri-göyü işıqlandıran şimşəklər vardı. Sanki şimşəklər iti qılıncını gecənin bağrına çəkib qaranlıqla savaşa girirdi.

Andronik yenidən çadıra qayıtdı... və ona elə gəldi ki, içinə çökmüş sıxıntı heç də qalibiyyətə işarət etmir...

***

Andronikin quldur dəstəsi Sarıbaba dağını aşa bilmədi. Məğlub olaraq pərişan halda geri çəkildi

Qəzəblənmiş Andronik bu dəfə general Manuku köməyə çağırdı. Onun təpədən dırnağa silahlanmış ordusu Zəngəzuru at dırnaqlarının altında əzib keçərək Qarabağı işğal edəcəkdi.

**5.**

Aslan bəy Sultan bəydən aldığı məktubu oxuyub fikrə getdi. Məktubda Sultan bəyin həyəcanlı çağırışı vardı: "... sayca bizim qüvvələrdən xeyli üstün, təpədən dırnağadək silahlanmış Manuk öz ordusu ilə başımızın üstünü kəsdirib. Əmioğlu bütün

qüvvələrini yığ, özünü bizə çatdır. Yoxsa bu qeyri-bərabər döyüşlərdə biz hamımız məhv olacağıq”.

Aslan bəy məktubu dörd qatladı və kənara qoydu. Bu anlarda ona elə gəldi ki, tükürpədən fəryad səsləri dəhşətli sel kimi kəndi ağzına aldı, otağına axıb doldu və bu daşqın sel onu qucağına alıb cəhənnəm kimi zəbanə çəkən odun-alovun içinə atdı. Sanki iti neştər Aslan bəyin ürəyinin şah damarına işlədi, ciyərini dağladı. Aslan bəy ağrıdan, qəzəbdən, nifrətdən qıvrıldı: Ermənilər Qarabağa can atır... Sözsüz ki, Qarabağın işğalı Zəngəzurun işğalına asanlıqla yol açacaq.... Onsuz da quldurbaşı Andronikin əsgərləri kəndlərin çoxunu yandırıb -yaxdı, insanlar işgəncə ilə qətlə yetirildi... Qarabağ bütünlüklə daşnakların əlinə keçsə Zəngəzurda bir müsəlman da sağ qalmayacaq, dədə-baba yurdunda allahsız, dinsiz-imansız ermənilər kök salacaq...

Aslan bəy masanın gözündən silahını çıxardı və öz-özünə söyləndi: “Manukun ordusunu Zəngəzura yaxın buraxmamalıyıq. Sultan bəylə təcili görüşmək, qüvvələri birləşdirmək və döyüş planını yubanmadan hazırlamaq... Manuk bu yerlərə ayaq basdığına peşiman olmalıdı...”

Aslan bəy pəncərədən bayıra səsləndi:

– Atları yəhərləyin.

***

Aslan bəy Zəngəzurda məşhur olan Sultanovlar nəslindən idi. Bu nəslin tarixi XV11 əsrin əvvəllərinə gedib çıxırdı. Deyilənlərə görə bu nəslin ulu babası Hacı Məhəmməd bəy Püsyan İran şahının sarayında çalışmış və burda böyük nüfuz sahibi olmuşdu. İran şahının bu ağıllı, savadlı, zəkalı adama xüsusi etimadı varmış. Bu hörmət və etimadın nəticəsi də ondan ibarət oldu ki, şah Məhəmməd bəyə sultan rütbəsi verdi. Sonralar Sultanovlar nəslinin igid oğulları böyük şan-şöhrət sahibi oldular, öz ulu babalarından miras qalan mərdlik və qəhrəmanlıqla öz torpaqlarını qorudular.

Aslan bəy Sultanov da bu nəslin igidlikdə ad çıxarmış nümayəndələrindən biriydi. O, 1888-ci ildə Qubadlının Hacılı kəndində Kərbəlayi Hüseyn Sultanovun ocağında dünyaya göz açdı. Hüseyn ağıllı, dünyagörüşlü, uzaqgörən bir adam olduğundan oğlunu da savadlı, oxumuş görmək istəyirdi.

Hüseynin qardaşı Həsən də elmli bir adam idi. O, Hacılı kəndində uşaqların oxuması, maariflənməsi üçün böyük əmək sərf etdi və dördillik məktəb açdı. Həsən bəyin özü rusca təhsil almışdı. Buna görə də bu məktəbin də rus təmayüllü olmasını istədi. Çünki rus dilini bilmədən kənddən kənara çıxmaq, oxumaq, savad almaq çətin idi. Həsən bəy də dövrünün işıqlı ziyalılarından biriydi və uzaqgörənliklə kənd uşaqlarının savadlanması, dil öyrənməsi üçün məktəbə rus dilini mükəmməl bilən müəllimləri cəlb etdi, kitablar aldı. Həsən bəy bilirdi ki, Azərbaycan qaranlıq zülmət içindədir və bu zülməti işıqlandırmaq üçün mütləq üzünü Rusiyaya çevirməlisən.

Aslan fərasəti, ağıl və zəkası ilə yaşıdlarından seçilirdi. Onun mühakimə qabiliyyəti, kitablara olan marağı əmisinin diqqətini cəlb etdi. Yaşı çatmasa da onu öz məktəbinə apardı. Həsən bəy bir ziyalı kimi Aslan bəyin gələcəyinə böyük ümid bəsləyirdi. Bu uşaq mütləq gələcəkdə böyük adam olacaqdı və nəsillərinə başucalığı, şan-şöhrət gətirəcəkdi. Buna görə də boş vaxtlarında Aslana ciddi-cəhdlə rus dilini öyrətdi və irəli getməsində, savadlanmasında xüsusi səy göstərdi.

Aslan yaxşı oxuduğu kimi kənddə yaşıdları, hətta böyüklər arasında da at sürməyi, tüfəngdən sərrast atəş açmağı ilə fərqləndi. Hədəfə sərrast atəş açmaq bacarığı onda qeyri-adi bir istedad idi. Qaranlıqda səs gələn tərəfə gülləni elə sərrast atırdı ki, görənlər heyrətə gəlirdi. (Sonralar onun bu istedadı böyük bir ordunun məğlub olmasına yol açdı).

Həsən bəy qardaşı oğlunun bu qeyri-adi məharətini diqqətə çəkib deyərdi:

– Oğlum, sənin yerin hərbi məktəbdi. Çar bizim cavanları

əsgər aparmır. Orduda xidmətə layiq görmür. Bəlkə də ona görə ki, istəyir müsəlman cavanları əfəl olsunlar, silah tutmağı bacarmasınlar və yeri gələndə torpağı müdafiə edə bilməsinlər. Sən rus dilini mükəmməl bilirsən, hərbi məktəbdə təhsil almağın məsləhətdi. Hələlik Qori seminariyasında təhsilini davam elətdir. Sonrasını düşün.

Aslan bəy əmisinin arzusu ilə Qori seminariyasında oxudu və Rusiyada ali hərbi məktəbin diplomunu aldı.

... Azərbaycan Demokratik Cumhuriyyəti qurulanda Aslan bəy Sultanovu Zəngəzur qəzasının mahal pristavı təyin etdilər. Bu qeyrətli, igid, vətən sevdalısı Aslan bəy Sultanov günlərlə at belindən düşmədi, Zəngəzurun erməni taunundan xilası üçün böyük işlər gördü, nüfuz və hörmət sahibi oldu, adı tarixə düşdü...

***

Sultan bəy əlini üzünə söykəyərək Aslan bəyi diqqətlə dinləyirdi. Onun iri, ağıllı gözləri qayğılıydı. Sanki Zəngəzurun sabahı üçün keçirdiyi əndişə, təlaş, ermənilərin törətdiyi qandonduran vəhşiliklərə qarşı qəzəb və nifrət onun gözlərinə, baxışlarına həkk olunmuşdu.

Aslan bəy təmkinlə dedi:

– Biz düşməni Zabıx dərəsində gözləyəcəyik. Çünki düşmən özü də buraya can atır. Burdan keçib Qarabağa getmək niyyətindədi.

Sultan bəy kinayə ilə güldü:

– Onlar başa düşmürlər ki, burda hər daş, hər qaya bizim üçün səngərdi. Bizi qoruyur.

– Düz deyirsən, Sultan bəy. Düşmən Zabıx dərəsindən bir addım da irəli gedə bilməyəcək.

Ağamməd, Çal Aslan, Seyid Həmid gözlərini Aslan bəydən çəkmirdi. Bu qamətli, yaraşıqlı cavan adamın danışığı, qətiyyəti onlara xoş gəlirdi.

– Yaxşı, indi döyüş planını müzakirə edək. Düşməni harda, necə qarşılayacağıq? İlk əvvəl kəşfiyyatçıları irəli göndərmək lazımdı. Düşmənin qüvvəsi, silahı, döyüş texnikası haqqında məlumatımız olmasa onları məğlub edə bilmərik.

– Bircə onu bilirəm ki, Manukun ordusu çox güclüdü. Nizami ordudu.

– Bizimkilər də aciz deyil, Aslan bəy. Silahın işləmədiyi yerdə bəzən zəka da qalib gəlir.

Xəritəni masanın üzərinə sərdilər və müzakirəyə başladılar.

***

Andronik Gorusdakı qərargahında general Manukla üz-üzə oturmuşdu. Dəyirmi, taxtaları saralıb köhnəlmiş masanın üstünə ağ süfrə salınmışdı, dolu şərab şüşələri qoyulmuşdu. Gecə şüşələrin çoxu boşaldı, Andronik bu boş şüşələri otağın küncünə yığdı. O, möhkəm sərxoş idi. Başını düz saxlamağa çalışır, bacarmır, üzüüstə az qala masanın üstə yıxılırdı. Əlini boşqaba uzadıb xiyar turşusundan birini götürdü, başı əsə-əsə zorla dişlədi və qızarmış gözlərini, yekəpər, üzünü saqqal basmış Manuka çevirdi. Gözləri axır, bir yerdə qərar tutmurdu. Andronik özünü topladı, cümlələri çətinliklə bir yerə yığıb mızıldandı:

– Manuk, yanındakı kimdi? İndimi gəldi? Hər halda sənin qonağındı, şərab süz. Bu şərab mənim xoşuma gəldi. Atam sağ olsaydı... o şərab düşkünüydü. Mən onun dəfnində olmadım. Amma olsaydım bilirsənmi neyniyərdim?

– Basdırmağa qoymazdın?

– Yox. Səncə neyniyərdim?

– Bilmirəm.

– Bax, bilmirsən. Əslində bilməlisən. Atam məni uşaqlıqdan türklərə nifrət etməyi öyrətdi. Bir də onu öyrətdi ki, ermənilərin torpağı, vətəni yoxdu. Bu yolda canını fəda et.

– Böyük insan olub atan.

– Böyük insan? O, şərab düşkünüydü. Mən onun qəbrinə

çoxlu şərab qoyardım. Tapşırardım ki, vur, o dünyada keyf elə.

– Sən çox ağıllısan, Andronik.

– Sən də çox güclüsən, Manuk, – Andronikin süzgün, sərxoş baxışları Manukun üzündən sürüşüb boş stulda dirənib qaldı, – amma yanındakını tanıya bilmədim.

– Sən çox sərxoşsan, məni iki görürsən, – Manuk iki barmağını qoşalayıb onun gözləri qabağında oynatdı.

– Yalan deyirsən. Bəlkə sə... bəlkə sən Sultan bəyi gətirmisən? Cavab ver.

Manuk hirslənib əlini masaya çırpdı:

– Sən məni satqınmı sanırsan?

– Bəs bu kimdi? – Andronik səndələyə-səndələyə Manuka yaxınlaşdı, əl atıb onun yanında zənn etdiyi adamı tutmaq istədi, əli boşa çıxdı, hiddətlə bağırdı, – sən onu gizlətdin.

Mayor Vahram özünü yetirdi. Başını buladı, Andronikin qolundan tutub yataq otağına aparmaq istədi, onu özündən çıxarmamaq üçün dilə tutdu:

– Otaqda sizdən başqa kimsə yoxdu, general. Sizi bir sürü əsgər qoruyur, Sultan bəyi buraya kimsə yaxın qoymaz.

Andronik ayağa durmaq istəyəndə səndələyib masanın üstə yıxıldı, başını çevirib bu dəfə Vahramı hədələdi:

– Bəlkə Sultan bəyi sən gətirdin qərargaha. Mən səndən şübhəliyəm. Sən erməni xalqına xəyanət etdin. Məsləkimizə xain çıxdın. Səni güllələmək lazımdı, Vahrammmm.

Karo Hambarsumyan da köməyə gəldi. Andronik qolundan yapışan Karonu sinəsindən vurub geri itələdi, cəld cibindən silahını çıxarıb Karonun gicgahına dayadı:

– Sən Sultan bəyi qəddarlıqla öldürməliydin, Qarabağa gedən yolumuzu açmalıydın.... Qorxaq, bacarıqsız, əfəl...

Androniki sürüyüb otağına saldılar.

General Manuk başını masanın üstə qoyub dərin yuxuya getdi. Karo ona baxıb təəssüflə başını yırğaladı:

– Səncə bu sərxoş adam Qarabağa keçib gedə biləcək?

Mayor Vahram özünə də yad gələn ruh yüksəkliyi ilə dedi:
– Məncə keçəcək. General Manuk Andronikin ən inanılmış, etibarlı adamıdı. Qəddarlıqda əsil ermənidi, Androniki kölgədə qoyub. Mən onun müsəlman kəndlərində adamlara, uşaqlara, südəmər körpələrə tutduğu divanı gözlərimlə gördüm. Mən bir anlıq bu adamın insan olmağına şübhə etdim.
Karo iftixarla dedi:
– O, əsil ermənidi, əsil qəhrəmandı. O, müsəlmanları qarışqa kimi əzib Qarabağa keçəcək və Qarabağ onun qanlı əllərində qan ağlayacaq.
– Amma biz Sultan bəyi tanıyırıq... İzin verməyəcək.
– İş də ondadı.
– Aldığımız məlumata görə Zəngəzurun qəza pristavı Aslan bəy Sultanovu köməyə çağırıb. Onlar yaxın əqrəbadı, doğma əmioğludular.
– Bu iki qüvvə birləşsə... – Vahram məyus dedi, – Qarabağ planları bu dəfə də boşa çıxacaq.
– Manukun da güclü ordusu var. Əgər Nijdenin ordusu ilə birləşsə Qarabağda və Zəngəzurda qan su yerinə axacaq.
– Xeyirli olsun, – Karo bayıra səsləndi:
– Otağı yığışdırın, bizə iki çay gətirin.

***

Kəşfiyyatın gətirdiyi məlumatlar Aslan bəyin rahatlığını pozdu: bütün yollar silahlı erməni əsgərləri ilə doluydu. Silah yüklənmiş qatırlar dayanmadan Zabıx dərəsinə doğru hərəkət edirdi. Manukun özü artıq Zabıx dərəsindəydi və burda amansız döyüşlərə hazırlıq gedirdi.
... Sübhün gözü açıldı, günəş qara buludların içindən siyrilib çıxdı, narıncı şəfəq səma boyu yayıldı. Aslan bəy çadırdan çıxdı, ətrafda dərin bir səssizlik vardı. Gecə yol gəlmiş Sultan bəy hələ çadırında idi.
Aslan bəy çadırın qarşısında gəzindi. Döyüş planını hazırla-

maq üçün Sultan bəyi gözlədi. Sultan bəy yubanırdı. Daha onu gözləməyə səbri çatmadı. Atlanıb yamaclardan yuxarı qalxdı. Ətrafda dinc bir sakitlik, savaş qabağı təhlükəli bir sükut vardı. Aslan bəy yüksəklikdə sanki günəşdən rəng alan pənbə buludların əl çatan yerindəydi. Durbini gözünə qoyub yamacdan aşağılara baxdı. Kövrək duyğular elə bil ürəyinin içindən süzülüb gözlərində yaz yağmuruna döndü. Bu yerlər onun doğma yurduydu, uğrunda canını verməyə hazır olduğu Zəngəzurun bir parçasıydı. Duman köynəyini əynindən çıxarmayan, zirvəsi qardan ağ papaqlı, sinəsi güllü-çiçəkli, yamacları sıx meşəli, çayları dəli-dolu Zəngəzur...

Zabıx dərəsinə yaxın Zabıx kəndiydi. Kəndin sağ-solundan axan Zabıx çayı ilə Həkəri çayı sanki günəşin altında işıq saçan iki gümüşü hörüyə bənzəyirdi. Elə bil bu çayların hər biri öz dəli harayı ilə bir kəndə arxa durmuşdu: Həkəri çayı Fətəlipəyə kəndinə, Zabıx çayı Cağazur kəndinə.

Aslan bəy at belində Zəngəzuru qarış-qarış gəzmişdi. Dağların göz yaşı, qayaların sirdaşı, torpaqdan qaynayıb üzə çıxan, diş göynədən buz bulaqlardan-Qızlar bulağından, Buzlu dərədən, Zoğal bulaqdan, Çömçəli bulaqdan əlləri üşüyə-üşüyə su içmişdi. Dostları ilə bulaq başında mərcləşdikləri daşı axıra qədər bulağın gözündən sayıb götürməyə dözümləri çatmamışdı.

Örüş yerləri də saysız-hesabsız idi. Bir vaxt yaşıdlarına qoşulub o örüş yerlərində quzu otarmışdı, arxası üstə göy çəmənə sərələnib arzularının, xəyallarının arxasınca urusetə qədər yol getmişdi... İndi də o örüş yerlərinin çoxu yadındaydı: Qurban təpəsi, Böyük yazı, Kahalı, Xırman düzü, Qızıl dəyə, Qara dəyə, Bədəluçan, Dədə yurdu, Küllü kaha, Qasımoğlu kahası, Qonçauçan, Topatılan... İndi düşmən bu yerləri at nallarının ayaqları altında tapdalayır, top -güllə səsləri bu yerlərin nizamını pozur, kəndlər yanır, xarabalıqlar bayquş yuvasına çevrilir, insanlar fəryad çəkir. Torpağa günahsaz qanlar axır. Aslan bəy

üzünü göylərə tutdu: Allahım bu insafdandımı, bu ədalətdirmi?

Bu anda qarşıdakı yamacdan günəş şüalarını əks edən parıltı gördü. Bu şüalar şüşənin üzərində əks edirdi. Aslan bəy bir anlıq düşüncələrdən ayrıldı, diqqətlə parıltını izlədi. Bu günəşin şüalarını şüşələrində əks etdirən durbin idi. Parıltı bir yerdə qərar tutmurdu. Üzü Zabıx dərəsinə idi, çox güman ki, düşmən gözündə durbin Zabıx dərəsində yerləşmiş müdafiə dəstəsinin düşərgəsini seyr edirdi. Aslan bəy durbini gözündən götürmədən parıltını xeyli izlədi: "Bu düşməndi, bizim mövqelərimizi öyrənir". Silahı üzünə götürdü, şüşəni nişan aldı və atəş açdı. Şüşə parıltı o anda yoxa çıxdı. Aslan bəy anladı ki, kimsə bu sərrast atəşlə vuruldu və yamacdan aşağı, bəlkə də çadırların yanına düşdü. Atını geri qaytardı, həyəcan içində yamacı yenməyə başladı.

... Yamacın qaşından atla birgə uçan adam arxası üstə Aslan bəyin çadırının qarşısına düşdü. Gurultu şiddətli olduğundan müdafiəçilər nə baş verdiyini öyrənmək üçün Aslan bəyin çadırının qarşısına yığıldı. Sultan bəy də gəldi. Ölən adamı üzüüstə çevirdilər. O, general hərbi paltarındaydı. Sultan bəy üzünü müdafiəçilərə tutub heyrət qarışıq sevinclə dedi:

– Bu ku, general Manukdur. Bunu güllə ilə qaşının düz ortasından vurmuşlar. Heyrət bir şey. Sən güllənin sərrastlığına bax.

– Belə sərrast gülləni ancaq Aslan bəy atır.

– O sübh tezdən məni gözləməliydi, – Sultan bəy, dedi, – gəldim çadırda yox idi.

Hər kəsin üzündə heyrət qarışıq təbəssüm vardı. Sanki bir ordu savaşsız məğlub olmuşdu və bu möcüzəni də göstərən Tanrı özüydü.

– Allaha şükürlər olsun, savaş başlamamış Allah bu çaqqalın canını aldı.

– İşə bax, Allah gör necə cəzalandırdı.

– O biriləri də biz cəhənnəmə göndərərik.

Aslan bəy özünü yetirdi. Müdafiəçilər aralanıb ona yol ver-

dilər. Manuku görəndə Aslan bəy bir anlıq dondu, gözlərinə inanmadı, sonra da üzünü Sultan bəyə çevirib gülə-gülə dedi:

– Sənin yubandığını görüb darıxdım, dərədən yuxarı yamaclara çıxdım. Birdən qarşı tərəfdən gözümə parıltı dəydi. Düşündüm ki, günəşin şüası ancaq durbinin şüşələrində belə parıltı sala bilər. Özgə harda? Parıltı dayanmadan sağa-sola hərəkət edirdi. Manuk olduğu ağlıma da gəlməzdi. Kəşfiyyatçı olduğunu zənn etdim. Dəqiq nişan alıb bircə güllə atdım. Həmin anda möhkəm tappıltı səsi gəldi, – İkrahla Manukun nəşinə baxdı, nifrətlə üzünü çevirdi, – bunu sürüyüb kənara atın. Ermənilər komandirlərini axtaranda taparlar.

... Müdafiəçilərin əhval-ruhiyyəsi yüksəldi, sanki zəfər xəbərinin ilk müjdəsini aldılar. Bu anda Aslan bəyin əmri eşidildi:

– Düzlənin!

Müdafiəçilər tüfənglərini çiyninə salaraq farağat vəziyyətində düzləndilər. Sultan bəylə Aslan bəy cərgələrin önündə dayandılar. Sanki bu an Zabıx dərəsi “Cəngi” havasına büründü. Sərtləşmiş baxışlarda, sıxılmış dodaqlarda, düyünlənmiş yumruqlarda düşmənlə ölüm-dirim savaşına bir hayqırış, çağırış vardı.

– İgidlərim, aslanlarım, – Sultan bəy əyilməz bir dağ ləngəri ilə irəli yeridi və ucadan dedi, – General Manukun ordusu başsız qaldı. Əsgərlərin, komandirlərin hələ bundan xəbəri yoxdu. Bu qəddar və təhlükəli adam özününkülərdən kimsəyə etibar etmədən bizim düşərgəmizi təkbaşına özü izləyirmiş. Manukun ölümü ilə bizim də döyüş planımız dəyişdi. Biz bu hadisəni dəyərləndirməli və hücuma keçməliyik. Generalın qəfil yoxa çıxmağı ilə ruhdan düşmüş ermənilər gözlənilməz hücumdan başlarını itirəcək və yalnız canlarını qurtarmağa çalışacaqlar.

Bu anda müdafiəçilərin səsi çayların dəli harayı kimi Zabıx dərəsinə yayıldı:

– Düşmənlə döyüşə hazırıq, komandan!

***

Top atəşinə, güllə səsinə sanki dağ-daş yerindən oynadı. Atlar kişnəyir, müdafiəçilər düşmən üstünə gedirdi. General Manukun əsgərləri başlarını itirdilər. Orduda ruh düşgünlüyü yarandı, kimə hara güllə atacağını bilməyən başıpozuq ordu ilk andaca xeyli itki verdi.

Gecə yarısına qədər davam edən döyüşdən, boş çadırlar, xeyli qənimət silah-sursat qaldı, bir də sağa sola səpələnmiş cəsədlər...

***

– Sultan bəy, Əkbər adlı bir cavan sizi görmək istəyir.

Sultan bəy bir anlıq fikrə getdi:

– Əkbər?... Piçənisli Əkbər. Onu mən çağırmışam, gəlsin.

Qapının ağzında ucaboy, yaraşıqlı bir oğlan göründü. Dağ adamlarına xas olan qırmızı yanaqları, dağ bulaqları kimi qaynar qapqara gözləri vardı. Amma nədənsə xəcalətli halda başını aşağı dikdi, Sultan bəyin gözünə baxmamağa çalışaraq utancaq halda astadan salam verdi.

Sultan bəy ayağa qalxdı, Əkbərlə üz-üzə dayandı, sonra gülümsəyib yer göstərdi. Oğlanın həyəcan keçirdiyi çöhrəsindən bəlliydi, masanın üzərinə qoyduğu əllərini sanki gizlətməyə yer axtarırdı, -ovuşdurur, yumruqlarını düyünləyir, həyəcanlı, bəlkə də günahkar olduğundan üzünün bütün cizgiləri titrəyirdi. Sultan bəy onu xeyli davamlı, sərt baxışlarla süzdü və soruşdu:

– Nə var, nə yox, Əkbər?

– Sağlığın, bəy.

– Sarıbaba yaylağında quzu kababı yeyib, bulaq suyu içməkdən yorulmadınmı, Əkbər? O yaylaqlar çox təhlükəsizdi. Nə top atılır, nə güllə səsi eşidilir. Amma dağların bu üzündə ermənilər kəndlərimizi yandırır, millətimizin qanını axıdır. Allahsız ermənilərin qabağına kim çıxmalıdı, Əkbər? Onda hamımız, başımız salamat qalsın deyə, yaylaqlara çəkilək, Amma ar-

xayın ol, savaş Sarıbaba yaylağına da gəlib çıxacaq, ermənilər Zəngəzuru bu gedişlə, özü də arxayınlıqla işğal edəcək...

Sultan bəyin xəncərdən də iti olan məzəmməti, tənbehi Əkbəri ürəyinin başından yaraladı, izzəti-nəfsinə toxundu, sərt hərəkətlə başını qaldırdı və Sultan bəyin üzünə baxdı:

– Mənə az-çox bələdsən bəy, mən savaşdan qorxan oğul deyiləm.

– Bəs niyə əlinə silah alıb döyüşmürsən, nəyi gözləyirsən? Niyə dəstəmizə qoşulmursan? Niyə kənarda qalmısan? Sənə yaraşarmı, Əkbər?

– Mən bir xəta elədim, kimsənin üzünə çıxa bilmədim.

– Zəngəzurun bu çətin günündə bütün günahlar, xətalar bağışlanır. Ən böyük xəta gizlənməkdi, başa düşdün?

– O dağlarda yemək-içmək mənə haram oldu. Üzə çıxmağım, bağışlanmağım üçün sizə ismarıc göndərdim.

Sultan bəy ayağa qalxıb otaqda gəzindi, əlini Əkbərin çiyninə qoydu:

– Sən çox mərd, qoçaq, igid bir oğlansan, Əkbər. Ermənilərlə savaşda bizə sənin kimi oğullar lazımdı.

– Mən canımı bu yolda fəda etməyə hazıram, bəy.

– Biz hamımız bu yolda canımızı, qanımızı əsirgəməməliyik. Ermənilər insanlıqdan çıxaraq ciyərimizi dağladılar, evimizi külə döndərdilər, qız-gəlinləri əsir-yesir elədilər...

Sultan bəyin səsi titrədi, iri gözlərində ağrı göründü, sinəsində qalanmış ocağın alovu üzünə vurdu.

Çal Aslan Əkbəri görəndə üzü güldü:

– Deyəsən qaçaq gəlib?

Əkbərlə görüşdülər:

– Haqqında eşitmişəm. Çox şükür, üzünü də gördüm.

Əkbər başını aşağı saldı. Sultan bəy üzünü qapıda dayanmış yavərinə tutdu:

– Cavanlar yoldan gəlib, yemək-içmək verin, rahatlansınlar. Sonra danışarıq. Elə bilirəm ki, Əkbəri kəşfiyyat dəstəsinə versək yerinə düşər.

– Elə mən də onu istəyirəm, bəy, – Əkbər sevincək yerindən qalxdı.

Əkbər getdi. Çal Aslanın üzü ciddiləşdi, başını bulayıb narahat halda dedi:

– İndicə məlumat gəldi ki, ermənilər Turşsu yaylağına əsgər və silah-sursat toplayır.

Sultan bəy əlini çənəsinə çəkdi, qısa saxladığı saqqalını tumarladı və fikrə getdi:

– Turşsu yaylağı strateji cəhətdən çox əlverişlidi. Yaylağın ermənilər tərəfindən işğal olunmasına yol verməк olmaz. Ora iki nəfər kəşfiyyatçı göndərək. Düşmənin qüvvəsi, silahı, döyüş planları haqqında səhih məlumat gətirsinlər.

– Oldu bəy, – Çal Aslan bayıra çıxdı.

... Sultan bəyin fikirli və narahat olduğu gözlərdən yayınmadı. O, masanın arxasından qalxmadan xeyli müddət pəncərədən görünən dağlara baxdı, sonra oturanları süzdü və təmkinlə sözə başladı:

– Belə bir məlumat almışıq ki, Turşsu yaylağına erməni silahlıları yığışır. Belə çıxır ki, onlar yeni hücum planları hazırlayır. Amma biz düşmənin niyyəti, canlı qüvvəsi, silah-sursatı haqqında heç nə bilmirik. Kəşfiyyat məlumatına ehtiyac var, – Sultan bəy oturanları diqqətlə süzdü, – yaylağa kim getsə və səhih xəbərlər gətirsə ona bir beşaçılan tüfəng, bir də bir at verəcəm. İki nəfər qoçaq, zirək cavan lazımdı.

Əkbər ayağa qalxdı:

– Mən gedərəm, Sultan bəy.

Sultan bəy onun qarşısında dayandı:

– Amma bu təhlükəlidi haa. Təkcə igidlik şərt deyil.

– Başa düşürəm, bəy. Mənə tüfənglə at da lazım deyil. Sizə lazım olan məlumatları gətirəcəyəm.

– Daha kim gedər? – Sultan bəy üzünü cavanlara tutdu.

Kazım adlı cavan ayağa qalxdı. Papağını böyrünə qısıb Sultan bəyin gözlərinə baxdı. Onun baxışlarında cəngavərlərə xas olan bir mərdlik ifadəsi vardı.

Sultan bəyin çöhrəsi xoş bir təbəssümdən işıqlandı:

– İkiniz də zirək, qoçaq cavanlarsız. Hazırlaşın və sübh tez-dən yola çıxın.

Bu anda yüzbaşı Teymur bəy Sultan bəyə yaxınlaşdı və qu-lağına astadan pıçıldadı:

– Amma bunlar bir-biri ilə düşməndilər, Sultan bəy. Bir ye-rə düşsələr bir-birinin canına qıyarlar.

Sultan bəyin qaşları çatıldı, sifəti sərtləşdi, qınayıcı, mə-zəmmətli baxışlarla cavanları süzdü. Əkbərlə Kazım o anda ayağa qalxdılar. Bir-biri ilə əl verib görüşdülər və qucaqlaşdı-lar. Əkbər başını aşağı saldı:

– Torpağımız qan ağladığı bir vaxtda bizə düşmənçilik ya-raşmaz. Bizim bir düşmənimiz var, o da ermənidi.

Sultan bəy cavanların ikisini də bağrına basdı:

– Söz də elə budu.

– Amma bir xahişimiz var, bəy.

– Buyur, Əkbər.

– Bizə götürə biləcəyimiz qədər silah-sursat ver.

Sultan bəy təəccübləndi:

– Mən sizi döyüşə göndərmirəm ki. Məlumat toplayıb qayı-dırsız.

– Bunları ehtiyat üçün istəyirik, bəy. Sonra elə bir vəziyyə-tə düşərik ki, əliyalın olmağımıza peşiman olarıq.

– Düz deyirsən, Əkbər.

Silah-sursat dolu xurcunları atların belinə aşırdılar.

... Kar qayadan aşağıda Turşsu yaylağının düzənliyi qələbə-lik idi. Çadırlardan kənarda at ilxısı görünürdü. Yollarda silah yüklü qatırlar, axırda isə at qoşulmuş arabalar gəlirdi. Bir-birinə söykənmiş kimi görünən təpələrin, ayaq izlərinin naxış kimi düşdüyü yamacların, ipək kimi yumşaq çəmənli düzlərin səssiz-liyi pozulmuş, sanki bu yerlərə vahimə doğuran bir ab-hava çökmüşdü. Çadırların yanında xeyli əsgər də görünürdü. Əkbər durbini gözlərindən götürdü, çadırları diqqətlə izləyən Kazımın çiyninə toxundu:

– Kazım...

– Eşidirəm.

– Ağlıma bir fikir gəlir.

– Əgər təhlükəlidirsə o fikri geri qaytar.

– Hələ sən bir qulaq as.

– Eşidirəm, Əkbər kaş ki, bu silah yüklü qatırları ələ keçirərdik. Burda bir tufan qopardıq ki...

– Elə mən də onu demək istəyirəm, – Əkbər sal daşın üstündə oturdu, – biz gecənin düşməyini gözləməliyik. Elə ki, qaranlıq düşdü, ehtiyatla aşağı yenib pusqu qurmalı, əlimizə keçən bir daşnakdan məlumat toplamalıyıq. Sonra atlarımıza süvar olub Sultan bəyin yanına getməliyik. Dəstə toplanmalı, buraya hərəkət etməlidi. Biz bu işləri yerinə yetirənə qədər vaxt keçəcək və ermənilər buraya xeyli qüvvə toplayacaq, silah-sursat daşıyacaqlar. Bəlkə biz özümüz bu işin öhdəsindən gələk? Hə, nə deyirsən, Kazım?

Kazımın gözləri böyüdü, içini çəkdi:

– Nə danışırsan, Əkbər? Burda silahlı bir ordu var. Biz onların öhdəsindən gələ bilmərik.

– Onlar aşağıda, biz yuxarıda. Atdıqları topların, güllələrin heç biri bizi tutmaz. Kar qaya bizi qoruyacaq. Əgər onların öhdəsindən gələ bilməsək aradan çıxarıq, vəssalam.

Kazım düşmən çadırlarını bir də seyr etdi, düşündü və gülümsünüb başını buladı:

– Vallah, sən məni bu çaqqal sürüsünü məhv etməyə həvəsləndirdin. Canımız fəda olsun torpağımıza.

– Biz düzdü, onların hamısını məhv edə bilmərik. Amma ilk güllələr açılan kimi düşmən vahiməyə düşəcək. Sultan bəyin dəstəsinin hücum etdiyini zənn edəcəklər və qorxuya düşüb canlarını qurtarmağa çalışacaqlar.

– Düz deyirsən, Əkbər. Onların atdığı güllə, top bizi tutmaz. Qoç Koroğlu necə deyib: igidliyin bir yolu da qaçmaqdı.

Atlar hürkməsin deyə kənara çəkib kolluqlara bağladılar.

Silah dolu xurcunları sürüyüb Kar qayanın yaxınlığına gətirdilər. Sonra tüfəngləri cərgə ilə bir-birindən aralı yerləşdirdilər. Əkbər papaqlarını götürüb qayanın üstünə qoydu. Aşağıdan durbinlə baxanda bu papaqlar və tüfənglərin lülələri açıq-aydın görünəcəkdi:

– Qoy elə bilsinlər ki, Sultan bəyin dəstəsi hücuma keçib.

– Bir-birimizdən xeyli aralı döyüşə başlayaq. Bir tüfəngdən o birinə keçək, düşməni çaşdıraq, canına xof salaq.

– Oldu, başladıq.

Kar qayadan qəfil açılan güllələr aşağıda çadırın yanına yığışmış əsgərləri yaxaladı. Sanki sıra ilə ara vermədən güllə yağışı yağırdı, düşmənə göz açmağa aman vermirdi. Kiçik bir qığılcımdan çadırlardan ikisi od aldı. Vurnuxan, başını götürüb qaçan, bağrışan əsgərlərin səs-küyü eşidildi. Hürkmüş atlar təpələrə sarı götürüldü. Silah yüklü qatırlardan biri yaralandı, dizlərini qatlayıb çökdü. Güllələr sərrast atıldığından itkilər çoxalırdı.

Az keçmədi ki, ermənilər toparlandılar. Komandir göyə güllə atdı və üzüyenişə vahimə içində qaçan əsgərləri geri qaytardı. Toplar işə düşdü. Amma Kar qaya səngər kimi Əkbərlə Kazımı qoruyurdu. Yoxuşu çıxmağa cəhd edən ermənilərdən bir neçə cəsəd qaldı və onlar yenidən geri çəkildilər.

Əkbər üz-gözündən axan isti təri sildi, əlini xurcuna atdı, cəmi iki patron qalmışdı. Bu anda Kazım əlini yuxarı qaldırıb səsi gəldikcə bağırdı:

– Əkbər çadırları sökürlər.

– Daha top da atmırlar.

– Bunlar Sultan bəyin gəldiyinə inandılar. Əlini göylərə tutub gözləri yaşarmış halda qışqırdı:

– Ey dağlar, yaylaqlar, çöllər, düzlər, yamaclar, bizi səngər kimi düşməndən qoruyan Kar qaya... Siz də şahid olun. Bu elin iki qorxubilməz igidi daşnaklara zəfər çaldı. Dərdin alım, Turşsu yaylağı, bir yağış yağdır bu məlunların ayaq izləri itsin, havan təmizlənsin, bulaqların durulsun.

... Sultan bəy Əkbərlə Kazımı bağrına basdı:
– Halal olsun bu yurdun suyu, havası, çörəyi sizə.
Sonra iki at, iki tüfəng gəldi...

**6.**

General Manukun yoxa çıxması, ordunun məğlub olması, baş tutmayan Qarabağ yürüşü Androniki sarsıtdı. Əlləri ilə başını tutdu. Öfkəsindən, əsəbindən sanki gözlərinin kökündə başlayan ağrı ürəyinin şah damarına qədər iti bıçaq kimi kəsib doğradı. Andronik ağrının şiddətinə tab gətirə bilmədi. Otaqda gəzinir, əlini ürəyinin üstə qoyaraq dayanmadan ovuşdurur, qəzəb və nifrət içində havalı adamlar kimi öz-özünə söylənirdi: "Necə oldu ku, Manuk yoxa çıxdı. O, ehtiyatlı, sərvaxt adamıydı. Bəlkə özü təkbaşına kəşfiyyata çıxıb, burda da Sultan bəyin gülləsinə tuş gəlib? Ümidlərimiz yenə boşa çıxdı. Qarabağa adlaya bilmədik... Ah, Andronik... Atan Taras sənə həmişə səbirli, dözümlü olmağı tövsiyə edərdi... İndi də səbirli ol... Hələ hər şeyi itirməmişik. Mən Manukun heyifini müsəlman kəndlərindən çıxaram... Biz sanki güclü, nizami ordu ilə döyüşürük. Bunlarda bu qədər qüvvə, güc hardandır? Mən Gorusda qapanıb qalmışam. Sultan bəyin ucbatından irəli hərəkət edə bilmirik. Axı bu Sultan bəy kimdi?"

Andronik sanki bu anda atası Tarasın səsini eşitdi. Gözlərini yumub sinirlərinin ağrısı azalmış kimi dərindən nəfəs aldı. Elə bil Taras başının üstə dayandı, Andronikin çoxdan unutduğu ata şəfqəti ilə gur, ağarmış saçlarını arxaya tumarladı:

"– Oğlum, düşmənini yaxşı tanı: Sultan bəy gülləbatmaz qəhrəmandı.

– Sən Allah, bu qədər böyütmə. Əgər qəhrəmandısa o halda getsin qılıncımız altında can verən zəngəzurluları xilas etsin. Zəngəzurun çoxu mənim işğalım altındadı. Mən burda erməni hokuməti qurmağa hazırlaşıram.

– Oğlum, içindəki nifrət Sultan bəyi olduğu kimi görməyə imkan vermir.

Androniki gülmək tutdu:

– O, Gorusa məndən qorxduğu üçün ayaq qoya bilmir. Sən Sultan bəydən əfsanə yaratma.

– Oğlum, sən qəbul etsən də, etməsən də o artıq əfsanədi. O, Azərbaycan hökumətinin köməyi olmadan, bir əsgər yardımı almadan belə səninlə qarşı-qarşıyadır.

– Təklifin nədi, qorxub geriyəmi qayıdım?

– Yox, yox, oğlum, nə danışırsan? Bütün erməni millətinin gözü səndədir, ümidi, pənahı sənsən. Türk bizim düşmənimizdi. Mən bütün həyatım boyu bu amalla yaşadım, səni də bu ruhda böyütdüm. Amma silahla bərabər ağlını və zəkanı da işlət, oğlum.

– Eləmi? Necə ki, Kazım Qarabəkir paşa Qarsı ermənilərdən hiylə işlədərək, bir güllə atmadan aldı. Mən də Sultan bəyə hiylə işlədim, eləmi?...”

Andronikin başındakı ağrı səngidi. Gözünü açdı, içəridə kimsə yoxuydu, Tarasın xəyalı da yox idi. Lakin içərinin səssizliyi matəm sükutu kimi vahimə doğururdu. Bu anda yavəri içəri girdi:

– Cənab komandan, generalın nəşini tapmışlar.

– Hardaymış? – Andronik ayağa qalxdı, içindəki sarsıntı bu dəfə bütün vücudunu bürüdü.

– Zabıx dərəsinin içində. Dəfn üçün sizi gözləyirlər.

Andronik qəzəblənmiş halda əlini yellədi:

– O qalib ordunun generalı deyil. Bir çala qazıb sıravi əsgər kimi atın ora, üstünü torpaqlayın.

Andronik yumruğunu masaya çırpdı, yavər getdi. Bir xeyli qapıya baxdı, sonra aynabəndə keçib həyətə boylandı. Həyətdə yenə xeyli adam vardı. Günlərlə həyətdən çəkilib getməyən bu yaşlı adamlar generaldan çörək və torpaq istəyirdilər. Onlar yaşlı və qoca adamlardı. Günəşin altında istidən tənbəl-tənbəl

əsnəyir, üz-gözlərini ovuşdurur, arada başlarını qaldırıb aynabəndin toz-torpaq basmış pəncərələrinə baxırdılar.

Küncdə, iri kötüyün üstə oturmuş yaşlı erməni sübh tezdən gəlmişdi. İndi acdığından dizlərinin üstə qoyduğu rəngi bozarmış heybədən arasına pendir qoyulmuş lavaşı çıxardı, ətrafa baxıb dişinə çəkdi. Andronikin birdən-birə nədənsə ona paxıllığı tutdu. Yalnız çörək və torpaq almaq xülyası ilə yaşayan bu adamın qayğısızlığı və arsızlığı onu həm də hiddətləndirdi. Çünki bu adam zəfər qazanmağın və məğlub olmağın nə demək olduğundan xəbərsizdi. Ən uzağı fağır bir müsəlman qonşusunu amansızlıqla öldürmək və evinə, torpağına yiyələnmək barədə düşünə bilərdi.

Bu anda mayor Vahram az qala yüyürə-yüyürə həyətə girdi. Başını qaldırıb aynabəndə baxdı və üz-gözü qəzəbdən, sinirə bilmədiyi övkədən əyilmiş Androniki gördü. Yalnız Andronikin başa düşəcəyi tərzdə təəssüflə başını yırğaladı. Otağa girəndə Vahramın hüzn dolu səsi eşidildi:

– Uğursuzluq bizi təqib edir, general, – Vahramın ruhdan düşmüş halı əzab içində qıvrılan Androniki qıcıqlandırdı.

Mayor Vahramın gözləri kədərliydi. Qan çəkilib getmişdi. İndi bu gözlər məyus idi, adama solğun-solğun baxırdı və susuz, quru səhraya bənzəyirdi. Andronik başa düşdü ki, mayor əslində Manuka hayıfsılanmır. Generalın ölümü yalnız onu hiddətləndirib.

Andronik Vahramı kinayə ilə süzdü acığından, qəzəbindən istehza ilə ucadan güldü:

– Amma general müstəsna ölümü ilə bizi valeh etdi. Bir güllə ilə yamacın başında vuruldu, ordan diyirlənib Sultan bəyin qarşısına düşdü. Halbuki güclü ordusu vardı, Qarabağı asanlıqla ala bilərdi.

– Bizim bu dəfə də Qarabağa keçmək cəhdimiz baş tutmadı.

Andronik sərsəm adamlar kimi əlini cibinə qoyub otaqda gəzindi, o, içindəki intəhasız ağrını, sıxıntını heç cürə ovuda

bilmirdi. Var-gəl etməkdən yoruldu və Vahramın qarşısında dayanıb, şəhadət barmağını ona tuşladı:

– Sultan bəyi aldatmaq lazımdı. Hiylə işlətmək lazımdı.

– Hiylə? Nə danışırsan, general?

– Sultan bəyi aldadıb döyüşsüz Qarabağa girməliyik.

Vahramın gözləri alacalandı, heyrətlə Andronikin pərişan halına baxdı:

– Anlat görək, general, sən onu necə aldada bilərsən? O, ağıllı, zəkalı bir adamdı. Hərbi təhsil alıb.

– Sultan bəyə külli miqdarda qızıl təklif edəcəyəm.

– Sultan bəyin böyük sərvəti var, general. Çalbayır yaylaqlarında minlərlə naxır, qoyun sürüləri, yağ-pendir zavodu, meşələr, Qafan mis mədəni... Onun sənin qızılına ehtiyacımı var?

– Qızıl hər kəsi yoldan çıxarar, tamahını itiləyər. Amma Sultan bəyin yanına elə adam göndərməliyik ki, ona inansın.

Vahram sevincək dedi:

– Mən belə bir adam tanıyıram, general. Şaşan adlı erməni Sultan bəyin kirvəsidi. Onlar yaxın dostdur.

– Şaşanı tap və buraya göndər, – Andronik yüngülləşmiş halda rahatlıqla nəfəs aldı.

– Məncə Şaşanla bərabər bir keşiş də göndərək, general. Şaşanın yalan danışmadığını hardan bilərik?

– Orduda inanılmış keşiş var.

– Oldu, general. Biz tez bir zamanda onları Çalbayıra Sultan bəyin yanına göndərərik. Sərvət bütün bağlı qapıların açarıdır, general. Siz dahisiz...

... Qərargahda qızğın müzakirə gedirdi. Andronik üzünü komandirlərə tutdu:

– Getməzdən əvvəl salamat qalmış müsəlman kəndlərini yandırmaq, müsəlmanlardan təmizləmək lazımdı. Sultan bəyin bundan xəbər tutmasını istəmirəm. Onun bizə inamı sarsıla bilər.

– Tat kəndini görmüşəm. Səfalı bir yerdədi, – Vahram əlini bir-birinə sürtdü, – həm də gözəl qızları var.

Andronik xırıltılı səslə güldü:

– Elə isə qırğını Tat kəndindən başlayın.

***

... Xədicə çır-çırpı gətirib külü təmizlənmiş təndirin içində alışdırdı. Alov gurlaşan kimi təndirəsərin bir tərəfində qalaqlanmış yoğun kötüklərdən təndirə saldı. Alov o anda söndü və iri, tüstü laylarının acısı Xədicənin gözlərinə doldu. Sanki tüstünün acısı göz yaşına da çökdü və gözlərinin içini göynətdi. Döşlüyünü üzünə çəkib həyətə çıxdı, kötüklərin alovlanmasını gözlədi.

Qafar qoyunları həyətdən çıxara-çıxara arvadına səsləndi:

– Biz Osmanla getdik. Qızlardan muğayat ol, – səsi titrədi, dayandı, gözlərindəki qorxu, təlaşı gizlədə bilmədi, məlul-müşkül arvadının üzünə baxdı, – aparaq qoyunları dəyər-dəyməzinə yaxın bazarların birində sataq. Amma... qorxuram ermənilər kəndə basqın eliyə. Sən də çörək bişirməyə vaxt tapdın.

– Çörək təknəsi boşdu, neyniyərdim, Qafar? Unluğu silib süpürdüm, daha un da yoxdu. Bir də yollarda ac-susuz necə qalaq?

– Çörəyi bişir, mən də qoyunları aparım satım, yoxsa qışın bu tüğyanında pəyədə ac-susuz qalmasın, ya da ermənilərin əlinə keçməsin. Sübh tezdən də kənddən çıxaq.

– Hara gedək, kimə pənah aparaq, Qafar? Hamı biz gündədi. Allah bu erməninin evini yıxsın, -Xədicə qəhərləndi, sanki tüstünün acısı çökmüş göz yaşları axıb qızarmış yanaqlarını göynətdi.

– Gecə yatmamışam. Yerimə elə bil qor doldu, kürəklərimi köz yandırdı. Deyirəm yığışıb Çalbayıra gedək. Mən də orda Sultan bəyin dəstəsinə qoşularam. Nə deyirsən, Xəccə? Çox adam gedəcək...

Xədicə işləməkdəm codlaşmış əllərini göyə açdı:

– Təvəkkül Allaha. Sən də Osmandan muğayat ol, – Xədicə

yeniyetməni bağrına basdı, köynəyinə çökmüş qoxusunu içinə çəkdi, uşaq göz yaşını görməsin deyə üzünü çevirdi.

Qafar bir addım da irəli atdı, sonra yenə geri qayıtdı:

– Birdən olar, güllə səsi eşitsən qızları da götür dağlara sarı qaç. Orda gizlənmək asandı.

Qafar dolmuş gözlərini gizlətdi. Amma içindəki fırtınanı gizlədə bilmədi, dayanıb məlul-müşkül baxdı, irəli getməyə qüvvəsi çatmadı, ayaqlarını sürüdü, təkrar geri qayıtdı. Arxasınca boynubükük arvadını, qaçıb özlərini atalarına yetirən qızlarını bağrına basdı.

– Qafar...

– Xəccə...

– Bəlkə elə indi kənddən çıxaq? Camaata hay verim çıxaq gedək.

– Çörəksiz... çətin olar. Onda gecə çıxarıq.

– Qafar, içimdə bir sıxıntı var.

– Erməninin xofudu düşüb içimizə. Hamı başını itirib. Gecələr gözümüzə yuxu getmir. Elə dedin qədəmlərim lap tutuldu. Cəhənnəm olsun qoyunlar da. Buraxıram çöllərə, təki erməniyə qismət olmasın.

– Özün dedin, bəs çörək? Bu uşaqlara nə verək yesinlər? Çalbayıra qədər uzaq yoldu. Yollar da qarlı-boranlı. Qar dizdən.

– Təvəkkül Allaha. Gedirəm, tez qayıdam, sən də əsas çörəkdi, götürərsən, Hazır olarsan.

– Allah amanında.

Təndirin içinə qıpqırmızı qızarmış közün işığı düşmüşdü. Xədicə qalın süfrəni açdı, urvalıq un töküb xəmiri kündələməyə başladı. Bu anda at nallarının səsi gəldi, güllə atıldı və bu səs - küyü batıracaq dəhşətli, tükürpədici fəryad səsləri kəndi çalxaladı. Uşaqlar özlərini analarına yetirdilər. Tir-tir titrəyən, qorxudan əsən qızların ağarmış bənizi, rəngi qaçmış dodaqları, sanki buz salxımı tək kirpiklərindən qırılıb tökülən göz yaşları Xədicənin ürəyini dağladı. Yanan çörəklərin qoxusu ətrafa ya-

yıldı. Xədicə qızlarının qolundan tutub yamaclardan yuxarı qaçmağa cəhd etdi. Bu anda kimsə arxadan qolunu tutdu və sevindiyi açıq-aşkar bilinən, təmiz Azərbaycan dilində ucadan qışqırdı:

– Hara qaçırsız, Xədicə? Qafar səni necə çağırırdı? Xəccəəə...

Xədicə geri çevrildi və qarşısında həyasız baxışlarla gülümsəyən Armaviri gördü.

– Armavir, sən Qafarla qardaş kimiydin, heç olmasa uşaqları xilas elə.

– Qafar hardadı?

Üz-gözünü tük basmış, əynində rus hərbi paltarı, kəmərində tapança gəzdirən erməni Xədicənin qarşısına keçdi. Gözləri bic-bic qıyıldı:

– Qafar sizi atıb gedib. Müsəlman kişiləri belə etibarsızdı. Qızılları gətir, üçünüzü də gizlədim.

– Armavir, sən ki, bilirsən Qafar yetim, kasıb oğlandı.

Qafarın evi kəndin ucqarında axırıncı ev idi. Üzüyuxarı yamac idi. Xədicə ətrafa baxdı, ermənilər hələ ki, görünmürdü. Qışqırıq, bağırtı səsləri getdikcə yaxınlaşırdı. Yanan evlərin alov qarışıq tüstüsü yamaclara tərəf axırdı. Armavir əli tapançanın tətiyində çevrilib bir anlıq geriyə baxdı, Xədicə əyilib ayağının altındakı daşı götürdü və var qüvvəsi ilə Armavirin üzünə çırpdı. Armavirdən boğuq səs çıxdı və üzüüstə düşdü.

Xədicə uşaqlarının əlindən tutdu:

– Yüyürün, qorxmayın.

Amma qaça bilmirdilər. Dizləri bükülür, ayaqları bir-birinə dolaşırdı. Təngiyən nəfəsləri, həyəcan, təşviş, ermənilərin əlinə keçmək qorxusu irəli getməyə qoymur, dişi-dırnaqları ilə qarı xışmalayaraq uşaqlarını ermənilərin baltasından xilas etməyə can atırdı. Bu anda arxadan güllə atıldı və özünü onlara yetirən erməni bağırdı:

– Bunlar Armaviri öldürdülər...

Xədicə süründüyü yerdə donub qaldı, ürəyinin döyüntüsü

sanki qulaqlarına küy saldı, qan gicgahlarına vururdu. Nə fəryad çəkməyə səsi vardı, nə də ağlamağa göz yaşı. Çarəsiz halda uşaqlarını sinəsinin altına aldı. Kök, tösmərək erməni qara quzğun kimi özünü ona yetirib uşaqları əlindən aldı və yamacdan aşağı sürüdü. Xədicənin sanki düyünlənmiş səsi birdən açıldı, əlini atıb yanaqlarında qana bələnmiş iki cığır açdı, qan boğazına sızıb donunun yaxasına bulaşdı. Külək vurub pırtlaşmış, pərişan saçlarını üz-gözünə tökdü. O, qışqıra-qışqıra, bağıra-bağıra fəryad içində uşaqların arxasınca sürünə-sürünə gedirdi. Təndirəsərdən alov qarışıq tüstü qalxırdı. Qızları təndirəsərə tərəf sürüyürdülər. Cavan, saqqalı sinəsinə qədər uzanmış, gözlərində təbəssümü qana bələnmiş kişi qızları qollarından tutub təndirə atdı, sonra da Xədicənin üzünə hırıldadı:

– Gəl çıxar yetimlərini. Biz getdik. Rahatlıqla çıxar.

Uşaqların tükürpədən bağırtısı yanmış çörəyin qoxusuna qarışdı. Xədicə özünü təndirə atdı.

Qadın közlərin üstündə bağrışan, alovdan od tutub yanan, özünü təndirin qızmış divarlarına çırpan qızlardan birinin belindən tutub canı yana -yana, sanki qəddar alovla savaşa-savaşa yuxarı qaldırmaq istədi. Bu anda təndirəsərin üstü də alovlandı. Süfrənin üstünə sanki qırmızı alovdan kəlağayı sərdilər...

... Bağırtı səsləri indi də meydandan gəlirdi. Adamları sürüyüb meydana yığmışdılar. Sanki fəryad içində çırpınan insanlar deyildi. Ağlayan torpaq idi, tüstüsü-alovu ərşə qalxan evlər idi, şahid dağlar, dərə-təpələr idi.

Göy üzü qara buludlarla örtülmüşdü. Bəlkə də ona görə Tanrı bu balaca kəndin müsibətini, əli baltalı cəlladları görmürdü.

... Saçları topuqlarına dəyən Gülayı sürüyüb nəhəng tonqalın yanına gətirdilər. Qızın səsi batmışdı, nə ağlayırdı, nə fəryad çəkirdi. İri gözləri yaşlı ermənidə qalmışdı. Kişi qızın biləklərindən tutub odun üstünə atmaq istəyəndə cavan erməni özünü yetirdi:

– Dayan. Bu uzun saçlı gözələ qıyarlarmı, axmaq? – hörükləri əlinə alıb sığalladı:

– Həmişə arzu eləmişəm ki, nişanlımın bu cür gözəl hörükləri olsun.

Ermənilər ağız-ağıza verib hırıldaşdılar:

– Bəlkə axtardığın gözəl bu müsəlman qızıdı, Qazar?

– Yox, mən erməni qızını sevəcəm. Özü də uzun, ipək hörüklü erməni qızını, – qaşlarını çatıb nifrətlə qızı süzdü və arxasını çevirib göstəriş verdi, – uzun hörükləri kəsib bu kisəyə atın, qızların özlərini isə tonqala. General Andronik belə əmr edib.

... Yeniyetmə qızı tonqaldan kənarda saxladılar. Onun gözəl üzü, iri qara gözləri bu halında da diqqət çəkirdi. Uzun hörükləri açılıb çiyinlərinə tökülmüşdü. Biləklərindən tutub sürüdüklərindən göyərmişdi. Səsi batdığından çığırmırdı, göz bulağı da çeşmə kimi qurumuşdu. Başını çarəsiz halda aşağı dikmişdi. Yalın ayaqları tikan cızıb qanatdığından, daş-kəsək əzdiyindən hələ də qan süzürdü.

Əsgər paltarı geymiş erməni Qazardan soruşdu:

– Bu qızın da hörüklərini kəsirəm.

– Qıza toxunma.

– Niyə? – erməni hiddətlə soruşdu.

– Ona görə ki, bu qızı Andronikə aparıram.

Qız başını qaldırıb key-key, süst halda Qazara baxdı. Bu anda sanki ölüşgəmiş gözləri parıldadı və içindəki nifrəti baxışları biruzə verdi. Elə bil bu an qız vəhşi pələng kimi özünü Qazarın üstə atdı, bir göz qırpımında silahını əlindən çəkib aldı və sonrasını düşünmədən tətiyi çəkdi. Qazar sinəsini tutub iki qat oldu. Qız ikncı gülləni canfəşanlıqla adamları tonqalın yanına sürükləyən və qəddarlıqla işgəncə verən erməniyə tutdu. Üçüncü gülləni öz ürəyindən vurdu.

... Tat kəndi hələ ömründə belə müsibət görməmişdi.

Qana bələnmiş kəndin küçələrinə qırmızı qar yağırdı.

Yanmış evlərin çoxu hələ də tüstüləyirdi və bu evlərin üstünə qara rəngli, qan qoxulu qar ələnirdi...

***

Sisyan qan içində çalxanırdı: Andronikin əsgərləri Bazarçayı istiqamətində dərə-təpələrə, düzangahlara, yamaclara səpələnmiş kəndləri xarabalığa çevirirdi. Tüstüsü, alovu bir -birinə qarışan bu kəndlərin köməksiz əhalisi qılıncdan keçirilir, qan su yerinə axırdı. Sanki göylərdən yerə qanlı yağışlar yağırdı, gözünə qan çilənmiş bulaqlar qan qoxulu laylalar çalırdı. Dəli küləklər haray çəkirdi, son naləni, son fəryadı daşlara, qayalara həkk edirdi. Bu yazılarda Əriklinin, Pulkəndin, Şikarlının, Məliklərin, Saybalının, Əlilinin, Zabazaridin, Qalaçıqın, İridin, Dərəkəndin, Bəhlulinin, Şamın, Dulusun, Şükürbəylinin adı vardı. Sonra bu adların sayı artdı. Otuz bir kənd qanlı çəkmələrin tapdağı altında əzildi.

Qanlı çəkmələr Ermənistanla sərhəd kəndlərinə tərəf irəlilədi. Sanki qan rəngli yanğın dayanıb durmadan, yorulmadan Cağazur, Malıbəyli, Molla Əhmədli kəndlərinə süründü.

***

Sultan bəy aldığı bəd xəbərlərin sarsıntısını biruzə verməməyə çalışdı, burulğan kimi coşan kini, nifrəti içində saxladı. Sultan bəy həmişəki təmkinindəydi. Həmişəki kimi soyuq və sərt görünən sifətində sanki gec-gec görünən qış günəşinin soyuq işartısı vardı. İri gözləri düşüncəliydi və hər kəsi səbrli olmağa, qızğın başla qərar çıxarmağa qoymurdu. Onun ağıllı baxışlarında bir ordunu irəliyə aparacaq qədər inam, cəsarət və cəngavərlik inadı vardı.

Sultan bəy indi də qərargaha toplaşanları soyuqqanlılıqla süzdü, söz deməyə tələsmədi.

Ağamməd yerində rahat otura bilmədi, səbirsiz halda ayağa qalxdı:

– Bəy, məndən olsa bu dəqiqə dəstəmi toplayıb Sisyana adlayaram. Ermənilərin anasını ağladaram. Gözləmək vaxtı deyil, bəy. Ağdü kəndində bu vəhşilər dörd yüz nəfərdən çox arvad - uşağı, qocanı, cavanı məscidə doldurublar. Sonra məscidin damını söküblər. İçərini küləşlə doldurub od vurublar. Dörd yüz nəfər insan yanıb kül olub. Biz nəyi gözləyirik, bəy?

Səslər bir-birinə qarışdı. Sultan bəy əlini qaldırdı:

– Otur, Ağamməd. Andronikin iki minlik nizami ordusu Sisyandadır. Yerli erməni dəstələri də bu orduya qoşulub.

AğamMədi qəhər boğdu:

– Neyniyək, bəy, oturub gözləyəkmi? Onsuz da Azərbaycan hokuməti bizə nə silah göndərəcək, nə də ordu.

– Bakı öz hayındadı, – Çal Aslan yavaş səslə dedi.

– Bakını Nuri paşa xilas edəcək, bəs Zəngəzurun taleyi necə olacaq? – Ağamməd başını yellədi.

Sakitlik yarandı. Sultan bəy oturanlara nəzər saldı, adətiydi: hər deyilən sözə diqqətlə qulaq asardı, sonra öz fikrini bildirərdi. İndi də təmkinini pozmadı. Onun səsində özünə güvənməyi təlqin edən bir hiss vardı:

– Aldığım məlumata görə ermənilər Zəngəzurun içərilərinə doğru hərəkət edir. Biz bütün qüvvələri toplayıb Görus-Sisyan istiqamətində Andronikin ordusunu dayandırmalıyıq. Hazırda bütün kəndlərdən, bütün bölgələrdən Laçına könüllü dəstələr axışıb gəlir. Bu dəstələr iki yerə bölünəcək. Mən Seyid Həmidi və Ağammədi bu dəstələrə komandir təyin edirəm. Burda bir məqam da var, – Sultan bəy, susdu, sonra ağır-ağır sözünə davam etdi, – Döyüşən ordu həmişə məğlubiyyəti də nəzərə almalı və bu anda nə edəcəyini bilməlidi. Əgər düşmənə üstün gələ bilməsək o halda toplar Hocaz dağının təpəsinə çıxarılsın. Topçularımız burda əlverişli mövqe tutsunlar. Burdan Hocaza tərəf hərəkət etmək istəyən düşməni asanlıqla məhv edəcəyik. İndi isə dəstələri təhvil alın. Hərəkət əmri verilən kimi yola düşürük.

– Allah bizə yar olsun.

Əllər Tanriya uzandı...

***

Sultan bəyin gözlərinin içindəki parıltı üzündəki sərtliyi, ciddiliyi, gizli əndişəni, qəzəbi, nifrəti yox elədi. O, ətrafına yığışmış adamları intizarda qoymadı:

-Bakıdan, qardaşım Xosrov bəydən məlumat aldım ki, Qafqaz İslam Ordusu düşmənə qan uddurur, ermənilərin əlində olan bir çox bölgələr təmizlənib. Məğlub olmuş düşmən başını götürüb qaçır. Türklər Bakıya yaxınlaşır. Bakı düşməndən təmizlənsə Qarabağın qara bəxti açılar, Zəngəzurun üzünə gün doğar.

Ağamməd yerində sakit otura bilmədi:

– Yəni inanmaq olar ki, Andronik qan tökdüyü bu torpaqdan asanlıqla əl çəkib gedər? – Ağamməd alovlandı:-Amma mən Andronikin Zəngəzurdan sağ-salamat getməsinə izin verməræm.

– Bu quldurbaşı gedəndə səndən izinmi alacaq, Ağamməd, – Seyid Həmid başını yellədi.

Ağamməd geri çəkilmədi:

– Mən dəli-dolu bir adamam. And ola Allaha, gecə ikən dəstəmi götürüb əsgərləri ilə bərabər onu kilsəyə qataram, sonra da od vurub yandıraram. Küllərini də qoymaram qarışa torpağımıza, kürüyüb tökərəm Zabıx çayına.

Sultan bəyin üzü bulud kimi tutuldu:

– Kaş sən deyən kimi hər şey bu qədər asan ola, Ağamməd. Ermənilər cil atıb bütün Zəngəzura, Qarabağa.

– O halda biz də Nuri paşaya müraciət eliyək. Bizə də kömək etsin.

– Düşmən çox güclüdü. Nuri paşaya da müraciət olunub. Qafqaz İslam Ordusunun bölük komandiri Şevki pasa, sonra Qarabağ məntəqəsinin komandanı İsmayıl Hakkı paşa bölgələr-

də daşnakların apardığı soyqırımlar barədə Nuri paşaya teleqramlar göndərmişlər. Xosrov bəyin dediyinə görə Bakı işğaldan azad edilən kimi Nuri paşa Qarabağa ordu göndərəcək, Zəngəzura da kömək olunacaq.

– Var olsun, Nuri paşanı, – Seyid Həmid hərarətlə dedi, – deyilənə görə paşa çox cavandır. Amma ondakı hünərə, cəsarətə bax.

– Andronikin əsgərlərinin keçib getdiyi yerlərdə kəndlər xaraba qalır, insanlar vəhşicəsinə qətlə yetirilir. Daşnak Şaumyan Bakıda oturub Zəngəzurda olan erməniləri idarə edir. Belə başa düşürəm ki, Andronik nəyin bahasına olursa olsun türklər Qarabağa gəlməmiş ordunu oraya yeritmək, yerli ermənilərlə birləşmək istəyir. Buna görə də biz can bahasına olsa da bunun qarşısını almalıyıq.

– Torpağımız əldən gedirsə canımızı saxlamağa nə hacət var, bəy.

– Qüvvəmizi, silah-sursatımızı, görəcəyimiz işləri bir də gözdən keçirək, Seyid Həmid.

– Oldu, Sultan bəy.

Dəstələrin komandirləri Sultan bəyin başına toplaşdı.

## BEŞİNCİ FƏSİL

# NURİ PAŞANIN ƏSGƏRLƏRİ QARABAĞDA

*... Bizim dili bir, inancı bir, özü bir kardeşlərimiz vardır. Onlara sahib çıxmağa hazır olmalıyız. Hazır olmak yalnız o günü susub beklemek deyildir...*

**Mustafa Kamal Atatürk**

**1.**

Nuri paşa Bakının alınması sevincini çox yaşaya bilmədi. Azərbaycanın bir parçası olan Qarabağ, Zəngəzur od içindəydi, erməni zülmü altında inləyirdi və komandan sanki bu odun içindəymiş kimi rahatlıq tapa bilmırdı. Bir an öncə Qafqaz İslam Ordusunu Qarabağa çəkmək və bu yerlərin oğurlanmış günəşini qaytarmaq, ölüm və qan püskürən savaşını dayandırmaq istəyirdi.

Yavər içəri girdi, əlini gicgahına apardı və məlumat verdi:

– Komandanım, Bakı Qarnizonunun komandiri, yarbay Cəmil Cahid bəy gəlmişdir.

– Buyursun içəri.

Komandan yarbayı hörmətlə qarşıladı, masanın yuxarı başına keçirdi. Komandanın qayğılı, fikirli çöhrəsi yarbayın gözündən yayınmadı:

– Bir şeymi oldu, komandanım?

– Qarabağdan aldığım xəbərlər məni rahatsız edib, yarbay. Biz Gəncədən Bakıya doğru hərəkət edərkən ermənilərin törətdikləri vəhşilikləri görərkən qanımız dondu. Şamaxıda xarabalıqları qalmış məsciddə düz səkkiz yüz nəfər uşaqlı-böyüklü müsəlman yandırılmışdır. İndi də eyni taleyi Qarabağ və Zəngəzur müsəlmanları yaşayır. Özgə torpaqlarından bunlar nə istəyirlər?

– Azərbaycan hökumətinin bu bölgələri qorumağa qüvvəsi çatmır. Yalnız yerli müdafiəçilər daşnakların qarşısını alır, – Cəmil Cahid bəy təəssüflə dedi.

– Qarabağ və Zəngəzurdakı hazırkı vəziyyət Ənvər paşanı da narahat edir. O, Şərq Ordular komandanı Xəlil paşaya göndərdiyi məktubda belə bir məlumat çatdırmışdı ki, Türkiyədə və İranda yaşayan ermənilər Qarabağa adlamaq, bu yerlərin sürətli işğalı üçün daşnaklara kömək etmək istəyirlər. Ənvər paşa buna imkan verilməməsini tələb etmişdi.

İndi isə çox təhlükəli bir vəziyyət yaranıb: əgər türk ordusu müdaxilə etməsə yerli əhali son nəfərinə qədər qətl ediləcək, torpaqlar işğala məruz qalacaqdır.

Nuri paşa əsəbindən və hiddətindən yerində otura bilmədi, əlini masaya çırpdı, qalxıb pəncərənin qarşısında dayandı. Qaldığı otelin pəncərəsindən İsmailliyə binası möhtəşəm görünürdü. Ağır duyğulardan yaxa qurtarmaq üçün üzünü Cəmil Cahid bəyə çevirdi:

– Yarbay, bu binanın tikilmə tarixini bilirsənmi?

– Bakının tarixi ilə maraqlanmağa hələ vaxtım olmayıb, komandanım. Amma çox istəyirəm ki, qədim abidələrə baş çəkim, öyrənim.

– Bu bina haqqında mənə Hacı Zeynalabdin Tağıyev danışıb. Bir milyonerin İsmayıl adında oğlu varmış. Uşaq on beş yaşına çatanda ağır xəstələnir. Onu qurtarmaq mümküm olmur. O zaman Hacı həmin milyonerə deyir: bir bina tikdir, adını da oğlunun şərəfinə İsmailliyyə qoy. O, da əməl edir.

Komandan yenidən masanın arxasına keçdi. Yaraşıqlı çöhrəsini yenidən qara buludlar aldı:

– Azərbaycana türk alayları gələrkən mən onlardan birini Zəngəzura göndərdim. Bölük komandiri Şevki paşadan aldığım teleqram məni çox məyus etdi. Başqa bir teleqram da var. Qarabağ məntəqəsi komandanı, yarbay İsmayıl Həqqi bəy də Qarabağda baş verən hadisələr barədə belə yazır: “... Qarabağda təş-

kil edilən türk milis qüvvələri ilə erməni Andronikin dəstəsinə müqavimət göstərmək mümkün deyil. Tərəflər arasında münaqişələrin böyüməsi halında köməyə ehtiyac var. Qarabağda türklərin mənəviyyatını yüksəltmək və ermənilərə gözdağı vermək üçün kiçik də olsa, bir hərbi birləşmənin Ağdama göndərilməsi vacibdir..."

İsmayıl Həqqi bəyin cavab gözləməyə çox güman ki, səbri çatmamış. İkinci bir teleqram göndərərək bildirmişdir ki, Qafqaz İslam Ordusu təcili hərəkətə keçsin. Əks təqdirdə qısa müddət ərzində Qarabağ bölgəsində yaşayan türklər tamamilə qətl və məhv ediləcəkdir.

– Bəli, orda vəziyyət çox ağırdır, komandanım, – Cəmil Cahid bəy bir anlığa azad etdikləri bölgələrdə ermənilərin törətdikləri vəhşilikləri xatırladı. Ürəyinin başı göynədi. Yanmış, külü çıxmış evlər və bu evlər kimi bərbad könülləri olan gözü yaşlı, dərdli insanlar...

Komandan birdən susqunluğunu pozdu və qətiyyətlə dedi:

– Səni Qarabağa göndərirəm, yarbay. Sən Bakının alınmasında böyük qəhrəmanlıq, şücaət göstərdin. Bunu söz yox ki, tarix unutmayacaqdır. İndi Qarabağın gözü yaşlıdır. Bu göz yaşlarını silmək bizim vəzifəmizə düşər.

Cəmil Cahid bəy ayağa qalxdı, komandanın qarşısında farağat dayandı və əlini gicgahına apararaq ucadan dedi:

– Siz əmr edin, komandanım.

– Otur. Dediklərimə yaxşı qulaq as. Sənin ixtiyarına 1-ci Azərbaycan diviziyası veriləcəkdir. Bu diviziyanın tabeliyində 1-ci, 2-ci, 3-cü süvari alaylar, 2-ci piyada alayı, milli könüllü bölmələr, bir snayder dağ taboru və üç ədəd zirehli avtomobil olacaq. Eyni zamanda Bakı uğrunda döyüşlərdə böyük igidlik göstərmiş 9-cu və 106-cı türk alaylarını da sənin tabeliyinə verirəm. Siz söz yox ki, əlinə yenicə silah götürmüş ermənilərlə yox, nizami ordu ilə üz-üzə gələcəksiz. Amma siz bir başa Şu-

şaya daxil ola bilməyəcəksiz. Çünki Şuşaya giriş qapısı olan Əsgəran boğazı ermənilərin əlindədir.

– Demək onda biz Ağdamda dayanmalıyıq. Qərargahımız da burda olacaq.

– Elədi. Sizin vəzifəniz nədən ibarətdir, yarbay, bilirsənmi? -Nuri paşa xəritəni masanın üzərinə sərdi, – Ermənilər Şuşada Qarabağ qubernatorluğu, Andronik isə Gorusda qubernatorluq yaratmış, özünü isə qubernator elan etmişdir. Bu qubernatorluqlar ləğv olunmalı, hər iki bölgənin erməniləri silahı yerə qoymalı və Azərbaycan hokumətinə tabe edilməlidi.

– Qafqaz İslam Ordusu Bakıdan sonra Qarabağda və Zəngəzurda da ermənilərə qarşı bir savaş açmalıdır.

– Elədir, albay, lazım olsa biz yenə sizə qüvvə göndərəcəyik.

– Aldığım məlumata görə indiyədək Zəngəzuru Sultan bəy adlı bir el qəhrəmanı qoruyub, komandanım. Onun haqqında əfsanələr danışırlar. Çox cəsur, mərd, qeyrətli bir adamdır.

– Sultan bəy Azərbaycan Cumhuriyyətinin müdafiə naziri Xosrov bəy Sultanovun qardaşıdır.

– Doğrudanmı, komandanım? – albay heyrətlə soruşdu, – Xosrov bəyin özü də cəsur bir adamdır. Xoş bir siması var.

– Biz onunla Hacı Zeynalabdin Tağıyevin bizim şərəfimizə verdiyi ziyafətdə tanış olduq. Xosrov bəyin atası da Zəngəzurda igidlikdə ad çıxarıb. Ermənilərin gözünün odunu alıb.

Yarbay başını bulayıb gülümsədi:

– Belə çıxır ki, Zəngəzurda Sultanovlar nəsli, onların mübarizəsi özü bir tarixdir, – fikrə getdi və soruşdu: -Nə vaxt yola düşürük, komandanım? Söz yox ki, erməni zülmü altında inləyən şuşalılar bizim yolumuzu gözləyir.

– Sentyabrın 23-də. Qatarla Yevlaxa gedəcəksiniz, sonra Bərdədən keçib Ağdamda dayanacaqsız.

– Oldu, komandanım.

Nuri paşa dərindən nəfəs aldı. Yeni savaşın gətirdiyi ağır ab-hava, sıxıntı, narahatlıq sanki bir duman kimi onun içinə

çökdü. Hər əsgər üçün keçirdiyi təlaş hissi onu yenidən bürüdü...

***

25 sentyabr 1918-ci il.

Ağdamla Bərdənin arasındakı boş çöllükdə sürətlə çapan, toz-duman içində sanki qanadlanan süvarilər axır ki, şəhərə daxil oldu. İlk gördükləri binaların üstündə dalğalanan Azərbaycan və türk bayraqları oldu. Elə bil onlar da insan kimi sevinirdi, küləklərin təmasından bir yerdə qərar tutmur, şiddətlə çırpınır, türkün qüdrət və əzəmətini günəşin qızılı şüaları ilə səmaya yazırdılar. Bu bayraqlar həm də sevgi və ümidiydi. Yüksəklərdə qərar tutaraq bir tarixi günü yaddaşlara həkk edirdi... Küçələrdə insan seli dayanmadan artır, Ağdamın küçə və meydanlarına sığışmırdı... İnsanlar öz sevincini göz yaşları ilə biruzə verirdilər. Süvariləri salamlayan yüzlərlə əl havada qanad açırdı. Erməni zülmündən əziyyət çəkmiş, könlü doğma ocaqları kimi darmadağın olmuş, əzilmiş və xırpalanmış bu adamlar sanki bu anlarda -əllərini yuxarı qaldırıb süvariləri salamladığı anlarda başlarının üstündəki dolmuş qara buludları dağıdır və öz şükran duyğularını coşqu ilə türk əsgərlərinə yetirirdilər.

Alqış səsləri şəhərin başına sanki sevinc qəlpələri kimi yağdı:

– Yaşasın Nuri paşa!

– Eşq olsun türk əsgərinə!

– Var olsun Azərbaycan və Türkiyə!

Ağdam bu cosquyla, bu sevinclə gecəni də oyaq qaldı...

***

Komandan Cəmil Cahid bəy qərargahda bölük komandiri Mücib Kamalyeri ilə komandirlərin gəlişini gözləyirdi. Yarbay Qarabağın xəritəsini gözdən keçirdi və qələmi Əsgəranın üzərində saxladı:

– Əsgəran görəsən burdan çoxmu uzaqdır?

– Xeyr, komandanım, cəmi yeddi kilometrlik məsafə var.

– Şuşa necə, uzaqdırmı?

– Xeyr, komandanım. Şuşadan Əsgərana iyirmi dörd kilometr yol var.

– Amma biz Şuşaya döyüşsüz girə bilməyəcəyik. Ermənilər Əsgəran boğazını işğal edib. Kəşfiyyatın verdiyi məlumata görə ermənilər burda möhkəm mövqe tutub. Topları elə yerdə gizlədiblər ki, güclü bir ordunu belə burda asanlıqla məhv edə bilərlər. Əsgəran həm düşmən üçün, həm də bizim üçün strateji cəhətdən çox əhəmiyyətlidi. Amma... çalışıb onu itkisiz almalıyıq.

– Mənə elə gəlir ki, Şuşada erməniləri ipə-sapa yatırmaq çox çətin olacaq, – bölük komandiri bildirdi.

– Mən də elə düşünürəm. Nuri paşanın tapşırdığı kimi Azərbaycan hokumətini tanımaq və silahı yerə qoymaq haqqında ermənilərə ultimatum verməliyik. Çox güman ki, Bakının azad edilməsi ermənilərin gözünü qorxutmuşdur. Onlar türkün gücünə bələd olmuşlar.

Bu anda yavər içəri girdi və əlini gicgahına apardı:

– Komandanım, Şuşadan beş nəfərlik bir nümayəndə heyəti gəlib.

Cəmil Cahid bəyin çöhrəsində təbəssüm göründü:

– Mən dedim axı, düşmən türkün gücünü görmüş, nəyə qadir olduğunu anlamışdır. Gəlsinlər.

Aralarında olan ən yaşlı erməni Cəmil Cahid bəyin qarşısında əlini sinəsinə qoyub yüngülcə baş əydi və özünü təqdim etdi: Aşot Məlik Osipov. Nümayəndə heyətinin başçısı.

O birilər də özlərini təqdim etdilər: Arşavir Kamaelyan, Gerasim Məlik Şahnazaryan, Ayrapet Musaelyan və Danil Arakelyan.

Beşi də üzdə mülayim görünsələr də gözləri acıdılmış canavar gözü kimi öfkədən işıq saçırdı. Amma Cəmil Cahid bəyin sərt, ciddi sifətini görəndə sanki bu öfkəli işıq söndü, gizlicə baxışdılar, üzlərində xəfif bir təbəssüm masanın ətrafında əyləşdilər.

Komandan üzünü tərcüməçiyə tutdu:

– Onlara de ki, ermənilər silahı yerə qoyana qədər Ağdamda girov qalacaqlar.

Osipovun rəngi avazıdı, əsəbi hal keçirdiyindən üzünün bir tərəfi səyridi, azca yerindən dikələrək dilinin acısını komandanın üstünə tökmək istədi. Yanında oturmuş Ayrapet Musaelyan gizlicə Osipovun yanını basdı və üzünü Cəmil Cahid bəyə tutdu:

– İcazə verin, mən sizinlə təmiz bildiyiniz alman dilində danışım. Cənab komandan, tərksilah və tabe olmaq haqqında ultimatum və tələblər sülh işinə xidmət edə bilməz. Onlar yalnız Qarabağ xalqının qəzəb və nifrətinə səbəb ola bilər. Bunun nəticəsini anlamaq da çətin deyil. Siz yəqin ki, yaxın gələcəkdə keçiriləcək və üç Zaqafqaziya respublikasının sərhəd məsələsini həll edəcək Konstantinpol konferensiyasından xəbərdarsız. Nəyə görə onun qərarını gözləməyək? Cənab komandan, məsləhətim budur ki, Qarabağ erməniləri ilə dost və sülh dilində danışın və vəziyyətin mürəkkəbləşməməsi üçün bizə azad surətdə Qarabağa qayıtmağa icazə verin.

Ayrapet üzünü çevirib qərargahın həyətinə baxdı. Həyətdə xeyli silahlı əsgər vardı. İki nəfər silahlarını çiyinlərinə salaraq qapının yanında keşik çəkirdi. Həyətdən xeyli kənarda çadırlar qurulmuşdu. Bura əsgər düşərgəsiydi. Toplar və zirehli maşınlar gözə dəyirdi. Ayrapet əsgərləri qanlı-qanlı, hiddətlə süzdü.

Cəmil Cahid bəy yerindən qalxdı, gəzindi, sanki içindəki hiddətin ötüb keçməsini, sakitləşməsini gözlədi və təmkinlə dedi:

– Biz çoxdan sizinlə sülh dilində danışmağa hazırıq. Amma siz... hələ də qan tökməkdə davam edirsiz.

Ayrapet özünü saxlaya bilmədi, hikkədən titrəyən səsində hədə duyuldu:

– Cənab komandan, Qarabağ qorxmağa və müti olmağa adət etməmişdir. Düşmən bizim qabağımızda silahını oynatmağa başlayanda bu böyük qan tökülməsinə səbəb ola bilər. Nəticəsi isə hər iki tərəf üçün eyni səviyyədə ağır ola bilər. Tarixin

dərslərini yaddan çıxarmayın. Qarabağ ermənilər bütün tarix boyu birinci dəfə deyil ki, osmanlıları sərhədlərində qarşılayırlar. Əgər unutmamısınızsa, Qarabağ sizin ordu ilə "görüş" zamanı heç vaxt məğlub olmamışdır.

Musaelyanın qırışlı sifəti qızarmışdı, əsəbi hal keçirdiyindən çənəsi aramsız titrəyir, sarı, seyrək kirpiklərinin arasından gözləri qəlbindəki nifrəti püskürür və şəhadət barmağını havada oynadaraq hədə gəlir, bununla da elə bil komandanın ruhunu qırmaq istəyini biruzə verirdi.

Cəmil Cahid bəy gözlərini qıyaraq onu heyrətamiz səbr və təmkinlə dinləyirdi. Onun bir türk zabitinə xas olan mərd baxışlarında düşmənlə yenidən savaşa girmək cəsarəti və inadı vardı.

Cəmil Cahid bəy Musaelyana cavabı yubatmadı:

– Keçmişi tarixdə saxlayaq. Bu gün bizim qüvvələrimiz məğlubedilməzdir. Biz Bakı uğrundakı döyüşlərdən qalib çıxdıq. Orada bizə qarşı əksərən Qarabağ erməniləri vuruşurdular və onlar ağır məğlubiyyətə düçar oldular.

Musaelyan yerindən dikəldi, nəsə demək istədi, amma komandan ona məhəl qoymadan sözünə davam etdi:

– Hətta ingilislər də sizə kömək edə bilmədilər. Şaumyan uduzdu. Burda da ingilislərə aldanıb ağılsız bir savaş içindəsiniz. Silahı yerə qoyun, Azərbaycan hokumətinə tabe olun. Əks təqdirdə orduya Şuşaya hərəkət əmri verəcəyəm.

Ermənilərin fikri əsgər çadırlarının yanındaydı. Oğrun-oğrun bayıra baxır, baxışır, nifrətlərini açıq-aşkar biruzə verirdilər.

Komandanın sözlərindəki hədə ermənilərin heysiyyatına toxundu. Aşot Məlik Osipov mızıldandı:

– Biz qurultay çağırmalıyıq. Bu məsələni Qarabağ erməniləri müzakirə edib qərar verməlidirlər.

– Lakin bu torpaqlar Azərbaycanındır, siz ermənilər buna necə qərar verə bilərsiz? Bu torpaqlara köçüb gələn, burda məskən salan sizin ata-babalarınızdır.

– Biz Qarabağ erməniləri adından vəd verə bilmərik.

Komandanın səbri daşdı, daha əsəblərini cilovlaya bilmədi:

– O halda mən sizin üçünüzü həbs edirəm. İki nəfər isə Şuşaya qayıdır və mənim ultimatumumu milli şuranıza çatdırır. İki gün sizə vaxt verirəm. Əgər tələblərimi qəbul etməsələr biz Şuşaya girmək məcburiyyətindəyik.

Arşavir Kamalyan, Aşot Məlik Osipov və Gerasim Şahnazaryan girov saxlanıldı, Ayrapetlə Danil isə Şuşaya yola salındı.

**2.**

1 oktyabr 1918-ci il.

Nuri paşanın Ağdama gəlmək xəbəri sürətlə yayıldı. Sübh tezdən şəhərin küçələri adamla doldu. Nuri paşanı görmək, əllərinə toxunmaq, səsini eşitmək həvəsi ilə insanlar qorxu və vahimə dolu sıxıntılı bir həyat yaşadıqlarını o anda unutdular, Bakı fatehini qarşılamaq üçün gözlərində qaynayan göz yaşları ilə meydana tələsdilər. Solğun bənizli, nimdaş paltarlı, amma gözlərində, ürəklərində daşıdıqları sevinclə uşaqlar qarğı atların belində şəhərdən kənarda Nuri paşanı qarşılamağa getdilər. Bu heç bir vaxt yaddan çıxmaz, hafizələrdə daim bir nağıl kimi qalan, əfsanələşən bir görüş olacaqdı...

Irəlidə əvvəlcə tozanaq qalxdı. Sonra elə bil toz-duman irəliyə yeridi və bu toz-dumanın içindən sürətlə qaçan atlar göründü. Bunlar Nuri paşanın süvariləriydi.

Yolda dayanmış qarğı atlar da hərəkətə gəldi. Uşaqlar əllərində tutduqları çubuqla qarğı atları vurur, bir-birini qabaqlayaraq Nuri paşanı ilk olaraq qarşılamağa can atırdılar. Birdən qarğı atlar dayandı. Ürəklərin şiddətli döyüntüsü daha irəli getməyə qoymadı. Çətinliklə nəfəs alır, uzaq yollarda gücləri tükəndiyindən pərişan halda dayanıb gözləyir, onları ötüb keçən atlıların arxasınca həsədlə, gözləri yaşarmış halda baxırdılar.

Süvarilər qarğı atların qənşərinə çatanda atların cilovunu çəkib saxladılar. Uşaqlar yaş dolu gözləri ilə onları heyran-heyran süzdülər. Yaraşıqlı cavan komandan atdan düşdü və uşaqla-

ra yaxınlaşdı. Uşaqların ən böyüyü həmin anda irəli gəldi və Nuri paşanın əlindən tutdu:

– Xoş gəlmisiz Ağdama, komandan.

– Mənim kim olduğumu bilirsizmi?

– Bildiyimizə görə buralara qədər gəlmişik.

– Onda söyləyin görək Nuri paşa kimdi?

Kənarda dayanmış sarıbəniz uşaq irəli gəldi:

– Nuri paşa ermənilərin qənimidi.

– Bunu sizə kim deyib?

– Böyüklərimiz. Onlar deyirlər ki, sizi bizə Allah göndərib ki, bizi ermənilərdən xilas edəsiniz. Siz Bakını da xilas elədiz.

– Sənin adın nədi?

– Qalib. Amma sən komandana oxşamırsan axı.

– Niyə?

– Çünki çox cavansan.

– Doğrudanmı?

Süvarilər də gülüşdülər. Uşaqlar Nuri paşanı dövrəyə aldılar. Gözlər parıldayır, çöhrələr gülürdü. Sanki onlar bu qəhrəman paşaya olan sevgilərini kiçik ürəklərinə sığdıra bilmirdilər. Bu sevgi gözlərində aşıb daşırdı. Və çox güman ki, ömürlərinin axırına qədər bu sevginin təsirində yaşayacaq, qarğı atlarını, paşa ilə görüşlərini əziz bir xatirə kimi ürəklərinin başında saxlayacaqdılar.

Şəhərdə isə komandanın yolunu yüzlərlə insan gözləyirdi.

... Nuri paşa ilk əvvəl əsgərlərlə görüşdü. Onları qarşıdakı döyüşlərə ruhlandırdı. Axşam isə qərargahda yarbay Cəmil Cahid bəylə, komandirlərlə söhbət apardı. Ermənilərə verilən möhlət bitmişdi. Şuşaya hücum planını müzakirə etdilər.

Cəmil Cahid bəy dedi:

– Kəşfiyyatın məlumatına görə ermənilər Əsgəran keçidinə xeyli qüvvə toplamışlar. Əsgərana gedən yol ciddi nəzarət altındadır. Yüksəkliklərdə xeyli top gizlədilib, hər hansı bir qüvvə görünən kimi atəş açmağa hazırdır.

– Təklifin nədir, yarbay? – komandan xəritəni nəzərdən keçirdi.

– Təklifim belədi, komandanım, 1-ci Azərbaycan alayını ehtiyat üçün Ağdamda saxlayaq. 2-ci Azərbaycan alayı isə bax burdan, – yarbay xəritədə Kalbuk-Daşbaşı kəndini göstərdi, – burda saxlayaq. 9-cu Qafqaz alayı Minkənd-Ağbulaq tərəfdən hücuma keçsin.

– Söz yox ki, bu alayın əsgərlərini topçu batareyası qoruyacaqdır.

– Müharibədə qazandığımız təcrübə bizə bunu öyrədib, komandanım. Topçu batareyası düşmənin güclü mövqelərini zəiflədir, düşməni çaşdırır və eyni zamanda əsgərləri də qorumuş olur. Buna görə də iki topçu batareyasının arxasınca 9-cu Qafqaz alayı hərəkət edəcəkdir.

Əsgəran dağlıq ərazidir. Düşmən qüvvələri isə Əsgəranın yuxarı hissəsində yerləşir. Topları gündüz yamaclardan yuxarı qaldırsaq ermənilər onları asanlıqla vuracaqlar. Ona görə də düşünürəm ki, əsgərlərimiz gecə yarısı düşmənin arxasına keçsin və qəflətən, düşməni ayıq salmadan hücuma başlasın.

– Əsgərlərimiz düşmən üzərinə süngü ilə hücum edəcəkdir, ilk növbədə bu hücumda toplar susdurulacaq. Silahlı hücum zamanı isə əsas mövqelərin sıradan çıxdığını görən düşmən ruhdan düşəcək. Ruh düşgünlüyü onları mütləq məğlubiyyətə aparacaqdır.

– Elədir, komandanım.

Müzakirə xeyli çəkdi.

***

Gecələr müsəlman məhəllələrinə yaxın olan erməni məhəlləri yatmırdı. Çıraqlar közərir, qapılar səssiz açılır, küçələrə gizlicə çıxan ermənilər basqınlar, talanlar, qətllər törədirdi.

... Simonla Varsenik ayaqlarını taxta pillələrə qoyub yuxarıya boylandılar. Pəncərədə çırağın zəif şöləleri əks olunurdu.

Ay ulduzların arasından çıxıb başlarının üstə dayandı. Ətraf qaranlıq idi. Yalnız ulduz işığı həyəti zorla işıqlandırırdı. Şəhərin aşağı məhəllələrində tək-tək güllə səsləri eşidilirdi.

Simonun şərab qoxuyan nəfəsi Varsenikin üzünə vurdu:

– Öyrəndinmi, bəlkə evlərində heç kəs yoxdur?

– Səməd kişi türklərə qoşulub, axmaq, bizə güllə atacaq.

– Arvadı və iki uşağı evdə qalıb?

– Hə. Ucadan danışma. Duyuq düşərlər.

– İndi neyniyək? Öldürək, yoxsa zirzəmiyə salıb evi yandıraq?

– Məncə zirzəmiyə salaq. Əşyaları, qızılları götürüb gizlədək, ən axırda...

– Bəlkə qızıl yoxdu, boş-boşuna gedirik?

– Var, gizlətdiyi yeri də bilirəm. Amma məncə evi yandırmayaq.

– Niyə?

– Çünki bu ev Şuşada ən yaxşı evlərdən biridi. Özümüzə götürək. Türklər çıxıb gedəcək.

– Bu evdə mənim də gözüm vardı.

... Zəhragil səslərini çıxarmağa macal tapmadılar. Simonla Varsenik onları zirzəmiyə aparıb əl qollarını bağladılar və bir küncə atdılar.

Simon yuxarı qalxdı. Varsenik əllərini belinə vurub Zəhranın qarşısında dayandı:

– Türklərə arxalanmayın, axırınız çatıb. Amma mən istəmirəm ki, bu mülk başqasına qismət olsun.

– Varsenik, sən nə vaxtdan belə bizə düşmən kəsildin, acımasız oldun?

Varsenik barmağını onun üstünə silkələyib hədələdi:

– Danışma. Öldürrəm hamınızı.

Uşaqlar o anda səslərini kəsdilər, analarının sinəsinə sığındılar.

Varsenik zirzəminin küncündəki baltanı götürdü, Zəhragilə baxa-baxa baltanın tiyəsini yoxladı, gülümsünüb onu təkrar küncə qoydu.

Qorxudan bağrı yarılmış uşaqlar səs çıxarmamağa çalışaraq içlərini çəkdilər.

Varsenik təkrar yuxarı qalxdı. Yuxarıda üçüncü bir adamın da səsi gəldi. Zəhra bu səsləri ayırd eləməyə çalışdı, amma səslər boğuq gəlirdi. Əlləri arxada möhkəm bağlanmışdı. Kəndirlərin yeri göynəyirdi. Zəhra Mirbağırın qulağına pıçıldadı:

– Bax gör, kəndiri açmağa gücün çatarmı? Onların başı qarışıqdır.

Mirbağır əlləri, dişləri ilə kəndirin düyünlərini açmağa çalışdı. Həyəcandan, qorxudan əlləri əsir, kəndirin düyünləri tilsimə düşmüş kimi açılmaq bilmirdi.

Zəhra oğluna ürək-dirək verdi:

– Tələsmə, oğlum, yuxarıda onların başı qarışıqdır, qızılları axtarırlar. Varsenik, canavar, daha başa düşmür ki, mən onu evdə gizlətmərəm. Varımız-yoxumuz o qızıllardır.

– Qızıllar hardadı, ana?

– Oğlum, narahat olma. Etibarlı yerdədi. Əgər lazım olsa mən onu silah almaq üçün ordumuza bağışlayacam.

Mirbağır razılıqla başını tərpətdi:

– Qoy Şuşaya bizim də xeyrimiz dəysin.

Düyünün biri açıldı, kəndir boşaldı. Mirbağır atılıb düşdü:

– Tez qalx ana, xilas olduq, zirzəminin qapısı açıqdı.

Yuxarıda pəncərənin ikisində də işıq yanırdı. Küçəyə çıxanda yaxınlıqdan bir türk süvarisi keçib getdi. Mirbağır təəssüflə dedi:

– Kaş onu saxlada bilərdim.

İki məhəllə o tərəfdə Varsenikgilin ikimərtəbəli evi göründü. Ev zil qaranlıq içindəydi. Zəhra ayaq saxladı:

– Mənim mülkümə sahib çıxırlar. Bizi ölümlə hədələyirlər. Nankorlar. Əlini cibinə atdı: ocağı yandırmaq üçün kibriti daim cibində saxlardı. Mirbağırla Qasıma tərəf çevrilib pıçıltı ilə dedi:

– Siz küçədə gözləyin, heç nədən qorxmayın, gəlirəm.

Az keçmədi ki, yüyürə-yüyürə özünü küçəyə atdı. Arxasındakı mülk nəhəng tonqal kimi alovlanırdı...

**3.**

Yarbay Cəmil Cahid bəylə bölmə komandiri Mücib Kamalyeri astadan danışır, pəncərədən xeyli uzaqda görünən başı qarlı dağları seyr edirdilər. Dağların üzünü duman-çən örtmüşdü. Başının üstündə mavi səmada ağappaq buludlar süzürdü. Könülləri qəriblik havası ilə doldu, sanki bir anlıq doğma yurdun, isti ocağın ətrini duydular. Əziz adamların həsrət çəkməkdən yorulmuş baxışlarını, uzaqlarda dayanıb üzü onlara sarı bayraq kimi yellənən əllərini gördülər. Və ikisi də əsgər olduğunu unutdu, uşaq kimi ana qucağını arzuladılar...

Cəmil Cahid bəy astadan öskürdü, elə bil ürəyinin tellərini qəmli-qəmli dindirən o səsləri, o səslərin oyatdığı hüznlü duyğuları içindən çıxardı və sərt halda dedi:

– Ermənilərə verdiyimiz möhlət qurtardı.

– Demək ki, dua etməklə donuz darıdan çıxmaz.

– Nuri paşa da gedərkən bizə tövsiyə etdi ki, möhlət qurtaran kimi hərəkətə keçin. Oktyabrın 4-də gecəyarısı orduya Şuşaya hərəkət əmri verəcəyəm.

– Oldu, komandanım.

Mücib Kamalyeri getdi. Cəmil Cahid bəy pəncərənin önündə dayandı. Sanki bir anlıq yenə də hərbiçi olduğunu unutdu. Həyətdə sıx ağacların qızılı yarpaqlarına baxa-baxa elə bil içində də xəzan ətirli duyğular oyandı. Müharibə alovları içərisində gənclik sevgisi də beləcə qızılı yarpaqlar kimi saralıb soldu, onlardan nişanə yalnız xəzan ətirli xatirə qaldı...

***

Əsgəranda güclü mövqe tutmuş ermənilər gecənin rahat, şirin yuxusu içindəydi. Keşik çəkən erməni əsgərləri aşağı yuxarı addımlayır, eşidilən hər səsə diqqət kəsilirdilər.

Bölük komandiri Mücib bəy irəliyə iki kəşfiyyatçı göndərdi. Ay işığında Əsgəran qalası aydınca seçilirdi. Aşağılarda Qarasu çayının qara parlaq suları axıb gedirdi. Kəşfiyyatçılar qa-

yıtdı. Mücib bəy bir dəstə əsgəri irəli göndərdi. Çox keçmədi ki, bağırtı, fəryad səsləri eşidildi və yenə də sakitlik çökdü. İlk top atəşindən sanki dağ-daş lərzəyə gəldi. Çadırlardan çıxan əsgərlər başılovlu qaçır, türklərin hardan və necə gəldiyini təxmin etmədən atəş açır, canlarnı qutarmağa çalışırdılar.

Səhər açılanda düşmən təslim oldu. Lakin Əsgərana yaxın olan Əyrikənd ətrafında ermənilər bütün qüvvələrini toplayıb türklərin əks-hücumunun qarşısını almağa çalışdı. Döyüş şiddətləndi. Daşnaklar Əsgəran məğlubiyyətini sinirə bilmədilər. Hər daşın, qayanın, hər evin arxasından türk əsgərlərinin üstünə atəş püskürürdü. Düşmən nəyin bahasına olursa olsun Əsgəranı yenidən işğal etmək, türklərin Şuşaya hərəkətini dayandırmaq istəyirdi. Lakin yenə də ağır məğlubiyyətə uğradılar: Əyrikənd düşməndən təmizləndi, ermənilər geri çəkildi.

Cəmil Cahid bəy Nuri paşaya zəfər müjdəli raport göndərdi: "Ermənilər Əyrikənd ətrafına toplanaraq müqavimət göstərmək istəsələr də topçu qüvvələri ilə məzkur məhəllə bombardman olduqdan sonra qaçmalı olmuşdular. Abdallarda təmsil ediləcək komisiyona silah verəcəklərini vəd etmişlər. Xanabad, Qılınclı və Kətik kəndlərindən qaçan əhali gəlməkdədir və silahı təslim etməyə hazır olduqlarını bildirsələr də çox az silah yığılıb. Sabah Xankəndi üzərinə hərəkət edəcəyəm. İndi Şuşa tərəfindəki bütün kəndlərə silahlarını Əsgərana gətirmək xəbəri edilmişdir..."

... Qafqaz İslam Ordusunun Əsgəranı işğal etməsi və Şuşaya gəlməsi xəbərindən sanki şəhər nehrə kimi çalxandı. Bu xəbər bir anda müsəlman məhəllələrinə ildırım sürəti ilə yayıldı, günəş işığı kimi evlərə doldu, sıxıntılı havanı dəyişdi, qazılan səngərlər yarımçıq qaldı.

... Erməni milli şurasında görünməmiş bir həyəcan, narahatlıq vardı. Xəbəri eşidib təşvişə düşən erməni fəalları milli şuraya axışırdı. Həyət adamla doldu. Silahlı ermənilər gələnləri geri qaytarırdı. Az keçmədi ki, küçələrdə də qələbəlik yarandı. On-

ların arasında silahlı ermənilər də vardı. Onlar səslərini ucaldaraq erməniləri, Şuşaya tərəf hərəkət edən türkləri atəşlə qarşılamağa, ölüm-dirim savaşına girməyə təhrik edirdilər.

Ayrapet Musaelyan çarəsiz halda pəncərədən həyətə boylandı, kükrəyən izdihamı gördü və əlini yelləyərək bayıra çıxdı. Əlini yuxarı qaldırıb gur səslə bağırdı:

– Ağılsız hərəkətə yol verməyiniz təhlükəlidir. Sizi səbirli və təmkinli olmağa çağırıram. Biz Ağdamda Qafqaz İslam Ordusunun gücünü gördük. İndiki halda biz onlarla savaşa girə bilmərik. Əks təqdirdə məğlub olarıq. Onlar Əsgəranda bizim nizami orduya, yaxşı silahlanmış əsgərlərimizə üstün gəldilər. Hadisələrin gedişini gözləyək və tədbirlərimizə davam edək. İndi isə dağılışın.

Əlində silah, gözləri canavar gözləri kimi alışıb yanan və ürəklərində nifrət dalğasını heç cürə cilovlaya bilməyən bu adamlar Musaelyanı sakitcə dinlədilər və birdən yenə də alovlandılar. Düyülmüş yumruqlar havada oynadı. Var qüvvələri ilə çığırır, savaş istəyirdilər.

Osipov da izdihamın qarşısına çıxdı:

– Savaşa indimi getmək istəyirsiz? Siz türklərlə savaşmaqmı istəyirsiz? Unutdunuzmu ki, bunlar həmin türklərdir ki, rusların, ingilislərin silahlandırdığı güclü bir ordunu məğlub etdilər. Şaumyanı yumruqlarının içində sıxıb, əzib kənara atdılar. İngilisləri diz çökdürdülər. Bakı üzərində zəfər çaldılar. Şuşaya gələn türk ordusunun komandanı Cəmil Cahid bəydir. Bizim komandanlar kimi təcrübəsiz və qorxaq deyil. O, Əsgəranı işğal etdi. Özü də itki vermədən. Başa düşdünüzmü? Gedin bizim verəcəyimiz qərarları gözləyin. Kimsə əmrimiz olmadan silaha əl atmasın.

Səs-küy yenə qalxdı. Sonra yavaşıdı. Sanki canavar gözlərin atəşi söndü, məlul-məyus, pərişan halda dağılışdılar.

... Otağın ab-havasındakı gərginlik üzlərə, gözlərə sirayət etmişdi. Kimsə çıxış yolu tapa bilmirdi. Osipov əlində oynatdığı tapançanı masanın üstə atdı:

– İndi biz nəyi müzakirə edirik? Savaşdan geri çəkilərək silahları təhvilmi verək? Biz türk komandanı Cəmil Cahid bəyə təklif etdik ki, silahların təhvil verilməsi və Azərbaycan hokumətinə tabe olmaq qərarı bizlik deyil. Qurultay çağıraq və bu məsələni müzakirə edək. O, razılaşmadı.

Arşavir hiddətlə dedi:

– Bütün Qarabağ erməni silahlıları ilə doludur. Biz elə güman edirdik ki, türklər Əsgəranı alsalar Xramord, Xanabad, Daşbaşı, Aranzəmin, Qarakənd ətrafındakı silahlı erməni dəstələri onları Şuşaya tərəf irəliləməyə imkan verməyəcək. Əsgərləri son nəfərinə qədər məhv edəcək, üstəlik çoxlu qənimət ələ keçirəcəklər.

Şahnazaryan kinayə ilə başını buladı:

– Arşavir, Şaumyan türklərin Gəncədən Bakıya gəlişini əngəlləmək istədi. Lenindən canlı qüvvə və silah –sursat aldı. Amma yenə də bacarmadı.

– O halda gəlin bu gecə Şuşada soyqırım aparaq. Türklər gəlib yanmış evlərə sahib olsunlar, – Osipov nigarançılıqla cavab gözlədi.

– Biz özümüzü türk ordusuna qarşı qoya bilmərik. Biz burda hiylə işlətməliyik. Üzdə özümüzü elə göstərməliyik ki, guya Azərbaycan hokumətinə tabeyik. Köhnə, yararsız silahları da təhvil verərik.

– Osipov düz deyir, – yer-yerdən təsdiqlədilər, – gözləməkdən başqa çarəmiz yoxdur...

***

8 oktyabr 1918-cu il.

İlk türk süvari dəstələrinin Şuşaya daxil olması möhtəşəm idi. Onların arasında Cəmil Cahid bəy ağ atın üstündə şahanə oturuşu, cəngavər görünüşü ilə seçilirdi. Dəfələrlə müharibələrdə iştirak etmiş, dəfələrlə düşmənə zəfər çalaraq bu ali duyğuları bütün həyəcanı ilə yaşamış yarbay o anlarda minlərlə insanın

gözlərindən axan göz yaşlarının, Tanrıya uzanan əllərinin, dualar pıçıldayan qəlblərinin şükran duyğulu səsini eşitmişdi və kövrəlmişdi.

Süvarilər Şuşa qalasından içəri girəndə də Cəmil Cahid bəy qaladan şəhərin mərkəzinədək uzanan yollarda yüzlərlə gözüyaşlı insanlar gördü. Onlar sevincdən ağlayırdılar və sel kimi axan göz yaşları içində əllərindəki üçrəngli Azərbaycan və alov kimi alışıb yanan qırmızı türk bayraqlarını başlarının üstə qaldırmışdılar. Bayraqlar dalğalanır, izdiham ağlayır, süvarilər izdihamın qarşısından keçib gedirdilər. Alqış səsləri yeri-göyü titrədirdi:

– Yaşasın Türkiyə!

– Var olsun türk əsgəri!

– Eşq olsun Nuri paşaya!

Səslər qoşa bayraqlar kimi yüksəklərdə qanadlandı, qardaşlıq, dostluq himni kimi səsləndi, Şuşa dağlarının başındakı çəni-dumanı dağıtdı.

Qalaya yaxın yerdə geniş meydanda qara çərkəzi paltar geyinmiş yeniyetmələr göründü. Oynaq misiqi səsləndi. Süvarilər atdan yendilər. Milli paltar geyinmiş gənc qızlar sinidə duz-çörək gətirdilər. Cəmil Cahid bəy ehtiramla əlini siniyə uzatdı.

Qarşılanma mərasimi sona yetdi. Cəmil Cahid bəy üzlərində təbəssüm, gözlərində göz yaşı ilə onları seyr edən izdihama üzünü tutdu:

– Biz bura xoş niyyətlə gəlmişik. Bizim məqsədimiz qan tökmək deyil. Əksinə sakitlik yaratmaqdır. Dövlətin bütün xalqları eyni hüquqlara malik olacaqdır. Hamı öz hökumətinin hakimiyyətini tanıyacaq və dinc əmək fəaliyyətinə başlayacaqdır.

... Cəmil Cahid bəy elə həmin gün Nuri paşaya müjdə xəbərli raportunu göndərdi: “... səhər saat 9.30-da müvəffəqiyyətlə Şuşa qalasına girilmiş, əhaliyi-islamiyyə və xristianiyyə tərəfdən qarşılanma olmuşdur... Bura gəlincə ermənilərdən bir komisyon təşkil edərək əhalinin asayişinin təmin edilməsi,

adamların işlə məşğul olması, silahların yığılması vəzifəsini tapşırdım...”

***

Cəmil Cahid bəylə Mücib Kamalyeri Şuşaya yenicə gəlmiş Sultan bəylə şəhərin müsəlman və erməni məhəllələrini gəzdi. Türklərin gəlişi ilə Sultan bəyin qaşlarının düyünü açılmış, sıxıntıdan, həyəcandan kölgələnən gözlərinin, boğulmuş sifətinin rəngi dəyişmişdi...

... Şuşanın sərt qış havasına oxşar hüznlü və kədərli görkəmi vardı. Hər tərəfdə səngərlər qazılmışdı. Torpaq qalaqlarının üstə dayanmış uşaqların məsum üzlərində, gözlərində türklərin gəlişi ilə sanki qəfil çıxan günəşin şüaları əks olundu. Onların çox aclıq çəkdiyi nimdaş paltarlarından, solğun üzündən və kədərli gözlərindən bəlliydi.

Uşaqlardan aşağıda əlində özündən böyük bel götürmüş uşaq başını yuxarı qaldırmadan ciddi-cəhdlə torpağı qazırdı. Cəmil Cahid bəylə Sultan bəy onun başı üstündə dayandı. Sultan bəy oğlana səsləndi:

– Bir əl saxlasana.

Oğlan başını qaldırdı, üz-gözündən isti tər axırdı. Çox güman ki, susuzluqdan dodaqları qızarıb cadarlanmışdı. Sultan bəy dizlərini qatlayıb torpaq qalağının yanında çöməldi:

– Böyüklərin saxladığı işi sən niyə görürsən, oğlum?

Oğlan beli yerə atdı:

– Mən heç olmasa səngəri gündüz qazıram. Amma ermənilər hamıdan gizlin gecə qazırlar.

– Buna əminsənmi?

– Görürəm, onları izləyirəm. Ermənilər sizi aldadır, yalan danışır.

Cəmil Cahid bəy əl atıb uşağı səngərdən çıxardı:

– Sən cəsur oğlana oxşayırsan. Adın nədi?

– Cəngavər.

– Mən qərargaha qayıdan kimi səngərlərin doldurulmasını əmr edəcəyəm.

– Sultan bəyi tanıyıram, -uşaq Sultan bəyə sığındı, – yəqin ki, siz də türk komandirisiz?

– Elədi. Məndən bir istəyin varmı, cavan oğlan?

– Var, – üzünü Sultan bəyə tutdu, – mənə tüfəng versin. Atmağı öyrənəcəm.

– Yaşın çatmaz.

– Atamı ermənilər öldürdü. Anamla bacım qalıb. Evdə kişi xeylağı bircə mənəm. Əgər tüfəngim olsa onları ermənilərdən qoruyaram.

Cəmil Cahid bəy Cəngavəri qucaqladı:

– Biz sizi qoruyacağıq, oğlum. Bu vəzifəni sən böyüyəndə yerinə yetirərsən.

... Erməni məhəlləsində hər addımda səngər qazılmışdı. Küçələrdə torpaq qalaqları ucalırdı. Hər addımda erməni qadın və uşaqlara, sifətini saqqal basmış, lakin gözlərində kin və nifrət qaynayan kişilərə rast gəldilər. Sanki onların silahı gözlərində, baxışlarındaydı və Cəmil Cahid bəylə, Sultan bəylə rastlaşanda elə bil güllələr səssiz açılır, ermənilər dodaqlarını büzərək tez qaçıb gizlənirdilər.

Torpaq qalağının yanında boş vedrəni qoluna keçirmiş, bütün sifətini qırışlar basmış qarı onları görəndə ayaq saxladı. Qırışlar içində itmiş gözlərinin dərinliyindən sanki iynə ucu boyda parıltı göründü. Qarı hərbi geyimli Cəmil Cahid bəyi sərt baxışlarla süzdü.

– Siz türk komandanısız? -Qarı təmiz Azərbaycan dilində soruşdu.

– Bəli. Siz yerli şuşalısız? Çox təmiz danışırsız Azərbaycan dilində.

– Bəli, biz Şuşada doğulmuşuq, Şuşada da ölüb məzara gedəcəyik. Çünki bizim bütün ulu babalarımız burda doğulub, burda yaşayıb və dünyadan köçüb.

– Müsəlmanlarla...

– Nə, müsəlman? -qarı heysiyyatına toxunan söz eşitmiş kimi özündən çıxdı. Gözləri qırışların içində itib batdı və güclə sezilən parıltı da yox oldu:

– Şuşa əzəldən bizimdi. Müsəlmanlar buraya köçüb gəliblər. İndi də çıxıb getmək istəmirlər. Hüzurumuzu pozublar.

Sultan bəy özünü saxlaya bilmədi:

– Nənəcan, bir qulaq as, Şuşanın bünövrəsini bizim Pənahəli xan qoyub. Qalanı tikəndə erməniləri də burda işlədib.

– Mən ona nifrət eliyirəm. Adını belə eşitmək istəmirəm.

– Pənahəli xanın sizə pisliyi keçib?

– Keçib, keçib. Müsəlmanları burda yerləşdirib.

Sultan bəy başını qaldırıb Şuşa qalası tərəfə baxdı, başını bulayıb hiddət qarışıq övkə ilə dedi:

– Gorun çatlasın, Pənahəli xan. Nə işin vardı ermənilərlə? İndi bunun bəlasını çəkirik.

Qarı Sultan bəyə tərəf əyilib əlini qulağına apardı:

– Nə dedin? Qulağım almadı?

– Komandan, qəddar, qaniçən erməniləri dünyaya gətirən bu analardır.

Sultan bəy atını dəhmərləyib irəli getdi. Arxasınca da Cəmil Cahid bəylə Mücib Kamalyeri.

***

... Əsgərləri köhnə qışlalarda, Şuşanın realnı və erməni məhəlləsində olan seminariyada yerləşdirdilər. Sonra da dincəlmək əmri verildi.

Cəmil Cahid bəyin çağırışı ilə müsəlmanlar məscidə toplandılar. Məscidin içi və həyəti izdihamlıydı. Cəmil Cahid bəy müsəlmanları çox gözlətmədi. Yorğun gözlərində təbəssüm göründü. Lakin çöhrəsindəki mülayimlik tez dəyişdi və səsindəki sərtlik açıq-aşkar hiss olundu:

– Sizin mənafeyiniz üçün sözlərimizi qəbul etməsəniz,

bütün vasitələrdən istifadə edərək sizi cəzalandırmaq üçün zərrə qədər tərəddüd etmərəm. İndi ermənilərə də itaət etmələrini təklif edəcəyəm. Qəbul etmədikləri təqdirdə bir orduya itaətsizliyin cəzası nədirsə, onu da alacaqlar. İtaət edərlərsə can, namus və malları bizim mühafizəmiz altında olduğundan heç bir fərdin artıq hərəkətinə yol verməyəcəyəm. İtaət etmədikləri halda, onlar haqqında ölçü götürməklə yalnız əsgərlərim məşğul olacaqlar. Əhalinin tamamilə seyrçi qalmasını və hərənin öz işi-gücü ilə məşğul olmasını tələb və əmr edirəm.

Cəmil Cahid bəy axşamüstü ermənilərlə kilsədə görüşdü. Geniş nitq söyləməsə də tezliklə silahların yığılmasını, Azərbaycan hokumətinin qayda-qanunlarına əməl edilməsini əmr etdi.

***

Komandirlər qərargaha toplaşırdı. Cəmil Cahid bəy narahat və əsəbiydi. Düşünür, otaqda gəzinir, yenidən masanın arxasında əyləşirdi.

Bayırda çiskin yağış yağırdı. O, bu cür çiskin yağışları xoşlamazdı. Payız yağışları nədənsə ona sıxıntılı bir ovqat gətirərdi... İndi də yağış gücləndi və pəncərə şüşələrinə çırpılaraq sanki ora boz örtük çəkdi.

Cəmil Cahid bəy gözlərini pəncərədən çəkdi, içəriyə toplaşanları nəzərdən keçirdi və səsindəki əsəbiliyi biruzə vermədən sakit danışmağa çalışdı:

– Ermənilər dinc oturmurlar, – bu anda qarşısına çıxan erməni qarını xatırladı və ona elə gəldi ki, qarının gözlərinin güclə seçilən parıltısı bir cüt xəncərə oxşadı və onun ürəyinə saplandı. Çox güman ki, qarı cavan olsaydı heç düşünmədən silah götürüb türk əsgərlərinin üstə gedərdi. Komandan xəyalən qarıya cavab verirmiş kimi başını yellədi və sözünə davam etdi:

– Zəngəzurda vəziyyət daha təhlükəlidir. Nizami ordusu ilə Sisyana ayaq qoyan Andronik bu yerlərdə ağlasığmaz, qandonduran, insanlığa sığmayan soyqırımlar aparıb. Kəndlər yandırı-

lıb. Aldığım məlumata görə Görusda lövbər salan bu generalın 7000 nəfərlik piyada, 200 nəfərlik süvari dəstəsi var. İngilislərin yardımı ilə 11 pulemyota, 2 topa, külli miqdarda silah-sursata malikdir. Bu quldurbaşı Ermənistan hökumətindən yenə də hərbi qüvvə və silah-sursat almaqda davam edir. Kəşfiyyatın gətirdiyi məlumata görə Andronikin niyyəti Qarabağa adlamaq, Şuşa ermənilərinin köməyinə yetməkdir. Sultan bəy bunun qarşısını almaq üçün təcili Zəngəzura qayıtdı. Hazırda ən böyük narahatlıqlardan biri də Ağbulaq tərəfdədir. Erməni quldur dəstələri dayanmadan Ağbulağa toplaşır. Dəstələrə Ohan və Sokrat adlı iki daşnak başçılıq edir. Dovşanlı və Marağalı kəndlərində də silahlı dəstələr var. Bu dəstələrin rəhbəri isə Arşak adlı bir qaniçən ermənidir. Əgər bu dəstələri biz məhv edə bilməsək vəziyyət daha da ağırlaşacaq. Ermənilər silahlarını təhvil verirlər. İndiyə qədər kəndlərdən 152 silah toplanıb. Amma bunlar köhnə, yararsız silahlardır. Ermənilər gözə kül üfürürlər.

Cəmil Cahid bəy nəfəsini dərdi. Bütün nəzərlər ondaydı. Sanki bir anlıq Nuri paşanı, Xəlil paşanı yanında hiss etdi. Lakin iştirak etdiyi müharibələrin təcrübəsi komandana çox şey öyrətmişdi. İndi də səbr və təmkinlə dedi:

– Biz Nuri paşadan əlavə qüvvə ala bilmərik. Yalnız öz gücümüzlə düşmənin öhdəsindən gəlməliyik. Minbaşı Nazim bəyi böyük bir dəstəyə komandir təyin edirəm. Dəstə elə bu gün Ağbulağa yola düşəcəkdir.

Nazim bəy o anda ayağa qalxdı, əlini gicgahına qoyub farağat vəziyyəti aldı və ucadan dedi:

– Əmrinizə hazıram, komandanım.

– Sizi bir nəfər bələdçı müşaiyət edəcək, minbaşı, -sonra da masanın üstünə açılmış Qarabağın xəritəsi üzərinə əyildi, qırmızı qələmlə işarələr etdi:

– Siz Şuşikənddən və Keşişkəndən keçib Ağbulağa daxil olacaqsız. İlk əvvəl erməni dəstəsinin rəhbərləri ilə görüşməyi,

silahları təhvil verməyi tələb edin. Əgər sizə qarşı çıxsalar o halda silaha əl atın.

– Oldu, komandanım.

Çox keçmədi ki, Ağbulağa gedən yollarda süvarilər göründü...

**4.**

19 oktyabr 1918-ci il.

Erməni quldur dəstəsinin başçısı minbaşı Nazim bəyin tələbini yerinə yetirmədi. Dan yerinə ilk qızartılar düşəndə sübhün sakitliyini güclü atəş səsləri pozdu. Ermənilər türk əsgərlərinin üzərinə hücuma keçdilər. Sokratın dəstəsinə başqa dəstələr də qoşuldu. Sulahlı yerli ermənilər köməyə gəldi və dörd bir tərəfdən türk əsgərlərini mühasirəyə aldılar.

Cəmil Cahid bəylə əlaqə kəsildi. Ermənilər üstünlüyü ələ aldılar və mühasirə halqasını get-gedə daraltmağa başladılar. Vəziyyət ağırlaşdı. Heç bir çıxış yolu görünmədi. Bu anda əsgərlərdən biri silahını yuxarı qaldırıb qışqırdı:

– Komandir, biz mühasirədən çıxmalıyıq. Bir tədbir görün. Yoxsa birimiz də buradan sağ qurtarmarıq.

– Atəşi gücləndirin. Keşişkənd istiqamətində düşmənə hücum.

Bu anda sanki Tanrı özü də türk əsgərlərinin köməyinə gəldi. Türklərin güclü atəşi ermənilərin qüvvəsini zəiflətdi və onlar mühasirəni yardılar.

Minbaşı Nazim bəy əsgərlərə geri çəkilmək əmrini verdi.

***

... Cəmil Cahid bəy Qarabağda Şuşanı və Gorusu ermənilərdən təmizləmək vəzifəsini yerinə yetirməyə imkan tapa bilmədi. Bu da onunla əlaqədar oldu ki, Qarabağ torpağının az qala hər qarışı erməni silahlıları ilə doluydu və müharibəni davam etdirmək, Qarabağın "minalanmış" torpaqlarını "təmizləmək"

üçün türklərə əlavə qüvvələr lazım idi. Azərbaycan hökuməti bu fürsətdən istifadə edə bilmədi.

Eyni zamanda türk əsgərlərinin Qarabağda olması dünyaya səpələnmiş erməniləri ayağa qaldırdı. Türklərin ermənilər arasında soyqırım aparması xəbərləri səngimək bilmədi. Qatı bolşevik və gizli düşmən Serqo Orconikidzenin də "soyqırıma məruz qalmış bu yazıq, bədbəxt "xalqa" yazığı gəldi və o, oktyabrın 12-də Leninə ürəkağrısı ilə yazdığı məktubu göndərdi: "Ermənistan böyük bir faciə içindədir. İrəvanın iki qəzasında 600 min qaçqın toplaşmışdır. Türklər Qarabağ ərazisini işğal edərək, orada yaşayan ermənilərin yarısını qırmışlar. Şuşa və Zəngəzur ərazisini işğal ediblər. Andronik Qarabağda xaincəsinə öldürülmüşdür. Erməni xalqı Sovet Rusiyasından kömək gözləməkdədir".

(Andronik isə Zəngəzurda idi. Kəndləri yandırır, müsəlmanları qətlə yetirirdi).

... Ermənilər axır ki, Qafqaz İslam Ordusunu Qarabağdan çıxarmağa nail oldular. Bunun bir səbəbi də o oldu ki, İstanbulda baş nazir Tələt paşa istefa verdi, əvəzində Əhməd İzzət paşa onun yerinə keçdi.

Türkiyədə yaşayan ermənilər Əhməd İzzət paşanın yanına yol tapdılar. Onu Qafqaz İslam Ordusunun Qarabağda günahsız erməniləri qətlə yetirdiklərinə inandırdılar. Nuri paşanın əmri ilə guya Bakıda 30 min erməninin öldürüldüyü haqda məlumat verdilər. İndi isə türklər Qarabağ və Zəngəzur ermənilərini qətl etməkdədir.

Eyni zamanda müttəfiq dövlətlər də Türkiyəyə təzyiq göstərdilər və türk ordusunun Azərbaycandan geri çağırılmasını tələb etdilər.

Azərbaycan Xalq Cumhuriyyətinin diplomatik nümayəndəsi Əlimərdan bəy Topçubaşov İstanbulda Əhməd İzzət paşa ilə görüşərkən o, pərişan və üzgün halda dedi:

– Böyük qardaş həmişə bacardığı qədər kiçik qardaşa

kömək etməlidir və edəcək. Ancaq siz özünüz görürsünüz ki, şərait dəyişmişdir. Bizim və bizim müttəfiqlərimiz kəskin dəyişiliklərə məruz qalmışdır. İndi məsələləri biz yox, Vilson və onun tərəfdarları həll edir.

... Və Qafqaz İslam Ordusu geri çağırıldı. Cəmil Cahid bəy Qarabağda Azərbaycan diviziyasını saxladı.

***

21 oktyabr 1918-ci il.

Türk əsgərləri Şuşadan gedirdi. Bu arzuolunmaz ayrılıq payız yağışlarının havası kimi hüznlü və sıxıntılıydı. Yenə də yağış yağırdı. Şəhərin küçələrindən yağışın gətirdiyi sel bütün küçələri ağzına almışdı.

Küçələr yenə adamla doluydu. Kimi ucadan, kimi də səssiz ağlayırdı. Elə bil dolub boşalan gözlər də türk əsgərlərinin arxasınca bir sıxma göz yaşı atırdı. Türk əsgərləri Qarabağda gedən savaşlar zamanı şəhidlər vermişdi. Bu torpağın hər qarışına qəhrəman türk əsgərlərinin izi həmişəlik həkk olunmuşdu.

Nuri paşanın Qarabağdakı döyüş planları yarımçıq qaldı. Yarbay, Qafqaz İslam Ordusunun komandiri Cəmil Cahid bəy nə Qarabağı, nə də Zəngəzuru ermənilərdən qoruya bildi. Amma Cəmil Cahid bəy Azərbaycan və türk əsgərinin birliyini, qardaşlıq və dostluğunu, qəhrəmanlıq və fədakarlığını nümayiş etdirdi. Cəmil Cahid bəy Qarabağda türkün qəhrəmanlıq tarixinin kiçicik bir səhifəsini yazdı...

## ALTINCI FƏSİL

## ZABIXDA YAZILAN QƏHRƏMANLIQ DASTANI

*"Zati-aliləri, erməni əhalisinin rus torpaqlarında məskunlaşmasına icazə verməyin. Ermənilər elə zatdırlar ki, bir neçə il rus ərazisində yaşadıqdan sonra dünyaya car çəkəcəklər ki, bu torpaqlar, guya ki, onların babalarınındır.*

**A.S. Qriboyedov,**
*rus diplomatı*

**1.**

... Andronik at belində uca təpənin üstündə dayanıb çəkmələrinin altında can verən Tat kəndini itehzalı bir təbəssümlə seyr edirdi. Yanmış, qaralmış xarabalıqların içindən qalxan acı tüstü layları qana bükülmüş torpağın üzünü örtürdü.

Andronik durbini gözünə qoydu. Tatın küçələri irili, xırdalı cəsədlərlə doluydu. Tonqaldan qalxan acı tüstü havanı zəhərləyirdi. Andronikin bu anlarda duyduğu nəşənin şiddətindən ürəyi çırpınır, iftixar hissindən köksü qabarırdı. Təpələrdən xeyli uzaqda üzünə boz duman çəkilmiş kimi görünən dağların zirvəsinə qalxmaq, var gücü ilə bağırmaq istəyirdi:

– Ey ermənilər! Tezliklə Zəngəzurda erməni bayrağı dalğalanacaq. Mən sizin üçün dünyaya gəldim. Sizə torpaq, vətən bəxş etmək üçün doğuldum. Mənim mübarizəm, savaşım, azərbaycanlılara, türklərə nifrətim də sizə xidmət edir. Həyatım, qəlbim sizə aiddir...

Andronikin yanında dayanmış mayor Vahram durbini gözlərindən götürdü və tükləri ürpəmiş halda dedi:

– Ozanyan, mən heç nəyə fərq qoymadan Basarkeçərin türk

əhalisini məhv etdim. Lakin bəzən gülləyə heyifim gəlirdi. Bu itləri qırmaq üçün ən yaxşı vasitə odur ki, döyüşdən sonra sağ qalanların hamısını quyulara doldurasan və üstündən ağır daşlar qoyasan ki, onlar bu dünyada qalmasınlar. Mən belə də etdim: bütün kişiləri, qadınları, uşaqları quyulara tökdüm. Quyuların ağzını daşlarla bağlayaraq onların işini bitirdim. Lakin Ozanyan, sənin əsgərlərin burda daha dəhşətli mənzərə yaratmışlar. Mən onlara baxa bilmədim.

Andronik çiyinləri atıla-atıla güldü, fateh kimi qürrələndi və əlini çallaşan qalın bığlarına çəkdi:

– Bizim əsgərlər öz işini bilir. Onlar müsəlmanların bağırtısından, körpələrin çığırtısından həzz duyurlar, Vahram. Elə mən özüm də.

Andronik bir anlıq dayandı. Dərəli-təpəli çöllərə, başı qarlı dağlara baxdı, həsədlə köks ötürdü və dedi:

– Yerevanda erməni milli şurasının iclasında mən də vardım. Orda ayağa qalxdım və dedim: Əgər siz məni Ermənistanın oğlu sayırsınızsa mən günü sabah Ərzuruma yola düşərəm. Türkləri, azərbaycanlıları, kürdləri və yəhudiləri qırmaq üçün öz rəşadətli dəstəmlə gedərəm və məni də heç kəs dayandıra bilməz.

Vahram başını bulayıb qımışdı:

– Ozanyan, sənin rəşadətli dəstənin nəyə qadir olduğunu gördüm. Amma biz belə dəhşətli ölümlər düşünüb tapmadıq.

– Mən Zəngəzura ilk dəfə on minlik qoşunla ayaq qoydum. Əsgərlərim Bazarçayı boyunca irəlilədi. Onlar çox cəld və qoçaq idilər. Biz silahdan istifadə etmirdik. Kəndlər bir günün içində xarabalığa çevrilirdi. Əsgərlərim Ərikli, Sükar, Pulkənd, Şükarlı, Urud, İrmiş, Anabat, Bəhluli, Çınqıllı, Dərəkənd, Anabat kəndlərində bir nəfər də müsəlmanı sağ qoymadı. Amma... biz indi müsəlman kəndlərini dağıtdığımız üçün Sultan bəyin dəstəsi də bunun hayıfını bizdən alır.

– Sultan bəy çox igid adamdır, komandir.

– Tat kəndində baş verənlərdən xəbər tutsa... Amma yox...

Burdan bir nəfər də salamat qurtarmayıb. Buna görə də bu kəndin başına gələnlərdən kiminsə xəbəri olmayacaq. Çünki xəbər yayılmamış biz tezliklə Abdallardan keçib Şuşaya gedəcəyik.

– Necə gedə bilərsiz? Ora çox təhlükəli yerlərdir. Dağ-daş, qayalıqlar təbii səngərlərdi. Bu yerlərdə bir ordunu asanlıqla məhv etmək olar. Sultan bəyin əlinə girəvə keçər.

– Mən ona təhlükəsiz keçib getməyimiz üçün qızıl təklif edəcəyəm. O, razılaşacaq, mən belə güman edirəm.

– Onda gərək Sultan bəyin yanına elə adam göndərəsən ki, onu inandıra bilə və eyni zamanda həmin adama hörmət və etimadı ola. Özü də Tat soyqırımı açılmamış... tələsmək lazımdı, general.

– Belə bir adam var. Bildiyimə görə Şaşan adlı bir nəfərin Sultan bəyin yanında xüsusi hörməti var. Tat soyqırımı Sultan bəyin qulağına çatmamış biz Zəngəzurdan çıxmalıyıq. Bizi orda silahlı ermənilər gözləyir. Qarabağı müsəlmanlardan azad etmək gərəkdi.

Bu anda kənarda dayanmış əsgərlərdən biri yaxına gəldi. Əlində tutduğu kiçik kisəni dinməz-söyləməz Andronikə uzatdı:

– Yığdığımız budu, komandir, – dedi.

Andronik qızıl dolu kiçik kisəni aldı:

– Vahram, elə bu gün gecə Şaşanı Sultan bəyin yanına göndərək. İnanıram ki, hiyləmiz baş tutacaqdır.

Mayor Vahram durbini yenidən götürüb gözlərinə yaxınlaşdırdı. Tatın qanlı küçələrinə, xarabalıqların arasında tanınmaz halda olan cəsədlərə, hələ də tüstüləyən tonqallara qorxu, vahimə içində baxdı və başqa söz soruşdu:

– Anan varmı, general?

Əlli iki yaşlı Andronik atın cilovunu çəkdi və suala o anda cavab verə bilmədi. Bu anda yadına düşdü ki, anasını heç bir vaxt dərin bir sevgi, yaxud ayrılıqdan doğan kədər hissi ilə xatırlamayıb. Amma gənclik illərində yuxularında həmişə ona uzaqdan əl eləyən bir qadın görərdi. Qadının dayandığı yer baş-

dan-başa qara tikanlarla dolu olan çöllükdən ibarət idi. Bəlkə də buna görə Andronik qara tikanları ayaqlayıb o. qadınla görüşə gedə bilmirdi. Qadın isə inadla onu öz yanına çağırırdı... Tikanlı çöllüyün düz ortasında qamışdan hörülmüş alaçığı da tez-tez yuxularında görərdi. Çox güman ki, bu onların eviydi...

Andronik yarasına duz basılmış kimi üz-gözünü qırışdırdı:

– Mən ana nə olduğunu bilmirəm. Bəlkə də heç yerli-dibli anam olmayıb. Mən göylərdən yenmişəm. Tanrı məni erməni millətinin xilasına göndərib. Mən...

Bu anda mayor Vahram üzbəüz təpədə dayanmış və diqqətlə kənd meydanına baxan atlını gördü.

– General, qarşıdakı təpəyə bax. Atlını gördünmü? O, soyqırımı izləyir. Ah, bu da sənin şahidin. Çox güman ki, Sultan bəyə xəbər aparacaq...

– Ola bilməz, ola bilməz... Bizimkilər hər tərəfdən kəndi qoruyur. Bu adam necə olub ki, Tata gəlib çıxıb.

Naməlum atlı tüfəngi çiyninə aşırdı və kənd meydanını nişan aldı. Güllənin boğuq səsi gəldi. Andronikin nəşəsi pozuldu, silahını çıxardı. Güllə səsinə uzaqda dayanmış süvarilər də qaçıb gəldilər. Güllələr atlıdan yan keçirdi. Dağlara sarı atını çapan adam çevrildi, atəş açdı. Güllə onu haqlamaqda olan süvarinin dizinə dəydi. Erməni süvarisi atdan üzüqoylu aşırılıb yerə düşdü. At baş alıb getdi. Andronik bağırdı:

– Tez olun, onu diri tutun və yanıma gətirin.

Üç nəfər süvari o anda atlarını məhmizlədilər və sürətlə özlərini təpəyə çatdırmağa tələsdilər. İrəlidə atlı çapırdı. Arxada gələn süvarilər dişlərini qıcayaraq var qüvvələri ilə onu yaxalamağa can atırdılar. Atlı birdən qayalıqların arxasında yox oldu. Sanki xəyal idi. Süvarilər hər yerə baş vurdular. Atlı yoxa çıxmışdı. Onlardan biri əlini dizinə çırpıb qəzəblə dedi:

– Əgər güllə Surenə dəyməsəydi, mən onu xəyalat zənn edərdim.

– Elə bil göy yarıldı, bu adam göyə çıxdı. Gözümüzün qa-

bağında birdən-birə yox oldu. Mən qorxuram. Bu Sultan bəy olmaya?

İkincisi qışqırdı:

– Bu xəyalat deyil, canlı insandı, yenə üzə çıxdı. Tez olun, onu gözdən qaçırmayın. Atəş açın, ölüsünü aparaq. Yoxsa Andronik bizə cəza verər.

Süvarilər yenidən atlının arxasınca düşdülər. Atlı az qala küləkdən də iti gedirdi. Yalnız atın nalları görünür, bir də arxasınca qalxan toz-duman.

Süvarilər qorxu içində özlərini itirdilər:

– O bizə sarı gəlir. Bizi öldürəcək.

– O, deyəsən çıxıb getdi.

Atlı yenə yoxa çıxdı. Bu anda qayaların arxasındanmı, yamacların döşündənmi, göydənmi, yerdənmi atılan güllə süvarilərdən birini atdan saldı. Güllə ikinci atlıya dəydi, o, özünü yaxınlıqdakı yarğana atdı, üçüncü süvari atının başını çevirdi və arxasına da baxmadan vahimə içində uzaqlaşdı.

Atlı atdan düşdü, nəfəsini dərdi. Sonra başındakı papağı götürüb üz-gözünün isti tərini sildi. Uzun hörükləri kürəyində qıvrıldı. Ona elə gəldi ki, Tat kəndinin fəryadı dağların bulanıq selləri kimi bənd-bərəni aşıb bütün çöllüyü, dağı-daşı bürüdü. Ürəyinin şiddətli çırpıntısına tab gətirə bilmədi, daşın üstündə oturdu. Çırpıntının keçib getməyini, sakitləşməsini gözlədi: "Sultan bəy Tat kəndindəki soyqırımdan xəbərsizdi. Onu xəbərdar eləyim..." Ayağa qalxdı, hörüklərini papağın altına yığdı, tüfəngini çiyninə aşırıb atın cilovunu tərpətdi...

– Tavat gəlib, bəy.

– Hə, xeyirdimi görən? Özüm qarşılayım.

Sultan bəy çadırdan çıxdı. Tavat həmişəki kimi atdan düşüb irəli gəlmədi, Sultan bəyin əlini iki əlli sıxıb hörmət və sevgisini bildirmədi. Eləcə atın üstündə susqun, gözləri dolmuş halda dayandı. Bənizi ağarmışdı, bir sözdən, bir kəlmədən gözləri

leysan tökəcəkdi. Nə atdan düşür, nə də Sultan bəyə nəyi isə anlada bilirdi.

Sultan bəy irəli gəldi, atın üstündə donub qalmış qızın qolundan tutub atdan yendirdi. Tavat sanki birdən ayıldı, öz gücsüzlüyünə, zəifliyinə acığı tutdu:

– Bağışla, bəy.

– Hardan gəlirsən, Tavat?

– Tat kəndində işim vardı. Təpədən aşağı düşmək istəyəndə kəndi tüstü-alov içində gördüm. Mən belə dəhşət, belə azğınlıq, belə qəddarlıq görmədim bəy. Mən onlara kömək eliyə bilmədim. Amma biri vardı, – Tavat boğazındakı qəhəri zorla uddu, – uşaqları, körpələri çığırda-çığırda tonqala atırdı. Qıyya çəkirdilər. Erməni də gülürdü, uğunub gedirdi. Onu nişan aldım, düz alnının ortasından vurdum. Adamları tonqala sürükləyən iki erməni də öldürdüm. Amma təpənin qarşı tərəfində dayanmış erməni süvariləri məni gülləyə tutdular. Bəlkə də diri tutmaq üçün arxamca düşdülər.

– Gərək bu cür dəlilik eləməzdin, Tavat, – Sultan bəy rahat nəfəs aldı.

– Arxamca üç nəfər düşmüşdü. Birini öldürdüm, ikinci yaralandı, üçüncü də qorxub qaçdı.

– Sən bu dağların igid, mərd qızısan, Tavat, – Sultan bəyin üzünün ifadəsi bir anda dəyişdi, – demək belə Andronik indi də Tat kəndinə divan tutub.

– Elə bilirəm ki, bu qırğını gizli saxlamaq istəyirdilər, bəy.

– Nədən bilirsən?

– Çünki Tat kəndinin ətrafında süvarilər vardı. Mənim şahid olmağım onları qəzəbləndirdi.

Sultan bəy gözünü Tavatdan çəkdi. Dişlərini bir-birinə möhkəm sıxıb üzünü Çalbayır dağlarına sarı çevirdi. Sanki bu anda onun iç dünyasını silkələyən, düşüncəsini azdıran, fikirlərini kələf kimi dolaşdıran fırtınanı sakitləşdirmək istədi. Doğru qərar çıxarmaq üçün ağıl və zəkasını səfərbər etdi.

***

Tat kəndinə çökmüş dəhşətli məzar sükutunun ağırlığı sanki Çalbayır yaylağına qədər gəlib çıxdı. Çadırına çəkilmiş Sultan bəyin sərt üzündə, sıxılmış dodaqlarında, azca nəmli kimi görünən gözlərində ağrısına-acısına dözə bilmədiyi kin, qəzəb, narahatlıq vardı. Çadıra yığılmış adamların heç biri danışmırdı.

– Bəy, fikrin nədir, elə bu gecə Andronikin qaldığı erməni kəndinə hücum edək, o kəndi Tatın gününə salaq, – Ağamməd yerində rahat otura bilmədi.

– Bilmirəm, nəyi gözləyirsən, bəy? Əlipaşa bəy sağ olsaydı... – Çal Aslan sanki Sultan bəyin içindəki savaş alovunu daha da körüklədi.

– Biz hazırıq, bəy.

Alaçıqdakılar ayağa qalxdılar və silahlarını başlarının üstə qaldırdılar.

Sultan bəy onlara baxmadan əli ilə oturmaq işarəsi verdi. Sakitlik yarandı. Sanki hər kəsin ürəyinin içində onları didib parçalayan, savaşa çağıran səs də yavaşıdı. Gözlər qəzəbli, əllər silahda Sultan bəyin əmrini gözlədilər.

Sultan bəy ağır-ağır başını qaldırdı. Alaçıqdakıları bir-bir süzdü. Bu cavanların hər biri bir orduya bərabər idi. Amma düşünüb daşınmaq, plan tökmək, düşmənə elə bir zərbə vurmaq lazım idi ki, düşmən özünə gələ bilməsin. Bir kəndi dağıtmaqla iş bitmir. Sultan bəy təzə süzülmüş çayı sakitcə içdi. Gözlər onun üzündəydi. Sonra da oturanları bir-bir süzdü və hökmlə dedi:

– Hər kəs öz dəstəsi ilə hazır olsun. Mənim əmrimi gözləyin.

Bu anda xidmətçi alaçığın qapısında göründü:

– Bəy, Şaşan bir erməni keşişi ilə təşrif buyurub.

Ağamməd əlini silaha atdı:

– Bunlar başsağlığınamı gəliblər? Mən indi...

Sultan bəy onu geri qaytardı:

– Burda təmkinli, səbirli olmaq lazımdı, Ağamməd. Bəlkə

də Şaşanın gəlişi ilə biz başqa bir plan hazırlayacağıq. Baxaq görək kirvə nəyə gəlib?

– Şaşan Tat soyqırımından xəbərsiz olduğumuzu güman edir, yoxsa belə arxayınlıqla gəlməzdi, – Çal Aslan hiddətlə dedi.

– Amma Tavatı görmüşlər və onun arxasınca düşmüşlər.

– Onları çox güman ki, Andronik göndərib. Amma niyə, bax burası qaranlıqdır.

Sultan bəy xidmətçiyə tapşırıq verdi:

– Onlara yaxşı xidmət göstərin. Yedirib-içirin və yanıma gətirin. Siz də, – üzünü alaçıqdakılara tutdu, – səssiz-səmirsiz dağılışın, Şaşan şübhələnməsin.

– Baş üstə, bəy.

Sultan bəyin yanında Ağammədlə Çal Aslan qaldı. Çal Aslan səbrini basa bilmədi:

– Görəsən bunlar nəyə gəlmiş olar, bəy?

– İndi bilərik. Şaşan məni özünə yaxın bilir. Mən onu çox bəlalardan xilas etmişəm. Ermənilər ayağa qalxandan Şaşanın da üzü dönüb. Amma bunu biruzə vermək istəmir. Axmaq...

Sultan bəy dərin ikrah hissi ilə başını buladı. Bu anda çadırın pərdəsi aralandı, uzun saqqallı keşişlə Şaşan içəri girdi. Sol ayağı qısa olduğundan yüngülcə axsayan, tüklü sifətində, bulaşıq, qızarmış gözlərində çəkingən, qorxaq bir ifadə olan, lakin bunu zəif bir təbəssümlə ört-basdır etmək istəyən Şaşan Sultan bəyin qarşısında əyildi, ucadan salam verdi.

Sultan bəy yerindən dikəldi:

– Xoş gəlmisən, kirvə, – dedi.

Sultan bəyin üzündəki təbəssüm Şaşanı ürəkləndirdi:

– Yollar bizi yaman yordu, bəy. Biz yaşda adamların at belində gəlib Çalbayıra çıxması asan deyil.

– Eybi yox, bir-iki gün galıb dincələrsiz, yorğunluğunuz çıxar.

– Yox, yox, sağ ol, bəy, – Şaşan qara tüklü sifətini sığallayıb dərin bir sevinc içində gözucu keşişə baxdı, – tez qayıtmalıyıq.

– Biz də elə hazırlaşırdıq Tat kəndinə gedək, – Ağamməd yerində qurcalandı, iti baxışlarını sanki güllə kimi Şaşanın gözlərinin içinə sıxdı.

– Nə danışırsız, bəy? – keşişin səsi titrədi, – yollar çox qorxuludu. Bir-iki gün gözləyin.

Keşişin bulaşıq gözləri içindəki narahatlıq və əndişəni biruzə verdi. Sultan bəy kürəyini yasdığa söykəyib sadəlövh bir narahatlıqla dedi:

– Olsun. Tat kəndinə getməyi saxlayaq sonraya. Yollar xatalı ikən, bu qarışıq vaxtda hər halda Çalbayıra boş-boşuna gəlməmisən, kirvə. Keşişlə gəlməkdə məlumdu ki, məqsədin var. Dinləyirəm sizi.

Şaşan Sultan bəyin üzünə zillənmiş sərt baxışından üşəndi. Ona elə gəldi ki, bu baxışlar onun içinə qədər nüfuz elədi. Sultan bəyə yaranan yaltaq gülüşünü də, bu gülüşün qalın pərdə çəkdiyi hiyləsini də ifşa etdi. İndicə Sultan bəy onun qollarından tutub gücü gəldikcə uçurumdan aşağı atacaq. Qorxudan, vahimədən qurumuş dodaqlarını islatdı və yazıq-yazıq, əfv diləyirmiş kimi Sultan bəyin üzünə baxdı. Sultan bəy hökmlə dedi:

– Dərdini desənə, kirvə.

– Məni bura Andronik paşa göndərib. Daha doğrusu, ikimizi.

– Andronik hardan paşa oldu? Paşalıq türklərə aiddir.

– Nə bilim, dilimiz öyrəşib.

– Sizi niyə göndərib?

– Zəngəzurun kəndlərində baş verənlərdən Andronik çox rahatsızdır.

– Yalançının atasına min lənət, – Ağamməd yerində rahat otura bilməyib cavab verdi və yumruğunu düyünlədi.

– Ağamməd, sakit ol. Şaşan bizim adamdır. İllərin dostuyuq. Duz-çörək kəsmişik.

– Bağışla, bəy.

Şaşan Ağamməldi gözaltı nifrətlə süzüb ruhlanmış halda dedi:

– Andronik sizə məktub göndərib.

– Məktuba lüzum yox idi, kirvə. Buraya siz gəlmisiz. Sizin gəlişiniz mənim üçün şərəfdir.

Şaşan təkəbbürlə, acıq verirmiş kimi Ağammədə baxdı, sonra da keşiş Mesrofa, bulaşıq gözlərində sanki sevincdən şimşəklər oynadı. Keşiş qımışıb döş cibindən iki qatlanmış məktubu çıxardı və Sultan bəyə uzatdı. Sultan bəy çiyrənib məktuba toxunmadı:

– Məktubu oxu, keşiş.

Məktubda yazılmışdı: "Möhtərəm, Sultan bəy!

Bizə Abdallar oylağından keçib Şuşaya, ordan da keçib Dərbənd tərəfdən gələn rusların qarşısını almağa və ermənilərin təsərrüfat işlərinə kömək etməyə getməyimizə icazə versəniz, keçməyimizin təhlükəsizliyini təmin etsəniz sizə istədiyiniz qədər qızıl verərəm.

Hörmətlə: Andronik paşa".

Məktub Sultan bəyi qəzəbləndirdi, amma o, bunu biruzə vermədi: "İndi də Şuşada soyqırım aparmaq istəyir. Olsun. Mən sənə kömək eliyərəm, Andronik paşa. Sən Sultan bəyi tanımamısan. İnşallah, tanıyarsan…" Üzünü Şaşana tutdu:

– Kirvə, qızıl nədir? Bura iltimasa, xahişə sən gəlmisən. Sənin gəlişin mənim üçün inamdı, etibardı.

Şaşan keşişin üzünə baxdı. Bu anda keşiş Mesrof sanki yuxu görürdü: alınmaz qala sandığı Sultan bəy necə də kiçikmiş? Onu necə də asanlıqla ələ almaq, hiylə ilə tora salmaq olarmış...

– Müqəddəs ata, – Şaşanın səsində bir məğrurluq duyuldu. Əlini keşişin dizinin üstə qoydu, üzündəki çopurların içinə qədər sanki gülüş doldu, hamarladı, – mən sizə dedim ki, axı biz bəylə duz-çörək kəsmişik. O, məni əliboş geri qaytarmaz.

Keşiş hələ də şaşqın idi:

– Andronik belə çıxır ki, çox ağıllı adamdı səni bura göndərməkdə.

– Biz Sultan bəylə çoxdan tanışıq. Mən onun yolunda ölümə belə gedərəm.

Keşiş üzünü turşudub qaşqabaqlı halda dedi:

– Sultan bəy, Andronikə cavab məktubu özünüz yazın, aparaq. Andronik çox mərddir, sözübütövdür. İstədiyiniz qədər sizə qızıl verəcəkdir.

Sultan bəy sərt cavab verdi:

– Mən erməni dilini bilmirəm, türk dilində də ona məktub yazmaram. O məktubu sən özün yaz. Yaz ki, Sultan bəy deyir ki, türk hərbi adı "paşa" sizə yaraşan ad deyil. Bu ad türklərə məxsusdur. Siz də ermənisiz. Onu da bilməlisiniz ki, bu yurdun evladları qeyrətlərini pula satmayıblar.

Keşiş qorxu içində soruşdu:

– Yəni siz qızıl müqabilində Andronikə kömək etmirsiz?

– Kömək edəcəm. Qızıl hər kəsə lazımdı, özü də indiki vaxtda. Sərvəti geri qaytarmaq ağılsızlıqdır, keşiş. Amma mənə üç gün möhlət versin. Xəbər göndərəcəm.

Ağamməd heyrət içindəydi: "Bəy nə fikirləşir? Niyə ikisinin də qolundan tutub itlərə yem eləmir. Axı Tat kəndinin odu hələ sönməyib. Sultan bəy doğrudanmı qızıl söhbəti eləyir? Ağlın olsun, Ağamməd. Səbrin olsun. Sultan bəy Androniki tələyə salmaq, axan qanların qisasını almaq istəyir…".

Qapıdan çıxanda Şaşan dərindən nəfəs aldı və Sultan bəyə tərəf çevrilib onun qulağına pıçıldadı:

– O qızılda mənim də payım olacaqmı, bəy?

– Andronikin ordusunu Abdallardan salamat keçirib Şuşaya yola salaq. Sonra qızılları bölüşərik, kirvə.

– Sən çox cəngavər, mərd, əliaçıq adamsan, bəy.

– Andronikə çatdır ki, üç gün mənə möhlət versin. Düşünməliyəm. Qoşunu sağ-salamat keçirmək üçün yol axtarmalıyam. Nə el məni qınasın, nə də Andronik incik düşsün. Başa düşdün, kirvə?

Şaşanla keşiş atlara süvar oldular və sürətlə obadan uzaqlaşdılar.

…Ağammədin üzündə tutqunluq və məyusluq vardı. Süfrə-

yə gələn samovar çayının ətrini burnuna çəkib bir udum aldı. Sultan bəyin gözlərinə baxmamağa çalışaraq incik halda dedi:

– Ermənilərə niyə qayğı göstərdin, bəy? Sən cəllad Andronikin Şuşa ermənilərinə köməyə gedəcəyinə doğrudanmı inandın?

Sultan bəyin üzündə qış günəşinin istisinə bənzər təbəssüm göründü, amma qəfildən qaşları düyünləndi və bir anda qara buludlar sanki günəş istisini soyudub buza döndərdi. Ağammədə cavab vermədi, çayı isti-isti içdi və ayağa qalxdı, bayıra səsləndi:

– Ay uşaq, atları yəhərləyin.

Ağammədlə Çal Aslan da ayağa qalxdılar. Ağamməd səbirsiz halda soruşdu:

– Haraya gedirik, bəy?

– Şuşaya, Xosrov bəyin yanına. Üç gün vaxtımız var. Məsləhətləşməliyik.

Ağammədin üzü güldü.

***

Vahram şərab içməkdən şişib qızarmış gözlərini açmaq istəyir, amma göz qapaqları öz-özünə yumulurdu. Andronik ayıq idi. Onun hissiyatı, duyğuları ayıq idi. Andronik şərab süzdü, qısılıb bir tərəfdə oturmuş Şaşanın qarşısına qoydu. Şaşan oğrun-oğrun şəraba baxdı, udqundu, amma içməyə ürək eləmədi. Andronik otaqda əlləri arxasında gəzindi, pəncərəyə yaxınlaşıb qaranlıq səmanı, ulduzları seyr etdi, sonra da Şaşanın qarşısında dayandı.

– Demək Sultan bəy Abdallardan rahat keçib Şuşaya getməyimizə razılıq verdi? Təhlükəsizliyimizi təmin edəcək, eləmi dedi?

Yerdə diz üstə oturmuş Şaşan qüruru tapdanmış kimi könülsüz cavab verdi. Andronikin inamsızlığı onun heysiyyatına toxundu:

– Keşiş Mesrof da şahiddir, general. Hətta mənə elə gəldi ki, o, bundan sevindi də.

– Allah şahiddir ki, Şaşan düz deyir, – keşiş gözünü süfrədən zorla çəkdi, şərabın iyi onu məst etmişdi.

– Demək belə...

– Sultan bəy sizin məktubunuzu aldı, hörmətlə oxudu, məmnun qaldığı üzündən bəlliydi, düşündü və üç gün möhlət istədi.

Mayor Vahram birdən ayıldı, sərxoş gözləri süzüldü, əlinin kəskin hərəkəti ilə havada bir xətt cızdı və bağırdı:

– Mən Sultan bəyə inanmıram. Vəssalam. O, bizə dəhşətli tələ quracaq. Biz heç birimiz bu tələdən sağ çıxmayacağıq. O, bizdən Tatın qisasını alacaq. Bax bu sözü burda dedim.

– Biz gərək qızılı özümüzlə aparardıq, – Şaşan ətrafına baxa-baxa ehtiyatla dedi.

– Nə danışırsan, Şaşan? – divar dibində sıra ilə oturmuş alçaqboy erməni dişlərini qıcadı, – biz o qızılı zülümlə toplamışıq. Ordunu Abdallardan keçirsin, qızılı alsın.

– Sultan bəyin razılıq verməsi məni də şübhəyə salıb, – Məlik yerində qurcalandı, – biz onun atası Əlipaşa bəyin qorxusundan qaçıb dağda-daşda gizlənirdik. Biz müsəlmanların bir kəndini viran qoyurduqsa o, bunun əvəzini üç qat çıxırdı. Sultan bəyin...

– O bizi şahlara layiq bir hörmətlə qarşıladı. O, mənə görə razılıq verdi, Məlik. Sən getsəydin...

– Allah qorusun. Bəyin qəzəbinə gələrdim.

– Əgər qızılları aparsaydıq, iş daha yaxşı həll olardı, o, möhlət-filan istəməzdi, – Şaşan mızıldandı.

Andronikin qan daman gözləri iriləndi, içində kükrəyən qəzəbi sifətinə qorxunc ifadə verdi, əlini masaya çırpıb bağırdı:

– Mən bütün həyatımı torpaqsız, vətənsiz millətimə həsr elədim. Şəxsi ailəm, övladım belə yoxdur, amma siz öz mənafeyinizi güdürsüz. Sən məni axmaqmı sanırsan, Şaşan?

– Sən bir xalq qəhrəmanısan, general, ermənilər sənin bu fədakarlığını unutmayacaq, -keşiş onu sakitləşdirməyə çalışdı.

Yer-yerdən bağırdılar:

– Yaşasın Andronik paşa. Yaşasın... Yaşasın.

Andronikin gözlərindən sel kimi yaş axırdı. Bu anda sanki onun gözlərindəki qan çəkilib getdi. Daim nəşə duyduğu fəryad səsləri beynindən, yaddaşından silindi. Nədənsə birdən-birə uşaqlıqdan itirdiyi anasını xatırladı və özü də hiss etmədən məhrum olduğu insani duyğuların, sevgi və şəfqətin yoxluğundan üşüdü. Xatirələrinin içində ən təmizi, ən pakı Sivaşda şərab iyi gələn alçaq, palçıqdan tikilmiş evləri idi... Atası Taras hər axşam özü kimi şərab düşgünlərini başına yığardı və küncdə dizlərini qucaqlayıb oturmuş, halından yetimçilik yağan Androniki və qızını unudardı. Bəlkə də kin elə o vaxtdan qəlbində yer elədi. Sonra da müsəlmanlara qarşı yönəldi və bu kini, nifrəti cilovlayıb saxlaya bilmədi. Lakin bu palçıq suvaqlı daxmanı xatırlaması qığılcım kimi bir an çəkdi, qan görməkdən həzz alan canavar kimi vəhşi bir ehtiras Andronikin içində yenidən baş qaldırdı. Gözlərində giləl追ən yaş buz damlası tək kirpiklərinin ucunda qaldı.

Andronik qəfildən əlini masaya çırpdı, səs kəsildi, irilənmiş gözlər təəccüblə Andronikə baxdı:

– Biz Zəngəzuru ala bilmirik. Çünki Sultan bəyin dəstəsində çox igid adamlar var. Müsəlman kəndlərində adamları amansızlıqla qətlə yetirsələr də bizim əsgərlər döyüş meydanında qəhrəman deyil.

– General, – Karo Andronikin qəzəbinə gəlməmək üçün ehtiyatla gülümsədi, bir addım irəli atdı, – biz onları da məhv edəcəyik.

Andronik yenidən pəncərənin qarşısına keçdi, uzun-uzadı gecənin sakitliyinə qulaq asdı və dedi:

– Demək Sultan bəy üç gün möhlət istədi. Onun sağ əli olan Ağaməd hansı kənddəndir?

– Çağazurdan, – tez cavab verdi, – Onun başına pul mükafatı qoyduq. Amma Ağammədi kimsə aradan götürə bilmədi.

– O indi kənddədirmi?

– Sultan bəyin yanındaydı, general, – Şaşan irəli gəldi.

– Demək Ağamməd Cağazurda yoxdur.

– Yoxdur. Bir fikrinizmi var? – Karo sevinclə soruşdu. Oturanlar da qulaqlarını şəklədilər.

– Cağazuru yandırın və kimsəyə rəhm etməyin. Ağammədin ailəsi kənddədirsə onlara xüsusi divan tutun, mayor Vahram. Bu yerlərin qızları çox gözəl olur. Birini mənə gətirin.

İçəridəkilərin bağırtısı otağın divarlarını titrətdi:

– Yaşasın Andronik paşa...

– Amma general, mən Cağazuru yandırmağın tərəfdarı deyiləm.

– Niyə? – Andronik Karonun qarşısında dayanıb onu alçaldıcı, kinayəli baxışla süzdü.

– Siz Qarabağa keçmək istəyirsiz. Ordu bunu gözləyir. Sultan bəy qəzəblənə bilər və bütün planlarınız alt-üst olar.

Andronik başını aşağı saldı, düşündü və könülsüz halda dedi:

– Cağazur qalsın.

**2.**

Fevral ayının soyuğu birdən-birə iliklərinə işlədi. Ay işığında ağ rəngdən başqa heç nə görünmürdü. Sanki yağan qar aşırımları, təhlükəli gədikləri, dərə-təpələri, uzaqlarda ağ dumana bürünən dağları əsir almışdı. Laçının dolaylarını ehtiyatla keçib rahat yola çıxdılar. Sultan bəyin nəfəsi təngişdi. Burnunun üstünə qədər çəkdiyi yaylığı açdı, dərindən nəfəs aldı:

– Şuşaya az qaldı, – dedi.

Arxadan gələn Çal Aslanla Ağammədə də qalın kürklərinin yaxasını açdılar. Külək yavaşıdı. Amma qar hələ də yağmaqdaydı.

Xosrov bəyin birmərtəbəli evinin pəncərəsindən işıq gəlir-

di. Həyətdə atdan düşüb, nəfəslərini dərdilər. Sultan bəy qapını döydü. O anda qonaqları gözləyirmiş kimi Xosrov bəy qapını açdı, qardaşını görəndə duruxdu:

– Sultan, bu gecə vaxtı, qarda-boranda gəlməkdə xeyirdimi? – onun səsində təlaş duyuldu.

Xosrov bəy Ağammədlə, Çal Aslanla görüşdü. Sultan bəy kürkünü soyundu, üşümüş əllərini sobanın istisinə tutdu:

– Xeyir və ya şər olduğunu bilmirəm, amma çayın varmı? Dayanmadan Şuşaya at sürmüşük.

– Atları tövləyə bağlayın, yem verin, – Xosrov bəy xidmətçiyə tapşırıb otağa qayıtdı. Səliqə ilə doğranmış odunlardan götürüb sobaya atdı. Gur alov otağa bir istilik, rahatlıq gətirdi. Üzünü Sultan bəyə tutdu:

– Gecə qarlı aşırımları keçmək təhlükəlidi.

– Biz bu yolları gözüyumulu gedirik, Xosrov bəy, – Çal Aslan təzə süzülmüş çaydan bir udum aldı.

– Əgər Zəngəzur dardadısa qarlı aşırımlar yolumuzu kəsə bilməz, – Ağamməd çılğınlıqla dedi.

– Bilirəm, sizə bələdəm, Ağamməd, – Xosrov bəy gülümsədi.

– Gəldik səninlə məsləhətə, Xosrov. Andronik yanıma bir keşiş göndərmişdi, bir də o şərəfsiz Şaşanı.

– İstədiyi nəydi? – Xosrov bəyin axıra qədər dinləməyə hövsələsi çatmadı, səbirsiz soruşdu.

– Bilirsən ki, ermənilər bir neçə dəfə Şuşaya keçməyə təşəbbüs edib. Amma məqsədlərinə çatmayıb..

– İndi də Andronik bəxtini sınayır.

– Andronik istəyir ki, Abdallardan keçib Şuşaya daxil olsun və burda silahlı ermənilərlə birləşib Qarabağı işğal etsin. Burada yaşayan azərbaycanlıları isə soyqırımdan keçirsin. Amma ürək eləmir, cəsarəti çatmır. Ona görə də istəyir ki, mən ordunun təhlükəsizliyini təmin edim. Əvəzində mənə külli miqdarda qızıl vəd edir. Gəldim səninlə məsləhətə. Andronikə necə kələk gəlib həm silahlarını əllərindən alaq, həm də ordusunu məhv edək?

Xosrov bəyin birdən-birə gözləri parıldadı:

– Bu adamın dayaz ağlı onun özünü tələyə salır.

– Bəli, bu qaniçən cəllad özü-özünü tələyə salır. Amma başqa çarəsi də yoxdu.

– O başa düşmür ki, Sultan bəy ömründə onu Şuşaya buraxmaz. Hansı zəngəzurlu axan qanları tapdalayıb qeyrətsizlik edər? O ki, ola Sultan... Dayan, düşünək... Sən bu təklifi qəbul etməlisən.

Xosrov bəy yerində rahat otura bilmədi. Otaqda var-gəl etdi, pəncərənin qarşısında dayandı, xeyli müddət düşündü. Bu anlarda o, yağan qarı seyr etsə də ağlı sürətlə işləyirdi: necə etsinlər ki, düşmənin Laçın yollarında beli qırılsın, elə bir məğlubiyyətə uğrasın ki, bu məğlubiyyət tarixə yazılsın. Axan qanların qisası alınsın...

– Yeddiqatın altındakı meşədə gizlənək, ordu gəlib keçəndə qəfildən hücum edib düşməni məğlub edək, – Ağamməd öz fikrini bildirdi.

Sultan bəy qaşlarını çatdı:

– Ağamməd, Andronikin on minlik qoşunu var. Özü də yaxşı silahlanmış... Biz od olsaq da bu ordunun qarşısında duruş gətirə bilmərik.

– Bunu düşünmədim, bəy.

– Amma mənim bir fikrim var, Xosrov.

– Buyur, Sultan. Sən axı bu sahədə bizdən üstünsən, hərbi təhsil almısan.

– Andronik Qarabağı işğal etmək niyyətindədir. Çox güman ki, onu burda Şuşa ermənilərі gözləyir.

– Buna əminəm.

– Andronikə xəbər göndərim ki, daşnak ordusunun Abdallardan Şuşaya təhlükəsiz keçməsini üzərimə götürürəm. Amma deyəcəm ki ordunu qorumaq üçün bizim süvarilərin silah-sursatı yoxdur. Bizə iyirmi qatır yükü silah versin.

– Bu cəllad sənə İnanarmı, Sultan?

– İnanacaq. Elə ki, iyirmi qatır yükü silahı aldıq, süvariləri silahlandırdım, bu dəfə xəbər göndərəcəyəm ki, el məni qınamasın, şübhə doğurmasın deyə qalan silahları sökdürüb qatırlara yükləsinlər və mənim işarəmi gözləsinlər.

– Topları da sökdürüb qatırlara yükləsinlər. Qoy düşmən tam əliyalın olsun.

– Burda elə bir incə hiylə işlətməliyik ki, quldurbaşı duyuq düşməsin, – Sultan bəy ucadan güldü, – çaqqal məni qızılla ələ aldığını düşünəcək. Elə ki, onların bütün silahları əlimizə keçdi, o zaman biz Yeddiqatın altında nal şəkilli mühasirə yaradarıq, düşmənə əsas zərbəni burda vurub onları Zabıx dərəsinə sıxışdırarıq. Onlara burda tarix boyu unutmayacaqları dərs vermək istəyirəm, Xosrov. Onlar bizim ciyərimizi yandırdılar, ürəyimizə sağalmayan yaralar vurdular. On minlik ordunun sərkərdələrinə, komandirlərinə necə ağır cəza verəcəyimi o bir Allah bilir. Bu döyüşdə Andronik sağ qalsa da Zəngəzur torpağından didərgin düşəcək.

– Kəşfiyyatçılar dəqiq, düzgün məlumatlar gətirsin. Yoxsa düşmənin xeyrinə yanlış bir hərəkətə yol verib onları duyuq salarsan, özün fəlakətə düşərsən. Kəşfiyyat işində Xanalının tayı-bərabəri yoxdu, Sultan. Mən onun qoçaqlığına, igidliyinə bələdəm.

– Düz deyirsiz, Xosrov bəy, indiyədək döyüşlərin uğurlu keçməsində Xanalının payı var, – Çal Aslan gözucu Ağamməda baxdı, – Ağamlədi də tanıyırsan.

Ağammədin qaşları çatıldı:

– Aslan bəy tərifə ehtiyac yoxdu, torpağımızı canımız, qanımız bahasına düşməndən qorumalıyıq.

– Kəşfiyyat sahəsində Xanalının təcrübəsi çoxdu. Amma mən onu Piçəniş dəstəsinin komandiri təyin etdim. Zəngəzurun Xanalı, Ağamməd, Çal Aslan, Seyid Həmid kimi igidləri çoxdur. Biz onlara güvənirik.

– Biz də sizin həm igidliyinizə, həm də ağıl və zəkanıza arxalanırıq, bəy, – Ağamməd gülümsündü.

– Xosrov, aldığımız məlumata görə Andronikin ordusuna Ermənistandan dayanmadan əsgər, silah-sursat göndərilir. Erməni ordusuna ingilislər də yardım edirlər.

– Elədi, Sultan. Hər tərəfdən düşmənlə əhatə olunmuşuq, – Xosrov bəy qaşlarını çatıb içindəki ağrını bir anda kölgələnmiş baxışları ilə biruzə verdi, – Gürcüstanda Azərbaycan Demokratik Respublikası elan olunan günün səhərisi İrəvanı ermənilərə verdilər. Onda Fətəli Xan Xoyski böyük bir inamla, əslində sadəlövh bir uşaq kimi aldanaraq Hacınskiyə bir məktub göndərdi. Bu məktubda bilirsənmi nə yazmışdı: "... Biz ermənilərlə bütün mübahisələri qurtarmışıq və onlar bizim ultimatumuzu qəbul edəcəklər. Müharibə qurtaracaq. Biz İrəvanı ermənilərə güzəştə getdik". İrəvanı verdilər ki, Zəngəzurda, Qarabağda axan qanlar dayansın. Ermənilər Qarabağdan əl çəksin. Amma heç nə dəyişmədi. İstəklərinə çox asanlıqla nail olan ermənilər daha da quduzlaşdılar.

– Mən sənə deyim: bu çox böyük səhv idi və gələcək nəsillər bunu bağışlamayacaq, – Sultan bəy əsəbi dedi.

Ortalığa gərgin, hər kəsi için-için yandıran bir sükut çökdü. Xosrov bəy bu sükutu yumşaltmaq istədi, üzünü xidmətçiyə tutdu:

– Çayları təzələ, yox, çay gətirmə. Yoldan gəliblər. Süfrəni hazırlayın, – aradakı gərginliyi yumşaltmaq istədi, – Sultan, deyirlər keçinin əcəli gələndə başını çobanın çomağına sürtər. Bu dəfə Andronikin əcəli çatıb, ordusu ilə sənin hüzuruna gəlir və deyir ki, Sultan bəy, buyur axıtdığım qanların qisasını bizdən al.

– Elədi, Xosrov, Andronik tarixdə görünməmiş dərs alacaq.

... Süfrə yığışan kimi Çal Aslan qalxmaq istədi:

– Səhər açılmamış Şuşadan çıxaq, Xosrov bəy, ermənilər duyuq düşməsin. Bir də üçgünlük möhlətin tamamına az qalır, – Çal Aslan isti çayı bir nəfəsə içdi.

– Çox yorğunsuz, bəlkə... – Xosrov oturduğu yerdəcə gözləri qapanan Sultan bəyə baxdı.

– Bizi kimsə görməməlidi. Yoxsa bütün planlarımız alt-üst olar.

Çal Aslan otağa göz gəzdirdi. Qapısı açıq olan qonşu otaqdan divar boyu düzülmüş kitab rəfləri görünürdü. Xosrov bəy onu otağa dəvət etdi. Burda rəngi saralmış çoxlu kitablar vardı. Klassiklərdən tutmuş müasir şair və yazıçılara qədər. Xosrov bəy təzə nəşr olunmuş bir kitabı rəfdən götürdü və Çal Aslana göstərdi:

– Bu Əhməd Cavadın şerlər kitabıdı. Özünün xəbəri yox idi. Mən nəşr elətdirdim. Çox sevindi. Böyk şairin ilk kitabıdı...

– Onun şerləri şifahi olaraq dildən-dilə gəzir.

Çırpınırdı Qara dəniz baxıb türkün bayrağına...

– Bu şer mənim də xoşuma gəlir. Əzbər bilirəm.

– Aslan bəyin şerə böyük marağı var, – Ağamməd kitablardan birini götürüb vərəqlədi, sonra da maraqla soruşdu: -bu kitabları oxumağa necə vaxt tapırsız, Xosrov bəy?

– Bu kitabxananın tələbələrə çox faydası var. Əslində elə onlar üçün yaratdım. Qoy maariflənsinlər, dünyagörüşləri artsın, xalqa, millətə faydalı insanlar olsunlar.

Bu anda qapı döyüldü. Xosrov bəy qapını açdı, üz-gözünü örtmüş yaşlı adam idi:

– Doxdur, nəvəmin qızdırması yenə qalxdı.

– Gözlə. Gəlirəm, sonra da çevrilib qardaşına baxdı, – indicə qayıdıram.

Çal Aslanla Ağamməd heyrətlə onun arxasınca baxdı: “Xosrov bəy müəllimdi, həkimdi, yoxsa general-qubernator?”

Sultan bəy üzünü onlara çevirmədən duyduğu dərin iftixar hissi ilə dedi:

– Şuşada Xosrov bəyi həm də həkim kimi tanıyırlar. Əslində rusetdə həkimlik oxuyub. Sonra siyasətə keçdi. Amma hə-

kimlikdən uzaqlaşmadı. Xosrov Nəriman Nərimanovla bir yerdə oxuyub. Şuşaya general-qubernator gələndən həftənin şənbə, bazar günləri ancaq xəstələrlə məşğul olur. Özü dağ otlarından dərman hazırlayır. Bizim babalarımız da dağ otlarından dərman hazırlayarmış. Xosrov bu bitkilərin dilini onlardan öyrənib.

... Ayrılanda iki qardaş qucaqlaşdı.

– Mən sizə silah-sursat göndərəcəm.

– Biz ikilikdə güclüyük, Xosrov, – Sultan bəy kiçik qardaşını sonsuz bir şəfqətlə bağrına basdı.

– Biz bütöv Zəngəzurla güclüyük, Sultan.

– Allah amanında, Zabıx dərəsində görüşənədək.

Gecənin qaranlığında sürətlə gedən atlar qar tozanağının içində yox oldular...

Xosrov bəy onların arxasınca baxdı. Boran qarışıq qar güclənirdi. Atlılar qarlı-buzlu gədiklərdən keçib gedəcəkdilər. Hər addımı təhlükəydi bu yolların, aşırımların, gədiklərin... Bu yolları gecənin bu vaxtında ancaq Sultan bəy, Çal Aslan, Ağaməd kimi qorxubilməz igidlər gedərdi. Xosrov bəyin narahatlığını qürur hissi, iftixar duyğusu üstələdi...

***

Tanrı bir vaxt Zəngəzurun başına gələcək fəlakətdən xəbərdardı... Çox-çox illər sonra gül-çiçək ətirli küləklərin avazı ilə oyanan, dəli çayların harayı ilə qanı cuşə gələn igidlərin bu torpaqlarda savaşı başlayacaqdı. Çünki Zəngəzurun, Qarabağın hər qarışında məskunlaşmış ermənilər baş qaldıracaqdı, bu qədim torpağın daşının-qayasının altından zəhərli gürzələr sürünüb çıxacaqdı. Zəngəzurlular bu bəladan xilas olsunlar deyə Tanrı bu mahala igidlər bəxş elədi. Əlipaşa bəyin ocağında Sultan bəydən sonra Zəngəzurun və Qarabağın savaş, qəhrəmanlıq tarixini yazan ikinci oğlu-Xosrov bəy dünyaya gəldi. 1879-cu ilin mayın 10-da güllü-çiçəkli baharda doğulan körpə çox-çox illər sonra qardaşı Sultan bəy kimi o, da Sultanovlar nəslinin

adına şöhrət gətirəcəkdi və Zəngəzurun, Qarabağın yaddaş tarixində ömürlük qalacaqdı...

***

... Xosrovun dağlarda bitən şəfa otlarına – gülə-çiçəyə marağı vardı. Zəngəzurlu qocalardan, nənələrdən hər çiçəyin-gülün xislətini öyrənərdi. Bəlkə də elə buna görə Əlipaşa bəy onun həkim olmasını istədi. Xosrov 1903-cü ildə Gəncə gimnaziyasını bitirən kimi Odessa Tibb Universitetinə üz tutdu. Eyni vaxtda burada təhsil alan Nəriman Nərimanovla tanışlığı dostluğa çevrildi və Xosrov bəy siyasətə meyl etdi.

Odessa Xosrov bəyin yaddaşında heç bir vaxt unutmayacağı hüznlü və kədərli xatirələrlə doluydu. Bu xatirələr onun üçün çox əziz idi. Sanki ömrünün bir tərəfi saralıb solan payız, bir tərəfi daim yaşıllıq içində gülümsəyən bahar idi. Elə bil tənhalıqdan üşüyəndə, həsrət çəkəndə, burnuna o illərin qoxusu gələndə o bahara sığınırdı. Bəlkə də ona görə ki, dörd yaşlı oğlu da bu baharın içindəydi...

***

... Qəflətən eşitdiyi gənc bir qızın fəryadı dərsə tələsən Xosrovu yolundan caxladı. Yekəpər bir rus zabiti küçənin ortasında qızın qolundan tutub vəhşi kimi arxasınca sürüyürdü. Qız çırpınır, ayaqlarını yerə dirəyir, sifəti qıpqırmızı qızararaq ətrafdakı adamları köməyə çağırırdı. Amma kimsə onu zabitin əlindən xilas etməyə cəsarət etmirdi. Zabit daha da azğınlaşdı. Qızın ağzını əli ilə qapadı, saçlarından tutub silkələdi və rusca qatı söyüş söydü.

Qızın gözləri bir anlıq Xosrov bəyə dikildi. Xosrov daha nə olacağını düşünmədən kitablarını bir tərəfə atıb rusun üstünə cumdu. Qızı çəkib onun əlindən aldı və yumruğunu düyünləyib zabitin üzünə çırpdı, dodağından qan şoralandı. İkinci zərbəsi onu üzüüstə yerə sərdi. Zabit xeyli müddət yerdə qaldı, sonra

dizləri üstə qalxdı, kinli gözlər gah Xosrova, gah da qıza baxdı. Əlinin arxası ilə qanamış dodaqlarını sildi və qəzəbindən, övkəsindən boğula-boğula soruşdu:

– Bu qız sənin nəyindi?

– Nəyinə lazım?

– Bilmək istəyirəm.

– Bilməyin vacib deyil.

– Demək onu tanımırsan. Mən belə başa düşdüm. Amma sən başına bəla açdın, qafqazlı oğlan.

– Olsun.

– Mən səni duelə çağırıram.

– Harda, nə vaxt?

– Sabah elə burda. Səni öldürəcəm.

– Mənim də əllərim bağlı deyil.

Yekəpər rus ətrafa yığışan izdihamı gözaltı süzdü, özünü sındırmadan, savaşdan çıxmış qaliblər kimi əlini yuxarı qaldırdı və ucadan bağırdı:

– Sabah hamınız burda olun. Əla tamaşa olacaq. Mən bu qafqazlını duelə çağırdım, – o, əlini saymazyana, təkəbbürlə gicgahına apardı, istehza ilə Xosrovun üzünə gülümsədi və arxasına baxmadan axsaya-axsaya uzaqlaşdı.

Qız hələ də ağlayırdı. Rəngi qaçmış bənizində hələ də qorxu və dəhşət vardı. Əyilib yerdən Xosrovun toz-torpağa batmış kitab-dəftərini yığdı, tozunu təmizlədi və peşiman halda Xosrova uzatdı:

– Bağışlayın, mənim ucbatımdan başınız bəlaya girdi.

– Siz də evinizə gedin, dincəlin.

– Təşəkkür edirəm.

Qızın gözlərində iki damcı göz yaşı billur kimi parıldadı, heyran baxışlar Xosrovun üzündə qaldı. Xosrov kitabları sinəsinə sıxıb üzürxahlıq elədi:

– Dərsə yubandım.

– Harda oxuyursuz?

– Tibb universitetində, – qız nədənsə gülümsədi və adamların arasında gözdən itdi.

... Xosrov bəy Əlipaşa bəyin təzəcə göndərdiyi puldan götürüb silah aldı.

Gecə keçib getmək bilmədi. Xosrov bəyin yuxusu gəlmədi. Eləcə masanın arxasında silah əlində düşündü: "Birdən məni öldürsə... Söz yox ki, atam Əlipaşa bəy, qardaşım Sultan bəy mənə qeyzlənəcək: "bu nə axmaq, nə mənasız ölümdü" deyəcəklər. Kaş ki, savaşda ölərdin. Yoxsa bir şərəfsizin gülləsi ilə... Xosrov, bu nə ağılsız iş idi sən tutdun? Biz səni həkimlik oxumağa göndərdik ki, el-obaya xidmət eliyəsən. Çarəsiz, xəstə adamların imdadına yetəsən, Xosrov..."

... Meydan yenə doluydu. Yekəpər oğlan başının dəstəsi ilə gəlib çıxdı. Ələ salırmış kimi Xosrov bəyin üzünə baxıb sırtıq təbəssümlə güldü, silahı yuxarı qaldırıb onun gözləri qabağında saymazyana oynatdı. Sonra da ucadan dedi:

– Məsafəni ölçün, püşk ataq, – üzünü Xosrova tutdu:

– Allah sənə rəhmət eləsin, qafqazlı oğlan.

Xosrov bəy də eyni ahənglə cavab verdi:

– Bəlkə də sənə.

Püşk atdılar. İlk atəş İqorun baxtına düşdü.

Xosrov ürəyində Tanrıya dualar oxuyub göylərə baxdı, sonra da meydana göz gəzdirdi. Adamlar səssiz, həyəcan içində gözləyirdi. Xosrov gözləri ilə qızı axtardı. Lap yaxınlıqda dayanmışdı. Gözləri yağmurlu və kədərliydi. Dodaqları aramsız nə isə pıçıldayırdı. Bu həlledici anda çox güman ki, o, da bütün qəlbi ilə tanımadığı, amma həyatını xilas etmiş bu oğlanın salamat qalması üçün Tanrıya yalvarırdı və yəqin ki, bütün ilahi qüvvələri bu qafqazlı oğlanın köməyinə çağırırdı.

– Başlayın!

İqor silahı üzünə götürdü və eyni anda güllə açıldı. Güllə sifətindən yan keçdi, amma sol gözünü zədələdi, bir anlıq işıq söndü və yanağından şoralanan qan elə bil gözünün işığını da

qaranlığa bükdü. Xosrov ağrının şiddətindən iki qat əyildi, dayandı və özünü toplayıb qamətini dikəltdi. Növbə onun idi. Sərrast atılan güllə İqoru yerə sərdi. Xosrov huşunu itirdi.

... Xəstəxanada gözünü açdı. Sol gözü sarıqlıydı və gözünün içində, gicgahında dəhşətli ağrı vardı. Bu anda başının üstündə qızı gördü. İsti, yumşaq əlini Xosrov bəyin alnına qoymuşdu:

– Siz burdasız? – Xosrov çətinliklə gülümsündü.

Qız utanıb əlini çəkdi:

– Sizi xəstəxanaya gətirdim. Gecə də burda qaldım.

– Valideynləriniz narahat olar.

– Onları xəbərdar etmişəm. Biz hələ də tanış deyilik.

– Adım Xosrovdu. Tibb universitetinin tələbəsiyəm, – Xosrov əlini qıza uzatdı.

– Adım İrinadı. Mən də tələbəyəm. Həkim olacam.

– Demək həmkarıq. Lap yaxşı.

– Hardansız?

– Azərbaycandan.

– Demək Qafqazdan. Qafqazlılar həm döyüşkən, igid, mərd, həm də istiqanlıdılar.

– Elədi.

– Bakıda yaşayırsız?

– Yox, Zəngəzurda.

İrina adı çətinliklə təkrarladı, sonra da gülümsəyib başını buladı:

– Bu ad tanış gəlmədi mənə.

– Zəngəzur dağlar gözəlidi. Dünyada tayı-bərabəri olmayan bir məmləkətdi.

İrina yanında xeyli oturdu. Ayrılarkən sanki isti nəfəsini, xəfif gülüşünü otaqda qoyub getdi.

... İrina hər gün xəstəxanaya gəlirdi.

Xosrov bəyin gözləri qapıda qalırdı. Bu gözəl, yaraşıqlı rus qızına bağlanırdı. Bu qız onda tanış olmadığı ilk sevgi duyğula-

rı oyadırdı. Bu duyğuların təlaşını, intizarını, şirin əzabını yaşayanda Xosrova elə gəlirdi ki, bu cansıxıcı palatada üzünə yaz mehi dəyir. Zəngəzur dağlarının ətirli küləkləri könlündən əsib keçir. Bu sevgi duyğusunda gücə, qüvvətə, hikmətə bax! Xosrovun ağlını, düşüncəsini, xəyal və arzularını əsir alır. Xosrov ondan yaxa qurtarmaq istəyir. Amma o ərköyün, şıltaq ruhu ilə gənc oğlanın qəlbini sevgi duyğuları ilə "işğal edir".

Gecələr əlini başının altına qoyub pəncərədən görünən ulduzlu səmaya tamaşa eləyirdi. Sanki bu an o qızın gözəl camalı ulduzlarin üstünə həkk olunurdu və sanki Xosrovu da bu dərman qoxulu palatadan ayırıb uca göylərə qaldırırdı. O anlarda Xosrov bəy çox xoşbəxt idi...

... – Xosrov, bu axşam atamgil səni gözləyəcək.

– Nə münasibət? Niyə? Yox, mən sizə gələ bilmərəm.

Qız incik halda körpə uşaq kimi dodaqlarını büzdü. Xosrov onu dilə tutmağa, könlünü almağa çalışdı:

– Nə olar, xətrinə dəyməsin. Mən xəstəxanadan təzə çıxmışam. Gözüm də sarıqlı.

– Sən məni o quldurun əlindən xilas elədin. Allah bilir, başıma nələr gələcəkdi? Atamgil qızlarını bu caninin əlindən qurtaran xilaskar oğlanı görmək istəyir. Anam da hazırlıq görüb.

– Bilmirəm, necə olar?

– Gedək, atam ziyalı adamdı, – İrina sirli halda gülümsədi və üzünü çevirdi.

– Atanın adı çəkiləndə sən gülürsən, İra. Məndən gizli bir şey saxlamırsan ki?

– Deyəsən sən məndən qorxmağa başlayırsan, Xosrov?

– Sənin kimi gözəl qızdan? Yox, qorxmuram, sadəcə şübhələnirəm.

– Gedirsən, getmirsən? Onlar səni gözləyir.

– Mən... utanıram. Başqa bir vaxt getsək olmazmı?

– Qalx ayağa, geyin. Bayırda gözləyirəm.

– Yaxşı mən təslim, madam ki, israr edirsən, getdik.

... Qapını orta yaşlı, xoş simalı qadın açdı. İsti baxışlarında doğmalıq vardı. Xosrovu qucaqladı:

– Oğlum, biz səni görmək, tanımaq, təşəkkürümüzü bildirmək istədik.

Qadın qoluna girib Xosrovu salona apardı. İçəridə arxası onlara tərəf oturmuş sarı saçlı kişi ayağa qalxdı və Xosrovu qarşıladı. Xosrov onun göy gözlərini, tanış, mehriban simasını görəndə duruxdu, özünü itirdiyindən kişinin əli havada qaldı. Qarşısında dayanan tibb universitetinin rektoruydu. Kişi də heyrət içində ucadan dedi:

– Aaa, bu ki, bizim tələbədi. Xosrov Sultanov. Ən yaxşı tələbəmiz.

Xosrov İrinanı gözləri ilə qınadı:

– Atanın rektor olduğunu niyə demədin?

Rektor güldü və Xosrovu bağrına basdı.

... İlk sevgi tez açıb tez də solan çiçəyə bənzədi.

Bəlkə də günahkar Xosrov bəyin özü oldu. Çünki Zəngəzura bəslədiyi sevgi duyğusu daha güclü çıxdı. Bu sevgi duyğusu zəmidə bar bağlamış sünbül kimiydi. Əgər Xosrov bu sevgiyə arxa çevirsəydi vaxtsız yağan yağışlar, küləklər bara dolmuş sünbülləri məhv edərdi. Zəngəzur ondan üz döndərərdi. Burda onun əcdadlarının, babalarının və ulu babalarının məzarı vardı. Xosrov bu yerlərdən uzaq düşə bilməzdi. Və eyni zamanda dörd yaşlı oğlunun ölümü ilə sevgi bağları qırıldı...

***

Xosrov bəy Sultanov 1915-ci ildə Bakıya qayıtdı və siyasi fəaliyyətə başladı. ADR hökumətnin ilk hərbiyyə naziri olan Xosrov bəy Sultanov 1919-cu ilin yanvarın 15-də Zəngəzur, Cavanşir, Şuşa və Cəbrayıl qəzalarının daxil olduğu Qarabağa general -qubernator təyin olundu. Bunun da səbəbi o idi ki, Zəngəzurda axan qanlar dayanmırdı, Qarabağ erməni işğalına düşmək təhlükəsi altındaydı. Bu yerlərə yaxşı bələd olan Xos-

rov bəy igid, ağıllı və zəkalı bir adam idi. Qarabağı və Zəngəzuru qorumaq iqtidarındaydı... Azərbaycan hökuməti üçün ən yaxşı namizəd də elə Xosrov bəy Sultanov idi.

Xosrov bəy erməni faşizminin tuğyan etdiyi bir vaxtda Zəngəzur və Qarabağın arxasında alınmaz qala kimi dayandı...

... Xosrov bəy sobaya odun atdı, alov gurlaşdı. Onun fikri qardaşının yanında qaldı: görəsən bu qarda, boranda hansı gədikdən, hansı yamacdan, dolaylardan keçdilər?...

**3.**

Andronik Sultan bəydən cavab gözləyirdi. Onun yuxusuzluqdan şişib qızarmış gözlərində bir narahatlıq, nigarançılıq vardı. Görusdakı qərargahında həmişəki qələbəlik yox idi. Bəlkə də ona görə ki, Andronikin kimsəni dinləməyə səbri çatmırdı. Çörək, torpaq arxasınca gələn və az qala diz çöküb yalvaran ermənilər bu anlarda onda ikrah hissi oyadırdı, öfkəsini artırırdı. Buna görə də qərargahın qarşısında gəzişən silahlı ermənilər kimsəni Andronikin yanına buraxmırdılar.

Yavəri içəri girib Şaşanın gəldiyini xəbər verdi. Andronik başını qaldırmadan əsəbi halda dedi:

– Gəlsin.

Şaşan çiyinləri düşmüş, büzüşmüş halda içəri girdi. Qorxu içində komandirləri süzdü və gözlərini Andronikə zillədi:

– Məni çağırmısınız, general.

– Sultan bəydən cavab yoxdu...

– Cavab gələcək, general, tələsməyin.

– Bu gün möhlət başa çatıb. Ondan hələ də xəbər yoxdu... Sultan bəy necə adamdı?

Şaşanın canından soyuq üşütmə keçdi. Andronikin sərt baxışları sanki güllə kimi gözlərinin içinə sıxıldı:

– Düşmən də olsa, necə deyim, m..ərd adamdı. Söz verdisə qurtardı, sözünün ağasıdı.

– Səncə o qızıla allanıb bizi Şuşaya buraxarmı? Yəni xoş niyyətlə Qarabağa getməyimizə inandımı?

– Qızıl hər kəsin ağlını çaşdırar, general.

– Bəs Sultan bəyin necə? Deyilənə görə o, böyük sərvət sahibidi.

– Əslində qızıl hərisi sərvət sahibi olanlardır, general.

Otağı gülüş səsi götürdü. Şaşanın da göyümtül dodaqları qaçdı.

Andronik başını buladı və üzünü Vahrama tutdu:

– Şuşa ermənilərinə xəbər göndərdim.

– Nə xəbər, general? Qırğınamı hazır olsunlar?

Andronik bükülmüş barmaqlarının tiyəsi ilə mayor Vahramın başını taqqıldatdı:

– Hələ bir Abdallardan keçib gedək. Mən onlara xəbər göndərdim ki, hər axşam Şuşa qalasının qapılarını açıq qoysunlar. Ordu içəri girə bilsin.

– Hə, başa düşdüm, general. Xəbər çatıbmı?

– Şuşada artıq ermənilər silahlanır, – Andronikin birdən üzü güldü, bu gülüş onun qaşqabağını açdı, otaqdakı gərginliyi yumşaltdı, – Nuri paşa Bakını aldı, Qarabağı da ermənilərdən təmizləmək istədi. Bunun üçün polkovnik Cəmil Cahid bəyi Şuşaya göndərdi. Düzdü, Cəmil Cahid bəy Şuşada iğtişaş törədən ermənilərin gözünün odunu aldı, silahları yığdı. Sakitlik yarandı. Nuri paşanın istəyi az qala yerinə yetəcəkdi. Amma Mudros müqaviləsinə görə türk ordusu Bakıdan və Naxçıvandan geri çağırıldı. Cəmil Cahid bəy də Şuşadan getdi.

– Türk ordusu daha yoxdu. Azərbaycanlıların Qarabağı, Zəngəzuru qoruyacaq nə güclü ordusu var, nə də silah-sursatı.

Andronik hələ də ayaqüstə dayanıb qorxu içində onun əmrini gözləyən Şaşanı süzdü:

– Mən Şaşana inandım. Bu dəfə kəndlərdən qarət etdiyimiz qızıllardan kimsəyə pay düşməyəcək. Hamısı Sultan bəyə gedəcək.

Mayor Vahram başını bulayıb üzünü Şaşana tutdu:

– Yəni sən bu qızıl məsələsində Sultan bəyə kələk gələ bilməzsənmi?

– Yox, yox, nə danışırsan, mayor? Mən Sultan bəyə dəfələrlə yalan söyləmişəm. Aldatmışam onu. Bu yalan o yalanlara bənzəməz.

Vahram əlini onun çiyninə qoyub yerə oturtdu:

– Ay axmaq, qızıl kisəsini Andronik Sultan bəyə təqdim edəndə mən arxadan bir güllə ilə onu susduracam. Həm qızıl əlimizdən çıxmaz, həm də Sultan bəy xofundan azad olarıq. Sultan bəy olmasaydı biz çoxdan Zəngəzura sahiblənmişdik. Burda qüdrətli bir erməni hökuməti yaratmışdıq, Qarabağ da daxil olmaqla.

Andronikin üzündə xoş bir ifadə yarandı, bir anlıq içindəki ruh yüksəkliyi səsinin ahəngini dəyişdi:

– Əslində, Vahram, Zəngəzurun çox hissəsi işğal olunub. Nijdeni, Dronu tezliklə hakimiyyət başına gətirəcəm. Bizə kənardan silah, pul yardımı edənlər çoxdur. General Biçeraxov da bizə pul yardımı göndərib. Andronik masanın üstündəki kağızların arasından 10 dekabr 1918-ci ildə general Biçeraxova yazdığı teleqramı götürüb oxudu:

“... Zəngəzur milli şurasının üzvləri A. Şirinyan, N. Osipov Bakıdan gəlmiş və bir milyon manat gətirmişlər. Adları çəkilən şura üzvləri mənə məlumat vermişlər ki, bu pulu siz vermisiniz. Mənim dəstəmi və bədbəxt qaçqınları unutmadığınız üçün sizə minnətdarlığımı bildirirəm”.

– Belə insanpərvər adamları alqışlamaq lazımdı, general, – Vahram əlini yuxarı qaldırıb təntənə ilə dedi:-Var olsun Biçeraxov, – sonra məyus halda əlavə etdi, – amma Biçeraxov Bakı döyüşündə ingilislərin etimadını doğrulda bilmədi. Cəbhədən qaçdı.

Andronik əlini arxasında çarpazlayıb başını dik tutdu və içindən gələn ruh yüksəkliyi ilə dedi:

– İngilislər hazırda bizim arxamızdadı. Onlar türklərin axırına çıxmaq istəyir. Özü də bizim əlimizlə. Mənə çatan məlumata görə İngiltərə hərbi şurasında belə bir fikir səslənmişdir: “... ermənilərə hər vəziyyətdə işğal etdikləri bölgələrdə pul, silah və sursat tədarükü ingilis siyasətinin maraqları daxilindədir. Bu təcrübənin uğurlu olması nəticəsində erməni qüvvələrindən gələcəkdə türklərin diz çökməsi üçün faydalanmaq olar”.

– Əslində ingilis siyasəti bizim də işimizə yarayır, – Vahram bir diplomat kimi özünü ağıllı göstərməyə cəhd etdi, – Müsəlmanlar necə deyir: əl-əli yuyar, əl də üzü. İngiltərənin Qafqazdakı diplomatik nümayəndəsi Tomson məhz bunun üçün bizə hər cür yardım etməyə canfəşanlıq göstərir. Mən bu Tomson deyilən adama heyranam. Bu yaxınlarda o, Hibbon adlı mümayəndəsini Zəngəzura göndərdi. Düzdü Hibbonla şəxsən görüşə bilmədim...

– Mənim də başım kəndlərdə soyqırıma qarışdı, Hibbonu görə bilmədim, – Andronik təəssüflə dedi.

Vahram yenidən sözünə davam etdi:

– Bu Hibbon Zəngəzurun Teymur Muğanlı kəndində oldu. Müsəlmanlar onu böyük ümidlərlə qarşıladı. Yandırılmış evlərini göstərəndə Hibbon təssüflə demişdi: “Andronik Zəngəzurun ərazisinin çox hissəsini işğal etmişdir. Artıq gecdir”.

– Ümidvaram ki, Hibbon bu məlumatı Tomsona verərkən onu sevindirmişdir.

– Bu Tomson, məncə böyük adamdı, general.

– Bəli, çox böyük adamdı. Bu adam şəxsən Ermənistana 5 milyon ədəd patron və pul yardımı göndərmişdir.

– Söz yox ki, bu yardımdan bizə də pay düşəcək.

– Şübhəsiz. Cənab Tomson Qarabağın ermənilər tərəfindən işğal edilməsinin marağındadır və bunu gözləyir.

Mayor Vahramın birdən -birə üzünün ifadəsi dəyişdi, qorxu içində Andronikə baxdı:

– Amma... general, mənim qorxum ondadır ki, Sultan bəy

qızıl kisəsini ala, amma bizi yenə də Qarabağa buraxmaya.

Şaşan özünü itirdi, sanki bir yerdə qərar tutmayan, qırışlar içində itib-batmış gözləri narahatlıqla gah mayora, gah da Andronikə zilləndi. Ona elə gəldi ki, bu anlarda Andronikin iri əllərindən qan süzür. Bu əllər yavaş-yavaş onun boğazına uzandı, tutdu və gözləri hədəqəsindən çıxana qədər sıxdı. Şaşan əlini qeyri-ixtiyari boğazına çəkdi, udqundu və təlaşla dedi:

– Sultan bə...

Andronikin yavəri içəri girib əlindəki məktubu göstərdi:

– Sultan bəydən cavab gəldi, amma məktubu Şaşana yazıb.

– Vahram məktubu oxu.

Vahram, əzilmiş məktubu açdı, göz gəzdirdi, sonra da ucadan oxudu. Sultan bəy yazırdı:

“Biz bir-birimizi neçə illərdir tanıyırıq, kirvəlik edirik. Bizim aramızda heç bir qızıl və yaxud da alver sözü ola bilməz. Sən mənim üstümə xahişə gəlmisən, üstəlik keşişi də gətirmisən. Mən də qalmışam çətin vəziyyətdə. Andronikin çoxminli qoşununu silahla burdan buraxsam, camaat mənə nə deyər? Sizə də yox cavabı verə bilmirəm. Bir də ki, Xosrov qardaşım olsa da, hökumət adamıdır. Dəliqanlı cavanlardan ehtiyat edirəm. Bilsələr qarışıqlıq salarlar, biyabır olarıq.

O ki, qaldı Şuşaya keçməyinizin təhlükəsizliyini təmin etməyə, bizim də uşaqların elə çox silahı yoxdur ki, təhlükəsizliyinizi təmin etsinlər. Bir təklifim var: onda mən təyin etdiyim adamların iştirakı ilə bütün silahları, topları, pulemyotları söküb qatırlara, arabalara, atlara yükləyin, üstünü də basdırın ki, diqqəti cəlb etməsin. Dan yeri sökülməmiş, alaqaranlıqda ordu hissələrindən qabaq buralardan elə keçsinlər ki, heç kimin xəbəri olmasın. Yollarda sizin karvanın təhlükəsizliyini qorumaq üçün bizə bir qədər silah lazımdır. 15-20 qatır yükü olsa yaxşı olar. Bizim adamlar Qaladərəsinə qədər sizə bələdçilik edərlər. Qaldı ki, qızıl məsələsinə, mənə heç nə lazım deyil. Ancaq Xosrov bəydən də böyüklər var. Elə sizin özünüzə də lazım

olar. Bu qədər əziyyət çəkirsiniz. Danışığımız baş tutsa tezliklə xəbər çatdırın və işarəmi gözləyin".

Andronikin üzü güldü:

– Demək ki, qızıl onu yoldan çıxarıb. Olsun.

***

– Sultan bəy, danışığa özü gələcək.

Vahramın təəccübdən gözləri böyüdü:

– Bu adan qurd ürəyi yeyib?

Andronik əlini yellədi:

– Qoy gəlsin, – üzünü yavərinə tutdu, – otağımın ortasından pərdə çəkilsin. Sultan bəyin üzümü görməsini istəmirəm.

– Oldu, general...

– Vaxtını dedimi?

– Elə bu axşam.

Qərargahda o anda canlanma yarandı.

***

Məzahir kürəyini yasdığa söykəyib oturmaqdan birdən-birə yoruldu. Qalxıb həyətə çıxdı. Soyuq qarlı havanı sinəsinə çəkib rahatlıqla nəfəs aldı. Humay o anda özünü yetirdi. Pencəyi Məzahirin çiyninə salıb ərini məzəmmət etdi:

– Keç içəri. Soyuq olar. Qalarıq əlində.

Humayın titrək səsində gizli bir nəvaziş, qayğı vardı. Məzahirin sevgi dolu baxışı sanki Humayın baxışından od aldı, oğlanı gülmək tutdu:

– Humay, məni erməni gülləsindən qoruyan kimi soyuqdan qoruyursan.

– Soyuqda ayağının yarası simniyər.

– Oturmaqdan bezdim.

– Gözləməyə məcbursan, Məzahir.

Sobanın istisi Məzahirə xoş gəldi. Humay əlini onun dizinə qoyub yanında oturdu.

– Humay...

– Can Humay.

– Elə demə.

– Bəs nətəhər deyim?

– “Can” sözündə bir əzizlik var. Məni ərköyün öyrətmə.

Humay ağlamsındı:

– Mənim səndən başqa kimim qaldı ki, Məzahir? Ermənilərin evi yıxılsın.

– Mən də sənin kimi xalis yetiməm. Bu dünyada bircə sənsən, Humay, – Məzahir kövrəlib dərindən ah çəkdi, sanki içində alovu ərşə qalxan ocaq qalandı, tüstüsü gözlərini yaşartdı, közü ürəyini qarsdı, içini göynədən bir nisgillə dedi: – kaş nişanlı günlərimiz olardı...

– Onda atamız-anamız sağ idi.

– Sevdalı günlərimizin sayı-hesabı yox...

Humay gözlərində yaş güldü:

– Lap şair kimi dedin, Məzahir.

– Zəngəzur yas içindəydi. Toy eləmədik.

– Elədi.

– Sultan bəy Androniklə savaşa hazırlaşır.

– Hardan bilirsən?

– Uşaqlar xəbər gətirdi. Cavanlar dəstə-dəstə Sultan bəyin yanına gedir.

– İnşallah, Andronikin anasını ağlar qoyar.

– Humay...

– Can.

– İstəyirəm mən də gedim. Evdə oturmaqdan bağrım çatladı. Andronikin əsgərləri orda kəndləri yandırır, bizimkiləri qırır, mən də burda... Yox, gedəcəm. Dözəmmirəm tay.

– Ayağındakı güllə yarası hələ sağalmayıb.

– Heç olmasa beş-on nəfər erməni qıraram. Andronikin ordusu Qarabağa keçmək istəyir.

– Mən də getmək istərdim, Məzahir. Orda bir qəhrəmanlıq göstərərdim ki, Sultan bəy özü də mat qalardı.

– Tavat kimi.

– Eşitdiyimə görə Sultan bəy onu komandir təyin etmək istəyir.

– Vallah, halaldı Tavata. Ermənilər onun başına pul mükafatı qoyub. Gör bu qız ermənilərə necə od qoyub. Çox cəsur, igid qızdı. Qardaşlarının qisasını təkbaşına aldı..

– Mən də sərrast güllə atıram. Kərəmi bir güllə ilə qayadan aşağı atmaddımı, Məzahir?

– Atdın, atdın, gördüm sənin fərasətini... Əslində səni evdə tək qoymağa ürəyim rüsxət vermir. Fikrim qalar burda, heç döyüşə də bilmərəm.

– Demək razısan?

– Razıyam. Qapını qıfıllayıb gedərik.

Humay sevincək Məzahirin boynunu qucaqladı. Çırağı yandırıb süfrəni açdı. Nə düşündüsə gülümsündü, başını qaldırıb çırağın zəif işığında üzü kölgəli görünən Məzahirə baxdı:

– Məzahir...

– Can.

– Deyirəm, – Humay utanıb dilini sürüdü.

– Eşidirəm. Utanma de.

– Daşnakları Zəngəzurdan təmizləyəndən sonra deyirəm toy eliyərik. Arzumuz ürəyimizdə qalmasın deyə.

– Vallah, Sultan bəy bizə bir toy eliyər ki, zurnanın səsi Çalbayır dağlarına qədər gedib çatar. İnşallah... toyumuzda uşaqlarımız da iştirak eliyər.

Çıraq işığında divara düşən iki kölgə baş-başa gəldi və Humayın ürəkdən gələn gülüşü eşidildi.

***

... Otağın ortasından qalın pərdə çəkilmişdi. Şaşan Sultan bəylə Çal Aslanı qarşılayıb küncə qoyulmuş masanın arxasında

oturtdu. Yaşlı erməni içindəki sevinci gizlədə bilməyərək gülümsəyə-gülümsəyə əlindəki çayları masanın üstünə qoydu, dayanıb diqqətlə Sultan bəyin, sonra da Çal Aslanın üzünə baxdı. Əlini Sultan bəyə tuşladı:

– Siz Sultan bəysiz?

– Yoxsa məni tanımadın? – Sultan bəy rişxəndlə dedi.

– Ermənilərin hamısı sizi tanıyır.

– Yəqin ki, məni sevirlər də.

Yaşlı erməninin üzü birdən tutuldu, qaşları çatıldı və bu ani dəyişmədə sanki üzünün bütün qırışları üzə çıxdı, gözləri parıldadı. Nifrət qarışıq gizli bir öfkə ilə Sultan bəyin üstə yeridi. Yumruğunu göydə oynatdı:

– Onlar sənin nəyini sevəcəklər? Hə, de görüm...

Çal Aslan gülüb başını buladı, pıçıltı ilə dedi:

– Bəy, erməninin zəncirini tərpətmə.

– Sakit ol, kirvə. Məni sevmədiyinizi bilirəm, yoxsa bu pərdəni ortadan çəkməzdiz.

– General səninlə üz-üzə gəlmək istəmir.

Şaşan içəriyə girdi, yaşlı erməniyə gözünü ağartdı və əlini bir-birinə sürtdü:

– Sultan bəy, qorxmadan-çəkinmədən bura gəldiyinizə görə, generalla danışıqlar aparmağa razılıq verdiyinizə görə sizə təşəkkür edirəm. Andronik Gorusdan uzaq bir yerdə, gözdən kənarda sizinlə görüşmək istədi... Andronik mənim sizin yanınızda necə böyük hörmət sahibi olduğumu anladı. Mən onu sizin sədaqətinizə inandırdım. Ona Şuşa lazımdı, sizə qızıl. Andronik çox mərd adamdı. Sizə istədiyiniz qədər qızıl verəcək. Amma bilirsiz də...

Sultan bəy əsəblərini cilovladı, bu yaltaq, ikiüzlü ermənini ayaqları altına salıb tapdalamaqdan özünü zorla saxladı. İti, kəskin baxışları Şaşanın gözünün içinə sanki xəncər kimi batdı. Amma erməni özünü onda qoymadı. Sultan bəy Çal Aslanın üzünə baxıb kinayə ilə Şaşana işarə etdi:

– Şaşan mənim dostumdur.

Şaşan onların qarşısında ikiqat oldu, pərdənin o tərəfindəki səssizliyə qulaq verib pıçıltı ilə dedi:

– Mən Sultan bəyin çörəyini çox yemişəm.

– Sən qədirbilən adamsan, Şaşan.

Şaşan az qala Sultan bəyin ayaqlarına qədər əyildi, qapıya tərəf gizlicə baxıb onun əllərindən tutdu və öpmək istədi.

Sultan bəy nifrətlə onu kənara itələdi. Bu anda pərdənin o üzündə öskürək səsi gəldi. Andronik təmiz türk dilində dedi:

– Gəlişinizə çox şadam, Sultan bəy.

– Şad olduğunuzu hardan bilim, general? Üz-üzə oturub danışsaydıq...

– Sultan bəy, belə məsləhətdi. Siz fikirləşmək üçün üç gün vaxt istədiniz....

– Mən fikirləşdim və belə qərara gəldim ki, siz xoş niyyətlə Şuşaya gedirsiz. Ordunuzla ordakı dinc ermənilərə kömək etmək istəyirsiz.

– Bəli, Sultan bəy. Doğrudur.

Mayor Vahram Andronikin qulağına pıçıldadı:

– Bu adamın Tat kəndindəki soyqırımdan xəbəri yoxdu.

Andronik ona əli ilə susmasını işarə elədi və üzünü pərdəyə tutdu:

– Qızılı indimi sənə təslim edim?

– Abdallardan rahat keçib gedəndə mənim göndərdiyim adama verərsiz. Amma şərtim var.

– Nə şərtdi elə? – Andronik təşvişlə soruşdu.

– Şərtim belədir. Əvvala sizi qorumaq, təhlükəsizliyinizi təmin etmək üçün mənim süvarilərimin silaha ehtiyacı var. Boş əllə onlar sizi necə qoruya bilər?

– İyirmi qatır yükü silah yetərmi?

– Yetər, Andronik.

– Şərtin bu idimi?

– Yox. Zəngəzurda mənim adım-sanım var. İstəmirəm daş-

naklara kömək etdiyim üçün məni qınasınlar. Ona görə də ordunun bütün silahlarını qatırlara yükləyirsiz. Əsgərlər əliboş Addallardan keçib gedir.

– Başa düşdüm.

– Mən sözümü qurtarmadım. Toplar da sökülməlidir. Adamları şübhələndirmək istəmirəm.

– Bu şərtini də qəbul etdim.

– Mənim işarəmi gözləyin.

– Oldu, Sultan bəy.

Pərdənin o tərəfində sakitlik yarandı, sonra boğuq ayaq səsləri eşidildi. Söhbət bitmişdi. Sultan bəylə Çal Aslan ayağa qalxdı. Çal Aslan həyətə çıxanda gözaltı ətrafa baxdı. Həyətdə çoxlu silahlı erməni əsgərləri gəzişirdi. Çal Aslan dodaqaltı astadan dedi:

– Bunlar bizə tələ qurmaya, Sultan bəy bura gəlməkdə səhv elədik.

– Narahat olma, Aslan bəy. Onunla ona görə görüşmək istədim ki, onu tam inandırım. Hər şeyi gözə aldım. Düşündüm ki, məni aradan götürsələr Andronik Şuşaya keçə bilməz. Ona indilik mən lazım deyiləm, Şuşa, Qarabağ lazımdı. Bizimkilər də yaxındadı. İşarəmi gözləyirlər. Bir şey olsa özlərini yetirəcəklər. Yadında qalsın, qurdun qapısına gedən ehtiyatı əldən verməməlidi.

Erməni əsgərlərinin kinli baxışları altında Sultan bəylə Çal Aslan atlarını minib bir göz qırpımında uzaqlaşdılar.

***

Sultan bəy Androniklə görüşdən qayıdan kimi komandirləri qərargaha topladı. O, indiyədək bu qədər narahat, gərgin anlar yaşamamışdı. Çaqqal sürüsü tələyə düşürdü. Onları hürkütməmək üçün Sultan bəy ağlını, zəkasını, hərbi bacarığını, təcrübəsini səfərbər etdi. On minlik nizami ordu ilə Sultan bəyin dəstəsi... Bu ordu sonuncu əsgərinə qədər məhv edilməlidi... Sultan

bəy əlini çənəsinə söykəyib pəncərədən qarlı dağlara baxırdı. İri, qaynar gözləri yalnız bir nöqtədə qərar tutmuşdu. Beyni, ağlı isə sürətlə işləyirdi: döyüş planı zərgər dəqiqliyi ilə ölçülüb biçilməli, kəşfiyyat düşmənin keçib getdiyi yerlərdən dəqiq məlumatlar gətirməli, hər kəs tapşırığı canı, qanı bahasına yerinə yetirməlidi. Sultan bəy otağa göz gəzdirdi: həmişə yanında olan Çal Aslan, Minkənd alayının əfsanəyə çevrilən komandiri Seyid Həmid, Piçəniş alayının komandiri Xanalı, ermənilərin yuxusunu qaçıran Ağamməd, kişi qeyrətli Tavat, Hacılarlı Ağalar, Tərxanlı Fərzalı bəy Sultan bəyin göstərişini, əmrini gözləyirdi. Çal Aslan sükuta dözə bilmədi:

– Andronikin qaniçən əsgərlərini məhv etmək üçün əlimizə girəvə düşüb.

Sultan bəy başını ona tərəf çevirib yüngülcə qımışdı:

– Döyüş planının müzakirəsinə keçirik. Kimin nə təklifi varsa buyursun.

Sultan bəy xəritəni qarşısına çəkdi. Sanki çanlı görürmüş kimi yazılmış adların arxasında dağları, düzləri, aşırımları, keçilməz gədikləri xəyalından keçirdi.

Çal Aslan onu düşüncələrdən ayırdı:

– Sultan bəy, bir hərbiçi kimi sizin özünüzə məxsus olan döyüş taktikanız var. Biz onların bir qismini döyüş vaxtı təcrübədən keçirmişik və daim zəfər qazanmışıq.

Seyid Həmid yerindən dilləndi:

– “Dağlarda tufan” , “Güllə ətdən keçib ətdə soyumalı”...

Ağamməd davam etdi:

– “Zərbə dalınca zərbə” , “Qəflətən hücum” , “Üçbucaq”...

Sultan bəy üzünü Hacılarlı Ağalara tutdu:

– “Gülllədən leysan”. “Mövqe seçmək bacarığı” da uğurlu olub. Amma bu dəfə başqa bir taktikadan istifadə etməliyik. Qələmi əlinə alıb xəritənin üstündə gəzdirdi və bir nöqtədə saxladı:

– Biz düşməni Yeddiqata qədər irəli buraxacağıq. Yeddiqatdan yuxarı Qaladərəsindən Şuşaya yol gedir. Amma biz

düşmənin hərəkətini Yeddiqatda dayandıracağıq. Burda artıq yeni döyüş taktikasından istifadə edəcəyik. Bu taktika "Nal şəkilli mühasirə" adlanır. Yəni Yeddiqatın ətrafında nal şəklində mühasirə yaradacağıq. Düşmən arın-arxayın, silahsız Yeddiqatın içərilərinə doğru hərəkət edən zaman tələyə düşəcək. Hörümçək torunu necə qurur? Ondan xilas olmaq mümkündürmü? Yox. Bildiyimə görə Andronik 170 qatır yükü silahı Qarabağa keçirmək niyyətindədir. Silahı göndərəcək, özü isə razılığımı aldığına görə təhlükəsiz halda öz doğma evinə, torpağına, vətəninə gedirmiş kimi arın-arxayın, çox rahatlıqla və ürəyində məni aldatdığına görə gülə-gülə, məni məsxərəyə qoya-qoya atını sürüb gedəcək. Tat kəndində yandırdığı evlərin közü hələ soyumayıb. Yanmış, külü çıxmış tonqalların altında kösövə dönmüş cəsədlər basdırılmayıb – əgər onlara cəsəd deyilirsə... Yağan qar hələ də qan izlərini yuyub aparmayıb. Quldurbaşı arxayındı ki, biz bütün bunları unutmuşuq və Androniki – bu cəlladı heç nə olmamış kimi bağrımıza basıb yenə qanlı qırğınlar törətsin deyə özümüz öz əlimizlə onu Şuşaya yola salırıq.

Nifrət hissi Sultan bəyin çöhrəsini dəyişdi, bu nifrətin alovu sanki gözlərinin içini yandırdı və o, bir anlıq qəhərini boğub susdu..

Ağamməd yerində sakit otura bilmədi:

– Bir ermənini də salamat buraxmaq olmaz. On minlik ordu son əsgərinə qədər məhv olmalıdı. Amma... onların xeyli miqdarda topları da var, Sultan bəy. Deyirəm bu topları ələ keçirsəydik...

Sultan bəy qımışıb ruh yüksəkliyi ilə dedi:

– Bu toplar savaş başlamamışdan bizim əlimizdə olacaq, Ağamməd. Andronikə dedim ki, ətrafın diqqətini cəlb etməmək üçün topları da sökdürsün. Toplar və 170 qatıq yükü silahlar bizim əlimizə keçəcək. İnşallah...

Ağamməd sanki bir an harda olduğunu unutdu, əlini yuxarı qaldırıb ucadan dedi:

– Yaşasın böyük Sultan bəy!
– Mən sözümü bitirmədim, Ağamməd.
Otaqda sakitlik yarandı. Sultan bəy xəritədən aralandı. Otaqda gəzindi. Əlini seyrək saqqalına çəkib fikirli halda dedi:
– Andronik silah yüklü qatır karvanını gecə yola salacaq. Özü isə dan yerinə səda düşməmiş ordusu ilə Gorus-Şuşa yolu ilə Zabıx kəndinə daxil olacaq, bizə güvənərək arxayın halda burdan da rahat keçib Abdallar poçtuna tərəf üz tutacaq. Amma mənim təklifim odu ki, şosse yolunun hər iki tərəfində pusqu olsun. Eyni zamanda Həkəri çayı tərəfdən Topatılandan Tatdərəsi kəndinədək olan yollarda, eyni zamanda Zabıx kəndindən Qaladərəsinə qədər yolda müdafiəçilərimiz gizlənərək düşməni gözləsinlər...
Sultan bəy gülümsündü. Yenə xəritəyə baxdı. O, bu xəritənin qarşısında saatlarla dayanmış, düşünmüş, düşməni məğlub etməyin yollarını axtarmış, götür-qoy etmişdi. Onun zəkası, iti ağlı Qarabağı gözləyən dəhşətli faciələrdən, ölüm və qan püskürən daşnak ordusundan xilas etməyin yollarına sanki işıq salmış, Tanrı elə bil bu savaşda ona qüdrət və qüvvət vermişdi.
Sultan bəy sözünə davam etdi:
– Mənim belə bir planım da var: Andronik Sisyandan, Gorusdan, Xınzirəkdən, Dığdan keçib gələcək, – üzünü Çal Aslana tutdu, – Aslan bəy, sən müzakirə qurtaran kimi müdafiəçilərdən üç dəstə ayır. Onlar tuluqları neftlə doldurub gecəykən yola çıxsınlar və Andronikin keçib gəldiyi erməni kəndlərinə od vursunlar. Beləliklə, Andronik Yeddiqata çatmağa macal tapmamış üç dəhşətli xəbər alacaq: silah yüklü qatırlar Sultan bəyin əlinə keçib. Yeddiqatda döyüş başlayıb, çoxlu sayda ölənlər var, salamat qalmış əsgərlər Zabıx dərəsinə tərəf geri çəkilir. Üçüncü xəbər də o olacaq ki, yandırılmış kəndlərin əhalisi xəbər göndərəcəklər ki, Sultan bəyin dəstəsi bizi qırır, geri qayıdın və bizi müdafiə edin.
– Kaş həmin an Andronikla üzbəüz dayanaydım və onun

düşdüyü vəziyyətə tamaşa eliyərdim, – Ağamməd əllərini bir-birinə sürtdü, – söz yox ki, Andronikin başı havalanacaq, yaralı canavar kimi ulayacaq.

– İnanmıram ki, bundan sonra Andronik Zəngəzurda duruş gətirə bilə, – Tərxanlı Fərzalı bəy təntənə ilə dedi.

– Türklərin arxadan hücum etmək qorxusu, silahların ələ keçməsi, söz yox ki, orduda ruh düşgünlüyü yaradacaq, əsgərlər canlarını qurtarmağa çalışacaq, döyüşmək əvəzinə qaçmağa cəhd göstərəcəklər. Amma silah... yox..

Tərxanlı Fərzalı bəy əlini qaldırdı:

– Burda mənim də bir təklifim var, Sultan bəy, – o, xəritənin üzərinə əyildi, – Zabıx dərəsinə sıxışdırılmış ermənilər bax bura-Dəhya tərəfə çəkiləcəklər. Mən də burda bir hiylə işlətmək istəyirəm.

– Maraqlıdı. De görək sən necə bir hiylə işlədəcəksən?

Hər kəs Fərzalı bəyin nə deyəcəyini gözlədı.

– Mən bu barədə çox düşündüm, götür-qoy elədim. Bu "İt əməliyyatı" dı.

– Bir vaxt Şükür bəy də Kırs əməliyyatında itlərdən istifadə etdi və Karo Hambarsumyanın ordusunu məğlub etdi. İndi izah elə görək bu "İt əməliyyatı" nədi?

– Döyüş qaranlıq düşənə qədər davam edəcək. Ermənilər qaranlığın düşməsindən istifadə edib Zabıx dərəsindən Dəhyaya tərəf açıq yola çıxacaqlar. Gündüzdən biz də altı-yeddi çoban iti götürürük. Özü də bu itləri əvvəldən ac saxlayırıq. Ac it qarşısına çıxan hər kəsi didib parçalayacaq qədər vəhşiləşir. Bu itləri bir-birinə yaxın yerdə zəncirləyirik. Bir neçə qoyunu da kəsdirib ağaclardan asırıq. Zabıxdan qaçan ermənilər it hürüşməsini eşidir, kəndin yaxında olduğunu zənn edib orda gizlənmək istəyəcəklər. Adamların yaxında olduğunu hiss edən itlər əsəbiləşəcək və zəncirləri qırıb ilk əvvəl ermənilərin üstünə hücum çəkəcəklər ki, qoyunları əldən verməsinlər.

Sultan bəy düşündü, sonra xəritəyə əyildi və qələmini xəri-

tənin üzərində gəzdirdi. Onun sifətində məmnun bir ifadə təbəssüm kimi bütün çöhrəsini işıqlandırdı:

– Düz deyirsən, Fərzalı bəy. Əgər erməniləri Dəhyada məhv etməsək onlar Tərxanlı, Suarası, Xanalılar kəndinə adlayacaq, məğlubiyyətin qisasını bizimkilərdən çıxacaqlar. Sən yubanmadan bir neçə nəfərlə Dəhyaya get, erməniləri orda qarşıla.

Fərzalı bəy getdi.

Sultan bəy içəridəkilərə göz gəzdirdi və təmkinlə dedi:

– Yeddiqatda nal şəkilli mühasirədə əsgərlərin hamısını məhv edə bilmərik. Çünki zarafat deyil, on minlik ordudu. Müdafiəçilərimiz Andronikin ordusunu Zabıx dərəsinə sıxışdıracaq. Əsas savaşımız da burda olacaq. Zabıx dərəsinə yaxşı bələd olduğumuzdan dərənin aşağı və yuxarı hissəsində pusqu qurulacaq. Ermənilər çox olsa da əvvəla əliyalındı, ikinci bizim də döyüşkən, qəhrəman oğullarımız var, – Sultan bəy nəzərlərini onu diqqətlə dinləyən müdafiəçilərin üzündə saxladı, – mənim yaxın dostum Hacı Mirzə Əzizin iki oğlu-Seyid Məmmədlə Seyid Əkbər burdadı. Hər ikisini savaşda görmüşəm və fəxr eləmişəm. Çox cəsur, igid oğlanlardı. Hər ikisi yüzbaşı Teymur bəyin köməyi ilə Türkiyədən Zəngəzura çox çətin şəraitdə, təhlükəni gözə alaraq bizə silah-sursat daşıyıblar. Mən onların bu şücaətini nəzərə alaraq Seyid Məmmədi 315 nəfər süvariyə komandir təyin edirəm. Seyid Əkbəri də ona köməkçi.

Seyid Məmməd ayağa qalxdı, əlini sinəsinə qoyub yüngülcə baş əydi və dedi:

– Sultan bəy, sizin etimadınızı canımız bahasına olsa da doğruldacağıq.

– İnanıram sizə, Seyid Məmməd.

... Müzakirə xeyli çəkdi. Müdafiəçilər dağılışdı və dəstələr Sultan bəyin əmrini gözlədi.

Dəstəyə istirahət əmri verildi. Sultan bəy otağına çəkildi, çarpayıda uzanıb əlini başının altında daraqladı. Az da olsa yuxuya getmək, dincəlmək istədi. Amma şiddətlənən küləyin səsi

aman vermədi. Külək sanki cilovu buraxılmış at kimi kişnəyirdi. Yağan qarı pəncərələrə çırpır, sonra da süpürüb aparırdı. Elə bil bayırda saysız-hesabsız canavarlar ulaşırdı.

Sultan bəy qalxıb oturdu. Onun bütün duyğuları oyaq idi...

***

Yeddiqatın ətəyi qalın meşəlik idi. Dərə-təpələr, yamaclar sıx, qalın ağaclarla örtülmüşdü. Sərt keçən fevralda ağaclar qalın qarın altında sanki itib batmışdı. Günəş qaralmış buludların arasından zəif işarsa da bu yerlərin qalın qar örtüyünü əritməyə gücü yetmirdi.

... Əlif dəstəsini meşənin qırağında saxladı. Ətrafda qarın özü kimi səssiz bir soyuqluq vardı. Yeddiqata gedən yol buz bağlamışdı. Xarlamış qarın üstünə at nallarının izi düşmüşdü.

Əlif soyuqdan donmuş əllərini nəfəsi ilə hovxurub isitməyə çalışdı və üzünü dəstəyə tutdu:

– İrəli kəşfiyyatçı göndərməliyik. Kim könüllü gedər?

Əlifə yaxın dayanmış iki cavan oğlan tüfəng çiyinlərində irəli yeridilər:

– Biz gedərik.

– İki nəfər də lazımdı

Müdafiəçilərdən iki nəfər də könüllü Zakirgilə qoşuldu.

Əlif üzünü onlara tutdu:

– Ermənilər artıq 170 qatır yükü silahı yola salıblar. Bu silah bizə çox lazımdı. Ona görə də ehtiyatlı olun. Məlumatlarınız dəqiq və düzgün olsun ki, səssiz-küysüz qatır karvanını ələ keçirək.

– Oldu, komandir, – Fərəc ruh yüksəkliyi ilə dedi, – bu çaqqalların axırına çıxmaq üçün əllərim gicişir.

– Səbirli olun. Qatırlar meşəyə yaxınlaşan kimi karvanın yolunu arxadan da kəsməliyik. Bir nəfər də sağ qurtarıb Andronikə xəbər aparmasın.

Fərəcgil atlara minib meşədən çıxdılar.

Əlif üzünü müdafiəçilərə tutdu:

– Siz də dincəlin. Uzun yol gəlmişik.

Şəmsi Eyvaza baxıb mızıldandı:

– Acından ürəyim gedir. Görüm evdəkilər heybəyə nə qoyub?

– Bizimki soyutma toyuq, pendir, lavaş qoyub. Yığışın savaş başlamamış çörəyimizi yeyək.

Kimsə heybəsindən çit süfrə çıxardı, sonra heybələrin hamısı boşaldı, süfrə pendir-çörəklə doldu.

– Kaş burda bir samovar çayı da olardı, – Şəmsi pendir dürməyindən bir dişdəm alıb iştahla dedi.

– Ocaqda hisli çaydan qaynasa da pis olmaz. Heç olmasa canımız isinər. Erməninin evi yıxılsın, bu qarda-boranda burda neynirdik ki?

Əsgər üstünə tökülmüş çörək qırıntılarını ovcuna yığıb ağzına atdı, üzünü Əlifə tutdu:

– Bu başı batmış, adı andıra qalmış Andronik hansı ağılla Sultan bəyə inandı?

– İnandı ki, 20 qatır yükü silahı peşkəş elədi bizə.

– Başıxarab canavar, Sultan bəy qızıla allanacaq? Tat kəndində elədiyin zülüm... – Şəmsinin gözləri doldu, iki damla göz yaşı kirpiklərindən buz kimi qırılıb yanağına düşdü.

Əlif əlini Şəmsinin çiyninə qoydu:

– Səbr eləyin, Sultan bəy onların qisasını Andronikdən alacaq. Silahsız erməni bizə neyniyəcək?

– Heç zad eliyə bilməz.

– Vəssalam, qurtardı, – Əlif ruh yüksəkliyi ilə bunu deyib ayağa qalxdı.

İbrahim kürəyini ağaca söykədi. Ağac silkələndi, budaqlardan lopa qar ələndi. İbrahim üstünün qarını çırpa-çırpa Yeddiqata qalxan yollara baxdı:

– Deyirəm yaxşı ki, bu savaş qışa düşdü. Yəni qarın yağan vaxtına. Qar da dayanmadan yağır.

Şəmsi istehza ilə güldü:

– İbiş, sən nə demək istədin, başa düşmədim ki? Qarın yağması bizim də işimizə əngəl törədir.

Əlif şəhadət barmağını şax saxlayıb gülümsədi:

– İboşun sözünü qəribçiliyə salmayın. Bu kişi onu demək istədi ki, qar torpaqların üstünü örtüb. İnşallah, erməniləri qırıb qurtararıq, sonra yazın havasında qar əriyər, torpağımız təmizlənər. Başa düşdüz?

Zakirlə Fərəc at belində özlərini yetirdilər.

– Ayə, ucu-bucağı görünməyən qatır karvanı gəlir. Ermənilər əllərində qırmanc aşağı-yuxarı qaçır. Karvanı tələsdirirlər ki, Yeddiqata tez çatsınlar. Gecəyə düşməsinlər.

Şəmsi hirslə əlini dizinə çırpdı:

– Köpək uşaqları, gör nə qədər arxayındılar.

Zakir təəccüblə soruşdu:

– Şəmsi, sən sevinmirsən?

– Nəyə sevinim, bala?

– Ermənilərin səyliyinə, Andronikin axmaqlığına. Əgər onlar ağıllı olsaydı 170 qatır yükü karvanı Yeddiqata göndərərdimi? Arxasınca da özü və silahsız ordusu.

– Erməni havayı demir ki, müsəlmanın sonrakı ağlı kaş məndə olaydı.

Əlif tapşırıq verdi:

– Atları meşənin dərinliyinə çəkin, düşmən görməsin, – sonra da üzünü Zakirə tutdu:

– İndi məlumat ver görək.

– Karvanı iki yüzdən çox əsgər müşaiyət edir. Silahlıdılar.

– Pusquda dayanaq. İşarəmi gözləmədən atəş açmayın.

– Oldu, komandir.

Əlif hündür ağacın təpəsinə qalxdı və durbinlə qatır karvanını izlədi. Sonra da Şəmsiyə səsləndi:

– Qatırlar ləng gedir. İrəlidə gedən erməniləri səssizcə ara-

dan götürün. Arxadakılar duyuq düşməsin. Yoxsa silah əlimizə keçməsin deyə qatırları güllələyib dərəaşağı yuvarladarlar.

Şəmsigil özlərini qatırların qabağına atdılar. O birilər iki ermənini boğazlayıb meşənin içinə çəkdi. Qəflətən boğuq güllə səsi gəldi, ardınca Əlif qışqırdı:

– İki dəstəyə bölünün-bir dəstə ermənilərin qabağını kəssin, o biri dəstə arxadan atəş açsın. Düşməni çaşdırın, cəld olun.

Yüklü qatırlar yorğun-yorğun, uzun ayaqlarını tənbəl-tənbəl irəliyə ataraq qarlı yoxuşu çətinliklə qalxırdı.

İbrahim qışqırdı:

– Bir erməni özünü dərəyə atdı. Deyəsən şübhələndi, xəbər aparacaq...

– Ordan çıxa bilməz. İşinizdə olun, – Şəmsi qarşısına çıxan erməni ilə əlbəyaxa oldu.

... Karvan dayandı. Əlif bir papiros çıxarıb yandırdı:

– İki erməni aradan çıxdı.

– Qar yağır, gədiklərdə azıb donacaqlar.

– İndi neyniyək? – Zakir qatırların yükünü yoxlaya-yoxlaya irəli gəldi və birdən əlini yükdən çəkib ucadan dedi:

– İki qatır yükü də ərzaq var.

– Mən ölsəm də erməni çörəyi yeyəmmərəm.

– Niyə? – Fərəc təəccüblə soruşdu.

– Nə bilim, micasım çəkmir. Onların arvadları pinti olur.

– Yox, çörək-çörəkdi, Allahın xoşuna gəlməz.

– Sübh tezdən Andronik ordusu ilə Yeddiqata doğru hərəkət edəcək.

– Halal olsun, Sultan bəyə.

– Yaşasın el qəhrəmanı, böyük Sultan bəy.

Silahlarını başlarının üstünə qaldırmış igidlərin hayqırtısını sanki qarlı dağlar, dərələr eşitdi. Səslər uca göylərdə havalandı, elə bil qarlı çöllərə mərdlik, qəhrəmanlıq dastanının ilk sətirləri yazıldı...

**4.**

Qar basmış çöllərdə, təpələrin, yamacların döşündə saysız-hesabsız atlar çapırdı. Göy üzü tünd göyümtül rəngdəydi və elə bil yer üzündə göydəki ulduzların sayı qədər süvarilər vardı. Atlar çapırdı və qarın üzərində at nallarının açdığı naxışlardan qara şərit kimi yollar uzanırdı.

Yoxuşa qalxanda Andronik atın cilovunu çəkib saxladı. Arxadan gələn ordu da dayandı. Sazaqda atların ağzından buxar qalxırdı. Əsgərlərin cilovdan yapışan əlləri üşüyürdü və onlar ciddi-cəhdlə donmuş əllərini ağızlarına aparıb hovxururdular.

Mayor Vahram atını irəli sürüb durbinlə uzaqları seyr etdi. Onlar asanlıqla bu yolu keçib Şuşaya girəcəkdilər. Şuşada ilk soyqırım törədəcəkləri kəndlər də məlum idi: Zarıslı, Xəlifəli, Şırlan, Xankəndi... Soyqırıma mütləq özü başçılıq edəcəkdi. Bir körpəyə belə rəhm etməyəcəkdi... Mayor Vahramı irəlidə müsəlmanların soyqırımından alacağı zövq, nəşə gözləyirdi. Amma bu anlarda onun içi sıxıntılıydı. Səbəbsiz bir təlaş hissindən sanki indidən hiss etdiyi nəşənin üstünə sazaq çökürdü. O, durbinlə yollara baxa-baxa içindəki təlaşı, şübhəni yox etmək istədi. Ətrafda şübhə doğuracaq heç nə yoxuydu. Yalnız atlarln kişnərtisi, fınxırtısı, aşağı yuxarı qaçan, əmrlər verən, qışqırıb bağıran komandirlərin səsi sakitliyi pozurdu.

Xəyal Androniki qarlı yollardan, aşırımlardan keçirib heç bir vaxt görmədiyi Şuşaya yetirdi:

“Şuşanın küçələrində görünməmiş izdiham var. Əllərində erməni bayrağı dalğalanan şuşalılar ağ atın belində şəhanə dayanmış Androniki cəngavər kimi qarşılayırlar. Andronik meydana, küçələrə sığmayan izdihamı fatehlərə məxsus baxışlarla süzür, gözlər qıyılır, əlini ağ bığlarına çəkərək müdrikcəsinə gülümsünür və alqış səslərinə başını azca aşağı əyərək təvazökarlıqla cavab verir. Bu anda iki nəfər erməni bir nəfəri sürüyüb ağ atın qarşısına atır.

Andronik soruşur:

– Bu kimdi?

Möhkəm döyüldüyü görünüşündən bəlli olan nimdaş paltarlı, yalın ayaqlı adam dizləri üstə sürünə-sürünə ağ atın bərabərinə çatır və başını yuxarı qaldırır. Yanaqlarından aşağı göz yaşı süzülür. Dodaqları titrəyir və yalvarış dolu gözlərini Andronikə zilləyir.

Andronik təkrar hökmlə soruşur:

– Bu kimdi? Sultan bəydimi?

Mayor Vahram atını göz yaşı tökən bu miskin, bədbəxt adamın üstünə sürür və bağırır:

– Bu Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovdu. Mən ilk növbədə onu əsir götürməyi əmr etdim.

– Bu Sultan bəyin qardaşı Xəsrov bəydi? Onun bu qədər qorxaq, bu qədər aciz... olduğunu bilməzdim.

– Qarabağın general-qubernatorunu Cıdır düzünə qədər sürüyüb aparın, – mayor Vahram dedi: – O, Zəngəzuru ermənilərdən təmizləmək üçün Sultan bəyə kömək edib. O, Şuşa ermənilərinə zülüm verib. Ən yaxşı oğullarımızı həbsxanaya atdırıb.

İzdiham od püskürdü:

– Onu ən ağır cəza ilə cəzalandırın.

Andronik əlini yuxarı qaldırdı, izdihamı bürüyən həyəcan bir anlıq səngidi və sakitlik yarandi:

– Tələsməyin, gözləyin.

– Niyə? – Vahram acıqlı halda Andronikin üzünə baxdı.

– Xosrov bəyin ayaqlarıma yıxılıb yalvarmasını gözləyirəm.

– Sən onu əfv etməkmi istəyirsən, general? – Vahram inanmırmış kimi heyrətlə Andronikin üzünə baxdı.

– Onun qardaşı Sultan bəy bizə inandı, etimad göstərdi. Əgər o, olmasaydı biz indi burda sizin qarşınızda olmazdıq. O, bizə yaxşılıq etdi...

Mayor Vahram keyfi pozulmuş halda mızıldadı:

– Lakin biz bu yaxşılığı bir kisə qızılla ödədik.

Andronik sanki nifrətli baxışındakı istehza ilə Xosrov bəyi ürəyinin başından yaralamaq istədi:

– Qardaşının satqınlığını bilirdimi, Şuşanın igid general-qubernatoru Xosrov bəy? Bir vaxt erməniləri yurd-yuvasından didərgin salan, qanımızı içən Əlipaşa bəyin oğlu.

Xosrov bəyin gözlərində yaş parıldadı. Əllərini sinəsinə qoyub dizləri üstə Andronikə tərəf süründü:

– General, bizim ermənilərə daim hörmət və ehtiramımız olub, – Xosrov bəy sözləri güclə tələffüz edirdi, çənəsi əsir, dişləri bir-birinə dəyir, yalın ayaqları qarın içində donurdu. Xosrov bəyin görünüşündə, Andronikin qarşısında diz çökməyində, yanaqlarında donmuş iki damla göz yaşında bütün vücudunu, ağlını, zehnini bürüyən əzablı, işgəncəli bir alçalma, qürurunun tapdalanması hissindən doğan məyusluq vardı.

– Mayor qarşımızda diz çökən, göz yaşı tökən bu adam bəlkə Xosrov bəy deyil? Mən şübhə edirəm, – Andronik əlini əlinə vurub gözlərindən yaş tökülə-tökülə güldü. Gülüşünü heç cürə kəsə bilmirdi. Arxasında dayanmış əsgərlər də uğunub gedirdi.

– Nə danışırsan, general? Bütün Şuşa erməniləri Xosrov bəyi tanıyır.

– Mən onu belə qorxaq zənn etmirdim.

– Sizin qarşınızda hər kəs gücsüzdür, general. Əgər Sultan bəy burda olsaydı, o, da sizin qarşınızda diz çökərdi, ağlayardı, yalvarardı. Sizin qarşınızda dağlar-daşlar belə gücsüzdür... Siz Zəngəzuru diz çökdürdüz, müsəlmanlardan təmizlədiz. Qarabağın işğalından sonra bu yerlərdə qüdrətli bir erməni dövləti yaradılacaq... Söz yox ki, sizin sayənizdə.

– Erməni dövlətinin başında Dro və Nijde dayanacaq.

– Bəs indi Xosrov bəyi...

– Hələlik sağ qalsın.

– Bir planınızmı var?

– Var. Sultan bəyi də istəyirəm...”

Bu anda uzaqdan gələn süvarilər Andronikin xəyallarını

sanki güllə yağışına tutub dağıtdı. Ürəyinə düşən qara şübhə soyuq sazaq kimi iliklərinə qədər işlədi. Mayor Vahram astadan, qorxu içində dedi:

– Bunlar heç də xoş xəbərlə gələnə oxşamır.

Andronikə çatan kimi süvarilər ağızlarına bağladıqları yaylığı açdılar. General bu zaman onların qorxudan böyümüş gözlərini, təlaşlı baxışlarını gördü.

Cavan saqqallı erməni təngnəfəs halda, boğula-boğula dedi:

– Arxada savaş başlayıb. Müsəlmanlar sizin keçib gəldiyiniz erməni kəndlərini yandırır. Qırılan qırılır, sağ qalanlar qarlı dağlara üz tutur. Orduya geri qayıtmağı əmr edin. Bizi qoruyun, general.

Süvarinin sürdüyü atın qəflətən dizləri qatlandı və o yerə çökdü. Süvari atın başına dolandı, üzünü şillələdi, sonra da başını yuxarı qaldırıb hüznlü səslə dedi:

– Xəbəri sizə çatdırmaq üçün onu acımadan möhkəm sürdüm, bağrı çatladı.

Andronik cavan ermənini nifrətlə süzdü və mayor Vahramdan soruşdu:

– Yeddiqata çoxmu qalır?

– Abdallar poçtuna çatmağa az qalır. Biz burdan Həkəri çayı tərəfdən Topatılana adlayacaq, ordan da kiçik Tatdərəsi kəndini geridə buraxıb Yeddiqata doğru hərəkət edəcəyik. Sultan bəy bizim təhlükəsiz...

Andronik üzünü süvariyə tutdu:

– Mən geriyə qayıda bilmərəm. Bizi Şuşada gözləyirlər. Bütün cəbbəxanamız irəlidədi. Biz əliyalınıq. Qayıtsaq belə ordu nə ilə döyüşəcək? Canları cəhənnəmə. Mən Zəngəzurun çox hissəsini işğal etdim, sizə verdim. Qayıda bilmərəm, rədd olun...

... İrəlidə Abdallar poçtu göründü. Yağan qarın sazağı və soyuq sükutu sanki dağları, daşları əsir almışdı. Elə bil donmuş həyat yüz illərcə yaz, yay görmədən beləcə davam edirdi və bu yerlərə heç bir vaxt günəşli bahar gəlməmişdi.

Bu anda qarşıda süvarilər göründü. Atlar ağır-ağır çətinliklə, qarlı yollarda irəliləyirdi. Andronik atın cilovunu çəkib saxladı. İçindəki qorxu, təlaş artdı. O, bunu birüzə verməməyə çalışdı. Amma qorxu qar burulğanı kimi onu ağuşuna alırdı, Andronik titrəyirdi. Süvarilər göyə güllə atdılar, əllərini yuxarıya qaldıraraq dayanmaq işarəsi verdilər.

Andronik birdən-birə heydən düşdüyünü, ürəyinin möhkəm çırpındığını və get-gedə qüvvədən düşdüyünü hiss elədi. Süvarilərin bağırtısı sanki yollar aşaraq onlara güclə gəlib çatdı:

– Qayıdın, qayıdın. Sultan bəy bizi tələyə saldı. Biz tələyə düşdük. Silah-sursat Sultan bəyin əlinə keçdi. Yollarda pusqu var. Canımızı güclə qurtardıq.

“Qayıdın” əmri ağızdan-ağıza ordunun axırıncı əsgərinə qədər ötürüldü. Sanki bircə göz qırpımında yollarda həyat dondu. Canlı yalnız kişnəyən, başlarını sağa-sola əyib yerində rahat durmayan atlar idi.

Andronik ağ atın üstündə yumaq kimi büküldü. İçində bir anda başlayan tufanın şiddətindən titrədi, əl ayağı əsdi. Ordunu fəlakətdən qurtarmaq üçün komandan səbri ilə ağlını, zəkasını səfərbər etdi... O, bütün həyatını türklərlə savaşda keçirdi. Nifrət, kin içindəki bütün insani duyğuları, sevgiləri öldürdü. Əslində isə bu nifrət və kin ən böyük soyqırımı onun öz içində apardı. Bir qadına sevgini, bir uşağa övlad məhəbbətini acımasızcasına içində qətlə yetirdi, qan tökmək ehtirası, nəfsi, quduz iştahı həyatında yaxşı nə vardısa hamısını məhv etdi...

Qışın sazağında ağ atın üstündə beli bükülmüş halda dayanaraq onun əmrini gözləyən, ona nifrət və kədərlə baxan əsgərlərinin baxışından gizlənməyə çalışdı. Amma içindəki qasırğanı, tufanı rəf edə bilmədi. Güclü küləkdə kökündən qopan ağac kimi o, da rüsvayçı məğlubiyyətin qarşısında müvazinətini saxlaya bilmədi. Sanki köklü ağac ikiyə böləndü, güclü şaqqıltı eşidildi və bu səs Andronikin özünü dəhşətə gətirdi. Bu anlarda o, general hərbi geyimində olsa da aciz və fərsiz idi, düşmənə

asanlıqla inanan və onun tilovuna ağılsızcasına düşən əsgəriydi.

Andronik ucadan hönkürdü. Gücü gəldikcə, var qüvvəsi ilə hönkürdü. İçində sanki onu didib parçalayan yalquzaq vardı. O bu yalquzaqdan yaxa qurtarmaq istəyirdi. Ömrü boyu çox qanlar görmüşdü, süngülərin başında yellənən körpələrin çığırtısını, günahsız adamların son naləsini nəşə içində dinləmişdi. Heç vaxt ağlamamışdı. Daşa çevrilmiş ürəyi göz yaşlarını da elə bil daşlara çevirib bağrının başına yığmışdı. Ağladıqca bağrının başında həmin daşlar əriyirdi, yanaqlarından aşağı süzürdü. Harda saxlamışdı bu qədər göz yaşını?

Mayor Vahram dəhşət içində donub qalmış əsgərləri süzdü. Sanki hamısının ağaran çöhrəsində, şüşələnmiş gözlərində ölüm kabusu vardı. Ruhdan düşmüş əsgərlər, rüsvaycasına məğlub olmuş komandan... Vahram qeyzlə generalın üstünə bağırdı:

– Özünə gəl, general.

– Vahram, əmri sən ver.

Bu anda Abdallar poctunda gizlənmiş müdafiəçilər silahsız əsgərlərə atəş açdı. Andronik geriyə baxmadan əmr etdi:

– Zabıx dərəsinə çəkilirik. Ordan da Dığ kəndinə.

Ordu geri döndü. Qar üstündə xeylə cəsəd qaldı. Hürkmüş atlar üzüyuxarı yamaclara doğru qaçıb getdilər.

***

Çal Aslan durbini gözünə qoydu. Xanalı ucadan həyəcanla dedi:

– Ordu geri çəkilir.

Sultan bəy əmr etdi:

– Dərənin aşağı və yuxarı hissəsində dayanan dəstələr döyüşə hazır olsun!

Sultan bəyin əmri ağızdan – ağıza dəstələrə yetirildi. Dığ kəndinə gedən yolda Tavatgil özlərinə mövqe seçdilər. Ovçulardan Balakişi ilə Sultan əlləri tüfənglərin tətiyində atəş açmağa məqam gözlədilər.

... Ətrafda dərin bir səssizlik vardı. Andronik bu sakitlikdən də hürkdü: “Bəlkə Sultan bəy burda da bizə pusqu qurub?” O, atını inamsız halda, ətrafa göz qoya-qoya ehtiyatla irəli sürdü və arxadan gələn süvariləri ilə Dığ kəndinə gedən yola çıxdı. Bu anda sanki ildırımlar çaxdı, şimşəklər göylərin bağrını dəldi, qayalar gurultu ilə parça-parça olub üstlərinə yağdı. Andronik vəhşi canavar kimi bağırdı:

– Geri, geri çəkilin.

Süvarilər dəhşət içində atların başını çevirib geriyə döndülər. Amma Zabıx dərəsinin hər tərəfindən pulemyotların şaqqıltısı, topların atəşi sanki odlu çevrə kimi onların yolunu kəsdi. Yaralanmış, hürkmüş atlar kişnədi, belindəki süvarini yerə çırpıb şahə qalxaraq üzünü yamaclara sarı çevirdi. Dağ-daş atəş püskürürdü.

İri qaya parçası Andronikin ağ atının ayağına düşdü, at kişnədi, şahə qalxaraq dəhşət içində sahibini belindən atdı və qaçıb getdi. Andronik qaya parçalarından və atəşdən qorunmaq üçün yanındakı cəsədlərdən birini sürüyüb üstünə çəkdi. Üzüstə uzandığından torpaq ağzına doldu. Lakin o, bunun fərqində deyildi. Ürəyi şiddətlə çırpınır, gözlərindən dayanmadan yaş axırdı: “Məni müsəlmanlar lənətlədi. Körpələrin qarğışı tutdu. Mənim möhtəşəm ordum, qalib ordum bir güllə atmadan rəzil oldu. Mənim əsgərlərim... Ağılsızlığım, dərrakəsizliyim sizi məhvə apardı... “Cəsədin altından başını qaldırıb dərəboyu baxdı: hər tərəf cəsədlərlə örtülmüşdü. Sağ qalanlar aşağı-yuxarı qaçırdı. Bağırtı, fəryad səsləri get-gedə azalırdı. Andronikin ürəyi parçalandı “Onların arasında altmış iki nəfər yüksək rütbəli komandir vardı... Onlar da mənim ağılsızlığımın qurbanı oldu. Mən əclaf, şərəfsiz inandım ki, Sultan bəy doğrudan da torpağını bir kisə qızıla satar. Halbuki o bütün sərvətini Zəngəzurun müdafiəsinə sərf edir. Mən axmaq, mən ağılsız buna necə allandım? O, çox güman ki, üç gün əvvəl Tat kəndində törətdiyimiz

vəhşilikləri eşitmişdi. O, məni bağışlayardımı? Mən ağılsız... bütün bir ordunu güdaza verdim, məhv etdim. Ermənilər məni daim lənətləyəcək..."

Qaş qaralanda atəş səngidi. Zabıx dərəsinə elə bil dərin bir məzar sükutu çökdü. Müdafiəçilər sağ qalan atları yığıb apardılar. Dərədə yalnız ruhlar dolaşdı...

Andronik cəsədin altından sürünüb çıxdı. Ətrafa baxdı. Səssizlikdən üşəndi. Ona elə gəldi ki, qarı qucaqlayan ruhlar indicə üstünə yüyürəcək, onun yaxasından yapışıb İsa kimi çarmıxa çəkəcəklər. Cəsədləri ayaqlaya-ayaqlaya bu qorxunc dərədən çıxmağa çalışdı. Bu anda kimsə onu arxadan çağırdı. Keşişin səsiydi. Andronik sevindi:

– Keşiş... Keşiş Mesrof, sən sağsan?

Keşiş Mesrof cəsədlərin altından çıxdı. Hava qaralmışdı. Zabıx dərəsində bir ovuc da qar görünmürdü. Dərə yamaclara qədər cəsədlərlə örtülmüşdü. Ətrafda sızıltı səsləri də gəlirdi. Bunlar yaralı əsgərlər idi. Çox güman ki, şaxtalı fevral gecəsində donub Zabıx dərəsinin nisgilini özləri ilə o dünyaya aparacaqdılar.

Mesrof səs gələn tərəfə süründü:

– Sağsanmı, general?

– Sağam. Burdan çıxmalıyıq, keşiş.

– Necə? Burdan Dığa xeyli var. Atsız necə gedə bilərik, general?

– Burda əzrayılımı gözləyək? Yanında su varmı?

– Yoxdu.

– Ciyərim yanır.

– Bir ovuc qarı götür, ərit və iç.

– Axmaq, burda qarmı var? Başdan-başa bu yerlər qan qoxuyur.

– Ah, komandan. Mən belə dəhşət görmədim. Sultan bəy silahsız əsgərlərə qıydı. Allah onu bağışlamayacaq. Bunları

kimsə dəfn etməyəcək. Quzğunlara yem olacaq. Ah, mənim igid, günahsız evladlarım... Bütün Ermənistan qan ağlayacaq, matəm tutacaq...

Andronikin keşişə acığı tutdu, tapançanı çıxardı və çaqqal kimi ulayan keşişi susdurmaq istədi: “Dayan, dayan Andronik paşa. Hələ də ağılsızlığından əl çəkmirsən. Bu anlarda sən bir general paltarındasan. Bu geyiminlə müsəlmanların əlinə keçsən dərini soyarlar. Amma Mesrof keşiş paltarındadı. Bu qanlı dərədən çıxın. Keşişi öldür, paltarını geyin. Heç kəs sənin kim olduğunu bilməyəcək. Ağıllarına belə gəlməyəcək. Arvad paltarı da olsa geyin qaç, təki canını qurtar.” Andronik mülayim səslə dedi:

– Mesrof, Dığ kəndinə gedək. Mənim orda dostlarım var. Onlar bizə yemək-içmək və at verəcəklər.

– Hə, doğrudan? Biz ikilikdə bu dəhşətli, qanlı dərədən çıxa bilərik.

... Səmada ay doğdu, ulduzlar göründü. Androniklə Mesrof çətinliklə qarlı yola çıxdılar. Andronik çevrilib geriyə baxmaqdan qorxdu. Ona elə gəldi ki, arxasınca saysız-hesabsız ruhlar axışıb gəlir. Bu ruhlar qəzəblə onun ətəyindən, əllərindən tutub geriyə çəkirlər, başına, gözünə yumruqlar dəyir və hətta Andronik onların hədələyici səsini də eşidir:

“– Hanı Qarabağ, hanı sərvət, hanı torpaqlar? Sən öz dayaz ağlınla, nəfsinlə bizi məhv etdin. İndi də qarlı çöllərdə qoyub qaçırsan. Cavab ver, cavab ver, general.

– Mən yenə qayıdacam. Sizin qisasınızı alacam.

– Sən yalan danışırsan. Yalan vədlər verirsən.”

Keşiş Mesrof şübhə ilə soruşdu:

– Sən kiminlə danışırsan, general?

Andronik silahını çıxardı və Mesrofun gicgahına söykədi:

– Sən niyə sağ qaldın, Mesrof?

– Mən Allahın yerdə elçisiyəm, general, – keşiş qorxudan saraldı.

– Bəs onda bizim üçün niyə dualar etmədin?

– Mən dayanmadan dualar eliyirdim və xaç çevirirdim.

– Bəs o halda Allah niyə dualarını eşitmədi?

– Mən... mən... – keşis kəkələdi, gözləri alacalandı.

Güllə açıldı, Mesrof o anda arxaslı qatda düşdü və gözləri heyrət içində Andronikin üzündə qaldı. Andronik silahını qarın üstə atdı, keşişin paltarını çıxardı, ətrafa baxa-baxa geyindi və ay işığında təpənin arxasında yox oldu.

***

Düşməndən xeyli hərbi sursat, minlərlə at, qatır və arabalar qənimət götürüldü. Dağlardan göz yaşı kimi duru axan Zabıx çayı Zabıx dərəsində qan rəngi alırdı (Deyilənə görə Zabıx çayı xeyli vaxt beləcə qanlı axmış, sonralar "Qanlı çay "adlanmışdı).

... Sultan bəy hündür daşın üstünə çıxdı. Onun parıldayan gözlərində, sevincdən işıqlanmış gözlərində qazanılmış zəfərin həyəcanı, qüruru və iftixarı vardı. Elə bil bu anlarda Tanrı Zəngəzurun bu igid oğluna düşmənlərin həsəd etdiyi güc, qüvvət vermiş, üzünə ilahidən gələn nur bağışlamışdı. Sultan bəy əlini yuxarı qaldırdı. Sanki müdafiəçilərlə birgə bu anlarda dağ-daş da, qarlı çöllər də susdu. Sultan bəyin gur səsi müdafiəçilərin başı üstə qanad açdı:

– Oğullarım, aslanlarım, şir biləkli igidlərim! Biz-torpağımıza göz dikən, işğalçılıq arzusu ilə Zəngəzura ayaq basan, gözümüzün nuru qədər sevdiyimiz bu torpağı qana bələyən cəllad, qaniçən Androniki və onun çoxminli ordusunu məğlub etdik. Nə mən müharibələrdə iştirak etmiş, təcrübə toplamış komandanam, nə də siz əsgərsiz. Amma biz düşmənə qalib gəldik. Ona görə ki, haqq biz tərəfdəydi, Tanrı bizim tərəfimizdəydi. İşğalçıda heç bir vaxt vətən sevgisi olmaz. Əslində bunlar vətənin nə demək olduğunu bilmirlər. Onlar işğalçılıq yolu ilə özlərinə vətən qazanırlar. İşğalçının isə aqibəti budur, Zabıx dərəsindəki məğlubiyyət.

Sultan bəy nəfəsini dərdi. Gözlər onun üzündəydi. Əllər

silahdan möhkəm yapışaraq bu torpağa sonsuz sevgilərini gözləri, baxışları ilə bəyan edirdilər.

Sultan bəy əlini havada yellədi. Şax qamətində bir cəngavər duruşu, səsində bir qəhrəmanlıq hayqırtısı vardı:

– Savaş hələ bitməyib. Biz Zəngəzurun canına daraşmış bu gürzələrin, meşələrimizdə gizlənmiş və fürsət gözləyən çaqqalların, qan qoxusuna gələn quduzlaşmış canavarların axırına çıxmalıyıq. Zəngəzur başdan-başa daşnak tör-töküntüsündən təmizlənməlidir. Gül-çiçək ətirli elimiz-obamız, yaylaqlarımız barıt qoxusundan təmizlənməlidi. Torpağımız, insanlarımız rahat nəfəs almalıdı. Buğda əkib becərmək üçün taxıl sahələrimiz, qoyun sürülərini, mal naxırlarını otarmaq üçün yaylaqlarımız bizi gözləyir. Savaşdan yorulmuş torpaq da dinclik istəyir. Mənimlə varmısınız?

Sultan bəyin səsinə sanki dağlar da səs verdi:

– Biz səninlə ölümə də gedərik, Sultan bəy.

Müdafiəçilər silahları başları üstə qaldırdılar:

– Yaşasın bu dağların sultanı Sultan bəy!

– Yaşasın bu elin mərd, igid oğulları!

Dağ küləkləri sanki səsləri ağızlardan alıb daha uzaqlara apardı. Gözlərdə qaynayan göz yaşını gözlərdən alıb dağlara-dərələrə, yamaclara şeh kimi səpdi. Könüllərdə çağlayan intəhasız sevgini qəlblərdən qoparıb dəli çayların harayına qatdı. Günəşi göylərdən alıb zəfər ərmağanı kimi bu torpağa bağışladı.

***

– Sultan bəy, bir keşişi əsir götürüblər. Dığ kəndinə gedirmiş, yanında da iki uşaq.

– Gəlsin görək, kimdi bu keşiş?

Sultan bəyin səsində bir nəşə vardı, iri gözlərinin içi gülür, sanki qazandığı bu zəfərlə son ayların narahatlığını, qəzəb və nifrətini içindən təmizləyərək bütün duyğu və hisslərini ümidin,

inamın işığına bükürdü. Bu anlarda o, düşməni bağışlayacaq qədər mərhəmətliydi.

“Keşişi” gətirdilər. Onun yazıq və magmun bir görkəmi vardı. Ağ saçları qaşlarının üstünü örtmüşdü, soyuqdan və çox güman ki, qorxudan üzü göyümtül rəngə çalırdı. Uzun paltarının yaxasından sinəsinə düşən xaç asmışdı. Xaçı tutan əllərinin titrəyişi açıq-aydın hiss olunurdu. Sultan bəy masanın arxasından qalxdı, “keşişə” yaxınlaşdı. Çöhrəsində insanın ruhunu oxşayan nuranilik olsa da baxışları sərt idi və bu baxışlar sanki “keşişin” gözlərinə xəncər kimi sancılaraq içinə nüfuz etdi. Keşiş o anda başını çevirdi və içində daşıya bilmədiyi məğlubiyyətin açısını canavar vəhşiliyi ilə çıxarmaq, Zəngəzuru yaxıb yandırmaq, bir ovuc külə çevirmək ehtirası ilə alovlandı.  Ala bilmədiyi qisas bu anlarda onun özünü yandırdı.

Sultan bəy soruşdu:

– Hardan gəlirsən, keşiş?

“Keşiş” Sultan bəyin üzünə baxmadan ağlar, hüznlü səslə dedi:

– Bu uşaqlar atasız-anasızdır. Allaha xoş getsin deyə onlara yardım etmək istəyirəm. Özləri də acdır. Möhkəm üşüyüblər. Allah xatirinə siz də... yol verin gedim. Onların qohum-əqrəbasını tapım, yazıqdılar, yetimdilər, küçələrdə qalıb məhv olmasınlar.

– Bu tərəflərdə nə işin var, keşiş? Yoxsa sən də Andronikin ordusunda xidmət eləyirsən?

– Ah, o cəlladın, qaniçənin adını çəkməyin. Aramıza düşmənçilik toxumu səpdi. Müsəlmanla ermənini düşmən elədi, – “keşiş” xaç çevirdi, – Allah onun bəlasını versin.

Sultan bəy güldü:

– Bəlkə o, da Zabıx dərəsində əsgərlərinin arasındadı.

“Keşiş” dilini sürüdü:

– Allahın lənətinə gəlsin, -sonra da uşaqların qolundan tutdu, – axşam düşür, biz yubanmayaq dedi.

– Keşiş, Andronik Allahın lənətinə gəldi. Onun Qarabağa gedən ordusunu, saysız-hesabsız əsgərlərini məhv etdik. Onları kimsə dəfn etməyəcək. Onlar vəhşi quzğunlara yem olacaq. Yaza qədər quzğunlar keyf eliyəcək, keşiş.

"Keşiş" titrəyirdi. Alacalanmış gözləri, içindəki qorxu nifrətə üstün gəlirdi və o, bacardıqca bu yerlərdən tez qaçıb getməyə tələsirdi. O, Kazım Qarabəkir paşanın qorxusundan Ərzurumdan qaçdı, ordu ilə Naxçıvana girib müsəlmanları soyqırımdan keçirdi və yenə türk paşasının Naxçıvana gəlişindən havalanıb Zəngəzura gəldi. Amma bu qədər sarsılmadı.

Sultan bəydən baxışlarını gizlədib, yalvardı:

– Çörək istəmirik, yalvarıram, bizi burax gedək. Bu yetimlərə kömək edim.

Sultan bəy yumşaldı. Həyətə çıxdılar. Çal Aslan üzünü Sultan bəyə tutdu:

– Bu keşişin kimliyini öyrənmək lazımdı, bəy.

Sultan bəy nəşəli halda dedi:

– Qoy buraxaq getsin. Ondan bizə zaval gəlməz. Amma gərək ayaqlarımın arasından keçib gedəsən.

Keşiş sevindi:

– Baş üstə, bəy.

"Keşiş" belini əydi, dizləri üstə sürünə-sürünə Sultan bəyin ayaqlarının arasından keçdi. Sonra uşaqların əlindən tutub gözdən itdi. Təpənin arxasında Andronik çöməlib oturdu, üzündəki soyuq təri sildi. Uşaqların üstünə çımxırdı:

– Cəhənnəm olun, gedin. Mən sizi bura qədər gətirdim.

Uşaqlar qorxu içində onu süzdülər, Andronik onların üstə silah çəkəndə ikisi də fəryad içində yamaclara sarı üz tutdular.

Andronik tək qaldı. Bir anlıq yaşadığı ölüm qorxusu sanki canında buzlaşmış tər kimi soyudu. Təkcə ürəyinin içində dəhşətli sıxıntı qaldı. Tay qulağı cingildədi, sanki od tutub alışıb yandı. Gözlərindən süzülən yaşı sildi və nifrətlə dodaqlarının arasında mızıldandı: "Mən qayıdacam, Sultan bəy, qayıdacam..."

... Xanalı atını Sultan bəyin yanına sürdü, atdan düşüb yaxın gəldi:

– Burdan gedən keşişi gördünüzmü?

– Gördük. Yanında da iki erməni uşağı vardı.

Xanalı təəssüflə başını buladı:

– O Andronik imiş, Sultan bəy. Keşişi öldürüb, paltarını geyinib aradan çıxdı. Onu nahaq buraxdınız.

– Andronikə oxşamırdı axı. Məzlum, yazıq bir keşiş idi. Amma o mənim ayaqlarımın arasından keçib getdi. Bu rüsvayçılıq onu öldürəcək. Onun bir qulağını türklər kəsdi. Mənim isə ayaqlarımın arasından keçib getməyi onu öldürəcək. İnanmıram ki, o, bir də Zəngəzura ayaq basa.

Amma savaş hələ bitməmişdi...

# YEDDİNCİ FƏSİL

## QARABAĞ OD İÇİNDƏ

*Ermənilər öz cinayətkar əməlləri ilə heç də alman nasist tərəfdaşlarından geri qalmırdılar... Şükür etmək lazımdır ki, ermənilərin sayı 2 milyondan çox deyil. Onların ərazisi və ya əhalisi Almaniyanın ərazisinə və ya əhalisinə bərabər olsaydı, onda bütün dünya məhvolma təhlükəsi qarşısında qalardı.*

**Samuel VİMS,**
*ABŞ, tədqiqatçı-alim.*

**1.**

... Maşın qar dolmuş çalaya düşüb möhkəm silkələndi. Sürücü pörtdü, günahkar halda geriyə çevrilib müsafirlərinə baxdı. Xosrov bəy əlini onun çiyninə qoydu. Mərhəm, yumşaq səslə dedi:

– İşində ol. Biz bu yollara alışmışıq.

Çingiz İldırım gözünü yollardan çəkmədi. Qarlı yamacların, təpələrin arxasında çox-çox uzaqlarda görünən dağlar sanki yox olmuşdu, elə bil bu yerlər çən-dumandan ibarətiydi. Yüngülcə köks ötürdü. Xosrov bəy qayğılıydı, zədəli gözü qıyılmışdı.

– Nə düşünürsən, Xosrov? – Çingiz bəy sanki çöllərin bəyaz rəngindən, qar havasının gətirdiyi soyuq sükutdan darıxdı. Dodağı qaçdı:

– Amma ermənilər sənin Şuşaya gəlişini bir milli faciə kimi qarşıladılar.

– Təkcə mənim yox, bizim gəlişimizi, əmioğlu.

– Bütün erməni icması və onların tərəfdarları ayağa qalxdı. Şikayət etmədikləri yer qalmadı. Amma, elə bilirəm Üzeyir Ha-

cıbəyov yazdığı bir məqalədə onlara yaxşı cavab verib. Bu yazını mən cümlə-cümlə xatırlayıram: "... Həqiqətən o, Qarabağ üçün ən münasib rəisdir. Qarabağ həyatına tamamilə aşina olan bu zat sağlam bir vücuda malik olan kimi sağlam və salamat politika yeridən və təht idarəsinə tapşırılmış olan yerin ümumi mənafeyini xüsusi surətdə nəzərdə tutan bir zatdır. Ermənilər Qarabağda qəsdən süni iğtişaşlar çıxarmaqla Qarabağ general-qubernatorunu baş komandanlıq gözündə ləkələmək istəyirlər. Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli nüfuza malik olan və erməni camaəti tərəfindən dəxi möhtərəm sayılan bu zat Qarabağın hokuməti hüsab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətli-qital olmuşdu".

– Baş nazir Nəsib bəy Yusifbəyli məni hərbi nazir vəzifəsindən azad edərək ona görə Şuşaya göndərdi ki, Zəngəzur və Qarabağ təhlükə içindəydi. Biz qardaşım Sultan bəylə əl-ələ verib üçlükdə Zəngəzuru daşnaklardan qorumalıyıq. Canımız bahasına olsa da Zəngəzuru və Qarabağı erməniyə verməməliyik.

Çingiz bəy əlini hirslə dizinə çırpdı, başını buladı:

– Cürətə bax, bir ovuc erməni bizimlə torpaq davası aparır, – hikkədən yaraşıqlı çöhrəsində tala-tala qızartılar göründü.

Xosrov bəy istehza ilə güldü:

– Bir ovuc erməni? Sən eləmi düşünürsən, Çingiz?

– Yox, düşünmürəm. Daşnaklara yardım etməkdə ingilislərin öz marağı var. Bunların niyyəti odu ki, Türkiyəni diz çökdürsünlər. İngiltərə hələ 1895-ci ildə Fransa və Rusiya ilə birlikdə İstanbula bir memorandium göndərirlər. Və tələb edirlər ki, Türkiyə Ərzurumu, Bitlisi, Sivaşı, Diyarbəkiri, Harputu ermənilərə güzəştə getsin. Erməni də özünün olmayan bu torpaqlardan "Böyük Ermənistan" yaratsın. Amma Türkiyə onlara dirsəyini göstərdi.

Xosrov bəyi gülmək tutdu:

– Çingiz, necə də sərrast dedin, – İngilislər Türkiyədən əllərini üzdü. Çünki Mustafa Kamal Atatürk Kazım Qarabəkir pa-

şanı ermənilərin işğal etdikləri Şərq vilayətinə göndərdi. Mən Ənvər paşa ilə Bakıda görüşdüm. O, bilirsənmi mənə nə dedi? Ermənilərdən xilas olmağın yolu onları məhv etməkdir.

– Ermənilərin arxasında rus, ingilis dayanıb. İngilislərin özləri də bunu etiraf edir, – Çingiz bəyin içindəki sızıltı küt ağrı kimi canına yayıldı, sanki bu ağrıdan gözləri də nəm çəkib şaxtanın dondurduğu buz yollar kimi şüşələndi, – əlini ağzına tutub astadan öskürdü, elə bil bununla da içindəki zəif, onu ruhdan salan, inamını öldürən, düşmən qarşısından geri çəkilmək hissini qüvvətləndirən zəhərli duyğunu özündən kənar elədi.

Xosrov bəy əlini yellədi:

– Ermənilər çaqqal kimi yırtıcı olsa da it kimi yaltaq, tülkü kimi qorxaqdı. İngilislər Androniki silahlandırıb Zəngəzura göndərdi, Andronik məhz onların istəyi ilə Zəngəzuru viran etdi. Amma Sultan Andronikin on minlik ordusunu Zabıx dərəsində əzdi. Onların arasında altmış yeddi sərkərdə vardı, – qardaşının igidliyindən doğan qürur hissi Xosrov bəyin gözlərini yaşartdı. Sultan bəy əzəmətli bir dağ kimi daim onun arxasındaydı və Xosrov bəy onun gücünü, qüdrətini daim hiss edirdi.

Çingiz bəy gülüb papağını alnından geri itələdi:

– Binəva Andronik keşiş paltarı geyinib aradan çıxdı. Mən Aslan bəyin də hünərini eşitdim. Andronik general Manuka bel bağlayırdı. Amma Aslan bəy Manuku məhv etdi və onun ordusu Zabıxda məğlub oldu.

Maşın buz bağlamış yolda sağa-sola fırlanıb dayandı. Şofer alnında muncuq kimi düzülmüş soyuq təri sildi. Maşını işə saldı, təkərlər qarın içində fırlandı.

Xosrov bəy qapını açıb yerə düşmək istədi, bu anda külək qarı burulğan kimi fırladıb onu içəri atdı. Şofer arxayınlıqla dedi:

– Xosrov bəy, tələsməyin, maşın indicə qardan çıxacaq.

Maşın yenə uğuldayıb irəli dartındı.

Çingiz bəy üzünü Xosrov bəyə tutdu:

– Daşnakları üstümüzə qısqırdan həm də ingilislərdi. İki il əvvəl İngiltərənin hərbi şurasının içlasında ermənilərə açıqca iyirmi milyon sterlinq pul ayrıldı. Bir il ərzində ingilislər ermənilərə çoxlu qızıl, pul, silah-sursat göndərdi. Özü də Tehrandan Bakıya göndərirdilər. Ermənilər yardımı Bakıda alırdılar. İngiltərənin hökumət rəhbərləri belə deyirdilər: "Ermənilərə hər vəziyyətdə işğal etdikləri bölgələrdə pul, silah və sursat tədarükü ingilis siyasətinin maraqları daxilindədir. Bu təcrübənin uğurlu olması nəticəsində erməni qüvvələrindən gələcəkdə türklərin diz çökməsi üçün faydalanmaq olar".

– Onlar bizi istəmirlər, – Xosrov bəyin səsində hiddət qarışıq nifrət duyuldu, – ingilis siyasətçisi Lord Kerzan bunu açıq şəkildə etiraf edir. O, deyir: "Türkiyə ilə türk xalqları arasında tampon bir dövlətin yaradılması qaçılmazdır. Problemin ortadan qalxması üçün yeni "erməni dövləti" təzahüründə xristian bir topluluğun meydana gətirilməsi vacibdir".

– Onda niyə məhz Zəngəzur?

– Tək Zəngəzur deyil. Bura Naxçıvan və Qarabağ da daxildir.

Xosrov bəy fikrə getdi. Sanki içinə dumanlı-çiskinli gecənin sıxıntısı çökdü: "Yazıq millətim, bədbəxt yurdum. Bu vəhşiləşmiş canavarların içində tək-tənhasan. Bir köməyiniz, havadarınız yox... Amma şükürlər olsun ki, Tanrı bu yurda mərd, cəsur, qeyrətli oğullar bəxş edib..."

– Bəs onda ermənilər niyə Gürcüstanı seçmədilər?

Xosrov bəy üşüyürmüş kimi çiyinlərini qısdı, qarın içində ağ çiçək açmış kimi görünən ağaclar ayın tutqun işığında zorla seçilirdi. Xosrov bəy dedi:

– Gürcüstanı Stalin çox hiyləgər bir ustalıqla ermənilərdən qorudu. Azərbaycanı qan içində boğmağa çalışan Şaumyana belə bir məktub yazıbmış: "... sizin uğurlarınız bizi sevindirir. Ancaq biz istərdik ki, siz almanlarla münasibətlərin mürəkkəbləşməsinə yol verməmək üçün Gəncədən o tərəfə keçməyəsiniz.

Daha doğrusu, müstəqilliyi Almaniya tərəfindən tanınmış Gürcüstanın hüdudlarına daxil olmayasınız.”.

– Stalin bilirdi ki, Andronik, Dro və ya Njde Tiflisə ordu çəksə Tiflis dağılacaq.

– Bəli, elədi, Stalin Tiflisi qorudu, bizi güdaza verdi.

İkisi də susdu. Maşın ehtiyatla irəli gedirdi. Uzaqda seyrək işıq göründü. Bu işıqlar qarın içinə düşmüş zəif ocaq közlərinə oxşadı. Şuşaya yaxınlaşırdılar. Xosrov bəyin ürəyi atlandı. Şuşa qarın içinə səpələnmiş işıqları ilə təhlükə dolu qucağını onlara açdı...

... Çingiz bəy birmərtəbəli evin arxasına keçdi. Səliqə ilə doğranıb yığılmış odunların qarını təmizlədi, bir qucaq yığıb içəri apardı. Xosrov bəy sobanın külünü təmizlədi, çır-çırpını üst-üstə yığıb alışdırdı. Alov gurlaşanda sobaya iki-üç odun qoydu. Alovlanan odunların gurultusu otağa xoş bir ovqat gətirdi. İçəri havalandı. Xosrov bəy salona keçdi. Divarda oğlunun çərçivəyə salınmış şəkli vardı. Xosrov bəyə elə gəldi ki, oğlunun ona dikilən baxışlarında məzəmmət dolu ağrılı bir giley var:

“– Niyə gec gəldin?

– Mən səni heç bir vaxt tək qoymuram, oğlum. Çünki sən mənim ürəyimin içindəsən. Hara gedirəmsə yanımdasan, qəlbimdəsən.

– Amma məni bu qaranlıq otaqda tək qoydun.

– Eh, oğlum, sən məndən çox-çox uzaqlardasan....Bu dünyanı vaxtsız tərk etdin. Məni yalqız qoydun, oğlum. Ürəyimi dərdlə yüklədin. Mən bu yükü illərlə daşıdım. Daşımaqdan yoruldum.

– Anam yanında olsaydı bu yükü bölüşərdiz....

– Amma o, mənimlə gəlmədi. Öz ata yurdunu seçdi. Mən də öz yurduma, elimə-obama qayıtdım. İndi Şuşadayam. Sənin kimi körpə uşaqları erməni gülləsindən qorumaq üçün. Torpağımızı erməni vəhşiliyindən qorumaq üçün. Başa düşürsənmi, oğlum?

– Yolun açıq olsun”.

Xosrov bəyin gözlərindən düşən iki damla yaş yanaqlarında iz buraxdı. Qonşu otaqdan Çingiz bəyin səsi gəldi:

– Çayı dəmlədim, gəl.

Xosrov bəy gözlərini quruladı, sanki bununla da göz yaşının səmtini dəyişdi. İri damlalar indi də qəlbinin dərinliklərinə süzüldü.

Soba gurhagur yanırdı. Sobadan odunların xoş ətri gəlirdi. Xosrov bəy çayı burnuna tutub qoxladı, dərindən sinəsinə çəkdi:

– Çingiz, bu çayların ətrini mən heç yerdə hiss eləmirəm.

– Suyundan, havasındandı, Xosrov, – sonra da diqqətlə Xosrov bəyin üzünə baxdı, – yatıb dincələk, sabah iş çoxdur.

– Doğru deyirsən.

Çingiz bəy otağına keçdi. Amma Xosrov bəy yuxlaya bilmədi. General-qubernator kimi işə başladığı ilk günləri xatırladı. Azərbaycan Cumhuriyyəti Qarabağda niyə general-qubernatorluq yaratdı? Buna ehtiyac vardımı? Bəli vardı... Xosrov bəy bunu izah etmək üçün şuşalılara müraciət yazdı. Bu müraciətdə deyilirdi: “Azərbaycan hokumətinin yanvar ayı qərarı ilə Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları xüsusi general-qubernatorluğa ayrılmışdır. Bu fövqəladə tədbirlər fövqəladə vəziyyətdən irəli gəlmişdir. Azərbaycanın təqribən yarısında, onun ən yaxşı hissəsi-4 qəza, – artıq bir ilə yaxındır ki, anarxiya ucbatından dağılır. Şəxsi firəvanlığı yüksək ideal sayan məsuliyyətsiz elementlərin rəhbərliyi altında olan bandalar diyarı viranə qoyur, kəndləri yandırır, əhalini qırır, on minlərlə yurd-yuvasız qadın və uşaq qaçqın düşmüşdür. Yuxarıda göstərilən elementlər milli ədavət yayırlar-əhalidən ümumi siyasi vəziyyəti gizlədirlər. Bu şəxslər öz şəxsi mənafelərini güdür, öz cəhdlərini partiya ideyası formasına salırlar. Öz həyatını xalqa xidmətə sərf etmiş ictimai xadim kimi mən milli mənsubiyyətindən asılı olmayaraq hamıya eyni münasibət göstərməyi, ciddi ədalət və qanunçuluq mövqeyində dayanmağı hakimiyyətin borcu sayıram.

Azərbaycanın müstəqilliyi, ərazi toxunulmazlığı, şəxsiyyətin ciddi məsuliyyəti və əmlak toxunulmazlığı diyarın həyatı və əsaslar üzərində qurulacaqdır.

Xosrov bəy SULTANOV,
Qarabağın generel-qubernatoru
15 yanvar 1919-cu il”

... Və Şuşanın ağır günləri başladı. Ermənilər Xosrov bəyin general-qubernator olmasını heç cürə həzm edə bilmədilər. Elə ilk gündən Xosrov bəyə qarşı gizli, səssiz müharibə başlandı.

***

Levon Vartepyan özünü zorla qapıdan içəri atdı. Havalı adamlar kimi key-key otağın ortasında dayandı. İçindəki nifrətin təlatümü sanki bütün sinirlərini tarım çəkib oyatdı. Bu anda elə bil kimsə boğazından tutub gücü gəldikcə sıxdı. Nəfəsi təngişdi, sinəsindən xırıltılı səslər çıxdı. Özünü divanın üstünə atdı. Əsəbdən, ağrıdan gicgahları od kimi yanırdı. Knarik içəri girib qapının ağzında dayandı. Heyrətlə ərinə baxdı. Onun ağarmış bənizinə, dizləri üstə titrəyən əllərinə baxdı. Qorxmuş halda irəli gəlib soruşdu:

– Levoncan... Sənə nə olub, Levoncan? Bax, bağrımı çatlatma, de.

Levon başını qaldırıb arvadının üzünə baxdı. Knarik onun nəmli gözlərində indiyədək görmədiyi dərin məyusluq və çarəsizlik sezdi. Qarşısında dizləri üstə oturub ərinin ağarmış bənizinə, seyrək saçlarına sığal çəkdi:

– Levoncan, özünə gəl, bəd xəbərmi eşitdin?

Levon hirslə arvadının əllərini özündən kənar elədi və qalxıb oturdu, gödək ayaqlarını divandan aşağı salladı. Ağaqqabını ayağından çıxarmamışdı və indi xalçanın üstünə ərimiş qardan su süzürdü. Knarik ağaqqabıları çıxardı, dodağının altında mızıldanıb onları hirslə dəhlizə atdı, sonra divanda oturub çəpəki ərinə baxdı:

– Bəd xəbərmi eşitdin, Levoncan?

Levon arvadının yumuşaq əllərini dizlərindən götürdü:

– Sənlik deyil, Knarik. Vladikə de təcili Məliki yanıma çağırsın. Gəlsin evə.

– Məliki neynirsən, Levon?

– Gəlsin, vacib iş var, başa düşdün? Özün də get süfrəni aç. Zirzəmidən babamın çəkmiş olduğu köhnə çaxırlardan gətir. İçib sərxoş olmaq istəyirəm.

– Levoncan... Məni intizarda buraxma. Ürəyim partlaya bilər. Sən də Knariksiz necə yaşayarsan, necə nəfəs alarsan?

– Danışa bilmirəm, çıx get.

Knarik incikli halda ayağa durdu, Levonun turşumuş, acı sifətinə baxa-baxa qapıdan çıxdı.

Levon Vartepyan əlləri ilə başını tutub gözlərini qapadı. O, Şuşanın ən zəngin ermənilərindən sayılırdı. Gündüzlər mələk üzlü hüquq işçisiydi, gecələr müsəlmanların qanına susamış yırtıcı, qatı daşnak...

Qaş qaralan kimi Şuşa erməniləri onun yarımqaranlıq zirzəmisinə yığışardı. Zirzəminin ortasında köhnə taburetkanın üstünə qoyulmuş çıraq zəif-zəif közərər, nimdaş palazın üstündə bardaş qurub oturmuş ermənilər milli şuranın ən fəal üzvü Məlik Şahnazaryanın nitqini ağızları açıq halda diqqətlə dinləyərdilər. Çünki Şahnazaryanın nitqi gözəl və bəlağətliydi. Ermənilərə bütöv Qarabağı, Zəngəzuru, üstəlik Naxçıvanı da böyük inandırıcılıqla vəd edirdi. Bu torpaqlar onların əlinə keçdikdən sonra Ermənistan xeylu genişlənəcəkdi, qüdrətli bir dövlət olacaqdı. Sonra ermənilərə silah paylanırdı. Əllərində silah olan ermənilər bu torpaqları bir an öncə işğal etmək istəyirdilər.

Amma Levon ermənilərin cuşə gəldiyi bu anda müdrikcəsinə əlini yuxarı qaldırıb onları dayandırırdı: “Biz ordu toplayırıq, dəstələr yaradırıq” – deyirdi.

Və bir il əvvəl Ermənistandan Şuşaya silah daşınmağa baş-

landı. Varlı ermənilərin hamısının zirzəmiləri silahla doldu. Gecələr İrəvandan at qoşulmuş arabalarda silah-sursat gətirildi. Sonra Levon Vartepyan gizlicə silahlı dəstələr yaratdı. Bu dəstələr Qarabağ və Zəngəzurdakı müsəlman kəndlərinə basqın etdilər. Talanlar ermənilərə çoxlu qızıl və pul-para gətirdi.

Şuşadakı erməni milli şurasının sədri Levon Vartepyan 17 minlik bir ordu topladı və onun komandanı oldu. Məlik Şahnəzərov isə müavini, sağ əli. Bu ordunun 15 min atıcı döyüş silahı, çox sayda "Mauzer" alman tapançaları, 6 pulemyot, 2 artilleriya silahı vardı. Gündən-günə əsgəri artan, daha da qüvvətlənən ordunun silah-sursata ehtiyacı artdı.

Levon Məlik Şahnəzərova dedi:

– Yerevandan silah gətirmək təhlükəlidi. General-qubernator Xosrov bəy bizim bütün yollarımızı bağlayır. O, çox ağıllı adamdır. Ehtiyatlı olmalıyıq. Çətinliklə yaratdığımız ordu dağıla bilər. Bizi isə həbsə atar.

– Artıq bir neçə nəfər həbs olunub.

– Bu heç də yaxşı xəbər olmadı, Levon. Çıxış yolumuz yoxdurmu?

Levonun qaşları çatıldı, fikirli halda dedi:

– Başqa əlac yoxdur. Biz zirzəmilərdə sexlər yaratmalıyıq. Bu sexlər gecə-gündüz silah istehsal etməlidi.

Məlik əllərini iştahla bir-birinə sürtdü, həmişə yuxulu, sərxoş görünən qırmızı gözləri qıyıldı:

– Bax, bu ağıllı fikirdi, Levon.

... Az keçmədi ki, zirzəmilərdə silah istehsal edən sexlər işə düşdü.

***

... Levon masanın üstündə saxladığı, tez-tez oxuduğu, az qala cümləsinə qədər əzbərlədiyi müraciətə bir də göz gəzdirdi. Onu qəzəbləndirən, əsəblərini tarıma çəkən cümlələrin altından qırmızı xətt çəkdi "... öz həyatını xalqa xidmətə sərf etmiş icti-

mai xadim kimi mən milli mənsubiyyətindən asılı olmayaraq hamıya eyni münasibəti göstərməyi, ciddi ədalət və qanunsuzluq mövqeyində dayanmağı hakimiyyətin borcu sayıram".

Levon əlini çənəsinə söykəyib gözlərini hiyləgərcəsinə qıydı: "Bu sözlərin altında nələr gizləndiyini mən başa düşürəm. Xosrov bəy, sənin sözündən belə çıxır ki, sən erməni ilə müsəlmana fərq qoymursan. Yalandı. Sən bütün gücünlə, bütün bacarığınla bizi burdan-doğma Şuşamızdan didərgin salmağa çalışırsan. Amma Qarabağda səni nələr gözləyir, bax bunu bilmirsən... "Pəncərədən aşağı əyilib arvadını səslədi:

– Knarik, tez yuxarı qalx.

Knarik əllərini döşlüyünə silib tələsə-tələsə özünü otağa saldı. Levonun gözləri parıldayırdı. Arvadının qolundan tutub divanda yanında oturtdu. Knarik onu təəccüb qarışıq heyrətlə süzdü:

– Nə olub, Levoncan? Yenə ağlına nə gəlib? Yoxsa Xosrov bəy ermənidən qorxub Şuşadan getdi?

– Xosrov bəy belə qorxaq olsaydı Qarabağı, Zəngəzuru işğal etməyə nə vardı... Vəziyyət günü-gündən pisləşir. Xosrov bəy ən yaxşı adamlarımızı həbs etdirir. Onun müavini Çingiz bəy də bir tərəfdən. Əl-qol açmağa imkan vermirlər. Qarabağın işğalını mən artıq şübhə altına alıram... Eh, dərdimiz böyükdü, Knarik. Amma bir yol tapmalıyıq... Mən çox düşündüm... Sən məni eşit, Knarikcan, bacına xəbər göndər, bizə gəlsin.

Knarik qorxa-qorxa soruşdu:

– Mənim bacım Anjelanı Xosrov bəylə doyüşəmi göndərirsən, Levon? Bacımı niyə çağırırsan?

Levon ayağa qalxdı, bir anda sifəti pörtdü, yumruğunu qaldırıb Knarikin üstə silkələdi:

– Biz hamımız erməni xalqının xidmətindəyik. Biz hamımız bir əsgərik. Bu yolda canımızdan, qanımızdan, şərəf və namusumuzdan belə keçməliyik, başa düşdün?

– Başa düşməyinə düşdüm, amma kənddə yaşayan, avam Anjela...

– Erməni kadını avam ola bilməz, Knarik.

– Levoncan, hirslənmə, o, yeniyetmə bir qızdı, erməni xalqı üçün o neyniyə bilər?

– Gözəlliyi, hiyləgərliyi, bir müsəlmanın, məşhur bir general-qubernatorun qəlbinə yol tapmaqla və onun sirlərini ustalıqla öyrənib bizə çatdırmaqla xalqına xidmət göstərə bilər, Knarik.

– Xosrov bəy subaydırmı?

– Subaydı.

– Çox yaraşıqlıdı, Levon, bilirsənmi erməni qızlarının bu cavan general-qubernatordan ötəri ürəyi gedir.

Levon qaşqabağını töküb mızıldandı:

– Anjelanın xoşuna gələcək. Xosrov bəy qapısı bağlanmış qəlbini Anjelaya təslim edəcəkdir.

Levonun bir yerdə dayanıb durmağa hövsələsi çatmadı, çənəsində bir çəngə saxladığı saqqalını ovuşdurdu, sanki içində birdən oyanmış çılğın bir duyğu içindəki qapqara buludları lay-lay dağıtdı, sıxıntını yox elədi, yüngülləşmiş halda üzünü arvadına tutdu:

– Anjela Xosrov bəyin hər addımını bilməli, planlarından xəbərdar olmalıdı. Bizimkilər Anjelaya çoxlu pul verəcəklər.

Knarikin gözləri böyüdü:

– Nə qədər, Levoncan?

Knarik udqundu, iri qara gözləri Levonun çopur üzündə qaldı:

– Qızıl necə?

– Hər halda bacın razı qalacaq.

– Levon...

Knarik Levonu divanın üstə çəkdi, ağ, yumşaq əllərini ovcunun içinə aldı, indiyə qədər göstərmədiyi mehr-navazişlə dedi:

– Bəlkə qubernatorluğa işə mən düzəlim, Levoncan? Anjela uşaq kimi sadəlövhdür. O, bu işi bacarmaz. Xosrov bəy sərt adamdı. Anjela qorxar, yaxın düşməz ona. Amma mən bacararam.

Knarik sanki bu anlarda qarşısında şişman, üzü çopurlu Le-

vonu yox, yaraşıqlı Xosrov bəyi gördü və onun gözlərində sanki gizli sevgiyə bir çağırış oxundu:

– Yadındamı, Levoncan, sən o vaxt universitetin hüquq fakültəsini qurtarıb Şuşaya yenicə gəlmişdin. Sən oxumuş, mədəni görkəminlə Şuşanın bütün cavanlarından seçilirdin. Yerişin, danışığın çox kübar idi. Bizim erməni qızları səndən ötəri ölürdü.

– Sən də məndən ötəri ölürdün?

– Ölmək deyəndə ki... – Knarik dodağını büzdü, – indiki halımıza bax, Levoncan, gör mən səndən ötəri ölənə oxşayıram?

Levon arvadına tərs-tərs baxdı: yox o cavanlığını, gözəlliyini saxlamışdı. İri qara gözləri əvvəlki kimi qaynar idi. Sanki illərə acığı tutdu və əllərini şişman qarnının üstə çarpazlayıb başını buladı:

– Bacına xəbər göndər.

– Levon, Xosrov bəyin qəlbinə ancaq mən yol tapa bilərəm. Onun ağlını mən qarışdıra bilərəm.

– Knariiik...

Knarik əllərini belinə vurub davakar halda Levonun qarşısında dayandı:

– Levoncan, sən Qarabağın, Şuşanın, Zəngəzurun, üstəlik Naxçıvanın alınması üçün şərəfindən, qürurundan, hətta namusundan belə keçməyə hazır deyilmisən? Mən Xosrov bəyi yoldan çıxararam. Bütün sirləri öyrənərəm. Addım-addım Xosrov bəyi izlərəm. Sizi hər şeydən xəbərdar edərəm, – Knarik əllərini ağappaq, sanki işıq saçan yumru sifətinə çəkdi-Xosrov bəy son anda bu gözəl simanın arxasında balta dişli, gözlərindən alov çıxan bədheybət bir canavarın olduğunu görəcək və kürəyinə sançılmış xəncərin ağrısını hiss edəcək. Bunu mən bacaracam.

– Birdən sənin milli şura sədri Levon Vartepyanın arvadı olduğunu öyrənsə?...

– Ah Levoncan, Xosrov bəy özü də hiss etmədən özünü odun-alovun içinə atacaq. Yanıb külü çıxanda ayılacaq.

Levon əlini masaya çırpıb dayandı, içindən bir sevinc dalğası keçdi, amma o, bunu biruzə vermək istəmədi. Ürəyində tək bir qorxu-Knarikin onu tərk etməsi qorxusu vardı. Bu ona Xosrov bəyin Şuşanı işğal etməsi qədər ağır gəldi... Knarikin qəlbini işğal etmək-Şuşanın işğalı qədər çətin... Levon gözlərini pəncərədən görünən buludlu səmaya dikdi. Sonra əllərini masaya söykədi və çənəsinin altında daraqladı. Bu anda kələf kimi dolaşmış duyğuları, şübhə, qorxu içini sıxıntı ilə doldurdu, sanki dayanmadan qara buludları ürəyinə daşıdı. Nəfəs ala bilmədi. İki od arasında qaldı: Knariki Xosrov bəyin yanına göndərsinmi? Xosrov bəy ciddi, sərt adamdı. Bəlkə heç bu yaraşıqlı erməni qızının varlığını belə hiss etmədi, onun nazına, işvəsinə məhəl qoymadı? O, bu qarışıq vaxtı tanımadığı erməni qızını yaxına buraxarmı? Knariki süzdü və gizli qısqanclıq hissi ağlını qarışdırdı: ermənilər niyə həmişə arvadlarını qabağa verir? Ermənilərin ata-babaları da daim bu yolla gedib. Anaları, bacıları, qızları rus generallarına xidmət göstərib. Onların etimadını qazanaraq sirlərini oğurlayıb. İndi də Knarik... Yox, o, Levona xəyanət etməz, o, çox ağıllıdı...

Başını qaldırıb sərt halda arvadının üzünə baxdı və barmağını onun üstünə silkələyib hədələdi:

– Knarik, birdən sən bu müsəlman generalına vurularsan. Mən səni öldürərəm.

Tapançanı cibindən çıxarıb masanın üstünə qoydu:

– Bax bu silahla səni öldürrəm.

Knarik ətli qollarını Levonun boynuna doladı:

– Levoncan, biz ya silahla, ya da hiylə ilə bizim olmayan bu torpaqlara sahib olmaq istəyirik. Yalnız qəlbimiz bir-birinə sadiqdir. Qəlbimizin danışdığı dil yalnız erməni dilidir, anladınmı?

– Anladım, Knarikcan. Mən sənə güvənirəm.

Knarik ucadan, xoşbəxt bir əda ilə şaqqanaq çəkdi, gözləri gizli bir sevinc içində qıyıldı: irəlidə onu gizli və təhlükəli bir sevgi oyunu gözləyirdi.

**2.**

Ermənistanın baş naziri Avetisov Zəngəzurdan gələn teleqramlara gözucu baxıb könülsüz halda üst-üstə yığdı. Xosrov bəy Sultanovun Qarabağın general-qubernatoru kimi fəaliyyəti sanki Zəngəzurla Ermənistan arasına tikanlı çəpərlər çəkdi. Xatisov elə bil qəflətən bu tikanlı məftillərin arasına düşüb qorxu içində tilova düşmüş balıq kimi çapaladı. Xosrov bəyin xofu onu basdı: "Qardaşı Sultan bəylə birləşəcək, torpaqların asanlıqla işğalına əngəl olacaq".

Otağında bir xeyli gəzişdi. Sonra pəncərənin qarşısına gəlib pərdəni əsəbi halda ovcunda bürmələyib kənara çəkdi. Axşamın qaranlığında küçə fənərlərinin zəif, solğun işığında adamlar zorla seçilirdi: "General Tomsonla görüşməliyəm. Bizim əsas dayağımız ingilislərdi. Onların əlindən-ətəyindən möhkəm yapışmalıyıq. Görüş zamanı özümü fağır və məzlum aparmalıyam. Gözümdən bir qətrə də yaş... Ah mənim torpaqsız, vətənsiz millətim..."

Xatisov dərindən nəfəs alıb kövrəldi.

***

General Tomson erməni naziri ingilislərə məxsus təkəbbürlə qarşıladı. Onun göyümtül gözləri sərt və ifadəsiz idi. Sanki bu gözlər təbəssümün nə olduğunu bilmirdi. Bəlkə də elə buna görə kip sıxılmış nazik, solğun dodaqlarında hegemonluğu biruzə verən soyuq bir əda vardı.

Xatisov yerində qurcalanıb çəkingən halda generalın üzünə baxdı və narahatlıq gətirən sükutu pozdu:

– Zəngəzurdan yaxşı xəbərlər gəlmir, general. Biz Xosrov bəyin Şuşaya general-qubernator kimi gəlməsini əngəlləyə bilmədik. Bu vəzifə başında erməni olsaydı məqsədimizə çox asanlıqla çatardıq. Azərbaycan hokuməti haqsızlıq etdi. Çünki bu torpaqda yaşayanların çoxu ermənidi. Bir müsəlmanın onlara hökm etməyə ixtiyarı yoxdu.

General əlini ağzına tutub yüngülcə əsnədi və gözlərindəki yuxunu qovurmuş kimi əlini yellədi:

– Eşitdiyimə görə çox igid adamdı, Xosrov bəy.

– Həm də inadcıl. Yəqin ki, bilirsiz, sizin Zəngəzura göndərdiyiniz Andronikin on minlik ordusunu Sultan bəy qardaşı Xosrov bəyin köməyi ilə məhv edib.

– Andronikin ordusunu silah-sursatla təmin etdik. Külli miqdarda pul ayırdıq. Amma Andronik əfəl, fərsiz çıxdı.

– O, çox işlər gördü, general. Zəngəzurun 156 kəndini yandırdı, minlərlə müsəlmanı amansızlıqla qətlə yetirdi. Görusda Qarabağ general-qubernatorluğu yaratdı. Özü isə bir qubernator kimi orduya rəhbərlik etdi.

– Amma hər şey yarımçıq qaldı, məqsədinə çatmadı, hər şeyi bərbad etdi, cənab baş nazir, – general Tomson əsəbi halda yerindən qalxdı, Xatisovla üzbəüz dayandı və hiddətlə başını buladı:-Zabıx dərəsində rüsvaycasına məğlub oldu, özü isə keşiş paltarı geyinərək qorxaq kimi aradan çıxdı.

General səsini qaldırdı. Bu anda onun gözləri qəzəbindən irilənib şüşə kimi parıldadı. Sifətinin nazik damarları hiss olunacaq dərəcədə atdı. Xatisov özünü itirdiyindən sanki qulaqları batdı, yalnız generalın yuxarıya qalxmış əlini və açılıb yumulan ağzını görürdü. General ingilis sözlərini rus sözlərinə qatır, bəlkə də bu anlarda nə dediyini özü də anlamırdı. Yorulmuş halda yenidən kresloya oturdu, narazı halda gedi:

– Androniki Zəngəzura biz göndərdik. Külli miqdarda pul, silah-sursat verdik.

– General, bütün səlahiyyətlər Andronikdən alındı və general Dro Kanayana verildi. Martın axırında Dronun komandanlığı altında ordu Qarabağa tərəf hərəkət edəcəkdir. Yalnız bir çıxışı olan Əsgəran işğal ediləcək, sonra bütün Qarabağ əlimizə keçəcəkdir. Biz sizdən bunun üçün yardım istəyirik.

General başını yuxarı qaldırmadan narazı halda dedi:

– Biz sizə hər zaman yardım etməyə hazırıq. Çünki Qaraba-

ğın, Zəngəzurun işğalını sizin qədər gözləyirik və bunda maraqlıyıq. Lakin Xosrov bəyin Qarabağın general-qubernator olması bizim üçün də xoş olmadı. O, hər iki tərəf üçün çox təhlükəlidi. Yolumuzda dayanan daş, qaya parçasıdır ki, biz onu asanlıqla rəf edib irəli gedə bilməyəcəyik. Üstəlik Sultan bəy, Xosrov bəyin müavini, həm də əmisi oğlu Çingiz Sultanov...

– Bəli, onlar çoxdur, general. Zəngəzurun qəza rəisi Aslan bəy Sultanov... – Xatisov asta səslə dedi.

– Aslan bəy Xosrov bəyin əmisi oğludur?

– Bəli, general, bütün Sultanovlar nəsli Zəngəzuru ermənilərdən qorumuşdur. Xosrov və Sultan bəyin atası Əlipaşa bəy birinci erməni-müsəlman davasında bizimkilərə göz açmağa aman vermədi.

– Bu Aslan bəy Manukun alnından sərrast güllə vurub qətlə yetirən adamdı?

– Həmin Aslan bəydi. Təəssüf ki, biz belə igid adamlarla döyüşürük.

– Mən çaş qalmışam, Xatisov, bildiyimə görə bunlar çar ordusunda xidmət etməmişlər. Necə oldu ki, təcrübə görmüş nizami orduya üstün gəldilər? Bunlarda güc, qüvvət ilahidənmi gəlir? Mən Dronun Əsgəranı işğal edəcəyinə də inanmıram. Bu qardaşlar Azərbaycan hokumətinin köməyi olmasa da Əsgəranın işğalına yol verməzlər.

Xatisov yerindən dikəldi, qızğınlıqla dedi:

– Dro müharibələrdə iştırak etmiş təcrübəli hərbiçidir, general.

– Sözümü dedim, Xatisov. Bildiyimə görə Stalin, Mikoyan, Orconikidze müsəlmanların özlərinə atxa sandıqları Nərimanova təsir etməyə çalışırlar ki, o Zəngəzur, Qarabağ və Naxçıvanın Ermənistana verilməsi ilə bağlı bəyanat versin.

– Bu haqda mənim də məlumatım var. Amma Naxçıvanın Ermənistana verilməsinə şübhəm var, general.

– Nərimanov bəyanatında Naxçıvanın da adını çəkəcək.

– Lakin türklər Naxçıvanın arxasındadır. Xüsusi ilə Naxçıvanı Ermənistanın əlindən almış Kazım Qarabəkir paşa. Paşa Naxçıvanı işğaldan azad etdi, iki ay ordusu ilə burda qaldı, amma Mudros müqaviləsi bağlanandan sonra paşa öz ordusunu Naxçıvandan çıxardı, Türkiyəyə getdi. Amma o, gizlin olaraq bir dəstə əsgər və zabiti Naxçıvanda saxladı. Qarabəkir paşa Naxçıvanın Ermənistana verilməsini əngəlləyəcəkdir. Söz yox ki, Mustafa Kamalın köməyi ilə.

– Əgər hokumət başçıları bölgəni Ermənistana güzəştə getsələr paşa bunun qarşısını necə ala bilər? Görürsənmi Nuri paşa Bakını aldı. Sonra albay Cəmil Cahid bəyi Şuşaya göndərdi ki, burada gedən münaqişənin qarşısını alsın. Cəmil Cahid bəy istəyinə nail oldu, sakitlik yaratdı. Amma yenə də savaş bitmədi.

Nuri paşa Şevki paşanı da Zəngəzura göndərdi. Paşa ermənilərin törətdiyi qırğınların qarşısını ala bilmədi. O, ordu qrupunun komandanlığına teleqram göndərdi.

General Tomson masanın üstündəki vərəqlərin arasından teleqramın surətini tapdı və onu Xatisova oxudu:

“Zəngəzurda ermənilərin fəaliyyəti belə davam edərsə bölgədə bir aydan sonra bir müsəlman da sağ qalmayacaq. Ermənilər ərazilərini daha da genişləndirəcəklər.” Lakin Sultan bəy və onun dəstəsi bu qırğınları dayandırdı və erməniləri ağır məğlubiyyətə uğratdılar. General Droya hər cür yardım ediləcəkdir. Bu ayın axırında Ermənistan hökumətinin keçirəcəyi mötəbər bir iclasda çıxış etməyi düşünürəm. Qulaq as, Avetisov, çıxışımda bunları deyəcəyəm: “Zəngəzur erməni milli şurası tərəfindən idarə ediləcək... Dağlıq Qarabağın idarə edilməsi üçün Ermənistan təcili öz nümayəndələrini verməlidir... Erməni qoşunları Qars və Naxçıvanı, Şərur, Dərələyəz-Sürməlini tuta bilər... Azərbaycan ordusu indi durduğu yerdən-Ağdam və Xankəndindən bu tərəfə keçməyəcək... Azərbaycan hokumətinin martın 19-da keçirilən iclasında qərar qəbul edilmişdir ki, daxili işlər nazirliyi 1300 nəfərlik piyada və 500 nəfərlik ermə-

ni süvari dəstəsinin Şuşa, Xankəndi və Əsgərandan keçib Ermənistana getməsi üçün hərtərəfli səy göstərəcək. Mayor Mank Mazon mənə məlumat vermişdir ki, Azərbaycan hərbi hissələri general Mehmandarovun rəhbərliyi ilə onların sağ-salamat keçməsi üçün bütün tədbirləri görmüşdür. Azərbaycan Dağlıq Qarabağ və Zəngəzurun mübahisəli ərazi kimi Paris sülh konfransında həll olunacağını gözləyəcəkdir".

General göy gözlərini Xatisovun sevincdən parıldayan gözünə dikdi. Xatisov ikiqat əyilib onun ağ, yumşaq əllərini sıxdı:

– Təşəkkürlərim sonsuzdur, general.

Ermənistanın baş naziri Tomsonla vidalaşanda o, son tapşırığını verdi:

– Əsgəran qalasının işğalına qədər Xosrov bəy və Çingiz bəy... aradan götürülməlidi. Özünüz bilərsiz Xatisov. Hər halda Sultan bəy təklənsə yaxşıdı.

– Mən sizi başa düşdüm, general.

Xatisov ingilis bayrağı yellənən binadan çıxanda gözləri gülürdü.

**3.**

Qapıda zövqlə geyinmiş, yaraşıqlı qadını görəndə Xosrov bəy ayaq saxladı:

– Kimi istəyirsiz, xanım?

Xosrov bəy cavab gözləmədən otağa keçdi. Qadın onun arxasınca özünü yetirdi. Əllərini yanına salaraq məsum bir görkəm aldı və gözlərini Xosrov bəyin üzünə dikdi. Bu gözlərdə dərin bir heyranlıq vardı.

Xosrov bəy masanın arxasında oturdu, kağızları qarşısına çəkdi və qadının üzünə baxmadan sərt halda soruşdu:

– Buyurun, sizi dinləyirəm.

Qadın özünü itirdi. Yanaqları allandı:

– İş üçün gəlmişəm, Xosrov bəy. Qubernatorluqda işləmək istəyirəm.

– İş? – Xosrov bəy gözlərini ondan yayındırdı, – bizdə elə iş yoxdur. Burda əsasən kişilər çalışır.

– Yazı-pozu işlərinə ehtiyacınız yoxdurmu, Xosrov bəy?

Birdən-birə xəyal etmədiyi ümidsizlik Knarikin yaraşıqlı simasını dəyişdi. Üzünə düşən qapqara qıvrım telini başının yüngül hərəkəti ilə geri atdı, sanki od yağan gözlərini inadla Xosrov bəyin gözlərinə dikdi. Ağappaq yumşaq əlini onun əlinin üstə qoydu və bu anda Xosrov bəy əlinə köz dəymiş kimi diksindi, qaşqabağını töküb, acıqlandığını açıq-aşkar biruzə verdi.

– Nə olar, Xosrov bəy, məni əliboş geri qaytarmayın. Yalvarıram sizə. Erməni-müsəlman davasında bütün ailəm məhv oldu. Mən daşnaklara nifrət edirəm. Onlar bizim-dinc ermənilərin də düşmənidi. Onlar bizim həyatımızı alt-üst etdilər. İndi qoca nənəmlə uçub-tökülən bir daxmada yaşayıram. Biz çox çarəsizik. Bir parça çörəyə möhtacıq, – Knarik dayandı, ağlamsındı, yaylığının ucunu gözlərinə basdı, – Siz çox rəhimdilsiz.

– Siz ermənisiz? – Xosrov bəy soruşdu.

– Amma daşnak deyiləm. Məni orduya götürsəz, daşnaklarla vuruşaram.

– Azərbaycan dilində çox səlis danışırsız. Ayırd etmək çətindi.

Xosrov bəy başını aşağı saldı: "Bu qadın bura mütləq tapşırıqla gəlib. Onun dili başqa söz deyir, gözləri başqa. Göndərim Çingizin yanına. Bəlkə də bu qadın özü bilmədən bizə ipucu verəcək. Onun köməyi ilə Şuşada gizli fəaliyyətdə olan daşnakları ifşa edərik. Bu qadın göründüyü kimi məsum deyil".

Dəhlizdə hərbi geyimli adamlar gəzişirdi. Üzbəüz meşin qapılı otaqda masanın arxasında oturmuş adamlar nəyi isə qızğın müzakirə edirdilər. Knarik həyəcan içində gözləyirdi. Yəqin ki, bu anlarda ərinin də gözləri yoldaydı. Knarikin xoş xəbərlə qayıtmasını gözləyirdi. Knarik köks ötürüb yenidən Xosrov bəyə baxdı. General-qubernator sanki otaqda qadın olduğu-

nu unutmuşdu. Nə isə oxuyur, yazır, hərdən də pəncərədən həyətə baxıb düşünürdü. Onun zədəli gözü qıyılmışdı, çox sərt, fikirli görünürdü. Qəflətən başını yuxarı qaldırdı və Knarikə amiranə halda dedi:

– Bu işlərlə mənim müavinim məşğul olur. Çingiz bəy. Onun yanına gedin.

... Çingiz bəy də Xosrov bəy kimi hərbi geyimdə idi. Başında quzu dərisindən tikilmiş papaq vardı. Nüfuzedici gözlərini Knarikə zillədi və qadına elə gəldi ki, bu sərt baxışlar bu anda onun qəlbinin dərinliklərində gizlənmiş sirləri, məkr və hiyləni faş etdi. Onun kim olduğunu anladı. Knarik canındakı üşütmədən çiyinlərini qısdı, qalın şalı boğazının altına qədər çəkib möhkəm büründü.

Cingiz bəy soruşdu:

– Adın nədi?

– Knarik.

– Köklü şuşalısız, yoxsa gəlməsiz?

– Mənim babam, babamın ulu babası da şuşalı olub.

– Yəqin ki, ulu babanız Pənah xanı görüb.

– Mənim ulu babam çox ağıllı olub. Ağıl və fərasətinə görə də o, mütləq xan sarayında bir vəzifə tutub.

– Əgər elədirsə ulu babanız Şuşanın bünövrəsinin qoyulmasında Pənahəli xana kömək edib.

– Bəlkə də. Amma mən bu barədə heç nə bilmirəm.

– Bilə də bilməzsən. Çünki Şuşanın tarixində ermənilərin yeri yoxdu, – Çingiz bəyin yaraşıqlı siması birdən-birə tutuldu, başını bulayıb stulu Knarikə tərəf çəkdi:

– Buyurun, əyləşin.

– Belə də yaxşıdı, – Knarik incik səslə dedi.

– Deməк qubernatorluqda işləmək istəyirsiz. Əslində bizə Azərbaycan və erməni dillərini səlis bilən xanim lazımdır. Yazı-pozu bilirsənmi, Knarik?

– Şuşa gimnaziyasını bitirmişəm.

– Çox əla. O halda biz sizi işə götürərik. Şəhərdə qalmağa yeriniz varmı?

– Var.

– Xosrov bəylə danışaram. Sabahdan işə gəlin.

Knarik Xosrov bəyin otağının qarşısından keçəndə ayağını sürüdü. Onun başı qarışıq idi. Knarik nifrətli baxışlarla onu süzdü: "Levon sizin axırınıza çıxacaq....Buna bax. Mənə gözünün ucu ilə də baxmadı. Mənim kimi gözələ. Amma mən sənin qəlbinin o paslı qapılarını açacağam. Dəlilər kimi aşiq olacaqsan erməni qızı, daşnak ruhlu Knarikə, Xosrov bəy. Bu sevginin odunda mən sənin yavaş-yavaş necə yanıb, alovlanıb kül olduğunu görəcəm... Çingiz bəy, sən də Levonun ayaqları altında sürünəcəksən. Mən sənin başının üstündə dayanıb sənin yazıq, məzlum halını seyr edəcəm. Onda Şuşanın təməlini ermənilərin qoyduğunu təsdiq edəcəksən, Çingiz bəy".

Knarikin halı birdən-birə dəyişdi. Ürəyinin çırpıntısı onu Xosrov bəyin yanına çəkdi. Onun səsini eşitmək, gözlərinin içinə baxmaq istəyi elə gücləndi ki, Knarik duyğularını cilovlaya bilmədi. Ayağının birini içəri atdı. Xosrov bəy başını qaldırdı. Çiddi, sərt baxışları sanki qalın buz layı kimi Knarikin sevgi dolu isti baxışlarının üstə düşdü. Məyus halda başını buladı: "Onun gözlərindəki buzlar əriməyəcək. Yaraşıqlı siması çox sərtdi, adamı yaxına getməyə, xoş bir söz deməyə fürsət vermir. Mən onun gözlərindən qorxuram. Bu gözlər o qədər sərt, soyuqdur ki, inanmıram kimsəyə sevgi vəd edə. Yox, mən də inadam, qürurluyam, gözəlliyimlə, işvə-nazımla buzları əridəcəm. Bəlkə erməni qızıyam, ona görə bu qədər sərtdir, üz vermir? Hiss olunur, ermənilərə nifrəti sonsuzdur. Amma Xosrov bəyin hər halda ermənilərə rəğbəti də var. Yoxsa məni işə götürməzdi... Levon... mənim qəlbimdəkiləri hiss etsə... "

Knarik bu anda içində gizli-gizli oyanan, qorxa-qorxa baş qaldıran, həyatı, yaşayışı üçün təhlükəli bir duyğunun oyanışını

hiss etdi. Bu duyğu sanki qasırğa kimi içində hər nə vardısa bir anda oda-alova bükdü, yandırıb külə çevirdi. Hətta Levona olan sevgisini də. Bu sevgi indi, bu anlarda ona cılız və hətta bir qadın qürurunu ayaqlar altına atıb tapdalamaq, yerlə yeksan eləmək, duyğularını təhqir etmək kimi gəldi.

Xosrov bəy otaqdan çıxdı. Paltosunun yaxasını qaldırıb sürətlə dəhlizdən keçib getdi. Knarik gözləri dolmuş onun arxasınca baxdı. Onun yerişində, görünüşündə, sərt baxışında bir mərdanəlik vardı. Yox, bu adam erməni kişiləri kimi namərd, məkirli, içi paxırlı deyildi. O, öz can yoldaşını düşmən qapısına göndərməzdi. Onların ulu babalarından gələn miras-mərdanə döyüş idi, hiyləsiz, xəyanətsiz sevgi idi... Knarik boğazına yığışmış qəhəri zorla uddu.

Xosrov bəy kimsəyə baxmadan maşının qapısını açıb oturdu... Sanki bu anda Knarik üçün təkcə qubernatorluq deyil, bütöv Şuşa bomboş qaldı. Səmadakı qara buludların sıxıntısı aşağı yendi və Knariki də ağuşuna aldı.

... Knarik içəri girən kimi Levon yerindən qalxıb onun qarşısına yüyürdü. Yol gözləməkdən yumru gözləri qızarmışdı, yanağındakı damar tez-tez atırdı və o, intizar çəkməkdən bezmiş adam kimi səbirsiz halda soruşdu:

– Knarik, səni işə götürdülərmi, inandılarmı sənə?

Knarik yorulmuş-usanmış halda divanda oturdu. Onun pərişan halı Levonu ruhdan saldı:

– Halından görürəm, sən Xosrov bəyin xoşuna gəlmədin, eləmi Knarik?

– O, möhkəm adamdır.

– Yəni sənə gözünün ucu ilə də baxmadı.

– Baxmadı. Məhəl qoymadı. Sanki qarşısındakı bir daş parçasıymış kimi davrandı.

– Mənə elə gəldi ki, səni görən kimi Xosrov bəy yolunu azacaq.

– Bir səbr elə, Levon. Tələsmə, – Knarik özü də hiss etmədən bağırdı və əsəb içində yerindən qalxdı.

– Milli şura üzvləri gecə zirzəmiyə yığışacaq. Şuşanın bütün zəngin erməniləri qızıl toplayıb gətirəcəklər. Amma biz o qızıla sahib ola bilmədik, Knarik.

– Sən o qızılları mənə təslim edərsən.

– Niyə?

– Çünki mən qubernatorluqda işə düzəldim.

– Doğrudanmı, Knarik? – Levon bağırdı, arvadını bağrına basdı. Onun ürəyi möhkəm döyünürdü. Lakin Levonun sevinci birdən-birə Knarikə əsəbilik gətirdi, yumru göz, yekəqarın, kökələrək əndazədən çıxan Levona qarşı içində nifrət oyatdı. İkrahla üzünü çevirdi və astadan könülsüz halda dedi:

– Mən Xosrov bəyin qəlbinə yol tapacam. Amma o, bu tezlikdə mənə inanmaz ki... O, mənim ovcumun içində olacaq. Başa düşdün, Levon? Ermənilər mənim köməyimlə Şuşanı alacaq, – gülümsünüb gözlərini süzdürdü: “Xosrov bəy, ilk əvvəl mən sənin o qaranlıq qəlbini işğal edəcəyəm...”

***

Knarik təzəcə dəmlədiyi çayı Xosrov bəyin masasının üstə qoydu. Otaq soyuq olduğundan çay xəfifcə buğlanırdı.

Xosrov bəy başını qaldırmadı. Əlindəki yazılı vərəqi diqqətlə oxuyur, ağ kağıza qeydlər edirdi. Knarik əlini ehtiyatla onun əlinin üstə qoydu və işvə dolu gözlərini Xosrov bəyə zillədi. Xosrov bəy qadın əlinin istisindən diksinib əlini geri çəkdi. Təəccüblə Knarikin həyəcandan pörtmüş üzünə baxdı.

Knarik tutulub geri çəkildi:

– Xosrov bəy...

– Çay üçün sağ ol. Mən çay içən deyiləm. Bir də əziyyət çəkmə.

– Vaxtınızı ala bilərəmmi? – Knarik guya utana-utana soruşdu.

– Buyurun.

– Siz o rus qızını çoxmu sevirdiz?

Xosrov bəy sanki qəfil zərbə almış kimi diksindi. Knarik elə bil onun ürəyinin içində gömülmüş, məzar səssizliyinə getmiş, amma unudulmamış, daim sızlamaqda olan yaraya ayağını basdı, ağrı qopdu, Xosrov bəy bu ağrını biruzə verməmək üçün alt dodağını sıxdı və sərt halda dedi:

– Bu nə deməkdi, Knarik? Siz iş başındasız. Hər halda işinizi görsəniz yaxşıdı.

Knarik pərt oldu:

– Sizi görəndən mən çox düşünürəm. O, sizin qədrinizi niyə bilmədi? Bu cür yaraşıqlı, mədəni, oxumuş... Bu odun-atəşin içində sizi tək qoydu. Mən olsaydım sizinlə... ölümə... belə düşünmədən gedərdim.

Xosrov bəyin dodağı qaçdı:

– Ermənilərə güllə atsaydım, mənimlə gedərdiz?

– Ermənilərə yox, daşnaklara, – Knarik dərindən ah çəkdi, – bizim də isti aşımıza soyuq su qatdılar. Ah, nə yaxşı zamanlar idi. Bizim erməni qızları müsəlmanların evinə gəlin gedirdi. Amma mənim də sevdiyim müsəlman bir oğlan vardı. Çox yaraşıqlıydı. Dava başladı....Amma mən sənə görə narahatam, Xosrov bəy. Tək-tənha bir həyat sürürsüz. Sevgisiz...

– Gedin otağınıza. Mən çağırmamış bu otağa ayağınızı basmayın, –Xosrov bəyin əsəbdən səsi titrədi.

Knarik ayağa qalxdı, Xosrov bəylə üz-üzə dayandı:

– Siz məni qovsanız da mən sizə sevgi hissləri bəsləməkdə davam edəcəyəm. Xosrov bəy, siz mənim necə alışıb yandığımı görmürsünüzmü? Bu savaş dayanacaq. İnanıram. Amma o vaxt mən olmayacağam. Məni rədd etməyinizin peşimançılığını...

Xosrov bəy yumruğunu masaya çırpdı. Knarik sözünü qurtara bilmədi, otaqdan çıxdı. Üzünü çevirib yaşlı gözlərini sildi və gülümsündü: “Tezliklə içindəki daşlaşmış buzlar əriyər, Xosrov bəy... Amma mən sənə doğrudan da vurğunam. Sən əsəbiləşəndə belə mənim xoşuma gəlirsən....Axşamlar Levonla üzbəüz otururam və hiss eliyirəm ki, əvvəlki Knarik deyiləm.

Levona qulaq asdıqca elə bilirəm ki, gündüzlər burda səninlə üz-üzə gələndə saflaşan duyğularım, axşamlar Levonun yandırmaq, öldürmək, məhv etmək söhbəti ilə kirlənir, mənim duyğularımdan qan iyi gəlir. Sanki içimdə mələk simalı, canavar hərisli düşmən oturub. Mən o canavarı daim içimdə gəzdirirəm. Bəsləyirəm, qol-qanad verirəm. Bir gün o canavarın qalib gəlməsini gözləyirəm. Bütün ermənilər gözlədiyi kimi. Mən o canavarla bacara bilmirəm. Sən mənim mələk simalı olduğuma inanma, Xosrov bəy. Özünü mələk simalı canavarlardan qoru...”

Knarik sanki boğulurmuş kimi əlini boğazına çəkib dərindən nəfəs aldı: “Kaş bu savaşlar, bu qırğınlar olmayaydı. Mən gəncliyimdə sənə rast gələrdim, Xosrov bəy... Levonu bəyəndim, amma heç sevmədim. Nəfəsi şərab qoxuyan, gözləri sərxoş, qəlbi dərin bataqlıq... “Knarik qəfildən xoflanıb yan-yörəsinə baxdı. Sanki bu an Levonu yanında, baxışlarını gözlərinin içinə güllə sıxılmış kimi hiss etdi. Elə bil Levon onun xəyanətkar duyğularından xəbərdar oldu, satqın ruhunu öz sərt baxışları ilə öldürmək istədi. Knarik qarşısında sanki Levonu görürmüş kimi gülümsədi və sadəlövhlüklə soruşdu:

“– Levoncan, məni Xosrov bəyə qısqandınmı?

– Niyə qısqanım ki? Səni qubernatorluğa mən göndərdim.

– Amma Xosrov bəy çox yaraşıqlıdı...

– Bizim məqsədimiz alidir, Knarik. Bizim hər birimiz erməni millətinə xidmət edirik. Biz “Böyük Ermənistan” yaratmaq üçün şərəfimizdən, qeyrətimizdən, namusumuzdan keçmişik..

– Anladım. Ona görə də burdayam. Xosrov bəyin əlindən tutub sevgi ilə onun gözlərinə baxmağa çalışıram. Amma o, möhkəm adamdır.

– Geri çəkilmə.

– Onun qəlbi – bizim əsgərlərimizin ən dəhşətli silahlarla belə fəth edə bilmədiyi qala kimidi.

– Lakin qadın məkri o dəhşətli silahdan daha güclüdür. Onu sevginə inandır və kənddəki evə dəvət et. Biz orda gözlərik.

– Nə danışırsan, Levon? O, mənim çağırışıma gəlməz. Gəlməz! O, çox ağıllı adamdır. O, bizim ermənilərə bənzəməz, heç bir vaxt erməni qızının qurduğu tələyə düşməz.

– Sən onu ilahiləşdirmə.

– Bəlkə də ondan da yüksəkdir, Levoncan. Amma mən tapşırığı yerinə yetirəcəm. Onu tələyə salmağa çalışacam".

... Knarik axşamın qaranlığında həvəssiz, sanki ayaqlarını zorla arxasınca çəkə-çəkə evə qayıdırdı. Şuşa yenə ağ dumana bürünmüşdü. Sıldırımlardan aşağıda yamacların, qayaların, dərə-təpələrin qucağında sanki göylərdən axıb gəlmiş kimi buluda oxşar topa-topa sıx duman vardı. Üzü qaranlığa getdikcə duman aşağı yenirdi və elə bil torpağın üstünə şeh kimi dağılırdı. Bu duman arxasında Şuşanın tək-tək evləri görünürdü və zəif işıq zolağı sanki nurdan düşməkdə olan göz işığına bənzəyirdi.

Knarik yenə də evə əliboş, məlumatsız gedirdi. Təkcə ürəyinin içində Levonun heç cürə görə bilməyəcəyi bir qırıq sevgi qığılcımı aparırdı.

***

– Çingiz, sən Knarik haqqında bir şey öyrənə bildinmi?

– Öyrəndim, Xosrov, – Elə indi mənə məlumat verdilər. Sənə xəbər verəcəkdim, – Çingiz bəy əlindəki qələmi əsəbi halda masanın üstünə çırpdı, – Ermənilər nə şərəfsiz adammışlar. Bu Knarik bilirsənmi kimdi? Erməni milli şurasının sədri Levon Vartepyanın arvadı.

– Arvadı?

– Bəli, Xosrov. Eşidəndə mən də sənin kimi çaşıb qaldım. İnanmadım. İnsan yəni bu qədərmi alçaq, şərəfsiz olar?

– Ermənidən mərdlik, dəyanət gözləyirsən? Boş ver, biz belə şeylərə alışmışıq. Demək belə, bu qadın bir casusdur.

– Belə çıxır.

– Olsun. Biz də elə Şuşa ermənilərini öz silahı ilə vurarıq. Aldığım məlumata görə milli şura Ermənistandan xeyli silah

alıb. Bu silahlar araba ilə Şuşanın yaxınlığına gətirilib. Amma ermənilər bu arabaları harda, necə gizlədiblər, məlum deyil. Biz onların izinə düşə bilmirik.

– Bu işdə bizə Knarik kömək edəcək.

– Knarik? – Çingiz bəy yerində otura bilmədi, qalxıb Xosrov bəylə üz-üzə dayandı, – Knarik onları ələ verməz. Knarik qatı daşnakdır, bunu bil, Xosrov.

Xosrov bəy ona cavab vermədi, otaqda var-gəl etdi, masanın arxasında oturdu, pəncərədən diqqətlə bayıra baxdı, bu anlarda onun ağıl və zəkası silahların ələ keçməsi planını qarma-qarışıq halda cızırdı: "... şərait yaradaq. Ermənilər rahatlıqla silahları Şuşaya daşısınlar. Bu silahlar bizə çox lazımdır. Qarşıda qanlı savaş olacaq. Bizə silah lazımdır..."

– Xosrov, aldığım məlumata görə, milli şuranın 17 min silahlı adamı var. Hamısı Şuşaya, onun kəndlərinə səpələnib. Marıxda yatan yırtıcı kimi hücum əmri gözləyirlər. Biz onlara başçılıq edən milli şuranı ləğv etməli, üzvlərini isə həbsə atmalıyıq.

Xosrov bəy fikirli-fikirli onun üzünə baxdı. Gözlərinə, baxışlarına çökmüş nigarançılıq, narahatlıq Çingiz bəyə də sirayət etdi.

– Şuşa indi çox təhlükəlidi. Üzdən sakit görünür. Amma içi... açılmağa, yeri-göyü yandırmağa hazır olan qumbara kimidi, – Çingiz bəy köks ötürüb astadan dedi.

– Bizi də elə ona görə bura göndəriblər, Çingiz. Qubernatorluqda Knarikdən başqa iki nəfər də erməni var. Onları da nəzarətdə saxla.

Xosrov bəy bir yerdə qərar tuta bilmirdi: bu silahlar təcili ələ keçirilməliydi. Necə etsin ki, Knarik yalançı məlumatı Levona çatdırsın və ermənilər hərəkətə keçsin... Sanki var-gəl etməkdən yorulub otağın ortasında dayandı və üzünü Çingiz bəyə tutdu:

– Kələk işlətməliyik, başa düşdün, Çingiz?

Çingiz gülümsəyib başını buladı:

– Xosrov, bu gözəl erməni qızı sənin başına pərvanə tək dolanır. O, sənə vurulub. Knarik sənin hər sözünə, hərəkətinə diqqət yetirir.

Xosrov bəy düşüncəli halda gözlərini Çingiz bəydən çəkmədi, gecdən-gec gümrah halda dedi:

– Ermənilərin əlinə girəvə vermək üçün elə indi Şuşadan çıxmalıyıq, Çingiz.

– Elə indi?

– Vaxtı itirməyək. Vəziyyət gərgindir. Bu silahlar gecə bizimkilərin əlində olmalıdı.

– Bəlkə mən qalım? Burdakıları nəzarətdə saxlayaq?

– Yox, biz ikimiz də onlar üçün təhlükəyik. İkimizin də Şuşadan getməyimiz onları hərəkətə gətirəcək. Arxayın halda silahları daşıyacaqlar. Özü də Levonun zirzəmisinə. Sən tapşırığını ver. Milislər evi hiss olunmadan mühasirəyə alıb nəzarətdə saxlasınlar. Mən otağa gedim, Knarikə Zəngəzura gedəcəyimizi, guya söhbət əsasında, ağzımdan qaçırım.

– Mən də hazırlaşım.

Xosrov bəy otağına keçdi. Sanki otağı ilk dəfə görürmüş kimi gözdən keçirdi. Sol tərəfdə pəncərənin yanından qapıya tərəf kitab rəfi qoyulmuşdu. Rəflərin çoxu boş idi. Xosrov bəy evindəki kitabxanadan buraya çoxlu kitablar gətirmişdi. Masanın arxasında Məmməd Əmin Rəsulzadənin iri portreti asılmışdı. Pəncərəni açdı. Yağışın islatdığı, torpağın, otların ətri qarışmış təmiz havanı sinədolusu içinə çəkdi. Uzaqlarda görünən bəyaz dağlar sis-duman içindəydi. Qonşu otağa boylandı və makina arxasında Knariki gördü. Nəzərləri qarşılaşdı. Knarikin gözləri sanki bir anda alışıb yandı, yaraşıqlı çöhrəsi elə bil gözlərinin alovundan istilik alıb pörtdü. Yanaqları allandı.

Xosrov bəy də qımışdı və ilk dəfə mərhəm, mülayim səslə dedi:

– Knarik, bir çay ver.

Knarik çevikliklə yerindən qalxdı. Əlində buğlanan çayla içəri girdi. Əllərinin yüngülcə titrədiyini Xosrov bəy də sezdi. Çaydan bir qurtum alb ilk dəfə Knarikin üzünə baxdı:

– Nə gizlədim, ən yaxşı, ətirli çayı mən burda içirəm.

Xosrov bəyin gözlərindəki parıltı, günəş işığına oxşar isti təbəssümü sanki üzündəki sərtliyi, ciddiliyi yox elədi, Knarikin içindəki külü qalmış ümidləri alışdırdı. Alnına tökülmüş qara saçlarını başının zərif hərəkəti ilə geri atdı, qəlbini titrədən fərəh içində gözlərini süzdü:

– Doğrumu deyirsiz, Xosrov bəy?

– Qardaşım Sultan bəylə görüşəcəm. Mütləq bu çay barədə...

– Məni utandırmayın, Xosrov bəy.

Knarikin ürəyi çırpındı. Xosrov bəyin mülayim səsi, gözlərindəki parıltı onu sehrləyirdi. Bu anda Levon sanki iri cüssəsi, qan sağılmış kimi görünən yumru gözləri ilə onun qarşısında dayandı:

“– Özünü itirmə, Knarik.

– İşimizin xatirinə, Levoncan.

– O halda ürəyin niyə belə çırpınır, gözlərin alışıb yanır, Knarik. Düzünü de, yoxsa sənin ciyərini çıxararam, səni odda yandıraram, müsəlmanları əzdiyim kimi səni də əzərəm, axırına çıxaram, Knarik. Yoxsa sən oraya hansı məqsədlə getdiyini unutdun? Sən bu alçaq hisslərinlə bizə, erməni millətinə xəyanət edirsən.”

– Knarik...

– Hə, Xosrov bəy. Siz deyəsən Zəngəzura gedirsiz? Nə vaxt gedirsiz? Tezmi qayıdarsız?

– Mən Zəngəzuramı dedim? – Xosrov bəy guya özünü itirdi, – Yox... Başqa yerə gedirik. Zəngəzur... uzaqdı... Nə vaxt qayıdacağımı bilmirəm. Amma bizim Şuşada olmadığımızı kimsə bilməsin, başa düşdünmü, Knarik? Mən sənə inanıram.

– Təşəkkür edirəm, Xosrov bəy: “Mən axır ki, bu adamayo-

vuşmaz, sərt adamın qəlbini yumşaldıb onu gözəlliyim qarşısında məğlub etdim. Kaş Levon yanımda olardı, onun necə əyildiyini, qarşımda sındığını görərdi. Belə bir arvadı olduğu üçün mütləq qürrələnərdi. Biz erməni qadınları beləyik...”

Xosrov bəy telefonun dəstəyini qaldırdı, az qala pıçıltılı səslə astadan dedi:

– Çingiz, Knarik xanım yaxşı çay dəmləyib, bəlkə sən də bir çay içəsən, sonra yola çıxaq?

Knarik sevinc içindəydi. O anda çay süzdü və masanın üstünə qoydu.

... Günortaya az qalmış iki atlı Zəngəzura tərəf yol aldı. Amma Şuşa qalasından uzağa getmədilər.

***

Levonun ikimərtəbəli evinin zirzəmisi getdikcə adamla dolurdu. Zirzəmi geniş və səliqəliydi. Gətirilən silahların yığılması üçün yer hazırlandı. Əl boyda kiçik pəncərədən içəri nazik işıq zolağı düşürdü. Yarıqaranlıq zirzəmidə üç qədimi çıraq şölələnirdi. Ayaqüstə dayanmaqdan Levonun gödək ayaqları sızıldayırdı. Köhnə taburetkanı altına çəkib oturdu. Yorğunluqdanmı, həyəcandanmı, keçirdiyi qorxu hissindənmi, -nədənsə çətinliklə nəfəs alırdı. Köynəyinin cibindən papiros qutusunu çıxardı və birini alışdırdı. Köməkçisi Şahnəzər də taxtaların içindən tapıb gətirdiyi taburetkanın tozunu pencəyinin ətəyi ilə silib onunla yanaşı oturdu və o, da papirosdan birini götürdü. Yandırıb tüstünü ləzzətlə sinəsinə çəkdi:

– Səncə bunlar Zəngəzura niyə getmişlər, Levon?

Levon çiyinlərini oynatdı:

– Mən hardan bilim? Əsas odu ki, Şuşadan çıxmışlar. Biz də rahatca silahları daşıyıb zirzəmidə gizlədərik. Sən şura üzvlərinin hamısına xəbər elədinmi?

– Eləmişəm. Artıq Mişa, Qrişa burdadı. Amma Levon... - tüstü acı olduğundan Şahnəzər əlini ağzına tutub öskürdü.

– Nə amma, Şahnəzər? Yoxsa nədənsə şübhəlisən?

– İçimdə bir narahatlıq var. Düşünürəm, hey düşünürəm, amma sıxıntının səbəbini bilmirəm. Xosrov bəy də, Çingiz bəy də ağıllı adamdı. Onlar Şuşanı başsız qoymazlar. Çünki Şuşa indi elə vəziyyətdədi ki, qumbaranı sinəsinə basmış və partlayacağını hər an gözləyən adam kimidi. Bizimkilər hər an qubernatorluğa hücum edib, Xosrov bəyin əsgərlərini məhv edə bilər. Şuşada ara qarışar.

– Sən nə demək istəyirsən, Şahnəzər?

– Xosrov bəy Şuşadadı. Vəssalam. O, Zəngəzura getməyib.

– Knarik onların ata minib getdiyini öz gözləri ilə görüb. Hələ xeyli arxalarınca da baxıb. Mən elə həmin anda arabaların yola düşməsi barədə tapşırıq verdim. Biz silahları yerbəyer eləməliyik. Qubernatorluqda çalışan adamlarımız da zirəklik göstərərək 200 nəfərdən çox adamı gizli yolla Şuşaya gətirmişlər. Onlar bizim silahlı dəstələrə rəhbərlik edəcəklər.

– Hücum nə vaxt olacaq?

– Tezliklə. Biz daha gözləyə bilmərik. Dayanmadan Şuşaya Azərbaycan ordusunun əsgərləri gəlir. Əsgəran yolunda onların postu yaradılıb. Azərbaycan hokuməti nə olursa olsun Qarabağı, Zəngəzuru əldə saxlamaq niyyətindədir.

Bu anda silahla yüklənmiş arabalar həyətə girdi. Zirzəmidəki ermənilər silahları daşımaq üçün özlərini həyətə atdılar. Səs-küy eşidildi, o anda da sakitlik yarandı. Təkcə yorulmuş atların fınxırtısı eşidilirdi. Havaya atəş açıldı və ardınca Çingiz bəyin amiranə, gur səsi gecənin bağrını yardı:

– Kimsə yerindən tərpənməsin.

Atəş səsi arabalarla dolu olan geniş həyətə sanki ölüm sükutu gətirdi. Ermənilər qucaqlarında dolu silah, arxalarında kəndirlə sürüdükləri iri yeşiklər-eləcə də donub qaldılar. Levonla Şahnəzər irəli bir addım atdı. Levon üzünü Xosrov bəyə tutdu, xırıltılı səslə, özü də anlamadığı bir dildə qırıq-qırıq dedi:

– Xosrov bəy... bu silahları biz müsəlman... lara kömək üçün gətirmişik. Sizə təhvil verəcəkdik. Siz bizi yanlış...

Həyətə qubernatorluğun əsgərləri doluşdu. Çingiz bəy onlara əmr etdi:

– Erməni milli şurasının bütün üzvlərini, qubernatorluqda çalışan iki ermənini və burada silah daşınmasında iştirak edən bütün erməniləri həbs edin.

Ermənilər silaha əl atdılar. Lakin gec idi.

... Xosrov bəylə Çingiz bəy sübh çağı evə qayıdırdılar. Şuşa artıq gecədən oyaq idi. Hələ də şəhərin içində güllə səsləri eşidilirdi. İki əmioğlunun yuxusuzluqdan gözləri qapanırdı. Amma onlar atdan düşüb sübhün soyuğunda həyətdə baş-başa oturdular. Bu onların ilk qələbəsi, ilk zəfəriydi: düşmənin xeyli silah-sursatı qənimət alınmışdı...

**4.**

... Günəşin üzünə birdən-birə qara buludlardan sanki qara örtük çəkildi. Bu qara örtüyün süzülmüş yerlərindən tərtəmiz səmanın göyümtül işığı yer üzünə süzürdü. Amma havada bir qurğuşun ağırlığı vardı. Çox keçmədi ki, göy üzünü sıx qara buludlar bürüdü, uzaq dağları çən-duman aldı. Sonra qatı boz duman tüstü kimi yamaclardan, dərə-təpələrdən aşağı yenərək çadırların yanına qədər süründü. Baharın nəfəsinə isinib oyanan torpağın, təzə-təzə qıpırdanan otların üstünə sanki şeh səpildi.

Çadırların qarşısında ocaqlar tüstülənirdi. Dövrə vurub oturmuş erməni əsgərləri şərab içir, sərxoş halda erməni mahnıları oxuyurdular.

General Dro da çadırdan çıxdı. Sazaqlı havada üşüdü və şinelinin yaxasını qaldıraraq duman içində güclə seçilən çadırlara baxdı. Üzünə tək-tək soyuq yağış damcısı düşdü. Başını qaldırıb qara buludlu, günəşsiz səmaya baxdı. Bu anda yavəri, Şahnəzəryanı yanında gördü. Onun qaralmış, boğulmuş sifətində zəhmli bir ifadə vardı. Üzü narın çopurlarla örtülmüşdü.

– Biz tezliklə bu yerlərdən çıxacağımıza inanmıram, general. Biz bu yerlərin havasına alışmamışıq. Gərək havaların qızmağını gözlərdik.

– Biz tezliklə Qarabağın işğalını başa çatdırmalıyıq. Bizə verilən əmr belədi.

– Ordu bu şəraitdə necə irəli gedə bilər? Əsgərlərimiz əziyyət çəkir.

General Dronun dodağı qaçdı, papağını alnına tərəf itələyib ruh yüksəkliyi ilə dedi:

– Onlar ilk müsəlman kəndini talayan kimi əziyyətləri yaddan çıxacaq.

– Orası elədi, – Şahnazaryan mızıldandı.

– Görmürsənmi, yağış yağır, əsgərlər yağışa məhəl qoymadan öz keyfindədi.

Əsgərlər bu dəfə ocağın başında halay vurdular. Əllərini bir-birinin çiyninə qoyaraq arsız, qayğısız, başlarını sağa-sola çevirərək qalın, kobud səslər çıxarır, sanki bununla da öz döyüş əhval-ruhiyyələrini qaldırırdılar. Əslində onların hər birinin içində açımasız, firon padşahlarının zülümkarlığı kimi qəddar bir hiss vardı. Sanki yırtıcı bir çaqqal marıqda dayanıb qüvvə toplayır və öz ovunu parçalamaq üçün fürsət gözləyirdi. Ağzı, əlləri qanlı olan bu çaqqalların ac gözləri və doyumsuz iştahı onlara ata-babalarından və ən qədim ulu babalarından gəlirdi. Və onlar qara-borana, yağışa, çovğuna baxmadan qan iyinə can atan yırtıcı kimi Qarabağa, Şuşaya qan tökməyə tələsirdilər. Bu anlarda şərab içən və erməni mahnıları oxuyan bu əsgərlərin hər biri özlüyündə bir "qəhrəman" idi. Çox güman ki, yaşadıqları ən gözəl hiss çarəsiz, silahsız müsəlmanları qətlə yetirmək, onların gözündə dəhşətli ölümün söndürdüyü son işığı görmək və bunun zövqünü yaşamaq hissi idi. Alova bürünmüş evlərin insan kimi son fəryadı, yaşlıların bağırtısı, körpələrin tükürpədici səsi, dəhşətli cəzalar, işgəncələr... Erməni mahnılarını sərxoşcasına bağıra-bağıra oxuyan bu əsgər-

lər dağlardan güclü selin daşı-çınqılı qabağına qataraq çadırlara tərəf gəldiyinin fərqində deyildilər. Bəlkə də bu anlarda xəyalən Qarabağdaydılar...

... General Dro özü də bir yırtıcıydı. Əsil adı Drastamat idi. Drastamat Kanayan. 1883-cü ildə Türkiyənin İqdır vilayətində Martiros Kanayanın ailəsində türklərin gələcək düşməni dünyaya gəldi. Anası Horomon onu türklərə nifrət ruhunda böyütdü. İllər keçdikcə bu nifrət zəhər kimi onun qanına axdı, insani duyğularını zədələyib sıradan çıxardı. İlk dəfə müsəlman qanını tökəndə iyirmi üç yaşı vardı. Erməni quldur dəstələrinə başçılıq edəndə artıq o, acımasız, qəddar bir daşnak idi. Gecələr yuxusunda da türklərə divan tuturdu və ona elə gəlirdi ki, əllərinə, gözlərinin içinə çökmüş qan rəngi dünyada sevdiyi, aşiq olduğu ən gözəl rəngdir... Sonralar "Daşnaksütun" partiyasının ən fəal üzvlərindən biri oldu. Bir çox müharibələrdə iştirak etdi, özünü səriştəli bir hərbiçi kimi tanıtdı. Erməni milli məclisi bu qəddar generalı mühüm tapşırıqlar arxasınca göndərdi. Bu tapşırıqlardan ən vacibi isə Ermənistanın sərhədlərini genişləndirməkdən ibarət idi. Drastamat Kanayan xidmətlərinə görə Ermənistanın hərbi komissarı, sonralar isə müdafiə naziri oldu.

General Andronik Ozanyan Zəngəzuru, Qarabağı işğal edə bilmədi. Onun yerinə general Dro göndərildi.

... –Əsgərlər, çadırlara girsin, güclü yağış gəlir, – general yavərinə əmr etdi. Qanı qaralmış halda xüsusi hazırlanmış çadırına girdi, islanmış şinelini əynindən çıxardı və hirslə onu yerə çırpdı, – deyəsən ilişib elə bu dağlarda qalacağıq.

Hövsələsi çatmadı, pərdəni qaldırıb bayıra baxdı: gur yağış çən-dumanı dağıtdı, qapqara buludlardan sanki yer üzünə mavi göz yaşı axırdı. Çadırlardan aşağıda yağışın altında islanmış atlar görünürdü. Əsgərana hələ xeyli vardı. Çox güman ki, ora gedib çıxmaları uzun çəkəcəkdi.

General masanın üstündə açıq qalmış xəritəni qarşısına çəkdi. Əsgəran keçidini qırmızı qələmlə işarələdi. Keçidə qədər də-

rə-təpələrdə xeyli müsəlman kəndləri vardı. Onları məhv etmək və çoxlu ərzaq ehtiyatı toplamaq lazım idi. Əgər yollarda bu qədər yubansalar... əsəbindən ürəyi sıxıldı və qələmi xəritənin üstünə atdı.

Yavər içəri girdi. General başını qaldırmadan qısaca əmr verdi: komandirləri yanıma çağır.

General ilk dəfəydi bu yerlərdə olurdu. Amma yağışlı-yağmurlu, çiskinli-dumanlı bu dərə -təpələr, qarlı dağlar, göz işlədikcə uzanan və sanki qurtarmaq bilməyən yamaclar, düzənlər onun üçün doğma və əziz idi. Kaş atası Martiros, anası Horomon da bu gözəllikləri görərdi, bu yerləri işğal etdiyi üçün oğulları ilə fəxr edərdilər.

Yavər bələdçi ilə gəldi. O, uzun, şivərək, iri burunlu, xırdagözlü bir erməniydi. General onu başdan ayağa süzdü. Dinib-danışmadan xəritənin üzərinə əyildi və onu eşitməyə müntəzir olan bələdçiyə baxıb Əsgəran qalasını göstərdi:

– Bu qalanı bizimkilər tikib, eləmi? Mən bu barədə oxumuşam. Bu qalanın əsl adı Mayraberd-Əsgərandı. Əsgəranın yaxınlığında olan erməni kəndi Mayraberdin adından götürülüb.

Bələdçi generalın qarşısında ikiqat əyildi. Gözləri xəritədə qızğınlıqla dedi:

– Siz çox düz buyurursuz, general. Amma müsəlmanlar bu qalanı özlərinə çıxırlar. İddia edirlər ki, bu qalanı Pənahəli xan tikdirib.

– Əsgərandan Qarabağa tək bir keçid var. Biz bu keçidi işğal etməliyik, özü də qısa müddətdə. Əsgəran strateji cəhətdən bizim üçün çox əhəmiyyətlidir. Biz burdan Ağdamı, Xocalını çox asanlıqla ələ keçirəcəyik.

Generalın başı üstündə dayanıb xəritəyə diqqətlə baxan və dodaqaltı gülümsəyən yavər xırıltılı səslə məlumat verdi:

– Qarabağın bütün erməni kəndləri silahlanıb yolumuzu gözləyir. Gəncədən Qarabağa gizli yollarla 1000 nəfərlik silahlı

dəstə göndərilib. Dilicandan Zəngəzura gəlmiş 7000 nəfərlik ordu artıq sizin ixtiyarınızdadır. Şuşanın özündə də silahlı basqına hazırlıq görülüb.

– Aldığım məlumata görə Əsgəran keçidində azərbaycanlı əsgərlərin postu var. Onlar Əsgəranı qoruyurlar.

– General, onlar bizim nizami ordunun hücumuna tab gətirə bilməzlər. Toplar bir atəşlə bu postları məhv edəcək. Hücum nə vaxt olacaq?

– Yağışlı havada topları yuxarı qaldırmaq çətinlik yaradır. Silah dolu arabaların hərəkətini ləngidir.

Bələdçi söhbətə qarışdı:

– Əsgəran da bu yerlər kimi dağlıqdır, general. Əsgərana yaxın olan Qarqar çayını biz ancaq gecə keçməliyik. Çünki gündüzlər əsgərlər çayı nəzarətdə saxlayır.

– Əsgərandan Şuşaya nə qədər yol var?

– Cəmi iyirmi dörd kilometr, general. Xocalı Əsgərana daha yaxındı.

– Yaxşı döyüş planının müzakirəsinə keçək. Kimin nə təklifi var?

Bayırda yağış yağırdı. Çadırda isə daşnaklar Qarabağın taleyini cızırdı...

**5.**

Zəngəzurun hər yerindən Hacısamlı kəndinə süvarilər axışırdı. Sultan bəyin qərargahı burdaydı və Hacısamlı bir savaş ab-havasındaydı.

... Dilruba xanım Sultan bəyin kürkünü və papağını gətirdi. Qapının ağzında məlul-müşkül dayanıb yağmurlu gözlərini Sultan bəyə dikdi. Bəy çəkmələrini ayağına çəkdi, qəddini düzəldib kürkünü, papağını aldı. Kövrəlmiş Dilrubanı görəndə əl saxladı:

– Niyə narahatsan, Dilruba? Mən savaşa getmirəm. Biz hələ hazırlıq görürük. Sən cavanlığında belə deyildin, Dilruba. Nə

olub sənə? Mən həmin Sultanam. Hər səfərdən, hər savaşdan sağ-salamat qayıdan Sultan...

– Elə mən də həmin Dilrubayam, – gülümsünüb ərinin sinəsinə sığındı, – Amma evdə oturub yol gözləmək işgəncədi, əzabdı, Sultan.

– Sən Sultanın yolunu gözləməkdən bezdinmi, Dilruba?

– Yox, yox, nə danışırsan, Sultan? Sən təkcə bizə aid deyilsən, sən Zəngəzurun qeyrətli, mərd oğlusan. Bütün Zəngəzurun gözü səndədi. Amma demək istədim ki, mən də... bir iş görərdim.

– General Dro ordusu ilə Əsgərana hərəkət edir. Bunu bilirsən. Hacısamlıda da ordu toplanır. Söz yox ki, bu ordunu yedirib-içirmək lazımdır. Ətraf kəndlərdən də qadınlar köməyə gəlib. İstəyirsən, sən də onlara nəzarət elə.

Dilruba xanım sevindi:

– Evdəki xidmətçiləri də götürüb gedərəm, Sultan.

... Sultan bəy ucaboy, yaraşıqlı kişinin gülümsər üzünü görən kimi ayağa qalxdı. Qapının ağzındaca qucaqlaşdılar:

– Sən hardan belə, Məşədi Qasım? – sevincək soruşdu.

– Kəlbəcərdən gəlirəm, bəy. Öz dəstəmlə köməyə gəlmişəm. Xəbəri eşidən kimi daha dayanmadıq. O vaxt Göycədə ermənilərlə savaş başlayanda sən də Basarkeçərə köməyə gəldin. Birləşib Basarkeçəri, Zodu ermənilərdən təmizlədik. Mən sənin igidliyini, mərdliyini və yaxşılığını heç vaxt unutmadım, bəy. Xalq səni el qəhrəmanı kimi tanıyır.

– Biz bu torpağın oğluyuq, bu torpağı da qorumalıyıq. Bir də Göycə də vətənin bir parçasıdır, bu yaxşılıq deyil, vəzifədi, borcdur.

Məşədi Qasım kövrəldi, gözləri yaşardı.

... Məşədi Qasım göycəliydi. Ermənilər Zəngəzur kimi Göycəni də yandırıb külünü çıxarırdılar, dəhşətli soyqırım Göycə mahalını bürüyürdü.

Elin igidləri ayağa qalxdı. Mahalda zirəklikdə, qoçaqlıqda ad çıxaran Məşədi Qasım əli silah tutan adamları başına yığdı,

zalım, qaniçən düşmənə qarşı o, da savaş açdı. Məşədi Qasımın varlığı ermənilərin yuxusunu qaçırdı. Onun başına pul mükafatı qoydular. Amma bu mükafatı almaq ermənilərin heç birinə qismət olmadı.

***

Avetis təşviş içindəydi. Məşədi Qasımın oglu Hüsənlə Türkiyədən top və silah-sursat gətirmək xəbəri onu sarsıtdı. Sanki başının üstündə ildırım çaxdı və onun alovu Avetisi evi ilə bərabər yandırıb külə döndərdi: “Bu adam axırımıza çıxacaq. Biz onsuz da onunla bacara bilmirdik. Top, silah gətiriləndən sonra... kəndlərimizə hücum edəcək, bizim kimi soyqırım aparacaq... Yox, bir hiylə işlədib onu aradan götürək, topu, silahları da əlimizə keçirək. Bəlkə gecənin birində Daşkəndə basqın edək, Məşədi Qasımın evinə od vuraq, ailəsi ilə birgə yanıb kül olsun?... Avetis sakit ol. Daha ağıllı yollar axtar. O, sənin kimi axmaq deyil. Ağıllı, cəsur adamdı. Niyə siz ermənilər o qədər böyük qüvvə ilə Daşkəndə yaxın düşə bilmirsiz? Məşədi Qasıma görə. Düşün, Avetis düşün. Məşədi Qasımı tələyə salıb aradan götür”.

Arvadı Siran əlindəki çayı masanın üstünə qoyub rəngi avazımış, gözləri bir nöqtəyə dikilib qalmış Avetisi xəyaldan ayırdı:

– Nə olub, Avetis?

– Məşədi Qasım Türkiyədən top, silah-sursat gətirib.

Arvadının qorxudan ağzı əyildi, əllərini sinəsində çarpazlayıb çəp gözlərini Avetisə zillədi:

– Bəs indi nə olacaq, Avetis? Onlar bizi qıracaq? Ah, nəvələrim, onlar çox kiçikdi, onları necə qoruyarıq?

“– Axmaq arvad. Biz kimsəyə rəhm eləmirik. Doğrudan da “rəhm, mərhəmət” nə olan şeydi? Necə bir hissdi? Məsələn, baltanı yuxarı qaldıranda bir körpə bağırırsa... biz bundan həzz

alırıq... biz mərhəmət göstərsək o uşaq sağ qalar. Amma o, bir müsəlmandır. Ölməlidi... vəssalam...”

Siran çirkli döşlüyünü gözünə basıb ağlamağa başladı. Əllərini dizinə çırpır, sel kimi göz yaşı axıdırdı. Avetis hirsləndi:

– Bir dayan görək. Gözünün suyunu axıtma. Müsəlman qadınları göz yaşı tökmək əvəzinə silah götürürlər.

Avetis otaqda var-gəl etməkdən yoruldu, hələ də qorxudan titrəyən Siranın qarşısında dayandı:

– Bir vaxt Məşədi Qasımla çörək kəsmişdik.

– Hə, Avetiscan. Arvadı ilə də çox yaxın idim. Lap bacı kimi.

– Deyirəm, bəlkə onu qonaq çağırım?

– Gələrmi? Bu qədər arada qan tökülüb.

– Xəbər göndərəcəm ki, gəl oturaq, söhbət edək, ermənilərlə müsəlmanları barışdıraq. Tökülən qanları dayandıraq. Bu savaş bitsin.

– O, inanarmı?

– Ortada barışıq söhbəti var, inanar.

– O zaman hazırlıq görümmü?

– Sabah axşama çağıracam. Başqa qonaqlarımız da olacaq. Məşədi Qasımdan sonra yaxşı bir keyf məclisi qurarıq.

Avetis sevinclə əllərini bir-birinə sürtdü, arvadını qucaqladı və güllə kimi evdən çıxdı.

***

– Avetis məni kəndə qonaq çağırıb, – Məşədi Qasım astadan deyib içəridəkiləri süzdü. Otaqdan neft çırağının iyi gəlirdi. Divarboyu oturmuş adamların kölgəsi çıraq işığında divarlarda oynayırdı.

Məşədi Qasımın başına yığışanlar onun ən yaxın silahdaşlarıydı: Kərbəlayi Zeynal, Əliş Süleymanov, Ziyad Babayev, Mədət Qocamanoğlu, Hacı Rəhim, Qaçaq İdris. Daşkənd kəndinin bu cəsur, mərd oğulları erməniləri doğma yurda yaxın buraxmırdılar.

...Savaş təzə başlayırdı. Göycə mahalı qan ağlayırdı. Kəndlər viran qalır, günahsız adamlar qətlə yetirilirdi. Erməni taunu Daşkəndə tərəf sürünürdü. Onda Məşədi Qasım özü kimi igid adamları başına topladı. Bir dəfə xəbər gəldi ki, ermənilər qonşu kəndə, Çamurluya tərəf hərəkət edir. Məşədi Qasım dəstəsini ayağa qaldırdı:

– Aldığım məlumata görə ermənilər Çamurlu kəndinə basqın edəcək. Əgər biz çamurlulara köməyə getməsək, Çamurludan sonra daşnaklar Daşkəndə hücum edəcəklər. O zaman biz camaatı erməninin baltasından, evimizi yanmaqdan xilas edə bilməyəcəyik.

Ermənilər ağır tələfat verərək Çamurluya yaxın düşə bilmədilər. Və Məşədi Qasımı da o döyüşlərdən tanıdılar.

....– Avetis məni ona görə çağırır ki, o erməniləri, mən də müsəlmanları sakitləşdirim. Qan tökülməsin, evlərimiz xarabazara çevrilməsin. O, məni xoş niyyətlə çağırır. Belə güman edirəm ki, ermənilər də bu savaşdan bezib, rahat yaşamaq istəyirlər.

– Sən erməniyə inanmaqda səhv eləyirsən, Məşədi Qasım.

– Mən illərlə Avetislə çörək kəsmişəm.

Ziyad hirslə ayağa qalxdı. Yenidən oturdu və küsmüş kimi arxasını Məşədi Qasıma çevirdi.

Nəzərlər orta yaşlı, saçları vaxtsız ağarmış, qarayanız sifətini qırışlar basmış məğrur görünüşlü adama zilləndi. O, susqun halda dinib danışmadan gözünü çırağa zilləmişdi. Sanki bəbəklərində qızılı nizələr titrəşirdi. Bu Qaçaq İdris idi. Məşədi Qasım da onun nə deyəcəyini gözlədi. İdris asta-asta, təmkinlə dedi:

– Ermənilər çoxdan duz-çörəyi tapdalayıb, Məşədi. Sənin Türkiyədən top, silah gətirməyin Avetisi qıcıqlandırıb. Əgər sən bu çağırışa gedirsənsə biz səni tək buraxmarıq.

Məşədi Qasım xəfifcə gülümsündü:

– Əslində mən də elə düşünürəm.

– Bəs onda niyə gedirsən?

– Məni qorxaq bilməsin.

– Əgər səni tələyə salıb öldürsələr...

– Mən tələyə düşmərəm.

– Məşədi Qasım, sən bizim komandirimizsən. Amma bu dəfə sən bizə tabesən. Səninlə iki nəfər gedəcək. Biz səni o qaniçənlərin yuvasına tək buraxa bilmərik, -Qaçaq İdris sözünü deyib ayağa qalxdı.

– Oldu, -Məşədi Qasım gizli bir fərəh hissi ilə silahdaşlarını süzdü.

***

Avetis çırağın birini yandırıb pəncərəyə qoydu. Neftin sərt qoxusu otağın havasını ağırlaşdırdı. İkinci çırağı masanın üstə qoydu. Otaqda beş nəfər saqqallı silahlı vardı. Onlar ucadan danışır, hırıltı ilə gülür, tez-tez pəncərədən bayıra baxaraq Məşədi Qasımın yolunu gözləyirdilər.

Masanın üstünə şərab qoyulmuşdu. Şüşələrdə qırmızı şərab çıraq işığında bərq vururdu. Siran suladığı lavaşları dəstələyib masanın üstünə qoydu. İri nimçələrə qovurma, suda bişmiş toyuq tikələri yığdı. Saqqallı ermənilərdən biri əlini şərab şüşəsinə atanda Avetis hirsləndi:

– Ay axmaq, dilinizə şərab dəyən kimi başınızı itirirsiz. Gözləyin, qonaq gəlsin, masanın üstündəkiləri görsün. Özü də bir badə vursun. Sonra da gülə-gülə göndərək o dünyaya.

Saqqallı erməni əlini tüfəngin qundağına söykəyib həyətə boylandı:

– Bu heç gələnə oxşamır, Avetis.

– Gələcək. O, millətini düşünən və onun yolunda canını fəda edən adamdır, mütləq gələcək və gəldiyinə, erməni Avetisə inandığına görə peşiman olacaq.

Siran otağa girdi, şərab içmək üçün badələr düzdü və təşvişlə Avetisə dedi:

– Amma içim heç rahat deyil, Avetis.

– Bəlkə Məşədi Qasıma görə narahatsan, Siran?

– Qorxuram qazdığımız bu dərin, qaranlıq quyuya özümüz düşək.

– Ah, Sirancan, sən çox mərhəmətlisən, yazığın gəlir Qasıma, ona görə belə deyirsən. Amma sənin xətrinə işgəncə vermərik, bircə güllə, sənin xətrinə... Oldumu? – Avetis onu kinayə ilə süzdü.

Otaqdakılar ucadan at kişnərtisi kimi bir səs çıxardılar.

***

Məşədi Qasım Avetisin evinə çatmağa az qalmış həyətin aşağısındakı sıx ağaclıqda atdan düşdü. İdrisgil də atdan düşüb atları ağaclara bağladılar. Ətrafda sirli bir sükut, qandonduran bir səssizlik vardı. Üçü də silahların tətiyini çəkib ətrafı gözdən keçirdilər və evə tərəf irəlilədilər.

Ağaclıq evin qarşısına qədər uzanırdı. Həyətdə samovar salınmışdı, zəif tüstü burumu qaranlıqda zorla seçilirdi. Məşədi Qasım tapançanı qoltuq cibinə qoyub pıçıltı ilə dedi:

– Içəri girirəm. Pəncərədən məni izləyin.

– Gözləyək, həyətdə birdən pusqu qurarlar.

– Ətrafı yoxlayın. Şübhəli adam olsa aradan götürün.

– Baş üstə, komandir.

Qaçaq İdrislə Kərbəlayi Zeynal ağacların arxasında gizlənə-gizlənə ətrafı gözdən keçirmək istədilər. Bu anda sanki qaranlığın içindən çıxmış kimi Məşədi Qasımın qarşısında qalın şala möhkəm bürünmüş, üz-gözünü örtmüş bir qadın dayandı. Qorxudanmı, qaçaraq gəldiyindənmi tövşüyürdü. Məşədi Qasım geri çəkildi və əlini tapançaya atdı:

– Sən kimsən?

– Bir erməni qadını.

– Məni qarşılamağa Avetis sənimi göndərib?

– Yox, yox, Avetis bilsə həmən məni öldürər. Sənin gələcəyini bilirdim, Məşədi Qasım. Sirandan eşitdim. O, söz saxlama-

ğı bacarmır. Evə girmə. Avetis səni tələyə salacaq. Ayağını içəri qoyan kimi səni öldürəcəklər.

– İçəridə neçə nəfər var? Bilirsənmi?

– Bayaqdan onları izləyirəm. Beş nəfərdilər. Beşi də qaniçən.

– Avetisi mən namərd bilmirdim.

– O, əsil canavardı. Onlar səni aradan götürən kimi Daşkəndə basqın edəcəklər.

– Bunları hardan bilirsən?

– Mən onların içindəyəm.

Qaçaq İdrislə Kərbəlayi Zeynal gizlincə Məşədi Qasıma yaxınlaşdılar. Qadını görəndə heyrətlə bir-birinə baxdılar və nəfəs çəkmədən söhbəti eşitməyə can atdılar. Qaçaq İdris pıçıltı ilə soruşdu:

– Bu qadın kimdi, bu gecə vaxtı Məşədi Qasımı söhbətə tutub?

– Hər halda müsəlman qadını deyil.

– Onun komandirlə nə əlaqəsi?

– Sərvaxt olaq, bəlkə də başını qatır ki, ermənilər onu sağ tutsunlar.

Məşədi Qasım qadından soruşdu:

– Bu xəbəri mənə verməkdə məqsədin nədi? Məni niyə qoruyursan?

Qadın çevrilib getmək istədi, amma ayaq saxladı və qorxaq səslə dedi:

– Bilirsənmi, niyə qorudum? Bu kəndə hücum edəndə qadınlara toxunmayasınız.

– Səni başa düşdüm. Təşəkkür edirəm.

– Demək istədiyim bir şey də var: kəndə qayıdanda Qarabulaq tərəfdən qayıt.

– Niyə?

– Çünki bizimkilər Basarkeçərlə Daşkənd arasında pusqu qurublar. Yoldan keçən müsəlmanları öldürürlər.

Qadın üzünü örtdü və cəld ağacların arasında yox oldu.

Qaçaq İdrislə Kərbəlayi Zeynal ağacların arxasından çıxdılar. Məşədi Qasım dedi:

– Evin arxasında pəncərə var. Zeynal, sən bizdən cavansan. Pəncərədən otağa düş. Amma ehtiyatlı ol ki, ayıq düşməsinlər.

– Baş üstə, komandir.

Pəncərə alçaqdaydı. Zeynal ehtiyatla otağa düşdü. Az keçmədi ki, içəridən boğuq güllə səsləri gəldi. Sonra da sakitlik çökdü. Zeynal qapıdan çıxdı, tapançasının ağznı silib qoltuq cibinə qoydu və gülə-gülə dedi:

– Altı nəfər idilər. Qapının ağzında əllərində silah səni gözləyirdilər. Səslərini çıxarmağa macal tapmadılar.

– Əhsən, min yaşa, Zeynal, – Məşədi Qasım onu bağrına basdı, – Ermənilər duyuq düşməmiş kənddən çıxaq. Erməni qadını dedi ki, Basarkeçərlə Daşkəndin arasında ermənilər pusqu qurub, Qarabulaq tərəfdən gedin. Amma biz Basarkeçərdən gedirik.

Atlılar çaparaq getdilər. İrəlidə onları savaş gözləyirdi...

***

Sultan bəy Məşədi Qasımı hörmətlə evin yuxarı başına keçirdi. Çıraq kimi alışıb yanan gəbələrin üstünə salınmış ipək döşəkçələrin üstə əyləşib yasdıqlara söykəndilər. Məşədi Qasım keçib gəldiyi uzaq yolun yorğunluğunu yalnız indi hiss etdi. Çox keçmədi ki, Çal Aslan, Cağazurlu Ağamməd, Seyid Həmid də gəlib çıxdı. Məşədi Qasımla qucaqlaşdılar:

– İgidliyiniz haqqında çox eşitmişəm, – Seyid Həmid dedi.

Məşədi Qasım kövrəldi:

– Amma Göycəni qoruya bilmədik. Göycəni bağrımızdan söküb aldılar. Düşmən üstümüzə nizami ordu yeritdi. Məcbur qalıb elliklə doğma yurdu tərk elədik, Kəlbəcərə köçdük, -səsi titrədi, özünü topladı və gümrah səslə dedi:-İnşallah, Əsgəranı düşmən tapdağına verməzik.

Yer-yerdən səsləndilər:

– Amin, inşallah.

Sultan bəy ciddiləşib təmkinlə sözə başladı:

– Bakıdan, Türkiyədən çoxlu silah-sursat alınıb. Dəstələr dayanmadan gəlir. Onları yerləşdirmək, güllə atmağı bacarmayan cavanlara təlim keçmək lazımdır. Biz Zəngəzurdan, Xosrov bəy isə Qarabağdan köməyə gələcək. Müdafiəçilərin döyüş əhval-ruhiyyəsi yüksək olmalıdı ki, biz bu savaşdan zəfərlə çıxaq. Bir azdan yola çıxırıq bir neçə nəfərlə. Xosrov bəylə, Çingiz bəylə görüşüb döyüş planını müzakirə edəcəyik. Burda məni Çal Aslan əvəz edəcəkdir.

... Yoxuşun qaşında günəşin son saraltısı altında xəyal kimi dörd atlı göründü. Atlar dayanmadan sanki batan günəşin qırmızı alovuna bürünərək nağılların içindən çıxmış kimi bu torpağın xilasına tələsdilər.

**6.**

... Xosrov bəy ayağa qalxıb gəzindi. Kəmərinə taxdığı silahı çıxarıb masanın üstünə qoydu. Günlərlə yuxusuz qaldığından gözlərinin altı kölgələnmişdi. Səsində bir yorğunluq vardı:

– Vəziyyət çox ağırdı, Çingiz, – dedi, – mən dəfələrlə Azərbaycan hökumətinə məktub yazdım, vəziyyəti izah etdim, narahatlığımı bildirdim. Həmin məktubda təklifim bu idi, surətini saxlamışam, qulaq as: "... indiki vaxtda Qarabağ məsələsinin həll edilməsinin mənim cavabdehliyimdə olduğunu nəzərə alaraq, xahiş edirəm, hərbi hissələrin Qarabağ general-qubernatoruna tabe edilməsi haqqında qərar verəsiniz. Ya da mənim istefamı qəbul edib, hərbi hissələri ona tabe etməklə digər bir şəxsi mənim yerimə təyin edəsiniz. Mən bu haqda bəyanat verərkən tamamilə vətənpərvərlik hisslərindən çıxış edirəm. Nə üçün? Ona görə ki, vilayətdə hərc-mərclik olmasın, vilayət özbaşına buraxılmasın. Hokumətin Qarabağdakı nümayəndəsinə heç bir mövcud siyasi vəziyyətlə, mövcud qanunlarla bəraət qazandırmayan qeyri-müəyyən və anlaşılmayan münasibət bəsləyən ermənilərin hakimiyyətinə çevrilməsin..."

Xosrov bəy bir anlıq nəfəsini dərdi, daim içində gəzdirdiyi ağrı, təlaş gözlərində əks olundu:

– Əsgərlər pis gündədi. Paltara, ayaqqabıya, hətta silah-sursata da böyük ehtiyac var. Mən bu barədə baş nazir Nəsib bəy Yusifbəyova belə bir məktub yazdım: “... ermənilərin hərəkətindən görünür ki, onlar hücum üçün hazırdılar. Ona görə xahiş edirəm, hərbi nazirə göstəriş verəsiniz ki, hərbi çağırışdan əvvəl əsgərlərin geyim hazırlığı olsun. Yerli batalyonda ayaqqabı və geyim çatışmamazlığından narazılıqlar olduğundan mən işə qarışmalı oldum... “Doğrudan da vəziyyət ürəkaçan deyil, Çingiz. Əsgərin ayağına baxırsan ayaqqabı köhnə, nimdaş. Bu soyuq, sazaqlı havada eləsi var ki, ayaqqabının üstündən bir parça da bağlayıb ki, açıqda qalan barmaqları üşüməsin. Əsgər paltarları nimdaş....Belə əsgərmi olar? Bunlar döyüşə necə gedərlər, erməni kimi zalım bir düşmənin qarşısına necə çıxarlar?

Kəşfiyyatın gətirdiyi məlumata görə general Dronun ordusu ilişib dağlarda qalıb. Yəqin ki, havalar isinən kimi onlar Əsgərana tərəf hərəkət edəcək. Burda yerli ermənilər, orda Dro... Elə bil ki, hər tərəfdən yırtıcılarla əhatə olunmuşuq. Azərbaycan hokuməti Qarabağa nizami ordu göndərə bilmir. Bizim əsas qüvvəmiz yenə də yerli müdafiəçilərdir.

Bu anda dəhlizdə Sultan bəyin səsi eşidildi. Xosrov bəyin qaşqabaqlı çöhrəsinə elə bil gün doğdu, dodağı qaçdı:

– Sultan gəldi. Bizə zaval yoxdu. Yaşasın bizim elin igid oğulları.

Sultan bəyin arxasınca Cağazurlu Ağamməd, Seyid Həmid, Şuşanın qəza rəisi Cəlil bəy Sultanov, Cavanşir qəzasının rəisi Bəhram bəy Məlikabbasov içəri girdilər.

Qubernatorluğun həyətində yenidən bir dəstə atlı göründü. Pəncərədən boylanan Çingiz bəy sevindi:

– Mənim də qardaşım gəldi.

Sultan bəy iftixarla dedi:

– Bir elin arxası igid Şəmil bəy.

Otağın əvvəlki ağır ab-havası dəyişdi. Xidmətçi çay gətirdi. Sultan bəy üzünü Xosrov bəyə tutdu:

– Ermənilər general Droya böyük ümid bəsləyir. Orduya yerli silahlı ermənilər də qoşulur. Bizim də silah-sursatımız az deyil. Necə ki, Andronikin on minlik ordusunu Zabıx dərəsində məğlub etdik, inşallah, general Dronu da eləcə əli ətəyindən uzun Əsgərandan geri qaytararıq.

Çingiz bəy dedi:

– Mənim bir fikrim var, müzakirələr başlamamışdan deyim. Bu savaş uzun sürəcək. Çünki ermənilər heç cürə Qarabağdan, Zəngəzurdan əl çəkməyəcək. Nuri paşa Cəmil Cahid bəyi ordusu ilə Şuşaya göndərdi, sakitlik yarandı. Türklər gedən kimi daşnaklar yenə baş qaldırdı. Ona görə də Bakıya getmək istəyirəm. Bakının neft mədənlərində yüzlərlə zəngəzurlu fəhlə çalışır. Onları geri qayıtmağa, Zəngəzuru, Qarabağı müdafiə erməyə səfərbər edəcəm. Qoy qayıtsınlar, doğma torpaqlarını müdafiə etsinlər.

Xosrov bəyin qaşlarının düyünü açıldı:

– Bu çox ağıllı fikirdi, Çingiz.

– Elə bu gecə yola düşəcəm.

– Silah-sursat da lazımdı.

– Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev bizə həmişə arxa olub, – Sultan bəy dedi, – yenə onların göndərdiyi silah-sursatı almışıq.

– İndi keçək əsas məsələyə, – Xosrov bəy xəritəni qarşısına çəkdi...

***

Qatar stansiyada xeyli dayandı. Perronu zəif işıqlandıran fanarların işığında aşağı yuxarı gedən, vaqonların pəncərələrinə boylanan adamların solğun və üzgün çöhrələri görünürdü. Elə bil bu adamlar dünyanın çəkilməz yükünü daşıdığından belləri vaxtsız əyilmişdi.

Çingiz bəy pəncərənin qabağında yerini rahlayıb oturdu. Yorğunluq özünü o anda biruzə verdi. Göz qapaqları ağırlaşıb örtüldü. Sanki kirpiklər iki dünya arasına çəpər çəkdi. Lakin yuxlaya bilmədi. Qalxıb oturdu. İkiadamlıq kupedə tək idi. Qatar zil qaranlığın içində irəli şütüyürdü. Orta yaşlı konduktor qapını çəkingən halda açdı, içəri boylandı və pıçıltılı səslə soruşdu:

– Çingiz bəy, çay gətirimmi?

– Pis olmaz.

Armudu stəkana süzülmüş tünd çayın acı təmi vardı. Gecənin bağrından qopmuş kimi gələn fit səsi, təkərlərin relslərdə taqqıltısı, vaqonların səssiz yırğalanması Çingiz bəyi sanki xəyalən geriyə-Zəngəzura qaytarırdı.

***

Zəngəzurda ermənilərlə qanlı savaş gedirdi. Bu savaşın alovları hər yeri-onun doğulub böyüdüyü, ilk təhsil aldığı Qubadlını da bürümüşdü. O vaxt Bakıda çox məsul vəzifədə işləyirdi, amma Qubadlıda yaratdığı “Qartal kəşfiyyat” qrupu ona hadisələr haqqında müfəssəl məlumatlar verirdi. Ermənilər bu bölgəni işğal etmək istəyirdilər. Amma müdafiəçilərin döyüşkən ruhu onları Qubadlıya yaxın buraxmırdı. Çingiz İldırım da öz köməyini göstərirdi, müdafiəçilərə silah-sursat göndərirdi.

... Otağın qapısı döyüldü, Çingiz bəy başını qaldırdı. Köməkçi məlumat verdi:

– Sizi iki nəfər görmək istəyir.

– Kimdi onlar?

– “Çalağan” ləqəbli Ağaşirin və Sevdimalı.

Çingiz İldırım ayağa qalxıb qapıya tərəf gəldi. Gözləmə otağında Ağaşirinlə Sevdimalını görəndə üzü güldü:

– Gəlin içəri

İkisi də yorğun və bikef görünürdü.

– Bu uzaq yolu gəlməkdə söz yox ki, mühüm məlumat var,

– Çingiz bəy stulu çəkib onlarla üz-üzə oturdu, – Sən çətinlik, əzab-əziyyət görmüş adamsan, Ağaşirin, elə Sevdimalı da. Kəşfiyyat ləqəbin “Qızıl quş” du eləmi?

Sevdimalı başını tərpətdi. Ağaşirinin dili açıldı. Sanki nəyi isə xatırlamaqla elə bil dünyanın dərd-qəmini, kədərini gözlərinə yığdı, köks ötürdü və bu kədərə oxşar təbəssümlə dedi:

– O vaxt Nargin adasında dustaq yatırdım. Heç nədən məni ora atmışdılar. Biz orda çox çətin günlər gördük, işgənçə çəkdik. Yadımdadı ki, bir dəfə kiflənmiş, quru çörək tapdıq. Sevdimalı ilə qızıl tapmış kimi sevindiyimizdən özümüzə yer tapmırdıq. Gecə nəzarətçilər çəkilib gedəndən sonra adyalın altında yeyəcəydik, qarnımız tox olacaqdı... Hər gün baraklarda aclıqdan, soyuq və işgəncədən onlarla dustaq ölürdü. Əvvəllər bizə qaranlıq qalırdı ki, bu ölənləri dənizin ortasında hara aparırlar, harda dəfn edirlər?

Ağaşirinin cavan, lakin qırışlarla örtülmüş sifətini sanki bir anda qara buludlar aldı, nazik dodaqları səyridi. Gözlərinin içi göz yaşı ilə silələndi. Amma o, kirpiklərini sıxmadı, sanki göz yaşını buz kimi gözünün içində saxladı və Sevdimalıya tərəf baxdı:

– Əliyalınlı Sevdimalı ilə elə o vaxtdan dostlaşdıq. İndi “Qartal” da ən yaxşı kəşfiyyatçıdı. Ermənilərin lap qulağının dibinə qədər gedib çıxır, vacib olan məlumatları gətirir.

Çingiz bəy əlini Sevdimalının çiyninə qoydu:

– Bilirəm, Ağaşirin. Əgər sizin kimilər olmasaydı, Qubadlı çoxdan ermənilərin əlində can verirdi. Davam elə.

– Ölənlər üçün xüsusi barak ayrılmışdı. Qapısında da gecə-gündüz nəzarətçi vardı. İndi düşünürəm ki, adaya, dustaqların üstünə ən zalım, qaniçən adamları seçib qoymuşdular. Orda türklər də vardı. Onlara da zülüm verirdilər. Qaçanları da olurdu. Hə, nə isə Sevdimalı ilə bir gecə yatmadıq. Barakın yanına gələrək orda gizləndik. Gecə yarıdan keçdi. İndiki kimi xatırlayıram. Ay düz başımızın üstündə dayandı. Hər yer süd işığın

içindəydi. Nəzarətçilər səs çıxarmadan ətrafa baxa-baxa ehtiyatla yeriyir, iri daşları baraka daşıyırdılar. Qapı açıq qaldı. Nəzarətçilər dustaqların nəşini ortaya çəkdilər, daşı ayaqlarına möhkəm bağlayıb tullantı bir əşya kimi sürüyərək dənizə atdılar. O gecə biz çox qorxduq. Bu sahibsiz yerdə ölməkdən qorxduq.

Ağaşirin içini çəkib kövrəldi. Bu dəfə göz yaşını daha gözlərinin içində saxlaya bilmədi:

– Siz o vaxtı Nargin adasına gəlməsəydiniz... çox güman ki, bizim də taleyimiz dənizə atılan o sahibsiz ölülərin taleyi kimi olacaqdı. O vaxt sizin köməyinizlə çox dustaq bu cəhənnəmdən xilas oldu, Çingiz bəy.

– Mən sizdən sonra oraya inanılmış adamlarımı göndərdim və tədbir gördük.

– O gecə də yadımdadı. Qurtuluş gecəsi. Hava çox sərt idi. Sevdimalı ilə əynimiz nazik olduğundan tirtir titrəyirdik. Üşüməyimiz həm də aclıqdan idi. Sənin adamların bizi səssizcə barakdan çıxarıb gəmiyə apardılar. Gəmidə də xeyli dustaq vardı. Bizi isti kayutalarda yerləşdirdilər. Bizim üçün, – zülüm və işgəncələr çəkmiş adamlar üçün həmin isti kayutalar bir şah sarayı misalındaydı. İsinmək üçün bizə əvvəl çay gətirdilər. Biz xeyli vaxt idi ki, çayın ətrini, çörəyin dadını unutmuşduq. Çörəyin dadını, ətrini hiss etmək, xoşbəxtliyin bu anlarda nə demək olduğunu anlamaq üçün çörəyi yavan yeyirdik. Gözlərimiz ac idi. Bu ac gözləri heç cürə doyura bilmirdik. Bir də baxdım Sevdimalı çörəyin yarısını kəsib qoynunda gizlətmək istəyir. Çörəyi əlindən alanda o, dedi: bu çörəyin iyi burnumda qalsın deyə gizlədirəm.

Ağaşirinin gözləri doldu, iki damla yaş çənəsinə qədər süzdü:

– Çingiz bəy, sən çox vətənpərvər, igid adamsan. Sevdimalı ilə bir başa Bakıya sizin yanınıza gəldik ki, Qubadlıda baş verənləri təfsilatı ilə sizə çatdıraq. Sizdən kömək alaq. Erməni lə-

rin qarşısı alınmasa Qubadlıda bir müsəlman da qalmayacaq. Kəndlər dağılıb, evlər yandırılacaq.

Sevdimalının gözləri böyüdü, vəziyyətin təhlükəli olduğunu sanki iriləşmiş təşviş, qorxu dolu gözləri ilə ifadə etdi:

– Ermənilər Qubadlıdan Qarabağa üçüncü dəhliz açmaq niyyətindədir. Ona görə də dəhşətli çəyirtkə sürüsü kimi Qubadlıya axışırlar.

Çingiz İldırım narahatlıqla ayağa qalxdı. Pəncərəyə yaxınlaşıb açdı, təmiz havanı sinəsinə çəkdi. Amma elə bil nəfəs ala bilmirdi, boğulurdu. Üçüncü dəhliz... Bu nə deməkidi?

Ağaşirin yerində otura bilmədi. Sanki bu anda içində daş kimi ağır bir duyğu neştər kimi kürəyinin ortasından sancıb gicgahlarına qədər yeridi. Səsi titrədi, özünü təmkinli, gümrah göstərməyə çalışsa da bacarmadı. Handan-hana titrək səslə dedi:

– Daşnaklar gecə ikən gizlicə Yal yurddan, Dərə yurddan, Ziyarət dağından adlayıb Qubadlının içərilərinə doğru irəlilədilər. Üstümüzə gələn ermənilərə Arnagədik, Tağ, Tuğ, Tezxarab kəndlərinin erməniləri də qoşuldu. Torpağımızın hər qarışına, hər çığırına, dağına-daşına bələd olan yerli ermənilər gəlmə quldur dəstələrinə yol göstərdilər, bələdçilik elədilər. Hazırda Qubadlının hər yeri od-alov içindədir.

Bizimkilər daşnak hücumlarının qarşısını saxlamağa çalışır, – Sevdimalı gözləri böyümüş, sifətinin cizgiləri gərginləşmiş halda dedi, – Məzməzək kəndinin müdafiəçiləri bu döyüşlərdə böyük qəhrəmanlıq göstərdilər, Çingiz bəy. Məzməzəklilər Cicimli, Qaz dərəsi, Bayramuşağı, Malxələf, Türklər kəndinin müdafiəçiləri ilə birləşdilər, ermənilərin anasını ağlatdılar. Erməni kəndlərinin hamısını mühasirəyə aldılar. Daşnaklar xeyli tələfat verib geri çəkildilər.

Qəfildən Ağaşirinin üzü güldü:

– Pələng Rəsul haqqında eşitməmiş olmazsan.

– Eşitmişəm, – Çingiz bəy stulunu irəli çəkib maraqla uşaq

kimi sevinən Ağaşirinə baxdı, – o mahalda Pələng Rəsulu tanımayan varmı? Çox igid oğlandı. Pələng kimi çevik, zirək, bir gülləsi də yayınmayan bu cavana Allah qeyri-adi bacarıq, istedad verib. Mən onu öz yanıma gətirmək istəyirəm. Oxuyar, təhsil alar, hərbidə çalışar. Bizə belə cavanlar lazımdı.

– Çox yaxşı olar, Çingiz bəy. Bir kəndi Pələng Rəsul təkbaşına müdafiə elədi.

– Təkbaşına? – Çingiz İldırım heyrətlə soruşdu.

– Hə, təkbaşına. Gör necə müdafiə elədi? Ermənilərə od qoydu. Döyüş başlayanda baxırlar ki, Pəsul özüynən silahla bərabər bir kisə də papaq götürüb. Hamı qalır mat. Deyirlər ki, ay Rəsul, görmüşük döyüşə gedən özüynən silah-sursat aparar. Bu papaq nədi kənddən yığmısan? Yoxsa daşnaklara papaq atmaq fikrindəsən? Qayıdasan ki, bu papaqlar da mənim silahdaşlarımdı. Siz gedin o biri kəndlərin müdafiəsinə. Mən isə bu papaqlarla bu kəndi qoruyacam.

– Maraqlıdı, – Çingiz İldırım gülümsünüb başını buladı, – görəsən necə qoruyub?

– Bir kisə papağı düzür qayaların, iri daşların, kolların üstünə. Elə ki, ermənilər hücum edir, o zaman Rəsul burdan ora -ordan bura pələng kimi atılır, güllələrin atılmağı arasında məsafə az olduğundan ermənilər elə başa düşür ki, onlarla az qala bir nizami ordu döyüşür. Qırılan qırılır, sağ qalanlar silahını qoyub qaçır. Pələng Rəsulun atdığı patronların gilizindən yalan olmasın az qala bir təpə yaranır. Qubadlının belə oğulları var.

Çingiz İldırım fikrə getdi:

– Demək, ermənilər Qubadlıdan Qarabağa dəhliz açmaq istəyirlər.

– Biz də bunu sənə xəbər verməyə gəldik.

– Elə indi vaxt itirmədən Qubadlıya yola düşək.

Düyməni basdı və şofer Çopur Əlinin gəlməsini tapşırdı:

– Nahardan sonra yola düşək.

Bu anda telefon zəng çaldı, Çingiz bəy dəstəyi götürdü və dərin bir təşviş, narahatlıq içində dinlədi, sərt halda göstəriş verdi:

– "Dalğa" kəşfiyyat qrupuna xəbər verin, Şaumyanı izləsinlər.

Başını masanın üstünə qoydu, əlləri ilə gicgahını sıxdı. Otağın gərgin ab-havasına sanki aldığı bəd xəbərlə daha bir gərginlik və sıxıntı çökdü. Ağaşirinlə Sevdimalı baxışdılar. Çingiz İldırımın gözlərində göz yaşına bələnmiş bir acılıq, dərin bər kədər və hüzn vardı. Başını qaldırmadan dedi:

– Ermənilər Şamaxıda görünməmiş soyqırım aparıblar. Uşaqlı-böyüklü kimsəyə rəhm eləmədən səkkiz yüz adamı məscidə yığaraq yandırmışlar. Bu soyqırıma cəllad Şaumyanın özü başçılıq edib. Alçaq Şamaxıya yaxın olan Məzərə kəndində üç gün qalıb və soyqırıma rəhbərlik edib. Mən belə başa düşürəm ki, onlar bununla kifayətlənməyəcək. Mütləq Bakıda yenə də xəyanət planı hazırlanır.

Çingiz İldırım yenidən dəstəyi götürdü və telefonun o ucunda cavab verən şəxsə tapşırıq verdi:

– "Dalğa" qrupunun kəşfiyyatçıları təcili olaraq Bayıl, Lökbatan, Biləcəri, Balaxanı, Razin, Zığ yollarında Şaumyanı və dəstəsini izləmək üçün pusqu qoysunlar. Bu dəstənin üzvlərindən biri ələ keçirilsin və Şaumyanın hazırladığı plan haqqında məlumat əldə edə bilək.

... Şaumyan silahlı dəstə ilə Bakıya qayıdırdı. Onun üzü gülürdü.

– Bakını da beləcə diz çökdürəcəyik. Bakı qan dənizində boğulacaq.

– Gəncəyə nə vaxt yürüş başlayır, – silahlılardan biri dişlərini ağardaraq soruşdu.

– Tez bir zamanda. Vladimir İliç bizə yeni qüvvə göndərəcək. Bakının alınmasında Lenin də çox maraqlıdır.

– Bakı neftini onunlamı bölüşəcəyik? – silahlı erməni səbirsiz soruşdu.

– Bakı nefti Ermənistana hava-su kimi lazımdı, – Şaumyan qaşqabağını töküb susdu.

Maşın Çəmbərəkənddə dayandı. Silahlı adam maşından düşdü, sağollaşdı, həyətə girmək istəyəndə kəşfiyyatçılar onun qarşısını kəsdilər. Erməni qışqırmağa macal tapmadı.

... Çingiz bəy, Şaumyanın adamlarından birini əsir aldıq.

– Hardadı?

– Zibilli dərədə gizlətmişik.

– Gətirin.

Əsir orta yaşlı bir adam idi. Saqqal basmış sifətində nifrətlə parıldayan gözləri ağarırdı. Hiddətlə Çingiz İldırımı süzdü və təmiz Azərbaycan dilində soruşdu:

– Mənim günahım nədi?

Çingiz bəy stulunu çəkib onunla üz-üzə oturdu:

– Günahın günahsızlığın. Şamaxı müsəlmanları gərək sizi zəhmətə salmazdı. Özləri məscidə doluşub özlərinə od vuraydılar.

– Onları daşnaklar yandırdı.

– Yəni əmri Şaumyan verdi?

– Bilmirəm.

– Sonrakı planlarınız necədi? Gözləyirəm. Danış və canını qurtar.

– Plan-zad yoxdu. Mən satqın deyiləm.

– Sən Şaumyanın sağ əlisən. Demək istəmirsən, olsun. Bizimkilər səni danışdırmağı bacarar.

Çingiz İldırım qapıda dayanmış Çopur Əliyə işaqə etdi. Az keçmədi ki, iki nəfər gəlib kişini qoltuqlayıb apardılar.

... Adın nədi?

– Gevork, – üz-gözü şişib qaralmış Gevork əlinin arxası ilə şişmiş dodaqlarını sildi və astadan, zorla dedi:

– Məni öldürməyin. Sizə gizlin saxlanılan çox mühüm bir məlumat verəcəyəm.

– Eşidirəm, Gevork. Bu sənin verəcəyin məlumatdan asılıdır. Buyur.

– Ermənilər Qubadlıdan Qarabağa üçüncü dəhliz açmaq istəyirlər.

– Bilirik. Daha nə deyə bilərsən?

Gevork bir anlıq susdu. Həyəcan və qorxu dolu gözləri Çingiz bəyin üzündə qaldı, udqundu və çətinliklə sözləri tələffüz etdi: – Bu Şaumyanın planıdır. O, gizlicə İrandakı daşnaklarla əlaqə yaradıb və silah-sursat yardımı istəyib. Bu silah Martunidə Dəli Qazarın, Hadrutda isə cəlladlığı ilə ad çıxarmış Tevonun dəstəsinə veriləcək. Silahlar gecə ikən Xudafərin körpüsündən arabalarla daşınıb Xozabirdə gətiriləcək. Silahlanmış bu dəstələr Xozabirddən, Mizmindən, Qalalıdan, Güləbirddən, Xınzirək və Görusdan keçəcək. Kəndləri yandırıb, müsəlmanları qətlə yetirəcəklər. Qubadlıda isə bu silahlı dəstələrinköməyi ilə Qarabağa üçüncü dəhliz açılacaqdır.

... Daşnaklar niyyətlərinə çata bilmədilər. Çingiz İldırımın ayıqlığı və igidliyi sayəsində ermənilərdən alınmış silah Zəngəzur müdafiəçilərinə təslim edildi.

... Qatar gedir, Çingiz İldırım düşünürdü: qarşıda qanlı savaş olacaq. Zəngəzurlular qanları, canları bahasına Zəngəzuru qoruyacaqlar.

Bir həftədən sonra Çingiz İldırım yenidən Şuşaya döndü. Bu dəfə arxası-köməyi ilə. Zəngəzuru qorumaq, onu müdafiə etmək üçün yüzlərlə fəhlə Bakıdan Zəngəzura qayıdırdı...

**7.**

Zil qaranlıqda Şuşanın dar küçələrindən, bir-birinə bitişik olan çəpərli həyətlərin yanından iki atlı ötdü. Onlar ətrafa diqqətlə baxır, gələn hər səsə, hənirtiyə diqqət kəsilirdilər. Bu anda qarşıda üç nəfər göründü. Çingiz İldırım əlini kəmərinə sancdığı tapançaya atdı. Xosrov bəy pıçıltılı səslə dedi:

– Bunlar yəqin ki, bizim milislərdir.

Milislər qarşılarında general-qubernatorla müavini görəndə çaşıb qaldılar, farağat dayanıb məlumat verdilər:

– Aşağılarda sakitlikdir. Amma yuxarıda, bir həyətdə şübhəli adamlar gördük. Xeyli gözlədik. Şöbəyə xəbər verməyə gedirdik.

– Kimin evidi?

– Ayrapetin.

– Siz işinizin başında olun, biz ora baş çəkərik.

Ayrapetin həyətini asanlıqla tapdılar. Həyətin bir tərəfinə xeyli at bağlanmışdı. İkimərtəbəli evin pəncərələrindən zəif işıq gəlirdi.

Çingiz bəy atdan aşırılıb düşdü və Xosrov bəyə dedi:

– Mən həyətə keçim. Sən burda qal. Ayrapet deyəsən ermənilərin müşavirəsini keçirir.

– Dayan, həyətdə silahlı adamlar gəzişir.

– Nigaran qalma, Xosrov, mən belə şeylərə çox düşüb çıxmışam.

– Atları ağacların arxasına çəkək.

– Oldu. Gözlə gəlirəm.

– Ehtiyatlı ol.

Çingiz bəy ətrafa göz gəzdirib yerə sinə-sinə taxta qapının yanına gəldi. Əlində silah qapını itələdi. Bağlıydı. Həyətin o başına bağlanmış it hənirti duyub hürməyə başladı. Bu anda birinci mərtəbədə evin qapısı açıldı, işıqda görünən yekəpər erməni həyətə boylandı, astadan səsləndi:

– Sarkis, gələnmi var?

Silahlı adam başını buladı və arxayınlıqla dedi:

– Yox, akpercan, işinizdə olun, sakitlikdir.

İkinci silahlı erməni də yaxınlaşdı, üzünü yuxarı tutub hırıldadı:

– Havayı hürmək itin peşəsidi, biz həyəti göz bəbəyi kimi qoruyuruq.

Çingiz bəy nəfəsini içinə çəkib çəpərin qırağına sığındı, gözətçilər arxalarını çevirib yuxarıya tərəf addımladılar. Çingiz bəy ayağını ehtiyatla əyilmiş çəpərin üstə qoyub həyətə adladı.

İt yenidən hürməyə başladı. Özünü didib tökür, zənciri qıraraq divarın dibinə qısılmış adamın üstünə cummaq, onu didib parçalamaq istəyirdi. Həyətin yuxarısında gəzişən gözətçilərdən biri söyə-söyə hirslə qaçıb itin yanına gəldi, ətrafı yoxladı, şübhəli heç nə görmədi. İkincisi də qaçıb gəldi. Birinci silahlı itə nifrətlə baxıb hirslə dedi:

– Ayrapet bu köpəyi hardan tapıb? Az qala ulduza da hürür. Bunu rədd eləsin.

İkinci silahlı başını bulayıb kinayə ilə dedi:

– Ayrapet bu köpəyi canından çox istəyir.

– Doğrudan?

– Amma gördüm ki, köpək ağılsızdır.

Gözətçilər papiros yandırıb tüstülədə-tüstülədə həyətin yuxarı başına getdilər.

İt hələ də hürməkdə-özünü öldürməkdə idi.

...Çingiz bəy gizləndiyi daxmadan zorla başını bayıra çıxardı Darısqal yerdə nəfəsi daraldı, indi havaya çıxanda gözlərini yumub havanı sıxılmış ciyərlərinə çəkdi. Bura bəlkə də toyuq hiniydi, içəridən kif qoxusu gəlirdi.

Birinci mərtəbənin pəncərələri arxa tərəfə də baxırdı. Sürünə-sürünə pəncərənin yanına gəldi və başını qaldırıb içəri baxdı. İçəridə şəhərin ən tanınmış ermənilərі toplanmışdı. Papiros tüstüsü sanki içərini mavi dumana bükmüşdü. Ağızlar açılıb yumulur, gözlər parıldayır, ortalıqdakı süfrədə şərab şüşələri boşalırdı. Çingiz bəy qəzəblə yumruğunu sıxdı: "Bu ermənilərlə bacarmaq çətindi. Mütləq plan hazırlayırlar. Amma hara hücum, necə hücum? Nə vaxt?" Yox, danışıqları eşidə bilmirəm. Gözətçilərdən birini əsir götürüm..."

Çingiz bəy başını qaldırıb ehtiyatla ətrafa baxdı, sonra yenə özünü bayaqkı tikilinin yanına verdi. Az keçmədi ki, silahlı ermənilərdən biri ətrafa baxa-baxa tikilinin yanında dayandı. Arxasını Çingiz bəyə çevirib papiros alışdırdı. Çingiz bəy nəfəsini içinə çəkdi Ona elə gəldi ki, ürəyinin döyüntüsü bu səssiz gecə-

də açıq-aydın eşidilir. İkinci erməni evin arxasına keçdi. Bu anda Çingiz bəy ayağa qalxdı. Cəld gözətçini qamarladı, başını sinəsinə sıxıb əlini ağzına tutdu. Gözətçi çapaladı, ayağı ilə torpağı eşərək Çingiz bəyin qollarının arasından çıxmağa çalışdı. Çingiz bəy ermənini susdurdu, silahını götürüb o biri ermənininin arxasınca getdi.

Xosrov bəy səbri tükənmiş halda həyətin içinə baxırdı. Bu anda sanki qaranlığın içindən Çingiz bəy çıxdı, arxasınca sürüyə -sürüyə gözətçini gətirirdi. Xosrov bəy sevindi:

– Sağ-salamat gəldin. Dedim yenə bir dəlilik elədin. Cumdun ermənilərin üstünə.

– Yox, gözətçini gətirdim.

... Yenidən general-qubernatorluğa qayıtdılar. Qubernatorluqda səssizlik idi. Yalnız bayırda silahlı gözətçilər gəzişirdi. Əsiri qarşılarında əyləşdirdilər. Bu üzünü saqqal basmış, xırda gözləri bir yerdə qərar tutmayan cavan bir adam idi. Xosrov bəy dedi:

– Suallarıma düzgün cavab versən, səni salamat buraxarıq.

Cavan erməni başını yuxarı qaldırmadan yazıq-yazıq çiyinlərini qısdı:

– Mənə rəhm edəcəyinizi hardan bilim?

– Biz erməni deyilik. Adın nədi?

– Matevos.

– Şuşalısan?

– Yox, gəlməyəm.

– Çoxdan burdasan?

– Hadisələr qarışandan.

– Ermənilərə köməyə gəlmisən?

– Elə sayılır. Əsgəranda məğlub olduq. Bizi buraya gətirdilər.

– Komandiriniz kimdi?

– Komandir çoxdu. Adları yadımda deyil. Amma hələlik biz Ayrapetin evini qoruyuruq. Onun əmrlərini yerinə yetiririk. İndi buraxın gedim.

Çingiz bəy yumşaq səslə soruşdu:

– Ayrapet toplantı keçirir. Məqsədləri nədi?

– Desəm...

– Danışdıq.

– Ermənilər bilsə ki, bu hərbi sirri ovcunuza qoymuşam, məni sağ buraxmazlar.

– Bəs burdan necə, sağ çıxacağınımı düşünürsən? Yaxşı... biz səni cəzalandırmarıq... Ermənilər Ayrapetin evinə tez-tezmi yığışır?

– Mühüm məsələ olanda.

– Bu gecənin mühüm məsələsi nəydi?

Qorxaq baxışları indi də Xosrov bəyin gözlərinə dikildi:

– Zəngəzura güclü hücum gözlənilir. Əvvəl Hamazasp, dekabrın əvvəllərində isə Nijde nizami ordu ilə Zəngəzura hərəkət edəcəkdir. Silahlanmış ermənilər onları gözləyir. Nijde Zəngəzura daxil olan kimi Şuşadakı silahlı dəstələr Şuşanı və Qarabağı işğal edəcək, Nijdenin ordusu ilə birləşəcəklər.

– Hücum nə vaxt başlayacaq?

– Noyabr, dekabr aylarında.

Susdu və gözləri Xosrov bəylə Çingiz bəyə dikildi.

Xosrov bəy düşüncəli halda əsirin aparılmasına işarə etdi, Matevos qapıdan çıxanda ayaqlarını sürüdü:

– Mən sizə qiymətli məlumatlar verdim.

Çingiz bəy nifrətlə onu süzdü:

– Bu məlumatları bizə kəşfiyyat da verib.

Xosrov bəy pəncərənin bir tağını açdı. Şuşa dərin yuxu içindəydi. Amma bu yuxudan qan qoxusu gəlirdi. Ermənilər gizli-gizli xaincəsinə Şuşanın ürəyinin içinə qumbara düzürdülər. Kimsə bundan xəbərdar deyildi. Xosrov bəy içində daş kimi ağırlaşan duyğulardan xilas olmaq istəyirdi. O sıxıntı, narahatlıq gətirirdi və Xosrov bəyin iti ağlını, zəkasını dumanlan-

dıraraq sanki qaranlığın içindən işıq yolu axtarmağa qoymurdu. Üzünü gərgin və qəzəbli olan Çingiz bəyə tutdu:

– Azərbaycan hokumətinin Şuşada olan az saylı hərbi qüvvələri ilə Sultan bəyin müdafiə dəstələri birləşib Əsgəranı azad etdi. Bu böyük qələbəydi. Əgər Azərbaycan hökuməti vaxtında bizə hərbi qüvvə göndərsəydi biz ruhdan düşmüş bu erməni quldur dəstələrini Qarabağdan və Zəngəzurdan çıxara bilərdik. Amma hokumət bizə yardım edə bilmədi. Ermənilər yenidən gücləndi, – Xosrov bəy boğulurmuş kimi köynəyinin üst düyməsini açdı, dərindən nəfəs aldı, – Azərbaycan hokuməti əlimizə düşmüş bu fürsəti dəyərləndirə bilmədi. Döyüş gedən yerlərdə ermənilər çox itki verdi. İşğal etdikləri kəndlər geri alındı. Düşmənin bütün ümidləri puç oldu... Amma hadisələr onların xeyrinə dəyişdi. Yardım almayınca biz onlara silahlanmaq, güclənmək imkanı verdik. Biz yaranmış tarixi şansı əldən verdik...

Çingiz İldırım təəssüflə dedi:

– İndi isə təhlükəli vəziyyət yaranıb.

Xosrov bəy masanın üstə qalaqlanmış kağızların arasından nəyi isə axtarmağa başladı, tapdı və vərəq əlində Çingiz bəyə üzünü tutdu. Onun sifəti acıqlı idi, narazı halda dedi:

– O vaxt mən hokumətin nazirlər şurasına yazdığım bu məktubu göndərdim. Məktubda yazmışdım: “... Bu mahalda bütün məsuliyyəti mən daşıdığım halda hərbi hissələrin mənə tabe olmaması, lazımi zamanda silahlı qüvvələrin gücündən istifadə etmək hüququndan istifadənin, həm də hokumətə teleqraf, rabitə əlaqəsi, xüsusən zəruri hallarda hərbi nazirlə əlaqə qurmağımın qeyri-mümkünlüyü bölgəni böhranlı vəziyyətə salıb. Faktiki olaraq ikihakimiyyətlilik hökm sürür. İngilis missiyası öhdəsinə götürdüyü missiyanı yerinə yetirmir. Ermənilərlə, ingilislərlə apardığımız danışıqlar heç bir nəticə vermir. Ermənilərin hərəkətlərindən görünür ki, onlar güclü hazırlıq aparırlar.

Qanuna görə general-qubernatorun hakimiyyəti Baş komandanın hakimiyyətinə bərabər tutulur. Buna görə də hərbi hissələr onun tabeliyinə keçməlidir”. Hələ heç bir cavab almamışam. Göndərdiyim məktublar cavabsız qalır... ermənilər də burda tüğyan edir. Xosrov bəy yerindən qalxdı:

– Sabah görüləsi işimiz çoxdur. Heç olmasa iki-üç saatlığına da olsa gözümüzün çimirini alaq.

Həyətə çıxanda Şuşanın sazaqlı dağ havası sanki gözlərindəki yorğunluğun acısını çıxardı, gümrahlıq gətirdi...

**8.**

Hərbi nazir Səməd bəy Mehmandarovun aldığı son teleqramlar onun narahatlığını daha da artırdı. Zəngəzur sanki alışıbyanan Zəngəzurun özü boyda nəhəng ocaq idi. Bu ocağın alovu Qarabağa tərəf sürünəcək, onu da yandırıb külə çevirəcəkdi. General yenidən masanın arxasına keçdi. Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun son teleqramını gözdən keçirdi. Bu teleqramdan məlum olurdu ki, ermənilər Dığ kəndinə toplaşır. Çoxlu silah -sursat, canlı qüvvə daşınır. Kəşfiyyatın məlumatına görə ermənilər Zəngəzur və Qarabağla qanlı savaşa hazırlaşırlar.

General Azərbaycan Respublikası parlamentinin üzvü Cəlil Sultanovun teleqramını təkrar oxudu: “Zəngəzur qəzasında dörd gündür ki, erməni quldur dəstələrinin nizami ordu ilə birlikdə top və pulemyotların atəşi altında hücumları davam edir.

Cəbhə xətti Qubadlıdan Xocahana qədər 50 verst məsafədə uzanır. İtkilər olduqca çoxdur. Əhali vahimə içində qaçır və kömək umur.

Artıq dərəcədə xahiş edirəm, çox sayda ordu və patron göndərmək haqqında təcili tədbirlər görün. Qəzanın bədbəxt əhalisi adından yalvarıram kağız üzərindəki etirazlardan fəal hərəkətə keçin. Azərbaycanın ən gözəl guşələrindən birini tamamilə məhv olmaqdan xilas edin.

Zəngəzurun ardınca növbə Qarabağındır. Bütün bunların itirilməsi üçün siz türk xalqı və Azərbaycan qarşısında cavab verəcəksiniz". General bu sözlərdə bir canyanğısı ilə birgə həm də gizli bir hədə də duydu. Köməksiz, çarəsiz, ölümlə üz-üzə dayanmış, erməni işgəncəsi ilə əzizlərini, doğmalarını itirmiş, ürəyi parçalanmış adamlar yaşlı gözlərini Bakının yollarına dikərək ondan yardım gözləyirdi. Sanki onlar əllərini hərbi nazirin üstünə silkələyərək "Mənim arxamda dayan. Bizi və torpağımızı qoru" deyə hayqırırdılar.

Qarabağın general-qubernatoru Xosrov bəy də sanki elin harayını, torpağın fəryadını, yanan, xarabalıqları qalan kəndlərin qan donduran yanğısını bu teleqramlarda Azərbaycan hokumətinə, parlamentə və general Mehmandarova göndərirdi. Xosrov bəy inadla onları ermənilərlə savaşa çağırırdı.

Yavər içəri girdi və generalların gəldiyini xəbər verdi. Gələnlər Cavad bəy Şıxlinski və Davud bəy Yadigarov idi.

Yaşadığı narahatlıqdanmı, əsəbdənmi general Mehmandarovun əlləri əsirdi. Onun çöhrəsində hərbi adamlara məxsus ciddiliklə yanaşı həm də sanki bir məyusluq, həyəcan vardı. Nazir təmkinini saxlamağa çalışdı:

– Biz Zəngəzurda baş verən hadisələri müzakirə etmişik. Vaxt itirmədən bu bölgəyə hərbi qüvvə yeritməliyik. Bu hərbi qüvvənin də başında siz dayanacaqsız. Bunu bilirsiz. İkiniz də hərbi sahədə çox yüksək təcrübə qazanmış, hərbi biliyiniz və səriştənizlə həmişə fərqlənmisiz.

Mehmandarovun yerində oturmağa hövsələsi çatmadı. Sanki bu anlarda qulağına top atəşləri, güllə səsləri, körpələrin çığırtısı, fəryad səsləri gəldi. Əllərini arxasında çarpazlayaraq gəzindi və səsindəki titrəyişi gizlətməyə çalışdı:

– Hərbi sahədə çətinliklərimiz çoxdur. Amma bu bizə əsas vermir ki, biz düşmənin qarşısından çəkilək. Xosrov bəy baş nazir Yusifbəyova da bir teleqram göndərmişdir. Həmin teleqram indi mənim masamın üstündədir, – general masaya yaxın-

laşdı, teleqramı götürdü və oxumağa başladı: "... Ermənilərin hərəkətindən görünür ki, onlar hücuma hazırlaşırlar. Ona görə də xahiş edirəm, hərbi nazirə göstəriş verəsiniz ki, hərbi çağırışdan əvvəl əsgərlərin geyim hazırlığı olsun, yerli batalyonlarda ayaqqabı və geyim çatışmamazlığından narazılıqlar olduğundan mən işə qarışmalı oldum". Xosrov bəy haqlıdır. Xosrov bəy çox ağıllı və zəkalı, vətənpərvər adamdı. Eləcə də qardaşı Sultan bəy. Sultan bəy bütün sərvətini Zəngəzurun müdafiəsi işinə sərf etmişdir. Özünümüdafiə dəstələri yaratmış bu el qəhrəmanı böyük şücaət göstərərək ermənilərə ağır zərbələr vurmuşdur.

– Andronik kimi bir cəllada kələk gəlmiş, on minlik ordusunu məhv etmişdir, təkcə buna görə Sultan bəyin adı tarixə düşəcək, – Cavad bəy Şıxlinski iftixarla bildirdi, -Bu günə qədər Zəngəzur və Qarabağ ermənilərin işğalına düşməyib. Biz bunun üçün qardaşlara minnətdar olmalıyıq. Onların hər ikisi bu torpaq üçün əfsanəvi qəhrəmanlıq göstərmişlər.

– Elədi Cavad bəy, Zəngəzurun bu cür mərd, qeyrətli oğulları var, – generalın qaşqabağı açıldı, üzündə mülayim təbəssüm göründü, – Xosrov bəy bizə göndərdiyi məktublarda təcrübəli bir hərbiçi kimi təkliflərini vermişdi. Axırıncı məktubunda yazmışdı: "Təxirə salmadan hərbi hissələri Zəngəzura yeritmək, ermənilərin İrəvandan Zəngəzura, Azərbaycanın digər bölgələrinə hərəkətinin qarşını almaq.

Dağlıq Qarabağa Azərbaycanın hakimiyyətini tanımaq barədə ultimatum vermək və 6 gün vaxt qoymaq.

Bütün ermənilərə Azərbaycanın rayonlarından getməyi təklif etmək, ultmatum dövründə onlarla hər cür danışıqları kəsmək, ultmatum bitdiyində dərhal hərbi əməliyyatlara başlamaq və bütün məsuliyyəti erməni başçılarının üzərinə qoymaq ".

General Şıxlinski təəssüflə başını buladı:

– Lakin biz bunları həyata keçirə bilmədik, çox yubandıq. Ermənilər hərbi yardım aldı, silahlandı, quldur dəstələrinin sayı

artdı və artır da. Xosrov bəyin düşüncələri, fəaliyyəti Zəngəzurla və Qarabağla bağlıdır. Onun atası, bəlkə də babalarının babası bu torpaqların düşməndən müdafiəsində can qoyub. Mənə elə gəlir ki, Sultanovların bütöv nəsli Zəngəzurun müdafiəsində iştirak edib. İndi də bu iki qardaş savaşın içindədir. Onlara hərbi yardım göndərilməlidi.

– Biz "Dığ əməliyyatı" adli bir əməliyyat planı hazırlamışıq. Sizin iştirakınızla, – Mehmandarov xəritəni qarşısına çəkdi və diqqətlə generallara baxdı: – Bu əməliyyatı həyata keçirmək üçün ordu iki dəstəyə bölünəcək. Birinci dəstəyə general Yadigarov rəhbərlik edəcək. İkinci dəstənin komandiri isə polkovnik Levestam olacaqdır. Hər iki dəstəyə isə sən məsuliyyət daşıyacaqsan, Şıxlinski.

– Təzəcə aldığım məlumata görə Sultan bəy Qaraqışlaq kəndindədi. Onun qərargahı burdadı. Müsəlman kəndlərindən əli silah tutan kişilər onun dəstəsinə qoşulur. Sultan bəy ermənilərin Dığ kəndinə gedən yolunu bağlayıb, – Şıxlinski bildirdi.

– Bundan mənim də xəbərim var, – döyüşdə partizan dəstələrinin orduya böyük köməyi dəyir, – general Mehmandarov fikirli halda dedi.

General Şıxlinski:

– Şuşada olan Azərbaycan diviziyasını və yerli müdafiə dəstələrini də nəzərdə tutun, general.

Səməd bəy ruhlandı. Sanki bu anlarda müjdə xəbərini almış kimi üzündə daim xəsisliklə görünən təbəssüm gözlərinə xoş bir parıltı gətirdi:

– Cavad bəy, 1-ci Cavanşir piyada alayı, 2-ci Zaqatala alayı, 2-ci Qarabağ süvari alayı, bir artilleriya diviziyası və Şəki süvari alayı sizin ixtiyarınıza veriləcəkdir.

– Oldu, general.

– İkiniz də bir yerdə döyüş planlarını hazırlayın, komandirlərlə bərabər yanımda olun. Vaxt azdır.

İkisi də ayağa qalxdı:

– Oldu,general.

Hərbi nazirliyin binasından çıxanda xəzri başlamışdı. Soyuq külək küçələrin toz-torpağını havada burulğan kimi oynadır, sonra da var qüvvəsi ilə yol kənarındakı ağaclara, binalara, adamların üz-gözünə çırpırdı.

Cavad bəy hərbi paltarının yaxasını qaldırdı, külək aparmasın deyə papağını başına basdı. Davud bəy də onun arxasınca özünü maşına yetirdi.

***

Əsgər düşərgəsindəki səs-küy birdən səngidi. Havanın iliklərə işləyən sazağında üşümüş əsgərlər çadırlara doluşdular. Ətrafda, göz işlədikcə uzanan, üzünü duman örtmüş uzaq dağlara qədər -ağ rəngdən başqa heç nə görünmürdü. Soyuq, sazaqlı havadan qar qoxusu gəlirdi. Az keçmədi ki, hava sərtləşdi və tək-tək qar atmağa başladı. Sanki dərəli-təpəli, sonu-nəhayəti bilinməyən bəyaz çöllərə ağ çiçəklər yağırdı. Bu ağ çiçəkli bəyaz gecədə gözəgörünməyən tilsimli əllər elə bil sirli nağılların qapısını göy üzünə açırdı: biri varmış, biri yoxmuş, məzlum, köməksiz insanlara iti, qanlı dişlərini göstərən caqqallar varmış. Bu çaqqallar insan cildinə girib əlində qılınc, balta kimsəyə rəhm etmədən onları qəddarlıqla öldürürmüş...

Bir elin igidləri bu insan cildli yırtıcılarla döyüşə hazırlaşır. Nurani bir qoca əlində qılınc irəli çıxır, igidlərə üz tutub ucadan hayqırır:

– Ey, igidlərim, atlanın, intiqam, qisas vaxtıdır. Qan içində inləyən torpağımızı, düşmənə əsir-yesir düşən insanlarımızı bu bəladan xilas edin. Bir an da dayanmadan-durmadan köhlən atlara süvar olun, dərə-təpə düz gedib düşmənlə ölüm-dirim savaşına girin, zəfər müjdəsini gətirin. Haydı, igidlərim...

İgidlər də atlandılar.

Atların kişnərtisi yer üzünü bürüdü. Bu anda sanki göy üzündə ulduzların sayı qədər əllər Tanrıya uzandı, döyüşə gedənlərə xeyir-dua verdi...

... Qar getdikcə gücləndi. Komandirlər general Şıxlinskinin çadırına toplaşdılar.

General Şıxlinski xəritəni kənara qoyub bir an fikrə getdi. Məsuliyyətin ağırlığı, uzaq yolun yorğunluğu və yuxusuzluq onun gözlərində əks olunmuşdu. Komandirlər də narahat və qayğılıydı. Cavad bəy dedi:

– Bir daha təkrar edirəm: biz əgər Qarabağla Zəngəzuru birləşdirən yolları öz nəzarətimiz altına ala bilsək, o zaman daşnak dəstələrini bir-birindən ayrı salacaq, onlara silah-sursat və canlı qüvvə daşınmasını əngəlləyəcəyik. Buna görə də 1-ci dəstənin komandiri Davud bəy Yadigarovun sərəncamında olan əsgərlər Sultankəndin yamaclarında mövqe tutacaq. Bu döyüşdə əsas işi topçular görəcək. 2-ci dəstənin komandiri polkovnik Levestamın süvariləri isə Sadınlı kəndində yerləşəcək və mənim əmrimi gözləyəcək.

General Yadigarov ayağa qalxdı:

– Əsgərlərin əhval-ruhiyyəsi yüksəkdir. İnanıram ki, Bakı tez bir zamanda bizdən qələbə müjdəsi alacaq.

– İnşallah, – Cavad bəy bir anlıq susdu, sonra da davam etdi, – Bu yerlərə qar çox yağıb. Hələ də yağmaqda davam edir. Əsgərlərimizin çoxu bu cür hava şəraitinə alışmayıb. Lakin biz bu çətinliyin öhdəsindən gələcəyik. Çünki gürzənin başını öz yuvasında əzməliyik. Əsgərlərimiz qətiyyətlə, inadla irəli getməli, döyüş tapşırıqlarını mərdliklə yerinə yetirməlidir..

... Sübh tezdən orduya Dığ kəndi istiqamətində hərəkət əmri verildi.

***

Qaraqışlaq kəndinin üst yamaclarında ağ xalat geyinmiş iki nəfər qarın üstə uzanaraq durbinlə kəndin içini izləyirdi. İki gün əvvəl onlar yenə burda olmuş və Qaraqışlağın içində qurulmuş çadırları aydınca müşahidə etmişdilər. İndi bu çadırlar gözə dəymirdi, kəndin küçələri bomboş idi.

Kəşfiyyatçılardan biri durbini gözlərindən götürdü, qalın əlcəyi çıxarıb donmuş əllərini, üzünü ovxaladı və acıqlı halda dedi:

– Sultan bəyin qərargahı bu kənddəydi. Müdafiəçilərin çadırlarını da açıq-aşkar gördük. İndi Sultan bəyin dəstəsi göyəmi çıxdı, yerəmi batdı? Bu adamdan baş açmaq olmur ki. Bəlkə o, da Diğa tərəf hərəkət edir?

– Bunu hardan bilək, Ovanes? Biz Ayvazyana, ya da İsaxanyana səhv məlumat verə bilmərik. Onlar bizi güllələyər.

– Kəndə yenəkmi?

– Bu da təhlükəlidi. Yenə də bir şey öyrənə bilmərik, – Ayrapet inamsız halda dedi, – Sultan bəyin kəşfiyyatçıları çox dəqiq işləyir. Ələ keçə bilərik.

– O zaman geri qayıdaq, mən artıq donuram.

– Atları hara bağladıq?

– Aşağıda qalın kolluğa.

– Ayvazyana nə deyək?

– Belə çıxır ki, Sultan bəy Qaraqışlağı tərk edib, çox güman ki, Dığa tərəf irəliləyir.

– Bu məlumatı isti-isti qərargaha çatdıraq.

– Oldu.

Ovaneslə Ayrapet ayağa qalxdılar. Çəkmələrin içində donmuş ayaqları gizildədi. Onlar çətinliklə aşağı yendilər.

... Kəşfiyyatçıların gətirdiyi məlumat erməni quldur dəstəsinin komandirləri Mardi Ayvazyanı və Egiş İsaxanyanı sevindirdi. Ayvazyan süfrənin arxasından qalxdı, iri burnunu möhkəm sildi və soruşdu:

– Demək Sultan bəyin dəstəsi kənddə yoxdu. Kənd indi boş və müdafiəsizdi?

– Elədir, komandir, -kəşfiyyatçılar ikisi də eyni anda cavab verdilər.

Ayvazyan razılıqla, özündən müştəbeh halda otaqda gəzindi, uzun bığlarını sığalladı və gülümsədi, – onda biz asanlıqla kəndi işğal edərik. Bir nəfər də müsəlmanı sağ buraxmarıq. Ev-

lərə isə toxunmasınlar. Niyə yandırsınlar ki? Bu evlərdə bizimkilər yaşayacaq, – xəyalpərvərliklə gözlərini qıydı, – sonra biz Dığa tərəf hərəkət edərik və qəfildən arxadan hücuma keçib Sultan bəyin dəstəsini məhv edərik, Azərbaycan ordusu ilə birləşməsinə imkan verməri̇k.

– İnanıram ki, düşmən Dığ kəndində ağır məğlubiyyətə uğrayacaqdır, -İsaxanyan boşalmış badəni yenidən şərabla doldurdu.

Ayvazyan xəritəni qarşısına çəkdi, eynəyini çıxarıb gözünə taxdı və diqqətlə gözdən keçirdi, iştahla dedi:

– Qaraqışlaq istiqamətində Zeyvə və Sultanlar kəndi də müdafiəsizdir. Ərzağımız tükənmək üzrədir. Bu kəndləri işğal edək, müsəlmanların qətlindən sonra onların mal-qarasını sürüb aparaq. Vaxt çox azdır. Döyüş planlarını bir daha gözdən keçirək.

İsaxanyan dişlərini ağartdı, gülümsünüb xoşhallıqla dedi:

– Sultan bəyin axırı çatdı. Onu sağ-salamat əlimə keçirə bilsəydim... O, təcrübəsiz, başıpozuq dəstəsi ilə Zəngəzuru işğal etməyə əngəl oldu. O, böyük komandan Andronik Ozanyanın on minlik ordusunu son əsgərinə qədər məhv etdi, – əlini sinəsinə çırpıb göz yaşı tökdü, – Andronikin alınmamış qisası ciyərimi yandırır, ürəyimi parçalayır. Mən başa düşə bilmirəm, Sultan bəydə bu güc, qüvvə hardandı? O, bizim nizami ordu ilə döyüşür, özü də hərbi təcrübəsi olmayan adamlarla.

– Qarabağın general-qubernatoru Xosrov bəy onun qardaşıdır. Ermənilər, üstəlik ingilislər Xosrov bəyi general-qubernatorluqdan uzaqlaşdırmaq istədilər. Ermənistanın baş naziri Xatisov etirazını bildirdi... Amma bacarmadılar... Şuşada müdafiə dəstələri və sayca az olsa da Azərbaycan ordusu var. Xosrov bəy Qarabağı, Sultan bəy Zəngəzuru qoruyur.

Mardi Ayvazyan onun sözünü kəsdi:

– Yaxşı dincələk, sübh tezdən yola düşürük.

... Zeyvə və Sultanlar kəndinin sakitliyi qəflətən pozuldu. Üzbəüz yamaclarda toplar atəş açır, kəndin içinə, ətrafına düşən

mərmilər qarı göyə sovurur, evlər od tutub yanırdı. Qışqırtı, bağırtı, fəryad səsləri güllə səslərini üstələyirdi.

Atəş birdən səngidi. Ayvazyan qışqırdı:

– Güllələrə qənaət edin.

Ermənilər kisələrə yığılmış baltaları, xəncərləri çıxardılar. Bu anda sanki Tanrıdan möcüzə gəldi: kəndin başı üstündəki qayaların arxasından Sultan bəyin dəstəsi erməniləri güclü atəşə tutdu. Ayvazyan yaralı canavar kimi inildədi, geri çəkilmək əmri verdi.

... Ermənilər Sultanlar kəndinə yaxın düşə bilmədilər, gözlənilməz həmlədən sarsıldılar. Qarlı çöllərdə, düzlərdə atəş səsindən hürkmüş atlar dağlara tərəf üz tutdu, piyada qalmış əsgərlər silahını atıb var qüvvəsi ilə qaçmağa can atdı. Ayvazyan havaya güllə atdı, onları qaytarmağa, döyüşə sövq etməyə çalışdı. Amma ruhdan düşmüş əsgərlər vahimə içində çöllərə üz tutdu.

... İlk müjdə xəbərini Sultan bəyə verdilər. Təmkinli, ağırbaşlı Sultan bəy yüngülcə qımışıb başını tərpətdi.

***

Cəbrayıl daşnakların tapdağı altındaydı.

Qarabağ general-qubernatoru Xosrov bəy təzəcə gəlmiş bir teleqramı açdı və oxudu. Sanki teleqramın hər sətrindən fəryad səsləri eşitdi, sözlərin, kəlmələrin üstündə ləkə tutmuş göz yaşı gördü. Elə bil cümlələrin arxasından yüzlərlə əl ona tərəf uzanıb yardım, kömək istədi. Lakin oxuduqları səssiz idi və hər şey ölümdən sonrakı sükuta bənzəyirdi. Hüseyn Axundzadə adlı bir müəllim yazmışdı: “Zəngəzur müsəlmanları tərəfindən başınız sağ olsun. Nə qədər zəngəzurlular ağladılarsa da nalələri Zəngəzur dağları, dərələri və obaları arasından bir tərəfə çıxmadı. Qarıların, arvadların məmələri kəsilmiş, məsum balaların başsız bədənləri qanlarına bulaşmış çöllərdə qalıblar. Qızlar və gəlinlər ermənilərin əllərinə keçmiş, onların namuslarına təcavüz edilmişdir.

Zəngəzurda düşmən müqabilində az kişi qalıb. Lakin onlar da tam ümidsiz vəziyyətdədir. Heç bir tərəfdən kömək gəlməmişdir.

Ermənilərin nizami orduları on min nəfərə çatmışdır və hər an qüvvələri artmaqdadır. Ararat respublikası tərəfdən hər an onlara kömək gəlir. On ədəddən yuxarı topları və çoxlu pulemyotları var. Topların gurultusu Cəbrayılı həyəcana gətirmişdir.

Ermənilərin fikri budur ki, Zəngəzurla qurtarmaqla Cəbrayıl erməniləri ilə birləşib buralarda da dəxi dava etsinlər və əlaqələrimizi tamamilə kəssinlər. Əgər hokumət tərəfindən fövqəladə binagüzarlıq olmasa müsəlmanların işi fəna olacaqdır”.

Xosrov bəy içində oyanmış, şiddətlənmiş fırtınanın zərbinə sanki davam gətirə bilmədi, gözlərini yumdu, yumruqları düyünləndi, kin, qəzəb, nifrət hissi onun bütün vücudunu bürüdü. Erməni quldur dəstələrinə başçılıq edən daşnakların siyahısına bir də diqqət yetirdi. Onların bir çoxları haqqında artıq məlumat əldə edilmişdi. Ən təhlükəli daşnak Nikolay Osipov idi. Andronik Gorusda özünü qubernator elan edəndə Nikolay müsəlmanların soyqırımında Andronikin sağ əli olmuşdu. Onun yaxından iştirakı ilə Zəngəzurun müsəlmanlar yaşayn 115 kəndi xarablığa çevrilmiş, sakinləri vəhşicəsinə qətlə yetirilmişdi.

Darabas kəndində Samir Şahnəzərov, Meğridə David Arşak, Matevos Maçiants, Xatanes kəndindən Avanes Ter-Petrosov, Aznaur kəndindən Sumbat Melik Stepanov... Hələ Şuşada müsəlmanların qanına yerikləyən nə qədər qəddar, acımasız daşnak vardı: Xurşud Markar, Sokrat Məlik Şahnəzərov, yüzbaşı Markez, Muxan Martisov... sanki çürümüş, kif basmış, rütubət iyi verən taxtaların, çamur bağlamış iri daşların, qayaların altından sürünüb çıxan gürzələr Zəngəzur, Qarabağ mahalını bürüyür. Gürzələr tökülən qanlara aşiqdir, dağılan, yanan ocaqların xarabalıqlarına aşiqdir...

Xosrov bəy əlləri ilə başını tutdu, ağrısı şiddətlənən gicgahlarını sıxdı. Sanki bu an qarşısında yüz illər bundan əvvəl

Şuşa qalasının bünövrəsini qoymuş Pənahəli xanı gördü. Qınaqlı baxışlarla xanı süzdü: "Sənin haqqında yazılan bu əhvalatı sənə xatırladım, Pənahəli xan. Köhnə qalanın yanından keçəndə divarın dibini qazan iki erməniyə rast gəldin. Ətrafda kimsə yoxuydu və onların hərəkəti səndə şübhə doğurdu. Yaxınlaşıb başlarının üstə dayandın. Ermənilər səni görüb özlərini itirdilər. Əllərində olan şüşə qabı və bir vərəq kağızı gizlətməyə çalışdılar.

Soruşdun:

– Burda neynirsiz? Divarın dibini niyə qazırsız?

O zaman ermənilər sənə belə cavab verdilər:

– Vaxt gələcək nəsillər bu qalanın tarixini, kim tərəfindən inşaa edildiyini öyrənmək istəyəcəklər. Biz bu vərəqi şüşə qabın içinə qoyub divarın dibində basdırmaq istəyirik. Vərəqdə yazılıb ki, qalanı ermənilər tikdirib.

Pənahəli xan, bilmirəm, sən o vaxt ermənilərə nə cavab verdin? Amma o qalanı da sən tikdirmişdin və yəqin ki, şüşəni alıb qırdın, erməniləri ordan qovdun. Amma kaş o vaxt erməniləri bütün Şuşadan, Qarabağdan təmizləyərdin. Onların orda gürzə balaları tək artıb çoxalmasına izn verməyəydin. İndi onlar sənin çox sevdiyin millətinin başağrısıdı, Pənahəli xan..."

Xosrov bəy ayağa qalxdı. İçinə dolmuş sıxıntı ürəyinin dərinliklərinə qədər işlədi.

**8.**

30 oktyabr 1919-cu il.

Cavad bəy Şıxlinskinin komandanlığı ilə ordu Xankəndinin dərəli-təpəli düzləri, yamacları ilə Zəngəzura tərəf irəliləyirdi.

Payız sanki bu yerlərdə əlvan rənglərdən ibarət boxçasını açıb tökmüşdü. Amma ilin bu vaxtında Qarabağda payızdan çox qışın nəfəsi daha tez duyulurdu. Qış payızı yetəri qədər bu yerlərdə hökmüran olmağa qoymurdu və şahlıq taxtından tez düşürürdü. İndi də hava birdən-birə sərtləşdi, göylərin üzündə

sanki qara buludlar qara köhlən atlarını minib çapdılar.

Xankəndi yüksəklikdə – dağlıq yerdə olduğundan neçə gün əvvəl yağan qar hələ də ərimıəmişdi.

... Əsgərlər çətinliklə irəliləyirdi. Arxada silah-sursat, ərzaq, bir də tibb ləvazimatları ilə yüklənmiş arabalar gəlirdi. Atlar arabaları qarlı yollarda çətinliklə çəkir, tez-tez dayanır, sonra yorğun-yorğun yollarına davam edirdilər. Qəflətən başlayan çovğun yumşaq qarı süpürləyib havada fırlatdı, var qüvvəsi ilə atların sinəsinə, piyadaların üst-başına çırpdı. Arabalara qoşulmuş atlar irəli addım atır, lakin çovğun ağır yüklü arabaların irəli getməsinə əngəl olurdu. Birdən çovğun daha da gücləndi. Küləyin uğultusundan və göydə fırlanan qar burulğanından başqa bir şey görünmədi. Cavad bəy atın çilovundan möhkəm yapışıb üzü sarıqlı halda irəli getdi və ucadan, gücü çatdıqca qışqırdı:

– Dayanın, bir yerə toplaşın. Çovğunun sakitləşməsini gözləyək.

Davud bəy:

– Məlum deyil, bu çovğun nə vaxt dayanacaq.

– Bizim başqa çarəmiz yoxdu ki, Yadigarov.

Arxadan qarışıq səslər gəldi. Çovğun bu səsləri aydın eşitməyə qoymadı. Cavad bəy bir neçə süvari ilə geri qayıtdı. Xeyli aralıda ərzaq arabasının bir tərəfi əyilmiş, o biri tərəfində təkərlər yuxarı qalxaraq fırlanırdı. Çox güman ki, at yoldan çıxmış, buna görə də arabanın bir təkəri çalaya düşmüşdü. Əsgərlərköməkləşib arabanı qaldırdılar.

Ordu qarlı çöllərdə çovğunla döyüşə-döyüşə xeyli gözlədi. Axır ki, çovğun yatdı. Qarlı çöllərə zəif sarı işıq zolaqları düşdü. Bu dəfə günəş üzünü göstərdi, soyuqdan üşümüş əsgərlərin donu açıldı. İrəliyə hərəkət əmri verildi.

... Rabitəçi Zəngəzurdan-Sultan bəydən aldığı ilk müjdəli xəbəri verdi: Zeyvəli və Sultanlar kəndi uğrunda gedən döyüşlərdə ermənilər məğlub oldu. Sultan bəy Dığ kəndinə tərəf hərəkət edir.

... General Davud bəy Yadigarovun komandirlik etdiyi dəstə Laçından Dığ kəndi istiqamətində irəliləyirdi. Bu yerlərin payızı da sərt qış kimiydi. Üst-üstə yağan qar bu yerlərdə hərəkəti çətinləşdirirdi. Topçular xüsusi ilə ləng irəliləyirdilər.

Komandir Keçəltala-Dığ təpələrində dayanmaq əmri verdi.

– Topları elə gizlədin ki, düşmən onun yerini bəlli edə bilməsin. Zəfərimiz ilk növbədə topçulardan asılıdır. Əsgərlər topların atəşi altında irəliləyəcək, düşmənə sarsıdıcı zərbə endirəcəklər. Sultan bəyin dəstəsi də köməyimizə gəlir. Bu döyüş Zəngəzurun taleyini həll edəcəkdir.

General bu sözləri inamla dedi və dəstəyə dincəlmək əmri verildi.

***

Ermənilərin məğlubiyyəti düşmən qərargahında böyük təşviş yaratdı. Erməni kəşfiyyatı bu məğlubiyyətin qarşısını almaq üçün hərəkətə keçdi. Azərbaycan ordusunun içinə casuslar göndərildi və axır ki, erməni kəşfiyyatı yeni məlumat aldı:

– General Yadigarovun topçuları döyüşün gedişinə mühüm təsir edəcək. İlk növbədə topları sıradan çıxarmaq lazımdır. Erməni kəşfiyyatının məlumatı bu cəhətdən çox qiymətlidi, komandir.

Kəşfiyyat idarəsinin komandiri sevindi:

– Danışın, görək.

– Kəşfiyyat müəyyən etdi ki, topçular arasında bir nəfər gürcü var. Dini bizim dinimizdən.

– Eləmi.

– Biz onu ələ almalı, topların koordinatlarını öyrənməliyik.

– Bu elə də çətin deyil, komandir.

– Topçu bakılıdırmı?

– Xeyr komandir, Tiflisdəndi.

– Yaxın bir adamı varmı?

– Bunu da öyrənmişik. Bir anası var. Başqa heç kimi.

– O halda qadını tapın, görüşün və ona 200 min rubl verin. Bu böyük məbləğdir. Topçu illərlə çalışsa da bu məbləği bir yerə toplaya bilməz.

Komandir masanın gözündən bir dəstə pul çıxardı:

– Elə bu gecə Tiflisə yola düşün. Sizdən xəbər gözləyirəm.

– Oldu, komandir.

***

... Payız Tiflisin rənglərinə qızılı rənglər gətirirdi. Boş küçələrə xəzan yarpaqları döşənirdi. Sanki xəzan havalı Tiflis başqa ovqatdaydı. Sıxıntılı, pərişan... Yamaclarda, qayalıqların üstündə pillə-pillə salınmış binalar payızın soyuq havasında üşüyürmüş kimi bir-birinə qısılmışdı.

Çantasını qoluna keçirmiş qadın yaylığını qaşlarının üstünə qədər çəkərək, kimdənsə gizlənirmiş kimi, ehtiyatla ətrafa baxdı və geniş küçənin küncündə -üstünə gürcücə "Georgi" yazılmış köhnə kafenin qarşısında dayandı, düşündü və qətiyyətlə içəri girdi. Kafedə xeyli adam vardı. Masaların arxasında oturmuş tək-tük qadınlar gözə dəydi. Qadın ürkək baxışlarla içəridəki adamları süzdü, tərəddüd etdi və çevrilib çıxmaq istədi. Bu anda orta yaşlı kişi gülümsəyə-gülümsəyə qadına yaxınlaşdı, centlmen sayağı qarşısında durdu, əlini irəli uzadaq küncdəki masanı göstərdi.

Qadının içindəki qorxunu narahat baxışlı gözləri biruzə verirdi. O, durduğu yerdəcə titrəyirdi.

Qarayanız, görünüşündən qafqazlı olduğu açıq-aşkar bilinən kişi qadının qolundan nəzakətlə tutaraq onu masanın yanına gətirdi. Qadın stulu çəkib oturdu, çantasını dizlərinin üstə qoydu. Kişi ona tərəf əyildi və onun isti nəfəsi qadının ürəyini sıxdı:

– Marqaret xanım, siz deyəsən məndən qorxursuz?

– Niyə ki? Amma siz kimsiniz? Məni niyə buraya çağırdınız? Mən ailəli, evli bir qadınam.

Qadının səsindəki əsəbilik kişinin xoşuna gəlmədi, sanki bu anda əsəbləri gərildi və o, özünü zorla ələ alaraq üzünü çevirdi. Yenidən özünü topladı, mərhəm, yaxın adam kimi təkəbbürlə gülümsədi və dedi:

– Siz gürcü, mən erməni. Dinimiz eyni.

Qadın özünü toparladı:

– Mən də əvvəlcə sizi gürcü zənn etdim. Amma ləhcənizdən erməni olduğunuzu anladım.

– Ermənilər dili nə qədər səlis, təmiz bilsələr də yenə də öz milliyətlərini biruzə verirlər. Mən sizi axtarıb tapınca zülüm çəkdim.

– Niyə axtarırdız?

– Bilmirəm, sizə etibar etmək olar, yoxsa yox?

– Əgər şübhəniz varsa gedim, -qadın çantasını götürüb ayağa qalxdı.

Kişi əl-ayağa düşdü, qorxu içində içini çəkdi və qadının qolundan tutub onu yerində oturtdu.

Kişinin canfəşanlığı, üzündə, gözlərindəki qorxu, təlaş qadının xoşuna gəldi. Yaraşığını, gözəlliyini nümayiş etdirirmiş kimi başındakı yaylığı açdı, saçlarını barmaqları ilə geri darayıb müdrikliklə gülümsədi:

– Mənimlə danışmaq bu qədərmi önəmlidi sizin üçün? O halda dinləyirəm.

– Adımı deməyə ehtiyac varmı? Məncə yox.

– Biz bir də görüşməyəcəyik. Adınızı bilməyə ehtiyac yoxdur. Ərim rəhmətə getsə də onun şərəfi mənim üçün çox əzizdi.

Kişi elə bil darıxdı. Ətrafa gizlicə nəzər saldı. Hər kəs öz işindəydi. İçəridə çəkilən papirosun tüstüsü lay-lay qalxıb yuxarıda dayanmışdı. Çox güman ki, bu anlarda kafedəki adamların hamısı papiros tüstüsünün iyini verirdi.

Qadın çantasında güllü cib dəsmalını çıxarıb burnuna tutdu:

– Buranın havası çox ağırdı.

– İstəsəniz...

– Yox, yox, eşidirəm sizi.

Kişi yenə ətrafa baxdı, əlini döş cibinə atdı, nəyi isə yoxladı və qəflətən soruşdu:

– Sizin oğlunuz hardadı indi?

– Oğlum? Nəyinizə lazımdı?

– Oğlunuz bizə çox lazımdı. Başa düşdünüz? O, Azərbaycan ordusunda topçu alayının komandiridi.

– Siz bunu hardan bilirsiz?

– Bizim erməni kəşfiyyatı oğlunuz haqqında bütün məlumatları toplayıb. Hündürdən danışmayın və diqqəti cəlb etməyin. Oğlun bizə qarşı olan hərbi əməliyyatda iştirak edəcək.

– Mən heç nə bilmirəm.

– Oğlunuz uzaqda olsa da sən bizim əlimizdəsən. Lap ovcumuzun içində. Bizim kəşfiyyatın səndən tələbi budu: tez bir zamanda oğlunla əlaqə yarat. Qoy o, topların koordinatlarını sənə çatdırsın. Bu xidmətini erməni kəşfiyyatı lazımınca qiymətləndirir.

Kişi əlini qoltuq cibinə atıb səliqə ilə sarınmış kağız bükülüsünü qadının qarşısına qoydu.

Qadın böyümüş iri gözləri ilə kağız bükülüyə baxdı.

Kişi dedi:

– 200 min rus rubludu. Heç yuxuda da bu qədər pul görməmisiz.

Qadının gözləri dirənib pulda qaldı. Sanki bu anlarda ürəyinin dərinliyində baş qaldıran iştah, tamah qorxu hissindən onu azad etdi.

***

3 noyabr 1919-cu il.

General Yadigarov atəş əmri verməyə hazırlaşdı. Toplar atəş açan kimi 1-ci və 2-ci dəstənin əsgərləri hücuma keçəcəkdi. Bu anda qəfildən erməni tərəfdən atəş açıldı. Yamacların başında ustalıqla gizlədilmiş toplar darmadağın oldu. İrəli getmək

əmri gözləyən əsgərlər donub qaldı. Nə baş verirdi? Erməni tərəf topların yerini necə aşkar etdi? Komandir Davud Yadigarov sanki ağır zərbə aldı. Atəş onun başına yağırmış kimi o, başılovlu vurnuxur, həyəcan içində nə edəcəyini bilmirdi. Düşmən topları isə dayanmadan atəş açırdı. Ermənilər dəqiqliklə, sanki öz əli ilə qoymuş kimi topları sərrast vurdu və sıradan çıxardı.

General Yadigarov sarsılmışdı. Ermənilər bu topların yerini, koordinatlarını hardan bilirdi? O, dəhşət içindəydi. Döyüş başlamamış məğlubiyyət onu diz çökdürdü... Əsgərlərə geri çəkilmək əmrini verdi. Çünki irəli getmək, döyüşə girmək açıq-aşkar əsgərləri ölümə sürükləmək idi.

... Və ilk döyüşlərdə Sultan bəyin dəstəsi zəfər qazansa da topların sıradan çıxması ilə ermənilər üstünlüyü ələ aldılar, dəqiqliklə hazırlanmış "Dığ əməliyyatı" uğursuzluqla nəticələndi.

... Cavad bəy Şıxlinski noyabrın 8-də Səməd bəy Mehmandarova göndərdiyi teleqramda təəssüf hissi ilə yazdı:

"Adamların həddindən artıq yorulduqlarını və Dığ kəndini əldə saxlamaq mümkün olmayacağını müəyyənləşdirdikdən sonra mən qrupu Zabıx çayının şimal sahilinə çəkməyi və əlverişli mövqe tutmağı qərara aldım.

Bütün hissələr çayı sağ-salamat keçib müəyyən olunmuş mövqeyi tutdular. Enişi yenərkən toplardan biri yoldan çıxdı və dərəyə düşdü. Onu çıxarmaq mümkün olmadı. Həmin topun açarını, təkərlərini və hissələrini söküb götürdük. Top bizim mövqeyimizin yaxınlığındadır. Çalışıram ki, ayın 9-a kimi çıxarıb aparaq. Mənim bütün göstərişlərimi yerinə yetirmək üçün Yadigarovun dəstəsi Abdallara gəlib.

Qəhrəmanlıqla həlak olan Cavanşir alayının podporşiki Muradovun və Zaqatala alayının praporşiki Qazıyevin böyük cəsurluğunu xüsusi qeyd etməliyəm.

Bizim artilleriyada əla döyüş xidmətləri olan podpolkovnik Novruzovun da məharətini unuda bilmərəm. Bizim itki belədir:

Zaqatala alayından həlak olan və itkin düşən 40 nəfər, 50 nəfər isə yaralanıb. Cavanşir alayından 5 nəfər həlak olub. 20 nəfər yaralanıb.

Qarabağ alayından isə xeyli itki var və artilleristlərdən bir nəfər yaralanıb. Zabitlərdən üçü həlak olub, dördü isə yaralanıb. İtkilərimizin sayını əlavə olaraq sizə bildirəcəm.

General Cavad bəy ŞIXLİNSKİ,
Abdallar kəndi".

***

Xosrov bəy Sultan bəyi bu qədər əsəbi və pərişan görməmişdi. Məğlubiyyət sanki içində bir zəlzələ qoparmış, bu zəlzələnin şiddətindən gözləri qan çəkmişdi. Elə bil ümiddən qurulmuş saraylar bir an içində uçulub dağılmış, Sultan bəyin özü bu dağıntılar altında qalaraq yüz yerdən yara almışdı...

Xosrov bəy qardaşından gözünü çəkib baxışlarını pərişan, məyus halda masanın üstündəki xəritəyə zillədi. Sarsıntı bu anda öz işini görürdü: sanki gözlərinin içinə qədər, baxışlarına qədər iflic olurdu. Ürəyinin döyüntüsü elə bil dayanmışdı. Çünki içində boşluqdan savayı heç nə yoxuydu. Boğazına elə bil nə isə tıxandı, nəfəsi daraldı, sonra sinəsi yuxarı qalxan qəhərin zəhər kimi acı tamını hiss elədi və bu zəhər gözlərinin içindəki iki damla acı göz yaşını sıxıb çıxardı....Sultan bəyə təsəlli vermək istədi. Qardaşının ruhdan düşmüş görünüşü, çarəsiz halı xəncər kimi Xosrov bəyin ürəyinə işlədi. At belində sinəsini irəli verərək bir qəhrəman kimi düşmənə meydan oxuyan Sultan bəy bu anlarda bir uşaq qədər aciz və gücsüz idi.

Yavər çay gətirdi və səssizcə də otaqdan çıxdı. Sultan bəy əlini dizinə çırpdı:

– Düşmənin əsas qüvvəsini məhv etdik. Qələbəyə bu qədər yaxın ikən ermənilər bizi üstələdi. Onlar birinci topları sıradan çıxardılar. Elə bil topları əlləri ilə gizlətmişdilər. Yox..burda xəyanət var. Kim nə deyir desin, bizi xəyanət yıxdı...

– Bu məğlubiyyətdə general Yadigarovu sən günahkar hesab eliyirsənmi, Sultan?

– Döyüş planının hazırlanmasında hərbi nazir özü iştirak eləmişdi. Ermənilərin itkiləri çox idi. Onlar silahlarını atıb qaçırdılar. Bu necə oldu, baş çıxara bilmirəm. Biz tarixi bir şansı əlimizdən verdik. "Dığ əməliyyatı" baş tutmadı. Bəlkə də Yadigarovun... bilmirəm. Biz səhvə harda və necə yol verdik? Qorxuram ki, bu səhv torpaqların işğalında bir başlanğıc ola.

Xosrov bəyin çöhrəsi qayğılı bir ifadə aldı, can yanğısı ilə dedi:

– Bizim yeni yaranmış dövlətin ordusu mükəmməl deyil, Sultan. Mən ordunun içindəyəm. Əsgərlərlə görüşürəm. Əsgərlərin çoxu orduya yenicə gəlmiş, əli silah tuta bilməyən gənclərdir. Onlar təcrübələri olmadan düşmən üstünə necə gedə bilər? Özü də azğın, qəddar, rəhimsiz bir düşmənin, – səsində bir məyusluq duyuldu, – Dığ əməliyyatında özünümüdafiə dəstələri yüksəklikləri aldı, amma orda möhkəmlənə bilmədi. Çünki Yadigarovun komandanlığında olan topları düşmən döyüş başlamamışdan dəqiqliklə vurub sıradan çıxardı. Sən düz deyirsən, Sultan, orduda satqın olub. Erməni kəşfiyyatının əli ordunun içinə qədər uzanıb. Belə düşünürəm ki, xəyanətkar bir adam hərbi sirri yalnız pul qarşılığında kəşfiyyatın ovcuna qoyub.

– Dığ kəndi strateji cəhətdən çox əhəmiyyətlidi. Zəngəzurla Qarabağı birləşdirir, başqa yol yoxdur. Bunun üçün ermənilər də bu strateji əhəmiyyətli kəndi ələ keçirmək üçün bütün qüvvələrini buraya toplamışlar. Onlar nəyin bahasına olursa olsun bizim yolumuzu kəsməyə çalışdılar. Çünki bilirdilər ki, biz Dığı işğal etdikdən sonra Şuşada sizin əlinizdə olan qüvvələrlə birləşəcək və bununla da ermənilərin illər boyu apardıqları müharibəyə son qoyulacaqdır.

Xosrov bəyin qaralmış, tutulmuş çöhrəsində görünən acı gülüş elə bil gözlərindəki məyusluğu daha da artırdı:

– Azərbaycan Xalq Cumhuriyyəti yaranandan bir neçə gün

sonra İrəvanı ermənilərə güzəştə getdi. Yadımdadı ki, Fətəli xan Xoyski 1918-ci il mayın 29-da xarici işlər naziri Məhəmməd Hacınskiyə göndərdiyi məktubda yazmışdı: "Biz ermənilərlə bütün mübahisələrimizi qurtarmışıq və onlar bizim ultimatumumuzu qəbul edəcəklər, müharibə qurtaracaqdır. Biz İrəvanı ermənilərə güzəştə getdik." Buyur bu da güzəşt... Azərbaycan hokuməti hələ də müharibəni kağız üzərində qurtarmaq istəyir, hələ də ultimatum göndərməklə məşğuldur. Halbuki düşmənlə kağız, qələm dilində yox, silah dilində danışmaq lazımdır. Mən bu ilin mayın 8-də baş nazirə məktub göndərərək bildirdim ki, Gorus daşnak yuvasıdır, tədbir görün, süvari dəstəsi və artilleriya göndərin.

Sultan bəy təəssüf qarışıq qəzəblə başını buladı:

– Gonanzar, Xanazax, Abdallar kəndi ağır döyüşlər bahasına geri alındı. Amma sonrasına bax. Əziyyətimiz hədər getdi.

– Ruhdan düşməməliyik. Zəngəzuru xilas etməliyik, Sultan.

– Allah yardımçımız olsun.

– Amin.

İkisi də susdu. Otağın sükutunda da sanki bir ağırlıq, ölçüyəgəlməz bir sıxıntı vardı.

***

General Səməd bəy Mehmandarov cəbhədən məlumat aldığı ilk anda qulaqlarına inanmadı və məğlubiyyət xəbərinin sarsıntısını yaşadı. Sanki bir anda gözləri, əlləri, düşünən beyni, çarpan ürəyi iflic oldu. Heç nə eşitmədi, heç nə duymadı. Səndirləyib əlini stula atdı və gözlərini yumub gözlədi. Elə bil qaranlıq, havasız bir boşluqdaydı, nəfəs ala bilmirdi, nələr baş verdiyini dərk eləmirdi. İstədiyi yalnız bir şey idi: tək qalmaq, şüuru özünə gələnə qədər düşünmək... Əlini aparıb ürəyinin üstə qoydu: kəskin sancı bütün sinəsinə yayıldı. Ona elə gəldi ki, bütün hissiyatı da bu ağrının içindədi.

Yavər otağa girdi, əlini gicgahına aparıb məlumat vermək istədi. General əlini yellədi və acıqla dedi:

– Otağa heç kəsi buraxma.

Yavər çıxdı. General özünü pəncərənin qarşısına yetirdi, təmiz havanı acgözlüklə sinəsinə çəkdi və sanki beyni ayazıdı: “Bu necə ola bilər? Döyüş planını diqqətlə hazırlamışdıq. Mən özüm döyüş planının incəliyinə qədər diqqət yetirmişdim. Amma düşmən döyüşdən əvvəl öz əli ilə qoymuş kimi topları sıradan çıxarıb. Bununla da üstünlüyü ələ alaraq məğlubiyyətə yol açıb. Günahkar Yadigarovdu. Mən ona etibar etdim. Cəzalanmalıdı ki, başqalarına da ibrət olsun...”

... General-mayor Davud bəy Yadigarov hərbi nazir general Səlməd bəy Mehmandarovun qarşısında özünü müdafiə edə bilmədi. Mehmandarov onu dinləmək istəmədi, qəzəblə əlini yellədi və Yadigarov haqqında qərarını verdi:

– Rütbəsi yendirilsin. Özünü də istintaq orqanına təhvil verin. Məğlubiyyətin səbəbləri ciddi araşdırılsın.

**9.**

19 noyabr 1919-cu il.

Hamazasp 40 süvari, 400 nəfər piyada ilə Oxçu kəndinə tərəf hərəkət etdi. Bir gün əvvəl bu yerlərə çoxlu qar yağmışdı. Yolların kənarında görünən tək-tək ağacların budaqları qarın ağırlığına tab gətirməyərək az qala yerə dəyirdi, kollar bəyaz təpələrə oxşayırdı. Süvarilər irəlidə gedirdi. Piyadalar yoxuşlarda çətinliklə irəliləyirdi. Qalın qar atların ayaqları altında tapdanır, düzənlikdə sanki dərin naxışlı cığır salınırdı. Piyadalar atların açdığı yollarda nisbətən rahatlıqla addım atırdılar. Piyadaların arxasınca isə at qoşulmuş arabalar gəlirdi. Uzaq yol gəldiklərindən atlar yorulmuşdu və Oxçunun dolanbac yollarını həvəssiz, çətinliklə arabaları öz arxalarınca sürüb aparırdılar.

Düzənliyə çıxanda irəlidə Oxçunun bacası tüstüləyən evləri göründü. Kənd bir yamacın döşündəydi. Hamazaspın içində

gizlənmiş canavar iştahı sanki bu an özünü göstərdi, o, durbini gözünə qoyub xeyli baxdı. Həyətlərdə kimsə görünmürdü. Yalnız tüstüləyən bacalar bu kənddə həyat olduğuna işarət edirdi.

Hamazasp gülümsədi, sol yanağındakı dərin çapıq dartılıb onun qaralmış sifətinə gülüşə bürünmüş qorxunc bir ifadə verdi. Atının başını çevirdi və süvarilərin arxasınca irəliləyən piyadalara baxdı. Onların ləng hərəkətinə qəzəblənsə də bunu biruzə vermədi, gücü gəldikcə bağırdı:

– Əziz qardaşlar, mənim silahdaşlarım! Siz müqəddəs bir işin, məqsədin arxasınca gedirsiz. Vaxt gələcək sizin qəhrəmanlığınız haqqında erməni tarixi qürurla öz sözünü deyəcəkdir. Ona görə də Böyük Ermənistan uğrunda irəliyə. Zəngəzur uğrunda böyük savaşa hazır olun. İndi biz Oxçu kəndinə yaxınlaşırıq. Mənim əmrim olmadan kimsə evləri talan etməyə qalxmasın. Oxçu müsəlmanları bizi ərzaqla təmin etmək məcburiyyətində olacaqdır. İndi isə irəli!

Hamazasp əlini yuxarı qaldırdı, sol yanağını az qala ikiyə bölən çapıq dartıldı, qara haşiyəyə alınmış kimi görünən gözləri işıldadı.

***

Oxçu kəndinin kişiləri Mircəlal ağanın evinə yığışırdı. Quldur dəstəsinin kəndə yaxınlaşmaq xəbəri qışın sərt soyuğu, sazağı kimi oxçuluların içinə doldu. Gözlər yaşlı, könüllər bərbad, ürəklər qorxu, vahimə içindəydi.

Mircəlal ağa başıaşağı təsbeh çevirə-çevirə kimsənin üzünə baxmırdı və halından pərişan olduğu duyulurdu. Cavanlardan biri səbri tükənmiş halda dedi:

– Mircəlal ağa, tədbiriniz nədi? Çarəsiz halımızla oturub ermənilərimi gözləyək?

Mircəlal ağa başını yuxarı qaldırdı, əlindəki təsbehin şaqqıltısı dayandı və o, dəyişilmiş səslə dedi:

– Ermənilərin qabağına çıxmağa, kəndi müdafiə eləməyə nə qüvvəmiz var, nə də silahımız. Gümanımız bir Sultan bəyə gəlir.

Sərxan irəli gəlib Mircəlal ağanın qarşısında dizləri üstə oturdu və qızğınlıqla dedi:

– Elə indi üç-dörd nəfər atlanıb Sultan bəyin yanına gedək, kömək istəyək.

– O, gəlincə səncə erməni gözlərmi? – Mircəlal ağa içindəki fırtınanı biruzə verməməyə, təmkinli görünməyə çalışdı, – ağlıma bir fikir gəldi. Sultan bəyə xəbərə gedin. Biz də burda erməniləri hörmətlə, duz-çörəklə qarşılayaq. Lazım olsa ərzaq da verək. Ta ki, Sultan bəy özünü yetirənə qədər.

– Onlar sizə inanarmı, Mircəlal ağa?

– Bilmirəm, amma başqa yolu yoxdu.

Əllər eyni anda Tanrıya uzandı, sanki ağızlarda oxunan dualar xəfif meh kimi içəridə havalandı, şam işığı tək bir ümid oyatdı.

***

... Pakizə Sərxanın verdiyi tüfəngi yaylığına büküb tövləyə apardı, qapının ağzındakı axurda gizlətdi. Tez də qayıtdı. Soyuqdanmı, ya keçirdiyi vahimədənmi titrəyirdi. Qoşa, uzun hörüklərini sinəsindən kürəyinə atdı.

Gecənin bu vaxtında Oxcu vahiməli bir sükut içindəydi. Bu sükutu hərdən itlərin hürüşməsi pozurdu. Sərxan getməyə tələsirdi. Amma baxışları Pakizədəydi. Yağmurlu, səksəkəli baxışlar bir-birindən qopub ayrıla bilmirdi. Pakizənin gözlərində gilələnmiş yaş sanki donub kirpiklərinin ucunda qaldı. Sərxanın donmuş əllərini ovcuna aldı və isitməyə çalışdı:

– Sərxan, get, yubanmayın.

– Qorxuram mən gəlincə...

– Sən burda qalsan nə olacaq? Tüfəng üçün sağ ol.

– Heç olmasa özünü qoruyarsan. Anam, bacım da sizə gələcək. Salamat qal.

– Sərxan...

Sərxan ayaq saxlayıb geri döndü:

– Pakizə... nə demək istəyirsən?... Sizi bu çaqqalların əlində qoyub gedə bilmirəm.

– Tavat haqqında eşitmisən də.

– Kişi Tavatı deyirsən? Onu bütün Zəngəzur tanıyır ki. Sultan bəyin dəstəsində döyüşür.

– Doğrudan?

– Elə olar Tavat da bizimlə gələr.

– Kaş mən də Tavat kimi olardım: ürəkli, döyüşkən...

– Tavatdan nəyin əskikdi ki, Pakizə? Yaxşı at çapırsan, sərrast güllə atırsan.

– Yaxşı get, – Pakizə dabanları üstə qalxıb Sərxanın boynunu qucaqladı və qaçıb getdi. Sərxan özünü itirmiş halda dayandı, onun axasınca baxdı. Sanki qızın əllərinin hərarəti üzündə, gözündə qaldı, gülümsədi, kövrəlmiş halda kənd yoluna çıxdı.

***

Kənd meydanı adamla doluydu. Meydana yalnız kişilər gəlmişdi. Mircəlal ağa əlindəki sinidə çörəklə duz götürmüşdü. Üz-gözünü saqqal basmış, dərd çəkməkdən sanki qəddi əyilmiş, çuxura düşmüş gözlərində güclə seziləcək parıltı qalan bu adamların görünüşündə bir çarəsizlik, məzlumluq vardı. Hər evin, hər komanın içində elə bil hər an alovlana biləcək bir qığılcım vardı. Uşaqlarını sinələrinə basaraq əlləri Tanrıda, dilləri duada gözü yaşlı qadınlar qapıları möhkəm bağlayaraq içəriyə qapanmışdılar.

Az keçmədi ki, süvarilər meydana doluşdular. Hamazasp atın üstündə özünü şax tutaraq, papağını alnından yuxarı itələdi. Müsəlmanları salamlayırmış kimi qara əlcəkli əlini yuxarı qaldırdı. Adamlar nəfəs çəkmədən gözlərini Hamazaspın qorxunc sifətinə zillədilər. Yanağındakı çapıq soyuqdan qızarıb qırmızı xətt kimi çənəsinə doğru uzanırdı. Qaşlarının altında sanki

zəhmli canavar gözləri alışıb yanırdı. Bu gözlərdə rəhm deyilən hec nə yox idi. Sazaqlı havada üşüyən, donan, ayaqlarının birini götürüb qoyan adamları sanki gülləsiz bu baxışların vahiməsi öldürürdü, qılınc kimi kəsib tökürdü.

Mircəlal ağa birdən özünə gəlib əlindəki sinini gördü, üstündəki örtüyü götürüb Hamazaspın qarşısında dayandı:

– Xoş gəlmisiz, komandir, – dedi, -bütün Oxçu adından sizi salamlayır və "xoş gəldin" deyirəm

Hamazasp təkəbbürlə gülümsədi, əyilib çörək kəsdi və bir çimdik duz götürdü, hamı görsün deyə başının üstündən yuxarı qaldırıb ötkəm səslə dedi:

– Əziz oxçulular, mən Hamazasp bu kəndə xoş niyyətlə gəlmişəm. Mənim əmrim olmadan kimsə sizə toxunmayacaq. Amma bir şərtlə. Sizi Ermənistan hokumətinin tabeliyinə keçməyə çağırıram. Yox, əgər bu hokuməti istəmirsinizsə onda sizə iki gün vaxt verirəm. Əşyalara, mal-qaraya toxunmadan özünüz bu kənddən çıxıb gedin. Oxçunu boşaldın. Başa düşdünüz?

Adamlardan səs çıxmadı. Hamazaspın çapıqlı sifətinə yalnız dəhşətdən böyümüş, nəm çəkmiş gözlər baxırdı. Hamazasp əlini tapançaya atdı, ermənilər adamların üstünə cumdu. Mircəlal ağa onların dayanmasına işarə etdi, irəli yeridi və ehtiram qarışıq təmkinlə Hamazaspa üz tutdu:

– Komandir, bu adamlar sizi qarşılamağa gəlib. Özü də duz-çörəklə. Bizim burdan getmək niyyətimiz yoxdu.

– Elə isə Ermənistan hokumətinə tabe olacaqsız.

İzdiham canlandı. Sanki ölüşgəmiş gözlər dirildi və kinlə erməni əsgərlərini süzdü. Mircəlal ağa çevrilib adamlara göz ağartdı:

– Oldu, komandir.

– Əsgərlərim uzaq yol gəlib yorulub. Onları yedirin, içirin.

– Oldu, komandir.

Camaat dağılışdı.

... Günortaüstü Mircəlal ağa hamını məscidə səslədi:

– Namaz qılaq, Allaha dualarımızı edək ki, Sultan bəy özünü tez yetirsin. Bu kafirlər silaha əl atmamış, qan tökməmiş Oxçunu xilas eləsin.

Məscid hələ bu qədər insan görməmişdi. Qışın şaxtalı, sazaqlı havasında əyni nazik, gözləri qorxudan alacalanmış, körpə yaşında əzab, işgəncə çəkən uşaqlar da içəridə yer tapıb oturdular, əlləri qoynunda Mircəlal ağanı dinləməyə hazır oldular.

Mircəlal ağa cibindən köhnə "Quran"ı çıxarıb səhifələdi və avazla dua oxumağa başladı. Bu anda məscidin pəncərəsinə atılan daş içəri düşdü, şüşələr çilik-çilik oldu. Ortalığa atılan qumbaralar partladı. Vay-şivən səsləri qalxdı. Adamlar qapıya cumdular. Qapı bağlıydı. Sonra pəncərələri alov bürüdü. Fəryad səsləri sanki alova bükülüb dağa-daşa, çöllərə yayıldı.

Bu anlarda Hamazaspın sifətindəki dərin çapıq da qırmızı rəngdəydi, gözlərinin içinə qədər alov rəngindəydi. Fəryad səslərinin içində uşaq səsləri də varıydı və bu səslər Hamazaspın könlünü oxşayırdı. Bəlkə də dünyada eşitdiyi ən gözəl səsləriydi.

Və o, dişlərini ağarda-ağarda əmrini verdi:

– Bir nəfər də müsəlmanın sağ qalmasını istəmirəm. Gülləri məsrəf etməyin. Gözəl qızları öldürməyin. Onları mənim yanıma gətirin.

Məscid hələ də yanırdı. Amma səslər bu dəfə qapqara tüstüyə bükülmüşdü. Bu qara tüstü qara kəfən kimi adamları qucağına almışdı.

Erməni əsgərləri Oxçunu ev-ev gəzirdilər, talayırdılar. Baltalarını, xəncərlərini Oxcunun ürəyinə saplayırdılar. Sanki Oxçunun küçələrinə, həyətlərinə qırmızı qar yağırdı. Qırmızı gölməçələr donub qalırdı. Qırmızı qarın rəngi qırmızı duman kimi göylərin üzünə çəkilirdi.

... Pakizə axurda gizlətdiyi tüfəngi götürdü. Ermənilər aşağıya tərəf gəlirdi. Patron qatarını çiyninə aşırıb yüyürə-yüyürə özünü həyətdəki uçulub tökülən köhnə daxmaya saldı. Anasıgil

burdaydı, səssiz ağlayırdılar. Səkinə yaylığını gözünə basdı, ağlamağa gücü qalmamışdı, heysiz halda soruşdu:

– Sən onlara neyniyə bilərsən, Pakizə?

– Bir erməni də öldürsəm qənimətdi.

– Bizi tapacaqlar.

– Ağıllarına gəlməz bu uçuq koma.

Pakizənin tüfəngin qundağından yapışan əlləri əsirdi. Ona elə gəldi ki, nifrətin gətirdiyi həyəcan yavaş-yavaş səngiyir. Dərindən nəfəs alıb içinə dolmuş təlaşı yox eləmək istədi, komanın əl boyda pəncərəsindən həyətə baxdı. İki erməni bir dəstə qızı qabaqlarına qatıb üzüaşağı aparırdı. Kəndin seçmə qızlarıydı: Gültən, Növrəstə, Hilal, Zöhrə... Qızlar qışqırır, nalə çəkir, ayaqlarını torpağa dirəyərək addım atmaq istəmirdilər. Hörükləri açılıb tökülmüş, külək vurub dolaşdırmış, üz gözlərini qara bulud kimi tutmuşdu. Ermənilərdən biri tüfəngin qundağı ilə Gültənin kürəyindən vurdu, qız səntirlədi, Hilal tez irəli keçib onu sinəsinə basdı, yıxılmağa qoymadı. İkinci erməni "irəli get" işarəsi verdi.

Pakizə tüfəngin lüləsini kiçik pəncərəyə qoydu, əli tətikdə bir gözünü qıyıb ermənınin birini nişan aldı, atəş açıldı və o, qışqırmağa macal tapmadan üzüüstə düşdü. İkinci erməni özünü itirdi, sağa-sola baxıb atəş yağdırdı. Pakizə onu da vurdu. Özündə sanki bir aslan gücü hiss elədi. Qorxu bilmədən ətrafa baxdı, ermənilər evləri talan eləyirdi, başları qarışıq idi. Qızlar özlərini itirmişdi. Pakizə komadan çıxdı və qışqırdı:

– Hilal, silahları götürün, tez olun, özümüzü meşəliyə salaq.

Kəndin içində soyqırım gedirdi...

***

Saqqarsu meşəsi erməni baltasından canını qurtaran adamları bağrına basıb gizlətdi. Meşə soyuq idi, amma güllə səsindən, qan qoxusundan uzaq idi, təkcə ağacların üst budaqlarında xarlayıb daşlaşmış qar külək əsdikcə aşağı ələnirdi. Nazik budaqlar qarın

ağırlığına tab gətirməyərək sınıb tökülürdü. Sanki qorxunc röya dünyanın o üzündə qalmışdı.

... Nuru kişinin meşənin dərinliklərinə qaçmağa daha qüvvəsi çatmadıı. Kürəyini ağacın yoğun gövdəsinə söykəyib, şişib qızarmış ayaqlarını qarın içinə uzatdı. Əllərini sinəsinin üstə qoydu və gözlərini yumdu. Birdən səksənib qalxdı, ətrafa baxdı. Böyüklü-kiçikli hər kəs ağacların altına qısılmışdı. Yenə də Dürrə arvadın ağlamağa oxşar həzin səsi gəlirdi:

– Tez olun, yubanmayın. Arxadan gəldilər. Çatdılar... Evimiz yıxıldı.

Nuru kişinin gözləri öz-özünə yumuldu. Kirpıkləri sanki bir-birinə çitəndi və Nuru kişi elə bil dərin yuxu içində də yenə arxasına baxmadan qaçırdı. Dayanmaq istəyirdi, amma şişmiş ayaqları sözünə baxmırdı, yıxılır, durur, ürəyi az qala partlayır, üzüüstə sürünür, əl atıb torpağı ovuclayır, lakin bu cəhənnəmdən xilas ola bilmirdi. Başını qarın üstə qoyur, çarəsizlikdən xısın-xısın ağlayırdı və bu anda sanki kürəyinə sancılan baltanın ağrısını, sinəsi aşağı süzülən qanın istiliyini hiss eləyirdi. Ağlaya-ağlaya öz səsini də eşidirdi:

– Anam-bacım, qorxunu rədd eləyin, erməni ta qaldı kənddə. Allaha şükürlər olsun ki, uşaqları kənddən çıxara bildik. Saqqarsu meşəsi yaxındadı. Elə ki, özümüzü ora yetirdik, demək xilas olduq.

Arxada da başılovlu adamlar qaçırdı. Qadınlardan kiminin kürəyinə uşaq şəllənmişdi, kimi də anasını, atasını qoltuqlayıb sürüyürdü. Onlardan sonra qarın üstündə qanlı ləpirlər iri, qırmızı muncuq dənəsi kimi bir-birinin arxasınca düzülürdü. Amma yuxuda meşəliyə heç cürə çata bilmirdilər...

Nuru kişi ilə üzbəüz oturmuş cavan qadın kürəyindəki uşağı aldı, qarın üstünə qoyub şalı açdı. Uşaqdan səs çıxmırdı. Əlini körpənin soyuq, buz kimi donmuş üzünə vuranda qadın bir anlıq özünü itirdi, sonra da əlini dizinə çırpıb ucadan fəryad çəkdi:

– Uşaq donub. Kürəyim onu qızdırırdı. Bəlkə də acından öldü. Səsi də çıxmadı.

Dürrə arvad yerindən qalxıb yaxına gəldi. Uşağın çöhrəsi qara düşüb rəngi solmuş gül kimiydi. Dürrə əlini gəlinin çiyninə qoyub hirsləndi:

– Şükür elə ki, sənin kürəyində belə rahat ölüb. Gördün uşaqları neynədilər? Təzədən şala bük, qoy ağacın altına. Onu özünə yük eləmə. Yoxsa qaça bilməzsən. Ermənin əlinə keçərsən.

– Onu ac canavarlaramı buraxım?

– Özümüz güclə yeriyirik. Bir azdan tərpənməsək ermənilər bizi haqlayacaq.

– Yox, aparıram, – qadın körpəni yenə şala bükdü, kürəyinə atıb şalın uclarını sinəsində möhkəm bağladı.

– Özün bilərsən, – Dürrə arvad acıqlanıb Nuru kişinin yanında özünə yer elədi.

Nuru kişinin ayağındakı köhnə başmağın tayı ilişib qarın içində qaldı. Amma nə üşüdüyünü hiss elədi, nə də donduğunu. Yalnız dizlərindən yuxarı canı istiydi, ürəyinin döyündüyünü hiss eləyirdi. Nuru kişi hikkəsindən, acizliyindən hönkürmək istədi. Onun meşədən o tərəfə xoşbəxt bir sükut içində olan dərə-təpələrə sanki acığı tutdu. Bu anda ağacların altında onları görə bilməyən uca Tanrıya da acığı tutdu.

Əlacsız halda təkrar göylərə baxdı və birdən-birə xoflanıb ürəyinin dərinliklərində Tanrıdan səssizcə əhf dilədi: "İnşllah, erməniləri cəzasına çatdırar. Bu zülmü yerdə qoymaz. İnşallah. Allah böyükdür. Allah həmişə məzlumların tərəfindədi." Tez-tez dizlərinin donmuş kündəsini ovmağa başladı. Sonra azca dikəlib ucadan dedi:

– Bir az da dincəlin. Meşədən çıxaq. Yoxsa donub ölərik.

– Nuru kişi, – üşüdüyündən dili söz tutmayan arıq, yanaqlarının sümükləri çıxmış, iri gözləri çuxurda zorla parıldayan kişi ona tərəf əyildi:-Məni tanıdın?

Kişinin elə bil səsi də donmuşdu. Tez-tez qırılıb titrəyirdi.

– Tanıdım, Ərsalansan. Nalbənd Ərsalan. Atımı nallatmaq üçün sənin yanına gətirərdim. Atqız kəndindənsən.

– Hə, biz yaxşı ki, vaxtında kənddən çıxdıq.

– Ailəni qurtara bildin? Amma Hamazasp bizi aldatdı, fikirləşmək üçün iki gün vaxt verdi. Məscidə yığılan zaman məscidi yandırdılar. Mən yubanmışdım. Ona görə sağ qaldım. Ailəm, çox sayda adam yanıb kül oldu.

– Allah bu qaniçənlərin cəzasını versin. Mənim də bircə oğlum var. O, da Sultan bəyin dəstəsində döyüşür.

– Uşaqları göndərdik Sultan bəyin yanına, kömək üçün. Amma yubandılar. Oxçunu yerlə yeksan elədi bu kafirlər.

– Ay kişi, ermənilər Zəngəzurun hər yerinə ordu yeridib. Hamazasp Oxçudan başlayıb, o birilər başqa yerdən. Qarabağ tərəfdən gələn vardı. Kəndlərdə müsəlmanları qətl eləyirlər, amma bu dəfə evlərə toxunmurlar. Kəndlər qan içindədi. Yağış yağsaydı qan izlərini yuyub aparardı.

– Ürəyimizə də yağış lazımdı ki, bu dərdu yuyub aparsın. Amma yaralar ölüncə qaysaq bağlamayacaq, – Nuru kişinin üz-gözü qırışdı, qızarmış gözlərindən sanki qan rənginə oxşar damcılar düşdü. Özünü tox tutaraq ətrafa baxdı. Qaçqınlar ayaqlarını, əllərini ovuşdururdular. Qarın içində çoxlu qaraltılar vardı. Üz-gözləri zorla seçilirdi.

– Bu qaçqınların hamısı Atqızdandı?

– Yox, bunlar bizə yolda qoşuldular. Pirdavan, Şəbadin, Aralıq kəndlərindəndi. Bu kəndlərin camaatına ermənilər divan tutub. Vaxtında kənddən çıxanlar salamat qalıb.

Nuru kişinin ucadan hönkürməyi, uşaq kimi ağlamağı gəldi. Sinəsinə elə bil köz döşənmişdi. Göz yaşı içinə süzülürdü, amma sinəsindəki közü söndürə bilmirdi. Sonra elə bil yenə bir anlıq yuxu yaxaladı: otaqda odun qoyulmuş soba gurultu salasala yanırdı. Qıpqırmızı alovdan sobanın divarları köz kimiydi

və onun istiliyi Nuru kişinin yorğun, əldən düşmüş canına rahatlıq gətirirdi...

***

Hovanes atın başını Saqqarsu meşəsinə çevirdi. Saqqarsu kəndi meşənin lap yaxınındaydı. Durbinlə ətrafı seyr edən Seyran sevinc içində qışqırdı:

– Hovanes, meşəyə gedən yolda çoxlu müsəlman var. Onlar yəqin ki, qızıllarını da götürüb qaçır.

– Mən onları taparam, – Hovanes açıqlandı, atın tərkinə bağladığı baltanı götürüb qarın içinə atdı.

Seyran arxadan qışqırdı:

– Gözlə mən də gəlim. Bu talandan əlimə bir şey keçmədi.

– Mən də, mən də...

Ermənilər hırıldaşa-hırıldaşa atlarına mindilər və Saqqarsuya doğru çapdılar.

Meşənin girəcəyində dayandılar. Seyran narahatlıqla soruşdu:

– Biz bu yerlərə nabələdik. Meşə hardan başlayır, harda qurtarır, bilmirik. Onları necə tapaq, Ovanes?

– Mən onları tapmağı bilirəm, – Ovanes uzun bığlarını sığallayıb güldü, – mən müsəlmanların içində böyümüşəm. Meşəyə girən kimi əllərinizi ağzınıza tutub var gücünüzlə “Ya Əli” deyib qışqırın. Onlar kömək gəldiyini güman edib özlərini səs gələn səmtə çatdıracaqlar. Silahları atəş açmağa hazır saxlayın.

Hovanes meşənin içinə girən kimi cilovu çəkib atı saxladı və “Ya Əli” nidaları meşənin içində uğultu ilə yayıldı. Bu uğultulu səs meşənin dərinliklərinə qədər yayılıb əks-səda verdi.

Nuru kişi zorla gözlərini açdı. “Ya Əli” kəlməsi ilə elə bil ölgün ruhu dirildi. Zorla ayağa qalxdı. Qaçqınlar bir-birinə aman vermədən, yıxıla-dura, sevindiklərindən göz yaşı tökə-tökə səs gələn səmtə can atdılar.

Və onların üstünə qar yox, işıq saçan, alova bükülmüş atəş yağdı...

**7.**

Nijde Kareginin uşaqlıq xatirələrinin içində Naxçıvan xüsusi bir yer tuturdu. O, Naxçıvan qəzasının balaca, amma səfalı Güznüt kəndində dünyaya gəlmişdi. Ruslarla farsların 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsindən ermənilər xeyir gördülər: bu xeyir də ondan ibarət oldu ki, onlar elə yerlərə köçürüldülər ki, sonra bu yerləri özlərinə doğmalaşdırıb vətən deyə bilsinlər. Belə yerlərdən biri də Naxçıvan idi. Kareginlər o vaxt Güznüt kəndini seçdilər və burada Kareginlərin bütöv bir nəsli yaşadı.

Güznütdə ermənilər xoşbəxt idi. Başlarının üstündə göy üzü mavi, dağlarının zirvəsi qarlı, qucağı güllü-çiçəkli, bulaqları sərin, örüşləri geniş. Ən başlıcası da qonşuluqdakı müsəlmanlar sadə, sadəlövh... Lakin erməni uşaqları körpəlikdən dil açmamış ürəklərinə düşmənçilik toxumları səpilirdi. Uşaqlar böyüyürdü və böyüdükcə də toxumlar cücərirdi. Gözlər gülümsəyir, ürəklərinin içi kin, nifrətlə silələnirdi.

Nijdenin ürəyində nifrət toxumları erkən cücərdi. Bütün insani duyğularını gizli-gizli zəhərlədi. 1902-ci ildə Peterburq Universitetinin hüquq fakultəsini başa vuranda artıq müsəlmanların qanına yerikləyən qatı daşnak idi. Bir çox savaşlarda türklərə qarşı döyüşdü, dəstələrə başçılıq edərək türklərin qətlə yetirilməsində "şücaət" göstərdi. Naxçıvandan çox-çox uzaqlarda olsa da onu bu torpağa bağlayan tellər üzülüb qırılmadı, əksinə daha möhkəm bağlandı, xəyallarının içində Naxçıvanı işğal etmək sevdası yaşadı.

1919-cu ildə Nijde artıq general rütbəsindəydi. Böyük bir ordunun komandanıydı və Ermənistan hokuməti ona xüsusi etimad göstərərək Zəngəzuru işğal etmək tapşırığını verdi.

***

General Nijdenin ordusu axır ki, Zəngəzura daxil oldu. Dağ yolları Nijdeni yormuşdu. Düzəngaha çatan kimi əsgərlərə dincəlmək əmri verildi.

... Qərargahda sakitlik yarandı. Njde darıxdı, bir vərəq kağızı masanın üstünə qoyub qələmi götürdü və haradan, necə başlamağı düşündü. Bu anda onun yaxın dostları-silahdaşları Tevanla Tərxan səs-küylə içəri girdilər. Tevan əyilib vərəqə baxdı və soruşdu:

– Nə yazırsan, general?

– Tezliklə Çığı dərəsinə hücuma başlayacağıq. Əsgərlərə müraciət yazmaq istəyirəm. Qoy onlar Zəngəzur uğrunda döyüşlərin bizim erməni xalqının həyatında nə qədər vacib olduğunu dərk etsinlər. Buna görə də döyüşlərdə qəhrəmanlıq və şücaət göstərsinlər.

– Məncə sən yubandın, general, o müraciəti yazmasan yaxşıdı, – Tevan qanıqara halda stulu çəkdi və Nijde ilə üz-üzə oturdu.

Tərxan əlindəki qəzeti hirslə masaya çırpdı:

– Artıq müharibə dayandı.

Nijde yerindən dik atıldı, onun rəngi dəyişdi və əsəbi halda bağırdı:

– Nə vaxt?

– Noyabrın 23-də Tiflisdə Azərbaycan və Ermənistan hokumətləri atəşkəs haqqında saziş imzaladılar. Sülh müqaviləsinin bağlanmasında ingilislər və amerikalılar canfəşanlıq ediblər. Azərbaycan nümayəndə heyəti hətta müqavilənin 3-cü bəndinə belə bir əlavə də etməyi xahiş etmişdir, – Tərxan qəzeti götürüb höccələməyə başladı: “Ermənistan-Azərbaycan sülh konfransı tərəfindən məsələ həll olunana qədər Zəngəzurun administrativ idarəçiliyi Amerika Birləşmiş Ştatlarının nümayəndələrinin nəzarəti altında qalmalıdır”.

Nijde qələmi masanın üstünə atdı və ucadan gülməyə başladı. O, gülüşünü kəsə bilmirdi, əlini ağzına tutur, şaqqanaq çəkir, söz demək istəyir, amma bacarmırdı. Tərxanla Tevan təəccüb içində generalın sakitləşməsini gözlədilər. Axır ki, o, yorulub dayandı, kinayə ilə əlini yellədi və soruşdu:

– Siz bu sazişə inandınız? Yəni Ermənistan buna əməl edəcəkmi?

– Azərbaycan tərəfi ordusunu... çəkəcək.

– Amma Ermənistan yox. Ermənistan yenə də sadəlövh müsəlmanları aldadıb. Hokumət məni Zəngəzuru işğal etməyə göndərib. Ordu verib, silah verib, – generalın gözləri canavar gözü kimi işıq saçaraq pəncərədən uzaqlara dikildi və o, təntənə ilə dedi:

– Zəngəzurdan sonra Naxçıvan mənim ayaqlarım altında can verəcək, – silahdaşlarına tərəf çevrildi, – Mənim vətənim Naxçıvandır. Bunu bilirdinizmi?

– Naxçıvan? Hər halda zarafat eləmirsən, general.

– Güznüt kəndində mənim babalarımın və nənələrimin ruhu yaşayır. Mən onları tanımasam da onların ruhu dayanmadan məni Naxçıvana çağırır. İşğal başa çatan kimi bütün erməni məzarlarını ziyarətə gedəcəm. Onlar mənim gəlişimi duyacaqlar.

– Naxçıvandan bizə pay düşəcəkmi, general?

– Boş söhbətlər mənlik deyil, Tevan. Biz hələ Zəngəzurdayıq və qarşıda savaş var, – ağ vərəqi yenidən qarşısına çəkdi, – müraciəti yazıram, siz isə onu çap etdirib bütün orduya yayacaqsınız. İndi isə gedin. Atəşkəs ermənilər üçün qanun deyil, müsəlmanları aldatmaq, vaxt qazanmaq üçündür. Özünüzü yormayın.

Otaqda sakitlik yaranan kimi Nijde yazmağa başladı:

“Əsgərlər!

Sabah Cığı dərəsinə qarşı bizim hücumumuz, səlib müharibəmiz başlayır.

Sizin güclü hücumunuz və zərbələrinizdən ağlını itirən düşmən öz kəndlərini buraxıb gedəndə sizi bu gün düşmənlər tərəfindən təhqir olunmuş xarabalıqlar salamlayacaqdır.

Sabah bu vadidə ayaqlarınızın taqqıltısı, silahlarınızın gurultusu eşidiləcək....

Bütün kəndləri yandırın, talan edin, hücum zamanı külli

miqdarda dinamit və partlayıcı çəlləklərdən istifadə edin.

İrəli, Allah və Davud bəyin qisasçı ruhu bizimlədir.

Qafan, Tatev (Gorus)
Gendaz (Meğri) hərbi qüvvələrinin
komandanı NİJDE."

Nijde vərəqi bir tərəfə qoydu, şinelini çiyninə atıb qərargahın həyətinə çıxdı. Yenicə gələn əsgərləri düşərgədə yerləşdirməyə aparırdılar. Komandirlər aşağı-yuxarı qaçır, bağırır, tez də səslərini kəsirdilər. Nijde başını qaldırıb göylərə baxdı. Sanki gələcək döyüşlər üçün Tanrıdan xeyir-dua istədi...

***

"Biz Oxçu, Şabadin və Gığı dərəsi sakinləri hər tərəfdən ermənilərlə əhatə olumuşuq. Onların bütün əməlləri və rəftarları bizə hücum etməyə hazır olduqlarını açıq şəkildə sübut edir, onların köməyinə nizami qüvvələr gəlib. Ermənilərin top və pulemyotları var.

Biz çoz çıxılmaz vəziyyətdəyik, biz qorxuruq. Sizin ayaqlarınıza düşüb mərhəmət diləyirik və bizi xilas etmənizi xahiş edirik. Bizə güllə və pulemyotu olan bir neçə zabit göndərin. Əgər göndərməsəniz xəbər verin ki, biz vaxtında öz kəndlərimizi tərk edək. Yoxsa biz bilirik ki, xilas ola bilməyəcəyik".

Həyəcan dolu teleqramlar Bakıya qanadlanırdı, qapıları döyürdü. Amma nə səs vardı, nə kömək...

**10.**

Sokrat Məlik Şahnəzərov Şuşanik kəndinin görkəmli bir yerində tikilmiş ikimərtəbəli binanın ikinci mərtəbəsindəki salonunda aşağı-yuxarı gəzir, tez-tez saatına baxır, hövsələsiz halda əlini masaya çırpır, övkəsini cilovlaya bilmirdi. Bir-birinə yaxın olan qan çəkmiş gözləri, içində getdikcə artan, daş kimi ağırlaşan qəzəbinin sinirə bilmədiyi acısı onun bütün sifətinə, baxışlarına, gözlərinin içinə qədər yayılırdı. Gözləri evlə

üzbəüz olan yamaclardan, üzüaşağı kəndə gələn el yolundan çəkilmirdi. Hələ ki. yollarda kimsə görünmürdü.

Sokrat şişman bədənini stula saldı, cibindən papiros çıxarıb yandırdı və sanki papirosun zəhərini içindəki zəhərə qataraq əsəbi halda yerindən dikəldi və həyətə qışqırdı:

– Tiqran... Tiqran...

Samovarı alışdıran Tiqran belini dikəltdi və üzüyuxarı Sokrata baxdı:

– Buyur, Sokrat ağa.

– Qalx yuxarı.

Tiqran hirslə əlindəki odunu yerə atdı, deyinə-deyinə yuxarı qalxdı.

Sokrat fısıldayırdı:

– Tiqran, bunlar harda qaldı? Bəlkə hamısı birdən müsəlman gülləsinə tuş gəldi?

Tiqranın gözləri böyüdü:

– İraq olsun, Sokrat ağa.

– Bəs niyə yubandılar?

– Onların gəlişinə hələ iki saat var, Sokrat ağa.

– İki saat? – Sokrat ağzını əydi, ətli yanaqları sallandı.

– Akop, Armenak, mənim qardaşım Yegiş çox ləyaqətli, vətənpərvər, dürüst adamlardı. Bəlkə... sizin... saatınız geri qalıb, düz işləmir, Sokrat ağa?

– Saatım? – Sokrat saatını qulağına tutdu, xeyli dinlədi, sonra təəssüflə dedi:

– Zəhrimar yenə dayanıb.

Tiqran əl-ayağa düşdü:

– Mən sizə çay gətirim.

Sokrat həvəssiz əlini yellədi:

– İstəməz...

İçindəki övkə yox oldu. Sanki gözəgörünməz bir qüvvə içini işıqla doldurdu, duyğularını qanadlandırdı: “General Dro artıq ordusu ilə Əsgəran keçidinə tərəf hərəkət edir. Bütün ermə-

nilər Əsgəran keçidinin işğalını gözləyir. Şuşa ilə Zəngəzurun əlaqəsi kəsiləcək və Yuxarı Qarabağın alovu bütün müsəlman kəndlərini yandırıb məhv edən nəhəng tonqala çevriləcəkdir. Ermənilər üçün daim əngəl olan Xosrov bəy də, hələ onun qardaşı Sultan bəy də bu tonqalda yanıb kül olacaqdır. Andronikin qisası Sultan bəydən alınacaq. Xosrov bəyə özüm divan tutacağam," Sokrat qarşısında Xosrov bəyi görürmüş kimi dişlərini qıcadı, yumruğunu düyünlədi.

Cibində saxladığı Qarabağın xəritəsini çıxarıb məmnunluqla masanın üstünə açdı. Köhnə xəritəni qat kəsmişdi. Müsəlman kəndləri bircə-bircə qırmızı qələmlə dairəyə alınmışdı. Çox qəribəydi ki, müsəlman kəndlərinin hamısını erməni kəndləri mühasirəyə almışdı. Bəlkə də qəsdən beləydi. Sokrat gülümsündü: bu kəndləri ovcuna yığıb məhv etmək çox asan olacaqdı...

Bu anda qapı açıldı. Hərbi paltar geymiş silahlı ermənilər içəri girdi. Bunlar Qarabağdakı erməni dəstələrinin komandirləri idi. Akop əlini gicgahına aparıb gur səslə dedi:

– Eşq olsun, Sokrat ağaya.

Sokrat ciddiləşdi, qaşqabaqlı halda dedi:

– Əyləşin, vaxt azdı.

Tiqran ürəyindən keçirdi: "Çox ətiacı adamdı".

Sokrat masadan aralandı, pəncərədən Şuşanik kəndinin qaralan axşamına, qaranlıq içində itib batan yamaclarına, güclə seçilən başı bəyaz dağlarına baxdı, üzünü Armenak gilə çevirdi:

– Dünən çox yaxşı xəbərlər almışıq. General Dro və Dəli Qazar Əsgəran uğrunda savaşa başlayırlar. Biz öz doğma torpaqlarımızı müsəlmanlardan geri ala bilmirik. Amma artıq vaxtdır. Dro Əsgəran keçidini işğal edən kimi bütün Qarabağ erməniləri qiyam qaldıracaq. Qarabağda axan çaylar dayanacaq. Bu çaylardan qan axacaq, qan, – Sokrat dayandı, tövşüyən nəfəsini dərdi, bu anlarda sanki onun gözlərindən də qan rəngli alov püskürdü, – biz bu qiyamı müsəlmanların növruz bayramı gecəsinə planlaşdırmışıq. Bu zaman onların başı qarışıq olacaq,

bütün ailə süfrəbaşında ikən bizim atdığımız toplar, güllələr müsəlmanların qanını tökəcək və o plov çəkilmiş qabların üzərinə qan çilənəcəkdir.

İçərini vəhşi gülüş götürdü. Ermənilər yaşarmış gözlərini sildilər və diqqətlə Sokrata baxdılar.

Akop ayağa qalxdı:

– Məncə biz Şuşaya girməmişdən əvvəl Xosrov bəyi aradan götürməliyik.

Samir Avakov ağarmış sıx saçlarını yuxarı daradı və könülsüz dedi:

– O çox igid, bacarıqlı adamdı. Qarabağın və Şuşanın indiyədək alınmamasının səbəbi Xosrov bəydi.

– Düşməni şişirdib bir qəhrəman əfsanəsi yaratma, – Yegiş İsaxanyan əsəbiləşdi.

– O halda Xosrov bəy indiyədək niyə sağdı və öz işindədi? Cavab verin.

Otağa bir anlıq sakitlik çökdü.

Yegiş İsaxanyan əl-qolunu ölçə-ölçə nifrətlə dedi:

– Ona görə ki, biz onun ağlı, zəkası qarşısında məğlub olduq. Niyə Xosrov bəyin igid və ağıllı bir adam olduğunu qəbul etmək istəmirsiz?

Armenak Xaçaturov gözlənilmədən yumruğunu masaya çırpıb bağırdı:

– Çünki sən adamı ruhdan salırsan.

– Onun yerində erməni olsaydı özünü qorumaq üçün bir ordu saxlayardı. Silahlı əsgərlərin müşaiyəti ilə işdən evə gedərdi.

– Amma mənə elə gəlir ki, o, bir gecə də öz evində yatmır.

Sokrat qışqırdı:

– Bizim dərdimiz Xosrov deyil. Kəsin səsinizi.

– Amma bu qiyamın qarşısını Xosrov bəy alacaq, mən bu sözü burda dedim. Əgər bizim dərdimiz Xosrov deyilsə... Mən sizə ən güclü düşmənin adını çəkirəm. O, sağdırsa general Dro da onunla bacarmayacaq.

– Bəs onda biz niyə qiyam qaldırırıq? -Sokrat Armenakla üz-üzə dayandı.

– Biz Qarabağı almağa cəhd göstəririk və buna da əmin olmamalıyıq, əgər Xosrov sağdırsa...

Sokrat əlini yelləyib arxasını Armenaka çevirdi:

– Mənmi günahkaram? Mənmi Xosrov bəyi öldürməliydim? Bunu Qarabağı, millətini sevən hər bir erməni etməliydi. Qiyamqabağı yenə də gec deyil və ilk növbədə Xosrov bəy aradan götürülməlidi, – Sokrat şəhadət barmağını Armenakın üstə silkələdi, sonra dərindən nəfəs alıb dayandı, – planımız belədi: martın 21-də Şuşa qəzasının ətrafında xidmət edən iki nəfər erməni pristavı başının 15-20 nəfər strajniki ilə, əslində iki yüz nəfər gizli dəstəsi ilə Şuşa qalasından içəri keçir.

– Onları sorğu-suala tutmazlarmı? Axı indi Xosrov bəy Şuşanın özündə elə bir ciddi qayda-qanun...

– Onlar general-qubernatoru novruz bayramı münasibəti ilə təbrikə gəldiklərini söyləyəcəklər. Şuşada bir dəstənin başçısı da Xurşuddur. O, da gizlicə evində bir toplantı keçirəcək və mənim əmrimi gözləyəcəklər.

Martın 22-də isə qiyam başlanacaq. Bunun üçün Şuşanik kəndindən havaya top atılacaq və qiyamın başlanması üçün işarə veriləcəkdir. Silahlı erməni dəstələri ilk əvvəl Şuşada saxlanan Azərbaycan ordusunun qarnizonuna basqın edəcəklər. Son əsgərə qədər məhv ediləcək. Sonra isə bütün müsəlman məhəllələri, müsəlman kəndləri yandırılacaq, beşikdəki körpəyə qədər rəhm olunmayacaq... Başa düşdünüz? Güllələrə qənaət edin. Balta və xəncər daha əlverişlidi. Millətimizin böyük xalq qəhrəmanı Nijde belə deyir: bir günümüz də türkə qarşı mübarizəsiz keçməməlidi.

Tiqran əlavə etdi:

– Andronik isə deyir: türkə xəyanət hər bir ermənininin həyat amalıdı.

Armenak ucadan güldü:

– Ən yaxşı sözü general Dro demişdir: necə də nəşəlidi türkün öldürülməsi. Bu nəşəni dadmaq, hiss etmək hər bir erməninin arzusu və xəyalıdı.

Sokrat Məlik Şahnəzərov xəritəni yığışdırdı:

– Mən burda müsəlman kəndlərini işarələdim. Onlar həddən artıq çoxdu. İşğaldan sonra bu xəritəni xatirətək saxlayacağam. Çünki təzə xəritədə bir müsəlman kəndinin adı yazılmayacaq, biz onların adını dəyişəcəyik..

İçərini bürüyən alqış səsləri pəncərədən axıb Şuşanikin hər tərəfinə yayıldı.

***

... Həcər ocağa bir-iki çırpı atıb, közərən odu var gücü ilə pülədi. Acı tüstü zəhər kimi gözünün içini acışdırdı. Əlinin arxasını gözünün üstə basdı və gözlərindən axan yaşı quruladı. Amma gözləri yenə də açışırdı. Ocaq birdən alışdı. Doğranmış kötüklərdən ikisini ocağa atdı. Sonra mis qazanın yarısından su töküb ocağın üstə qoydu.

Tut ağacının altında Qəzənfər samovarı saldı. Həcər kötüyün üstə oturub yanaqlarını əllərinin içinə aldı:

– Qəzənfər...

– Hay bəli.

– Bilirsən, ağlıma nə gəlir?

– Sənin ağlına hərdən elə şeylər gəlir ki, mən qorxuram, Həcər.

– Nədən qorxursan? -Həcər incimiş soruşdu.

– Nə bilim, ağıldan kənar şeylərdən.

– Sən canın.

– Canına and olsun.

– Az qalır ürəyim partlasın, Qəzənfər. Yəni biz Şuşanın xoş gününü görmədən ölüb gedəcəyik?

– Sən başqa söz deyəcəydin, -Qəzənfər köks ötürdü, – erməni köpəkoğlu Şuşadan əl çəkməz. Ömründə əl çəkməz.

– Amma mən yenə də ümid eləyirəm ki, bir gün müharibə qurtaracaq, dərman üçün Şuşada bir dənə də erməni qalmayacaq.

– Amma Xosrov bəy onların anasını ağladır. Nə fayda, abırları yoxdu.

– Heylədi, – Həcər birdən qaşlarını düyünləyib qonşu həyətə baxdı, sonra Qəzənfəri dümsüklədi, – başını yuxarı qaldırma. Kənardan bizə göz qoyan olar. Erməni Xurşudun evində yığıncaq var.

– Həcər, kök kişini tanıdınmı? Qatı daşnak Markardı.

Həcər əlini dizinə çırpıb içini çəkdi, – Qəzənfər hələ diqqət elə: Oskan, Sumbat, Sokrat Məlik Şahnəzərov, Balasan, Hayrapetov... Hələ o birilər... Bunların nə ölümü var burda? Hamısının da başı yastı, burnu əyri, ayağı axsaq, içi də gürzə kimi təhlükəli.

– Sən burax gürzəni.... Bunlar niyə yığışırlar Xurşudun evinə? Yox, bunlar yenə qan tökməyə hazırlaşır, plan tökürlər burda.

– Qəzənfər, qaranlıq düşsün, gedək pəncərənin altında gizlənib söhbətlərinə qulaq asaq. Görək nə plan cızırlar? Sonra da Xosrov bəyi xəbərdar eliyək?

– Aaaz, sən dəlisəəən? – Qəzənfər özündən çıxdı, – görmürsən həyətdə nə qədər silahlı erməni var? Özüm tək gedim.

– Sən də mənsiz gedəmməzsən.

– Niyə?

– Çünki erməni dilini bilirəm. Özü də təmiz bilirəm. Amma sən bilmirsən. Onların söhbətindən heç nə başa düşməzsən.

Qəzənfər bir anlıq fikrə getdi, başını qaşıdı və əsəbi halda dedi:

– Düzdü, getsəm də faydasızdı. Biz onlara heç zad eliyə bilmərik.

– Xosrov bəyə xəbər verək. Əsgərlərini göndərib hamısını atsın türməyə.

– Həəə?

– Həəə!

– Yaxşı neyniyək? İkimiz getsək... bəlkə bu ermənilər bizi güdür? Mən arxadan-çəpərdən adlayıb gedim.

– Məndən nigaran qalma, Qəzənfər. Tez get.

Qəzənfər arxaya qaçdı, amma tələsik qayıtdı:

– Mən səni burda tək qoyub gedəmmərəm. Ermənin qulağının dibində.

– Mən evə girmərəm, Qəzənfər, narahat olma.

– Bəs harda gizlənəssən?

– Qalxacam tut ağacının düz təpəsinə.

– Boooyyy... Aaaz, sən ağlını itirmisən, Həcər?

– Qəzənfər, bu dəqiqə ikimizin də evdə olmağımız təhlükəlidi. Yaxşı ki, uşaqları göndərdik kəndə. Sən Xosrov bəyin yanına qaç, mən də ağacda gizlənim. Sən ki, uşaqlıqdan mənə bələdsən. Oğlanlar da mənnən mərcə girə bilməzdi... İndi niyə qorxursan, Qəzənfər? Ermənin ağlına da gəlməz ki, tut ağacının başında adam var. Özü də qadın xeylağı. İti bıçaq əlimdə, Xurşudun da evini alaram nəzarətə, sən yubanma. Amma gələndə yenə də arxadan gəl. Birdən həyətimizdə silahlı erməni olar. İndi məni gözlə, içəri girim. Əmanət var, onu götürüm, birdən ermənin əlinə keçər.

Həcər otağa göz gəzdirdi. Əlini uzadıb otağın baş tərəfində yığdığı yorğan -döşəyin içindən qızıl düyünçəsini tapdı, onu qoynunda gizlətdi, sonra çırağın piltəsini aşağı çəkib qapını qıfılladı, pıçıltı ilə dedi:

– Get, mən də gizlənirəm.

– Bıçağı götürdün?

– Bıçağı da, qızılları da götürdüm.

... Qoca tut ağacı az qala kiçik həyətin yarısını tutmuşdu. İri budaqlar birmərtəbəli evin damına qədər uzanmışdı. Həcər ehtiyatla yuxarılara qədər qalxdı, budağın üstündə özünə yer elədi. Burdan Xurşudun evinin içi aydın görünürdü. Masanın üstündə təkcə çay vardı. Ermənilər əl-qol hərəkəti ilə nəyi isə, çox

güman ki, müsəlman kəndlərinə, eləcə də şəhərə hücum planını qızğın müzakirə edirdilər.

Həcər nifrətlə yumruğunu düyünlədi: "Kaş əlimdə silah olardı. Hamınızı bircə-bircə alnınızdan güllələrdim".

... Otaqda ağız deyəni qulaq eşitmirdi. Ən çox bağıran, qatı erməni söyüşü söyən yekəqarın, az qala iri gözləri hədəqəsindən çıxan Balasan idi. Xurşud onu dilə tutub sakitləşdirməyə çalışdı:

– Siz ağıllı adamsız, Balasan, qışqırmaq nəyə lazım? Qonşular duyuq düşər.

Balasan Hayrapetyan sanki danışmaqdan yorulub dayandı, alnında buğlanan isti təri sildi, köynəyinin açılmış düymələrini bağladı və bayıra səsləndi:

– Orda kim var?

Saqqallı cavan erməni qapıdan boylandı:

– Burdayıq, buyurun.

– Yaxınlıqda müsəlman evi varmı?

– Var. Üzbəüz.

– Onları məhv edin, evi yandırın.

– Baş üstə.

– Bu tezlikdə? – Xurşud heyrətlə soruşdu və silahlı ermənini geri çağırmaq istədi. Balasan hirslənib yenidən söyüş söyməyə və bağırmağa başladı:

– Sözümü kəsmə. Getsin yandırsın. Mənim təklifim odu ki, elə bu gecə qiyam başlamamışdan general-qubernatorluğa basqın edək, Xosrov bəyi əsir götürək.

Sokrat Məlik Şahnəzərov onun sözünü kəsdi:

– O zaman Azərbaycan hokuməti Şuşaya ordu yeridəcək.

– Şuşada indi də bir qarnizon var.

– Lakin əsgər azdı, – Sumbat üzünü turşutdu, – Xosrov bəy ermənilərin gözünün odunu alıb. O, sağ qalsa bizim Şuşada və onun ətrafında qaldırdığımız qiyamın heç bir əhəmiyyəti olmayacaq. O, bütün Şuşanı ayağa qaldıracaq, müdafiə dəstələrini

səfərbər edəcək, üstəlik Andronikə qan udduran Sultan bəyi köməyə çağıracaq. Mən Balasanın tərəfindəyəm. Bu kişi ağıllı söz deyir.

– Sumbat haqlıdır, ermənilər səs-səsə verdilər, – ortalığın gərgin sükutu hər kəsin içində bir vahimə yaratdı. Sumbat daha da ruhlanıb qızğınlıqla sözünə davam etdi:

– General Dro və Dəli Qazar Xosrov bəyi aradan götürməyi əmr edib. Dronun və Dəli Qazarın ordusu martın 21-də Əsgəranı işğal edəcək. Bizim üçün, eləcə də Azərbaycan üçün Əsgəran strateji cəhətdən vacibdir. Buna görə də Dro hücuma keçərək Əsgəranı qoruyan Azərbaycan ordusunun əsgər postlarını məhv edəcək, Qarabağla Zəngəzurun əlaqəsini kəsəcəkdir. Biz Şuşa erməniləri ayağa qalxmalı, şanlı ordumuza kömək etməliyik. Dronun və Dəli Qazarın dəstələri ilə birləşib Bakıdan kömək gəlməsinə əngəl olmalıyıq, Qarbağın işğalını tam olaraq başa çatdırmalıyıq.

Xurşud söhbətə qarışdı:

– Dəstələri silah-sursatla təmin etməliyik.

– Yerevandan hərbi yardım və əsgəri qüvvə gələcək. Qarabağda bir müsəlman da qalmamalıdı.

– Biz hazırıq, – masanın ətrafındakılar eyni anda ayağa qalxdılar və bağırdılar.

***

Həcərə elə gəldi ki, əlindəki silahı atəşə hazır vəziyyətdə tutmuş erməni onu gördüyü üçün tut ağacına tərəf gəlir. Bir anlıq ürəyi qızğın həyəcan içində çırpındı, qan üzünə vurdu, alnını soyuq tər basdı, dərindən nəfəs alıb sıx yarpaqların arasında gizləndi.

Cavan erməni tut ağacının altında xeyli dayandı, ətrafı gözdən keçirdi, pəncərədən otağın içinə baxdı, qapıya sarı getdi, qıfılı əlləşdirdi, sonra çiyni ilə taxta qapını gücü gəldikcə laxlatdı və yerindən oynadıb açdı.

Həcər bir anlıq harda olduğunu unutdu, əlini uzadıb başının üstündəki budaqdan yapışdı və azca dikəlib ermənini izlədi, öfkəsini cilovlaya bilmədi, dişlərini bir-birinə sıxdı: "Şeytan deyir... Bu anda elə bil Qəzənfərin səsini eşitdi:" Sən Allah, şeytana uyma, sakit otur yerində..."

Cavan erməni içəridə xeyli ləngidi, yerə çırpılan qab-qacağın səsi gəldi, yəqin ki, bir şey tapmayıb əsəbi halda həyətə çıxdı. Yenə tut ağacının altında xeyli dayandı, sonra Qəzənfərin düzəltdiyi taxta skamyada oturdu, silahı yanına qoyub cibindən papiros çıxardı və yandırdı, ayağını ayağının üstə aşırıb ləzzətlə papirosunu tüstülətməyə başladı.

Həcərə elə gəldi ki, ürəyinin döyüntüsü yağış damcısı kimi tappıltı salır və erməni də yəqin ki, bu səsi gec-tez eşidəcəkdi... Bu anda qulağının dibində sanki Qəzənfərin tənbehli səsini eşitdi:

"– Həcər, aaz sən qorxursan?

– Nədən?

– Bu erməni dığasından?

– Allah vurmuşdu onu.

– Bəs niyə ürəyin belə tappıltı salıb, aaz? Niyə əsirsən?

– Səndən yana əsirəm, Qəzənfər? Birdən girərsən həyətə, bu erməni dığası da sənə güllə atar, evim yıxılar.

– Sən bircə sakit ol, məni düşünmə.

– Heyləmi, Qəzənfər? Tay əsməyim keçir. Bax ürəyimin döyüntüsü də səngidi. Bayaqdan hirsimdən gözüm də tor görürdü....Valla, bu erməni dığasını dirigözlü parçalaram. Əlimdə də bıçaq... var".

Erməni Xurşudun həyətində səs eşidib cəld ayağa qalxdı və darvazadan çıxdı. Bu anda ağacın altında qaraltı göründü, Qəzənfərin pıçıltısı eşidildi:

– Həcəəər...

– Gizlən, erməni dığası indicə qayıdacaq.

– Çəpərin yanında gözləyirəm.

Həcər iki-üç budaq yenmişdi ki, ağacın altında hənirti eşit-

di. Nazik budaqları aralayıb aşağı baxdı. Erməni arın-arxayın ikinci papirosu yandırdı.

– Qurgen...

Kimsə onu harayladı. Qurgen silahı unudub darvazaya tərəf qaçdı. Yaşlı erməni hökmlə soruşdu:

– Öldürdün onları?

– Hələ yox.

– Niyə?

– Evdə kimsə yoxdu. Həyətdə oturub gözləyirəm. Çıraqları yanır. Qayıdacaqlar.

– Şam yeməyi verirlər. Qarnını bərkit, qayıt.

– Yaxşı, get gəlirəm. Silahımı götürüm.

– Axmaq, silahı ordamı qoymusan? – yaşlı erməni deyinə-deyinə getdi.

... Qurgen silahını qoyduğu yerdə görmədi. Vahimə onu basdı. Vəhşi kimi özünü sağa-sola çırpdı. Otağa girmək istəyəndə bu anda başına dəyən ağır zərbədən səntirlədi, sanki gözlərindən isti qığılcım töküldü və o, arxası qatda yerə gəldi.

Həcərlə Qəzənfər cəsədi arxa tərəfə sürüdülər. Qəzənfər silahı götürüb əlində oynatdı.

– Xosrov bəylə görüşdün?

– Görüşdüm, -Qəzənfərin səsində indiyədək duymadığı bir ötkəmlik vardı:

– Dəstə başçılarını bir-bir tuturlar. Bir azdan Xurşudun da evini mühasirəyə alacaqlar. Bakıdan kömək gələcək. Biz də partizan dəstəsinə qoşulaq.

– Mən də döyüşəcəm, Qəzənfər.

– Nəbinin Həcərindən kəm deyilsən ki, Həcər. Kim olsaydı ermənini görən kimi tutun başında bağrı çatlardı.

– Qəzənfər, kaş sənin də adın Nəbi olardı.

– Aaz, elə Qəzənfər də igiddi, görmədinmi ermənini necə şil-küt elədim.

– Düz deyirsən, Qəzənfər, – Həcər ona sığındı. Və iki kölgə dar dalanlardan keçib qubernatorluğa tələsdi...

***

Sultan bəy Hacısamlıya tərəf at çapan igidləri diqqətlə seyr edirdi. Onun iri gözləri qıyılmış, dodaqları bir-birinə sıxılmış, sifətinin cizgiləri sərtləşmişdi. General Dronun Əsgəranı işğal etməsi xəbəri sanki başının üstündə ildırım kimi çaxmışdı. Ordu Şuşaya doğru irəliləyirdi... Xosrov bəy orda tək idi. Xosrova kömək gərək idi.... Arxası, dayağı Sultan bəyi gözləyirdi... İndi onun bir hayqırışı, çağırışı ilə Zəngəzur igidləri Hacısamlıya axışırdı... Bu anlarda Sultan bəyin ruhundakı döyüşkənlik havası bütün hissiyatını üstələdi... Qıs-qıvraq geyinib atına süvar olmaq, özünü Xosrova yetirmək, dağı-daşı lərzəyə salan uca səslə hayqırmaq istədi:

– İgidlərim, aslanlarım... düşmənə aman verməyin. Bu torpaq bizə babalarımızın əmanətidir. Qanımız tökülsə də biz düşməni bu torpaqlara yaxın qoymayaq. Onlar bizim ciyərimizi parçaladılar, ocaqlarımızı söndürdülər, yaylaqların gül-çiçəyinə şeh əvəzinə qan çilədilər. Taxıl zəmilərimiz su əvəzinə qanla suvarıldı. Bizim ən güclü silahımız qeyrət, namusdur. Bizim ən güclü silahımız həm də bu torpağa sevgimizdir. Biz bu torpaqda doğulduq, bu torpaqda da məzara getməliyik...

Sözlər ürəyində qaynadı. Amma birdən sanki coşan-daşan duyğularının içinə bir şübhə də sızdı: “Canımızı qurban verək... Amma Azərbaycan Cumhuriyyəti də arxamızda dayana biləcəkmi? İndiyə qədər yetərincə dayanmadı... Bəs bundan sonra?... Rus Leninin qəddar əsgərləri ermənilərin arxasındadı. Çarı devirən, yeni bir hokumət quran Lenin Zəngəzurdan, Qarabağdan əl çəkəcəkmi? Ağlım heç kəsmir... “

Şübhə qurd kimi içəridən ürəyini diddi, gözlərinin işığına kölgə saldı. Ona elə gəldi ki, Hacısamlıya daxil olan süvarilər qəflətən atlarının başını dağlara sarı çevirdilər. Ona elə gəldi ki, düzlərdən, çöllərdən, dərə -təpələrdən, dağların ətəyindən yüzlərlə, minlərlə süvari dağlara sarı-günbatana sarı atlarını çapırdı. Sultan bəyin ürəyi sıxıldı, gözləri qaraldı, baxışları toran-

laşdı. Ona elə gəldi ki, hətta günbatandan yorulmuş atların kişnərtisini də eşitdi.

Bu anda Çal Aslanı, Ağammədi, Seyid Həmidi, Aslan bəy Sultanovu yanında gördü:

– Bəy, biz hazırıq.

Və bu anda elə bil Sultan bəyə yeni qüvvə gəldi, yüzlərlə, minlərlə atlı günbatandan geri qayıtdı. Sultan bəy də atlandı, süvarilər gündoğana qanadlandı...

***

Xosrov bütün gecəni at belindən düşməmişdi. Qarnizonun əsgərlərini ayağa qaldırmış, könüllü dəstələri şəhərin müdafiəsinə göndərmişdi. Ermənilər Şuşanı top atəşinə tutmuşdular. Evlərindən, isti yataqlarından vahimə içində qalxan uşaqlı-böyüklü hər kəs canının hayına qalmışdı. Şuşa erməniləri də bir tərəfdən...

Xosrov bəy masanın arxasında oturub bir anlıq başını ovuclarının içinə aldı. Sanki Şuşaya gələn bütün yollar üzünə qapanmışdı. Nə işıq görünürdü, nə səs eşidilirdi... Bu anlarda Çingiz bəy də ondan çox-çox uzaqlardaydı, təzə işində. Amma qardaşı Sultan bəy başının dəstəsi ilə Şuşaya sarı yol gəlirdi. Gəlirdi ki, Andronikə zəfər çaldığı kimi general Droya, Dəli Qazara da öz gücünü göstərsin... Xosrov bəyin qaşlarının düyünü açıldı. Sultan bəyi xatırlamaqla sanki ruhunun dərinliklərinə bir sərinlik yayıldı. Elə bil canındakı yorğunluq, içindəki şübhə və inamsızlıq yoxa çıxdı: "Bizə kömək gəlməlidi. Kömək gələnə qədər erməni ordusunu şəhərə buraxmamalıyıq... "Bakıya göndərəcəyi teleqramı tələsə-tələsə yazdı:

"... Martın 23-də ermənilər gecəyarısı bizim Xankəndində olan döyüş hissələrimizə güclü hücum etdilər. Eyni zamanda ermənilər Şuşaya da hücuma keçdilər. Hücumun qarşısı alınıb, ətrafda atışma gedir. Şuşa Şuşikənddən bombalanır.

Ağdam Şuşa arasında olan teleqraf kəsilib.

Ekstremistlərin uzaqlaşdırılması üçün bütün tədbirlər görülür.

Dəstə rəisi tərəfindən hərbi-səhra məhkəməsi yaradılıb.

Xahiş edirəm, təcili olaraq adamlarla, ən başlıcası patronla kömək edin.

General-qubernator
Xosrov bəy SULTANOV".

Xosrov bəy fikrə getdi, düşündü və yenicə aldığı məlumatı ikinci teleqramla Nəsib bəy Yusifbəyova yazdı. Teleqramda deyilirdi:

"Zəngəzur uyesdinin rəisindən indi aldığım məlumatın məzmununu sizə çatdırıram:

Ermənilər bütün cəbhə boyunca ciddi kəşfiyyat aparırlar. Etibarlı məlumatlara görə, bütün cəbhə istiqamətlərində hücuma hazırlaşırlar. Onların başlıca məqsədi Qarabağla birləşməkdir.

Partizan dəstəsinin komandiri təcili olaraq əlli min türk, iki yüz min rus, əlli min lebelev, on beş min ingilis, iki yüz min Berdanoclu patron göndərməyi xahiş edir. Göndərilən patronlar ancaq bir döyüşə kifayət edəcək.

Xahiş edirik, general Şıxlinskinin vəd etdiyi dağ-batareya, piyada alayının göndərilməsinə sərəncam verəsiniz.

General-qubernator,
Xosrov bəy SULTANOV,
dəstə rəisi,
general NOVRUZOV".

... Top atəşləri güclənmişdi. Aramsız güllə səsləri eşidilirdi. Bu güllə səslərinə bağırtı, qışqırtı, fəryad səsləri də qarışırdı. Açıq pəncərədən içəri xız və tüstünün kəskin iyi dolurdu.

Qubernatorluğun həyətində tək-tük adam vardı. Xosrov bəy Sultan bəyin yolunu gözləyirdi. Gözünü Şuşanın ətrafında sıralama dayanan qarlı dağlardan çəkmirdi. Bilirdi ki, Sultan bəy təhlükəni gözə alaraq keçilməz yollarda başının dəstəsi ilə atını çapır, özünü ona yetirməyə tələsir... Bir anlıq kövrəldi. Onlar

bu torpaq üçün canlarını fəda etməyə hazır idilər. Bütün həyatlarını savaşda-döyüşdə keçirdilər. Özü də ömrünün ən gözəl, qaynar illərini inandığı bir məqsədə, amala həsr etdi. Sonradan nə ailə qurdu, nə də təkrar sevgi hissləri yaşadı. Onun ən böyük sevgisi Zəngəzur və Qarabağ idi. Bu torpağa lazım olan sülh və əmin-amanlıq idi... Amma heyif ki, Azərbaycan hokuməti bu əvəzsiz torpaqlara lazımi diqqət yetirmədi. Torpaq qan ağlayarkən vaxtında onun yaralarını sarımadı, düşməni məhv etmək üçün cəsarətli addım atmadı. Axı bu torpağın, bu gözəl məmləkətin Sultan bəy, Xosrov bəy kimi igidləri vardı...

Xosrov bəy yaddaşından silinməyən daha bir savaşı xatırladı: ötən il el yaylağa qalxan vaxt ermənilər yenidən baş qaldırdı. Saysız-hesabsız çaqqal sürüsü Zəngəzura axışdı, azərbaycanlılar yaylaqlara qalxmasın deyə iğtişaşlar törətdilər. Gorus daşnak yuvasıydı və Zəngəzura bütün bəlalar da buradan gəlirdi. Erməni silahlı dəstələri burdan idarə olunurdu. O vaxt Sultan bəy Çalbayır yaylağını dəstəsi ilə qorudu, amma başqa yaylaqları qorumağa gücü yetmədi. Sultan bəy təəssüflə qardaşına dedi:

– Bizə kömək lazımdı, Xosrov. Ermənistanın daşnak hokuməti burdakı ermənilərə silah-sursat, əsgəri qüvvə göndərir. Əgər biz Gorusu alsaq daşnak yuvasını məhv etmiş olarıq. Yaylaqların əldən getməsi maldarlığa böyük ziyan verəcək, Xosrov.

Xosrov bəy də 1919-cu il may ayının 8-də Azərbaycan Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyova həyəcan dolu bir teleqram göndərdi:

"Cənab əlahəzrət!.

Bildirirəm ki, maldarların yaylaqlara təhlükəsiz keçməsi sxeminin surətini sizə göndərirəm və qeyd edirəm ki, onların Şuşa və Cavanşir bölgəsindən keçməsi faydasızdır. Bundan ötəri Gorusu tutmaq lazımdır. Bu əməliyyat üçün artilleriya və pulemyotla təchiz edilmiş iki min nəfərlik piyada və atlı lazımdır".

Qarabağdan iki min nəfərlik ordu və Sultan bəyin dəstəsi ilə Gorusu işğal etmək olardı... Amma... Bakı bu fürsəti əldən verdi...

... Qubernatorluğun həyəti süvarilərlə doldu. Xosrov bəyin ürəyi həyəcanla çırpındı. Sultan bəy özünü yenə vaxtında yetirmişdi..

***

Müdafiə naziri general Səməd bəy Mehmandarov gecə də evinə getməyə macal tapmadı. İstirahət otağındakı divanda gözünün acısını aldı. Qarabağdan gələn xəbərlər onun rahatlığını pozmuşdu...

Masanın arxasına keçib Xosrov bəyin göndərdiyi teleqramı təkrar oxudu, düşündü. Ona elə gəldi ki, bu anlarda Qarabağda, Şuşada atılan güllələr, top atəşləri onun otağında səslənir, içində bir tufan, qasırğa oyadır. Onun sərt üzündə, çatılmış qaşlarında, içinin təlatümlü duyğularını əks etdirən gözlərində bir narahatlıq vardı.

Yavəri otağın qapısını açdı, əlini gicgahına aparıb məlumat verdi:

– Cənab general, ordunun baş qərargah rəisi, general Həbib bəy Səlimov, pod polkovnik Bəhram bəy Nəbibbəyov gəlmişlər.

Həbib bəy Səlimovun gəlişi ilə generalın həyəcanı sovuşdu, çiyinlərindən ağır yük götürülmüş kimi dərindən nəfəs aldı:

– Gəlsinlər.

Həbib bəyə xüsusi hörmət və etimadı vardı. Onları ayaqüstə qarşıladı, görüşdü və yer göstərdi. Həbib bəy sərt və qaşqabaqlı görünürdü. Ortalığa qısa, ağrılı bir sükut çökdü. General dedi:

– Qarabağda baş verən hadisələrdən xəbərdarsız...

– Şuşaya təcili ordu göndərilməlidi, cənab general, – Həbib bəy nazirin nə deyəcəyini gözləmədən öz təklifini verdi, əsəbini cilovlayaraq təmkinli görünməyə çalışdı.

General Mehmandarov ayağa qalxdı, gəzindi və Həbib bəyin qarşısında dayandı:

– Bəli, Qarabağda təhlükəli bir vəziyyət yaranıb. Ermənilər qiyama qalxıb. General Dronun Əsgərana hücumu onlara qol-qanad verib. Daxili işlər naziri Mustafa bəy Vəkilov parlament iclasında bu barədə geniş məlumat verib. Sizi də elə buna görə çağırdım. Həbib bəy, sən Bakı döyüşlərində təcrübəli komandir, qəhrəman bir zabit olduğunu sübuta yetirdin. Nuri paşanın Bakının alınması uğrunda apardığı döyüşlərdə xüsusi olaraq igidlik, şücaət göstərdin. İnanıram ki, Qarabağ döyüşündə də ermənilərə tarixi bir dərs verəcəksən. Buna görə də səni Qarabağa gedəcək orduya komandan təyin edirəm.

– Etimadınıza görə təşəkkür edirəm, general.

– Əsgəran artıq general Dronun ordusu tərəfindən işğal olunub.

Əsgəran strateji cəhətdən çox əhəmiyyətlidi. Bunu daşnak qoşunlarının baş komandanı Nakaçakyan çox yaxşı bilir, ona görə də bizə çatan məlumata görə ordusuna belə bir tapşırıq verib:

– Təkcə strateji nöqteyi-nəzərdən Qarabağın ələ keçirilməsi böyük uduşdur. Bu şimal tərəfdən Zəngəzurun təhlükəsizliyinə verilən təminatdır və Ordubad ərazisini də zəbt etməklə Zəngəzurun Naxçıvan tərəfdən əmin-amanlığı yaranacaqdır. Bununla da Şərur, Naxçıvan Azərbaycandan aralı salınacaq və həmin ərazinin yenidən ilhaqı üçün şərait yaranacaqdır.

General Səlimov istehza ilə gülümsünüb başını buladı:

– Erməni generalın iştahına bax.

Bəhram bəy yerində sakit otura bilmədi:

– Ölərik, amma bu torpaqları düşmənə vermərik.

– Qarabağı xilas etmək, qəddar düşmənin ayağını bu yerlərdən kəsmək lazımdır, – sonra da üzünü Həbib bəyə tutdu, – orduya komandanlıq edəcəksən. Podpolkovnik Bəhram bəyə də döyüş bacarığına, yüksək hərbi təcrübəsinə görə güvənim var. Qarabağa gedəcək ordunun tərkibində Bakı piyada alayının

bölmələri, parlament mühafizə dəstəsi, süvari alayı sizin sərəncamınıza veriləcəkdir.

General Həbib bəydən cavab gözlədi. Onun çöhrəsində biruzə vermək istəmədiyi narazılığı o anda hiss etdi və soruşdu:

– Həbib bəy, bir təklifin varmı?

– Var, cənab general. Biz güclü bir ordu ilə üz-üzəyik. Ona görə də bu çox az bir qüvvədir.

– Sizə əlavə qüvvə göndəriləcəkdir.

Həbib bəy Səlimov əlavə etdi:

– Cənab general, sizdən bir xahişim var. Silah-sursatımız kifayət qədərdi. Amma bizim bir zirehli avtomobilə ehtiyacımız olacaqdır. Bakı döyüşlərində bu zirehli avtomobillər düşmənə sarsıdıcı zərbə vurdu.

– Oldu. Həbib bəy. Xosrov bəylə danışmışam. Qardaşı Sultan bəylə sizi Ağdamda qarşılayacaq. Döyüş əməliyyatlarını birlikdə hazırlayacaqsınız.

– Oldu, general.

– Müjdə xəbərləri gözləyirəm.

... Mart ayının sazağı təzəcə başlayan dəlisov küləklə daha da gücləndi. Həbib bəylə Bəhram bəy hərbi paltarın yaxasını qaldırıb avtomobilə əyləşdilər. Avtomobil sürət götürdü.

**11.**

Azərbaycan ordusunun Ağdamdakı qərargahında canlanma vardı. Qərargah binasının qarşısında əsgərlər dayanmışdı. İrəlidə sıx ağaclarla əhatə olunmuş meydanda atlar bağlanmışdı, həyətdə silahlı əsgərlər gəzişirdi.

Qərargahın otağında isə qızğın müzakirə gedirdi. General-mayor Həbib bəy Səlimov, podpolkovnik Bəhram bəy Nəbibbəyov, Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov, Sultan bəy Sultanov masanın üzərinə açılmış xəritəyə göz gəzdirir, daşnakların döyüş apardıqları əraziləri dəqiqləşdirirdilər. Əsgəran keçidi alınmış, ətrafdakı kəndlər dağıdılmışdı. Amma

ermənilərin Şuşaya hücumu məğlubiyyətlə nəticələnmişdi. Lakin işğal olunmuş Əsgəran keçidindən, kəşfiyyatın gətirdiyi məlumata görə, dayanmadan hərbi qüvvə və silah-sursat daşınırdı. Qarabağ erməniləri silahlanaraq Şuşaya can atan general Dronun və Dəli Qazarın ordusu ilə birləşmək niyyətindəydi.

Həbib bəy təmkinlə dedi:

– Bu əməliyyat "Qarabağ əməliyyatı" adlanacaq. Əsgəran artıq erməni ordusunun əlindədi. Buradakı postlarda olan əsgərlərimiz, eyni zamanda Xankəndində yerləşən qarnizon düşmən tərəfindən məhv edilib. Ermənilər irəlilədikcə kəndləri dağıdır, yandırır, müsəlman əhalini qətlə yetirirlər. Düşmənin başını əzmək üçün bütün qüvvələrimizi səfərbər etməliyik. Xatırladım ki, Bakı döyüşlərində biz daha güclü düşmənlə üz-üzə gəldik. Erməni, rus, ingilis qoşunları güclü silahlanaraq Bakıya sahib olmaq istəyirdilər... Amma biz öz gücümüzlə, iradəmizlə, yüksək döyüş əhval-ruhiyyəsi ilə zəfər qazandıq.

– General Dro Əsgəran döyüşündə bir dəfə məğlub olub, – Xosrov bəy dedi.

– Lakin o, bu dəfə Dəli Qazarla birlikdə nə olursa-olsun Qarabağı işğal etmək niyyətindədir. Amma müharibə tarixində zəfər təkcə döyüş meydanında qazanılmır, Xosrov bəy, ağıl və zəka ilə də qazanılır. Sultan bəyin Zabıx dərəsində Andronikin on minlik qoşununu məğlub etməsini eşidəndə təəccüblənmədim. Çünki tarixdə bu cür ağıllı, zəkalı, igid adamlar olub və onlar kələk işlətməklə də düşməni diz çökdürüb. Sultan bəy bu gün də partizan dəstəsi ilə Qarabağın müdafiəsinə gəlib.

– Qarabağla Zəngəzuru kim ayırıb ki, Həbib bəy? Düşmən Azərbaycanın göz bəbəyi olan bu gözəl mahalları işğal etmək istəyir. Son nəfəsimizə qədər qorumalıyıq vətən torpağını... Bu torpaqları indiyə qədər qoruyan oğullar var. Hər birinin igidliyi bir dastana sığar...

– O igidlərin adını eşitmişəm, onları yaxından tanımaq istərdim.

– Düşmənin ayağını Zəngəzurdan, Qarabağdan kəsəndən sonra, general.

Otaqda gərgin sükut yarandı. Həbib bəy Qarabağın xəritəsini qarşısına çəkdi:

– Əsgərana kəşfiyyat qrupu göndərməliyik. Əsgəran necə qorunur, düşmən mövqeləri harda yerləşir? Əlimizdə dəqiq kəşfiyyat məlumatı olmadan hərəkət edə bilmərik.

Xosrov bəy əlini Daşbaşı kəndindən yuxarıda Daşbaşı yüksəkliyinin üstündə saxladı:

– Bu yüksəkliyin böyük strateji əhəmiyyəti var. Əgər ermənilər bizdən əvvəl bu yüksəkliyi işğal etsələr o zaman bizim bütün cəhdlərimiz boşa gedəcək. Çünki onlar bu yüksəklikdən istənilən yerı, ərazini, bizim mövqelərimizi çox asanlıqla vuracaqlar.

Sultan bəy həyəcanla dedi:

– Buna heç cürə yol verməm olmaz. Daşbaşının ətəkləri başdan-başa sıx meşəlikdir. Ermənilər irəli düşsələr ətraf kəndləri talayacaq, bol ərzaq toplayacaq, Daşbaşı yüksəkliyini ələ keçirməklə müharibənin gedişini öz xeyirlərinə dəyişəcəklər. Buna yol vermək olmaz, – onun səsində bir qəzəb, narahatlıq duyuldu, – bəlkə Daşbaşı yüksəkliyini mən öz dəstəmlə...

Həbib bəy başını buladı:

– Yox, səni bura göndərmərik, Sultan bəy. Sənin partizan dəstən bir orduya bərabərdi. Mən ora podpolkovnik Bəhram bəy Nəbibbəyovu göndərmək istəyirəm. Onun batareyası çox asanlıqla bu yüksəkliyi ələ keçirəcək. Çünki Bəhram bəy çox təcrübəli, sınaqlardan çıxmış, yüksək hərbi biliyə və bacarığa malik olan komandirdi. Daşbaşıya hərəkət edəcək daşnak ordusu haqqında da kifayət qədər kəşfiyyat məlumatı olmalıdı. Bəhram bəy bunu özü həll edəcək.

Podpolkovnik Bəhram bəy ayağa qalxdı:

– Bu işi özümüz həll edərik, cənab general.

– Kəşfiyyatçılar məlumatları təcili gətirməlidi. Elə indi, yubanmadan batareyaya hərəkət əmri ver, Bəhram bəy.

Sultan bəy üzünü Bəhram bəyə tutdu:

– Siz bu yerlərə nabələdsiz, bələdçi qoşaq, sizi sağ -salamat meşəliyə çatdırsın, ordan da Daşbaşı yüksəkliyinə.

Müzakirə xeyli çəkdi. Xosrov bəy saatına baxdı və soruşdu:

– Hücum nə vaxt olacaq?

– Martın 29-da. Səhərə yaxın hücum əmri veriləcəkdir. Hələlik isə əsgərlər yaxşı dincəlsin, qüvvə toplasın.

Xosrov bəylə Sultan bəy qərargahdan çıxdılar. İkisi də məmnun görünürdü: axır ki, döyüş başlayacaq, düşməndən təmizlənən Şuşa azad nəfəs alacaqdı.

Avtomobil Şuşaya tərəf hərəkət etdi...

***

Qəflətən atılan top üstü qamışla örtülmüş daxmanı silkələdi. Tavandan ələnən torpaq taxtadan quraşdırılmış masanın üstünü örtdü. Şinelini üstlərinə çəkib bir küncdə yuxulamış general Dro və Dəli Qazar həyəcan içində qalxdılar, silahlarını götürüb özlərini bayıra atdılar. Çöllük sanki od tutub yanırdı. Çadırların üstə düşmüş mərmi yanğın törətmişdi. Yuxudan yarımçıq oyanmış əsgərlər ilk əvvəl yuxulu-yuxulu nə baş verdiyini anlamadılar. Lakin qarşı tərəfdən gələn top, pulemyot atəşi onları qorxuya saldı. General Dro qəzəb və nifrət içində gecənin qaranlığında top atəşi təsiri yaradan səsi ilə bağırdı:

– Əsgərlər, döyüşə. Düşmən qəflətən hücum edib...

Dro sarsılmış halda silahından göyə atəş açdı. Ortalıqda xeyli cəsəd vardı. Hürkmüş atlar gecənin qaranlığında çöllərə üz tutdu. Dəli Qazar yerindən tərpənmədən topların yaratdığı təhlükəli atəşfəşanlığı seyr etdi və Dronu özündən çıxarmamaq üçün astadan mızıldandı:

– Mən sənə dedim axı, general Həbib bəy Səlimov orduya komandanlıq etsə...

Dro bağırdı:

– Kəs səsini. O mənim ordumun qarşısında duruş gətirə bilməyəcək, anladın?

– Düşməni aciz bilib arxayın olma, general. Nuri paşa bir hərbiçi kimi onun döyüş bacarığını çox yüksək qiymətləndirdi. O, Ələtdə gedən döyüşlərə rəhbərlik etdi və ingilislərin güvəndiyi Biçeraxovu rüsvayçı bir məğlubiyyətə uğratdı.

– Sən düşməndən qəhrəman obrazı yaratma. Çox güman ki, Həbib bəy bütün qüvvələrini buraya yönəltmişdir. Dəstəni götür və Daşbaşı yüksəkliyinə doğru hərəkət et. Danışdığımız kimi, o yüksəkliyi mütləq işğal etməliyik. Bu bizim üçün çox vacibdir.

– General, Tərtər döyüşü bizə baha oturdu. Bir neçə topumuz sıradan çıxdı. Topumuz azdı.

– Sıradan çıxmış topları da özünüzlə aparın.

– Niyə? Onlar bizə artıq yükdü.

– Görüntü üçün. Düşmən kəşfiyyatı bu görüntüyə aldanacaq, onların da saz olduğunu düşünəcək, əsgərlər arasında vahimə, ruh düşgünlüyü... yaradacaq. Bəlkə də döyüş başlamamışdan cəbhəni qoyub qaçacaqlar.

– Siz çox ağıllısız, zəka sahibisiz, general...

…Lakin general Dronun içində dumanlı, güclə seziləcək bir ruh düşgünlüyü, sıxıntı vardı.

***

29 mart 1920-ci il.

... Sübhün təmiz, sazaqlı havasına qəflətən atılan topların barıt qoxusu qarışdı. Erməni ordusunun düşərgə saldığı tərəfdə tüstü qarışıq alov göründü. Dağ-daş sanki lərzəyə gəldi. Atlar düşmən mövqelərinə sarı sürətlə çapırdı və elə bil at nalların-

dan qopan səslər dağlardan axıb gələn coğqun sel idi və bu seli dayandırmaq çətin idi.

İlk həmlə düşmənin arasına çaxnaşma saldı. Özünü itirmiş, vahimə içində vurnuxan, top atəşindən özünü qorumağa çalışan ermənilər gizlənməyə can atdılar.

İrəlidə Sultan bəyin partizan dəstəsi gedirdi. Onlar düşmənə öldürücü zərbə vururdu.

... Döyüş on iki saat davam etdi. Ermənilər Fərrux kəndindən geri çəkildi.

Düşmən kəndi yandırmağa macal tapmadı. Amma düşmən ayağı dəyən kəndin kədərli, hüznlü bir görkəmi vardı. Top mərmilərinin düşdüyü yerlərdə dərin çuxurlar qalmışdı. Bağlı-bağatlı həyətlərdə ağacların çoxu sıradan çıxmışdı. Bəziləri kökündən çıxıb yolu-rizi bağlamışdı, bəziləri zəif alovla hələ də yanırdı. Evlərin qapıları sındırılmış, qarət olunmuşdu. Küçələrdə, evlərin həyətlərində çoxlu cəsədlər vardı və onlar erməni vəhşiliyindən bir nişanəydi.

***

... Top mərmisindən uçulub dağılmış evin həyətində kötüyün üstündə yaşlı kişi oturmuşdu və ondan başqa ətrafda kimsə yoxuydu. Əllərini qoynuna qoymuş, sulanmış gözlərində, tük basmış sifətində açıq-aşkar duyulan dərd-qəmi ilə baş başa qalmış qoca səssiz-səmirsiz həyətə girən əsgərlərə baxırdı.

Komandir kişiyə yaxınlaşdı, əlini çiyninə qoyaraq qayğılı halda soruşdu:

– Əmi, müharibə gedir, qəfil gülləyə tuş gələrsən, kimsən yoxdurmu? Burdan get.

Kişinin solğun, bürüşük dodaqları titrədi və komandirə baxan yaşlı gözləri nəmli şüşə kimi parıldadı:

– Bizimkilər də elə müharibəyə gedib. Bəlkə də bu topları atan mənim oğullarımdı. Arvadım da gedib. Ermənilərin hamısını qırıb qayıdacaqlar evə.

– Kənddə bir kimsən yoxdurmu?

– Kənddə hamı müharibəyə gedib. Bir mən qalmışam.

Komandir başını buladı və gözləri yaşardı, astadan dedi:

– Bəlkə də bütün ailəsini qətlə yetiriblər.

– Kənddə sağ adam görmədik. Çoxlu cəsədlər var. Yaralıları səyyar xəstəxanaya götürdük, – əsgər məlumat verdi.

Komandir özünü topladı və kövrəlmiş halda dedi:

– Biz sizə köməyə gəlmişik, əmi.

– Doğrudan? -kişinin şüşə kimi parıldayan gözlərində yağış damcısına oxşar göz yaşı göründü, əlini yellədi:

– Hə, qırıb-qurtarmaq olmur kafirləri, düzü-dünyanı tutublar.

Komandir onun qolundan tutub ayağa qaldırdı:

– Bizim əsgərlər səni təhlükəsiz yerə aparar. Müharibə qurtarandan sonra evinə dönərsən. O vaxta qədər də sizinkilər qayıdıb gələr.

Kişi qolunu çəkdi və hirslə dedi:

– Mən getmirəm. Məni gəlib tapa bilməzlər. Burda gözləsəm yaxşıdı.

Komandir əlini yellədi və irəli getdi.

... Düşmən qaçırdı. Əsgərlər döyüşü dayandırmadan irəli gedirdi. General Həbib bəy Səlimov bu coşmuş, ürəyi, qəlbi nifrətlə siləlnmiş, düşməndən qisas almaq atəşi ilə yanıb qovrulan və qələbə əzmindən ruhlanmış əsgərləri saxlaya bilmirdi. Xramord kəndinə az qalırdı...

General Həbib bəy Səlimov döyüşlərin gedişi barədə Bakıya teleqram göndərdi:

“Bakı. General -leytenant Əliağa Şıxlinskiyə.

Dünənki döyüş göstərdi ki, ermənilər bütün vasitələrdən istifadə ediblər. Əsgəran cəbhəsində Dilicandan gəlmiş əla təlim edilmiş və çox gözəl döyüş aparan Dəli Qazarın partizanları bir yerə cəmləşiblər... Məsələ çox ciddidir. Artıq Ermənistan və Azərbaycan arasında Qarabağda gizli müharibə gedir. Hər tə-

rəfdən patron tələb edirlər. Onlar neçəyə olursa olsun alınıb gətirilməlidir.

Hazırda dövlətin ehtiyatları Gəncədən Araza qədər ərazidəki cəbhə üçün, düşmənlə müqayisədə həddindən artıq azdır. Ancaq etibarlı və yaxşı təşkil olunmuş partizanları müvəqqəti bizim tərəfə yönəldə bilərlər.

General Həbib bəy SƏLİMOV,
31 mart 1920-ci il"

***

General Dronun qərargahına axan bəd xəbərlər bütün ümidləri alt-üst etdi: artıq iki kənd azad olunub. Düşmən Xramord kəndinə tərəf hərəkət edir. Əgər təcili kömək gəlməsə Əsgəran keçidi əldən çıxacaq...

General Dro əlləri ilə başını tutdu, elə bil ürəyinə saplanmış xəncərin ağrısı gicgahlarına qədər yayıldı. Bir anlıq nəfəs ala bilmədi, ürəyi döyünməkdən qaldı. Yavər irəli yeriyib əlini üsulca onun çiyninə qoydu və ehtiyatla silkələdi:

– Kanayan, eşidirsiz, özünüzə gəlin. Özünüzü toplayın və təcili qərar verin. Düşmən irəliləyir. Tədbir görməliyik.

Dro havalanmış adam kimi key halda yavərin üzünə baxdı:

– Düşmən yaxınlaşır....Kömək göndərməliyik. Həbib bəy Bakı döyüşündə Biçeraxovun ordusunu məhv etdi. Amma mənə... bata bilməz... Ehtiyatda olan bölmələri ayağa qaldırın.

***

Atəş səsləri dayanmaq bilmirdi. Əsgərlərə döyüşü dayandırmaq haqqında əmr verilsə də qazanılmış zəfərdən ruhlanaraq irəliləyirdilər.

General Həbib bəy durbini gözündən götürdü və əsəbi halda Xosrov bəyə dedi:

– Mənim əmrim yerinə yetirilməmişdir. Əsgərlər komandanın əmrinə tabe olmadan özbaşınalıq edərək Xramord kəndi-

nə tərəf hərəkət edir. Axı indi bizdə kəşfiyyat məlumatı yoxdur. Bəlkə düşmənə kömək gəlmişdir? Onlar qüvvətlənmiş, müdafiədən hücuma keçmişlər? Bu ağılsızlıq böyük itkilərə səbəb olar. Düşmən bundan yararlanar.

Xosrov bəy döyüşü izləyə-izləyə qürur qarışıq sevinclə dedi:

– General, düşmənin bağrını yaran bu igidləri dayandırmaq çətindir. Ermənilərin törətdikləri vəhşiliklər onların ürəyini parçalayıb, qisas hissi qanlarını coşdurub. Buna görə də verilən əmrə məhəl qoymadan düşməni diz çökdürmək, torpağımızı azad etmək istəyirlər.

... Xromord kəndi istiqamətində gedən döyüşdə düşmən atəşi birdən –birə gücləndi. Komandanın narahatlığı özünü doğrultdu. Kömək alan ermənilər gözlənilmədən müdafiədən hücuma keçdilər.

Verilən əmrə məhəl qoymayan əsgərlər çətin vəziyyətə düşdülər. General əsgərlərə geri çəkilmək əmri verdi.

***

Komandanın əmri yerinə yetirilməmişdi: ordu döyüşü saxlamaq əvəzinə hücumu davam etdirmişdi. Həbib bəyin çöhrəsi sərt, ciddi idi. Amma içində də biruzə vermək istəmədiyi, gizlətdiyi bir sevinc vardı: əsgərlərin döyüş əhval-ruhiyyəsi yüksək idi. Onların hər biri bu torpaq uğrunda canını verəcək qədər fədakar, qəhrəman idi...

***

Daşbaşı kəndinin yaxınlığına çatanda süvarilər atların başını çəkib dayandılar. General Dəli Qazar atının cilovunu çəkdi, ətrafa nəzər saldı, bu anda sanki qulağına general Dronun təhdidedici səsi gəldi: “General, sən Daşbaşı yüksəkliyinin bizim üçün nə qədər əhəmiyyətli olduğunu bilirsənmi? Daşbaşı yüksəkliyi bizim üçün fəth olunmuş Qarabağdı, Ağdamdı, Şuşadı, Zəngəzurdu və üstəlik Naxçıvandı....Bizim bütün qələbə-

mizə xidmət edəcək strateji bir yüksəklikdir. Onu mütləq işğal etməliyik.

– General, amma Azərbaycan ordusunda da igid hərbiçilər var. Qorxuram ki...

– Sən öz kölgəndən də qorxan adamsan, Qazar. Əgər sənin apardığın döyüşlərin şahidi olmasaydım, sənin şücaətini görməsəydim, mən belə deyərdim.

– Həbib bəy Səlimovu tanısaydın, bu sözləri deməzdin. O, ordu komandanıdır. Döyüşlərin gedişində bunu özün də təsdiqləyəcəksən.

– Sənə kifayət qədər canlı qüvvə və silah-sursat vermişik. Səlimovu ilahiləşdirmə.

– Nuri paşa Bakıya yürüş edəndə Səlimov döyüşlərdə şücaət göstərdi və ona general rütbəsi verildi.

– Heç nə bilmək istəmirəm. Daşbaşı yüksəkliyi işğal olunmalıdır.”

Süvarilər atların başını Daşbaşı kəndinə çevirmək istədilər. Dəli Qazar bağırdı:

– Geri qayıdın.

– Kəndi sağ-salamatmı buraxaq? – süvarilərdən biri irəli gəldi və təəccüblə soruşdu:

– -Talan etməyəkmi? Yüksəkliyə yaxınlaşmışıq. İki saat ərzində kəndi xarabalığa çevirə bilərik.

Dəli Qazar qaşqabaqlı, sərt halda dedi:

– Buna vaxt var. Bizə yüksəkliyi işğal etmək əmri verilib.

Süvarilər yüksəkliyə doğru atlarını çapdılar. Yüksəkliyin ətəyində yamyaşıl, sıx meşəlik göründü...

... Batareya komandiri, podpolkovnik Bəhram bəy Nəbibbəyov əsgərlərinə dayanmaq işarəsi verdi. Sıx ağaclar sanki əsgərlərin dağ-daşla, çılpaq yamaclarla əlaqəsini kəsdi. Dağlardan əsən soyuq külək meşənin içinə uğultu kimi doldu. Bəhram bəy ucadan əsgərlərinə səsləndi:

– Sizə yarım saat vaxt verilir. Uzaq yol gəlib yorulmusu-

nuz. İstirahət edin. Gizlənmək əmri verilən kimi döyüşə hazır olun. Dəli Qazarın kəşfiyyatçıları bizim meşədə olduğumuzdan duyuq düşməməlidi.

– Oldu, komandir.

Farağat vəziyyətində dayanmış əsgərlər o anda dağılışdılar. Səs-küy azaldı, yalnız atların fınxırtısı gəlirdi. Kənarda nahara hazırlıq görülürdü.

Aradan az keçmiş əsgərlər ağacların arxasında, kolların içində gizləndilər. Uzaqdan gələn at nallarının səsi aydınca eşidilirdi.

... General Dəli Qazarın süvariləri sürətlə meşəyə yaxınlaşırdı. Komandir özü isə ayaqlarını atın böyürlərinə möhkəm sıxaraq ətrafı diqqətlə gözdən keçirirdi. Meşənin üstündəki yüksəkliyə baxdı. Ona elə gəldi ki, Daşbaşı göylərin yeddinci qatındadı, uzaq, əlçatmaz bir ucalıqdadı. İstəsə də ora əli yetməyəcək, gülləsi çatmayacaq...

Yollar bomboş idi. Təkcə arxada toz-duman içində atlar çapırdı.

General geri çevrildi və bağırdı:

– Daşbaşıya yol meşənin içindən keçir. Amma deyilənə görə yollar darısqaldır. Ehtiyatlı olun. Düşməndən qabaq özümüzü yüksəkliyə yetirək. Burdan onları atəşə tutmaq və məhv etmək asandır. Düşmənə aman verməyək.

... General Həbib bəy Səlimov həyəcan keçirirdi. Bəhram bəy məlumat verdi:

– Komandan, ermənilər meşəyə girdi.

– Onlar çox güman ki, heç nədən şübhələnmədilər.

– Xeyr, general, əsgərlər gizlənib. Bircə nəfəs də hiss olunmur.

– “Atəş” əmri ver.

– Onlar bizdən uzaqdır. Yalnız at nallarının səsini eşidirik.

– Yubanmadan yaxınlaşan kimi atəş əmri ver.

– Tələsməyək, komandan.

– Gözləyirəm.

Ermənilər meşənin içinə girdilər və darısqal yollarda ləng hərəkətlə irəliyə getdilər.

– Niyə əmr vermirsən? Nəyi gözləyirsən, Nəbibbəyov? – komandan təngimiş halda səbirsiz soruşdu.

– Gözləyək. Bir az da yaxınlaşsınlar, – Bəhram bəy təmkinini pozmadı.

Dəqiqələr ağır-ağır keçirdi. İrəlidə pusqu qurmuş əsgərlər atəş əmri gözləyirdi. Aşağıda gizlənmiş əsgərlər isə arxadan düşməni mühasirəyə alırdı. Həbib bəy Səlimovun Bəhram bəyə acığı tutdu:

– Nəyi gözləyirsən, podpolkovnik?

Bəhram bəy cavab verməyə macal tapmadı. Bu anda beş-altı addımlıqda düşmən əsgərləri göründü və Bəhram bəy havaya bir güllə atdı, ardınca qışqırdı:

– Quba batalyonundan olan süvarilər yandan, Zaqatala alayından olan süvarilər isə arxadan düşmənə öldürücü zərbə.

Pulemyotların ağzından atəş püskürdü. Atlar kişnəyib şahə qalxdı. Güllə səsindən, pulemyot şaqqıltısından, top atəşlərindən meşə silkələndi. Qorxmuş, vahiməyə düşmüş düşmən atını, silahını qoyub meşənin dərinliklərinə qaçırdı. Ağacların altında çox sayda ölü və yaralı vardı. Sahibini itirmiş atlar kişnəyərək baş götürüb qaçırdı. Arxada at qoşulmuş silah və ərzaq dolu arabalar əsgərlərin əlinə keçdi. Sanki düşmənlə bütöv meşə döyüşürdü. Hər ağac bir əsgər idi və hər tərəfdən ermənilərin başına od ələnirdi.

... Axşama yaxın döyüş səngidi. Meşənin dərinliyində tək-tək güllələr açılırdı.

Zəfər qazanmış və bu zəfərin sevinci ilə yorğun gözləri parıldayan Bəhram bəy yaralılar arasında Dəli Qazarı axtardı. O, iki yaralının arasında arxası qatda düşmüşdü. Ayağından və ürəyindən güllə yarası almışdı. Çətinliklə nəfəs alırdı. Bəhram bəy onun başı üstündə dayandı, xeyli baxdı. Dəli Qazar əlini cibindəki silaha atmaq istədi. Bəhram bəy cəld çəkməsi ilə onun

əlini tapdaladı və sıxdı. General ağlamamaq, hönkürməmək üçün dişlərini bir-birinə sıxdı, nifrətli baxışlarını Bəhram bəyin gözünə dikdi. Bəhram bəy ikrahla dedi:

– Heyif, general, bu dəfə yubandın, tələyə düşdün.

Dəli Qazar qızdırmalı dodaqlarını islatdı:

– Mən general deyiləm, əsgərəm.

– Amma general rütbəsində, geyimindəsən, bu dəfə əsgərlərinə komandanlıq eliyə bilmədin, Qazar.

Dəli Qazarın üzü bir anda yalvarıcı ifadə aldı, kinli, məkirli gözləri qıyıldı, əlini Bəhram bəyə uzatdı:

– Nə olar, məni xilas eləyin, bu yerlərdən çıxıb gedəcəm.

– Bura sənin vətənin deyil, bura özgə torpağıdır. Sən bura ya ölməyə, ya da öldürməyə gəlmişdin.

– Mən məğlub oldum, – birdən başını dikəltdi, qalxmaq istədi, – nə olar buraxın, yalvarıram.

– Ordu haqqında, Dronun planları, canlı qüvvənin sayı, silahlar haqqında məlumat versən o zaman...

– Mən... mən...

Kimsə Bəhram bəyin qolundan tutdu:

– Axırı çatıb, komandir, yüksəklik bizi gözləyir.

Zəfər qazanmış batareya irəli getdi...

***

Çırağın solğun işığı masanın üzərinə sərilmiş xəritəni güclə işıqlandırırdı. Həbib bəy Səlimovun Ağdamdakı qərargahında sakitlik idi. Hərdən qərargahın həyətinə bağlanmış atların fınxırtısı, uzaqlarda seyrək it hürüşməsi və tək-tək güllə səsləri gəlirdi.

Qərargahda növbəti hücum əməliyyatı müzakirə olunurdu. Masanın arxasında general -qubernator Xosrov bəy, Daşbaşı yüksəkliyini işğal etmiş batareya komandiri Bəhram bəy, partizan dəstəsinin başçısı Sultan bəy, komandirlər toplaşmışdı.

Həbib bəyin yorğun çöhrəsi qayğılı bir ifadə aldı:

– Bu döyüşə mən böyük ümid bəsləyirəm. Düşməni məhv etmək üçün bütün qüvvələr səfərbər olunmalıdı. Kəşfiyyatın gətirdiyi məlumata görə Ağdam-Əsgəran yolunda Kətik, Aranzəmin və Naxçıvanik kəndləri yandırılmış, müsəlman əhalisinin çoxu qətlə yetirilmişdir. Düşmən bu kəndlərdə özünə güclü mövqe tutmuşdur. Toplar yamaclarda, təpələrin, qayaların arxasında gizlədilmiş, əsgərlərimizin irəli hərəkətini ləngitmək üçün səngərlər qazılmışdır.

Xosrov bəy nifrətlə üzünü turşutdu:

– Onlar nəyin bahasına olursa olsun Əsgəran keçidini əldə saxlamaq istəyirlər.

– Zəngəzurun Qarabağla əlaqəsini kəsmək, Zəngəzuru və eyni zamanda Qarabağı təkləyərək işğal etmək fikrindədilər, – Sultan bəy dərindən nəfəs aldı və xəritəni qarşısına çəkdi, – fikir verirsiz, Qarabağda müsəlman kəndlərinin əhatəsində erməni kəndləri yerləşir. Ermənilər gələcəyi düşünərək öz kəndlərini mühasirə şəklində salmışlar. Vaxtı gələndə müsəlmanları əhatəyə alıb asanlıqla qırsınlar. Onların niyyəti əzəldən bəllidi: Azərbaycan torpaqlarını zəbt etmək. Canımızı qurban versək də bir erməni dığasını torpağımıza yaxın buraxmamalıyıq.

– Üstünlük biz tərəfdədir, – Həbib bəy ruh yüksəkliyi ilə dedi:-Daşbaşı yüksəkliyi bizim əlimizdədi. Bu yüksəklikdən ermənilərin istənilən mövqelərini vura biləcəyik. Hücum aprelin 3-də saat 4-də başlanacaq. Bizə əlavə qüvvə verilib: Zaqatala piyada alayı, 7-ci Şirvan alayı, 1-ci Azərbaycan süvari alayı, bir topçu batareyası, bir zirehli maşın.

Müzakirə xeyli çəkdi. Hamı dağılışdı.

Otaqda kimsə qalmadı. Saatlar keçirdi... Həbib bəy hələ də masanın arxasında oturmuşdu. Hələ də hücum əməliyyatını fikrində götür-qoy edirdi. Necə etsinlər ki, ilk həmlədə düşmənə məğlubiyyətin acısını yaşatsınlar, erməniləri ruhdan salsınlar?... Həbib bəy döyüşün başlanmasına az qalmış əsgər düşərgəsini gəzərdi, əsgərlərin paltarına, yeməyinə qədər diqqət yetirərdi.

Həbib bəyin fikrincə əsgərlərin döyüş əhval-ruhiyyəsi çox vaxt onların yaşam tərzi ilə bağlıydı. O, Bakıya göndərdiyi bir raportu xatırladı: “... Əsgərlərə həmişə un şorbası yedirtmək olmaz ki. Onuncu alayın əsgərləri çəkməsiz və corabsızdır. Ordunu yeməksiz, patronsuz, atsız, təchizatsız yaratmaq olmaz. Yarıac, paltarsız əsgər, əlbəttə ki, evdə qalmaq istəyəcək.... Ordunu yedirmək, içirmək və hər cür xəstəliklərdən qorumaq lazımdır”. Həbib bəy bu anlarda dincələn, dərin yuxuda olan əsgərləri xatırladı. Sübh tezdən onlara baş çəkəcəkdi...

***

3 aprel 1920-ci il.

... Qarabağa hələ bahar gəlməmişdi. Heç nəfəsi də hiss olunmurdu. Bəlkə də top-tüfəng səsi baharı dağlarda ləngitmişdi.

Ulduzlu göylər ulduzunu yığıb gedirdi...

Dan yerinə çəhrayı işıq düşdü. Əsgərlər at belində, çoxu isə piyada sanki bu işığı tutub düşmən üstə gedirdi. At nallarından qopan səslər gurultulu dağ seli kimi yeri-göyü coşdururdu.

Komandan general Həbib bəy Səlimov “atəş” əmri verdi. Topların arxasınca pulemyotlar, güllələr düşməni biçib tökdü. Şaşqınlıq içində vurnuxan ermənilər başlarını itirdilər.

Həbib bəy Səlimovun əsgərləri Əsgərana tərəf irəliləyirdi. Düşmənin qüvvəsi tükənirdi. Axşama yaxın Kətik, Aranzəmin, Naxçıvanik kəndləri azad olundu. Sərrast atəşlə ermənilərin mövqeləri dağıdıldı.

Qan içində çabalayan Xoçalı və Əsgəran düşməndən təmizləndi.

Ətrafda çoxlu erməni cəsədləri vardı. Zəfər qazanmış ordu Şuşaya tərəf hərəkət etdi...

***

Şuşanın ən uca zirvəsinə zəfərdən soraq verən Azərbaycan bayrağı sancıldı. Bayraq Şuşada azərbaycanlıların varlığından xəbər verirdi...

Dəli küləklərə sinə gərən bu bayrağın ehtişamlı bir görünüşü vardı. Sanki bayraq ən uca zirvədən bütün Qarabağa, bütün dünyaya hayqırırdı: mən Azərbaycanın bağrından qopmuş bir parçayam. Mən Qarabağda azərbaycanlıların yaşadığını bütün dünyaya bəyan edən carçıyam. Biz yenilmədik, məhv olmadıq. Düşmən ayaqlarımız altında, biz uca zirvədə...

... Və "Qarabağ əməliyyatı" uğurla başa çatdı. Azərbaycan Cumhuriyyətinin müdafiə naziri general Səməd bəy Mehmandarov əsgərlərin zəfər sevincinə şərik olmaq üçün Ağdama gəldi. İgidlik göstərmiş əsgərləri təltif etdi, Daşbaşı yüksəkliyinin alınmasında böyük şücaət göstərmiş Bəhram bəy Nəbibbəyova isə polkovnik rütbəsi verildi.

1920-ci il.

Azərbaycan Cumhuriyyət hokumətinin təəssüf ki, öz müstəqilliyini qorumağa gücü yetmədi və düşmənlərinə qalib gələ bilmədi. Çünki Moskvada oturub Zaqafqaziyanı zəbt etmiş Leninin bolşevikləri daha güclü çıxdı. O zaman Rusiya Polşa ilə müharibə aparırdı, cəbhəyə yanacaq lazım idi, buna görə də Bakı neftinə ehtiyac vardı. Lenin Bakıya-bolşeviklərə dayanmadan teleqram göndərirdi: Bakı alınmalıdı! Bakı alınmalıdı!

Bakının Leninə gücü çatmadı...

Azərbaycanın bolşeviklərə gücü yetmədi...

Və Bakı alındı...

# SƏKKİZİNCİ FƏSİL

## QƏLƏM DÜŞMƏN ƏLİNDƏ

*Türkiyə sərhəddindən Rusiya ərazisinə keçən 300 min erməninin Araz çayı sahilində məskunlaşmasına yol vermək olmaz, ona görə ki, ermənilər Qafqazın tarixi xalqlarını bir-birinə düşmən edəcək, onların arasında çaxnaşma salacaq... Yaxşı olar ki, ermənilər Qaraqum səhrasındakı boş torpaqlarda və ya Sibirdə yerləşdirilsinlər.*

**Qalitsin**,
*Qafqaz canişini*

**1.**

Zaqafqaziya üzrə fövqəladə səlahiyyətli sədr Serqo Orconikidze doğma vətəniymiş kimi Bakıya tez alışdı. Onun arzularının, xəyallarının içində Bakının-bu başıbəlalı, qoynu zəngin sərvətli şəhərin xüsusi yeri vardı. O, gürcü olsa da erməni ürəkli bir adam idi və Azərbaycanla bağlı məkirli bir siyasətin içindəydi.

... İş otağından istirahət otağına keçdi, divanda uzandı. Birdən -birə istiləndi, qəhvəyi rəngli kitelinin üstdən iki düyməsini açdı, özündə bir yüngüllük və rahatlıq hiss etdi. Bakıya gəldiyi ilk günün həyəcanı və sevinci təlatüm kimi hələ də içindəydi. Özündən razı halda pəncərəni açdı, əyilib aşağı baxdı, sonra da yaxınlıqda az qala ləpələrinə qədər seçilən dənizi seyr etdi. Ona elə gəldi ki, baxdığı, zövq aldığı bu dəniz içi sərvətlə siləlɘnmiş möcüzədir. Bu sərvət dənizin şah damarından axan neftdir. Onda hər kəsin-onun, Leninin, Stalinin, Mikoyanın, – hər kəsin gözü var. Hər kəs gözlə görünməyən iti caynaqları ilə bu dənizi qamarlamaq, Azərbaycana sahib olmaq istəyir.

Telefon zəng çaldı, Serqo dəstəyi qaldırdı. Mikoyan idi. Ləhcəsində erməni olduğu o anda hiss edilən Mikoyan soruşdu:

– Serqo, Bakıda vəziyyət necədir?

– Çalışırıq ki, yaxşı olsun, yoldaş Mikoyan.

– Nərimanov Leninə zəng vurmuşdu. O, Serebrovskidən narazıdır və onu özbaşınalıq etməkdə təqsirləndirir. Guya Serebrovski həddini aşaraq özünü Bakı neftinin sahibi kimi aparır.

– Vladimir İliç ona nə cavab verdi?

Mikoyanın asta, xırıltılı gülüşündə alçaldıcı bir istehza duyuldu:

– Lenin dedi ki, niyə narahatsan, yoldaş Nərimanov? Sənə neftmi lazımdı? Mən tapşıraram sənin üçün neft ayırarlar.

– Ah, nə gözəl, tutarlı cavab verib... Nərimanov utandımı?

– Yox, utanmadı. Acıqlı halda Leninə belə cavab verdi: Vladimir İliç, neft Azərbaycana məxsusdur. Sizə nə qədər lazımdı, deyin, biz də müzakirə edib, qərar çıxaraq.

Serqo sanki bu cavabı özü aldı, sillə dəymiş kimi qəbul etdi, əsəbiləşdi, handan-hana cavab verdi:

– Nərimanov həmişəki kimi öz qürur və vətənpərvərliyini göstərir. O, həm də cəsarəti ilə bizə meydan oxuyur.

Mikoyanın səsində öfkə və nifrət duyuldu:

– Bəli, o çox cəsarətlidi. Qorxuram ki, Zəngəzurun, Qarabağın və Naxçıvanın Ermənistana verilməsində Nərimanov əngəl ola. Bəlkə onu aradan götürək, Serqo?

– Hələ vaxtı deyil, yoldaş Mikoyan, – öz sözündən özü də üşəndi və ətrafa baxdı, – amma mən Vladimir İliçlə bu barədə söhbət edəndə dedim ki, Zəngəzur ermənilərə verilsə onlar sovet hokumətinə inanacaqlar. Amma Nərimanov ermənilərə qarşı çox qəzəblidi. Məlum hadisələr zamanı yazmışdı: "... ermənilər müsəlmanları dəstə-dəstə əsir götürüb öz qərargahlarına aparır, yolda namərdcəsinə güllələyirdilər. İş o yerə gəlib çatmışdı ki, hətta bolşevizmə məxsus olması belə müsəlmanları xilas edə bilmirdi. Daşnaklar deyirdilər: heç bir bolşevikin bizə dəxli yoxdur, əgər sən müsəlmansansa yetər. Kimi istəyirdilər öldürürdülər, kimi istəyirdilər qarət edirdilər, soyurdular. Elə

bir vəhşilik qalmırdı ki, müsəlmanların başına açmasınlar. Daşnaklar "bolşevizm" bayrağı altında müsəlmanlara qarşı hər cür zor tətbiq edirdilər".

Anastas Mikoyanın kök, dolu sifəti rəngdən-rəngə düşdü, məkirli gözləri canavar gözü tək işıldadı:

– Mən bilirəm, o, Lenini dilə tutacaq, inandıracaq və Zəngəzurun Ermənistana birləşdirməyə imkan verməyəcək.

– Nərimanov ağıllı, zəkalı, milləti arasında nüfuz sahibi olan birisidi. Azərbaycanda cumhuriyyət hökuməti iflas edəndə hakimiyyət bolşeviklərin əlinə keçdi və Lenin o zaman məni Bakıya Zaqafqaziya üzrə fövqəladə səlahiyyətli sədr göndərdi. Mən uzaqgörənliklə düşündüm ki, Nərimanovu Bakıya gətirərik, amma o, kənarda qalar, daha doğrusu, əlimizdə bir oyuncağa çevrilər, biz isə hakimiyyəti öz əlimizə alarıq və istədiyimizə nail olarıq. Bu fikirlə də Nərimanovu Azərbaycan İnqilab Komitəsinə sədr göndərməsini Lenindən xahiş etdim. Nərimanov dediyim kimi ağıllı və zəkalı bir insandır. Amma sadəlövhdür. O, Leninə, bolşevizmə inanır. Düşündüm ki, biz də onun bu inamından istifadə edərik.

– Sən onun üzdə olan sadəlövhlüyünə inanmısan, Serqo. O, bizim bütün planlarımızı və düşüncələrimizi alt-üst etdi. Gör bu barədə özü nə yazır? – Mikoyan qarşısındakı kağızların arasından bir vərəq çıxardı, gözlüyünü taxdı, səsindəki əsəbilik xırıltıya çevrildi:

"1920-ci il mayın 16-da Bakıya gələrkən Biləcəridə məni bəzi yoldaşlar qarşıladılar və mənim gəlişimə çox sevindilər. Onlar belə dedilər: "Bəlkə sizə qədər olan biyabırçılığa son qoyula. Azərbaycanı başdan-başa qarət edirlər, sağa-sola güllələyirlər.

Məsələlərlə tanış olandan sonra mən inqilab komitəsi rəyasət heyətinin iclasını təyin etdim və faktiki olaraq bütün idarəçiliyi öz əlində cəmləşdirmiş Pankratovu da dəvət etdim. Mən heç kəsin inqilab komitəsinin qərarı olmadan güllələnməsi mə-

sələsini qaldıranda Hüseyn Mirzə Davud və Əliheydər Qarayev buna qarşı çıxdılar...”

Mikoyan telefonda bir anlıq susdu, sonra handan-hana ruhdan düşmüş halda dedi:

– Nərimanov Leninlə çox yaxındı. O, Lenini özünün hər hansı bir fikrinə inandırmağı bacarır. Zəngəzurda çoxlu qan tökülüb. Andronik, Dro, Nijde kimi generallar böyük bir ordu ilə Zəngəzura getsələr də məğlub olublar. Amma Serqo, eşidirsənmi məni, biz ermənilər mütləq Zəngəzura, Qarabağa, Naxçıvana sahib olmalıyıq.

Mikoyanın həyəcandan kök, ətli yanaqları titrədi, gözləri işıldadı:

– Silahla bu torpaqları ala bilmədik, Sultanov qardaşları əngəl oldu. Onlarla savaşda bizimkilər uduzdu... İndi Nərimanovu oyuna gətirməliyik. Başa düşdün? Burda sənin də payın var. Ermənilər kimsəyə borclu qalmağı sevmir... Nərimanov Leninə, Stalinə inanır. Amma bilmir ki, onların hər ikisi Azərbaycanın qəddar düşmənidi...

– Elə mən də... – Serqo qarşısında Nərimanovu görürmüş kimi hiddətlə başını buladı, – Kremlə qədər gəlib çıxmış bu yeganə azərbaycanlıya mənim nifrətim var. Onun ağlı, zəkası, nüfuzu, adamları inandırmaq bacarığı məni qəzəbləndirir. Bu arzuolunmaz müsəlman Leninin yanındadır və Vladimir İliç onun dediklərini səbrlə dinləyir.

– Biz öz aramızda razılığa gəldik, Serqo. Stalin də bizim tərəfimizdədir, başa düşdünmü?

Sonra onların qəzəb, nifrət dolu xırıltılı gülüşü telefondan otağa yayıldı.

Serqo ruhlanmış, keyfi açılmış halda masanın üstündəki qrafindən stəkana su töküb birnəfəsə içdi. Ona elə gəldi ki, içindəki yanğı sönmədi, daha da alışdı. Mikoyanın məkirli, qılıqlı səsi təkrar qulaqlarında səsləndi: “Stalin də bizim tərəfimizdədir...”

Serqo özünü kresloya atdı və yorğunluq hiss edərək gözlə-

rini yumdu. Bu anda sanki içindəki bir səs Serqodan soruşdu:

"– Sən niyə müsəlmanlara nifrət edirsən Serqo, sən ki, gürcüsən?

– Bilmirəm, amma sevmirəm bu milləti.

– Axı sən o millətin çörəyini yeyirsən?

– O çörək bizim özümüzündü.

– Sənindəmi bu torpaqdan umacağın var, Serqo?

– Hər kəsin var.

– Səbəb?

– Zaqafqaziyada neft kimi tükənməz sərvət onların payına düşüb. Buna görə də Lenin, Stalin, Mikoyan və başqaları caynaqlarını Azərbaycana ilişdirib. Bu caynaqları bu torpaqdan qoparmaq göydəki ulduzları ətəyinə yığıb yerə yenmək kimi bir işdi... Mən Nərimanovu sadəlövh, aciz bilirdim. Yanıldım. Onun ağlıma sığışdıra bilmədiyim vətənpərvərliyi məni əsəbiləşdirir, həm də qorxudur. O, bizim qurduğumuz xəyalları puça çıxara bilər. İnanmıram ki, Nərimanov mübahisəli olan o torpaqları ermənilərə güzəştə getsin. O, bilmir ki, Mikoyanın içində daim ayıq olan bir daşnak hiyləsi var.

– Serqo, sən bu işlərə qarışma.

– Biz Mikoyanla eyni dinə mənsubuq.

– Sənə təmiz, vicdanlı olmağı tövsiyə edirəm.

– Mikoyan təhlükəli adamdı. Əgər geri çəkilsəm, o məni cəzalandırar. Ermənilərin xisləti budu.

– Tarix sənin özünü də təhlükəli adam kimi təqdim edəcək.

– Tarixi biz yazırıq.

– Saxta qələmlə yazılan tarix...

– Əl çək... Əl çək məndən... Sən kimsən, ürəyimin içinə girib mənə hökm edirsən? Məni yolumdan, əqidəmdən döndərməyə çalışırsan..."

Bu anda telefon zəng çaldı. Yenə Mikoyan idi. Dəstəyi həvəssiz qaldırdı:

– Eşidirəm, yoldaş Mikoyan.

– Sənə deməyi unutdum. Mənə Mircəfər Bağırov lazımdır. Onu tap, mənə zəng eləsin.

– Mircəfəri? O, çox zirək, qoçaq, fəal bolşevikdi. Leninlə, Stalinlə yaxınlığı var.

– Elə bu səbəbdən də Mircəfər mənə lazımdı. Mən zəngəzurlu Sultan bəyin aradan götürülməsini istəyirəm. O, günahsız erməniləri qətlə yetirib və mütləq cəzalanmalıdı. Mən Mircəfəri təcili olaraq Zəngəzura göndərmək istəyirəm. Sultan bəy həm də bolşeviklərin qatı düşmənidi və sovet hokumətinə tabe olmaq istəmir. Başa düşdün? Zəngəzur onsuz da belə bəylərdən təmizlənir, ya güllələnir, ya da sürgün edilir.

– Baş üstə, yoldaş Mikoyan.

– Gözləyirəm.

Serqo dəstəyi yerinə qoydu və nədənsə özündə bir yüngüllük hiss etdi.

***

Laçının Bülövlük kəndi yamacların ətəyində əldən-ayaqdan uzaq bir yerdəydi. Gecənin dərin sükutu içində kənd yuxudaydı. Bülövlüyün baş tərəfində Müseyib bəyin imarətiydi, gecənin bu vədəsində tək işığı yanan da bu imarət idi. Son günlər bəylərin sərvətinin müsadirə edilməsi, ev-eşikdən didərgin düşməsi Müseyib bəyin yuxusunu qaçırdı. Hər gələn taqqıltıya təşviş içində qulaq verən Müseyib bəy indi də gecənin bu vaxtı kresloya dirsəklənərək qızıl qəlyanını asta-asta tüstülədirdi. Gözlərinin qarşısında sanki qızılı tüstü burumları qalxırdı və Müseyib bəy bir gözünü qıyaraq bu tüstü burumunu seyr edirdi. Moskvada oturub bu ölkəyə hökmü çatan bolşeviklərlə-Stalin, Beriya ilə tanışlığı vardı. Üstəlik Bakıdan Mircəfəri tanıyırdı. Amma Müseyib bəy bilmirdi, – bolşeviklərin rəhbəri olan bu adamlar onu müdafiə edə bilər, yoxsa yox?

Bu anda qapını kimsə asta-asta döydü və dayandı. Aşağıda xidmətçi pillələri cəld yuxarı qalxdı və Müseyib bəylə üz-üzə gəldi:

– Qapını açımmı, bəy?

– Bəlkə bu bolşevik deyilən adamlar məni aparmağa gəlib?

Xidmətçi təlaş içində qapıya baxdı, sonra da içini çəkdi:

– Allah eləməsin, bəy.

– Bu vaxtı qapı xeyirliyə döyülməz.

– Bəlkə açmayaq?

– Sən Müseyib bəyi qorxaqmı bilirsən? Ağlın başındadı? Sən məni beləmi tanıyırsan?

Qapı bu dəfə aram-aram döyüldü, Müseyib bəy özünü yetirdi. Qapının ağzında dayanmış üz-gözü sarıqlı alçaqboy adam üzündəki örtüyü götürdü və sevinclə dedi:

– Müseyib, mənəm, tanımadın? Mircəfər...

– Həəə, Mircəfər bəy. Keç içəri.

Qucaqlaşdılar. Salona keçdilər. Mircəfər yorğun halda özünü kresloya atdı, xırıltılı səslə dedi:

– Mənə bəy demə, Müseyib. Azərbaycanda qurulan bolşevik hokuməti bəylərə qənim kəsilib. Əsrlərlə rəiyyəti istismar edən bəylər həbs olunur, var-dövlətləri müsadirə edilir, özləri də ya sürgün olunur, ya da...

Müseyib bəy başını aşağı saldı:

– Alıyalınlı camaatı bilir ki, mən onlarla bəy kimi rəftar etmədim.

– Dayan bir görək. Sən mənə yaxşılıq eləmisən. Mən bunu heç vaxt unutmaram. Bu yaxşılığa görə də mən səni qoruyacam. Amma bu gecə bura gəlməkdə məqsədim başqadı.

– Eşidirəm, Mircəfər, – Müseyib bəy bu anda Mircəfərin vahimə doğuran sərt sifətini gördü və üşənən kimi oldu.

– Bir başa mətləbə keçim: Sultan bəyi aradan götürməlisən.

– Mən?

– Bu işə səndən başqa münasib adam tapa bilmədim. Bu mənim yox, Moskvada oturanların tapşırığıdı.

Müseyib bəyin gözü iriləndi, özünü itirdi və handan-hana dedi:

– Burda erməni barmağı var.... Erməni qisas almaq istəyir. Xosrov bəyi də şərləyib türməyə saldılar. O, general-qubernator olanda mən Şuşada polisdə işləyirdim. 70 nəfər erməni qadınının adından ona böhtan atdılar. Başğa bir şey tapmadılar. Guya erməni qadınlarını yoldan çıxarırmış... Özü də kim, Xosrov bəyi?.. Xosrov bəylə Sultan bəy olmasaydı Qarabağla Zəngəzur çoxdan əldən getmişdi... Onlar çox igid...

– Bəsdi, – Mircəfərin qəzəbdən sifəti qızardı və o, yumruğunu düyünlədi, sonra da Müseyib bəyin biləyindən tutub sıxdı.

Müseyib bəy biləyini onun əlindən çəkdi, yaraşıqlı sifəti bulud kimi tutuldu və o, heyrət qarışıq təəccüblə dedi:

– Sən bir azərbaycanlısan, Mircəfər. Bu mahalların ermənilərin əlinə keçməsini istəyirsən?

– Mən bura Sultan bəyin igidliyindən danışmağa gəlmədim. Mən sənə deyirəm ki, bir bəy kimi yaşamaq istəyirsənsə Sultan bəy qətlə yetirilməlidi. Sən bu mahalda sərrast güllə atansan və igidlikdə ad çıxarmısan. Tapşırığı yerinə yetirsən sovet hokuməti sənə toxunmayacaq. Yoxsa bolşeviklər səni bəy olduğun üçün məhv edəcək.

Mircəfər hiddətlə sözünü dedi, Müseyib bəyin gözlərinin içinə baxdı və bu gözlərdə olan açıq hədəni müsahibinə çatdırdı, örtüyü götürdü:-Mənim bura gəlməyim gizli qalmalıdı. Həyətdə məni gözləyirlər. Dediklərimi unutma.

Müseyib bəy arzuolunmaz qonağın arxasınca qapını örtüb bağladı, kürəyini qapıya söykəyib xeyli dayandı, alnını, saçlarını islatmış soyuq təri sildi. Həyətdə at nallarının xəfif səsi gəldi, sonra uzaqlaşdı və it hürüşməsi kəndi başına götürdü.

– Kimiydi gələn, Müseyib?

Arvadının yuxulu səsi gəldi.

– Heç. Dostlarımdan biriydi, getdi.

Yorğanı başına çəkdi....Bülövlük kəndində hər kəs onu mərd, cəsur adam kimi tanımışdı. Ayağını üzəngiyə qoyub atın belinə qalxanda şəhanə oturuşu, gözəl qaməti, yaraşıqlı siması ilə qadınları heyran edərdi. Bu mahalda onun kimi at çapan yox idi. Sanki dərələrdə, düzlərdə atın üstündə süzərdi, "Aynalı" ilə "Beşaçılanı" ikisini də əlində tutub eyni vaxtda elə sürətlə, elə sərrast atardı ki, görənlər mat qalardı. Ürəyi də, əli də açıq idi. Kasıblara əl tutardı, çox vaxtı köhnə paltar geyinərdi ki, kasıblardan seçilməsin. Uşaqları bağrına basardı və buna görə də el arasında hörmət-izzət sahibiydi. İndi bu xəyanətkar tapşırıq hardan gəldi, hardan qəfil güllə kimi onu ürəyinə dəydi? İçinə çökmüş sıxıntı sanki ağlını, düşüncəsini iflic elədi: Sultan bəyə necə əl qaldırsın, elin bu qəhrəman oğluna namərdcəsinə necə qıysın? Onun düşmənlə savaş açdığı bu torpaqlar şəhid qanı ilə suvarılıb, başdan-başa şəhid məzarları ilə örtülüb. Bu şəhidlərin ruhu o dünyada onun yaxasından yapışıb çarmıxa çəkməzmi?

Müseyib bəy sanki yatağına döşənmiş közün üstündəydi. Bu közün istisi ürəyini bişirirdi, alovu gözlərinin içini qarsırdı.

Gözünü yummaq, yuxuya getmək, bu dəhşətli xəyalətdən uzaq olmaq istəyirdi. Amma həmin anlarda Mircəfərin gözlərində ermənilərin baxışında gördüyü qəddarlığı, cəlladlığı gördü. Tez böyrüüstə çevrildi: "Neynəsin, necə etsin ki, həm Sultan bəy sağ qalsın, həm də o, bolşeviklərin cəzasından qurtarsın? Bəlkə Sultan bəylə təkbətək görüşsün, onu xəbərdar eləsin? Ağıllı adamdı, bir çıxış yolu tapacaq... Amma ağıllı Sultan bəy soruşacaq: Mircəfər mənim qətlim üçün niyə səni seçdi? Əvvəldən tanışlığın, dostluğunmu vardı? Necə desin ki, bir dəfə onu həbsxanaya düşməkdən qurtardım.

... Müseyib bəy o vaxt Şuşada polis şöbəsində işləyirdi. Mircəfər Şuşaya gəlirdi və bolşevik gizli təşkilatının üzvləri ilə görüşürdü, tapşırıqlar verirdi. Bir dəfə ələ keçdi. Burda da Müseyib bəy onu qaçırdı, bilet aldı və Bakıya yola saldı. Bunun mükafatı olaraq o vaxt Mircəfər ona qızıl saat və gümüş dəstəkli xəncər bağışladı... Bunları necə desin Sultan bəyə?

Sultan bəy gərək bu yerlərdən çıxıb getsin. Ermənilər onu rahat buraxmayacaq. Yüz il keçsə də ürəklərində Sultan bəyə olan kinləri soyumayacaq....İndi bu daşnakların ən təhlükəli bolşevik adı altında Moskvada rəhbər vəzifədə işləyən erməni-di. Çox güman ki, Mircəfərə tapşırığı o, verib. Namərd dünya... Sultan kimi bir igidin qətlini azərbaycanlıya tapşırırlar... Öləsən-itəsən namərd dünya... Sən necə müsəlmansan, Mircəfər?

Arvadı başını yasdıqdan qaldırdı:

– Niyə yatmırsan, Müseyib?

– Yuxum qaçıb, çıxım həyətə, hava alım.

Amma həyətə çıxmadı. Salona keçib qızıl qəlyanı saçaqlı tənbəki ilə doldurdu, kresloya oturub qəlyanı tüstülətdi və gözlərini yumdu, bu tapşırıqdan canını qurtarmağa yol axtardı...

***

– Dilruba, nahara məni gözləməyin, heç şama da. İşim var.

– Səfərin haradır, Sultan? – Dilruba ürəyinə nə isə dammış kimi təşvişlə soruşdu.

– Narahat olma, Müseyib bəy çağırıb. Arvadının səninlə qohumluğu var. Demək bizə də dost, simsar adamdı.

– Bəlkə getməyəsən, Sultan. Ürəyim elə bil rüsxət vermir. Yuxumu da qarışdırmışam.

Sultan bəy güldü:

– Müseyib erməni, ya da bolşevik deyil ki, qorxasan. O, mərd, cəngavər bir adamdı. Çox güman ki, xeyirli işə çağırır.

Bir də kövşənlərdə, çöldə-düzdə at sürmək, cavanlığımı xatırlamaq istəyirəm.

– Ehtiyatlı ol, Sultan.

– Sən mənə bir şey olar, deyə qorxu içindəsən. Amma ürəkli ol. Çünki sən Sultan bəyin arvadısan.

Sultan bəy onun əllərindən tutdu. İpək kimi yumşaq əllərini ovcunun içində saxladı. Dilrubanın gözlərində sanki yazı sovuşmuş payızı çatmış və buna görə də həzin, hüznlü, çiskinli hava vardı. Sultan bəy bu narahatlığı heç bir vaxt duymamışdı, bəlkə də vaxtı olmamışdı. Həmişə at belində çöldə-bayırda, yaylaqlarda, savaşlarda olmuşdu. Sanki bununla da Dilrubanın daim könlünə yağan yağışların soyuğunu, fırtınasını, ürəyinin çırpıntısındakı təlatümləri hiss etməmişdi. İndi qarşısında dayanıb payız yarpağı tək titrəyən bu qadının ürəyinin bir parçası olduğunu yalnız bu an hiss etdi. Yalnız bu an hiss etdi ki, bu qadının içində alovlanan sevgi adlı bir ocaqdan həmişə güc, qüvvət, xeyir-dua alıb, yalnız onun dualarının sayəsində Tanrının nəzəri üstündə olub. Amma özü bu qadının möhtac olduğu sevgini ona verə bilməyib. Heç bunun fərqində də olmayıb. Kaş düşünsəydi... Kaş bu qadının intizar çəkdiyi, sıxıldığı, ağladığı o yalqız gecələrdə özünü qəflətən yetirib “Səni görməyə gəldim... darıxdım... Səsini eşidim... gülər üzünü görüm, qayğını, sevgini görüm... “desəydi. Ağır, ləngərli, təmkinli Sultan bəy bunu niyə özünə sığışdırmadı? Niyə özünü həmişə sözükeçərli, hökümlü göstərdi? Bircə sərt baxışı ilə zəhmini biruzə verdi, ətrafında daim qorxu-hürkü, itaətkar bir ab-hava yaratdı? Niyə yalnız indi -arvadının gözlərindəki o təşviş dolu sevgini görərkən kövrəldi və Dilrubanın illərlə içində dərya səbri ilə onu gözləyən mələk simalı bir qadın olduğunu dərk elədi?

Sultan bəy cavanlığını, bütün həyatını doğulduğu, yaşadığı, babalarının ölüb getdiyi bu torpağın qorunmasına həsr etdi.

İçində aşıb-daşan sevgidən – onu gözləyən, ona ən ali sevgi hissləri bəsləyən və bu sevgi üçün də canını əsirgəməyəcək qədər fədakar olan bu qadına bir pay vermədi. Bəlkə də verdiyini düşündü... Amma onun gözlərinə qara bulud tək çökən kədərin, üzünə yavaş-yavaş düşən zərif qırışların, saçlarındakı gündüz işığına oxşar ağ tellərin fərqinə varmadı. Sanki Dilruba bu evə necə gəlin gəlmişdi, eləcə də gənc, təravətli, yaz çiçəyi tək süslü qalmışdı... Amma yox, o gənc, gözəl Dilruba yox idi. Qarşısında gözləri çiskinli, ürəyi dolu, yetərincə həsrət çəkmiş yaşlı-başlı Dilruba dayanmışdı. İllər nə vaxt bu gözəlliyi ondan qopardı, nə vaxt aldı, Sultan bəy niyə görməzdən gəldi? Sultan bəy şaşqın idi...

Dilruba başını onun sinəsinə qoydu. Sanki ürəklərinin döyüntüsü bir-birinə qarışdı. Ürəyi nazilən, hissləri qarışan Sultan bəy gülümsəməyə çalışdı:

– Uşaqları kənd içinə buraxma. At minmək, kövşənə çıxmaq təhlükəlidi. Ətrafımızda düşmən çoxdu. Qisas ala bilərlər.

– Sən də özünü qoru, Sultan.

– Tez qayıdacam, Dilruba.

Atı gətirdilər. Sultan bəy çevikliklə ayağını üzəngiyə qoyub atın belinə qalxdı və Hacısamlının aşağısında gözləyən iki atlı da ona qoşuldu.

***

Telefon aramsız, uzun-uzadı zəng çaldı. Mircəfər Mikoyanın asta, ləngərli səsini eşitdi və onun qarşısındaymış kimi özünü şax tutdu:

– Eşidirəm, yoldaş Mikoyan.

– Nə var, nə yox? Mircəfər o işi həll etdinmi? Yoldaş Stalin də bu işin marağındadır. Bolşevizmin düşmənləri cəzalanmalıdı. Sultan bəy və Xosrov bəy qardaşları iki millətin arasına ni-

faq salır. Biz sülh adamıyıq. Zəngəzuru, Qarabağı təhlükəli düşmənlərdən təmizləməyə çalışırıq. Xosrov bəy hazırda Bakıda Bayıl həbsxanasındadır və elə bilirəm ki, onu orada aradan götürəcəklər.

– Çox yaxşı, yoldaş Mikoyan.

– Mən sizin bir bolşevik kimi fədakarlığınızı Leninə və Stalinə çatdırmışam.

– Təşəkkür edirəm. Sultan bəy haqqında artıq tapşırıq verilib və mən icrasını gözləyirəm. Tezliklə sizə bu haqda məlumat verəcəm.

Mikoyan sağollaşmadan dəstəyi yerinə qoydu. Mircəfər əlindəki dəstəyə baxdı və ona elə gəldi ki, üst dodağının üstündə kölgə kimi bir çəngə bığ saxlamış Mikoyanı gördü. Ermənilərə xas olan qəddarlıq, hiyləgərlik sanki onun gözlərinə həkk olunmuşdu. Amma bu qəddarlıq Mircəfərə xoş gəldi, içində bir rahatlıq vardı, dəstəyi yerinə qoydu və fikrə getdi: "Amma Sultan və Xosrov bəy qardaşları ermənilərə od qoyub ha. Lenin, Stalin də çox güman ki, ondan qorxur, ehtiyat edir və buna görə də aradan götürmək istəyirlər". Yumruğunu sinəsinə çırpıb xoşhallıqla gülümsündü: Bolşevizmin düşməni mənim də düşmənimdi.

***

Seyid Həmid Hacısamlıdan çıxanda özünü saxlaya bilmədi:

– Biz hara gedirik, bəy? – soruşdu.

Sultan bəy qımışdı:

– Əvvəllər hara getdiyimizi soruşmazdın, Seyid Həmid?

Ağamməd atın cilovunu özünə sarı çəkib Seyid Həmidin yerinə cavab verdi:

– Əvvəllər bir düşmənimiz vardı, indi olub iki. Ermənilər və bolşeviklər. Gedəndə bilirdik ki, savaşa gedirik. İndi bilmi-

rik axı? Amma başa düşürük ki, getdiyimiz yeri yüz ölçüb bir biçməliyik. Dostun da hiyləsinə tuş gələ bilərsən. Qarışıq zamanədi.

– Narahat olmayın, Müseyib bəy çağırıb. Onu tanımamış olmazsınız.

Seyid Həmid dərindən, rahatlıqla nəfəs aldı:

– Ondan zaval gəlməz. Müseyib bəy qeyrətli, dürüst adamdı. Özü də çox sərrast atıcıdı. Elə bil Allah vergisidi. Eyni anda iki tüfəngdən güllə atır, iki güllə ilə quşu iki gözündən vurur.

– Özü də ürəyi yumşaq adamdı. Kasıb yanında bəy olduğunu hiss etdirməz. Bəy paltarını geyinir, üstündən də nimdaş paltar ki, kasıbdan seçilməsin. Görmüşəm, – Sultan bəy atı dəhmərlədi, atların üçü də düzənlikdə sanki qanad açdılar.

***

Müseyib bəy masanın siyirtməsini çəkib silahını götürdü. Otağa göz gəzdirdi. Qapının yanında divara vurulmuş iri aynanın qarşısında dayandı. Diqqətlə özünə baxdı: sanki özü özünü yox, yad bir adamı gördü. Aynadan ona qaşqabaqlı, gözləri qaynarlığını itirib ölüşgəmiş, çiyinləri sallanmış, bu neçə gündə sanki qocalıb sınıxmış adam baxırdı. O adamın baxışından, duruşundan, üzünün ifadəsindən qorxaq, aciz və çarəsiz olduğu hiss olunurdu. Və "o adamın" mağmun duruşu Müseyib bəyi hiddətləndirdi, bağırmamaq üçün dişlərini bir-birinə sıxdı, yumruğunu qaldırıb aynadan ona baxan "adamın" sifətinə çırpmaqdan özünü zorla saxladı. "O adam" sanki var gücü ilə Müseyib bəyin üstünə bağırdı:

"– O silahı niyə götürdün, Müseyib?

– Mən Sultan bəyi öldürmək istəmirəm.

– Bəs onda hara gedirsən, Müseyib? Onu çağırmısan ki, üstünə silah çəkəsən.

– Məcburam. Əgər mən onu vurmasam. Mircəfər mənim axırıma çıxar. Sultan bəyin də qətlini başqa birinə tapşırar.

– Kaş özünə demiş olardın. Özü bir çıxış yolu tapardı. Səni də bu zülümdən, igəncədən, namərd adını daşımaqdan qurtarardı.

– Sultan bəy onsuz da düşmənlərin əhatəsindədi. Ermənilərin və bolşeviklərin. Ya o tərəf, ya da bu tərəf onu aradan götürəcək.

– İndi bu qətli sən...

– Danışma... İçimi bu qədər oyma... Hiylə işlətmək istəyirəm. Atdığım güllə ondan yan keçsin. Ona zəfər toxunmasın. O, Zəngəzurun qəhrəmanıdı, igid oğludu. Mən ona necə əl qaldırım, necə namərdlik edim? Bu mənə, Müseyib bəyə yaraşarmı? Belə düşünürəm ki, o, Zəngəzurdan getməlidi. Mənə xeyir-dua ver. Sonrakı peşimançılıq məni öldürməsin...

– Bu işin xeyir-duası yoxdu, Müseyib bəy...”

Müseyib bəy aynadan aralandı, qapını açıb həyətə çıxdı. Xidmətçi atı gətirdi. Müseyib bəy atın cilovundan yapışıb ayağını üzəngiyə qoydu, amma atın belinə qalxmadı, cilovu atıb, sanki ruh kimi həyətin ortasında dayandı, bir xeyli düşündü, yenidən otağına qayıtdı. Özünü pəncərənin qarşısında qoyulmuş kresloya atdı. Dərindən nəfəs aldı və gözlərini yumdu-sanki hər şey zil qaranlığa qərq oldu, hətta ürəyinin içi də: “Birdən gülləm yan keçmədi, ürəyinin başından dəydi?”

Əlləri əsə-əsə döş cibindən qızıl qəlyanı çıxardı, tütünlə doldurub alışdırdı və bir gözünü qıyıb tüstünü havaya püləyə-püləyə sanki zil qaranlığın içindən çıxmağa, yol axtardı:

“Sakit ol, Müseyib, necə yəni güllə birdən ürəyinin başından dəyər? Ayağını nişan alarsan, yüngülcə yaralanar, Mircəfərə də xəbər çatar. Canını bu namərd damğasından qurtararsan...”

Qəlyanı söndürüb masanın üstünə qoydu və atını minib Sultan bəylə görüşə tələsdi.

... Müseyib bəy görünmürdü. Sultan bəylə Seyid Həmid atların başını buraxdılar. Seyid Həmid içinə qurd kimi düşmüş şübhəni yenə dilinə gətirdi:

– Bəy, hələ də mənə qaranlıqdı. Müseyib bəy səni niyə kövşənə, gözdən-könüldən uzaq yerə çağırıb? Evinə gedə bilməzdikmi?

– Yəqin ki, mühüm söz deyəcək. Kimsənin görməsini istəmir.

– Bəy, deyirəm, birdən bolşeviklər onu yoldan çıxarar, ya da ermənilərin fitvasına uyar?

– İnanmıram, Seyid Həmid. Müseyib bəy qeyrətli adamdı. Heç kəsin fitvasına uymaz. İnanmıram.

– Təki sən deyən olsun, bəy.

Bu anda dikin başında atın belində Müseyib bəy göründü. Və Sultan bəy ona tuşlanmış silahı da gördü. Seyid Həmid qışqırdı:

– Özünü qoru, bəy.

Sultan bəy atın belində qəddini əydi, güllə onun kürəyinə sancıldı. Sanki bir anda yer, göy donub qaldı. Seyid Həmid ilk əvvəl nə baş verdiyini anlamadan gah kürəyindən qan süzən, huşunu itirib atdan düşən Sultan bəyə, bir də arxasını onlara çevirib yel kimi gedən Müseyib bəyin arxasınca baxdı.

Sultan bəy zarıdı:

– Seyi... d Hə mi... d.

Seyid Həmid özünü yetirdi. Sultan bəyi arxası qatda uzatdı.

....İki nəfər inanılmış adamlar Sultan bəyi ehtiyatla məfrəcin arasına qoydular.

– İndi neyniyək, hara aparaq bəyi, kimsə bilməsin. Yerini gizli saxlayaq. Yaşadığını bilsələr onu axtaracaqlar.

Yaxın dostlarından biri dedi:

– Bu yaxında mağara var. Çox etibarlı yerdədir. Mağaranın ağzını iri sal daşla qapayarıq. Sultan bəyin orda olduğu kimsənin ağlına gəlməz. Gedim evdən yorğan -döşək gətirim. Sonra da həkim aparaq. Etibarlı adamımız var. Ölümcül yaralanıb. Yaxşı ki, qanı saxlaya bilmisən, Seyid Həmid. Sultan bəy sağalsa, bu Allahın bir möcüzəsi olacaq, inşallah.

(... Və gözlənilən möcüzə baş verdi, Sultan bəy üç aydan sonra uşaq kimi ilk addımlarını atmağa başladı).

**2.**

Nərimanov otelə getməyə tələsmədi. İrəvanın küçə və meydanlarını gəzmək, havasını udmaq, yaxın keçmişə qayıtmaq istədi. Amma özünü qürbətdə hiss etdi, şəhər ona soyuq və yad gəldi.

... Azərbaycanı öz əlində cəmləşdirən Nadir şah Əfşar qətlə yetirildi və Azərbaycan İran hakimiyyətinin nəzarətindən çıxdı. Xanlıqlara bölündü. Mirmehdi xan da İrəvan xanlığını yaratdı. Bu xanlığın əraziləri o illərdə geniş idi. Xanlıq Qarabağ, Naxçıvan, Maku, Türkiyə, Osmanlı imperiyası, Kartli-Kaxetiya çarlığı, Borçalı və Qazax sultanlıqları ilə həmsərhəd idi. Əhalisi azərbaycanlılardan ibarət idi və hələ erməni deyilən zəhərli gürzələr bu torpağa yol tapmamışdı. Məhəmməd xanın vaxtında İrəvan xanlığı daha da çiçəkləndi. Xanlığın sonuncu xanı Hüseynqulu xanın hakimiyyətdə olduğu illərdə rusların işğalçı siyasəti İrəvan xanlığını da təhlükəyə atdı və arzuolunmaz savaşlarla üz-üzə qoydu. Hüseynqulu xan İrəvanı qorumaq üçün Sərdarabad qalasını tikdirdi. Bu qala ruslarla amansız döyüşlərin şahidi oldu, məğlubiyyətin acısını yaşadı. 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsi ruslara nökərçilik edən ermənilərin üzünü güldürdü. Xanlığa son qoyuldu və ermənilər bu qə-

dim Azərbaycan torpağına köçürüldü.

Yeni qurulan Azərbaycan Cumhuriyyəti daha ağır səhvə yol verərək İrəvanı ermənilərə güzəştə getdi. Amma tarixin izləri hələ də bu şəhərdə yaşamaqdaydı və ermənilər bu izləri silib yox eləməyə macal tapmamışdılar. Dişləri şirəyə batmış bu nankor millət hələ də savaşdaydı, hələ də torpaq iddiasındaydı və onların nəfsi, iştahı bitib tükənmək bilmirdi.

Nərimanov qədim, yaraşıqlı binanın qarşısında dayandı. Avtomobilin qapısını açaraq binanı seyr etdi və ürəyinin dərinliyində peşimançılıqla dolu ağrı, sıxıntı hiss etdi. Bu bina İrəvan xanının sarayı idi və xanlığın sonuncu başçısı Hüseynqulu xan bu binadan xanlığı idarə eləmişdi. İndi binanın üstündə oraqla çəkicin ittifaqını bəyan edən qırmızı bayraq asılmışdı. Görəsən bu bayrağın təmsil etdiyi yeni hökumət onların ümid etdiyi sülh və əmin-amanlığı ermənilərin ağlına, beyninə yerləşdirə biləcəkdimi? Görəsən onların əqidəsində kök salmış nifrət, kin, qisasçılıq, qəddarlıq diyğularını silib aparacaqdımı?

Nərimanov düşüncələrində bir inamsızlıq, dumanlı bir şübhə hiss etdi, darıxdı. Sanki bu şəhər günəş üzü görmürdü və bu səbəbdən də soyuq və sevgisiz idi. Nərimanov şoferə avtomobili otelə sürməyi tapşırdı...

***

1 dekabr 1920 -ci il.

Günortadan sonra keçmiş İrəvan xanlığının sarayında Ermənistanda sovet hakimiyyətinin qurulması münasibəti ilə təntənəli iclas keçirildi. Salon ağzınadək doluydu. Bayırda izdiham vardı və bu tarixi gündə ermənilərin hamısı buraya toplaşmışdı. İçəridə divar boyu polislər düzülmüşdü və onlar asayişi qoruyurdular.

Nərimanov kürsüyə qalxdı. Salon sanki nəfəsini içinə çəkdi. Dərin bir səssizlik yarandı. Nərimanov adamlara göz gəzdir-

di. Üzünə zillənmiş yüzlərlə göz gördü. Ona elə gəldi ki, bu gözlərin hamısı nədənsə qırmızı rəngdədir və rəngli gözləri ilə Nərimanovu vahiməyə salmaq istəyirlər. Nərimanov astadan öskürdü, rəngli gözlərdən gözünü çəkdi və ermənilərin səbirsizliklə gözlədiyi bəyanatı oxumağa başladı:

"Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın-kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım göstərərək elan edir ki, bundan belə heç bir ərazi məsələləri əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzalarının əraziləri Sovet Ermənistanının bölünməz əraziləridir.

Dağlıq Qarabağın əməkçi kəndlərinə isə öz müqəddaratını təyin etmək hüququ verilir.

Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır. Sovet Azərbaycanının malik olduğu tükənməz sərvətlərin-neft, kerosin və digər məhsulların qapılarını Sovet Ermənistanı üçün geniş açır".

Bu anda salonun içinə sanki top atəşi yağdı. Adamlar ayağa qalxdı, alqış səsləri az qala salonun divarlarını uçurdu. Ermənilər ayaqlarını yerə döyür, fit çalır, çəpik səsindən qulaq tutulurdu. Bayırdakı izdiham da bu təntənəli anı gözlədiyindən içəridən xəbər alan kimi coşdu, adamlar qapıdan içəri girməyə cəhd edir, pəncərəni döyür və öz sevinclərini vəhşiləşmiş halda bildirirdilər. Sonra içəridə və bayırda çəpik səsləri kəsildi, bu dəfə bağırtı, qışqırtı səsləri İrəvanın küçələrini bürüdü.. Ermənilər ayaqlarını yerə döyür, yumruqlarını başlarının üstə qaldıraraq var qüvvələri ilə bağırırdılar:

– Qarabağ... Naxçıvan... Qarabağ....Naxçıvan...

Nərimanov onları heyrətlə süzürdü. Qırmızı gözlər rəngini

dəyişmişdi, bu gözlər indi vəhşi canavar gözü kimi qaranlıqda işıq saçırmış kimi kəhraba rəngindəydi və parpar yanırdı.

Nərimanova elə gəldi ki, indi, bu anlarda bu salondan Zəngəzura, Qarabağa, Naxçıvana atəş yağır, atılan güllələr azərbaycanlıların ürəyinin başına sancılır. O, sinirlənmiş halda əlini masaya çırpdı:

– Sakit olun. Sakit...

Yaşlı erməni əl ağacına söykənə-söykənə Nərimanova yaxınlaşdı, yaş süzülən gözlərini quruladı və tənbehedici halda ucadan bağırdı:

– Mən Zəngəzurda savaş zamanı ayağımı itirdim. Biz vicdanla döyüşürdük və öz torpağımızı istəyirdik. İndi sən sübut elədin ki, bu torpaq bizimdi. Qarabağ, Naxçıvan da bizim olacaq. Yoxsa biz yenə savaş açarıq.

Kişinin arxasında dayanmış cavan qadın irəli keçdi, barmağını Nərimanovun üstünə silkələdi və hökmlə dedi:

– Əvvəl Naxçıvanı verin. Biz Zəngəzura necə gedə bilərik? Bizə Naxçıvan lazımdı...

Yenə səs-küy, bağırtı, fit səsləri eşidildi və Nərimanov birdən-birə içindəki sıxıntıdan, salonun tüstü bürümüş kəskin havasından darıxdı və başı gicəlləndi.

Ermənistanın baş naziri Xatisov Nərimanova tərəf əyildi:

– Yoldaş Nərimanov, havaya çıxaq, sonra da əlini yuxarı qaldırdı:

– Sakit olun. Yoldaş Nərimanov Qarabağın və Naxçıvanın Sovet Ermənistanına birləşdirilməsinə səy göstərəcəkdir.

Nərimanov yuxudaymış kimi dəhşətli bir sarsıntı içindəydi...

... Otağına qapıldı və kimsə ilə görüşmək istəmədi. O, dərin bir peşimançılıq içindəydi: "Tarix məni bağışlamayacaq. Mən düzələsi mümkün olmayan bir səhvə yol verdim".

Sifətini, gözlərinin içini alov qarsmış kimi alışıb yanırdı. Serqo Orconikidzenin məkrlə, hiyləgərliklə dediyi sözləri xatır-

ladı: "Zəngəzur, Naxçıvan və Qarabağ ruslar üçün heç nə deməkdir. Zəngəzur məhsulsuz dağlardır, malyariyadan başqa bir şey deyildir. Qarabağda heç nə yoxdur."

Nərimanov sanki Serqo ilə üz-üzə dayandı:

"– Heç də belə deyildir, Serqo. Bu torpaqlar Azərbaycan üçün çox qiymətlidi. Zəngəzurlular məhsulsuz dediyiniz bu torpaqları dünyanın ən gözəl, səfalı bir yerinə çevirmişlər, onu canları, qanları bahasına qorumuşlar.

– Lakin Zəngəzur mübahisəli ərazidi.

– Mən də qan tökülməsini istəmirəm. İstəyirəm ki, savaş bitsin. Sülh və əmin-amanlıq olsun..."

***

İrəvandan aldığı xəbər Serqonu göylərə qaldırdı. Sevinc hissi, duyğularının şiddətli təlatümü Serqonu yumuşaq kreslosunda rahat oturmağa, xəyallara qapılmağa qoymadı. Yerindən qalxdı və öz-özünə gülümsəyərək gəzindi. Əllərini bığlarına çəkdi, istehza ilə qıyılmış gözləri parıldadı, məmnun halda öz-özünə dedi: "Axır ki, tələyə düşdün, Nəriman bəy. Uğrunda canını fəda etmək istədiyin millətin bu xəyanətkar bəyanata görə səndən üz çevirəcək, adın tarixdə bir xain, bir satqın kimi qalacaqdır.

Yazıq Nəriman... Hardan biləsən ki, inandığın, etibar etdiyin Lenin əslində sənin, sənin millətinin gizli düşmənidi. Sənin xəbərin varmı ki, onun Qafqaz üzrə məsləhətçisi qatı daşnakdı? Rusiyanın tarixində həmişə belə olub: rus çarlarının müşavirləri erməni keşişlərindən seçilib. Bunu 1 Pyotr öz vəsiyyətnaməsində ruslara məsləhət görüb.

Vladimir İliç Azərbaycanın müstəqil olmasını istəmir, əziz Nəriman. Sən onun yalançı təbəssümünə, bəlağətli danışığına aldandın. O, bir gündə ikimizə də teleqram vurmuşdu. Mənə

göndərdiyi teleqramda yazmışdı: "Bütün hakimiyyəti əlinizə alın". Amma riyakarlıq edərək sənə yazmışdı: "Yaşasın müstəqil Sovet Azərbaycanı". Sən Leninin ikiüzlü siyasətini başa düşməkdən çox-çox uzaqsan, Nəriman bəy. Saf ürəyinlə, təmiz qəlbinlə, amma kor olmuş ağlınla bu balacaboy adamın Azərbaycana necə dərin bir quyu qazdığını anlaya bilmirsən. Siyasətin incə, gözəgörünməyən hörümçək toru artıq öz işini görməkdədir. Bununla da biz bir güllə ilə iki dovşan vurduq: Zəngəzur ermənilərə verildi, eyni zamanda türklərin Azərbaycana quru yolu bağlandı.

Bu gün Zəngəzur getdi... Sabah Qarabağ, sonra Naxçıvan..."

Serqo telefonun dəstəyini qaldırdı. Stalinə zəng etmək istədi. Amma barmaqları daşnak ordusunun komandanı Nakaçakyanın nömrəsini yığdı və eyni anda da onun əsəbinə toxunan cırıltılı səsini eşitdi:

– Əzizim, Serqo, çox güman ki, ürək çırpıntısı ilə gözlədiyimiz müjdəni verəcəksən.

– Məlumatın varmı?

– Elə həmin anda. Bəyanat oxunan kimi xəbər verdilər. Sən də bizdən sayılırsan, Serqo. Biz Zəngəzurda can qoyduq, qan tökdük. Amma Zəngəzuru müsəlmanlardan təmizləyə bilmədik. Biz orda əsil savaş gördük. Nə qədər əsgərimizi itirdik. Biz onları məğlub edə bilmədik. Böyük komandan Andronik də aciz qaldı. Mən şəxsən minnətdaram yoldaş Nərimanova. Demək bir qələm bir ordudan daha güclüdür...

Qaldı Qarabağ... Sənə deyim ki, təkcə strateji nöqteyi-nəzərdən Qarabağın ələ keçirilməsi böyük uduşdur. Bu şimal tərəfdən Zəngəzurun təhlükəsizliyinə verilən təminatdır və Ordubad ərazisini də zəbt etməklə Zəngəzurun Naxçıvan tərəfdən əmin-amanlığı yaranacaqdır. Bununla da Şərur, Naxçıvan Azərbaycandan aralı salınacaq və həmin ərazinin yenidən ilhaqı

üçün şərait yaranacaqdır.

– Stalin də bu fikirdədir.

... Serqo Stalinə də zəng vurdu. Stalinin ağır, ötkəm səsini eşidəndə masanın arxasından azca irəli əyildi, hərbi kitelinin yuxarıdan iki düyməsini açdı, müjdə xəbərini vermək istərkən Stalin ləngərli səslə dedi:

– Bilirəm, məlumat aldım ki, Sovet Azərbaycanı mübahisəli vilayətdən könüllü əl çəkir və Zəngəzur, Naxçıvan, Dağlıq Qarabağın Ermənistana verilməsini təmin edir. Bəs bu bəyanata kimlər imza atdı, Serqo?

Serqo qalın bığlarına sığal çəkdi və kitelinin düymələrini bağlayıb təntənə ilə dedi:

– Mən-yəni Orconikidze, Sarkis Ter-Petrosyan, Stasova, Kaminski, Nərimanov və Əliheydər Qarayev.

– Erməni xalqı üçün xeyirli olsun. Amma bəyanatda nədənsə təkcə Zəngəzurun adı çəkilir.

– Yoldaş Stalin, Qarabağ və Naxçıvan hələlik qalır. Onlar bölünməz torpaqlardı, ona görə də...

– Bu gün Leninlə danışaram. Sabah bir yerdə qərar verərik.

– Erməni xalqı adından təşəkkür edirəm, yoldaş Stalin.

Stalin cavab vermədən dəstəyi yerinə qoydu, Serqo fikrə getdi: "Nərimanov bəyanatı verdi, artıq yolumuzda o, bir əngələ çevrilir. Onu inqilab komitəsinə sədr gətirərkən biz düşünmüşdük ki, bütün hakimiyyət bizim əlimizdə olacaq. Amma biz yanıldıq. Nərimanov millətinə, torpağına düşgün bir adamdı. Onların uğrunda hər cür fədakarlığa hazırdı. Məhz buna görə də biz onu əlimizdə alətə çevirə bilmədik. O, bütün varlığıyla Azərbaycanı, onun bütövlüyünü qorumağa çalışır... Xəbəri yoxdu ku, artıq Qarabağın, Naxçıvanın da taleyi həll olunur... Bəlkə bunu ona xəbər verim? Onun sifətindəki xoşagəlməz ifadəni görmək istəyərəm. Bəlkə tələsməyim? Bəlkə qərar

verildikdən sonra bildirim? Yox, qoy məndən eşitsin, onsuz da məsələ həll olunub... Nərimanovun onu dayandırmağa gücü yetməz...”

... Nərimanov onu həmişəki istiliklə qarşılamadı, qaşqabaqlı və pərişan idi.

– Siz tarixi bir bəyanat verdiniz, yoldaş Nərimanov, – Serqo məkirli təbəssümünü ört-basdır eləməyə çalışdı.

Nərimanov başını qaldırdı, onun gülümsər gözlərinin içinə baxdı və sanki iti baxışla onun gözlərinin içinə güllə sıxdı:

– Səni də təbrik edirəm, yoldaş Orconikidze, ermənilərin yaxın dostu kimi. Bilirəm ki, sizin sevinciniz ermənilərin sevincindən az deyil.

– Buna hamımız sevinməliyik, – Serqo sanki incə, siyasi bir həyasızlıqla gözünü ondan çəkmədi, -axır ki, savaş bitdi. Naxçıvan və Qarabağa sülh gələcək. Leninlə Stalin artıq sabah bu mübahisəli ərazilər haqqında öz qərarlarını verəcəklər.

– Hansı qərarı?

– Xəbərin yoxdurmu? Qarabağın və Naxçıvanın Ermənistana verilməsi haqqında qərarı. Bu Stalinin qərarıdı. Sabah bu qərar iclasda təsdiqlənəcəkdir. Stalin bu qərarın üzərində çox israrlıdır.

– Çox yaxşı olar, – Nərimanov içində baş qaldırmış fırtınanı sakitləşdirməyə çalışdı:” Düşmənlər mənim səhvimdən istifadə etdilər. Elə bu gecə Leninlə danışmalıyam. Nəyin bahasına olursa olsun Qarabağı Leninin ağlından, beynindən çıxarmalıyam. Naxçıvanın arxasında Atatürk və Kazım Qarabəkir paşa var. Onlar Naxçıvanı qoruyacaq. Yalnız Qarabağ... Mən yol vermərəm ki, Qarabağ erməni tapdağı altında qalsın. Bu gecə ya mən Qarabağı Azərbaycanın tərkibində saxladacam, ya da məsələni başqa cürə həll edəcəm.”

... Gecə yarıdan ötsə də Nərimanov evinə getməyə tələsmədi. Çox güman ki, Lenin də öz iş otağındaydı. Çoxəsirlik rus

imperiyasını yerindən laxladan Vladimir İliç indi dünya üçün təzə olan bir hokumət yaradırdı.

Vladimir İliç dəstəyi götürdü, Nərimanovun səsindəki sərtliyi, narahatlığı o anda hiss etdi:

– İşlər qaydasındadırmı, yoldaş Nərimanov?

– Xeyr, Vladimir İliç. Məsələ belədi: biz Zəngəzuru ermənilərə verdik. Lakin Qarabağ bu gün müzakirə mövzusu deyil. Bu qarabağlıları yeni hökumətə qarşı qaldıra bilər. Qarabağ Azərbaycanın toxunulmaz bir hissəsidir və belə də olacaq.

– Mənim Qarabağ haqqında başqa bir fikrim yoxdur, Nəriman. Bizim işimiz Ermənistan ərazilərini genişləndirmək deyil. Zəngəzurla hər şey bitdi.

– Təşəkkür edirəm, Vladimir İliç, – Nərimanov dərindən nəfəs aldı.

(1923-cü ilin iyulun 7-də Azərbaycan SSR Sovetlləri İcraiyyə Komitəsinin dekreti ilə Azərbaycanın tərkibində olmaqla Qarabağa muxtar vilayət statusu verildi. Paytaxtı isə Xankəndi oldu. Söz yox ki, Moskvanın razılığı ilə ).

***

Serqo Moskvadan xəbər gözləyirdi. Dəqiqələr, saatlar keçir, telefon susurdu. Axşama yaxın Mikoyan zəng elədi, o əsəbi və qanıqara idi:

– Qarabağ yerində qaldı. Vladimir İliç onun üstündən xətt çəkdi.

– Necə yəni? Stalin bu ərazini həll edəcəyinə söz vermişdi.

– Gecə kimsə Lenini fikrindən daşındırıb.

– Kim?

– Bilmirəm, bəlkə də Nərimanov. Amma o, məsələnin bu gün həll olunacağını hardan bilirdi? O gecə ikən Leninlə danışıb. Mən məğlub bir vəziyyətdəyəm və bunun acısını çəkirəm,

– Mikoyan hirslə dəstəyi yerinə çırpdı.

Serqo dərin bir peşimançılıq içində özü-özünü tənbeh etdi:

– Axmaq, Serqo. Səndən ömründə siyasətçi çıxmaz. Bircə gün gözləməyə təhamül edə bilmədin. Nərimanov sadəlövh deyil, o, sən düşündüyündən də ağıllı, zəkalı və güclü bir adamdı....O, Qarabağı qorudu... Tezliklə onu Azərbaycandan uzaqlaşdırmaq gərəkdi...

(Serqo və Stalin axır ki, Nərimanovu Azərbaycandan uzaqlaşdırdılar. Nərimanovu guya ki, yüksək vəzifəyə təyin edərək Rusiya MİK-nin sədrliyinə irəli çəkdilər. Azərbaycan isə sanki qalın və qaranlıq meşədə çaqqallarla baş-başa qaldı.

Serqonun Nərimanova nifrəti bununla soyumadı. Deyilənə görə Moskvada evinə qonaq çağıraraq zəhərlədi).

**3.**

... İkisi də külafirəngidə oturub Hacısamlının batan günəşini seyr edirdi. Günəş dağlara sarı çəkildikcə dağların qaranlıq, soyuq kölgəsi Hacısamlının başının üstünü alırdı. Səmada ağappaq buludlar axırdı. Günəşin batdığı yerdə ağ buludlar çəhrayı rəngə çalırdı və bu çəhrayı buludlar zəif alov kimi səmanın bir tərəfinə yayılırdı.

Dilruba xanım üşüdü, içəriyə adlayıb Sultan bəyin kürkünü gətirdi və çiyninə saldı, sonra da yanında oturub ona sığındı. Sultan bəy onu sinəsinə çəkdi, saçlarının çoxdan unutduğu ətrini duydu. Nişanlı olduğu vaxtlarda Sultan bəy bütün varlığıyla Dilrubaya can atırdı, onun sevgi yağan gözlərindən sanki ruhuna bir atəş, alov axırdı. O anda ikisi də elə bil sehirli bir nağıl içində olardı. Bu nağılın qəhrəmanı ağ atlı olmasa da boz atlı bir cəngavəriydi. Dilrubanın ürəyi o vaxt çılğın bir hisslə çırpınardı. Sultan bəy boz atın belində yamacların qaşında görünəndə qızlar gizli-gizli, oğrun-oğrun Sultan bəyin tamaşasına durardı-

lar. Sultan bəy isə heç kəsə məhəl qoymazdı. At belində şəhanə oturuşu, çox yaraşan çərkəzi libası, kəmərinə taxdığı gümüş qəbzəli qılıncı ona cəngavər görünüşü verərdi və duyduğu fərəh hissindən Dilrubanı göylərin yeddinci qatına qaldırardı...

Sultan bəy də gözlərini qıyıb fikrə getdi, çox uzaqlarda qalmış cavanlığının sevdalı günlərinə qayıtdı, ürəyinin möhkəm çırpıntısını hiss etdi və bu an o, da ötüb keçmiş illərin xiffətini elədi. İçindəki sehirli çırpıntı sanki möcüzə göstərərək gənclik duyğularını geri qaytardı və Sultan bəy həmin o səslə, o sevgi ilə pıçıldadı:

– Dilruba...

Səsindəki titrəyiş Dilrubanın ürəyinin içinə bir qığılcım kimi düşdü, Sultan bəydən ötrü yatmadığı, yol gözlədiyi, kəndlə üzbəüz yamaclarda atın üstündə şəhanə qaraltısını görən kimi titrədiyi və ondan ötəri dəli-divanə olan hisslərini təzələdi:

– Sultan... Kaş nişanlı vaxtlarımız olaydı.

– Kaş səni ilk gördüyüm, heyran olduğum, ürəyimin döyüntüsünə tab gətirmədiyim, səni görmək üçün dünyanın o başına belə getmək istədiyim vaxtlar olaydı, Dilruba.

– İndi mənim üçün dünyanın o başına getməzsənmi, Sultan? Yoxsa yaşlanmışam...

Bu zərif, nəvaziş dolu məzəmmət Sultan bəyin ürəyinə toxundu:

– Sən mənim üçün elə həmin Dilrubasan. Sən mənim cəfakeşim, qayğıkeşim, əzabkeşim... Mən sənin haqqını...

– O nə sözdü, Sultan? Haqq nədi? – Dilrubanın yenə fikri o illərə qayıtdı:

– Mən səni gördüyüm o axşam səhərədək heç yata bilmədim.

– Yəqin o qədər xoşuna gəlmişdim ki, həsrət çəkirdin elə həmin andan. Ya da şübhə içindəydin, – xoşuma gəlməyə bi-

lərdin...

– Tapammadın... Sənin evli olmağından qorxdum.

– Evli olmağımdan? Bu fikir sənin ağlına hardan gəldi, qız?

– Nə bilim, yaraşıqlı bəy oğlu idin. Bir baxışla qızların ağlını əlindən alırdın. Ola bilməzdi ki, bir istədiyin, könül verdiyin olmasın.

– Nə bilim, vallah...

– Axı sən mənə o axşam gözünün ucu ilə də baxmadın.

Sultan bəy başını tərpədib gülümsündü:

– Sənə elə gəldi, Dilruba. Sən çox gözəl idin. Səni görən kimi elə bil qəlbimin içinə bir atəş düşdü. Elə atəş ki, məni yandırıb yaxdı. Düzdü, bir bəy oğlu kimi cavanlıqda qızlardan xoşuma gələni çox idi. Adlı-sanlı bəylər Əlipaşa bəylə qohum olmaq istəyirdilər. Bunun üçün ürəkləri də gedirdi.

– Bilirəm. Tanıdığım bəy qızları var idi.

– Heç bilmədik ki, illər necə keçdi? Amma sən Sultan bəyi həmişə gözlədin, gözləməkdən yorulmadın. Dərya səbrin, dözümün heç tükənmədi, Dilruba.

– Çünki o mənim qəlbimin sultanıydı. Amma həm də mənim deyildi. Sən bu torpağın oğluydun. Sən Zəngəzura lazım idin. Əgər mən səni bu yoldan çəkindirmiş olsaydım, yanımda saxlasaydım, demək bu torpağa, bu millətə xəyanət etmiş olardım. Onları erməni ilə meydanda tək qoyardım....Mən də sənə çoxlu dualar eliyirdim, Sultan. Səhərə qədər dualarımla, Allaha yalvarışlarımla tək qalardım. Mənim də silahım sidq-ürəklə oxuduğum dualardı. Namaz üstə əllərimi Tanrıya açanda elə bilirdim ki, tilsimli dualarım o savaşlarda sizi qoruyur, anaların, minlərlə anaların dualarının içində mənim də dualarım düşmənin başına od ələyir.

– Andronikin ordusunu Zabıx dərsində məhv edəndə mən duaların gücünü hiss elədim, Dilruba. Elə bil möcüzə baş verirdi.

Sultan bəy köks ötürdü, sarıqlı sinəsini sığalladı və səsindəki pərişanlığı, kədəri biruzə vermədən dedi:

– O döyüşlərdə yaralanmadım. Amma dost bildiyim adam məni arxadan vurdu.

– Səndən xəbər çıxmayınca narahatlıqdan özümə yer tapa bilmədim. Bu işgəncə kimi bir narahatlıq, nigarançılıq idi. Sultan, axı Müseyib bəy mərd, qeyrətli bir adamdı, sən də bilirsən ki, o dost yolunda ölümə gedərdi. Kimin fitvasına uydu, kim yoldan çıxardı onu? Bəlkə qızıla, pula aldandı?

– Yox, Dilruba. O, var-dövləti başından aşan, gözütox, əliaçıq bir adamdı. Özü kasıblara əl tutur. Mən elə bil sirli bir qaranlığın içindəyəm... Amma ürəyimə damıb ki, mütləq burda erməni barmağı var.

– Bir dəfə də öldürmək istədilər. Əgər o gecə nökərlərin yanında yatmasaydın... Bəlkə bolşeviklərdi, Sultan?

– Ermənilər məni rahat buraxmayacaq. Üstəlik də bolşeviklər. Onların arasında köhnədən qalma daşnaklar var. Bu daşnaklar mənim də, Xosrovun da qanını içməyə hazırdı, buna da cəhd edirlər.

– Bəlkə Zəngəzurdan uzaqlaşasız, Sultan? Xosrov mənə qardaş kimidi. Onun fikrini çox çəkirəm. Ailəsi, oğul-uşağı yoxdu. Cumhuriyyət hökumətinin yolunda canını fəda elədi. Qarabağ onun sayəsində ermənilərin əlinə keçmədi. Elə Zəngəzur da... onu siz qardaşlar qorudunuz.

– Xosrov kimi adam bu dünyaya tək gəldi, tək də gedəcək. Onun ağlı, zəkası, siyasəti Qarabağla Zəngəzuru qorudu. Amma ailəsi olmadı... Heç kəsi istəyə bilmədi. Elə bil bütün sevgisini o urus qızına verdi. Oğlu kaş qalardı...

Sultan bəy Dilrubanı qəhr edəcək qərarı birdən-birə dilinə gətirdi:

– Bayaq dedin ki, ermənilər sizi rahat buraxmayacaq...

– Dedim, – Dilruba ürəyinə nə damdısa təşviş içində Sultan

bəyin gözlərinə baxdı. Bu gözlərdə o qədər ağrı, kədər, üzüntü, hüzn vardı ki, Dilruba ayrılığın soyuğunu aldı, onun boynunu qucaqladı, hönkürdü. Ayrılıq sanki alov kimi onun bütün vücudunu bürüdü, içini yandırdı. Amma Dilruba xanım Sultan bəy sıxılmasın deyə bu odun-alovun üstünə içindəki dumanı-çəni yağışa çevirib yağdırdı. Tez gözlərini quruladı, gümrah səslə soruşdu:

– Nə vaxt gedirsən, Sultan?

– Sübhə yaxın. Xosrov da, İsfəndiyar da gedir. Bizə görə İsfəndiyarı da öldürmək, qisas almaq istəyirlər.

– Bəs gedəcəyini niyə demirsən, Sultan?

– Ürəyini sıxmaq istəmədim, bu günə saxladım. Elə bilirəm ki, təzə qurulan bu sovet hokuməti axıra qədər duruş gətirməyəcək. Çar hokuməti kimi devriləcək. Cumhuriyyət hokuməti yenidən qayıdacaq. Sovet hokuməti ləğv olunan kimi Zəngəzur da Ermənistandan alınacaq. Xosrov  belə düşünür. Xosrov da buna əmindi, inanır. Ona görə sizi aparmıram... Əgər siz yanımda olsanız qürbətdə yaşamaq mənim üçün asan olar. Qürbətin soyuğu məni üşütməz. Amma biz qayıdacağıq... Siz ev-eşikdən muğayat olun. Elə bilirəm ki, bolşeviklər qadına, uşaqlara toxunmaz...

Sultan bəy danışırdı. Onun səsində bir qırıqlıq, titrəyiş vardı. Dilruba sanki bu səsi eşitmirdi. Gözləri indidən yol çəkirdi. Elə bil ürəyinə dolmuş qara buludların dumanı, çiskini gözlərinə yığışırdı və bu gözlərdən güclü leysan qoxusu gəlirdi...

– Dilruba...

–...

Sultan bəyin səsində Dilrubanın indiyədək hiss etmədiyi kövrəklik vardı. Hökümlü, zabitəli Sultan bəy bu ayrılıq havasında niyə belə dəyişdi, acizləşdi, çarəsiz olduğunu biruzə verdi? Və bu anlarda da çoxdan susan, görünməyən sevgi duyğula-

rını baxışı ilə ona çatdırdı. Sanki illərlə quraq keçən xam torpağın üstünə birdən-birə yağışlar yağdı və xam torpaq içində nəyi saxlayırdısa yağan yağışların hökmü ilə yamyaşıl ovcunu açıb göstərdi... Bu ayrılıq da eləcə... Ürəyinə-xam torpağa düşən kimi düşmüş, illərlə özünü göstərməmiş duyğularını üzə çıxardı...

Sultan bəy hələ sözünü qurtarmamışdı:

– Məndən sonra çox şeylər ola bilər. Bolşeviklər o biri bəylər kimi bizim də malımızı-mülkümüzü əlimizdən alar. Mənim onlara inamım, etibarım yoxdu. Sənin, uşaqların adına qızıl ayırmışam. Etibarlı yerdə gizlədərsən. Əgər ara qarışsa, özünü itirmə, yadında saxla ki, sən Sultan byin arvadısan, çıxış yolu tap. Kənddən çıxmalı olsan çıx. Təki özünə, uşaqlara zaval gəlməsin.

– Ən böyük sərvətimiz sənsən, Sultan. Əgər Zəngəzura qayıtmaq mümkün olmasa, özünü oda atıb qayıtma. Sənin sağ olmağın, bu dünyada yaşamağın bizə yetər.

– Uşaqlar sənə əmanət, sən də Allaha.

Sultan bəy ayağa qalxdı, qızıl düyünçələrini gətirməyə getdi.

***

Aysız-ulduzsuz qaranlıq göylərdə gümüşü buludlar üzürdü.

Sübh açılmaq bilmirdi. Dan yerində günəşin şafağı hələ görünmürdü. Çünki havadan yağış qoxusu gəlirdi.

Xosrov bəylə İsfəndiyar bəy ayaqlarını üzəngiyə qoyub çevikliklə atın belinə qalxdılar.

Xidmətçi Sultan bəyin atını gətirdi. Xosrov bəy dəyişilmiş səslə dedi:

– Laçında bizi avtomobil gözləyəcək. İran sərhəddinə qədər aparacaq.

– Səncə İran şahı bizə sığınacaq verəcəkmi, Xosrov? – İsfəndiyar bəy dumanlı bir şübhə ilə soruşdu.

– İran şahı sığınacaq verir. Amma...

– Nə amma, Xosrov?

– Təhlükəsizliyimizə təminat vermir. Çünki İranda qarışıqlıqdı. Daşnaklarla doludu.

– Onda nə olacaq, qardaş? – İsfəndiyar bəy içini çəkdi, gözləri böyümüş halda Xosrov bəyin üzünə baxdı.

– İran şahı ilə bir də danışmağa təşəbbüs edəcəm, əgər təhlükəsizliyimizə təminat verməsə Türkiyəyə adlarıq. Amma Atatürk bizi qoruyacaq.

– Atatürk Naxçıvanı da qorudu.

Sultan bəy Dilrubadan, uşaqlardan çətinliklə ayrıldı. Atın cilovundan tutub ayağını üzəngiyə qoymaq istədi. Amma kimsə elə bil çiyinlərindən tutub aşağı çəkdi. Ayrılığın acısı dağlardan da ağır gəldi. Hiss etdi ki, bu dağları, qoynunda at çapdığı kövşənləri, yaylaqları qoyub gedə bilmir. Dərd ürəyinə yükləndikcə yükləndi. Şax yerişli, şax qamətli Sultan bəyin sanki qəfildən dizləri qırıldı, beli büküldü. Anasından ayrılan körpə kimi bağrı çatladı, çevrilib uzaqlarda, çox uzaqlarda görünən duman yaylığına bürünmüş dağlara sarı baxdı, bu an sanki səsi gəldikcə, ünü yetdikcə o dağlara, yaylaqlara, bulaqlara, kar qayalara, yamacların sinəsində yol eyləyən cığırlara, bulanıq suları səssiz axan çaylara, sükutunda təhlükə gizlənmiş gədiklərə, çən örtmüş dolaylara baxıb hönkür-hönkür ağlamaq istədi. O, bu yurdun-Zəngəzurun bir parçasıydı və ondan asanlıqla qopub gedə bilmirdi. Bu anda içində ağlayan bayatı ilə Sultan bəy yerə, göyə, bütün bu yaranışa üsyan etdi və bu üsyankar səsi Sultan bəyin ancaq özü eşitdi:

Mən aşiq dolan gözüm,
Dol gözüm, dolan gözüm,
Gedərsən qayıtmazsan,
Vətəni dolan gözüm.

Hacısamlının dağı-daşı sanki bu bayatını eşitdi, bayatı kövşəndən-kövşənə adladı, göz-göz olan bulaqların səsinə, dəli çayların harayına qarışdı. Sultan bəyə elə gəldi ki, bu səsdən, bu ağlar bayatıdan dağlar kövrəldi, qara buludlardan başına qara kəlağay atdı... Və bu anda Sultan bəyin canından bir ruh ayrıldı. Gözünün qabağında bu ruh atın belində səssiz-səmirsiz ağ dumanın içində dağlara sarı getdi. Sultan bəy gedən atlının arxasınca baxdı, sanki ürəyinin içində qıpqırmızı günəş doğdu, ağır duyğulardan xilas olub yüngülləşdi: "Ruhum burda qaldı, qürbətə gedən cismimdi". Sonra üzünü göylərə tutdu: "Allahım, ruhum sənə əmanət. Allahım, ermənilərin bizdən oğurladığı Zəngəzur sənə əmanət..."

2018-2020-ci il.

# MÜNDƏRİCAT

Günümüzün gözəl yazarı Güllü xanım Məmmədovanın "Oğurlanmış Zəngəzur" romanına qısa şərh ............................ 6

BİRİNCİ FƏSİL
"Çaqqalların üsyanı" ............................................................... 21

İKİNCİ FƏSİL
Dağların sultanı Sultan bəy ...................................................... 63

ÜÇÜNCÜ FƏSİL
Qaragöldən başlanan zəfər....................................................... 101

DÖRDÜNCÜ FƏSİL
Lənətlənmiş quldurbaşı ........................................................... 161

BEŞİNCİ FƏSİL
Nuri paşanın əsgərləri Qarabağda............................................ 237

ALTINCI FƏSİL
Zabixda yazılan qəhrəmanlıq dastanı ....................................... 263

YEDDİNCİ FƏSİL
Qarabağ od içində.................................................................... 324

SƏKKİZİNCİ FƏSİL
Qələm düşmən əlində .............................................................. 452

Güllü Mehdi qızı Məmmədova

# OĞURLANMIŞ ZƏNGƏZUR

**Mətbəənin direktoru:** ***Elman Qasımov***
**Dizayner:** ***Mətanət Əliqızı***

Çapa imzalanmışdır: 07.04.2021. Formatı 60x90 1/16.
Həcmi 30,5 ç.v. Sifariş № 15. Tiraj 300

"Zərdabi Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (012) 493 51 92, (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru